


İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ


# CƏMİL ƏKBƏR

## ŞEİRLƏR

8. CİLD


İKSAD
Publishing House

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR



## *ŞEİRLƏR*

*VIII CİLD*

İKSAD
Publishing House

Copyright © 2023 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of brief guotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social
Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TÜRKİYE TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com
It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2023©
**ISBN: 978-625-367-261-4**
Cover Design: İbrahim KAYA
September / 2023
Ankara / Türkiye
Size = 16x24 cm

**ÖN SÖZÜN VƏ GİRİŞ MƏQALƏNİN MÜƏLLİFİ:**
***Hüquqşünas Əli İmamverdi, Prof.Dr. İlgar İmamverdi***
**ELMİ MƏSLƏHƏTÇİ:**
***Professor Maarifə Hacıyeva***
**Filologiya Elmləri Doktoru**
**TEXNİK-ELMİ REDAKTOR:**
***Firuzə - Bilgə, Tunaxan Şəntrk***
**RUS DİLİNİN ELMİ REDAKTORU:**
***Aludə Əkbərova, Elnura Həsənova***

Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlu ilə Əli İmamverdinin, pedaqoji sahədə uzun illər səmərəli xidmət etmiş, iqtisadcı alim, Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirdikləri ***VIII cild "Cəmil Əkbər şeirlər"*** adlı kitab 8 bölümdən ibarətdir. Şeirlərin, poemaların yer aldığı ilk bölümdə yarıməsirlik bir yaradıcılıq yolu keçmiş şair təbiətli şəxsiyyətin poetik irsinin bir qismi daxil edilmişdir. Ayrı - ayrı dönəmləri əhatə edən, müxtəlif mövzuları ehtiva edən kitabda varyantları ilə birlikdə 169 adda poetik nümunələr yer almışdır. Vətən, məhəbbət, eşq, insan amili, ictimai-siyasi, optimist xarakterli nümunələrlə yanaşı, bəzən də tənbeh, satirik hətta, qarğış, giley motivli, haqsızlığa üsyan, lirik-duyğusal, bədbin, pissimist ovqatlı müxtəlif mövzulu poetik incilər Cəmil Əkbərin həssas, kövrək, narahat qəlbinin, şairanə düşüncələrinin şeir dili ilə əks-sədası olub, mənəvi–ruhi dünyasının təcəssümüdür.

Cəmil Əkbərə ünvanlanmış 19 sayda şeirlər ikinci bölümdə yer alır. Üçüncü bölümdə Çəmil Əkbərin rus dilində yazdığı 8 ədəd şeirləri daxil edilmişdir. Müxtəlif illərdə Cəmil Əkbərə ünvanlanmış 25 sayda olan məktublar *(Bəhman Vətənoğlunun Cəmil Əkbərin "Yaşadar səni" adlı kitabına yazdığı ön söz də daxil olmaqla)* dördüncü bölümdə yer alır. Fərqli dönəmdə yerli qəzetlərdə yayınlanmış 31 ədəd şeirlər beşinci, ayrı-ayrı illərdə yayınlatdığı 6 ədəd elmi məqalələri isə altıncı bölümlərdə yer almışdır. Yeddinci bölümdə Cəmil Əkbərin dövlət nişanları, fəxri fərmanları, rəsmi sənədləri *(cəmi 19)*, səkkizinci bölümdə isə ülvi xatirələrin yadigarı olan şəkillər (161) təqdim edilən kitabda qərar almışdır. ***VIII cild "Cəmil Əkbər şeirlər"*** adlı son kitab filoloji elm sahəsində çalışan mütəxəssislər, ədəbyyatşünaslar və şeirsevən qiymətli oxucularımız üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

**Mündəricat** ............................................................................................iii
**Önsöz: Əli İmamverdi** *“Cəmil Əkbərin şeir kitabı”* .......................................11
**Giriş: Prof. Dr. İlqar Cəmiloğlu** *“Haqq-ədalət yolunun zəvvarı; Cəmil Əkbər”*...............................................................................26
**I bölüm: *Şeirlər, Poemalar*** ................................................... 62
1. Mənim şeir kitabım (1) .......................................................................62
2. Mənim şeir kitabım (2) .......................................................................68
3. Mənim sözüm-söhbətim ……………………………………………….69
4. Ustad Nizamiyə *I variant* ………………………………………………76
5. Ustad Nizamiyə *II variant* ……………………………………………..77
6. İftixarnamə ………………………………………..……………79
*Sən gələndə* ……………………………………………………………83
7. Şair (1) *I variant* ..................................................................................87
8. Şair (2) *II variant* .................................................................................90
9. Zəhmət çəkilməyəndə ……………………………..………92
10. Qələtdir ………………………………………..………………97
11. Deməsinlər ……………………………………………………..99
12. Halına? ..........................................................................................100
13. Yetim olub ....................................................................................102
14. İnsan və zaman .............................................................................104
15. Vay halına .....................................................................................107
16. Söz qılıncım ..................................................................................108
17. Quluyam mən! ..............................................................................109
18. Söyləmə! .......................................................................................110
19. İnam *I variant* ……………………………………………………111
20. İnam *II variant* ……………………………………………………114
21. İnam *III variant* …………………………………………………..115
22. Səadətə qovuşaq ............................................................................116
23. Sahibim (poema) *I bölüm* ............................................................. 122
*Belə sahiblik olmaz II bölüm*…………………………..………128
*Sahibsizlik üzündən III bölüm*…………………..………………133
*Çox sahiblər görmüşük IV bölüm* ………………..………………133
24. Görən niyə? ………………………………………………………141
25. Yaşayaydı .......................................................................................143
26. Saxlamısan ......................................................................................144
27. İnciyər səndən .................................................................................149
28. İtirmişik *I variant* ……………………………………………………152
29. İtirmişik *II variant* …………………………………………………..153
30. İtirmişik *III variant* ……………………………………………..…..155
31. Gendə yaşayır *I variant* ……………………………………...…….157

32.Gendə yaşayır *II variant* ……………………………………………………………159
33.Gendə yaşayır *III variant* ……………………………………………………………163
34.Rədd etməliyik ....................................................................................165
35.Baxın *(Şikayətnamə)* ...........................................................................167
36.Düz görənmədin ..................................................................................169
37.Bu necə güzəran, dövrü-zamandı?..........................................................173
38.Daim yada salınacaq .............................................................................176
39.Sezməzdim ............................................................................................177
40.Həm sənindir, həm də mənim………………………………………………..179
41.Səs ver! ..................................................................................................184
42.Nə deyim?...............................................................................................186
43.Dərs deyir ...............................................................................................187
44.Sənin nəvecinə?.......................................................................................189
45.Ondamı pis idi, indimi pisdir?..................................................................190
46.Deyirlər ...................................................................................................192
47.Dünyamızda ............................................................................................194
48.Lazımdöy ................................................................................................197
49.Döy..........................................................................................................199
50.Yerindədöy *I variant* ……………………………………………………………202
51.Yerindədöy *II variant* ……………………………………………………………204
52.Yerindədöy *III variant* ……………………………………………………………205
53.Yerindədöy *IV variant* ……………………………………………………………207
54.Bu qozbelləri (1) .......................................................................................209
55.Bu qozbelləri (2) .......................................................................................210
56.Sənindir *I variant* ……………………………………………………………213
57.Sənindir *II variant* ……………………………………………………………215
58.Səni yola salacaqlar ..................................................................................217
59.Səni düşünürəm .........................................................................................219
60.Sən də sus! *(Deyişmə)* ..............................................................................219
61.Sən ............................................................................................................221
62.Sən də, mən də ..........................................................................................223
63.Yaman qonşu, yaman günə qal səni! ……………………………………229
64. Olur ...........................................................................................................230
65. Məhəbbətim ...............................................................................................233
66.Sən yarandın namərd üçün dərd oğul…………………………………….235
67.Oğul olasan ................................................................................................236
68.Mən elə sanırdım .......................................................................................237
69.Bambaşqadır ...............................................................................................239
70.Məni yaman qorxudur ................................................................................241
71.Məni yaman incidir ....................................................................................242
72.Bir qadının ürək sözü .................................................................................244
73.Qocaldan məni ...........................................................................................251

74.Almamışam mən ........................................................................................254
75.Mən səndən istəyirəm! ...........................................................................256
76.Mən şeirimi yazanda ..............................................................................257
77.Sən mənim gözümdə ...............................................................................259
78.Mənim qəlbimi qırma..............................................................................261
79.Gəl mənimlə hesablaş! ............................................................................262
80.Mənim arzularım ....................................................................................263
81.Mənim xislətim .......................................................................................263
82.Ziddiyyət ..................................................................................................267
83.Kiriməz *I variant* ........................................................................................276
84.Tükənməz *II variant* ...................................................................................277
85.Olacaq *III variant* ........................................................................................279
86.Qalacaq! *IV variant* .....................................................................................284
87.Kim sevirsə, sevilirsə.................................................................................286
88.İtirmə gəl! ..................................................................................................290
89.Qeyrətə gəl!................................................................................................290
90.Hanı? ...........................................................................................................292
91.Gəlin peyvənd vuraq...................................................................................293
92.Qidalanmış ..................................................................................................296
93.Qoymayın ....................................................................................................298
94.Görən hara gedirik? (1) ..............................................................................300
95.Görən hara gedirik? (2) ..............................................................................305
96.Sirli kainat ...................................................................................................306
97.Məndən inciməsin .......................................................................................308
98.Arzularım (1) ...............................................................................................309
99.Arzularım (2) ...............................................................................................312
100. Baş əyir .....................................................................................................314
101. Baş əyirəm ................................................................................................315
102. Bilmir ........................................................................................................315
103. İnsan bir-birilə yol gedə bilmir .................................................................316
104. İnsan bir-birilə dil tapa bilmir....................................................................317
105. Çatmırki-çatmır?!.......................................................................................318
106. Hələ ölmək istəmirəm (1) ..........................................................................319
107. Hələ ölmək istəmirəm (2) ..........................................................................320
108. Nəcib arzu-istəklər (1) ...............................................................................324
109. Nəcib arzu-istəklər (2) ...............................................................................325
110. İnsantək dolan .............................................................................................326
111. İnsanları yaşadan, insanları öldürən ...........................................................328
112. Söz ...............................................................................................................330
113. Car çəkək *I variant* .......................................................................................332
114. Car çəkək *II variant* ......................................................................................348
115. Car çəkək *III variant* .....................................................................................354

116. Təkcə vicdan susmasın *I variant* ............................................................359
117. Təkcə vicdan susmasın *II variant* ..........................................................365
118. Təkcə vicdan susmasın *III variant* .........................................................369
119. Təkcə vicdan susmasın *IV variant* ..........................................................371
120. Tamahdan əl çək! .................................................................................375
121. Nəyaxşıki siz varsınız atalar?!..................................................................377
122. Yad əldədir ..........................................................................................380
123. Hünər göstər! .......................................................................................382
124. Uyma işrətə .........................................................................................384
125. Xoşbəxt o kəsdir ...................................................................................386
126. Hərkəsin öz qiyməti var………………………………………………387
127. Ay ana torpaq .......................................................................................388
128. Mənim Vətənim (1) ................................................................................392
129. Mənim Vətənim (2) ................................................................................394
130. Vətənə .................................................................................................396
131. Məndən soruşsaydılar *(Hikmətnamə) I variant*.......................................398
132. Məndən soruşsaydılar *(Hikmətnamə) II variant*......................................400
133. Söz var, söz də var (1) ...........................................................................402
134. Elə söz var (2) ......................................................................................408
135. Söz də vardır (3) ...................................................................................409
136. Dərk edək! *(Hikmətnamə)*.....................................................................410
137. Hərkəsdənin əməlləri .............................................................................413
138. Ölürəm (1) ..........................................................................................417
139. Ölürəm (2) ..........................................................................................419
140. Qoşa yaşasın ........................................................................................420
141. Həyatı sevər ol! *(İdraknamə)*..................................................................421
142. Həyatı sevər ol! *(İdraknamə) 5 hissəli poema*.........................................422
*I hissə* Həyatı sevər ol! ...........................................................................422
*II hissə* Nəzər sal dünyaya!......................................................................424
*III hissə* Elə qayğı göstər! .......................................................................428
*IV hissə* Bədxahlıq etmə! .........................................................................430
*V hissə* Hamıya borclusan! .......................................................................434
143. Son günə .............................................................................................439
144. Ona qara yaxmayın!...............................................................................441
145. Həyat imtahandır ..................................................................................445
146. Söz gövhəri .........................................................................................451
147. Qulaq as! ............................................................................................452
148. O zamandan bəridir ...............................................................................453
149. Dolanaq...............................................................................................453
150. Gəldi-getdi ..........................................................................................454
151. Keçdiyim həyat yolu ..............................................................................455
152. A şair ..................................................................................................456

153. Qalıb ....457
154. Deməki....457
155. Salar....458
156. Şəmşirim....458
157. Gəlmişəm....460
158. Bağışla məni....463
159. Yenə yaz!....466
160. Bax!....467
161. Gətirdim....468
162. Xoş gəlib....469
163. Bəyəndi....470
164. Unutmaz....472
165. Gördüm....473
166. Sən!....474
167. Olardı....475
168. Deyirlər....476
169. Tapmışam....477

**II bölüm: *Cəmil Əkbərə ünvanlanmış şeirlər*** ....478
170. **(1)** Ürəyin....478
171. **(2)** Ayrılıq (1)....478
172. **(3)** Ayrılıq (2)....479
173. **(4)** Nə onda yaxşıdır, nədəki indi....480
174. **(5)** Cəmil....481
175. **(6)** Bu dövranda....481
176. **(7)** Kasıblıqdan gileyim....482
177. **(8)** Gülməsin....483
178. **(9)** Cəmil (1)....484
179. **(10)** Cəmil (2)....485
180. **(11)** Gəlmişəm....486
181. **(12)** Dağları....487
182. **(13)** Bəşirəm....488
183. **(14)** Görürəm....489
184. **(15)** Sənin ....490
185. **(16)** Sənin ....490
186. **(17)** Sənin ....491
187. **(18)** Mən....492
188. **(19)** Yaşadar səni ....493

**III bölüm: *Çəmil Əkbərin rus dilində yazdığı şeirlər***
189. **(1)** Азербайджан-Украина ....494
190. **(2)** Тебя раньше я любил ....495
191. **(3)** Тебя! ....496

192. **(4)** Где совесть?..........................................................496
193. **(5)** Я человек..........................................................497
194. **(6)** Город герой ..........................................................497
195. (7) Тянет меня..........................................................498
196. **(8)** Отвечай ..........................................................499

**IV bölüm:** ***Cəmil Əkbərə ünvanlanmış məktublar*** ..........................500

197. **(1)** İlqar Cəmiloğlunun məktubu..........................................500
198. **(2)** Prof.Dr. Şəhrəddin Məmmədovun məktubu............................501
199. **(3)** Qaşdar Əliyevin I məktubu..........................................503
200. **(4)** Qaşdar Əliyevin II məktubu..........................................504
201. **(5)** Qaşdar Əliyevin III məktubu..........................................504
202. **(6)** Qaşdar Əliyevin IV məktubu..........................................506
203. **(7)** El şairi Əli Qurbanın məktubu və şeiri..............................506
204. **(8)** El şairi Əli Qurbanın, İlqar Cəmiloğlunun toy şənliyi münasibəti ilə atası Cəmil Əkbərə ünvanladığı təbrik şeiri ..........................509
205. **(9)** El şairi Kərəm Kürqıraqlının I məktubu ..............................510
206. **(10)** El şairi Kərəm Kürqıraqlının II məktubu ............................511
207. **(11)** El şairi Kərəm Kürqıraqlının III məktubu ............................512
208. **(12)** El şairi Kərəm Kürqıraqlının IV məktubu ............................513
209. **(13)** El şairi Kərəm Kürqıraqlının V məktubu ............................514
210. **(14)** El şairi Kərəm Kürqıraqlının VI məktubu ............................515
211. **(15)** El şairi Kərəm Kürqıraqlının VII məktubu ............................516
212. **(16)** El şairi Kərəm Kürqıraqlının VIII məktubu ..........................517
213. **(17)** El şairi Kərəm Kürqıraqlının IX məktubu ............................518
214. **(18)** El şairi Elmirli Salmanın məktubu və şeiri..........................519
215. **(19)** Əhmədağa Əbilovun məktubu..........................................520
216. **(20)** Adil Leriklinin məktubu ..........................................520
217. **(21)** Osman İsa oğlu Əliyevin I məktubu və şeiri ........................521
218. **(22)** Osman İsa oğlu Əliyevin II məktubu və şeiri ........................522
219. **(23)** Şəmkirli şair Nəbi Məmmədovun "Eylə" rədifli şeiri...............523
220. **(24)** Şəmsəddin Səlimovun yeni il təbrik məktubu ........................523
221. **(25)** Cəmil Əkbərin 1997-ci ildə nəşr olunmuş "Yaşadar səni" adlı kitabına şair Bəhmən Vətənoğlunun yazdığı "Şair kimi, alim, alim kimi şair" adlı giriş məqaləsi. ..........................524

**V bölüm:** ***Cəmil Əkbərin fərqli qəzetlərdə yayınlanmış şeirləri ...***......533

222. *(1)* "Heçnədi", "Qoruyun", "Qocaldım","Verərdim" ........................533
223. *(2)* "Yaşayanda da" ..........................................................534
224. *(3)* "Vicdan məslək susanda" ..............................................535
225. *(4)* "Bizim babalar" ..........................................................537
226. *(5)* "Çəkiləndədir"..........................................................538

227. *(6)* "Ay fəhlə qardaşım, kəndli qardaşım", "Başqadır" ………..………539
228. *(7)* "Səməd Vurğuna"………………………………………………540
229. *(8)* "Özbək dostlara"……………………………………..…………540
230. *(9)* "Aralanmayın" ……………………………………………..……541
231. *(10)* "Ana məhəbbəti, ata qayğısı"……………………………………541
232. *(11)* "Oğluma nəsihət"………………………………………………542
233. *(12)* "Həyat imtahandır"……………………………………………543
234. *(13)* "Deyim"……………………………………………………543
235. *(14)* "Göndərim"…………………………………………………544
236. *(15)* "Xatirə"…………………………………………………..…544
237. *(16)* "Müəllimlərim"…………………………………………..……545
238. *(17)* "Xoş gəlib"……………………………………………………545
239. *(18)* "Yola get", "Ana məhəbbəti, ata qayğısı"…………………………546
240. *(19)* "Baş əyirəm"………………………………………..…………547
241. *(20)* "Oyandı Nizami babam"…………………………………………548
242. *(21)* "Şərəf də, şöhrət də zəhmətdədir"…………………….…………549
243. *(22)* "Olurmuş"………………………………………………..………550
244. *(23)* "Əbədiyyət yolu"……………………………..…………………551
245. *(24)* "Vicdan, məslək susanda"……………………………….………557
246. *(25)* "Kimə inanım?"……………………………………..…………559
247. *(26)* "Gələn deyildim" …………………………………..……………561
248. *(27)* "Nədir məqsədiniz, nədir ağalar?!"…………………………………562
249. *(28)* "Ustad"……………………………………………………..……562
250. *(29)* "İnqilab nəfəsli şair"………………………………………..……563
251. *(30)* "Bu qanunda"……………………………………………………564
252. *(31)* "Kimi"*(Ərzurum, "Cizgi" jurnalı)*.....................................................565
253. Cəmil Əkbərin rektor Bala Ağayev haqda xatirəsi ................................566

**VI bölüm:** ***Cəmil Əkbərin bəzi elmi məqalələri*** ………………..……568
254. **(1)** «Məni yaman incidir» ……………………………………….. 568
255. **(2)** «Axtar tayını tap» ……………………………..……….. 572
256. **(3)** «Kolxozlarda hər baş mal-qaranı daha gəlirli etməli» …………….. 573
257. **(4)** «İnsan insanın dostu, yoldaşı və qardaşıdır» ……………..……... 576
258. **(5)** «K.Marks zəhmətkeşlərin böyük müəllimidir»………..…………579
259. **(6)** «Qadınlar kişilərinizi, övladlar atalarınızı qoruyun!»........................580

**VII bölüm:** ***Cəmil Əkbərin dövlət nişanları, fəxri fərmanları və rəsmi sənədləri*** ...................................................................583
**VIII bölüm:** ***Cəmil Əkbərə aid xatirə şəkilləri*** ....................................599

**Hüquqşünas Əli İlqaroğlu İmamverdi**.......................................................668
**Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev**...................................................669

# Ö N S Ö Z

## *“CƏMİL ƏKBƏRİN ŞEİR KİTABI”*

İnsan oğlu fani dünyaya xəlq olunduğu gündən bütün bədən üzvləri ilə birlikdə tamam-dəstgah halda görünür. Başı, gövdəsi, əl-qolu, ayaqları ilə birlikdə mənəvi dünyası, duyğuları, hissiyatları, ruhuyla birlikdə istedadı ilə də bu cahana qədəm qoyur. Dirçəlib pərvəriş tapdığı zaman qabiliyyətləri birər-birər ortaya çıxmağa başlayır. Böyüdüyü dönəmdə biri musiqiçi, biri müğənni, biri bəstəkar, biri pedaqoq, biri mühəndis, biri həkim, biri hakim, biri yazıçı, biri şair, biri ozanlarımızın yadigarı aşıq, bir digəri isə ulu muğamlarımızın ifaçıları; ya sazəndə ya da xanəndə olur. Digər qrup insanlar isə orijinal əl ixtiraları ilə Vətənində tanınmağa başlayır, ya rəssam olur, heykəltaraş, ya da memar. Söz sənətinin rəssamları, heykəltaraşları, memarları isə bizim nöqteyi-nəzərimizcə şair adlı, poetik misralara bələnmiş söz xəzinəmizi mənəvi dəyərlərlə bəzəyən, dünya hadisələrini obrazlı deyimlə özünəməxsus duyğusu ilə vəsf edib zənginləşdirən, poeziya dünyasında öz əsərləri ilə dərin anlamlı hikmətli sözlərini demiş, mübarək möhrünü vurmuş insanlarıdır ki, onlar şairlərdir. Ucaltdığı məbədlər, heykəllər isə Şeyx Nizaminin ruh dünyasını yansıdan “Sirlər xəzinəsi”, “Yeddi gözəl”, “Xosrov Şirin”, “Leyli və Məcnun”, Sədi Şirazinin “Gülüstan”, “Bustan” kimi samballı əsərlərlə yaşayaraq günümüzədək səyyah kimi yön alıb gələrək gələcək zamanlara doğru gəşt etməkdədirlər. Belə poetik söz memarları səfində İmamverdi oğlu Cəmil Əkbər də yer almaqdadır. Bu bəxtəvər insan 50 il sərasər yazdı yaratdı, ilhamı gəldikcə əlyazma halında kiçik övladı İlqara əmanətini etibar etdi ki, “odlar diyarı” adlı Azərbaycan xalqına ərmağan olsun. Vətən övladları oxuyub öyüd nəsihətlərdən faydalanaraq mənəvi qidasını ala bilsin.

Söz aləmində dəyərli fikirlər poetikcəsinə, obrazlı deyilirsə onu yaradan bu hikmətli kəlamların sahibi şair adlı nadidə şəxslər olur. Xalq tərəfindən qəbul olduqda isə hərkəsin, bu sözlərə dinşək kəsilənlərin; elin-obanın, millətin, xalqın, hətta dövlətin malı olur. Bu hikmətli kəlamların qüdrəti ilə xalqın ruhu cilalanır, paklaşır, mənəvi dünyasında kamilləşir, insani dəyərdə püxtələşərək insaniyyətin alilik dərgahına qədəm qoyur.

İnsan amili, insana dəyər, insana əsl insan kimi yanaşmaq, bu qəbildə yer alan mövzularındakı şeirlər ana xətt olaraq Cəmil Əkbər poeziyasının əsas mövsuzusudur. Təbii ki, insani münasibətlər, əxlaq, etik qaydalara, milli-mənəvi dəyərlərə, adətlərə hörmət, səmimiyyət, insani münasibətlər, məhəbbət adlı insani amillərlə yanaşı, insanı insan edən başlıca meyar zəhmət, xidmət, çalışmaq, yaratmaq, qurmaq, ixtira etməkdir.Yaratdığı əsərlərlə xalqına millətinə töhfə ərmağan etməklə oxucularının diqqətini ən ali mərama da çəkə bilməkdədir. Əslində Cəmil Əkbər yaradıcılığında zəhmət ən önəmli faktor kimi önümüzə çıxır. Çox saydakı şeirlərində ümumi fikirlər müşayiətində məhz zəhmətlə xarüqələr yarandığını duyuruq. Çünki insanı əsl insan kimi çəmiyyətimizdə təsdiq edən məhz zəhmət olduğunu həm elmi məqalələrində həm də bir çox şeirlərində hiss etmək mümkündür. 28 sentyabr 1996-cı ildə yazdığı ***"Zəhmət çəkilməyəndə"*** rədifli şeirində Cəmil Əkbər zəhmətsiz yaşamağın nə kimi fəsadlar yaratdığını incə məqamlarla, poetik dillə anlatmağa çalışır. Zəhmətin insan xilqətini şərəfləndirdiyini qeyd edən Cəmil Əkbər, dünyanın zəhmət üstə bərqərar olduğunu əminliklə vurğulamaqdadır. Qeyd etdiyimiz şeirində isə zəhmət çəkilmədiyi təqdirdə tarlaların əkilmədiyini, zəmilərin biçilmədiyini, min bir çeşit məhsulların, naz-nemətin yaranmadığını, nəticədə var-dövlətin gedərək azaldığını, qıtlığın yarana biləcəyini oxucusularının diqqətinə çatdırır. Cəmil Əkbər zəhmətin olmadığı təqdirdə şərəf - şöhrətin, hörmət-izzətin məcazi anlamda gözdən düşdüyünü də qeyd edir. Tənbəl, aciz, fərsiz olanları kimsələr sevməz deyən Cəmil Əkbər yeni-yeni kəndlərin, şəhərlərin, körpülərin, rəvan yolların salınmadığını, evlərin tikilmədiyini, çoxmərtəbəli binaların ucladıla bilmədiyini də zəhmətin çəkilməmməsi ilə izah edir. Bu baxımdan da Cəmil müəllim bəşər aləminə xidmətin təməlində mütləq zəhmətin olduğunu hər zaman əsaslandırmağa çalışır. Zəhmətsiz şəxsiyyətin cırlaşdığını, külli-aləmin, cəmiyyətin pozulduğunu da təəssüf hissiləri ilə diqqətimizə çatdırır. Müxtəlif əmək sahəsində zəfərin, qələbənin çalınmamasında, insan oğluna layiqli xidmətin göstərilməməsinin təməlində vicdanla, qeyrətlə zəhmətin çəkilməməsinin bais olduğunu həssas şair düşüncələrinin məhsulu kimi təqdim edir. Ünsiyyətin, ülfətin, məhəbbətin xislətində, mahiyyətində belə halal zəhmətin olduğunu nəzərimizə çatdıran Cəmil Əkbər insan övladının bu gerçək həqiqətləri anlamasa qəflətdə qalacağını da təəssüflə etiraf edir.

Bizlərə anlatmağa çalışır ki, zəhmət insanın yaraşığıdır. Bu baxımdan da insanı insan edən məhz zəhmət olduğunu beytlərin hər birində gizli mətləblərlə anlatmağa çalışır. Hətta zəhmət çəkilmədiyi təqdirdə yer üzündə müsibətlərin azalmayacağını, fəlakətlərin gedərək daha da artacağını, ədavətlərin kəsilməyəcəyini də bir beytində nəzərimizə çatdırır. Çünki insani dəyərlərin zəhmətdən yarandığını gənc nəsillərə izah etməyə çalışaraq peşəsi olan pedaqoji vəzifəsini yerinə yetirir Cəmil müəllim. Eyni zamanda nadanlıqların çoxalmasını cəhalətin, xəyanətlərin, qəbahətin, səfalətin gedərək artmasını, bu baxımdan da bəxtin, taleyin üzünün dönməsini də halal zəhmətin olmaması ilə əlaqələndirir Cəmil bəy. Bu baxımdan Cəmil Əkbər təqdim etdiyimiz şeirin bir məqamında zəhmət haqda poetik fikirlərini məcazi anlamda belə təsvir edir:

Zəmanənin ahəngi zəhmət üstə köklənir,
Bu kök üstə çalınır, bu kök üstə dillənir.
Qayğı ilə bəslənir, xidmət ilə səslənir,
Aşıb-daşır var-halı, bazarlara yönəlir.
Yer üzündə hərnəvar, bu hikmətlə yaranır,
Bu məramla əkilir, bu niyyətlə daranır.
Bu hünərlə, təpərlə, bu riqqətlə yaranır,
Bu nəzərlə bəslənir, bu diqqətlə yaranır.
Bacarıqla, fəhmlə, fərasətlə yaranır,
Yerbəyerdən boy atıb, üzə çıxır, daranır.
Bu qüdrətdən kənarda de hardadır güzəran?
Xoşa gəlməz dağ-aran zəhmət çəkilməyəndə.

Digər bir məqamda isə belə deyir Cəmil Əkbər:

Yer üzünün əşrəfi sayılsa da bu insan,
Alabilməz qiyməti, zəhmət çəkilməyəndə.

Cəmil Əkbər yaradıcılığına ümumi olaraq bir nəzər saldığımızda şikayət mövzusuna dair bir çox şeirlər ortaya çıxır. İctimai-siyasi, iqtisadi problemlərə dair yazılmış şeirlərlə bahəm həm də insanlıq adına ləkə vuran, insani münasibətlərə, milli adət və ənənələrimizə xələl gətirənlərdən, dövrü-zamandan şikayət kimi mövzular da ön sırada yer alır. Cəmil Əkbərin 22 mart 1992–ci ildə qələmə aldığı "***Bu necə güzəran, dövrü-zamandı?***" rədifli qoşması, həmən adından da anlaşılır ki, dövrandan, zamandan şikayət ruhunda yazılmışdır. İnsan

münasibətlərində xəyanət, nahaqdan bir-birinin qəlbinə toxunub şəstinə dəyməsi, ilqar-imana əks qüvvələrin, bu prizmada görünən xainlərin, xəbislərin çoxalaraq ədaləti, həqiqəti danmaları, halal zəhmət çəkməklə torpağa tər tökmədən harınlaşması və başqasının malını nemətini acgözcəsinə mənimsəməsi, tamahın və günah əməllərin gedərək çoxalması kimi neqatif hallar bu şeirin 14 bəndinin hər birində oxucusuna giley edilməklə şikayətini paylaşır.

Doğruluq kimsənin xoşuna gəlmir,
Qəlbinə yatmayır, döşünə gəlmir.
Beyninə işləmir, başına gəlmir,
Bu necə güzəran, dövrü-zamandı?

İlqara-imana kəclər çoxalıb,
İnadlar çoxalıb, öclər çoxalıb,
Xainlər, xəbislər, ləclər çoxalıb,
Bu necə güzəran, dövrü-zamandı?

Ədaləti, həqiqəti danırlar,
Gözgörəti ləyaqəti danırlar,
Məna dolu məziyyəti danırlar,
Bu necə güzəran, dövrü-zamandı?

Tərini tökmədən yeyən çoxdu-çox,
Zər-ziba qurşanıb, geyən çoxdu-çox,
Özünü haqq-nahaq öyən çoxdu-çox,
Bu necə güzəran, dövrü-zamandı?

Cəmil Əkbər yaradıcılığına nəzər saldıqda insan vücudundakı gözlə görünməz mikrob, gen mövzusunda da fərqli illərdə bir çox şeirlər yazdığını müşahidə edirik. Bu baxımdan 1978-ci ildə yazdığı ***"Özünü gözlə"***[1] rədifli orijinal fikirini ehtiva edən qoşmasında mikrob danəsinin ən böyük qüvvəyə, hətta ən qorxunc gücə malik olduğunu poetik misrada belə ifadəetmişdir.

[1]Cəmil Əkbərin "Özünü gözlə" rədifli qoşması, 525-ci qəzetin 25.03-2020-ci tarixindəki saytında da dərc olunub.

Günəş yanmağından qorxma dünyada,
Çnqı yanğısından özünü gözlə!
Əjdaha, begemont, nə fildən qorxma!
Mikrob danəsindən özünü gözlə!

Digər bir şeirində isə insan, heyvan, bitki hətta dünyadakı bütün canlılar aləmində yarandığı gündən genin yaşayaraq bütün bu varlıqların əslini, soyunu təmsil etdiyinə, bir növ genetika sahəsinin alimi kimi, və ya molekulyar bioloq elminin mütəxəssisi kimi poetik misralarla 3 sentyabr 1988-ci ildə yazdığı ***"Gendə yaşayır"*** rədifli şeirində oxucularına maraqlı olan incə mətləbləri anlatmağa çalışır Cəmil Əkbər.

Gör nələr var kiçik gendə?
İtib-batmır duman-çəndə.
Aranda-dağda yaşayır,
Çəməndə, bağda yaşayır,
Baharda, qışda yaşayır.
Fikirdə, huşda yaşayır,
İnsanda, quşda yaşayır,
Əməldə, işdə yaşayır.

Cəmil Əkbər daha sonra poetik fikirlərini şeir dili ilə belə izhar edir.

Dəymiş, sütül, kal nə varsa?
İnsan, heyvan, mal nə varsa?
Fitnə-fəsad, fel nə varsa?
Oxu, öyrən, bil nə varsa?
O hüceyrədə, gendədir.

Genşünas alim kimi bu şeiri ilə bəşəri xilqətin insanlıq müstəvisinə səsləməklə, genin təbiətinin öyrənilməsinə, görkəmdə kiçik, mahiyyətdə nəhəng xislətinin təyin olunmasına, hətta ona müsbət və ya mənfi rəy verilə bilməsi üçün oxucularını təşviq edir. Elə bu məramla da şeirində genlərin pozitiv və neqatif yönlərinə aydınlıq gətirməyə çalışır. Eyni zamanda insan amilinə qiymət verərkən mütləq genini dəyərləndirməyin vacibliyini və önəmini də diqqətimizə çatdırır Cəmil Əkbər. Əslində şeirin müəllifi genin insan xasiyyətinin, xislətinin açılmasında, gen amilinin meyyar olmasının əhəmiyyətini də ifadə edir.

Xidmət də onda bilinir,
Zəhmət də onda bilinir.
Hərkəsin genini bilək,
Geninə qiymət verək.

Cəmil Əkbərin 1996-cı il 14 sentyabrda yazdığı ***"Nə deyim?"*** adlı şeiri keçid dövrünün inikasıdır. Sosializmin süqutundan keçən 6 il ərzində Azərbaycanda olan xoşagəlməz hallar, ümumiyyətlə iqtisadi, ictimai-siyasi xaos, fikir baxımından müxtəlif görüş ayrılıqları, qarmaqarışıqlıq, özbaşınalıq, qarşıdurmalar, bu şeirin ruhunda, məna-məzmununda hiss olunmaqdadır. Cəmil Əkbər şair nigarançılığını ram edə bilmədiyi üçün çarəsiz qalıb dərdini öz ürəyində çəkərək şikayətini özü-özü ilə paylaşır. *"Dünən kim idik, indi kim olduq"* deyə fəqan edir. Qırıq simlər kimi inildəyib sızladığını dilə gətirir. Dünən qurub yaratmağımızdan ilham alırdıq, şövq məhəbbətlə, gələcəyə inamlı addımlamaq həvəsi ilə çalışırdıq yaradıb qururduq, ölkəmizin rifahı naminə. Bu gün isə nəyazıq ki, ağrı-acı, qəhər, dərd-qəm, iztirab çəkirik. Bütün bu əksiklikləri poetik dillə təqdim edəcəyimiz şeirində şikayət motifləri ilə xatırlayıb bu misralarla fikrini, narahat düşüncələrini oxucuları ilə bölüşərək, doğru həqiqətləri bir daha yada salıb olub-keçmiş gerçəklikləri açığa çıxarmağa çalışır. Bütün bu hadisələrə toxunaraq bir dönəmdə yaşadığı sakinlərə anlatmağa çalışır. Poeziyanın gücü ilə, nigarançılığını dilə gətirərək mükəmməl misralarla bir növ həyəcan təbili çalır Cəmil Əkbər.

Xoş keçirdi zəmanə, dövranımız, günümüz,
Yerə-göyə səs salıb, bürüyürdü ünümüz.
Dəyirmanda vurhavur üyünürdü dənimiz,
Qəlbimizdə yox idi, nisgilimiz, kinimiz.
Cıra peyvənd vuraraq, bağban bağa baxardı,
Bostanları becərib, dürlü tağa baxardı.
İnsanlardan-insana xətir-hörmət var idi,
Ünsiyyətdə, ülfətdə, insaf-mürvət var idi.
Könüllərin diyarı məhəbbət bəsləyərdi,
Sədaqət bəsləyərdi, səxavət bəsləyərdi.
Səmimilik var idi, mehri-ülfət var idi,
Səadətlər naminə şirin söhbət var idi.
Həmkar idik hamımız, sirdaş idik hamımız,
Əqidədə, məsləkdə yoldaş idik hamımız.
Hünərlərdə, zəfərdə əlbir idik hamımız,
Sözbir idik hamımız, dilbir idik hamımız.
Danışıqda, söhbətdə yalan-palan yox idi,
Vicdanını, məsləki alıb-satan yox idi.

Zamanın, dövranın, qurğunun dəyişməsi səbəbi ilə sarvanın çaşdığını, karvanın doğru səmtə gedə bilmədiyini qeyd edən Cəmil bəy, insanlar arasında ülfət-ünsiyyətin, inamın, etibarın azaldığını, əyrinin düzə, düzün isə əyriyə yozulduğunu söyləyir. Məcazi anlamla poetik misrada ifadə etdiyi şahrah, rəvan yolların tar-mar olması ilə əlaqədar çala-çuxurların, xəndəklərin əmələ gəldiyini, qəbahətlərin, kin-küdrətlərin, ədavətlərin, xəyanətlərin gedərək artması səbəbi ilə hər cür cinayətlərin, şikayətlərin çoxaldığını diqqətə çatdıraraq əhd-peymanın, ilqar-imanın qalmamasını son misralarla yekunlaşdıraraq çarəsiz qalmış bir Vətən şairi kimi bu sözlərlə tamamlayır:

İndi əsər qalmayıb, insanlardan-insana,
Söz də əsər etməyir, cahillərə, nadana,
Zəmanəni bu günə, qoyanlara nə deyim?
Dühaların gözünü oyanlara nə deyim?

Şikayət motifli şeirilərini təhlil etdiyimizdə Cəmil Əkbərin bu mövzuya müxtəlif mövqedən yanaşdığı aydın olur. Giley, qınaq ümumi anlamda olsa da ictimai-siyasi, əxlaqi, etik mənəvi baxımdan fərqli sahələrdə özünü göstərir. 15 aprel 1990 və 24 dekabr 1991-ci ildə yazdığı ***“Dərs deyir”*** rədifli şeiri ilə tanış olduqda bu poetik nümunədə “öz xeyrini, nəfini güdənlər”in, “gəlir-çıxarını” düşünən əxlaqsızların, tərbiyəsizlərin, həyasızların insanlıq aləminə “ədalət”, “həqiqət”, “cəmiyyət”, “ədəb-ərkan”, “mərifət”, “nəzakət”, “ülviyyət”, “qüdsiyyət”, “nəsihət”, “ünsiyyət”, “davranış”, “rəftar”, “xeyirxahlıq”, “nəciblik”, “məlahət”, “əxlaq” fənnindən dərs deməsini, eyni zamanda ləyaqətsiz, şərəfsiz, xəsis, simic adamların gəlib “səxavət”dən, “ləyaqət”dən dərs deməsini, əslində isə bu “insanlıq elmi”nin tədrisi üçün heç bir mənəvi səlahiyyətinin, səviyyəsinin çatmadığını oxucusu ilə bölüşərək, izah etməyə çalışır. Cəmil Əkbər öz münasibətini, düşüncələrini, fikirlərini anlaya bilənlərə xitabən üz tutub bu misralarla şikayətini dilə gətirir.

Öz xeyrini, öz nəfini güdənlər,
Bu bəşərdən, cəmiyyətdən dərs deyir.
Gəlir-çıxar, öz müfünü güdənlər,
Ədəb-ərkan, mərifətdən dərs deyir.

İnsanlıqdan nişanəsi olmayan,
Adi daxma, kaşanəsi olmayan,
Dostu-yarı, aşinası olmayan,
Davranışdan, nəzakətdən dərs deyir.

Cəmil Əkbərin şeirlərini təhlil etdiyimizdə qarğış motifli bir çox poetik incilərin də yer aldığını təsbit edirik. Bu mövzuda yazılanlar arasında şairin 2 oktyabr 1991-ci ildə yazdığı ***"Yaman qonşu, yaman günə qal səni!"*** rədifli şeirini misal göstərə bilərik. Bu şeirin əsas hədəfində xain, xəbis, mənfur xislətli insanlar qonşu qismində yer alır. Əsasən qonşuluq adına xələl gətirənlər bu şeirin hədəfinə tuş gəlib. Cəmil Əkbər əsl qonşuluq münasibətlərindəki kriterlərini misralarında vurğulamaqla, mənfur, naqis fikirlərdən, düşüncələrdən uzaq olmağa səsləyir.

Yaxşı qonşu qonşusuna darılmaz,
Xainlikdə, xəbislikdə saralmaz,
Əl-qoluna, ayağına sarılmaz,
Yaman qonşu, yaman günə qal səni!

Qonşu-qonşuluqda xəyanət etməz,
Oğruluq, əyrilik cinayət etməz,
Giley-güzar, qeybət, şikayət etməz,
Yaman qonşu, yaman günə qal səni!

Bütün şairlərin yaradıcılığında məhəbbət mövzulu şeirlər çoxluq təşkil etməkdədir. Hər bir şairin öz münasibəti, hissinin diktə etdiyi orijinal fikirlər var bu mövzudakı şeirlərdə. Əslində məhəbbət mövzulu şeirlər lirik şeirlər kimi də tanınır. Bəstəkarlar bu mövzudakı şeirlərə daha çox üstünlük verməklə zəngin melodiyalı musiqilər xalqımız üçün bəxş etmişlər. Təbii ki, bəstəkarlar da şairlər də bu dünyadan ayrılsalar da əslində bu nəğmələrlə müğənnilərin səsində, avazında, tembrində mənəvi bir ömür sürməkdədirlər. Cəmil Əkbərin ***"Sən mənim gözümdə"*** rədifli şeiri də lirik məzmuna malik məhəbbət mövzusunun timsalını əks etdirir. Ülvi duyğular bu şeirdə anonim tərəfin nümayəndəsinə qarşı yönəlmişdir. Hər misra əsilli, nəcabətli, iffətli, ismətli, əxlaqlı, Azərbaycan xanımlarına məxsus kibarlıq simvolu zənən xeylaqlarımızın timsalında ümumiləşdirilmiş əks-sədası kimi gözümüzün önündə canlanır.

Sən mənim gözümdə mələksən, nəsən?
Arzusan, xəyalsan, diləksən, nəsən?
Zərifsən, lətifsən, çiçəksən ay qız,
Lalədən, reyhandan qəşəngsən ay qız.
İncisən, həssassan, paksan təmizssən,
Doğmasan, yaxınsan, candan əzizsən.
Mən səni gördükcə gəlirəm vəcdə,
Qarşında təzimlə edirəm səcdə.

Cəmil Əkbər yaradıcılığında dünyaşöhrətli şairimiz Şeyx Nizamiyə xitabən yazdığı bir çox şeirlər də mövcuddur. Hər dəfə mübarək məqbərəsini ziyarət etdiyi zaman mənən ilham aldığını, "Xəmsə"sini oxuduğu zaman öyüd nəsihətlərlə dolu bir-birindən mənalı kəlamlar sayəsində bir şərəfli ömür yaşadığını, pedaqoji fəaliyyətində bu müdrik fikirlərə əməli işi ilə sadiq qaldığını görürük. Çünki hər bir insanın böyük şəxsiyyətlərin öyüd-nəsihətlərini dinləməyə hər zaman ehtiyac vardır. ***"Ustad Nizamiyə"*** və ***"İftixarnamə"*** adlı poeması məhz dünyəvi şairimiz Gəncəli Nizamiyə müraciətlə yazılmışdır. Ümumiyyətlə bu şeirlərində Azərbaycan xalqının ustadı, doğru məsləhət verən müdrik, dahi bir şəxsiyyət olduğunu poetik misralar örnəyində dilə gətirir. Etiraf edir ki, "Xəmsə" adlı əsərində bizə doğru sözlərlə yol göstərmisən. Həyatda səhv etməməyimiz üçün dərin kəlamlarla bizlərə müraciət edib, mənəvi övladlarını qədəmini səhv atmaqdan yayındırmısam. XI əsrdə dediyin müdrik fikirlər, dərin kəlama bələnmiş bəşəri düşüncələr yenə də öz qüvvəsində qalmaqdadır: - deyir Cəmil Əkbər.

Zəmanədə nə yaxşı, bəyan etdin sözünü,
Məchulları bildirib, əyan etdin sözünü.
Sinə gərib dözərək, əsrlərdən keçmisən,
Neçə-neçə qərinə, fəsillərdən keçmisən.
Harda olsaq, yaşasaq kara gəldi sözlərin,
Açılaraq qönçədən, bara gəldi sözlərin.
Məqamında ay ustad, gör bir nələr demisən?
Aşkar edib sirləri, gör nələr bildirmisən?
Yaddaşdan çıxmayırsan, elin nəzərindəsən,
Arazında, Küründə, mavi Xəzərindəsən.

Bu sözlərdə insanlara verilən mesajlar bu gün belə yenə də öz aktuallığını qorumaqdadır. Müəllif qeyd edir ki, sənin sözlərinin gücü ilə ilham almaqla nəfəs gəlir ciyərlərimizə, eşqimizə, məhəbbətimizə həm də cürətlənirik, qeyrətlənirik bu sözlərin dərinliyindən gələn mənanın böyüklüyündən. Cəmil Əkbər son beytdə səmimiyyətlə etiraf edir ki, *"Azərbaycan milləti üçün sən dahi bir ustad olmaqla həm də bu bəşər üçün bir ümüdsən, imdadsan, doğru yol göstərənsən"*.

1968-ci ildə ***"İftixarnamə"*** başlığı ilə yazılmış digər bir poema yenə də ustad Nizami Gəncəviyə həsr olunmuşdur. Əslində Nizami Gəncəvi poeziyası Cəmil Əkbər üçün pənah, bir mənəvi qibləgah, məcazi

anlamda ibadət kimi düşünülə bilir. Cəmil müəllim həyatı boyu Nizami yaradıcılığına sığınmaqla, “Xəmsə”dəki dərin məna yüklü kəlamları bir amal olaraq özünə rəhbər tutmuşdur. Bu şeirində Cəmil Əkbər xəyalən Nizami Gəncəvi üçün simvolik olaraq bir bayram məclisi düzənləyib çağdaş günümüzün gənclərilə görüşdürməyə tələsir. Bu məclisə gələrkən Azərbaycanın məşhur şairlərini, yazıçılarını da özü ilə bərabər gətirməsini təmənna edir. Gənclərin modern dünyamızda ustad kəlamı ilə qidalanmasına mənəvi ehtiyacının aşırı dərəcədə olduğunu səmimiyyəti ilə oxucusuna etiraf edən Cəmil Əkbər yazır:

Şeyx Nizami, dur ayağa, gəlib yoxla millətini,
Baba, göstər yardımını, əsirgəmə zəhmətini.
Oyanıb gəl nəvən görsün, nə kamallı babası var?
Nə dəyərli, nə tutarlı, nə samballı dədəsi var?
Sözlə sehirli aləmi, məna dolu dünyası var.
Hamı görsün, tanış olsun, sözün ulu babasıyla,
İdrakından işıq saçan, nur ələyən dühasıyla.

Özət halında yekunlaşdıraraq poemanın son misralarında fikrini, məramını bu kəlmələrlə açıqlayır:

Təzim edək ustadların dönə-dönə qarşısında,
Əhsən deyib fərəhlənək, nəvə kimi hüzurunda.
Ot kök üstə bitər isə, millətimiz çəksin kökə,
Nur ələsin bu cahana, mayaq olsun bizim ölkə.

Cəmil Əkbərin müxtəlif mövzularda yazdığı şeirlər içərisində xalq şairimiz Səməd Vurğuna xitabən (18. 11 – 1982; 14. 10 – 1986) yazdığı ***“Şair”*** rədifli şeiri xüsusilə diqqətimizi cəlb edir. Əslində bu şeirdəki fikirlərlə tanış olduğumuzda Cəmil Əkbər şair haqda olan münasibətini öz duyumu, öz təxəyyülü, fəhmi ilə xarakterizə etməyə çalışır.

Şair elin ürəyi, sərrast görən gözüdür,
Məhəbbətin töhfəsi, eşq əhlinin özüdür.
Sədaqətin ahəngi, ülviyyətin səsidir,
Zəmanənin bəşərə məramı, xoş sözüdür.
Hikmətli kəlamların memarıdır, canıdır.
Söz sənətinin şahı, sərkərdəsi, xanıdır,
Müdrik fikrin mədəni, gövhəridir kanıdır.

Şairlərin vətən sevgisi, vətənpərvərliyi, dünyanın qarmaşıq, qlobal problemlərindən qaynaqlanan narahatçılığı, xalqına sonsuz məhəbbətini,

insansevərliyini, əsl şairə məxsus dəyərləri bu şeirində poetik misralarla səmimiyyəti ilə ifadə etməyi qarşısına məqsəd qoyur. Bu kimi ortaq dəyərlərin əsl şairlərə məxsus olduğuna oxucusunu inandırır Cəmil Əkbər. Şairlərin yaradıcılığındakı xoşməram insanları doğru yola çəkərək bir mayaq kimi yolunu işıqlandırır. Kəlməsinin ədalət, cümləsinin həqiqət olduğu prinsipi, poetik misralarla bəzənmiş söz sahibinin şairliyinin cövhəri kimi səsləndirilir. Xalqın xeyir-şərinə qarışan şairlərin vicdan tərəzisinin sərrast çəkdiyini bildirir. Bu da əsl şairlərə mənsub önəmli məziyyət kimi dəyərləndirilməlidir. Cəmil Əkbər bu şeirində həqiqi şairin təkcə bir atanın ananın övladı deyil, həm də xalqının, bəşərin, bəşəriyyətin, bu cahanın bəndəsi kimi hesab etməsi ilə doğru qərar verir öz təsbitinin xülasəsində. Son beytdə fikrlərinə yekun vuraraq müəllif belə deyir:

Vəsf etməklə qurtarmaz, tükənməz xəzinədir,
Nəsillərdən-nəsilə, əbədi xatirədir.

Hər bir şair öz əsərlərində mənəvi dünyasını ülvi arzusu, diləyi ilə oxucularını onu yaxından tanımasına çalışır. Təbii ki, bu silsilədən olan poetik nümunələr səmimiliyi ilə daha çox fərqlənir. Cəmil Əkbərin bu qəbildən olan şeirləri arasında ***"Arzularım"*** adlı iki fərqli şeirini örnək göstərdiyimizdə məsum hissilərinin səmimiliyinə və xoş məramlı amalının munisliyinə heyran qalırsan.

## Arzularım (1)

Elə insan olub xətirlənəydim,
Nəsildən-nəsilə, əsrlərlə mən.
Qönçə gül olaydım ətirlənəydim,
İllərlə, aylarla, fəsillərlə mən.

Elə toxum olam, elə dən olam,
Ələnib-ələnib xəlbirlənəydim.
Düşsəm də torpağın dərin qatına,
Yenidən cücərib təzələnəydim.

Elə ata olam övladlarımla,
Əbədi sevinib fərəhlənəydim.
Baxanda onların əməllərinə,
Fəxr edib hərzaman ürəklənəydim.

Öz tale, öz bəxtim, öz qismətimlə,
Sevincimi yarı bölə biləydim.
Abırım, həyamla, öz ismətimlə,
Şərəflə yaşayayıb, ölə biləydim.

**Arzularım (2)**

Alınlar açıla, üzlər güləydi,
Dodaqlar sevinib, sözlər güləydi.

Həyatdan siləydim avamlıqları,
Cahillik törədən nadanlıqları.

Könüllər mülkündə ocaq yandıram,
Şüur dünyasını işıqlandıram.

Fikirim düz ola, sözüm kəsərli,
Böyük dahilərtək yetkin, əsərli.

Bir çox şairlərin torpaq mövzusunda yazdığı şeirlər də ədəbiyyat elmimizdə təzahür etməkdədir. İlk ağlımıza Qurbanoğlu Şəmşir Qocayevin *"Mənə sənsən ata, ay ana torpaq"* və Türk dünyasının tanınmış ozanı Aşıq Veysəl Şatıroğlunun dillərdə əzbər olan *"Mənim sadiq yarım qara torpaqdır"* misraları gəlir. Cəmil Əkbər də bu mövzuya bir şair baxışı ilə dəyər verərək öz təfəkkür süzgəcindən keçirməklə ***"Ay ana torpaq"*** adlı şeirini 1982-ci il 3 noyabr tarixində yazmışdır. Həssas şairanə fikirlər, duyğusal ülvi münasibət bu şeirdə öz uğurlu təcəssümünü tapmışdır. İnsan övladını hər cür qidalarla bəsləyən, bir ana kimi dəyərləndirildiyi üçün "ana torpaq" deyilməsi bir çox şairlər tərəfindən qəbul olunmuşdur. Torpağın qədimliyini, dünya sivilizasiyasının ən başında torpağın yer aldığına diqqət çəkir. Bununla yanaşı torpağın müqəddəsliyini, ülviliyini, gücünü, qüvvətini, bəşəri aləmin yaşam təməlində əsas fiqur, vazkeçilməz amil kimi yer aldığını qeyd edir Cəmil Əkbər. Hər cür naz-nemətlərin yetişdirdiyi bir məkan kimi insan oğlunu bu məkanın dəyərini, qədir-qiymətini bilməyə səsləməklə, məcazi anlamda dağların, dərələrin, çayların torpağın əsəri olduğunu qeyd edir Cəmil Əkbər. Ən sonunda ana torpağa borçlu olduğunu, bu borcunu çalışmalarla, xoşməramlı əməllərlə qaytarıb verə bilməyə, torpağımızı hətta müharibələrdən, hər cür ekoloji fəlakətdən,

faciələrdən qorumağa, ona ata, ana şəfqəti ilə sahib çıxmağa səsləyir bu şeirinin timsalında.

Borcluyuq biz sənə ay ana torpaq,
Bizi gətirmisən sən cana torpaq,
Həyat çeşməsisən insana torpaq.
Bu borcu canımla verməsəm olmaz,
Bu borcu qanımla verməsəm olmaz.
Nəqədər ülvisən, qüdrətlisən sən,
Müqəddəs alisən, şöhrətlisən sən.
Ən böyük töhfəsən cahana torpaq,
Bir daha qarışma al-qana torpaq.

Cəmil Əkbər ömrü boyu müdrik kəlamlarla yoğrulmuş qiymətli sözə dəyər verən şair təbiətli alim, söz sərrafı kimi onu yaxından tanıyanların, müəllim yoldaşlarının hafizəsində qalmışdır. Həyatı boyu hikmətli sözlərin təsiri ilə tələbələrinə dərs vermiş, sözün qüdrətinə bələnmiş neçə-neçə poetik inciləri ilə Azərbaycan poeziyasına zənginlik gətirmişdir. Bu baxımdan da ali səviyyəli söz Cəmil Əkbər üçün müqəddəs olduğu üçün qibləgahdı, ziyarətdi, pirdi, torpaqdı, ocaqdı, havadı, sudu, yerdi, göydü, asimandı, səmada parlayan günəşdi, nurdu. Cəmil Əkbər isə bu ocağın başına dolanan fədakar pərvanədir. Çünki sözün qüdrəti qarşısında müqəddəs kəlamlara səcdə etdi ömür boyu. 1970-ci illərdə yazdığı ***"Söz var, söz də var"*** rədifli şeiri isə sözə olan münasibətin poetik ifadəsi kimi dəyərləndirilməlidir. Bu şeirində sözün aliliyinə ehtiramla yanaşır, insanlığa yaraşmayan neqatif ruhlu sözləri isə insan xilqətinə layiq olmadığını bildirir. Bu şeirində sözlərin iki qütbdə qərar alması faktını oxucusuna anladır. Hər sözün hikmətinin, mənasının, məzmununun, məziyyətinin, sözün bir dünya dəyərində qiyməti olduğunu qeyd edir Cəmil Əkbər. Könülovudan, ruhoxşayan sözlərlə yanaşı nəyazıq ki, qəlbə dəyəni də olduğunu da deyir Cəmil Bəy. Sözlərin məna yüklü təsiredici sədasında sədaqətin, səxavətin, ədalətin, həqiqətin, ləyaqətin, məğrurluğun, insanlığın, etiqadın, inamın olduğunu da nəzərimizə çatdırır şairimiz. Ariflərin, sərrafların, dərrakəsi, nəfəsi olduğunu da etiraf edir söz ustadımız. İnsafı var, mürvəti var deyən Cəmil Əkbər, sözün insanlıq aləmi üçün qayğısının, yardımının, həm də faydasının oldunu söyləyir öz poetik düşüncəsi, fəhmi ilə. Bu qəbildən olan hikmətli kəlamlara bələnmiş mənalı sözün xislətində bədniyyət bədxahlıq, nəslik, xainlik, xəbislik heç yoxdur, deyir Cəmil bəy. Heç ola da bilməz deməklə təsbitini təsdiqləyir. Çünki ilahi məhəbbətdən

yarandığı üçün bu sözlərin kəramətində səadətin, müqəddəs ülvi arzuların müjdəsi olduğunu deyir:

Belə sözlər yadigardır əsrlərdən-əsrlərə,
Yol göstərir nə zamandır, nəsillərdən-nəsillərə.
Belə fikir, belə sözlər məhəbbətdən doğulmuşdur,
Səxavətdən, sədaqətdən, kəramətdən doğulmuşdur.
Bu sözlərin kəlməsində səadətin müjdəsi var,
Ən müqəddəs arzuların, xoş niyyətin nəfəsi var.

17.10–1987-ci il 17 oktaybr tarixində yazmış olduğu ***"Qoşa yaşasın"*** şeirində Cəmil Əkbər cəmiyyətimiz üçün aktual və həssas bir məsələyə poetik dillə aydınlıq gətirir. Bəzi şəxslərin vəzifədə olduğu zaman insanlığını itirməsini qələmə almışdır. Əsasən insan olanların vəzifəsinin olmadığını, vəzifəsi olanların da bəzi hallarda gedərək insanlığını itirməsinə diqqəti çəkir bu şeiri ilə. Əndazənin pozulması təbii ki, xoşagəlməz hadisələrə səbəb olur. Vəzifə taxdında olarkən adi insanlara xor baxması, əsl insanlara yaraşmayan bu kimi neqtif halların təzahür etməsini qeyd edir. Bu şeirində Cəmil Əkbər ortaq nöqtəyə sahib olması üçün oxucusunu səsləyir. Vəzifədə olarkən bir çox şəxslərin insanlığını itirməməsini təmənna edir. İnsanlığı olanların da əlində ixtiyar olmasını diləyir ki, xalqına, millətinə, elinə-obasına, bir sözlə cəmiyyətə təmənnasız, canı-könüldən xidmət edə bilsin.

İnsanlıqla vəzifə, gərək qoşa yaşasın,
Onlar verib əl-ələ, lap baş-başa yaşasın.
Harda olub yaşasa, gərək onlar bir olsun?!
Birgə yaşa dolaraq, həm nurani, pir olsun.
İnsanlıq olmayanda vəzifə gözdən düşər,
Gün-günorta olmamış, atından tezdən düşər.
Vəzifə olmayanda, insanlıq da büdrəyir,
Mənzil başa çatmamış, yarı yolda yük əyir.
Tək bir əldən səs çıxmır, ellər bunu deyibdir,
Qoy qulaqlar eşitsin, dil də bunu deyibdir.

Cəmil Əkbərin şeirləri bir zamanlar respublikanın müxtəlif qəzetlərində, hətta ***"El şairləri"*** adlı kitabda da yayınlanmışdır.

Cəmil Əkbərin mövzu dairəsi geniş, fikir dünyası isə cahana sığmazdır. Xalqın rifah halının yüksək olması, hüzur, əminamanlıq içində yaşaması, xoşbəxtlik kriteriyalarına daxildir. Çalışıb zəhmət çəkmək vətənə, xalqa, millətə şərəflə xidmət edərək bol məhsul istehsalını yaratmaq, müəllifin xoşməramlı arzularını, diləyini ifadə etməkdədir.

İctimai-sosial həyatda mövcud olan hər cür həqiqətləri oxucuların nəzərinə çatdırmaq, milli-mənəvi dəyərlərimizə sahib çıxılmasının önəmini aşılamaq baxımından Cəmil Əkbərin bir ömür həyatının mənası kimi diqqətəşayandır.

**VIII cild "Cəmil Əkbər şeirlər"** kitabını müəllifin 50 ildən artıq yaradıcılığını əks etdirən külliyatının son finalı adlandıra bilərik. Alim xislətli, şair təbiətli Azərbaycan ziyalılığının timsalı, pedaqoji elminin əsl təcəssümü kimi şərəfli bir həyat ömürü yaşamış Cəmil Əkbərin yaradıcılığının önəmli bir qismi, ana Vətənə, insanlığa, xalqına, millətinə, elinə-obasına sədaqətdən, səmimi pak münasibətdən, ülvi məhəbbətdən, saf duyğulardan yaranmışdır. Müəllifin bir çox sevilən şeirləri Azərbaycanımızın məşhur aşıqları tərəfindən bu gün də toy şənliklərində dinləyicilərin könlünü ram etməklə xalqın, millətin, hətta bir zamanlar auditoriyada dərs dediyi etibarlı tələbələrinin hüsn-rəğbətini qazanmışdır.

Qiymətli oxucularımıza təqdim olunan Cəmil Əkbərin 95 illik yubileyinə ərmağan etdiyimiz bu **VIII cild "Cəmil Əkbər şeirlər"** adlı son kitabında, müəllifin müxtəlif illərdə yazdığı gəraylılar, qoşmalar, lirik şeirlər, bir neçə qəzəl və fərqli mövzuda olan poemalar, hətta rus dilində yazdığı şeir nümunələri ilə yanaşı onu tanıyanların ünvanladıqları çoxsayda məktublar, elmi məqalələr, fəxri fərmanlar və ən nəhayət ötən illərin xatirələrini əks etdirən şəkillər də daxil edilmişdir.



**Hüquqşünas Əli İmamverdi**
15.09 – 2023 saat 15.00
Gaziantep

## G İ R İ Ş

## *"HAQQ-ƏDALƏT YOLUNUN ZƏVVARI; CƏMİL ƏKBƏR"*

Hər bir insan oğlunu özü üçün müəyyən etdiyi bir amalın, məcazi anlamda zəvvarı adlandıra bilərik. Hətta qarşısına qoyduğu məqsədinə yetmək naminə o səmt üzrə hərəkət edərək kəbə adlı müqəddəs məkana, qibləyə sarı gecə-gündüz demədən səbrlə, təmkinlə, aramla, rəvanla ömür karvanının müşayiəti ilə irəliləməkdədir. Cəmil İmamverdi oğlu Əkbəri də ədalət adlı ömür karvanını mənzilə doğru ehtiyatla, ehmalla yönləndirməyi bacarmış, məcazi anlamda sarvanbaşı adlandıra bilərik. Minbir sayda şeirlərini mütaliə edərkən bu fikrimizə tam əmin oluruq. Anlaşılır ki, Cəmil Əkbər adlı şair övladımız üçün insani dəyərlərin ən baş qismində haqq, ədalət qoşa gəlməkdədir. Şairimizin poeziyasının təhlil etdiyimizdə haqq-ədalət adında mübarək kəlmələrə mütəmadi olaraq rast gəlirik. Cəmil Əkbərin mənəvi dünyasına hakm kəsilən haqqı-ədaləti, fərqli mövzulardakı şeirlərində müşahidə etdiyimiz zaman, bu nümunələri dəyərli oxucularımızla da paylaşmaq qərarına gəlmə ehtiyacı duydum.

Cəmil Əkbər yaradıcılığında haqq, ədalət adlı amalına sadiq qaldığını bir çox əsərlərində təsbit edirik. Cəmil Əkbər, 1999-cu ildə yazdığı ***"Olaydım"*** rədifli şeirnin ilk bəndində həyat-yaşam məramını bildirən, haqq-ədalət adlı ömür yolunun yolçusu olduğunu bu poetik misra ilə bildirmişdir.

Bu qoca dünyadan təmənnam budur,
Öz adımın yadigarı olaydım.
Mənim yolum haqq-ədalət yoludur,
Səadətin bayraqdarı olaydım.

Haqqın-ədalətin vəfadarı olmasını, həmin qoşmanın üçüncü bəndində ifadə edən Cəmil Əkbər özünə münasib yol xəritəsini çəkərək haqq yolunu azmamaq, ülfət-ünsiyyəti pozmamaq, doğrunu-əyriyə yozmamaq kimi əxlaqi prinsiplərə sadiq qalmışdır. Ömrünü şərəf-şanla yaşaya bilmək arzusunu, diləyini bu bənddə dilə gətirir.

Yolumu-izimi azıb getməyəm,
Ülfət-ünsiyyəti pozub getməyəm,
Doğrunu-əyriyə yozub getməyəm,
Haqq-ədalət vəfadarı olaydım.

Zəngin mövzulu şeirləri ilə tanış olduğumuz zaman haqq-ədaləti hər zaman anmaqla insan oğlunu, səadət adlı məqama əsaslanan ahəng üstə kökləyib, nizamlayıb yetişdirmək, insani münasibətlərdə bu rəftarda həyata hazırlamaq istəyini, məhz bu ülvi meyarın timsalında hiss edirik.

***"Oğluyam"*** rədifli şeirinin bir misrasında Cəmil Əkbər ədalətin, həqiqətin oğlu olduğunu etiraf etməklə bu mənəvi dəyərə sonsuz məhəbbət bəslədiyini ortaya qoymuşdur:

Yalanla-yanlışla olmayıb aram,
Ədalətin, həqiqətin oğluyam.
Saxtalıq görəndə sızlayıb yaram,
Xoş məramın, xoş niyyətin oğluyam.

30 dekabr 1985-ci ildə yazdığı ***"Mənim vətənim"*** adlı digər şeirdə isə Cəmil Əkbər, ədalətə qarşı heyranlığını bildirərək, ədəb-ərkanın, mərifətin, ləyaqətin, həqiqətin övladı olduğunu bu beytlə etiraf edir.

Ədalətə aşiqəm, həqiqətin oğluyam,
Ədəb-ərkan, mərifət, ləyaqətin oğluyam.

Şair Cəmil Əkbər 5 oktyabr 1986-cı ildə yazdığı ***"Quluyam mən"*** rədifli poetik nümunəsində isə haqqın, ədalətin köləsi, nokəri, qulu olduğunu deyir. Təbii ki, bu mənəvi dəyərlərə qul olmaq şairin heyranlığından, pak məhəbbətindən irəli gəlir.

Nə lazımdır hiylə, kələk ya saxtalıq, yalan sözlər?
Doğruluğun, ədalətin, həqiqətin quluyam mən!

30 mart 1987-ci ildə yazdığı ***"Almışam"*** rədifli qoşmasının 4-cü bəndində Cəmil Əkbər ədalətdən, həqiqətdən dərs aldığını səmimiyyəti ilə etiraf edərək bir kimsəyə "fitnə-fəsad", "huşu çaşqın", "əqli kasad" deməməsi ilə xarakterini bildirir. Qeyd etməliyik ki, bütün bu insanlıq meyyarının mahiyyətinə varlığı, ruhu ilə inanan Cəmil Əkbərin mənəvi dünyası haqdan, ədalətdən ibarətdir. Bu aləmin də təmsilçisi olduğunu hər daim xoşməramlı əməli fəaliyyətində tətbiq edərək 72 iki il şərəfli yaşamağa, ömür-gün sürməyə haqq qazanaraq bir kimsənin qarşısında gözükölgəli qalmadı. Çünki bu bəxtəvər şairimizin böyük ustadı ulu Tanrı, məcazi anlamda ona dərs deyən iki pedaqoqun adı isə ədalət və həqiqət idi.

Heçkimsəyə fitnə-fəsad demərəm!
Huşu çaşqın, əqli-kasad demərəm!
Damağı çağ, könlü abad demərəm!
Mən dərsimi ədalətdən almışam!

Dil açdığı uşaqlıq dönəmində dinlədiyi ilk adi sözləri yamsılamaqla bir çox kəlmələri öyrəndiyini, ibtidai sinif illərində isə əlifba kitabında yazılan hərfləri, bir müddət keçdikdən sonra isə insanlarla təmas qurarkən arif, danəndə timsallı nurlu şəxslərdən eşitdiyi doğruluğu, dürüstlüyü, düzgünlüyü əxz etdiyini bildirir Cəmil Əkbər. Bu mənəvi

mövzuları daima öyrəndiyini 18-20 fevral 1987-ci ildə yazdığı ***"Mən həyatı oxudum"*** başlıqlı şeirində də müşahidə edirik. Hətta aldığı həyat dərsini də yaddaşına, həyatına, mənəvi dünyasına şamil etdiyini etiraf edir Cəmil Əkbər.

Öyrəndiyim ilk dəfə adi sözlər olubdur,
Adi yollar, cığırlar, adi izlər olubdur.
Xəyalımda canlanan, diləyimdən keçənlər,
Qatar-qatar düzülüb, ürəyimdən keçənlər.
Kitablara yazılan hərfləri öyrəndim,
Müdrikləri eşitdim, arifləri öyrəndim.
Əzəl gündən, binadan, ədaləti öyrəndim,
Doğruluğu, düzlüyü, həqiqəti öyrəndim.

Cəmil bəy fani dünyaya rəvan olduğu bir gündən, həyatı dərk edib qavrayandan, hətta fərqli kitablardan əldə etdiyi bir çox bilgilərdən sonra daima ədaləti, həqiqəti, insanlığı, ləyaqəti axatarıb-aradığını, eyni zamanda bu üç mənəvi dəyərin təbliğatcısı olduğunu 1999-cu il 6 aprel tarixində yazdığı ***"Aradım"*** rədifli qoşmasının ilk bəndində səmimiyyəti ilə etiraf edir.

Gözaçıb dünyaya gələndən bəri,
Ədaləti, həqiqəti aradım.
Oxuyub, öyrənib, biləndən bəri,
İnsanlığı, ləyaqəti aradım.

1998-ci il 4 iyun tarixində yazdığı ***"Carçısıyam mən"*** rədifli qoşmasının ilk bəndində isə ədalətin, həqiqətin təşviqatçısı kimi bu mənəvi dəyərləri, günümüzün təbiri ilə desək reklam etməklə əslində öz insaniyyətini, xarakterini də biruzə verir.

Oxuyub dinləyin naməmi mənim,
Ədalət, həqiqət carçısıyam mən!
Deməyin nəçisən, dinləyəm səni,
İnsanam, ləyaqət carçısıyam mən!

Cəmil Əkbər haqq-ədalət adlı insani dəyərin carçısı kimi bu barədə olan öyüd-nəsihətlərinin təbliğatının hələ yetərincə olmamasını da, 9 oktyabr 1995-ci ildə yazdığı ***"O qədər"*** rədifli qoşmasının ikinci bəndində etiraf edir.

Hələ az demişəm söz dünyasından,
Haqqın-ədalətin öz dünyasından,
İlham sobasının köz dünyasından,
Sənə öyüd-nəsihətim oqədər.

Cəmil Əkbər, 26 sentyabr 1999-cu ildə yazdığı ***"Bu qozbelləri"*** rədili qoşmasının 24-cü bəndində, haqq-ədalət kimi ülvi meyarların təşviqatını aparmağa nəqədər səy göstərsə də, bu cəhdinin boşa çıxdığını, *"Düzəldə bilmədim bu qozbelləri"* misrasında təəssüf hissləri ilə etiraf edir.

Nəqədər danışıb sözlər söylədim?
Haqqı-ədaləti bəyan eylədim?
İnsanlığı ha çağırdım, küylədim?
Düzəldə bilmədim bu qozbelləri.

1994-cü il 27 may tarixində yazdığı ***"Dərs alsın"*** rədifli şeirində isə ictimai-sosial mühitdə, cəmiyyətdə, həyatda insanların əmək fəaliyyətində və ya təhsil illərində tay-tuşlarından geri qalmaması üçün ədalət, həqiqət, insanlıq, ləyaqət adlı "mənəviyyat müəllimləri"ndən dərs almağın önəmini ilk bənddə ifadə etmişdir Cəmil Əkbər.

İnsan gərək kal qalmasın həyatda,
Ədalətdən, həqiqətdən dərs alsın.
Taydan-tuşdan dal qalmasın həyatda,
İnsanlıqdan, ləyaqətdən dərs alsın.

Eyni fikri bu dəfə Cəmil Əkbər cəm halında; *"Ədalətdən, həqiqətdən dərs alaq"* deyir. 8 sentyabr 1988-ci ildə yazdığı ***"Dərs alaq"*** rədifli şeirinin ikinci bəndi ilə tanış olduğumuz zaman özü də daxil olmaqla əslində hərkəsə öyüd-nəsihətini bu metodla verərək poetik misralardakı fikirlərini sıralamışdır.

Fitnə-fəsad yalanlara uymayaq!
Hər zurnanı çalanlara uymayaq!
Onu-bunu ağlar günə qoymayaq!
Ədalətdən, həqiqətdən dərs alaq!

Cəmil Əkbər məcazi anlamda ədalət, haqq adlı pedaqoqların tövsiyyələrinə sayqı göstərərək, elin gözündən düşməyəcəyini, böyük xalqının müdrik sözündən çıxmayaraq, ustadlarının getdiyi doğru yolla, irəliləyəcəyini 22 iyun 1981-ci ildə yazdığı ***"Gəlmişəm"*** rədifli qoşmasının möhürbəndində nəzərimizə çatdırır.

Cəmiləm düşmərəm elin gözündən,
Çıxmaram ədalət, haqqın izindən,
Böyük xalqımızın müdrik sözündən,
Xidmət üçün bu minnətə gəlmişəm.

Bütün bunlarla yanaşı Cəmil Əkbər 4 dekabr 1997-ci ildə yazdığı ***"Öyrəndim mən"*** rədifli gəraylısının ilk bəndində *"hara getdimsə, harda*

*oldumsa, dar gündə, şen gündə də yalnız ədaləti, həqiqəti öyrəndim"*deyə etiraf edir. Əslində bu səmimi etiraf, Cəmil müəllimin ülvi insani dəyərlərə olan mənəvi ehtiyacının təzahürü kimi misralara yansımışdır.

Hara getdim, harda oldum?
Ədaləti öyrəndim mən!
Çətinlikdə, darda oldum,
Həqiqəti öyrəndim mən!

Cəmil müəllim ***"Dad-hazar"*** rədifli qoşmasında insanlara tövsiyə edir ki, "*insani dəyərlərlə qəlbi çırpınan, ədaləti, həqiqəti, ləyaqəti sevən kəslərlə ünsiyyət qurub, onlardan qorxub çəkinməsinlər"*. Əksinə, qəlbi mamırlamış, ürəyi çamırlı, kinli olanlardan uzaq durmasını tövsiyə edərək, ehtiyatlı olmamızı 3-cü bənddə diqqətimizə çatdırır.

Həqiqəti sevənlərdən çəkinmə!
Ədaləti sevənlərdən çəkinmə!
Ləyaqəti sevənlərdən çəkinmə!
Qəlbi kinli olanlardan dad-hazar.

Cəmil Bəyin inancının yalnız ədalət, haqq, qanun-qayda olduğunu, ***"İnandım"*** rədifində yazdığı qoşmasının ilk bəndində də görürük.

Seyr etdim dünyanı əzəldən bəri,
Qanun-qayda, ədalətə inandım!
Kimin yoxsa bu işlərdən xəbəri,
O çəkdiyi xəcalətə inandım!

Cəmil Əkbər öz şəxsində doğruluq, düzgünlük, həqiqət, ədalət adlı bu ülvi amalları yaşatmış, çevrəsindəki tərəfmüqabillərini də məhz bu meyarlarla yaşayaraq, şərəf-şanla ömür sürməyi tövsiyyə etmişdir. Bu xoşməramın daşıyıcısı və yaşadıcısı olduğunu Cəmil Əkbər ***"Mənim xislətim"*** adlı şeirinin iki misrasında etiraf etmişdir.

Dünyada amalım ədalət olub,
Doğruluq, düzgünlük, həqiqət olub.

Bu baxımdan şair nəinki özünə hətta hərbirkəsə ədalətli, insaflı, mürvətli, səxavətli olmağı da arzu edər. Çünki geniş qəlb sahibi idi şair. Cəmil Əkbər 1968-ci ildə yazdığı ***"Həyatı sevər ol"*** adlı poemasının 3-cü bölümündə *("Elə qayğı göstər")* bu məramını dünyagörmüş ustad kimi bir beytlə elan etmişdir:

Hərkim olursansa, ədalətli ol!
İnsaflı, mürvətli, səxavətli ol!

Hələ gənclik illərindən haqq-ədalət adlı insanlıq meyyarını özünün amalı olaraq qəbul etmiş şair-alimimiz, öz şəxsi rəftarında, davranışında

bu mənəviyyat dəyərlərini əməli işi ilə göstərməklə, pedaqoji kollektiv tərəfindən "Ədalət Cəmil" ayamasında fəxri titulunu almağa haqq qazanmışdır. Bu mənəvi dəyərləri, öz həyatının, düşüncəsinin meyyarı sanan Cəmil Əkbər, Kürdoğluna yazdığı qoşmasının 2-ci bəndində ülvi mərama olan sadiqliyini ifadə etmişdir.

Eşit məni, bu dünyanın mənası,
Həqiqətdi, həqiqətdi, həqiqət!
Ünsiyyətin, hər ülfətin əsası,
Ədalətdi, ədalətdi, ədalət!

Dünyabaxışı, məfkurəsi, fikri-zikri, xəyalı, haqq-ədalət olan Cəmil Əkbər bu ülvi dəyərlər qarşısında hər zaman sidq-ürəklə səcdə etmişdir. Bu xoş məramlara; ədalətə sitayişi ilə də həqiqətin aşiqi, məftunu, vurğunu olduğunu 6 oktyabr 1986-cı və 19 yanvar 1984-cü ildə yazdığı ***"Aşiqiyəm"*** rədifli şeirindəki beytlə müşahidə edirik.

Kimə lazım hiylə, kələk, saxtalıqlar, yalan sözlər?
Ədalətə təzim etdim, həqiqətin aşiqiyəm.

Cəmil Əkbər keçən əsrin 60-cı illərində yazdığı bir şeirinin ilk bəndində vurğunu olduğu ədalət, həqiqət qarşısında hörmət-ehtiramla təzim etməsini ifadə etmişdir. 7 noyabr 1967-ci ildə "Kadr uğrunda", qəzetinin 21-ci nömrəsinin ilk səhifəsində yayınlanmış ***"Baş əyirəm"*** rədifli gəraylısına nəzər saldığımızda şairimizin bu mənəvi dəyərlərə səcdə etməsi öz təsdiqini tapır.

Yaşa doldum mən bu yerdə,
Ədalətə baş əyirəm!
Son qoyulub qəmə, dərdə,
Həqiqətə baş əyirəm!

Cəmil Əkbər, 4 mart 1994-cü ildə yazdığı ***"Varım halım"*** rədifli gəraylısının 7-ci bəndində ədalət, həqiqət qarşısında sayqı ilə təzim etməsinin əsl səbəbini açıqlayaraq, onun həyatının xilaskarı, nicatı, nüsrəti olduğunu obrazlı şəkildə ifadə etmişdir.

Baş əyirəm ədalətə,
Doğruluğa, həqiqətə,
İnsanlığa, ləyaqətə,
Nicatımdır, nüsrətimdir.

Cəmil Əkbər, 11 iyun 1985-ci ildə yazdığı ***"Baş əyirəm"*** başlığındakı digər şeirində bir çox ülvi dəyərlərə *(doğruluq, düzgünlük, ədalət, haqq-yolu, həqiqət və s.)* hörmət-ehtiram əlaməti kimi təzim etdiyini bu beytlə bəyan edir.

Doğruluğa, düzgünlüyə, ədalətə baş əyirəm,
Ömürboyu haqq yoluna, həqiqətə baş əyirəm.

Cəmil Əkbər, 29 avqust 1990-cı ildə yazdığı ***"Ürəyim"*** rədifli qoşmasının möhürbəndində qəlbinin, ruhunun haqqa-ədalətə bağlı olmasıyla, bu iki mənəvi dəyərlərə hər zaman, hər an həvəs göstərdiyini səmimiyyəti ilə ifadə edir.

Sən Cəmil Əkbərin sinəsindəsən,
Bahar təbiətli nəfəsindəsən,
Haqqın, ədalətin həvəsindəsən,
Ay mənim arayıb, anan ürəyim.

Cəmil Əkbərin, 25 aprel 1995-ci ildə yazdığı ***"Ürəyimdə"*** rədifli gəraylısının 5-ci bəndində isə oxucusuna anlatmağa çalışır ki, *"əgər ədaləti, həqiqəti, saf arzunu, pak niyyəti, ünsiyyəti, ülviyyəti, qüdsiyyəti və bu kimi mənəvi dəyərləri görmək istəyirsənsə onlar könül adlı məkanımda məskunlaşıb"* deyərək onu yaxından tanımaq istəyənlərə poetik misralardakı məna ilə yerini-yurdunu nişan verir.

Ədaləti, həqiqəti,
Saf arzunu, pak niyyəti,
Ünsiyyəti, ülviyyəti,
Axtar mənim ürəyimdə.

Cəmil Əkbər 25-30 noyabr 1988 –ci ildə yazdığı ***"Nədir?"*** rədifli qoşmasının 19-cu bəndində səmimi bir dillə etiraf edir ki, mənim qəlbim ədalətə, həqiqətə, doğruluğa, nəcibliyə, ülviliyə, şərafətə can atdığı halda, tərəfmüqbilinə üz tutub *"sənin qəlbində yer alan nədir?"*- deyə sual verib cavab almağa, həmin şəxsin xasiyyətini, kimliyini təsbit, bir sözlə mənəvi dünyasını isə kəşf etməyə çalışır.

Mənin qəlbim ədalətə can atır,
Doğruluğa, həqiqətə can atır,
Nəcibliyə, şərafətə can atır,
Sənin qəlbindəki əsarət nədir?

5 aprel 1999-cu ildə yazdığı ***"Bilmirəm"*** rədifli qoşmasında Cəmil Əkbər, qəlbində yer alan əsl insaniyyətlik nişanı olan beş mənəviyyat ünsürünün ismini sadalayaraq *(ədalət, doğruluq, düzgünlük, həqiqət, ləyaqət)* 6-cı bənddə onların adını anmaqla, oxucularının qəlbində məskunlaşan dəyərləri öyrənmək məqsədi ilə bir daha sual verib cavab almağa səy göstərir.

Mənim qəlbimdəki ədalətdi bil!
Doğruluq, düzgünlük, həqiqətdi bil!

İnsanlıq naminə ləyaqətdi bil!
Sənin qəlbin necədirsə bilmirəm?!

***"Bilmirəm"*** rədifli ikinci variant şeirin ilk bəndində isə müəllif, tərəfmüqabilinə yenə sual verərək *"mənim meylim həqiqətə, ədalətə üz tutduğu halda, sənin meylin hara olduğunu bilmirəm"* deməklə mənəvi aləmini, xarakterini öyrənməyə cəhd edir.

Mənim meylim ədalətə üz tutub,
Sənin meylin haradırsa bilmirəm?!
Mənim meylim həqiqətə üz tutub,
Sənin meylin haradırsa bilmirəm?!

Yeniyetməlik çağından ədalət, həqiqət, ləyaqət, insanlıq adlı bu ülvi dəyərləri məcazi anlamda "amal bayrağı"na çevirməsi, Cəmil Əkbərin həssas qəlb sahibi, alicənab-əfəndi bir insan olduğunu ispatlamaqdadır. 1996-cı il 13 yanvar tarixində yazdığı ***"Biriyəm"*** rədifli qoşmasının 10-cu bəndində bu xoşməram poetik misraların təfsirində özünü göstərir.

Əzəl gündən ədalətdi amalım,
Doğruluqdu, həqiqətdi amalım,
İnsanlıqdı, ləyaqətdi amalım,
Fikirlərin əjdahası, şiriyəm.

Cəmil Əbər bir alim-şair fitrətni özündə ehtiva edən şəxsiyyət kimi xalqın çevrəsində, pedaqoji kollektivdə qohum-əqrəbalar, dost-tanışlar arasında hörmət-izzət qazanmış, məramı ülvi, təbiəti pak, fikirləri aydın, doğru-dürüst, təvazökar, sadə təbiətli insan olmaqla yanaşı dünyabaxışı, amalı bəşəri idi. Yüzlərlə şerlərində bu məfkurəsinin izlərini poetik misralarda cəryan edən xoşniyyətli poetik fikirlərində seyr edə bilirik. Mübarək insan olması da buradan qaynaqlanır. Çünki anası Həcər xanım Cəmil Əkbəri millət, xalq, el-obanın təsibini çəkə bilən, şairlik dünyasında insanlıq meyyarı təməlində cahana şəfəq saçan günəş timsalındakı şəxsiyyət olması üçün bəxş etmişdi cəmiyyətimizə, daha doğrusu ana Vətənimiz, odlar diyarımız Azərbaycanımıza. Hörmət ehtiram gətirdi müdrikanə kəlama bələnmş dəyərli sözləriylə. Hər zaman nur ələnirdi məna yüklü söhbətlərində, iffət yağırdı hər kəlməsində, məhəbbət əta olunurdu hər cümləsində. Bu məhəbbətin adı xalq-millət məhəbbəti, ali insan məhəbbəti, el-oba məhəbbəti adlanırdı. Bu xoşməramla da həvəslə, istəklə doğulmuşdu. Bu həvəsin adı eşq idi. Eşqlə yaşadı, yaratdı ömür-gün sürüb yazdığı minlərcə şeirləri ilə. Beləcə dərin anlamlı fikirləri və qibtəediləsi ömrü ilə şərəflə yaşamağa nail oldu

bu mayası əsilzadədən yoğrulmuş bəxtəvər insan. Allahını tanıdığı üçün heç bir nahaqq işə imza atmadı. Ədaləti ömrünə həkk etdiyi üçün ədalətsiz bir an da olsun özünü hiss etmədi. Haqq-ədalət Cəmil Əkbərin ruhu, canı, damarından süzülüb axan qanı, çırpınan ürəyi olmaqla, amalı xoşməramlı idi. Məhz bu insani dəyərlər mənəvi qida kimi bəsləyərək onu yaşatdı hər il hər gün, hər ay, hər an, sərasər. Səbəbi də bu idi ki, qəlbinə ruhuna, bütün varlığına sirayət etmişdi haqq-ədalət. Bu baxımdan Cəmil Əkbərin adının mənasının gizli məqamlarında, sirli qatlarında haqq-ədalət qoşa dayanırdı. Bu cüt qanadı ilə də bir qartal kimi uğurla şığıya bilirdi poetik fikirlə zəngin söz asimanının intəhasız ənginliklərində. Qısacası haqqı-ədaləti əlindən, ülvi məramından ayırsan Cəmil Əkbər heçdir, puçdur, yoxdur. Bir digər şeirində insanlığın əsl dəyərini bildirən *"haqdan, ədalətdən necə ayrılmaq olar?"*- deyə sual verməklə hətta bir qədər oxucusunu düşündürür də. *"Bir könül ki, haqqa-ədalətə aşiqdisə ondan necə ayrılım*?*"* deyə Cəmil Əkbər özünə sual verir məsum etirafıyla. ***"Necə ayrılım?"*** rədifli qoşmasının möhürbəndinə nəzər saldığımızda bu fikirlər açıq-aydın görünür.

Cəmiləm, sevmirəm saxta sözləri,
Saxta baxışları, saxta gözləri,
Saxta astarları, saxta üzləri,
Haqdan, ədalətdən necə ayrılım?

Onun cismani varlığını var edən də məhz bu iki kəlmədə haqq-ədalət adı ilə cəm olmuşdu. Varı-dövləti məhz haqq-ədalət idi bu əsilzadə insanın. Bu iki şərəfli ad onun görən iki gözü, duyan iki qulağı, yeriyən iki ayağının taqəti, tabı-təvanı, iki əlndəki gücü-qüvvəti, alıb verdiyi nəfəsi, canı-ciyəri, geni-qanı idi. Daha dəqiq ifadə etmiş olsaq Cəmil Əkbərin lütfəsi, mayası haqq-ədalətin qarışımının məhsuludur. Hər gün, hər an bu məramla yaşayıb yaratdı, poetik incilər adlı misraları səxavətlə bəxş etdi könül adlı mənəviyyat xəzinəmizə. 50 il pedaqoji fəaliyyətində yorulub-usanmadan daima tələbələrinin qəlbinə insanlıq tumu əkdi haqq-ədalət ismi ilə. Məzun olduqdan sonra da bu orqanik toxumlar Azərbaycanımızın hər bir coğrafiyasında pöhrələyərək bəhrə-barını vemişdir. Çünki bu məramın daşıyıcıları qəlbi saf, gözü-könlü tox əsl Vətən övladları idi ki, bir zamanlar Cəmil müəllimin tədrisindən başarı ilə yüksək qiymətlərini almağa haqq qazanmaqla, həm də xeyir-dualarını təcrübəli pedaqoqdan almışdırlar. Şairin 26 sentyabr 1985-ci ildə yazdığı ***"Sizə"*** rədifli qoşmasının 9-cu və 11-ci bəndlərinə nəzər saldığımızda bir az öncəki qeyd etdiyimiz xoşməramlar misralardakı məna ilə öz təcəssümünü tapır.

Dərələr dərindir, dağlar zirvəli,
Dünya mənzərəli, gözəl görməli,
Ədalət yoluyla gedin irəli!
Gənclər, həqiqəti veririk sizə.

Ünsiyyətdə yalan-palan olmasın,
Həşir salıb zurna çalan olmasın,
Əl-ayaqda ölüb-qalan olmasın,
Gənclər, ədaləti veririk sizə.

Cəmil Əkbər tələbələri üçün öyüd nəsihətini tədris prosesində əksik etməzdi. Bu münasibətlə ana yurdumuzun həqiqi bir vətəndaşı olduğunu nəzər-diqqətlərinə çatdıraraq, doğru-dürüst, ədalətli yaşamasını da, iki fərqli şeirinin ayrı-ayrı bəndinin örnəyində bildirmişdir. 10 may 1990-cı ildə yazdığı ***"Yaşayın!"*** rədifli divanisinin 3-cü bəndində və 17 avqust 1988-ci ildə yazdığı ***"Vətəndaş!"*** adlı qoşmasında müəllif bu ülvi məramlar yönündə oxucusunun diqqətini çəkmişdir.

Nə iş görsən hünərlə gör, görənlər əhsən desin,
Yaxın-uzaq eşidənlər, bilənlər əhsən desin,
Gedənlər də təzim etsin, gələnlər əhsən desin,
Doğruluqla, düzgünlüklə, ədalətlə yaşayın!

İkinci şeirdə:

Hərkim olursansa ədalətli ol!
Nəcib ol, gözəl ol, məlahətli ol!
Dostlara sadiq ol, sədaqətli ol!
Vətəndaşsan, vətəndaşsan, vətəndaş!

1982-ci il 5 sentyabr tarixində ***"Apar"*** rədifli bir digər şeirinin 3-cü bəndində Cəmil müəllim tələbələrinə xitabən *"çalışma həyatında insaflı, vicdanlı, mərhəmətli, ədəbli, ərkanlı, mərifətli və ədalətli ol"* deməklə, bu mənəvi dəyərləri məmləkətlərinə aparıb tətbiq edəcəklərinə çox inanır.

İnsaflı, vicdanlı, mərhəmətli ol!
İşində, gücündə ədalətli ol!
Ədəbli, ərkanlı, mərifətli ol!
Xoş adət, ənənə, ünsiyyət apar.

1989-cu il 25 yanvar tarixində yazdığı ***"Yaşama!"*** rədifli qoşmasının 4-cü bəndində, övladları qədər sevdiyi tələbələrinə, bu dəfə əmr tərzində: *"ey gənclər haqq yolunu düz get, sağa-sola burulma! Haqq-divansız, ədalətsiz heç zaman yaşama!"* – deyir Cəmil Əkbər.

Haqq yolunu düz get əzəl günündən,
Gənclik çağlarından gözəl günündən,

Gəlhagəl günündən, xəzəl günündən,
Haqq-divansız, ədalətsiz yaşama!

Cəmil Əkbər digər tövsiyəsində tələbələrinə deyir ki, *"nə iş sahibi olsan, nə iş görsən də çalış haqdan-ədalətdən heç zaman kənarda qalma! Hər gün bu amalla yaşayıb-yarat xalqına, millətinə canı-könüldən, məhəbbətlə, vicdanla xidmət edərək uğurlar qazan!"*. Müəllif ***"Kənarda qalma!"*** rədifli qoşmasının ilk bəndində bu diləyini səmimiyyəti ilə bildirir.

İşində-gücündə kim olsanda ol,
Haqdan, ədalətdən kənarda qalma!
Daxmaya, saraya him olsanda ol,
Ülvi-ləyaqətdən kənarda qalma!

Cəmil Əkbər daha sonra ***"Öldürər səni"*** rədifli şeirinin 4-cü bəndində tələbələrinə həyat həqiqətlərinin gerçək mənasını anladaraq kəramətli, rəhmli, dözümlü, dəyanətli eyni zamanda sözü və əməlində doğru-dürüst insan, ədalətli şəxsiyyət olmadığı təqdirdə, *"səni xəcalətin öldürər"* deyə, bu dəfə fərqli kəlmələrlə xəbərdarlıq edir.

Yüz dəfə, min dəfə kəramətli ol!
Sözündə, işində ədalətli ol!
Dözümlü, durumlu, dəyanətli ol!
Adi xəcalətin öldürər səni.

1988-ci il 4 oktyabr tarixində yazdığı ***"Öyrənin"*** rədifli qoşmasının ilk bəndində Cəmil Əkbər, yenə tələbələrinə ilk öncə *"insanlıq dərsi"ni, "ləyaqət dərsi"ni, "haqq-ədalət dərsi"ni* mükəmməl əxz etməyin doğru-dürüst yaşam üçün vacib şərt olduğunu zəngin təcrübəsinə istinadən fikrini əsaslandırmağa çalışır.

Əzəl başdan budur sözüm-söhbətim,
İnsanlığı, ləyaqəti öyrənin.
İltimas, təvəqqim, xahiş-minnətim,
Ədaləti, həqiqəti, öyrənin.

Dərs verdiyi tələbələrinə bir ata nəvazişi ilə öyüd-nəsihətini təmənnasız olaraq verir Cəmil Əkbər. Azərbaycanımızın hansı dilbər guşələrində fəaliyyət göstərəcəkləri zaman bir qədər ehtiyatlı olmağı da nəzər-diqqətlərinə çatdırır. Bir çox mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sayqı göstərməklə bu dəfə *"ədaləti, həqiqəti, doğru-dürüstlüyü, insanlığı, ləyqaəti tapdama!"*-deyə amiranə tərzdə xəbərdarlıq edir. 26 sentyabr 1996-cı ildə yazdığı ***"Darıxma!"*** rədifli qoşmasının 10-cu bəndində Cəmil Əkbər bu diləyini tələbələri ilə dostçasına paylaşır:

Harda olsan ədaləti tapdama!
Doğru-düzlük, həqiqəti tapdama!
İnsanlığı, ləyaqəti tapdama!
Yol qədri heç itəsi döy, darıxma!

Cəmil Əkbər 12 iyul 1996-cı ildə yazdığı ***“Dolanın!”*** adlı qoşmasında dərs dediyi tələbələrinə öyüd-nəsihətini əsirgəməyərək, öz davranışlarında insanlığa yaraşmayan bəzi xoşagəlməz hərəkətlərə qəti şəkildə yol verməməsini də xatırladır. Xalqın qəlbində, taxt-tac quraraq iz salmaq üçün həyat yollarında *“kol-kos, çayır kimi bitməməsini, həm də haqqın-ədalətin bədinə getməməsini”* əmrvari metodla onların nəzər-diqqətinə 4-cü bənddə çatdırır.

Haqqın-ədalətin bədinə getmə!
Həyat yollarında kol kimi bitmə!
Könüllər mülkündən silinib itmə!
Dözüm-durum, qətiyyətlə dolanın!

11 fevral 1991-ci ildə qələmə aldığı ***“Bəsləmə!”*** rədifli qoşmasının 6-cı bəndində isə özü də daxil olmaqla, dava-dalaş salmadan, qal-qovğa, məşəqqət bəsləmədən cəm halda *“gəl qardaşım ədalətlə, həqiqətlə, ədəb-ərkanla, mərifətlə dolanaq”* deyə insanları sülh, əminamanlıq içində bərabər hüquqlu vətəndaş kimi dostluq şəraitində yaşamağa səsləyir:

Gəl qardaşım ədalətlə dolanaq,
Doğruluqla, həqiqətlə dolanaq,
Ədəb-ərkan, mərifətlə dolanaq,
Dava-dalaş, nə məşəqqət bəsləmə!

Təqdim etdiyimiz şeirləri ilə də cəmiyyətimiz üçün hazırladığı tələbələri ilə fəxr edirdi Cəmil müəllim. Qürurlanıb öyünürdü onların xoş sədaları məmləkətimizin hər bucağından gəldiyi üçün. Zəhmətinin hədər getmədiyinə də sevinirdi həddən ziyadə. Çünki pedaqoq adında insanlıq bağçasının təcrübəli, peşəkar bağbanı idi Cəmil İmamverdioğlu. Bir kəlmə ilə xarakterizə etmiş olsaq deyə bilərik ki, Cəmil Əkbərin ruhunda və əsl pedaqoqluğun məna-məziyyətində də yenə haqq-ədalət dayanırdı. Bu dəyərləri müxtəlif adda şerlərinin ayrı-ayrı bəndlərində görüb təsbit etdiyimiz üçün konkret örnəklərlə fikrimizi ispatlamaq istədik, haqq-ədalət şairi Cəmil Əkbərin yaradıcılığında.

Qeyd etməliyik ki, haqq-ədalət kəlməsindən istifadə edərək, bu meyyarlara müxtəlif prizmadan yanaşan Cəmil Əkbər, bu xoşməramın əsiri-yesiri, məcnunu, dəli-divanəsi, vurğunu, məftunu, aşiqi olduğunu obrazlı deyim tərzinə bələnmiş əlvan beytlərində və misralarında hər

zaman duyuruq. Şairimizin 3 dekabr 1991-ci ildə yazdığı ***"Aşiqiyəm!"*** rədifli şeirinin bir beytində anlatdıqlarımız üzə çıxır.

Əzəl gündən, ibtidadan, ədalətin aşiqiyəm!
Doğru sözün, düz fikirin, həqiqətin aşiqiyəm!

Digər şeirində haqq-ədalətin aşiqi olduğunu 10 iyul 1983-cu ildə yazdığı ***"Atmırki atmır"*** rədifli qoşmasındakı möhürbəndinin örnəyində də müşahidə edirik. Haqqı-ədaləti özü üçün mənəvi xilaskar gördüyü üçün, məcazi anlamda onun ətəyindən tutaraq kənara atmaq fikrindən çox-çox uzaqdadır Cəmil müəllim.

Cəmil də aşiqdi haqq-ədalətə,
Sağlam düşüncəyə, saf məhəbbətə,
Düşsədə bu yolda çox məşəqqətə,
Tutub ətəyindən atmırki atmır.

Cəmil Əkbər 10 iyul 1983-cü ildə yazdığı ***"Çatmır"*** rədifli qoşmasının 6-cı bəndində, öz xarakterində olan haqq-ədalətin qeyrətli vurğunlarına xitabən *"çətinliklərlə qarşılaşan zaman heç vaxt yaxşını-yamana qatmır"* deməklə, bu qəbildən olan şəxslərin ümidini, özünə inamını, güvənini daha da artırır.

Haqqa-ədalətə vurğun olanlar,
Bu yolda yorulub, yorğun olanlar,
Düşsədə çətinə qırğın olanlar,
Yaxşını-yamana qatmırkı-qatmır.

Nadanlığa, avamlığa, cəhalətə nifrət edən Cəmil Əkbər 5 aprel 1975-ci ildə qələmə aldığı ***"Çəkirsən"*** rədifli şeirinin möhürbəndində haqqı-ədaləti, dürüstlüyü, düzgünlüyü, insanlığı, ləyaqəti əsl insanlıq əlaməti kimi xoşladığını təqdim etdiyimiz misralara düzülmüş kəlmələrdə belə ifadə edir:

Cəmil Əkbər ədaləti xoşlayır,
Doğru-düzlük həqiqəti xoşlayır,
İnsanlığı, ləyaqəti xoşlayır,
Görünür ki, bu təhərdir çəkirsən.

Bir digər şeirində Cəmil Əkbər qəlbinin hər zaman doğru-dürüstlüyə, mərifətə, həqiqətə, ədəb-ərkana can atdığını, bunula belə haqqın-ədalətin sevdasında olduğunu səmimiyyəti ilə etiraf edərək, bu dəyərlərə məftunluğunu dörd fərqli şeirinin misralarında dilə gətirir. Şair 2 dekabr 1988-ci ildə yazdığı ***"Nədir?"*** rədifli qoşmasının 4-cü bəndində belə deyir:

Mənim qəlbim ədalətə can atır,
Doğruluğa, həqiqətə can atır.
Ədəb-ərkan, mərifətə can atır,
Sənin qəlbindəki nəzakət nədir?

24 oktyabr 1993-cü ildə yazdığı ***"Məftunam!"*** rədifli ikinci şeirinin bir bəndində isə Cəmil Əkbər belə yazır:

Əzəl gündən, ibtidadan, haqsızlıqla yox aram,
Harda varsa doğru-düzlük, həqiqətə məftunam!
Biganəni, laqeydi harda görsəm sızlaram,
Qoyun bilsin bunu hamı, ədalətə məftunam!

Üçüncü örnəyə Cəmil Əkbərin 10 fevral 1979-cu ildə yazdığı ***"Sevdasındayam"*** rədifli qoşmasının ikinci bəndində nəzər salaq.

Əlimdən gəlməyib xəyanət mənim,
Oğruluq, əyrilik, cinayət mənim,
Saxta uydurmalar, bəyanət mənim,
Haqqın, ədalətin sevdasındayam.

Cəmil Əkbər, 8 yanvar 1980-ci ildə qələmə aldığı ***"Gördüm"*** rədifli 4-cü şeirində ədalətlə, həqiqətlə bahəm həm də insanlıq meyarı olan insafa, vicdana, etibara, etiqada, kəramətə, ülvi ünsiyyətə vurğunluğunu da 8-ci bənddə etiraf edir.

Əzəldən vurğunam ədalətə mən,
İnsafa, vicdana, həqiqətə mən,
Etibar, etiqat, kəramətə mən,
Ülvi bir aləmdə məlahət gördüm.

Digər bir şeir örnəyində Cəmil Əkbər səmimi bir dillə etiraf edir ki, *mənim peşəm haqqı-ədaləti söyləməkdir, bu mənəvi dəyərin təbliğini-təşviqini aparmaqdır.* 1969-cu ildə yazdığı ***"Nədir"*** rədifli şeirinin möhürbəndində şairimiz ədalət, həqiqət adlı bu məsləyin mütəxəssisi olduğunu bu misraların örnəyində etiraf etmişdir:

Mən Cəmiləm peşəm budur haqqı-ədaləti, deyim,
Bəd əməllər sahibi də çəkər xəcaləti, deyim,
Nahaq yerdən ev yıxanlar görər zəlaləti, deyim,
Kim sözümə inanmasa, dəlili-əmması nədir?

Cəmil Əkbərin 8 yanvar 1993-cü ildə yazdığı ***"Mən də ordayam"*** rədifli qoşmasının 2-ci bəndində isə haqq-ədalət harda varsa o məkanda olduğunu, o yerdə mövqe alıb məcazi anlamda məskunlaşdığını səmimiyyətlə deyir. Bu fikri ilə də şairin ədalət, haqq məfhumuna sonsuz məhəbbətinin olduğu anlaşılır.

Məni axtarmayın əyri yollarda,
Haqqa, həqiqətə qeyri yollarda,
Verərəm insana xeyri yollarda,
Ədalət hardasa mən də ordayam.

Cəmil Əkbər, 15 iyun 1978-ci ildə yazdığı ***"Məni orda taparsınız"*** şeirində isə az öncə yuxarıda qeyd etdiyimiz fikri 7-ci bəndin 4-cü misrasında başqa bir varintla oxucusuna təqdim edir.

O yerdəki ədalət var,
Doğru-düzlük, həqiqət var,
İnsanlıqda ləyaqət var,
Məni orda taparsınız.

Cəmil Əkbər, 1999-cu il 24 dekabrda yazdığı ***"Qalacaq"*** rədifli şeirinin 7-ci bəndində deyir: *Hər kim ki, ədalətin, həqiqətin yolunu haqq yolu bilməklə sədaqətin, səxavətin ardınca getməsə,"saçlarını yolasılar yolacaq"* deyə məcazi halda öncədən həmin şəxslərə xəbərdarlıq edir.

Kim getmirsə ədalətin yolunca,
Doğru-düzlük, həqiqətin dalınca,
Sədaqətin, səxavətin ardınca,
Saçlarını yolasılar-yolacaq.

10 dekabr 1992-ci ildə Cəmil Əkbərin qələmə aldığı ***"Sorağında"*** rədifli gəraylısının 7-ci bəndində insani amallarla yaşayan şəxslərin bəzən haqqı-ədaləti axtarıb tapa bilmək cəhdlərinin boşa çıxması səbəbi ilə saralıb-solub bu fani dünyadan əliboş, məyyus, naümid halda getməsini minor tonallığına əsaslanaraq ifadə etmişdir.

İnsan oğlu soldu getdi,
Yolda-izdə qaldı getdi,
Xəyallara daldı getdi,
Ədalətin sorağında.

Cəmil Əkbər fitrətən, özündən asılı olmayaraq ədaləti-həqiqəti qeyri-iradi xoşladığını təqdim etdiyimiz daha iki şeirində yenə səmimiyyəti ilə ifadə etmişdir. Hətta fikrinə haqq qazandırmaqla bu ülvi dəyəri heç kimsəyə verməyəcəyini də açıq-aşikar elan edir. Çünki müqəddəs bir dəyərə malik ən qiymətli əmanətdir haqq-ədalət Cəmil Əkbər nəzərində. 5 aprel 1975-ci ildə yazdığı ***"Çəkirsən"*** rədifli qoşmasının möhürbəndində, şair öz fikrini izhar edərək münasibətini bu tərzdə bildirir.

Cəmiləm xoşladım haqq-ədaləti,
Görmək istəmirəm mən cəhaləti.

27 yanvar 1991-ci ildə yazdığı ***"Verən deyiləm"*** rədifli qoşmasının 9-cu bəndində isə bu xoşməramını bir başqa tərzdə, misralarda yer alan kəlmələrin müşayiəti ilə elan edir Cəmil Əkbər.

Mənim xoşladığım ədalətdi bil!
Doğruluq, düzgünlük, həqiqətdi bil!
Bacarıq, fəhimdi, fərasətdi bil!
Heç kəsə, heç kimə verən deyiləm.

Haqqın, ədalətin olduğu hər məkanda, hər yerdə cəmiyyətin doğru yolla getdiyini deyən Cəmil Əkbər, bu mənəvi dəyərin çoxluğunun, özünün təbiri ilə desək "bolluğu"nun ictimaiyyətə yalnız fayda verəcəyi fikrinə haqq qazandırır. ***"Nəyi pisdiki?"*** rədifli qoşmasının 7-ci bəndindəki misralar qeyd etdiyimiz fikri yansıdır.

Gəlin yolumuzdan kənar getməyək,
Bilə-bilə, qana-qana getməyək,
Haqqı-sayı dana-dana getməyək,
Ədalət bol olsa nəyi pisdiki?

Cəmil Əkbər düşüncəsində ədalət-haqq insan həyatının həqiqi mənasını xarakterizə edir. Bu iki ülvi dəyər olmasa həyatın mənasız olduğunu oxucularına, çevrəsindəki insanlara israrla anlatmağa çalışır. 1998-ci il 30 avqust ayında yazdığı ***"Heçnəyə dəyməz!"*** rədifli şeirinin ilk bəndində şair belə deyir:

Anlayıb həyatı belə qanmışam,
Ədalət olmasa heçnəyə dəyməz!
Haqsızlıq gördükcə elə yanmışam,
Həqiqət olmasa, heçnəyə dəyməz!

Cəmil Əkbər 19 noyabr 1983-cü ildə yazdığı ***"Heç nə"*** rədifli qoşmasinin ilk bəndində insan övladının doğru söz danışdığını təmənna etməklə, ədalətli olaraq ədalətdən, həqiqət aləminin təmsilcisi kimi həqiqətdən bəhs etməsini arzulayır. Bir kimsə ki, saxta yalan-palan, uydurma, yanlış, hərzə-hərzə danışaraq, dilini latayir sözlərə öyrətdisə, onun şəxsiyyətinə, kişiliyinə xətər gətirdiyini *"heç nə"* deməklə, şairimiz xəyal qırıqlığını iki kəlmə ilə təəssüfanə tərzdə bildirmişdi bir zaman.

Kişi gərək ədalətdən danışsın,
Yalana, yanlıca əl atdı, heç nə.
Yol-ərkandan, həqiqətdən danışsın,
Qalxana, qılınca əl atdı, heç nə.

Sovet imperiyasının dağılmasından sonra ictimai-siyasi, sosial – iqtisadi həyatımızda yaranmış xaosun törətdiyi fəsadlar dönəmində Cəmil

Əkbər əlində şam-çıraq gəzərək ədaləti, həqiqəti axtarıb aramaq meylinə düşür. Və ədalətin, həqiqətin, insaf-mürvətin, səxavətin, mərhəmətin harada, hansı diyarda, hansı məkanda olduğunun xəbərini alaraq o səmtə üz tutduğunu 8 iyun 1998-ci ildə yazdığı ***“Arzularım”*** başlıqlı şeirində bu mənəvi ehtiyaca tələbinin çox olduğunu etiraf edərək nigarançılığını oxuculara təqdim etdiyimiz misraların timsalında izhar edir.

Hara gedim görəsən, orda ədalət olsun?
O yerlərdə doğruluq, orda həqiqət olsun?
Orda sədaqət olsun, orda səxavət olsun?
İnsaf, mürvət, kəramət, orda mərhəmət olsun?

Bu qarğaşalı dönəmdə xəyal qırıqlığına uğrayan Cəmil Əkbər, ədalətin ədalətsizliklə, doğruluğun anti doğruluqla, əvəz olunduğu illərdə *“hansı ədalətə, hansı doğruluğa, hansı həqiqətə inanım?”* deyə çaşqın halda hərkəsə sual verərək cavab almağa çalışır. 25 iyun 1998-ci ildə yazdığı ***“İnanım indi?”*** rədifli qoşmasının ilk bəndində qeyd etdiyimiz bu problemlər öz əksini tapmışdır.

Bir zaman amalım ədalət idi,
Hansı ədalətə inanım indi?
Doğruluq, düzgünlük, həqiqət idi,
Hansı həqiqətə inanım indi?

Keçid dövrünün ictimai-siyasi ab-havası Cəmil Əkbəri bir siyasətçi alim və həssas bir şair olaraq həddən artıq narahat edir. 20 sentyabr 1995-ci ildə yazdığı ***“Utansın, qızarsın bu zəmanəni”*** rədifli qoşmasının 14-cü bəndində ədalət, həqiqət barədə doğru söz deməyin müşkül olduğunu bildirməklə bu dönəmi 4-cü misra ilə tənbeh edir.

Ədalət naminə söz demək olmur,
Həqiqət acıdır, düz demək olmur,
Məqamı çatanda tez demək olmur,
Utansın, qızarsın bu zəmanəni.

1 yanvar 1996-cı ildə yazdığı, o dönəmin ictimai-siyasi durumunu göstərən ***“Hayandasan?”*** rədifli gəraylısının möhürbəndində məcazi anlamda ədalətdən səs-soraq çıxmadığını görüb hətta ulu Tanrıdan mədəd umur həyəcan içində nigaran qalan şairimiz.

Ədalətdən yoxdur xəbər,
Yoxdur soraq, yoxdur ətər,
Yol gözləyir Cəmil Əkbər,
Ulu Tanrım hayandasan?

17 yanvar 1991-ci ildə yazdığı ***"Sorağı gəlmir"*** rədifli qoşmasının ilk bəndində keçid dönəmindəki özbaşınalıqların artması ilə yəni oğruluğun, əyriliyin, insanlığa yaraşmayan hər cür naqis əməllərin gedərək çoxalması ilə haqq-ədalətin, ülvi məhəbbətin səsinin, səmirinin çıxmadığını, Cəmil Əkbərin yuxarıda təqdim etdiyimiz bənddəki fikrini bu dəfə başqa bir variantda tətbiq etdiyinə şahid oluruq.

Oğruluq, əyrilik oqədər artıb,
Haqqın, ədalətin sorağı gəlmir.
Özgəlik, qeyrilik oqədər artıb,
Ülvi-məhəbbətin sorağı gəlmir.

Sovet imperiyasının çökməsi ilə yaranan ictimai-siyasi mühitdən təzahür edən haqsızlıqlara, özbaşınalıqlara, mənəm-mənəmliklərə daha səbr edə bilməyən Cəmil Əkbər ədalətin, haqq-divanın olmaması səbəbi ilə gileyini, şikayətini dilə gətirərək, dərdini xəyalən təkcə ulu Tanrı ilə bölüşmüşdür. Şair, 29 may 1994-cü ildə yazdığı ***"Xəbər yox"*** rədifli şeirinin ilk beytində duyğularını bu tərzdə ifadə edir.

Aman Allah nə zəmanə gəlibdir?
Haqq-divandan, ədalətdən xəbər yox.

Sovetlərin süqutundan sonra yeni siyasi partiyaların yaranması və "siyasət xadimləri"nin sayının çoxalması, siyasətdən başı çıxmayan şarlatanların bu səfdə yer alması kimi xoşagəlməz vəziyyətin yaranması Cəmil Əkbəri həddən ziyadə narahat edir. O dönəmdə cəryan edən ictimai-siyasi qarşıdurmaların, qarğaşaların tüğyan etdiyi bir vaxtda ***"Şübhələnmişəm"*** rədifli bir qoşma ilə şairimiz poetik töhfəsini ərmağan edir. Qanunsuzluqdan, özbaşınalıqlardan faydalanan bir çox mənfurniyyətlilərin xalqın var-dövlətini talan etməsi, yalan vədlərin çoxalması kimi faktların artmasından hiddətlənən Cəmil Əkbər, hətta ədalət əhlindən də şübhələndiyini 7-ci bəndin son misrasında çarəsiz halda demək məcburiyyətində qalır.

Dünyada oqədər yalanlar gördüm,
Dağılan, sökülən, talanlar gördüm,
Züy tutub, nağara çalanlar gördüm,
Ədalət əhlindən şübhələnmişəm.

Sovetlərin çöküşünün gerçəkləşdiyi bir dönəmdə saxtakarlıqların, el varını talan edənlərin sayının gedərək artdığına biganə qala bilməyən Cəmil Əkbər,*"ay ədalət", "ay həqiqət" hardasan?*-deyə həyəcan təbilini çalaraq səsini daha da yüksəldir. Şair, 14 noyabr 1998-ci ildə

yazdığı ***"Hardasan?"*** rədifli şeirinin ilk bəndində bu narahatçılıq, nigarançılıq ab-havasındakı düşüncələrini poetik misralarla bəyan edir:

Saxtalıq çoxalıb, yalanlar artıb,
Ay ədalət, ay həqiqət hardasan?
Dağıdan, sökənlər, talanlar artıb,
Ay el-oba, ay məmləkət hardasan?

Cəmil Əkbər 7 mart 1995-ci ildə yazdığı ***"Boğulmaqdadır"*** rədifli şeirinin birinci bəndində isə saxtalığın, yalanların, iftiraların olduğu bir mühitdə *"şər-böhtan dəryası"*nda ədalətin, həqiqətin boğulduğunu ilk beytdə məcazi anlamda ifadə etmişdir.

Saxtalıq çoxalıb, yalanlar artıb,
Ədalət, həqiqət boğulmaqdadır.

Cəmil Əkbərin 3 oktyabr 1992-cı ildə yazdığı ***"Qurtarmadı"*** rədifli qoşması ilə tanış olduğumuzda özünün etiraf etdiyi kimi, nəqədər haqq-ədalətin dəyərindən, eyni zamanda sədaqətdən, səxavətdən, kəramətdən, doğru-dürüstlükdən hətta bəşəri məhvə aparan cəhalətdən, həm də nadanlığın yaratdığı fəsadlardan bəhs etsək də, əyri yolla artan nahaq qazancın daş-başın azalmadığını, dünya insanlığının başına qara kabus kimi bəla olan pul-para adlı "mənfur varlığın"- məzənnənin fəaliyyəti ilə alverin kökünün qurumadığını, əksinə bu üfuntli bataqlığın daha da artdığını təəssüf motifləri ilə şikayət tərzində 19-cu bənddə etiraf edir.

Nəqədər haqq dedik, ədalət dedik?
Sədaqət, səxavət, kəramət dedik?
Bəşəri məhv edir cəhalət dedik?
Daş-baş azalmadı, pul qurtarmadı.

Azərbaycanın bağımsızlığının ilk illərində baqqalların, dəllaların həm də abırsızlığın, ismətsizliyin, qul bazarlarının Cəmil Əkbərin ifadəsi ilə "pul bazarı"nın, "dul bazar"ının artdığı bir zamanda sədaqətin, səxavətin, ədalətin, həqiqətin bu xoşagəlməz mühitdən vidalaşdığını şairimiz, 8 aprel 1982-ci ildə yazdığı ***"Əlvida deyir"*** rədifli şeirinin ilk bəndində obrazlı tərzdə ifadə etmişdir.

Dəllallar yanında, pul bazarında,
Ədalət, həqiqət əlvida deyir.
Əxlaqsız, ismətsiz dul bazarında,
Sədaqət, səxavət əlvida deyir.

Həmin dövrün xoşagəlməz ictimai-siyasi sosial problemlərin yaratdığı ab-havanın təsirindən şikayətlənən Cəmil Əkbər doğruluğun, ədalətin, haqqın-həqiqətin, insanlığın nahaqdan tapdandığını, bu ülvi

dəyərlərin dəyərsizləşdirilməsinə çalışan nadanların, cahillərin insani meyyarlardan uzaq rəftarını, mənfur münasibətini gördüyü zaman qanının qaraldığını, üzünün gülmədiyini, qaş-qabaqlı olduğunu təəssüfanə halda bildirmişdir. 31 avqust 1988-ci ildə ***"Qaşqabaqlıyam"*** rədifli şeirinin ikinci bəndində şair düşüncələrini belə izhar edir.

Görürəm ədalət tapdandığını,
Doğruluq, həqiqət tapdandığını,
İnsanlıq, ləyaqət tapdandığını,
Bəli, o səbəbdən qaşqabaqlıyam.

Sovet dövrünün sona çatması və bağımsızlığın əldə edilməsiylə keçid dönəmində sisli-dumanlı ictimai-sosial mühitin, dövrü-zəmanənin ədaləti, həqiqəti cırlaşdırdığını Cəmil Əkbər, 24 yanvar 1995-cildə yazdığı ***"Cırlaşıb"*** rədifli qoşmasının ilk bəndində ifadə etmişdir.

Qınamasın məni dövrü-zəmanə,
Ədalət də, həqiqət də cırlaşıb.
Aqillər yerinə gəlib divanə,
Ülvi-istək, məhəbbət də cırlaşıb.

Bu fani dünyanın bərqərar olduğunu isbat edən, yerin-göyün ləngərini saxlayan, dəngəsini qoruyan, ərşi-gürşü dolandıran mənəvi qüvvənin adının ədalət, həqiqət olması qənaətinə gəlir Cəmil Əkbər. Və ***"Biraz odur, biraz budur"*** rədifli gəraylısının ilk bəndində hərkəsə bu fikrinin doğru olduğuna inandırmağa çalışır.

Yer üzünü dolandıran,
Hamı bilsin ədalətdir.
Cıra peyvənd calandıran,
Doğruluqdur, həqiqətdir.

Cəmil müəllimin 9 sentyabr 1989-cu ildə yazdığı digər şeir ***"Çətindir"*** adlanır. İlk bənddə doğru səmtlə haqq-ədalət yoluyla irəliləmədiyimiz təqdirdə işimizin, fəaliyyətimizin fəna olduğunu anladaraq, gələcəkdə hər cür çətinliklərlə qarşılaşacağımızın anonsunu verir şairimiz.

Ədalətdir, yerin-göyün ləngəri,
Bu yol ilə biz getməsək çətindir.
Bəşər yaranandan, min ildən bəri,
Bu yol ilə biz getməsək çətindir.

Cəmil Əkbər nəzərində ədalət insanlıq aləmi üçün xoşbəxtlik, səadət yolu olduğunu ***"Çətindir"*** rədifli qoşmasının ilk bəndində etiraf

edir. Bu yoldan başqa digər qeyri yola rəvan olanların yaxın zamanda müsibətlərlə üzləşəcəyini, onun üçün həyat şərtlərinin çətinləşəcəyinə inanaraq, bir an öncə doğru səmtə yönlədirməyə cəhd edir.

Ədalətdir səadətin düz yolu,
Bu yol ilə biz getməsək çətindir.
Pak istəyin, xoş adətin düz yolu,
Bu yol ilə biz getməsək çətindir.

Bu baxımdan da tez bir zamanda haqqa-ədalətə qovuşmasını təmənna edərək yanlışlığını düzəltməyə çağırır. Əks təqdirdə hər gün fərqli problemlərlə üzləşəcəyinin xəbərdarlığını edir Cəmil Əkbər. Şairimiz, 25 may 1987-ci ildə yazdığı ***“Çətindir”*** rədifli şeirin 5-ci bəndində bu misralarla düşüncələrini bəyan edir.

Hərkəs gərək ləyaqətə qovuşa,
Etibara, sədaqətə qovuşa,
Ədalətə, həqiqətə qovuşa,
Yaxın gəlib qovuşmasa çətindir.

Cəmil Əkbər, 4 noyabr 1993-cü ildə yazdığı ***“Çətindir”*** adlı digər qoşmasında, insan oğluna üz tutaraq əyri yoldan dönərək düz-doğru yola gəlməsini nəzərinə çatdırır. Əgər ədalətsiz, həqiqətsiz yaşamağa üstünlük verərsə, min cür çətinliklərlə, xoşagəlməz hallarla qarşılaşacağını da öncədən xəbərdar etməklə mənəvi borcunu yerinə yetirir.

İnsanoğlu düz yola gəl, əyri yoldan əl götür!
Dinlə bir an, anla məni, ədalətsiz çətindir.
Ora-bura əl ataraq, qeyri yolla dolanma!
Harda olsan, yaşasan da, həqiqətsiz çətindir.

Cəmil Əkbər, ***“Həyat həqiqətləri (2)”*** adlı bir şeirində bu dünyanın binasının həqiqət adlı meyar, ülviyyətin, qüdsiyyətin əsasının isə mənəvi dəyərlər içərisində ən qiymətlisi ədalət olduğu düşüncəsini şeirinin ilk bəndində oxucusuna bu misralardakı məna ilə izhar edir.

Bu dünyanın əzəl gündən binası,
Həqiqətdi, həqiqətdi, həqiqət!
Ülviyyətin, qüdsiyyətin əsası,
Ədalətdi, ədalətdi, ədalət!

Cəmil Əkbər, ***“Həyat həqiqətləri (3)”*** digər qoşmasının ikinci bəndində obrazlı təbirlə *“yorulmaz qollara qüvvət, cəsarət, cürət, mürvət paylayan”* insanlıq meyyarının adının ədalət olduğuna oxucusunu inandırmaq üçün son misrada bu kəlməni üç dəfə israrla vurğulayır.

Yorulmaz qollara qüvvət paylayan,
Cəsarət paylayan, cürət paylayan,
Sevən ürəklərə mürvət paylayan,
Ədalətdir, ədalətdir, ədalət!

Cəmil Əkbər 7 may 1993 tarixində yazdığı ***“Həyat həqiqətləri (4)”*** adlı digər bir şeir örnəyində isə ədalət, həqiqət, insanlıq kimi ülvi keyfiyyəti məhv edən mənfur qüvvənin adının pis vərdiş, pis adət, pis rəftar olduğunu ilk bənddə ifadə etməklə əsas hədəfi nişan almışdır.

Ədaləti, həqiqəti puç edən,
Xəyanətdi, xəyanətdi, xəyanət!
İnsanlığı, ləyaqəti heç edən,
Pis adətdi, pis adətdi, pis adət!

İnsan oğlunun xəcalət çəkməməsi üçün hər cür neqatif halları; xainliyi, xəbisliyi, naqisliyi məcazi deyimlə boğub məhv edən yeganə qüvvənin adının haqq-ədalət, doğruluq, dürüstlük, düzgünlük olduğunu söyləyir Cəmil Bəy. Çünki *“min nahaq işlərin, mənfur hərəkətlərin qarşısını yalnız bir haqq-ədalət kəsər!”*- kəlamına haqq qazandırır. *“Ədalətin haqq-divanın bərqərar olduğu yerdə isə əminamanlıq, xoşbəxtlik hökm sürər”*- deyir Cəmil Əkbər. Şairin 29 fevral 1989-cu ildəyazdığı ***“O boğsun!”*** rədifli şeirinin 3-cü bəndindəki misraaltı mənasından bu xoşməramı sezə bilirik.

Hakim olsun yer üzündə ədalət,
Doğruluqlar, düzgünlüklər, həqiqət,
İnsanoğlu qoy çəkməsin xəcalət,
Xainliyi, xəyanəti o boğsun!

Cəmil Əkbər, anlamayan kəslərə ədalətin, həqiqətin nə olduğunu qavraya bilməsi üçün İlahidən ağıl, dərrakə, fəhm istəyir, qanmayanlar üçün isə cəza, töhmət verməsini, işgəncəyə məruz qoymasını diləyir. Hörmətli şairimiz məhz bu diləyini 19 iyun 1994-cü ildə yazdığı ***“Nədir?”*** rədifli qoşmasının ilk bəndində ifadə etmişdir.

İlahi, insana bir düşüncə ver,
Anlasın, görsün ki, ədalət nədir?
Qanmayan kəslərə bir işgəncə ver,
Görsün ki, düzgünlük, həqiqət nədir?

Cəmil Əkbər 17 yanvar 1990-cı ildə yazdığı ***“Dolanmaz!”*** rədifli digər bir şeirinin ilk bəndində müslüman aləminin müqəddəs kitabı olan Quranı mütaliə edərək mənasını anlayabilən şəxslərin bir zamanlar dərdlərinə dəva, psixoloji-mənəvi xəstəliyinə də şəfa tapacağını və bu

səbəblə də ədalətlə, həqiqətlə yaşayacğına əmin olduğunu təqdim etdiyimiz poetik misralarla bildirir:

Kim oxusa əzəl başdan Quranı?
Haqq Taaladan vəhy olunan fərmanı.
Tapacaqdır hər dərdinə dərmanı,
Ədalətsiz, həqiqətsiz dolanmaz!

Cəmil Əkbərin ***"Gözləyə"*** rədifli şeirində də bütün ictimaiyyətə, xalqa, insanlara xitab edərək poetik misraların timsalında qanun-qaydaya, ədalətə, həqiqətə riayət etməklə öyüd-nəsihət verməyə çalışır.

Hərkəs gərək öz yoluyla düz gedə,
Ədaləti, həqiqəti gözləyə.
Yorulmaya, ərinməyə, tez gedə,
İnsanlığı, ləyaqəti gözləyə.

Cəmil Əkbər yaradıcılığında Azərbaycanın bağımsızlığa keçid dönəmində bəzi üzdəniraq təcrübəsiz jurnalistlərin həqiqəti əks etdirməyən yarımyamalaq, uydurma, bəzən də iftira dolu məlumatları tez-tələsik mətbuat səhifəsində işıqlandırması, şairimizi aşırı dərəcədə hiddətləndirmişdir. Bu baxımdan da bu iradlarını onların üzünə söyləmək üçün dolayı yolla, obrazlı şəkildə *"qızım, sənə deyirəm, gəlnim, sən eşit!"* təbiri ilə kağız parçasına xitab edir. Yəni qəzetə müraciətini ***"Yaz qəzet"*** rədifli şeirinin ikinci bəndinin örnəyində fikirlərini obrazlı şəkildə ifadə etməyi daha etik sanır.

Nə bacarsan yalan sözdən uzaq ol,
Tezi-geci solan sözdən uzaq ol.
Əl-ayaqda qalan sözdən uzaq ol,
Ədalətdən, həqiqətdən yaz qəzet.

Bu baxımdan da Cəmil Əkbər təsbitində bir qrup yazarların xoş məramının adı ədalət, həqiqət, sədaqət, doğruluq, dürüstlük, düzgünlük olduğunu deyərək, digər mənfur amallı, "naxoşməramlı", jurnalist adına xələl gətirən, üzdəniraq yazarların mövqeini təsbit edərək, ikinci qrupda yer aldığını bildirir. Onların mətbuat səhifələrində işıqlandırdığı ifrat dolu məqalələrinin hətta suç olduğunu da nəzərimizə çatdırır. Müəllif, 5 avqust 1998-ci ildə yazdığı ***"Getdi"*** rədifli qoşmasındakı bu problemə aydınlıq gətirərək şeirin 5-ci bəndində belə yazır:

Kiminin yazdığı ədalət oldu,
Doğruluq, düzgünlük, həqiqət oldu,
Bəşər övladına sədaqət oldu,
Kiminin yazdığı suç olub getdi.

14 avqust 1994-cü ildə yazdığı ***"Yaddısa"*** rədifli digər bir şeirində Cəmil Əkbər "dəli könül" deyə özünə müraciət etməklə əslində oxucularına öyüd-nəsihət verərək insanlığa yad, ədalətə, həqiqətə, ləyaqətə isə laqeyd, biganə olan kimsələrdən, yəni onlardan gələ biləcək hər cür fitnə-fəsadlardan, bədəməllərdən kənar durmasını, daha doğru olduğunu ilk bənddə tövsiyə edir.

Dəli könül, böyləsindən kənar dur!
Ədalətə, həqiqətə yaddısa.
Fitnə-fəsad, hiyləsindən kənar dur!
İnsanlığa, ləyaqətə yaddısa.

Ədalət, həqiqət, sədaqət, səxavət, kəramət anlayışı daha öncə dediyimz kimi Cəmil Əkbər üçün müqəddəs meyar olub çox dəyərlidir. Qeyri bir həvəslə yaşamaq Cəmil Əkbərin xasiyyətinə, xarakterinə, şəxsiyyətinə uyğun gəlmədiyi üçün, mənəviyyatı hər cür insaniliyə zidd olanları qəti olaraq qəbul edə bilmədiyini səmimiyyəti ilə etiraf edir. 19 yanvar 1984-cü ildə yazdığı ***"Barışammadım"*** rədifli şeirinin 6-cı bəndində qeyd etdiyimiz cəhətlər özünü biruzə verir.

Müqəddəs bilmişəm ədaləti mən,
Haqqı-ədaləti, həqiqəti mən,
Sədaqət, səxavət, kəraməti mən,
Qeyri bir həvəslə barışammadım.

Bir ustad kimi Cəmil Əkbər, nalayiq danışana, sözünə-söhbətinə diqqət yetirməyən, fitnə-fəsad işlərlə uğraşan bir qrup kimsələrə üz tutub *"ədalətdən, həqiqətdən ayıbdır"*-deyə hətta tənbeh edir təqdim etdiyimiz ***"Ayıbdır"*** rədifli poetik misralara bələnmiş qoşmanın 3-cü bəndində.

Danışanda diqqət yetir dilinə,
Hörmət qoyub bir nəzər sal elinə,
Bel bağlama fitnə-fəsad felinə,
Ədalətdən, həqiqətdən ayıbdır.

Ədalət, həqiqət, ləyaqət, təmiz ad, şərəf-şan, bu kimi ülvi dəyərlərə canı-könüldən inanan Cəmil Əkbər, bir zamanlar dərdini uca Tanrıya anladaraq bu müqəddəs dəyərlər adı altında haqq yolunun sanki şairimizi də çaşdırdığını da dilə gətirdiyinə heç cür inanmaq olmur. Şairimizin 4 oktyabr 1987-ci ildə yazdığı ***"Çaşdırıb"*** rədifli şeirinin 2-ci bəndinin timsalında bu çaşqınlığına şahid oluruq.

İnanmışdım mən ədalət yoluna,
Doğru, düzlük, mən həqiqət yoluna,
Təmiz ad-san, ol ləyaqət yoluna,
Aman Allah, yol məni də çaşdırıb.

Bir başqa bənddə isə *"yol da bizi çaşdırıb"*- deməklə keçid dövrünün ilk illərindəki ictimai-siyasi istiqrarsızlıqlardan yaranan, qarmaqarışıqlıq dönəmində başalıb gedən hər cür özbaşınalıqların artdığı bir vaxtda sanki ədalətin, həqiqətin, insanlığın, ləyaqətin yoluna məcazi təbirlə daş düzülməsinə bənzədir. Bu mənəvi dəyərlərin yolunda hər cür əngəllərin olduğunu təəssüf hissiləri ilə etiraf etmək məcburiyyətində qalan şair, misraların fövqündə o dönəmdəki hadisələrin rəsmini çəkməyə çalışır. Cəmil Əkbərin, 5 oktyabr 1987-ci ildə, digər bir variantda yazdığı ***"Çaşdırıb"*** rədifli qoşmasının 3-cü bəndinə nəzər saldığımızda bu problemlərin misralara yansıdığını görürük.

Daş düzülüb ədalətin yoluna,
Doğruluğun, həqiqətin yoluna,
İnsanlığın, ləyaqətin yoluna,
Hamı azıb, yol da bizi çaşdırıb.

Bu vəziyyətlə heç cür razılaşmaq istəməyən Cəmil Əkbər, 15 fevral 1991–ci ildə yazdığı ***"Görünmür niyə?"*** rədifli digər bir şeirində isə ədalətpərəstlərin, haqsevərlərin, doğruluq, dürüstlük, həqiqətsevən, insanlıq adının təmsilçilərinin, ləyəqətsevərlərin harada qaldığını xəbər almaqla, onların səxasının, səxavətinin nədən görünmədiyini böyük nigarançılıqla etiraf edərək o dönəmin ictimai-siyasi mənzərəsini 12-ci bənddə şair qələmi ilə təsvir etməyə çalışır.

Hayanda qalıbdır ədalətsevən?
Doğruluq, düzgünlük, həqiqətsevən?
İnsanlıq naminə ləyaqət sevən?
Səxam-səxavətim görünmür niyə?

Cəmil Əkbər hər nəyin gözdən düşməsinin heç bir eybi olmadığını deyərək onu da vurğulayır ki, təki haqq-ədalət, insanlıq kimi ülvi dəyərlər gözdən salınmasın, unudulmasın deyə özünə təskinlik verir, 5 avqust 1998 tarixində yazdığı ***"Düşməsin"*** rədifli qoşmasının ilk bəndində.

Nə düşsə nəzərdən eyib eyləməz,
Ədalət, həqiqət gözdən düşməsin.
Əksiklik gətirməz, xələl eyləməz,
İnsanda ləyaqət, gözdən düşməsin.

1979-cu il 8 mart tarixində Cəmil Əkbərin yazdığı ***"Vəhdətindədir"*** rədifli bir digər şeirində haqqın, ədalətlə vəhdəti, bu mənəvi dəyərlərin bir-birini tamamlaması sayəsində bəşər övladının səadətə, xoşbəxtliyə çatacağına əmin olaraq öz şairanə münasibətini 11-ci bəndin timsalında bildirməyə çalışır.

Bəşər övladının səadəti də,
Ülvülük naminə ləyaqəti də,
Bilik-bacarığı, məharəti də,
Haqqın, ədalətin vəhdətindədir.

Cəmil Əkbər, 31 dekabr 1988-ci ildə ***“Dönərmi?”*** rədifli digər bir başqa şeirində isə,*“sərrast düşüncəli, ağlı-dərrakəsi olan kəslərin ədalətdən, sədaqətdən, səxavətdən həqiqətdən dönərmi?”*- deyə sual verməklə öz fikrini təqdim etdiyimiz ilk bənddə çatdırır.

Kimin varsa kamalının əsəri?
Ədalətdən, həqiqətdən dönərmi?
Məslək, vicdan amalının əsəri?
Sədaqətdən, səxavətdən dönərmi?

Cəmil Əkbər, ağıl-kamal sahiblərinin, yetkin əqidəli, amallı insanların ədalətdən, həqiqətdən, insanlıqdan, ləyaqətdən güc-qüvvət aldığını 29 sentyabr 1991-ci ildə yazdığı ***“Güc aldı”*** rədifli şeirinin ilk bəndində, fikrini bu tərzdə əsaslandırmağa çalışır və buna inanır.

Kimin ki, başında kamalı vardır,
Ədalətdən, həqiqətdən güc aldı.
Əqidə, məsləki, amalı vardı,
İnsanlıqdan, ləyaqətdən güc aldı.

Ədalət məramı ilə yaşayan Cəmil Əkbər, bir başqa şeirində də hərbirkəsdən ədalət istədiyini də qeyd edir. Çünki, *“tək bir güllə bahar olmaz”*- demişlər. Dünyada haqq-ədalətin bərqərar olması, öz potensial gücünü göstərə bilməsi üçün də hər bir fərdin ədalət-haqq sahibi kimi yaşayaraq, şərəfli ömür-gün sürməsini diləyir Cəmil müəllim. Çünki ədalətli olub doğru dürüst, şərəf-şanla yaşamaq xoşbəxtliyin, səadətin yeganə yoludur. Şair bu qənaətini özət şəklində ***“İstəyirəm mən”*** rədifli qoşmasının 13-cü bəndində dilə gətirir.

Heçkəsə demirəm ülfəti kəsin,
Bədəməl törədib, yarpaqtək əsin,
Taledən, yığvaldan inciyib küsün,
Hamıdan ədalət istəyirəm mən.

Ədaləti, həqiqəti amal kimi qəbul edən Cəmil Əkbər, ömür boyu bu ülvi meyarlara sadiq qalaraq, çalışıb dövlətinə, millətinə, xalqına, el-obasına qeyrətlə, sədaqətlə, vicdanla, təmənnasız olaraq xidmət etdiyini 11 sentyabr 1998-cildə yazdığı ***“Çalışdım”*** rədifli şeirinin ilk bəndində açıqlayır.

Əzəldən bu oldu amalım mənim,
Sədaqətə, səxavətə çalışdım.
Hökm edən idrakım, kamalım mənim,
Ədalətə, həqiqətə çalışdım.

İllər ötüp, zaman, dövran dəyişib haqqdan, ədalətdən dəm vuran, bu mənəvi dəyərin qədir-qiymətini anlayan bir şəxsin, nəhayət ömrünün qürub çağında həvəsdən düşərək bu iki ülvi meyyarın təbliğatından bir qədər usandığını, deyəsən şevqisinin bir qədər öləzidiyini etiraf edir Cəmil Əkbər. 19 fevral 1996-cı ildə yazdığı ***"Ağrıdı"*** rədifli şeirinin 7-ci bəndində az öncə bildirdiyimiz fikirləri məyus halda belə ifadə etmişdir.

Keçdi qərinələr, dolandı illər,
Haqdan, ədalətdən danışmır dillər,
Saralıb qəlbimdə soluxur güllər,
Ömür-gün çürüdü, yaşım ağrıdı.

İctimai-sosial mühitin bəzi məqamlarında dünyanın gedişindən bixəbər olan nadan kəslərin hüzurunda *"ədalət əhlinə yer olmaz"*- deyən Cəmil Əkbər, bir şair kimi öz qərarını ***"Yer tapılmadı"*** rədifli şeirinin 3-cü bəndində vermişdir.

Dünyadan bixəbər nadan yanında,
Təlimdən kəm-kəsir, dadan yanında,
Yolunu tərsinə adan yanında,
Ədalət əhlinə yer tapılmadı.

Cəmil Əkbər, dövrün, zamanın tələbi ilə hər şeyin təzələndiyini, yeniləndiyini təqdirlə qarşılasa da təkcə ədalətin, yeniləşməsi fikrində israr edir. Bu baxımdan da ədalətin, həqiqətin yenilik adı ilə təhrifə uğrayabiləcəyindən ehtiyat edtdiyi üçün müsbət qarşılamır Cəmil Əkbər. Şair, ***"Hər şey"*** adlı qoşmanın ilk beytində deyir:

Hər şey dəyişsə də, yeniləşsə də,
Ədalət, həqiqət yeniləşməsin!

Bəzi naqis adamların insani münasibətlərdə mənəvi dəyərimizə uyuşmayan, bu şərəfli ada heç yaraşmayan kobud hərəkətləri, biganəsizliyi, qeyri-əxlaqi naqis rəftarı, həssas şairimizi narahat edən problemlərdən biri kimi qarşımıza çıxır. Cəmil İmamverdioğlunun 28 sentyabr 1993-cü ildə yazdığı ***"Biganəsən"*** rədifli gəraylısında bu məsələləri diqqətə alaraq 12 bəndlik şeirin ilk bəndinin misralarında nigarani fikrilərini təqdim edir oxucularına.

Qulaqların karmı olub?
Ədalətə biganəsən.
Gözlərinə tormu gəlib?
Həqiqətə biganəsən.

Cəmil Əkbəri şair edən amillər arasında ədalət, həqiqət, ləyaqət kimi ülvi dəyərlərin yer aldığını, 14 oktyabr 1997-ci ildə yazdığı ***“Məni şair eylədi”*** rədifli şeirinin 13-cü bənddə öyrənirik.

Yer üzündə ədalət,
Doğru-düzlük həqiqət,
Sehirləyib ləyaqət,
Məni şair eylədi.

Dünyanın dərdi-qəmini, fikrini çəkən Cəmil Əkbəri narahat edən bir məqama da toxunmaq istərdik. 12 fevral 1996-cı ildə yazdığı ***“Qalacaq”*** rədifli şeirində, müəllif insanlıq aləminə xoşməramını çatdırmaqla mənəvi borcunu yerinə gətirməyə çalışır. Bir fikrində israrla dayanaraq həyəcanının anonsunu verən şair deyir ki, *“əgər təfəkkür, idrak mərkəzi çalışmasa, bu bəşər gerçək həqiqətləri dərk edib anlamasa, ədalət, həqiqət, ləyaqət quru söz olaraq qalacaq. Və insanlıq aləminə bəhrə-barını vermədiyi üçün heç bir faydası da olmayacaq”.* Bu şeirin ilk bəndinə nəzər saldığımızda, məcazi anlamda həyəcan təbilinin qorxuducu ritmlərini duymamaq mümkün deyildir.

Təfəkkür dünyamız işə düşməsə,
Ədalət, həqiqət sözdə qalacaq!
Bu bəşər anlayıb başa düşməsə,
İnsanlıq, ləyaqət sözdə qalacaq!

Cəmil Əkbər, hər bir insanda ədalət meyyarının olmasını çox arzu edərdi. Çünki insanlığın ən böyük dəyəri olduğuna canı-könüldən inanan şair, bu mənəvi dəyərin daşıyıcılarına, ülvi məhəbbətinin aşırı dərəcədə olduğunu etiraf etmişdir. Bu meyyardan yoxsun olanlara da nifrətinin, məzzəmmətinin, töhmətinin tükənmədiyini, əksinə daha da artdığını da demişdir. Cəmil Əkbər 8 yanvar 1980-ci ildə yazdığı ***“Tükənən deyil”*** rədifli qoşmasının iki bəndində bu təzadlı mövqedəki fikirlərini sərt bir dillə elan etmişdir.

Kiminki qəlbində ədaləti var,
Mərhəmət, sədaqət, səxavəti var,
İnsanlıq naminə ləyaqəti var,
Ülvi-məhəbbətim tükənən deyil.

Sərsəri, divanə, gic olanlara,
Hiyləgər, dələduz, bic olanlara,
Haqqa, ədalətə öc olanlara,
Töhmətim, nifrətim tükənən deyil.

Cəmil Əkbərin obrazlı misralarla ifadə etdiyi orijinal fikirlərindən biri də, dünyada hər şeyin qocaldığını, ixtiyarlandığını, türk təbiri ilə desək yıprandığını deməklə, sadəcə insanlıq aləminin yaraşığı olan ədalət meyyarının əsla qocalmadığını, hər zaman təzə-tər, cavan, təravətli qalması qənaətinə gəlməsidir. 29 may 1993-cü ildə yazdığı ***"Deyil"*** rədifli qoşmasının ilk bəndində az öncə qeyd etdiyimiz fikirləri Cəmil Əkbər poetik dillə bu şəkildə izhar etmişdir.

Dünyada nəqədər qocalan oldu?
Ədalət, həqiqət qocalan deyil.
Zəfərlər çalaraq, bac aldı getdi?
Hər yetən gədələr bac alan deyil.

Ömrünü ədalət, həqiqət adlı insanlıq meyyarına həsr etmiş Cəmil Əkbər, bu iki mənəvi dəyərin yolunda hər əzaba dözdüyünü, əziyyətə qatlaşdığını, dünyada ədalətin, həqiqətin, doğruluğun, dürüstlüyün, insanlığın, ləyaqətin daha çox bərqərar olmasına inanaraq, təmənnasız xidmətini etiraf etsə də, nəyazıq ki, çəkilən zəhmətin əvəzində *"əzab-əziyyətimin, bu yoldakı zəhmətinin nəyazıqki, bilinmədiyini, bu xidmətlərinin görünməz olduğunu"* qəmli notlarla, minör tanallığında etiraf edir. 30 avqust 1991-ci ildə yazdığı ***"Görünmür niyə?"*** adlı qoşmasının 6-cı bəndində olan məram bir qədər öncə dediyimiz fikirin misralardakı tərcümanıdır.

Çalışdım hər yanda həqiqət olsun,
Doğruluq, düzgünlük, ədalət olsun,
Yaşasın insanlıq, ləyaqət olsun,
Əzab-əziyyətim görünmür niyə?

Digər bir şeirində şairimiz, bəşər aləminin doğru yola düzəlməsi üçün ülvi istəkdən, saf məhəbbətdən, insanlıqdan, ləyaqətdən, ədalətdən heç bir zaman aralı düşməməyi tövsiyə edərək, hər vaxt onların yanında mövqe tutmağına önəm verir. Cəmil Əkbərin, 25 fevral 1995-ci ildə yazdığı ***"Bu bəşər"*** rədifli şeirinin 10-cu bəndindəki məram dediklərimizi isbatlamaqdadır.

Nəqədərki ədalətdən uzağıq?
İnsanlıqdan, ləyaqətdən uzağıq?
Ülvi-istək, məhəbbbətdən uzağıq?
Düzələn döy, düzələn döy bu bəşər.

Cəmil Əkbər, dünyanın dərdi-qəmini çəkən həqiqi vətən aşiqi, əsl vətənpərvər şair kimi 19 oktyabr 1992-ci ildə yazdığı ***"Qalmadı"*** rədifli qoşmasında haqqın-ədalətin, doğruluq, dürüstlüyün, ədəb-ərkanın, nəzakətin yolunu uzun illərdir həsrətlə, intizarla gözlədiyini, daha səbri-qərarının qalmadığını şeirin 9-cu bəndində təəssüfanə ovqatda etiraf edir.

Gözlədim yolunu haqq, ədalətin,
Doğruluq, düzlüyün, ol həqiqətin,
Ədəbin, ərkanın ol nəzakətin,
Dözüm-durum, dəyanətim qalmadı.

Ədalət meyyarını yüksək qiymətləndirən Cəmil Əkbər, 10 oktyabr 1990-cı ildə yazdığı ***"Deyildir"*** rədifli şeirində, xüsusilə 16-cı bənddəki çağdaş günümüzün həqiqətlərini dilə gətirərək əski dönəmlərdəki milli-mənəvi dəyərlərin gedərək aradan qalxdığını, bu qəbildən olan fəlsəfi düşüncəsini obrazlı deyim tərzinə bələyərək etiraflarını açıq şəkildə oxucusu ilə paylaşır.

Fikirlərin məşəli, doğru söz ilə yanır,
Ədalətin şamları, o da düz ilə yanır,
Ocaqlar da odunsuz, indi qaz ilə yanır,
Közlər o közlər deyil, kül də o kül deyildir.

Cəmil Əkbərin ədalətə-həqiqətə olan vurğunluğu, sonsuz məhəbbəti bitib tükənməzdir. 27-28 avqust 1994-cü ildə yazdığı ***"Dünya"*** rədifli gəraylısında insaf, mürvət, kəramət, ədalət, həqiqət olmayan yerdə bu fani dünyanın puçluğunu, heçliyini, mənasızlığını ilk bənddə dilə gətirərək öz münasibətini bildirir.

Ədalətsiz, həqiqətsiz,
İnsaf-mürvət, kəramətsiz,
Əfsanədi, heçdi dünya,
Əvvəl-axır suçdu dünya.

Cəmil Əkbər, 20 oktyabr 1992-ci ildə yazdığı ***"Dünyanın iki üzü"*** adlı qoşmasında insan oğlunun iki mövqedə dayandığını şərh edərək məcazi anlamda birinin mis, digərinin isə qızıl dəyərində olduğunu ifadə edərək, ikinci qütbdə dayanan şəxslərin insani münasibətlərdə ədaləti, həqiqəti sevdiyini 3-cü bənddə ifadə etmişdir.

Bu cahan mülkündə iki adam var,
Birisi qızıldır, o biri misdir.
Biri doğru sevir, ədalət sevir,
Ünsiyyət ülfətdə həqiqət sevir.

Cəmil Əkbər ədalətsiz yaşanan həyatı, həqiqətsiz ömür sürən insanlara yazıqlar olsun deyərək 5 iyul 1996-cı ildə yazdığı ***"Olmayan yerdə"*** rədifli şeirində şairanə bir deyimlə düşüncələrini qəzəl janrında ifadə etmişdir.

Nə həyatdır, nə ömürdür, ədalət olmayan yerdə,
Kimdi verən, nə əmrdir, həqiqət olmayan yerdə.

***"Olmayan yerdə"*** rədifli qəzəlin ikinci variantında isə Cəmil Əkbər ədalət, həqiqət kimi mənəvi dəyərlərin olmadığı məkanda *"Adəm oğlu hər bir naqis əməllər törədər, şər-böhtan atıb, şər-xəta kimi bəd işlər tutar"*- deyir. Təqdim etdiyimiz beytin timsalında bu fikirlərini oxucuları ilə paylaşır Cəmil Əkbər.

Adəm oğlu hər iş görər, ədalət olmayan yerdə,
Böhtan atar, şər iş görər həqiqət olmayan yerdə.

Bir çox şeirlərini təhlil etdiyimizdə anlaşılır ki, şairin qüvvəsi, qüdrəti öz gücünü ədalət, haqq meyyarı statusunda yer alan dəyərlərdən *(doğruluq, dürüstlük, səmimilik, fəzilət, xeyirxahlıq, dəyərli sözlər, qiymətli kəlamlar)* almışdır. Bu anlatdıqlarımız mənəvi dəyərlər şairin 19 may 1993-cü ildə yazdığı ***"Kiriməz"*** rədifli qoşmasının möhürbəndində yer alan misralarıyla ortaya çıxır.

Cəmil Əkbər ədalətdən güc alıb,
Doğru-düzlük, həqiqətdən güc alıb,
Xeyirxahlıq, fəzilətdən güc alıb,
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

Ədalət, həqiqət meyyarına başqa bir mövqedən yanaşan Cəmil Əkbər üçün ən qiymətli hədiyyə olduğunu ***"Deməki"*** rədifli şeirinin bir bəndində səmimiyyəti ilə etiraf edir. Bu baxımdan da ədalət, həqiqət qohum-əqrəba görüşünə rəvan olarkən özü ilə götürdüyü mənəvi dəyəri yüksək olan hədiyyənin, insanlıq aləmi üçün təsis edilmiş mükafatın ən ali adıdır Cəmil Əkbər nəzərində. Hətta dost-qardaş, ziyarətinə gedərkən əlidolu hədiyyə anlamında ədaləti də bəxşiş kimi özü ilə götürəcəyini elan edir. Şairin ilk bəndin dördüncü misrasındakı *"Olaram yanında ədalətimlə"*, əslində orijinallığı və obrazlı deyim tərzi ilə fərqlənən poetik tapıntı adlandıra bilərik.

Deməki yanıma gəlməmisən sən,
Soruşub halımı bilməmisən sən,
Baxaraq üzümə gülməmisən sən,
Olaram yanında ədalətimlə.

Həmin şeirin ikinci bəndində necə də gözəl obrazlı demişdir Cəmil müəllim. Təqdim etdiyimiz bənddə könül rübabı adlı telli musiqi alətini ifa edə bilmək üçün haqq-həqiqətin gərəkli olduğunu söyləyir müəllif. Haqq-ədalətsiz könül rübabını səsləndirmək mümkün deyildir Cəmil Əkbərin qənaəti ilə. Çünki könül rübabının melodiyasının, musiqisinin, bu mənəvi çalğı alətində çalınan əsərlərin simvolikləşmiş halıdır haqq-ədalət. Bu baxımdan da haqq-ədalət adlı ecazkar təranələri rübabda professional səsləndirən ifaçı-sənətkarın isminin Cəmil Əkbər olduğunun fərqinə varırıq fikrin mənaaltı tərcümanı olan misralarda.

Deməki qeydimə qalmamısan da,
İnciyən qəlbimi almamısan da,
Onun rübabını çalmamısan da,
Çalmışam haqqımla, həqiqətimlə.

Yekun olaraq deməliyik ki, Cəmil Əkbər üçün haqq-ədalət dostdu, qardaşdı, ən yaxın sirdaşdı, həmdəmdi, etibarlı, sədaqətli, vəfadarlı tərəfmüqabildir. Bir kəlmə ilə dəyərləndirsək Ədalət Cəmil haqq-ədalətlə bağrıbadaşdı. Ədalət, həqiqət Cəmil Əkbər üçün aşiqdi, məşuqdu, sevgili-canandır. Haqq-ədalət Cəmil Əkbər üçün Leylidir, Şirindir. Leylinin Məcnununun, Şirinin Fərhadının adı Ədalət Cəmildir.

Cəmil İmamverdioğlu adlı şair övladımız ruhunu, canını ədalət, haqq naminə şam-çıraq kimi yandırıb əritmişdi ömrü boyu. Bu ülvi dəyərləri mənəvi dünyasında yaşatmış şəxsin adı Cəmil Əkbər, ləqəbi isə "Ədalət Cəmil"dir. Çünki ədalət adlı kəbəyə yön alan 72 illik həqiqət yolunun zəvvarıdır Cəmil Əkbər, öz şəxsiyyətində, kişiliyində hamıya örnək olacaq nümunəvi yaşam tərzində.

2023 ilin 15 sentyabr tarixində tamam olan 95 illik yubileyinə ***"Cəmil müəllim"*** rədifli gərayalımı da bir oğul övladı kimi, atam Cəmil İmamverdi oğlu Əkbərin müqəddəs ruhuna səcdə qılaraq ərmağan edirəm.

Gədəbəyin yaraşığı,
El-obanın gur işığı,
Küsənlərin barışğı,
Cəmil müəllim, Cəmil müəllim.

Hey oxuyub, çox çalışan,
Elmə, əməyə qarışan,
Alim, şairlə yarışan,
Cəmil müəllim, Cəmil müəllim.

Hər loxmanı halal yeyən,
Haqqı, ədaləti deyən,
Daim insanlığı övən,
Cəmil müəllim, Cəmil müəllim.

Hər kəsə nümunə olan,
Dostlara səmimi olan,
Saxta döy, həqiqi olan,
Cəmil müəllim, Cəmil müəllim.

Yerin vardır ürəklərdə,
Yaşayırsan diləklərdə,
Güclü oldun biləklərdə,
Cəmil müəllim, Cəmil müəllim.

Xalqımızın məğrur oğlu,
Zəka, düşüncəsi, ağlı,
Cümləsi sığallı, yağlı,
Cəmil müəllim, Cəmil müəllim.

Möhnət yükü daşıyanım,
Çox dərindən düşünənim,
Dar məzarda üşüyənim,
Cəmil müəllim, Cəmil müəllim.

Xatirələr qalaq-qalaq,
Səndən aldım qəmli soraq,
Harda qaldın, şənlik quraq?!
Cəmil müəllim, Cəmil müəllim.

Əcəl ayrılığı çaldı,
Fələk səni bizdən aldı,
Sazım sənsiz tifil qaldı,
Cəmil müəllim, Cəmil müəllim.

Xörəyimin dadı getdi,
Ocağımın odu getdi,
Əzizlərim sənlə getdi,
Cəmil müəllim, Cəmil müəllim.

Qara buludtək çökürəm,
Dərd əkirəm, qəm biçirəm,
Kimsə bilməz nə çəkirəm?
Cəmil müəllim, Cəmil müəllim.

Qəlbim, ruhum talan-talan,
Xəyallarım viran-viran,
Çox az qalıb səni soran,
Cəmil müəllim, Cəmil müəllim.

Yavaş-yavaş gözdən itdi,
Hər kəs ölüb bir-bir getdi,
Bir Cəmil sözümdə bitdi,
Cəmil müəllim, Cəmil müəllim.

Hər gün, hər an anıram mən,
Öz yanımda sanıram mən,
Sənsizlikdən donuram  mən,
Cəmil müəllim, Cəmil müəllim.

Şərəfli ömür yaşadın,
Fikir-xəyal, dərd daşıdın,
Hər məclisdə sən baş idin,
Cəmil müəllim, Cəmil müəllim.

Gədəbəydə boy atmısan,
Hey yazmısan, yaratmısan,
Yatanları oyatmısan,
Cəmil müəllim, Cəmil müəllim.

Müəllimlik peşən oldu,
Həssas duyğun şüşən oldu,
Sənsiz bağçam heşən oldu,
Cəmil müəllim, Cəmil müəllim.

Həcərimin şah əsəri,
Sözündə vardı kəsəri,
Hər kəs kəlmənin əsiri,
Cəmil müəllim, Cəmil müəllim.

Müdrik fikirlə dolanım,
Zəfər təblini çalanım,
Sevən könüldə qalanım,
Cəmil müəllim, Cəmil müəllim.

İki balan bu dünyada,
Dərd çəkir fani dünyada,
Kimsəm yox səni oyada,
Cəmil müəllim, Cəmil müəllim.

Kitabların qalaq-qalaq,
Şeirlərin vərəq-vərəq,
İmkanım yox muzey quraq.
Cəmil müəllim, Cəmil müəllim.

Bayatı dedin ahəstə,
Sağ canımız düşdü xəsdə,
Ruhun başımızın üstə,
Cəmil müəllim, Cəmil müəllim.

Sözlərini anlamadıq,
Özümüzü danlamadıq,
Tənbeh edib yanlamadıq,
Cəmil müəllim, Cəmil müəllim.

Əvəzsiz bir insan idin,
Hər gərdişi qanan idin,
Haqq yolunda yanan idin,
Cəmil müəllim, Cəmil müəllim.

Aludə orda dərd çəkir,
İlqar da burda qəm əkir,
Pünhanca göz yaşın tökür,
Cəmil müəllim, Cəmil müəllim.

On beş sentyabr günün,
Mübarək olsun ad günün,
Təbrik edir İlgar genin,
Cəmil müəllim, Cəmil müəllim.

***Cəmil Əkbər*** 15. 09 - 2020 saat 23:29



**Prof. Dr. İlgar Cəmiloğlu İmamverdiyev**

*Sənətşünaslıq Elmləri Doktoru,*

*Gaziantep Universiteti Türk Musiqisi*

*Dövlət Konservatoriyasının professoru,*

*"Türk Xalq Musiqisinə Xidmət" mükafatçısı.*

***15.09 -2023 saat 15.15 / Gaziantep***

## *I BÖLÜM: ŞEİRLƏR, POEMALAR*

### 1. MƏNİM ŞEİR KİTABIM (1)

Görün necə yarandı mənim şeir kitabım?
Xalqım üçün gərəkli, müraciət kitabım?
Bir gör necə köklənib, mənim könül rübabım?
Düşünülüb, duyulub, çəkilibdir hesabım?
O həm kefdən, nəşədən, həm də qəmdən yarandı,
Qəlbimdəki ən həssas, zərif simdən yarandı.
O eyhamdan yarandı, gözdən-qaşdan yarandı,
Könlümdəki közərən, od-atəşdən yarandı.
Vətənimə, xalqıma sədaqətdən yarandı,
Eşqin ulu sevdası, məhəbbətdən yarandı,
İnsanlığa xas olan, ləyaqətdən yarandı.
Sözümdən-söhbətimdən, heyrətimdən yarandı,
Qeyrətimdən, əzmimdən, cürətimdən yarandı.
Qəlbimdəki təpərdən, riqqətimdən yarandı,
Nəzərimdən, baxışdan, diqqətimdən yarandı.
Gecə-gündüz çəkdiyim, zəhmətimdən yarandı,
Öz xalqıma qayğımdan, xidmətimdən yarandı.
Yaxşı-pisə verdiyim, qiymətimdən yarandı,
Sinə gərib dözdüyüm, zillətimdən yarandı.
*Mənim şeir kitabım,* bu həyatdan yarandı,
Bu dövrandan, zamandan, toy- büsatdan yarandı.
O, mənim bu dünyaya boylanan gözlərimdir,
Millətimə xitabən söylənən sözlərimdir.
Bu aləmdə çəkdiyim cəfamın övladıdır,
İdrakımın, zəkamın, qafamın övladıdır.
İnsanlığa, varlığa vəfamın övladıdır,
Sürmək üçün həyatda, səfamın övladıdır,
Saf üfüq asimanda, havamın övladıdır.
O, düşünən, dərk edən, dərrakəmdir, başımdır,
Bu cahanı gəşt edən xəyalımdır, huşumdur.
*Şeir mənim idrakım,* düşüncəmdən yarandı,
Əzabımdan, zülümdən, işgəncəmdən yarandı.
Məzlumlara, yazığa, nüsrətimdən yarandı,
Zalımlara, qəddara, nifrətimdən yarandı,
İçimdəki püsgürən, hiddətimdən yarandı.

O insafdan, rəhmdən, kəramətdən yarandı,
Ədəb-ərkan, mərifət, nəzakətdən yarandı.
Səmimiyyət, ehtiram, xoş niyyətdən yarandı,
Xeyirxahlıq, nəciblik, fəzilətdən yarandı.
O hünərdən törədi, zəfərimdən doğuldu,
Gələcəyə uğurlu səfərimdən doğuldu.
Sağlam fikir xəyaldan, ilhamımdan güc aldı,
Haqsızlığı gördükcə zaman-zaman qocaldı.
Ülvi arzu-istəyim, diləyimdən güc aldı,
Neçə-neçə dühadan, nəhənglərdən güc aldı,
Neçə alim-üləma, loğmanlardan güc aldı.
O dağların, bağların çəmənidir, gülüdür,
Əqlimin cövhəridir, incisidir, ləlidir.
Şərəfimdi o mənim, şöhrətimdi o mənim,
Kəramətim, insafım, mürvətimdi o mənim,
Əlimdəki qalxanım, nüsrətimdi o mənim.
Əqidəm, məsləkimdi, amalımdı o mənim,
Xülyamda əks olunan, kamalımdı o mənim,
Mənliyimi göstərən camalımdı o mənim.
İlhamımdı o mənim, həvəsimdi o mənim,
Cismi-canım, varlığım, nəfəsimdi o mənim.
Ayımdı, ulduzumdu, günəşimdi o mənim,
Ruhumda şölə saçan, atəşimdi o mənim.
*Şeir mənim həvəsim*, ürəyimdi a dostlar,
Ana yurduma, Vətənə, gərəyimdi a dostlar,
Azdan-çoxdan nə varsa köməyimdi a dostlar.
Xəlbirimdən süzülüb, ələyimdən o keçib,
Sağlam arzu-muradım, diləyimdən o keçib.
Səmaya uçmaq üçün, qanadımdır, qolumdur,
Haqq-ədalət yönündə, addımlayan yolumdur.
*Mənim şeir kitabım,* həyat özü olubdu,
Ürəyimin arzusu, odu-közü olubdu.
Mühitimin səsidir, zamanımın səsidir,
Qəlbimdə sızıldayan, kamanımın səsidir.
Etiqadım, pənahım, inamımın səsidir,
Qüvvətimin, gücümün, imkanımın səsidir,
Xəyalımda dolanan gümanımın səsidir.
Xəzanlara qərq olan, solanların səsidir,
Ayaq altda tapdanıb, qalanların səsidir,

Gözyaşını axıdıb, silənlərin səsidir.
*Şeir mənim obamın*, mahalımın səsidir,
Neçə-neçə cavanın, cahalımın səsidir.
Neçə müdrik qocanın, ahalımın səsidir,
Söz eşitməz, anlamaz, kahalımın səsidir.
Özündən bədgümanın, xudbinlərin səsidir,
Fəqirlərin naləsi, bədbinlərin səsidir.
Səadətin naminə, sədaqətin səsidir,
Hatəmlərdən dərs alıb, səxavətin səsidir.
İnsanlığa xas olan, ləyaqətin səsidir,
Doğruluğun, düzlüyün, həqiqətin səsidir.
Neçə ağlıkəmlərin, divanənin səsidir,
Oda-közə qərq olan, pərvanənin səsidir.
İradənin, dözümün, qətiyyətin səsidir,
Sonsuzluğun səsidir, nihayətin səsidir.
Nəcibliyin, paklığın, məlahətin səsidir,
Ədəb-ərkan, hörmətin, nəzakətin səsidir.
*Mənim şeir kitabım,* ölənlərin səsidir,
Sevilənin, sevənin, gülənlərin səsidir.
Mütaliə edənin, bilənlərin səsidir,
Köç eyləyib gedənin, gələnlərin səsidir,
Olanların səsidir, qalanların səsidir.
Neçə-neçə cahilin, nadanların səsidir,
Addımını tərsinə adanların səsidir.
Haqq-sayı sümürüb udanların səsidir,
Tərbiyədən yarımçıq dadanların səsidir.
Yol-izini azanın, çaşanların səsidir,
Hüdudunu, həddini aşanların səsidir,
Şər-böhtanla qaynayıb daşanların səsidir.
Şərəfli tariximi yazanların səsidir,
Doğruları-tərsinə yozanların səsidir,
Ünsiyyəti-ülfəti, pozanların səsidir.
Kin-küdurət, niftətin qəbahətin səsidir,[2]
Qal-qovğadan törəyən, ədavətin səsidir.
Neçə-neçə xainlik, xəyanətin səsidir,
Gileylərin, güzarın, şikayətin səsidir,

[2] Yerli-yersiz törəyən qəbahətin səsidir.

Yer üzünü bürüyən, cinayətin səsidir.
Avamlığın səsidir, cəhalətin səsidir,
Siz baxıb qiymət verin, nəhalətin səsidir?
Ah-nalənin, fəryadın, müsibətin səsidir,
İnsanlığı məhv edən, fəlakətin səsidir.
Təkcə mənimha deyil, cəmiyyətin səsidir,
Bütün elin-obanın, məmləkətin səsidir.
Oxuyana, bilənə həyat fəlsəfəsidir,
Xeyirlə şər qüvvənin, döyüş bəhsəbəhsidir.
*Mənim şeir kitabım,* yol göstərir hamıya,
Əsirgəmir heç nəyi, bol göstərir hamıya.
Çap edilsə, oxunarsa, gərək olar ellərə,
Zəhmət çəkən qollara, biləklərə, əllərə.
Qocalara, ahala, cavana da gərəkdir,
Mərd igidə, nərlərə, zənana da gərəkdir.
*Mənim şeir kitabım,* Nizamidən dərs alıb,
Əfzələddin Xaqani, Nəsimidən dərs alıb.
Füzulidən dərs alıb, Seyid Əzimdən dərs alıb,
Cavidimdən, Vurğundan, Zərdabidən dərs alıb,
Nəsirəddin Tusidən, Fərabidən dərs alıb.
Onlar mənim babamdır, mən onların nəvəsi,
Ulu babamdan almışam, sinəmdəki həvəsi.
Şeir mənim avazım, mən adicə səsiyəm,
Onlar nədən deyibsə, mən ondan deyəsiyəm.
Ruh bədənə bağlıdır, bədən səsə bağlıdır,
Əzəl gündən bu günə, eşq-həvəsə bağlıdır.
*Mənim şeir kitabım,* qananlara yazıldı,
Fərhadlara, Məcnuna, Sənanlara yazıldı,
İnciyib küsənlərə, umanlara yazıldı.
Əslilərə, Leyliyə, Şirinlərə yazıldı,
Məhəbbəti, istəyi dərinlərə yazıldı.
*Şeir mənim dövlətim,* sərvətimdir, malımdır,
Misralara dönüşən məramım, amalımdır.
Xalqı soyub, talayan kalanlara bax deyir,
Zülm altında əzilən, qalanlara bax deyir.
Fikirlərə, xəyala dalanları gör deyir,
Sözlərində saxtanı, yalanları gör deyir.
Əqrəbləri, iblisi, ilanları gör deyir,
Onu-bunu vuranı çalanları gör deyir.

Dağılanı, uçanı, söküləni gör deyir,
Qamətləri yay kimi büküləni gör deyir.
Qal-qovğada, davada ölənləri gör deyir,
Ona-buna lağ edib, gülənləri gör deyir.
Bərəlgəni gör deyir, bələnləri gör deyir,
Neçə-neçə gedəni, gələnləri gör deyir.
Ulğunları belləyib bitirəni gör dedi,
Əməyini, zəhməti itirəni gör dedi.
Ağır möhnət yükünü götürəni gör dedi,
Karlılarla otur-dur, karsızlardan kənar dur,
Arlılarla yarat-qur, arsızlardan kənar dur.
Bağban olub bağ salıb, meyvəsini dər dedi,
Elə, xalqa borcunu, hər an qaytar ver dedi.
Gözlərini yaxşı sil, bu dünyaya bax dedi,
Buludların içində, şimşək olub çax dedi.
Olan, qalan, hər nə var bir-bir yada sal dedi,
Bu dünyadan, həyatdan ilhamını al dedi.
Ətrafını seyr elə, olanları gör dedi,
Fikirlərdən, xəyaldan dolanları gör dedi,
Qönçələrdə açmamış solanları gör dedi.[3]
Harda olsan, yaşasan, ayıq gözlə dolan sən,
Daha yaxşı peyvənd ol, ürəklərə calan sən. [4]
*Mənim şeir kitabım,* damla-damla törədi,
Dadağ-çöçək eyləyib, addımladı, yeridi.
Gör haçandan bəridir, dil açmadı, kiridi?
Öz içimdə qövr edib, zaman-zaman əridi.
Mənim sözüm-söhbətim, xəyalımda dolandı,
Gəzib eli-obanı, mahalımda dolandı.
Qəlpə-qəlpə qoparaq, o yazıldı kağıza,
Eldən-elə keçərək, düşdü dilə, ağıza.
Hərkəs duyub, anlasa səfasını sürəcək,
İlqarına inanıb, vəfasını görəcək.
Mənasını qanana o hər zaman gərəkdir,
Əllərində əsadır, sütununa dirəkdir.
*Mənim şeir kitabım,* hələ yarı qalıbdır,
Yetişməmiş, dəyməmiş, rəngi sarı qalıbdır.[5]

---

[3] Qəflətlərdə qərq olub, solanları gör dedi.
[4] Ülfət eylə qananla, ürəklərə calan sən.

Cəm olmayıb biryerə, toplanmamış qalıbdır,
Axtarılıb, aranıb, tapılmamış qalıbdır.
Əldən-ələ keçməyib, çoxlarına çatmayıb,
Qəflətlərdə yatanı, yuxudan oyatmayıb.
Əl uzatdı çoxuna, "oxu" dedi, gəl məni,
Bir zaman gərək olar, öyrən dedi, bil məni,
Gözlərini yaxşı sil, bu dünyada gör məni.
Mənim sözüm-söhbətim yüz ölçülüb, biçilib,
Çoxlarının yanında böyüməmiş kiçilib.
Çox boya-buxunlara, düz ölçülüb, biçilib,
Kəlmələri, cümləsi, söz ölçülüb, biçilib.
Dərk olunub yerbəyer, düşünülüb deyilib,
Öz qəlbimin odunda, isinilib deyilib.
Məqamında duyana xoş dövrandır, büsatdır,
Həsrətini çəkənə, həm nüsrətdir, nicatdır.
Ariflərin yanında, sərrafların ləlidir,
Eşqin çəmənzarında bəslənilən gülüdür.
Onun uca dağları, aranı da var, bilin!
Gilavarı, nəsimi, boranı da var, bilin!
Dəryalardan dərindir, o dağlardan ucadır,
Nəvələrdən cavandır, babalardan qocadır.
Gəl seyrinə çıx onun, zirvəsi də var onun,
Nəvazişi varsa da, zərbəsi də var onun.
Al-şəfəqli səhəri, gecəsi də var onun,
Şirin-şərbət zülalı, cecəsi də var onun.
Gəzmə dayaz yerində, dərini də var onun,
İstiləri, bürküsü, sərini də var onun.
*Mənim şeir kitabım,* ariflərə şəkərdir,
Anlayıb qanmayana, acı, zəqqum, zəhərdir.
Mətləbini duyana ömürboyu gərəkdir,
Kütbeyinə, fərsizə, qəm-qüssədir, qəhərdir.
Söz qədrini bilənə zülal dadır, bal dadır,
Nanəcibə, xoryada, abqoradır, kal dadır.
Düşünənə, qanana, dərk edənə yarayır,
Mehri-ülfət eyləyir, səmimiyyət arayır.
Onun məğzi, mənası çox dərdlərə dərmandır,
Haqq-divansız hakimdir, ədalətli fərmandır.

---

[5] Butaqlarda, yarpaqda, rəngi sarı qalıbdır.

Şeirimin mürəkkəbi, ürəyimin qanıdır,
Ən müqəddəs, ən ülvi, diləyimin şanıdır.
Mən sözümü heç kimə, sataşmağa demədim,
Əlbəyaxa olmağa, tutaşmağa demədim.
Aynasını qırmağa, daş atmağa demədim,
Könülləri sındırıb, qanatmağa demədim.
Mən sözümü demədim xətirə dəymək üçün,
Qamətləri sarsıdıb, vüqarı əymək üçün.
Demədik ki, toxunub, əsəbləri korlayım,
Tarımlara çəkərək, hissləri zorlayım.
Sözümü demişəmki, ürəyimdə qalmasın,
Xoş məramım istəyim, saralıb soluxmasın.
Nisgil olub qalmasın ürəklərdən keçənlər,
Sağlam fikir, xəyaldan, diləklərdən keçənlər.
Mən sözümü dedim ki, ellər dadsın tamını,
Sürsün gözəl dövranı, götürsünlər kamını.
İstədimki, sözümlə ədaləti car çəkim,
Doğruluğu, düzlüyü, həqiqəti car çəkim,
Ədəb-ərkan yolunu, nəzakəti car çəkim.
Kimlər onu anlasa səadətə çatacaq,
Cəhalətin yükünü, öz boynundan atacaq.

***Cəmil Əkbər*** 14. 08 - 1992

## 2. MƏNİM ŞEİR KİTABIM (2)

Bunu bilsin oxucum, mənim şer kitabım,
Xalq üçün müraciət, xalqım üçün xitabım.
El üstündə köklənib mənim könül rübabım,
Xalqım üçün yazılıb, çəkilibdir hesabım.
O həm kefdən, nəşədən həm də qəmdən yarandı,
Doğruluqdan, düzlükdən, həqiqətdən yarandı.
Bu ellərə-obaya hörmətimdən doğuldu,
İnsafımdan güc aldı, mürvətimdən doğuldu.
Nəzərimdən doğuldu, diqqətimdən doğuldu,
Təpərimdən doğuldu, riqqətimdən doğuldu.
Hünərimdən doğuldu, zəfərimdən doğuldu,
Gələcəyə uğurlu səfərimdən doğuldu.
Ürəyimdən süzüldü, o yazıya, kağıza,
Adaq-çöçək eyləyib, düşdü dilə-ağıza.

Saf arzudan, fikirdən, pak niyyətdən yarandı,
İnsanlığa xas olan ləyaqətdən yarandı.
Ədəb-ərkan gözlədi, nəzakətdən yarandı,
Yaşadığım zamandan, cəmiyyətdən yarandı.
Xəyalımda dolandı, ilhamımdan güc aldı,
Yaşa dolub mənimtək, zaman-zaman qocaldı.
Onun dağı varsa da, aranı da var bilin,
Odu-közü var isə, boranı da var bilin.
Tikanları, qanqalı, gülləri də var onun,
Sərrafların yanında ləlləri də var onun.
Onun dərin yarğanı, zirvəsi də var imiş,
Nəvazişi, nicatı, zərbəsi də var imiş.
Onun nurlu səhəri, gecəsi də var bilin,
Şirin-şərbət, zülalı, cecəsi də var bilin.
Gəzmə, dayaz yerində, dərini də var bilin,
Gilavarı mehi də, sərini də var bilin.
*Mənim şer kitabım,* ariflərə şəkərdi,
Anlamaza, qanmaza zəqqutumdu, zəhərdi.
Eşidənə, bilənə ömürboyu bəhərdi,
Biganəyə, fərsizə, qəm-qüssədi, qəhərdi.
Söz qədrini bilənə zülal dadır, bal dadır,
Sərsəriyə, giclərə, abqoradır, kal dadır.
*Mənim şer kitabım,* dərk edənə yarayır,
Mehribanlıq diləyir, səmimiyyət arayır.
Onun məğzi, mənası oxuyana dərmandı,
Haqq-divansız hakimdi, hökm edilən fərmandı.

***Cəmil Əkbər*** 7. 10 – 1987

## 3. MƏNİM SÖZÜM-SÖHBƏTİM

Mənim sözüm-söhbətim, mənim şeir kitabım,[6]
Xalqım üçün töhfədi, müraciət xitabım.[7]
O həm kefdən, nəşədən, zildən, bəmdən yarandı, [8]
Qüssə-kədər, məlaldan, dərdi-qəmdən yarandı.[9]

---

[6] Mənim sözüm-söhbətim, budur şeir kitabım,
[7] Xalqım üçün hədiyyəm, müraciət xitabım.
[8] 1) O həm kefdən, nəşədən, həm də dəmdən yarandı. 2) O kefimdən, nəşəmdən, həm dəmimdən yarandı.

İztirabdan, əzabdan, həsrətimdən yarandı,[10]
Xalqım üçün qayğıdan, nüsrətimdən yarandı.[11]
O acıqdan, qəzəbdən, hiddətimdən yarandı,[12]
Haqqa qənim çıxana, nifrətimdən yarandı.[13]
Xilqətimdən yarandı, xislətimdən yarandı,[14]
Abırımdan, həyamdan, ismətimdən yarandı.
Məzmunumdan, mənamdan, hikmətimdən yarandı.
Ehzazımdan, kinimdən, riqqətimdən yarandı,[15]
O fəhmimdən yarandı, diqqətimdən yarandı.[16]
Xatirimdən yarandı, hörmətimdən yarandı,
Şərəfimdən, şanımdan, şöhrətimdən yarandı.
Saf döyünüb, pak vuran, ürəklərdən güc alıb,
Nəcib arzu-istəkdən, diləklərdən güc alıb.
Huri-pəri, qılmandan, mələklərdən güc alıb,
Dəqiq mizan-tərəzi, ələklərdən güc alıb.
Yorulmayan qollardan, biləklərdən güc alıb,
Qasırğadan, tufandan, küləklərdən güc alıb.
Dahiləri oxuyub, nəhənglərdən güc alıb,
Begemotdan, aslandan, pələnglərdən güc alıb.
*Mənim sözüm-söhbətim,* zəmanənin səsidir,[17]
Tarixlərə həkk olan, səlnamənin səsidir.
Etiqadım, imanım, inamımın səsidir,[18]
Zilə, bəmə köklənən kamanımın səsidir,
Öz əqlimin, hissimin, gümanımın səsidir.[19]
Nadanlığın səsidir, cəhalətin səsidir,
Avamlığın səsidir, qəbahətin səsidir.
Küdurətin səsidir, ədavətin səsidir,
Xainliyin səsidir, xəyanətin səsidir.

---

[9] Həm qüssədən, kədərdən, həm qəmimdən yarandı.
[10] İztirabdan yarandı, həsrətimdən yarandı.
[11] 1) Öz xalqımaköməkdən, nüsrətimdən yarandı. 2) Məzlumlara, yazığa, nüsrətimdən yarandı.
[12] Mənim sözüm söhbətim, hiddətimdən yarandı,
[13] İnsafsıza, qansıza, nifrətimdən yarandı.
[14] İnsanlığa xas olan xislətimdən yarandı.
[15] Qəzəbimdən, kinimdən, riqqətimdən yarandı.
[16] O fəhimdən yarandı, diqqətimdən yarandı.
[17] Mənim sözüm-söhbətim, zamanımın səsidir.
[18] Etiqadın səsidir, inamımın səsidir.
[19] Ürəyimdə hökm edən, gümanımın səsidir.

Gileylərin, güzarın, şikayətin səsidir,
Haqsızlıqdan törəyən, cinayətin səsidir.
Yoxsulluğun səsidir, zəlalətin səsidir,
İnsanlığı məhv edən, fəlakətin səsidir.
Nəcibliyin səsidir, məlahətin səsidir,
Ədəb-ərkan səsidir, nəzakətin səsidir.
Sədaqətin səsidir, səxavətin səsidir,
Bədxahlığın səsidir, fəzilətin səsidir.
İşgəncənin, əzabın, əziyyətin səsidir,
Doğruluğun, düzlüyün, həqiqətin səsidir.
Təkcə mənim deyildir, cəmiyyətin səsidir,[20]
Ən müqəddəs, ən ülvü, pak niyyətin səsidir.
İradənin, dözümün, qətiyyətin səsidir.
Bu söz mənim sərvətim, Vətənimin barıdır,[21]
Bağçasında yetişən alma, heyva, narıdır.[22]
Dağlarının çeşməsi, çəmənidir, gülüdür,[23]
Ağuşunda bəslənən incisidir,ləlidir.[24]
Ürəyimdə yetişib, kamalımda bəslənib,
Əqidəmdə, məsləkdə, amalımda bəslənib.
El-obamda, yurdumda, mahalımda bəslənib,
Düşüncəmdə dolanıb, xəyalımda bəslənib.
*Mənim sözüm-söhbətim,* kamalımın səsidir,
Əqidəmin, məsləkin, amalımın səsidir.
Yurd-yuvam el-obamın, mahalımın səsidir,
Öz duyğumun, hissimin, xəyalımın səsidir.
Yaşadığım bu xalqın, əyalımın səsidir.[25]
Öz arzumdan süzülüb, ürəyimdən güc alıb,
Nəcib-ülvi istəkdən, diləyimdən güc alıb.
Yorulmayan qolumdan, biləyimdən güc alıb,
Öz canımdan, qanımdan, iliyimdən güc alıb.
*Mənim sözüm-söhbətim,* heyrətimdən yarandı,
İnsafımdan başlayıb, mürvətimdən yarandı.[26]

---

[20] Tək insanın deyildir, cəmiyyətin səsidir.
[21] Onu mən söyləsəm də, vətənimin varıdır,
[22] Bağlarında yetişən heyvasıdır, narıdır.
[23] Dağlarının çeşməsi, çəməninin gülüdür.
[24] 1) Sərrafların yanında incisidir, ləlidir. 2) Ən qiymətli, dəyərli, incisidir, ləlidir.
[25] El-obamın, xalqımın, əyalımın səsidir.
[26] 1) İnsafımdan yarandı, mürvətimdən yarandı, 2) İnsafıma söykənib, mürvətimdən yarandı.

Doğru ülfət, təmasdan, ünsiyyətdən yarandı,
İftixardan, fərəhdən, ülviyyətdən yarandı.
*Mənim sözüm-söhbətim,* ədalətdən yarandı,
Doğruluqdan, düzlükdən, həqiqətdən yarandı.
Yaşadığım mühitdən, cəmiyyətdən yarandı,[27]
Qəlbimdə cövlan edən, hərarətdən yarandı,
Şairlərə xas olan xəyalətdən yarandı.
Gör haçandan bəridir, zəhmətimin barıdır?[28]
Azdan-çoxdan xalqıma, xidmətimin barıdır,
Nəzərimin barıdır, diqqətimin barıdır,
İstəyimin barıdır, riqqətimin barıdır.
Məzmunumun barıdır, hikmətimin barıdır,
Əzabımın barıdır, zillətimin barıdır.
Ürəyimi doğrayan hillətimin barıdır,
Xalqımın, el-obamın, millətimin barıdır.
Zaman-zaman bəslənib, kəlmə-kəlmə törəyib,[29]
Adaq-çöçək eyləyib, ayaq açıb yeriyib.[30]
Gör haçandan bəridir danışmayıb, kiriyib?
Öz içimdə qövr edib, zaman-zaman əriyib?
*Mənim sözüm-söhbətim,* xəyalımda dolanıb,
Doğma elim, obamda, mahalımda dolanıb,
Qəlpə-qəlpə qoparaq, o yazıldı kağıza, [31]
Eldən-elə keçərək düşdü dilə-ağıza.[32]
*Mənim sözüm-söhbətim,* sədaqətdən yarandı,
Eşqin ulu sevdası, məhəbbətdən yarandı.
Qeyrətdən, qətiyyətdən, ləyaqətdən yarandı,
Nəcib-zərif duyğudan, pak niyyətdən yarandı.
Səxavətin səsidir, sədaqətin səsidir,
Qanmaz ilə cahilə, ədavətin səsidir.
*Mənim sözüm-söhbətim,* xəstələrə dərmandır,
Eşidib anlayan şəfa verən məlhəmdir,
O pak qəlbin hökmüdür, haqq-divansız fərmandır. [33]

[27] Yaşadığım ellərdən, cəmiyyətdən yarandı.
[28] Mənim sözüm-söhbətim, zəhmətimin barıdır.
[29] Zaman-zaman yetişib peyda olub törəyib,
[30] Adax, çöçək eyləyib, addımlayıb, yeriyib.
[31] Ləpələndi sinəmdən, o yazıldı kağıza,
[32] Əldən-ələ keçərək düşdü dilə, ağıza.
[33] Qəsd-qərəzsiz hökümdür, haq-divansız fərmandır.

Hərkim duyub-anlasa səfasını görəcək,[34]
İlqarına inanıb, vəfasını görəcək.
*Mənim sözüm-söhbətim,* bu həyatdan güc aldı,
Bu yollarda çalışıb, bu güzarda qocaldı.
Dərk edib qananlara, hal əhlinə bal dadır, [35]
Nadanlara, cahilə yetişməyib, kal dadır.[36]
*Mənim sözüm-söhbətim,* ariflərə şəkərdir,[37]
Anlamaza, qanmaza dərdi-bəla, qəhərdir.[38]
*Mənim sözüm-söhbətim,* həvəsimdən yarandı,
Ciyərimdə tər-təmiz, nəfəsimdən yarandı.
Mənasını qanana ömürboyu gərəkdir,[39]
Büdrəyənə əsadır, əyilənə dirəkdir.
*Mənim sözüm-söhbətim,* yüz ölçülüb, biçilib,
Vaxt olubki böyüyüb, vaxt olubki kiçilib.
Boy-buxuna münasib düz ölçülüb, biçilib,
Kəlmələri yerbəyer, söz ölçülüb biçilib.
Dərk olunub deyilib, düşünülüb deyilib,
Öz qəlbimin oduyla isinilib deyilib.
*Mənim sözüm-söhbətim,* anlayana həyatdır, [40]
Məqamında duyana, xoş dövrandır, büsatdır.[41]
Sərsəriyə, giclərə, müsibətdir, cihatdır,[42]
İnsanlığa öclərə sanmasınki nicatdır.[43]
*Mənim sözüm-söhbətim,* sərraflarınləlidir,
Eşqin çəmənzarında bəslənilən gülüdür.
Öz xalqıma, elimə azdan-çoxdan xidmətdir,
Ən adicə hədiyyə, ən sadəcə nemətdir.
Onun uca dağları, aranı da var bilin,
Gilavarı küləyi, boranı da var bilin.
*Mənim sözüm-söhbətim,* yüz ölçülüb, deyilib,

---

[34] 1) Hərkim duyub-anlasa səfasını görəcək, 2) Kim eşidib-anlasa səfasını sürəcək.
[35] Əhli-dərd insanlara əminəm ki, bal dadır,
[36] Sərsəriyə, giclərə, zəhər dadır, kal dadır.
[37]Mənim sözüm-söhbətim, hal əhlinə şəkərdir,
[38] Əhlikefə, nadana manasızdır, bekardır.
[39] Dərk edənə, qanana ömürboyu gərəkdir.
[40] Anlayana, qanana bəxş edilən həyatdır,
[41] Dərk edənə, qanana toy-bayramdır, büsatdır.
[42] Məqamında, yerində qanmayana cihatdır.
[43] İnsanlığa öclərə demirəmki nicatdır?

Boy-buxuna münasib, düz ölçülüb, deyilib.
Dönə-dönə dərindən düşünülüb, deyilib,
Qəlbimin atəşində, isinilib, deyilib.
*Mənim sözüm-söhbətim,* dünya görmüş qocadır,
Sanmasınlar ayıbdır, əfsanədir, becadır,
Kiçiklərdən-kiçikdir, ucalardan-ucadır.
Seyrinə çıx sən onun, zirvəsi də var onun,[44]
Nəvazişi varsa da, zərbəsi də var onun.[45]
Al-şəfəqli gündüzü, gecəsi də var onun,
Meyxoş edən zülalı, cecəsi də var onun. [46]
Onun dağı varsa da, aranı da var bilin,
Xəzri əsən küləyi, boranı da var bilin.
Qılıncının ovxarı, kəsəri də var onun,
Könülləri ram edən, əsəri də var onun.
Faydası da var onun, səməri də var onun,[47]
Xalqım üçün tükənməz bəhəri də var onun.
*Mənim sözüm-söhbətim,* sayanlara atadır,[48]
Saymayana neyləyim, deyirlərki xətadır.[49]
Hiss edənə, duyana ənaətdir, ətadır,[50]
Məhəbbətdən zühr edən, gül dəstəsi, bütadır.[51]
Mən sözümü heçkəsə sataşmaqçün demədim,[52]
Kiminləsə öcəşib, tutaşmaqçün demədim.
Ünvanına tuşlayıb, daş atmağa demədim.[53]
Kəllə vurub ağzına, baş atmağa demədim.
*Mənim sözüm-söhbətim,* yaşatmağa deyilib,
Ömürləri-günləri uzatmağa deyilib.
İnsanları yaşadıb, qocaltmağa deyilib,
Zirvələrdən-zirvəyə ucaltmağa deyilib.

---

[44] Uçurumu, yarğanı, zirvəsi də var bilin.
[45] Min bir zövqü-səfası, zərbəsi də var bilin.
[46] Kara yetən zülalı, cecəsi də var onun.
[47] Xalqım üçün faydası, səməri də var onun.
[48] Mənim sözüm-söhbətim, körpələrə atadır.
[49] Cahillərə, nadana sanacaq ki, xətadır.
[50] 1) Xalqım üçün o mənim qəlbimdəki ətadır. 2) Dərk edənə, qanana, ənaətdir, ətadır.
[51] Məhəbbətin bağından qönçələnmiş butadır.
[52] 1) Qoy eşidən anlasın sataşmağa demədim. 2) Qoy oxucum anlasın, sataşmağa demədim.
[53] 1) Aynasını qırmağa, daş atmağa demədim. 2) Bircə insanoğluna, daş atmağa demədim.

*Mən sözümü demədim*, xətirə dəymək üçün,
Qamətləri sarsıdıb, vüqarı əymək üçün.
Kimsəyə nifrət edib, kimsəyə söymək üçün,
Kimsələri qısnayıb, kimsəni döymək üçün.
*Mən sözümü demədim*, ürəkləri qorlayım,
Xətir-hörmət nə varsa, alt-üst edib korlayım,[54]
Al-qanları qaraldıb, hissləri zorlayım. [55]
Nisgil olub qalmasın ürəklərdən keçənlər, [56]
Arzulardan, istəkdən, diləklərdən keçənlər.[57]
*Mən sözümü dedim ki,* hamı dadsın tamını,
Dövranını sürərək götürsünlər kamını.[58]
Boş keçirib vaxtını sonra peşman olmasın,
Öz-özünü danlayıb, qəvi düşmən olmasın.
*Mən sözümü dedimki,* can deyib-can eşidək,
Dərk eyləyib, anlayaq, qan deyib, qan eşidək.
Doğru sezib, düz duyaq, düz anlayıb eşidək,
Gecikməyib bir anda, tez anlayıb eşidək.
*Mən sözümü dedim ki,* ədaləti car çəkim,
İstədim ki, sözümlə xoş adəti car çəkim,[59]
Ədəb-ərkan, qaydanı, nəzakəti car çəkim.
Abır-ismət, iffəti, ləyaqəti car çəkim,[60]
Doğruluğu, düzlüyü, həqiqəti car çəkim.
Qardaşlığı, dostluğu, səadəti car çəkim,
Sevilməyi, sevməyi, məhəbbəti car çəkim.[61]

***Cəmil Əkbər*** 10-16 // 10 – 1987

---

[54]1) Demədim ki, haqq-nahaq əsəbləri korlayım. 2) Al-qanları qaraldıb, əsəbləri korlayım.
[55] Vurub tarıma çəkib, hissiləri zorlayım.
[56] Nisgil olub qalmasın, ürəyimdən keçənlər,
[57] Xəyalımda canlanıb, diləyimdən keçənlər.
[58]Sürsün öz dövranını, götürsünlər kamını.
[59] Mən sözümü dedim ki, xoş adəti car çəkim.
[60]İnsanlığa xas olan, ləyaqəti car çəkim,
[61]1) Ünsiyyətdə-ülfətdə, məhəbbəti car çəkim. 2) Ünsiyyətdə-ülfətdə, bu adəti car çəkim.

## 4. USTAD NİZAMİYƏ

*I variant*

Zəmanədə nə yaxşı, bəyan etdin sözünü,
Məchulları bildirib, əyan etdin sözünü.
Sinə gərib dözərək, əsrlərdən keçmisən,[62]
Neçə-neçə qərinə, fəsillərdən keçmisən.
Harda olsaq, yaşasaq kara gəldi sözlərin, [63]
Açılaraq qönçədən, bara gəldi sözlərin.
Məqamında ay ustad, gör bir nələr demisən? [64]
Aşkar edib sirləri, gör nələr bildirmisən?[65]
Yaddaşdan çıxmayırsan, elin nəzərindəsən,
Arazında, Küründə, mavi Xəzərindəsən.
Yayınmırsan gözümdən, hər an güzarımdasan,
Məhəbbətin diyarı, eşqin bazarındasan.
Vərəqlədim "Xəmsə"ni, dönə-dönə oxudum,
Hər vərəqdə, sətirdə ətirini qoxudum.
Sən söyləyib demisən, fikirlərin düzünü,
Nəyaxşıki vaxtında oxumuşam sözünü.
Elə sandım, bildim ki, göydən nur ələmisən,[66]
Ləl-cəvahir səpərək, inci-dür ələmisən.[67]
Şeirlərin hərzaman dərman kimi gərəkli,
Ədalətli qərartək, fərmantəki gərəkli.
Nə demisən, yazmısan, yerbəyerdi sözlərin,
Çox uzağı görürmüş, nur işıqlı gözlərin.[68]
Dəyişsədə zəmanə, qiymətini itirmir,
Bəzəyini azaltmır, zinətini itirmir.
Məqsədini, məramı, niyyətini bildirir,
Nicatını, nüsrəti, hikmətini bildirir.
Qayğısını, yardımı, xidmətini göstərir,
Ünsiyyətdə, ülfətdə, hörmətini göstərir.
Səni görüm min yaşa, əsrlərlə ay ustad,
Neçə-neçə gələcək, nəsillərlə ay ustad.[69]

---

[62] Əsrlərdən adlayıb, sən illərdən keçmisən.
[63] Oxuyana, bilənə kara gəldi sözlərin.
[64] Məqamında düşünüb, gör bir nələr demisən?
[65] Aşkar edib sirləri, nələri bildirmisən.
[66] Elə sandım, bildim ki, göydən nurdur ələnən.
[67] Ləl-cəvahir, yaqutdu, inci, dürdü ələnən.
[68] Düşünənə, qanana, inci, zərdi sözlərin.

Günəş göydə nurunu azaltmasın bizlərə,
Sən də yerdə dayanma, işıq gətir gözlərə.
Həvəs gətir ürəyə,  qüvvət gətir dizlərə,
Nəfəs gətir ilhama, cürət  gətir sözlərə.
Nəolaydı səninlə dura biləm üz-üzə,
Boylanaydım, baxaydım qabaq-qarşı göz-gözə.
Bir biləydim, görəydim, sən nələri çəkmisən?
Peyvənd vurub nəqədər ağacları əkmisən?
Hüzurunda dayanıb, səni sayan oldumu?
İqtidar sahibləri, sənə həyan oldumu?
Yoxsa sondan-sonamı ustad kimi tanındın?
Bu bəşərə, bu xalqa imdad kimi tanındın?

***Cəmil Əkbər***

## 5. USTAD NİZAMİYƏ

*II variant*

Zəmanənin səsinə həyan bildim səsini,
Nəyaxşıki vaxtında bəyan etdin səsini.
Əsrləri addayıb, o illəri keçsə də,
Qərinədən addayıb, fəsilləri keçsə də,
Neçə-neçə günləri, çox ayları keçsə də,
Çox irmaqlar, nəhrlər, çox çayları keçsə də.
Zəmanənin səsinə həyandır sənin səsin,
Müdriklərdən bəşərə, bəyandır sənin səsin.
Harda olsaq, yaşasaq kara gəlir sözlərin,
Qəlbimizə nəqş olub, silinməyir izlərin.
Ellər bilir, oxuyur, gör bir nələr demisən?
Nələri aşkar edib, nələri bildirmisən?
Gör haçandan bəridir, elin nəzərindəsən?
Arazında, Küründə, mavi Xəzərindəsən.
Yayınmırsan gözlərdən, hər an güzarımdasan,
Tükənməyən məhəbbət, eşqin bazarındasan.
Vərəqlədim "Xəmsə"ni dönə-dönə oxudum,
Hər vərəqdə, sətirdə hey ətrini qoxudum.
Nəyaxşıki ay ustad bəyan etdin sözünü,

---

[69] Keçmişdə də, indi də nəsillərlə ay ustad.

Sən də dahilər kimi, yummamısan gözünü.
Sanki onu yazmaqla göydən nur ələmisən,
Ləl-cəvahir səpərək, inci, dürr ələmisən.
Sözün bizə ay ustad, dərman kimi gərəkdir,
Ədalətli qərartək, fərman kimi gərəkdir.
Nə demisən ay ustad, yerbəyerdi sözlərin,
Hey uzağı görərmiş, nur işıqlı gözlərin.
Gör haçandan bəridir, qiymətini itirmir?
Bəzəyini azaltmır, zinətini itirmir.
Məqsədini, məramı, niyyətini itirmir,
Qüvvəsini, gücünü, hikmətini itirmir.
Nicatını saxlayır, nüsrətini itirmir,
El-obaya qayğını, xidmətini itirmir.
Görüm səni min yaşa, əsrlərlə ay ustad,
Yeni-yeni çox belə, nəsillərlə ay ustad.
Günəş göydə nurunu azaltmasın bizlərə,
Sən də yerdə yaz yarat, işıq gətir gözlərə.
İlham gətir ürəyə, qüdrət gətir dizlərə,
Minnətdarıq ay ustad, dönə-dönə sizlərə.
Nəolaydı baxaydım, sənin ilə göz-gözə,
Oturaydım, duraydım qabaq-qənşər üz-üzə.
Kaş biləydim, görəydim, sən nələri çəkmisən?
Bu ellərin yolunda, zəmət təri tökmüsən.
Bir görəydim, biləydim sağlığında sənin də,
İftixarla sevinib, güldülərmi şənində?
Məqamında görməyib, haqqını dandılarmı?
Biganəlik torunda, alışıb yandılarmı?
Sağlığında sənə də ağız büzən oldumu?
Gendən baxıb, boylanıb, dodaqbüzən oldumu?
Görəydim sağlığında, səni sayan oldumu?
İqtidarlar sahibi, sənə həyan oldumu?
Bir de görüm yanına, gedib-gələn oldumu?
Əhvalını, halını sorub bilən oldumu?
Yoxsa sondan-sonamı, ustad kimi tanındın,
Bu bəşərə, bu xalqa, imdad kimi tanındın.

***Cəmil Əkbər***

## 6. İFTİXARNAMƏ

Şeyx Nizami, qalx ayağa, gəlib yoxla millətini![70]
Baba, göstər yadımını, əsirgəmə zəhmətini![71]
Oyanıb gəl nəvən görsün, nə kamallı babası var,
Nə dəyərli, nə tutarlı, nə samballı babası var,
Sözlə sehirli aləmi, məna dolu dünyası var.[72]
Ülfət edib tanış olaq, öz müqəddəs babamızla,
Fəxr eyləyək vətənimlə, elimizlə, obamızla.
Hamı görsün, tanış olsun, poezyanın babasıyla,[73]
İdrakından şəfəq saçan, nur ələyən dühasıyla.[74]
Sənki müdrik bir babasan, axtar, ara varisini,[75]
Xəbər alıb kefini sor, de dərdinin çarəsini.[76]
Sənin kimi müdrik baba, əl çəkərmi nəvəsindən?[77]
Nəvazişlə əzizləyib, ilham alar hərəsindən.[78]
Məclis qurub bir söhbət aç, öz başına gələnlərdən,
Keçmişlərdən halı olub, gələcəkdən bilənlərdən,
Xəbər gətir o zamandan, bu zamana bilənlərdən.
Ona-buna ağız büzüb, rişxənd edib gülənlərdən,
Bu dünyaya yük olandan, diri ikən ölənlərdən. [79]
Gəl söhbət aç tarixlərdən, keçmişlərdən, gəlmişlərdən,
Həyatının mənasını duymuşlardan, bilmişlərdən.
İntizarda qoyma bizi, güzar eylə bizə sarı.[80]
Gəl üzünü görək baba, ülfət eylə üzə, barı.[81]

---

[70] 1) Ey Nizami dur ayağa, gəlib yoxla bu bəşəri. 2) Ey Nizami, dur ayağa, gəl nəzər sal bu bəşərə,
3) Şeyx Nizami, dur ayağa, bir nəzər sal bu bəşərə,

[71] 1) Göstər baba yardımını, tanıt bizə xeyri-şəri. 2) Baba göstər yardımını, yollar göstər xeyir-şərə.
3) Gəl onları yaxşı öyrət, qatmasınlar xeyri-şərə.

[72] 1) Sözlə zəngin bir aləmi, ağıl dolu dünyası var. 2) Sözlə dolu bir aləmi, məna dolu dünyası var.
3) Bəşər üçün, xilqət üçün nə yararlı xülyası var.

[73] 1) Ülfət edib tanış olsun, dünya sevən babasilə. 2) Hamı görüb tanış olsun, dünya sevən babasıyla.
3) Hamı görüb, tanış olsun öz nurani babasıyla.

[74] İdraklara işıq saçan, nur ələyən dühasilə.

[75] 1) Sən Azəri bir babasan, axtar, ara varisini. 2) Sən Azəri babasısan axtar, ara varisini.

[76] Gəl yad eylə bizi barı, axtar, ara varisini.

[77] Sənin kimi bir baba da, əl çəkərmi nəvəsindən?

[78] 1) Nəvazişlə əzizləyib, ilham alar hərəsindən. 2) Boylarını sevə-sevə, ilham alar hərəsindən.

[79] 1) Bu dünyaya yük olandan, diri-diri ölənlərdən. 2) Vəfatında diri qalan, diri ikən ölənlərdən.

[80] 1) Nə zamandı intizarıq, güzar eylə bizə sarı. 2) Zəhmət çəkib qədəm basıb, güzar eylə bizə sarı.

[81] 1) Gəl üzünü görək barı, ülfət edək üzə barı. 2) Gəl görüşək əziz baba, söhbət açaq üzə barı.

Gəlib görün gözümüzə, qüvvət gətir dizimizə,[82]
Kamalından nur ələyib, işıq gətir gözümüzə.[83]
Gül nəvələr ilham alsın, öz nurani babasından,[84]
Ürəyinin atəşindən, kamalının dəryasından,
Sən yazdığın xəmsələrin odu sönməz sobasından.[85]
Səni görüb nəzər salsın, hər hikmətli sözlərinə,[86]
Diqqət versin tarixdəki sən getdiyin izlərinə.[87]
Dönə-dönə öyrənsinlər, özü baba olanadək,
Tamam-kamal bilənədək, söz kasası dolanadək.
Sezə bilsin babasının ürəyindən keçənləri,[88]
Arzusundan, xəyalından, diləyindən keçənləri.
Dərk eyləyib duya bilsin, sərf etdiyin əməyini,[89]
Nəvələrdən kalı çoxdur, əsirgəmə köməyini.[90]
Əziz baba, yazdığını oxumayıb bilməyən var,
Sən göstərən yollar ilə getməyən var, gəlməyən var.
İdrakında öz pasını, təmizləyib silməyən var,
Bəd işlərdən, bəd sözlərdən, utanmayıb ölməyən var.
Nankor olub babasını, öz başından əkən də var,
Cijisinə, bibisinə, xalasına çəkən də var,[91]
Öz xalqına qənim çıxan, zəhləsini tökən də var.
Mən bilirəm əziz baba, hamı səni oxusaydı,
Sözlərini dərk eyləyib, mənasını qoxusaydı,[92]
Səni kimi icad edib, şövqlə yazıb-yaratsaydı,
Müdrik fikrinlə bəslənib, pərvazlanıb boy atsaydı.[93]
Heçkimsənin al-qanları, qaralmazdı bu dünyada,
Arzuları daşa dəyib, düçar olmazdı fəryada.[94]

---

[82] 1) Qol-qanad ver ilhamıma, kəsər gətir sözümüzə. 2) Mayaq olub ilhamıma, qüvvət gətir sözümüzə.
[83] Nur ələyib kamalından, işıq gətir gözümüzə.
[84] 1) Nəvələrin ilham alsın, öz nurani babasından. 2) Nəvələrin qüvvət alsın öz nurani babasından.
3) Nəvələrin qüvvət alsın öz kamallı babasından.
[85] Ürəyinin atəşindən, idrakının sobasından.
[86] 1) Səni görçək nəzər salsın, hər hikmətli sözlərinə. 2) Diqqət ilə nəzər salaq, hikmət dolu sözlərinə,
[87] 1) Diqqət versin sən getdiyin yollarına, izlərinə. 2) Könüllərdə məskən salan, silinməyən izlərinə.
3) Ayaq basaq, təzim edək tarixdəki izlərinə.
[88] Nəvələrin qoy anlasın ürəyindən keçənləri,
[89] 1) Qoy hiss edib duya bilsin, sərf etdiyin əməyini. 2) Qoy dərk edək əziz baba, sərf etdiyin əməyini.
[90] Əsirgəmə xidmətini, əsirgəmə əməyini,
[91] Yayınaraq yaxasını, bir kənara çəkən də var.
[92] Gül açardı könül bağı, təravəti qoxuyardı.
[93] Sözlərinlə qidalanıb, pərvazlanıb boy atsaydı.

Kor olmazdı görən gözlər, kar olmazdı qulaqlar da,
İnsanoğlu yol azmazdı, büdrəməzdi ayaqlar da.
Xəzan vurmaz könül bağı, bar verərdi butaqları,[95]
Qurumazdı gövdələri, kölgə salar yarpaqları.[96]
Zülmətlərə çevrilməzdi, könüllərin yataqları,
Əqrəblərə yuva olmaz, məhəbbətin otaqları.[97]
Saralıb, soluxarmı heç insanların yanaqları?
Bulud kimi tutularmı, çatılarmı qabaqları?
Zehinləri küt olarmı, idrakları pas atarmı?[98]
İnsanoğlu əbəs yerdən, birbirinə sataşarmı?[99]
Gözləyərdi əməlini, o görərdi uzaqları,[100]
O duyardı istiləri, o sezərdi sazaqları.[101]
Sözlərinin mənasını, dönə-dönə anlayardı,
Öz səhvini özü görər, öz-özünü danlayardı.
Mən bilirəm ulu babam, hamı səni oxuyarsa,
Sənin yazdığın "Xəmsə"nin ətirini qoxuyarsa.
O yolları seyr eyləyib, gedə bilsə, gələ bilsə,
O mənanı, o mətləbi ömürboyu bilə-bilsə.
Gül açardı könül bağı, bülbülləri oxuyardı,
Xoş arzudan, istəklərdən bahar xalı toxuyardı.
Mən istərdim hamı sənin kamalınla qidalansın,[102]
Məsləkinlə qayələnib, amalınla cilalansın.[103]
Sədaqət ver, səxavət ver insanların ürəyinə,[104]
Arzusuna, istəyinə, əməlinə, diləyinə.
Qoy eşitsin bunu hamı, cavanlar da, qocalar da,[105]
Mövqeində kiçiklər də, adda-sanda ucalar da. [106]

---

94 Məhəbbətin qönçələri saralmazdı bu dünyada.
95 Saralmazdı könül bağı, bar verərdi butaqları.
96 Kölgə salar hərbir yana səxavətin yarpaqları.
97 Əqrəblərə yuva olmaz, sədaqətin yataqları.
98 İdrakları kütləşməzdi, zehinləri pas atmazdı.
99 Əbəs yerdən qəsd edərək birbirinə sataşmazdı.
100 Seyr edərdi bu dünyanı, uzaqları görərdi o.
101 İstiləri o duyardı, sazaqları sezərdi o.
102 Mən istərdim hamı sənin kamalından qidalansın.
103 1) İdrakından qüvvət alıb, amalından cilalansın. 2) Əqidəndən qüvvət alıb, amalınla cilalansın.
3) Əqidənlə törpülənib amalınla cilalansın.
104 Mən istərdim hərarət ver, insanların ürəyinə.
105 Qoy eşitsin hamı bunu, cavanlar da, qocalar da.
106 Adda-sanda kiçiklər də, şan-şöhrətdə ucalar da.

Yaddaşında möhkəm tutsun bilənlər də, bilməyən də,[107]
Göz açaraq bu dünyaya gələnlər də, gəlməyən də.[108]
Babalardan dərs almayan, muradına çata bilməz,
Avamlığın, cəhalətin daşını heç ata bilməz.[109]
Biraz danış aqibətin, el qanını soranlardan,[110]
Öz xalqını əldən salıb, bezikdirib yoranlardan.[111]
Bir xəbər ver xainlərdən, qəlbiqara olanlardan,
Üzdən sağlam görünəndən, içi yara olanlardan.
Aqibəti necə oldu saxtaların, yalanların? [112]
İlan kimi vuranların, əqrəb kimi çalanların?
İnsafını, vicdanını, birdəfəlik atanların?[113]
Xam xəyala qapılaraq, qəflətlərdə yatanların?
Xəbislərin, əniklərin, acgözlərin, hərislərin,[114]
Nanəcibin, xoryadların, namərdlərin, naqislərin,
Bədəsilin, bədcinslərin, bədxahların xəbislərin.
Yollarını aza-aza, tərsəməssəb gedənlərin,[115]
El-obanı unudaraq, öz nəfini güdənlərin.[116]
Necə oldu aqibəti, veyil-veyil gəzənlərin?
Həm özünün, həm özgənin ürəyini üzənlərin?
Bədniyyətlə yaşayanın, haram loxma bölənlərin,[117]
Peysərini qızardaraq, arsız-arsız gülənlərin.[118]
Biraz danış, təsadüfi şan-şöhrətə çatanlardan,
Məqsədinə çatmaq üçün min günaha batanlardan.
Elə-belə ömür sürüb, şərəfini satanlardan,[119]
El qanını sora-sora, özü qansız ölənlərdən.
Kimdi deyən əhsən ona, sevən varmı ədasını?
Kim xoşlayar ədəbazın, gündə min cür hoqqasını?

---

[107] 1) Yaddaşında qoy saxlasın bilənlər də, bilməyən də. 2)Yaddaşında bərk saxlasın bilənlər də, bilməyən də.
[108] Gözün açıb bu dünyaya gələnlər də, gəlməyən də.
[109] Avamlığın, cəhalətin daşını da ata bilməz.
[110] 1) Biraz danış aqibətin, el qanını soranların. 2) Biraz danış aqibətin, zəli kimi soranlardan.
[111] Onu-bunu bezikdirib haldan salıb yoranların.
[112] 1) Açıb göstər nəki varsa, saxtaların, yalanların. 2) Açıb göstər açıq-aşkar, saxtaların, yalanların.
[113] İnsafını, vicdanını, məsləkini atanların.
[114] Tamahının qulu olan acgözlərin, hərislərin.
[115] Tərsə məssəb gedənlərin, bədəməlin, bəd izlərin,
[116] Bəd fikirlər, bəd xəyallar, bəd astarlar, bəd üzlərin.
[117] Bədxahlıqla ömür sürüb, bədniyyətlə ölənlərin.
[118] 1) Ağız büzüb arsız-arsız, ona-buna gülənlərin. 2) Utanmayıb, qızarmayıb, arsız-arsız, gülənlərin.
[119] Elə-belə gün keçirib, adsız-sansız ölənlərdən.

Beləsinin qayğısını duyan varmı, görən varmı?
Bağçasında kölgöylənən, meyvəsini dərən varmı?
Biraz danış, at çapırıb mənəm-mənəm deyənlərdən,
Çalıb-çapıb harın-harın iri loxma yeyənlərdən,
Ərşdən-gürşdən danışaraq, öz-özünü öyənlərdən.
Görən varmı ləzzətini, el içində növrağını?
Sevən varmı ədasını, alan varmı sorağını?
Duyan varmı qayğısını, hünərini, zəhmətini?
Bilən varmı dəyərini, verən varmı qiymətini?
Yatan varmı kölgəsində, yeyən varmı meyvəsini?[120]
Alan varmı sədasını, duyan varmı nəfəsini?

## *SƏN GƏLƏNDƏ*

Sən gələndə çağır gəlsin Füzuli[121] öz qəzəlilə,[122]
Məcnun adlı eşq əhlilə, Leyli kimi gözəlilə,
İmadəddin Nəsimi də, sığmadığı cahanilə,[123]
Yenilməyən iradəsi, əyilməyən vüqarilə.[124]
Unutmaynan Xaqanini, Vahidi[125] də, Hafizi[126] də,[127]
O yazdığı qəsidələr kök salıbdı qəlbimizdə.[128]
Gəlib çıxsın qoy Vidadi[129], el dərdini çəkə-çəkə,[130]
Namazını qıla-qıla, qamətini bükə-bükə.[131]
Çağır gəlsin Seyid Əzimi[132], Zərdabini[133], Zakiri[134] də,[135]
Fətəlini, Məhsətini, Natəvanı, Vaqifi də.[136]

---

[120] Görən varmı kölgəsini, yeyən varmı meyvəsini?
[121] Məhəmməd Füzuli nəzərdə tutulur.
[122] Sən gələndə çağır gəlsin Füzuli də qəzəlilə.
[123] Çağır gəlsin Nəsimini, sığmadığı cahanilə,
[124] Yenilməyən iradəsi, fikirilə, xülyasıyla.
[125]Əliağa Vahid nəzərdə tutulur.
[126] Hafi Şirazi nəzərdə tutulur.
[127] Gətirib gəl Xəqanini, Ömər Xəyyam, Hafizi də.
[128]1) O yazdığı qəzəlləri kök salıbdı qəlbimizdə. 2) Onlar yazan salnamələr, kök salıbdır qəlbimizdə.
[129] Molla Vəli Vidadi nəzərdə tutulur.
[130] Gəlib çıxsın Vidadi də, el dərdini çəkə-çəkə.
[131] Namazını qıla-qıla, gözyaşını tökə-tökə,
[132] Seyid Əzim Şirvani nəzərdə tutulur.
[133] Həsən Bəy Zərdabi nəzərdə tutulur.
[134]Qasım Bəy Zakir nəzərdə tutulur.
[135] Çağır gəlsin Nəcəf bəyi, qədəm qoysun Haqverdi də.
[136] Seyid Əzimi, Cəlili də, Zərdabini, Zakiri də.

Abbas Səhhət, Nərimanı[137], Mirzə Şəfi Vazehi də.
Qoy danışsın Sabir[138] babam, “Hophopnamə” yaza-yaza,
Nadanlığın, avamlığın məzarını qaza-qaza.[139]
Çağır gəlsin Əhməd Cavad, Müşviqi[140] də, Cavidi[141] də,
Gözyaşını tökə-tökə, ürəyini didə-didə.
Cuşa gəlsin Səməd Vurğun Azərbaycan deyə-deyə,
Vətəninin hər yerini, tərifləyib öyə-öyə.
Çağır gəlsin Süleymanı[142], qoy danışsın dövlətindən,
İlhamına qanad verən partiyanın qüdrətindən.
Şeir yazsın Rəsul Rza insafıyla, mürvətilə,
“Lenin” kimi poeması, tükənməyən sərvətilə.[143]
Gecikməsin Osman[144] qağa, qoy görüşək yüz yaşında,
Dilicandan yol aşanda, Göyəzənin lap başında.[145]
Sözü verək Bəxtiyara[146], dəniz kimi ləpələnsin,
Şeirləri düşsün dilə, el-obaya səpələnsin.
Seyrə çıxsın Hüseyn Arif, öz elini obasını,[147]
Təsvir etsin qarış-qarış, öz yurdunu-yuvasını.
Çağır gəlsin Nəbi Xəzri, sahil boyu gəzə-gəzə,
Şirin sözü, kəlamilə, möhübləri düzə-düzə.
Çağır gəlsin Famil Mehdi, “Unudulmaz insanlar”la,
İdrakının süzgəcindən, axıb gələn leysanlarla.
Çağır gəlsin Tofiq Bayram, poezyanın “divanəsi”,
Yana-yana şamlar kimi, zəmanənin pərvanəsi,
Qabil[148] kimi, Xəlil[149] kimi, Məmməd[150] kimi dürdanəsi.
Çağır gəlsin Məmməd Rahim, Qasımı[151] da, Davudu[152] da,

---

[137] Nəriman Məmmədov nəzərdə tutulur.
[138] Mirzə Ələkbər Sabir nəzərdə tutulur.
[139] 1) Cəhalətin, avamlığın qəbirini qaza-qaza. 2) Cəhalətin, nadanlığın qəbirini qaza-qaza.
[140]Mikayıl Müşfiq nəzərdə tutulur.
[141]Hüseyn Cavid nəzərdə tutulur.
[142] Süleyman Rüstəm nəzərdə tutulur.
[143] Neçə-neçə poeması, tükənməyən sərvətilə.
[144] Osman Sarıvəlli nəzərdə tutulur.
[145] Göyəzəndən yuxarıda, Dilicandan yol aşanda.
[146] Bəxtiyar Vahabzadə nəzərdə tutulur.
[147] Hüseyn Arif addım-addım, seyrə çıxsın obasını.
[148]Qabil İmamverdiyev nəzərdə tutulur.
[149] Xəlil Rza nəzərdə tutulur.
[150]Məmmə Araz nəzərdə tutulur.
[151] Qasım Qasımzadə nəzərdə tutulur.

Gədəbəydə Vəlini[153] də, Xoşbulaqda Cavadı[154] da.
Çağır gəlsin Cabir Novruz, insanlığın pafosuyla,
Bu yollarda çox çəkdiyi, zəhmətilə, cəfasıyla.[155]
Unutmaynan Məzahiri[156], Cinnilidə Səfəri[157] də,[158]
Azaflıda Mikayılı, Goranboyda Teymuru[159] da,
Kəlbəcərdə Qurbanı[160] da, Şəmşiri[161] də, Bəhmanı[162] da.
Ustadları gətirib gəl, fəxr eyləyək babalarla,[163]
Millətimi tanıtdıran, bu mənəvi dünyalarla.
Meydan açsın Koroğlu da, Qıratını çapa-çapa,
Qaçaq Nəbi "Bozat"ıyla, güllələrdən sapa-sapa.
Qoy cəm olsun Cavanşirlər, Cahangirlər, Babəkimiz,[164]
Qoy cəm olsun mərd igidlər, nəki varsa əcdadımız.
Qoy açılsın, vərəqlənsin poezyanın salnaməsi,
Üzə çıxsın, düzə çıxsın oda yanan pərvanəsi.
Bu məclisdə qoy oxusun mahir aşıq, xanəndələr,[165]
Sözlərində hazırcavab, məharətli danəndələr.
Tarı çalsın Qurban Pirim[166], zilə qalxsın Cabbarımız[167],
Solo çalsın Əhsən Dadaş[168], "Şur" oxusun Xan[169] dayımız,
Bəstələsin Üzeyrimiz[170], cəh-cəh vursun Bülbülümüz[171],
Qanad alsın ilhamımız, vəcdə gəlsin al-qanımız.
Qoy dinləyək Bəhramı[172] da, Əhmədi[173] də, Hacını[174] da,[175]

---

[152] Davud Nəsib nəzərdə tutulur.
[153] Miskinli şair Vəli Bayramov nəzərdə tutulur.
[154]Şair Cavad nəzərdə tutulur. Bir zamanlar Miskinli Şair Vəli ilə deyişib.
[155] Əyilməyən vüqarilə, zəngin olan dühasilə,
[156] Məzahir Daşqın nəzərdə tutulur.
[157]Səfər Həsənov nəzərdə tutulur.
[158] Mirbəşirdə Məzahiri, Cinnilidə Səfəri də.
[159] Aşıq Teymur Morullu nəzərdə tutulur.
[160] Dədə Şəmşirin atası Ağdabanlı Qurban nəzərdə tutulur.
[161]Aşıq Şəmşir Qocayev nəzərdə tutulur.
[162]Bəhman Vətənoğlu (Abbasov) nəzərdə tutulur.
[163] Gətirib gəl özün ilə, fəxr eyləyək babalarla.
[164] Meydan açsın Cavanşirlər, Cahangirlər, Babəkimiz.
[165] Bu görüşə toplansınlar, məşhur aşıq, xanəndələr.
[166] Tarzən Qurban Pirimov nəzərdə tutulur.
[167] Xanəndə Cabbar Qaryağdıoğlu nəzərdə tutulur.
[168]Əhsən Dadaşov nəzərdə tutulur.
[169] Xanəndə Xan Şuşinski nəzərdə tutulur.
[170] Dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyli nəzərdə tutulur.
[171]Azərbaycanda vokal sənətinin banisi Bülbül Məmmədov nəzərdə tutulur.

Çağır gəlsin Molla Cuma, Valeh ilə, Alını[176] da,
Aşıq Abbas[177], Xəstə Qasım, İbrahimlə[178], İslamı[179] da.
Meydan açsın qoy Ələsgər[180], aşıqların sərkərdəsi,[181]
Öz işinin pak ustası, sənətinin pərgərdəsi.
Qoy dinləyək Əsəd[182] ilə, Mirzəni[183] də, Dilqəmi[184] də,
Hüseyni[185] də, Nəcəfi[186] də, Talıbı[187] da, Cəlili[188] də.
Cəh-cəh vursun Ədalət[189] də, öz sazının tellərində,
Havalara zinət versin, məqamında güllərində.[190]
Məclis qursun Aşıq Əkbər[191], Əmrah[192] ilə Kamandar[193] da,
Qoy yayılsın həzin-həzin, el-obaya havalar da.
Sazı çalsın Saraclı[194] da, öz barmağı, nəfəsilə,[195]
Yorulmasın yüz yaşında, o öz eşqi-həvəsilə.
Zahid[196] çalsın "Yurdoba"nı, "Dübeyti"ni, "Sarıtel"i,
İlqar[197] çalsın "El havası", "Ruhani"ni, "Göyçəgülü",
Nərə çəksin Aşıq İmran[198] "Koroğlu", "Cəngi", "Misiri"dən,

---

[172] Tarzən Bəhram Mansurov nəzərdə tutulur.
[173] Tarzən Əhməd Bakıxanov nəzərdə tutulur.
[174]Tarzən Hacı Məmmədov nəzərdə tutulur.
[175] Şövqə gəlsin Hacı Məmməd, Əhmədimiz, Bəhramımız,
[176]Aşıq Alı nəzərdə tutulur.
[177]Aşıq Abbas Tufarqanlı nəzərdə tutulur.
[178]Aşıq Qaraçıoğlu İbrahim nəzərdə tutulur.
[179]Aşıq İslam Yusifov nəzərdə tutulur.
[180]Aşıq Ələsgər nəzərdə tutulur.
[181] Sazı çalsın qoy Ələsgər, aşıqların sərkərdəsi.
[182]Aşıq Əsəd Rzayev nəzərdə tutulur.
[183]Aşıq Mirzə Bayramov nəzərdə tutulur.
[184]Yəhya Bəy Dilqəm nəzərdə tutulur.
[185]Aşıq Hüseyn Bozalqanlı nəzərdə tutulur.
[186]Aşıq Nəcəfin şəyirdi Aşıq Nəcəf Daşkəndli nəzərdə tutulur.
[187]Aşıq Ələsgərin oğlu Aşıq Talıb nəzərdə tutulur.
[188] Dərələyəzli Aşıq Cəlil nəzərdə tutulur.
[189]Aşıq Ədalət Nəsibov nəzərdə tutulur.
[190] Havalara ziynət versin, pərdələrin güllərində.
[191]Aşıq Əkbər Cəfərov nəzərdə tutulur.
[192]Aşıq Əmrah Gülməmmədov nəzərdə tutulur.
[193]Aşıq Kamandar Əfəndiyev nəzərdə tutulur.
[194]Aşıq Hüseyn Saraclı nəzərdə tutulur.
[195] Sazı çalsın Saraclı da, həzin-həzn nəfəsilə.
[196]Aşıq Zahid Aslanoğlu nəzərdə tutulur.
[197]İlqar İmamverdiyev nəzərdə tutulur.
[198]Aşıq İmran Həsənov nəzərdə tutulur.

Zənguləsi bulud yarsın, od püsgürsün içəridən.
Qoy oxusun İsfəndiyar[199] "Dilqəmi"dən, "Kərəmi"dən,
"Gözəlləmə", "Gəraylı"dan, "Məmmədbağrı", "Nəcəfi"dən.
Ellər bilsin bu ustadlar tapılandöy özgəsində,
Baxıb görsün özlərini, babaların güzgüsündə.
Hamı bilsin, millətimin neçə-neçə dühası var,[200]
Tarixlərdə izi olan, hikməti var, mənası var.[201]
Keçmişi var, bu günü var, gələcəyi, sabahı var,
Mayağı var, dayağı var, ümidi var, pənahı var.
Təzim edək ustadların dönə-dönə qarşısında,
Əhsən deyib fərəhlənək, nəvə kimi hüzurunda.
Ot kök üstə bitər isə, millətimiz çəksin kökə,
Nur ələsin bu cahana, mayaq olsun bizim ölkə.

***Cəmil Əkbər*** 1968

## 7. ŞAİR (1)

*Səməd Vurğunu düşünərkən*

*I variant*

Şair elin ürəyi, sərrast görən gözüdür,[202]
Məhəbbətin töhfəsi, eşq əhlinin özüdür.
Sədaqətin ahəngi, ülviyyətin səsidir,
Zəmanənin bəşərə xoş məramı, sözüdür.
Hikmətli kəlamların memarıdır, canıdır.[203]
Söz sənətinin şahı, sərkərdəsi, xanıdır,
Müdrik fikrin mədəni, gövhəridir kanıdır.[204]
Yol göstərir hamıya, dərk edənə, qanana,[205]
Məsləkindən dönənə, vicdanını danana.[206]

---

[199]Aşıq İsfəndiyar Rüstəmov nəzərdə tutulur.
[200]1) Hamı görsün bu millətin neçə-neçə dühası var. 2) Hamı bilsin, vətənimin neçə-neçə dühası var.
[201] Hərbirinin öz hikməti, öz məzmunu, mənası var.
[202] O ellərin ürəyi, iti görən gözüdür.
[203] 1) Poeziyanın bənnası, memarıdır deyirlər. 2) Şair sözün sərrafı, poezyanın canıdır.
3) Hikmətli söz sərrafı, bənnasıdır, canıdır, 4) O sözlərin sərrafı, xiridarı, canıdır.
[204] 1) Fikirlərin incisi, gövhəridir, kanıdır. 2) Fikirlərin cövhəri, sərafıdır deyirlər.
3) Fikirlərin gövhəri, mədənidir, kanıdır.
[205]1) O gərəkdir hamıya, dərk edənə, qanana. 2) Onun sözü gərəkdir, dərk edənə, qanana.
[206] 1) Əqidədən uzaşıb, məsləkini danana. 2) Məsləkindən uzaşıb, vicdanını danana.
3) İnsafını atana, vicdanını danana.

O parlaq kəhkəşandır, yollarını çaşana,[207]
Sərhəddini keçənə, hüdudunu aşana.[208]
İdrakından cahana şəfəq saçan mayaqdır,[209]
Səadətin carçısı, insanlığa dayaqdır.[210]
Xəyal aləmindədir, sübhə kimi oyaqdır,[211]
O hamıdan həssasdır, o hamıdan sayıqdır.
Nə düşünüb deyirsə, söylədikləri haqdır.[212]
Kəlməsində ədalət, cümləsində həqiqət,[213]
Hər beytində məna var, misrsında nəsihət.[214]
O gərəkdir hamıya, cavana da, pirə də,[215]
Oğula da, qıza da, zənana da, ərə də,
Dar ayaqda, məqamda, xeyirə də, şərə də.[216]
Doğru ölçür, düz çəkir, vicdanında tərəzi, [217]
Yoxdu kimsədən qeyri, təmənnası, qərəzi.
İlhamının bulağı, həssas vuran ürəkdir,
Ülvi, nəcib arzular, ən müqəddəs diləkdir.[218]
Hər söhbəti, kəlamı, lətafətli, duzludur,[219]
Bağlartəki çiçəkli, təravətli, yazlıdır. [220]
Fikir-xəyal içində el-el gəzib dolanır,[221]
Zəkalardan-zəkaya peyvənd olub calanır,
Pərvanətək meyili eşq oduna qalanır.
Danışdıqca çağlayır, sanırsanki ümmandır, [222]

---

[207] Yolu-izi şərh edir, yanılana, çaşana.
[208] Sərhəddini bilməyib, hüdudunu aşana.
[209] 1) Kamalından dünyaya, nurlar saçan mayaqdır. 2) Kamalından xalqına, nurlar saçan mayaqdır.
3) Zəkasından eləbil, nurlar saçan mayaqdır. 4) Öz kamal dünyasından, şəfəq saçan mayaqdır.
[210] 1) Səadətə car çəkən ülviyyətə dayaqdır. 2) Səadətin carçısı, ülviyyətə dayaqdır.
[211] 1) Xəyal ilə əlləşir, gecə yatmır, oyaqdır, 2) Xəyal ilə əlləşir, səhərəcən oyaqdır.
3) Hamı yatsa o yatmır, gecə-gündüz oyaqdır.
[212] Düşündüyü nəciblik, söylədikləri haqdır.
[213] 1) Hər kəlməsi, cümləsi, həqiqətlə doludur.
[214] 1) Hər beytdə ülviyyət, hər misrada ləyaqət. 2) Hər beyitdə məna var, hər misrada ləyaqət.
3) Hər beyitdə məna var, hər misrada ləyaqət. 4) Sözlərində mənalar, misralarda ləyaqət.
5) Hər beyiti, misrası, ləyaqətlə doludur.
[215] O gərəkdir hərkəsə, qocaya da pirə də.
[216] Bərk ayaqda, çətində, xeyirə də, şərə də,
[217] Doğru ölçür, düz çəkir, qəlbindəki tərəzi.
[218] 1) Nəcib-nəcib arzular, pak istəkdir, diləkdir. 2) Nəcib arzu-istəkdir, ən müqəddəs diləkdir.
[219] Hər söhbəti, kəlamı təravətli, duzludur,
[220] 1) Bahar təki, çiçəkli, təravətli, yazlıdır. 2) Bahar fisli, çiçəkli, təravətli, yazlıdır.
[221] Nə müddətdir yaşayır, eldən-elə dolanır.

Doğru görüb, düz yazır, nə müddətdir, zamandır.[223]
Dəryalardan dərindir, zirvələrdən ucadır,
Nəvələrdən körpədir, babalardan qocadır.[224]
Sevərək ömür sürür, sevilərək yaşayır,
Əsrlərin yükünü öz çiynində daşıyır.
Məhəbbətdən güc alıb, yol göstərir hamıya,[225]
Əsirgəmir sözünü bol göstərir hamıya.[226]
Yaxınları seyredib, uzaqlardan söz açır, [227]
Məzlumlara acıyır, yazıqlardan söz açır.[228]
Keçmişdən, gələcəkdən, min soraqlar verəndir,
Hər əzaba, çətinə sinəsini gərəndir.
Nə şahlara baş əyib, nə qulları əzəndir,[229]
Nə arifi bezdirir, nə nadana dözəndir.[230]
Nə məzlumu öldürüb, nə zalımı pəsinib,
Nə cəlladdan xof edib, nə qatildən diksinib.
O bir evdə olsa da, hərbir evin oğludur,[231]
O bir eldə olsa da, hərbir elin oğludur. [232]
Tək ananın deyildir, anaların oğludur,
Tək bir xalqın deyildir, cəmiyyətin oğludur.[233]
Yerin, göyün, bəşərin, kainatın oğludur.[234]
Hamı köçüb getsə də, şair ölən deyildir,
Hər gül-çiçək solsa da, bu gül solan deyildir.[235]
Hamı yaddan çıxsa da, şair yadda qalacaq,
Hamı dəbdən düşsə də, şair modda qalacaq.

---

[222] 1) Düşündükcə eləbil, sanırsan ki, ümmandır. 2) Düşündükcə bir anda, sanırsanki ümmandır. 3) Xəyalına nə söz var, sanırsanki ümmandır.

[223] 1) Doğru tapıb, düz deyib, hökmü verən zamandır. 2) Doğru görüb, düz deyir, hökmü verən zamandır.

[224] Nəvələrdən cavandır, babalardan qocadır.

[225] 1) İlhamına söykənib, yol göstərir hamıya, 2) Düşünərək dərindən, yol göstərir hamıya.

[226] 1) Əsirgəmir heçkəsə, bol göstərir hamıya. 2) Əsirgəmir heç nəyi, bol göstərir hamıya.

[227] 1)Yaxınlardan söz açır, uzaqları görür o, 2) Yaxınlardan söz açır, uzaqlardan danışır.

[228] 1) Zalımların əlində, yazıqları görür o. 2) Zalımların əlində, yazıqlardan danışır.

[229] Nə şahlardan çəkinir, nə qulları əzir o,

[230] Nə arifi bezdirir, nə nadana dözür o.

[231] O bir evdə olsada, min bir evin oğludur.

[232] O bir eldə olsada, min bir elin oğludur.

[233] 1)Tək bir xalqın deyildir, hərbir xalqın oğludur. 2) O bir xalqın deyildir, dünyaların oğludur. 3) Nə sənin döy, nə mənim, cəmiyyətin oğludur.

[234] 1) Yerin-göyün oğludur, kainatın oğludur, 2) Ərşin-gürşün fəxridir, bu cahanın oğludur.

[235] 1) Hər gül-çiçək solsa da, şair solan deyildir. 2) Gül-çiçəklər solsa da, şair solan deyildir.

O, torpağa həkk olub, o, səmaya həkk olub,
O, günəşə calanıb, ulduz, aya həkk olub.
Hər zəkada, idrakda, hər ürəkdə yeri var,
Hər arzuda, istəkdə, hər diləkdə yeri var.[236]
Hər qollara güc verib, hər biləyə bağlanıb,[237]
Hər qanadda kök salıb, hər lələyə bağlanıb.
Şair silinən deyil, şair pozulan deyil,
Nə tükənib əksilən, nə də azalan deyil.[238]
O, Haqqın övladıdır, o, yozulan deyildir,
Cəhd eyləmək əbəsdir, o üzülən deyildir.
O, ellərin həvəsi, istəyidir, eşqidir,
Məhəbbətin tüğyanı, təpəridir, məşqidir.
Hamı döyülsə də bil, hamı söyülsə də bil,
Şair döyülən deyil, şair söyülən deyil.
Hərkəs əyilsə də bil, o ki, əyilən deyil,
Dnılsada bir zaman, haqqı yeyilən deyil.
Ocaqlarda yansa da, şair əriyən deyil,
Torpağa gömülsə də, əsla çürüyən deyil.
O Vətənə, xalqına düz ilqarla yaşayır,
O qürurla, fərəhlə, iftixarla yaşayır.
Vəsf etməklə qurtarmaz, tükənməz xəzinədir,
Nəsillərdən-nəsilə, əbədi xatirədir.[239]

***Cəmil Əkbər*** 18. 11 – 1982

## 8. ŞAİR[240] (2)

*Səməd Vurğunu düşünərkən*

*II variant*

Şair sözün sərrafı, memarıdır deyirlər,
Fikirlərin mədəni, gövhər-kandır deyirlər.
Səadətin carcısı, insanlığa dayaqdır,
Düşündüyü ədalət, o dedikləri haqdır.
O hamıdan düz görür, o hamıdan sayıqdır,

---

[236] Xoş arzuya, istəyə, diləklərə güc verib.

[237] 1) Yorulmayan qollara, biləklərə güc verib. 2) Hər qollara güc verib, biləklərə güc verib.

[238] Nə tükənib, qurtarıb, nə də azalan deyil.

[239] Nəsillərdən-nəsilə, ən ülvi xatirədir.

[240] “Şair” rədifli şeir Cəmil Əkbərin 1997-ci ildə, Gəncə İcarə Nəşriyyat, poliqrafiya birliyi tərəfindən yayınlatdığı “Yaşadar səni” adlı kitabının 144-145-ci səhifəsində də yer almışdır.

Xəyal ilə əlləşir, gecə-gündüz oyaqdır.
Hər kəlməsi, cümləsi həqiqətlə doludur,
Hər beyiti, misrası, ləyaqətlə doludur.
Onun sözü gərəkdir, dərk edənə, qanana,
Məsləkindən uzaşıb, vicdanını danana.
Doğru ölçür, düz görür qəlbindəki tərəzi,
Yoxdu onun kimsədən, təmənnası, qərəzi.
İlhamının bulağı həssas vuran ürəkdir,
Nəcib arzu-istəkdir, ən müqəddəs diləkdir.
Hər söhbəti, kəlamı lətafətli, duzludur,
Laləzarlı, çiçəkli, növbaharlı, yazlıdır.
İlhamından güc alıb, yol göstərir hamıya,
Əsirgəmir heçkəsə, bol göstərir hamıya.
Yaxınlardan söz acır, uzaqlardan danışır,
Zalımların əlində yazıqlardan danışır.
Keçmişdən, gələcəkdən min soraqlar verəndir,
Hər əzaba, çətinə sinəsini gərəndir.
Şair elin ürəyi, iti görən gözüdür,
Sədaqətin töhfəsi, məhəbbətin özüdür.
O bir evdə olsa da, hər bir evin oğludur,
O bir eldə olsa da, hər bir elin oğludur.
Tək ananın deyildir, anaların oğludur,
Tək bir xalqın deyildir, cəmiyyətin oğludur,
Yerin, göyün fəxridir, kainatın oğludur.
Hamı köçüb getsə də, şair ölən deyildir,
Hər gül-çiçək solsa da, bu gül solan deyildir.
Hamı dəbdən düşsə də, şair modda qalacaq,
Seviləcək, sevəcək, daim yadda qalacaq.
O, torpağa həkk olub, o, səmaya həkk olub,
O, günəşə calanıb, ulduz, aya həkk olub.
Hər zəkada, idrakda, hər ürəkdə yeri var,
Hər arzuda, istəkdə, hər diləkdə yeri var.
Şair silinən deyil, nə də pozulan deyil,
Nə tükənib, qurtarıb, nə də azalan deyil.
O, ellərin həvəsi, istəyidir, eşqidir,
Məhəbbətin tüğyanı, təpəridir, məşqidir.
Hərkəs əyilsə də bil, şair əyilən deyil,
Unudulsa bir zaman, haqqı yeyilən deyil.
Ocaqlarda yansa da, şair əriyən deyil,

Torpağa gömülsə də, əsla çürüyən deyil.
Nə şahlara baş əyib, nə köləni əzməyib,
Nə arifi bezdirib, nə cahilə dözməyib.
Nə məzlumu inlədib, nə zalımı pəsinib,
Nə qatildən xof edib, nə cəlladdan səksənib.
Vəsf etməklə qurtarmaz, tükənməz xəzinədir,
Nəsillərdən-nəsilə, əbədi xatirədir.

***Cəmil Əkbər*** 12-14 // 10 – 1986

## 9. ZƏHMƏT ÇƏKİLMƏYƏNDƏ

Nə tarlalar əkilər, nə zəmilər biçilər,
Yaxşı-yaman seçilməz, zəhmət çəkilməyəndə.

Nə var olar, nə dövlət, nə də abad məmləkət,
Ərşə çıxar bərəkət, zəhmət çəkilməyəndə.

Şərəf də gözdən düşər, şöhrət də gözdən düşər,
Hörmət də gözdən düşər, zəhmət çəkilməyəndə.

Loğmanlar aciz qalar, dərdə-dərman tapılmaz,
Fayda verməz fərman da, zəhmət çəkilməyəndə.

Kara yetməz hürriyyət, nə azadlıq, səadət,
Nazü-nemət tükənər, zəhmət çəkilməyəndə.

Nə alim var, nə şagird, nə də məktəb, tələbə,
Kimdi çalan qələbə, zəhmət çəkilməyəndə?

Bağlar da gözdən düşər, tağlar da gözdən düşər,
Dirlik də gözdən düşər, zəhmət çəkilməyəndə.

Yağ olmasa halva da, quymaq da quymaq olmaz,[241]
Yeməklə doymaq olmaz, zəhmət çəkilməyəndə.

Tirmə də geymək olmaz, şal da bürünmək olmaz,
Bal da döşürmək olmaz, zəhmət çəkilməyəndə.

Çəmənlər-çöllər susar, çalışan əllər susar,
Obalar, ellər küsər, zəhmət çəkilməyəndə.

---

[241] Tər tökməsən halva da, quymaq da quymaq olmaz.

Ata oğuldan küsər, ana qızından küsər,
Bülbül bahardan küsər, zəhmət çəkilməyəndə.

Nənələr də, baba da, bu ellər də, oba da,
Hamı bizdən küsəcək, zəhmət çəkilməyəndə.

Deyirlərki zəhmətdi, yer üzünün sahibi,
Küsüb gedər rahibi, zəhmət çəkilməyəndə.

Kimlər səni yad edər, de qəlbini şad edər?
Gəlib imdad eyləyər, zəhmət çəkilməyəndə.[242]

Oxuyan da azalar, yazanlar da azalar,
Müğənni də azalar, sazandar da azalar.

Kim sənə əhsən deyər, kim sənə tərif deyər?
De kim səni sevəcək, zəhmət çəkilməyəndə?

Kim xoşlayar tənbəli, davakarı, cəncəli?
Bu həyatda əngəli, zəhmət çəkilməyəndə?

Nə daxmalar tikilər, nə saraylar ucalar,
Nə igidlər bac alar, zəhmət çəkilməyəndə.

Nə şəhərlər, qəsəbə, nə də kəndlər salınar,
Nə zəfərlər çalınar, zəhmət çəkilməyəndə.[243]

Düz aparmaz karvanı, yolu çaşar sarvan da,
Xoşa gəlməz dövran da, zəhmət çəkilməyəndə.[244]

Yol da hörmətdən düşər, iz də hörmətdən düşər,
Söz də qiymətdən düşər, zəhmət çəkilməyəndə.

Külli-aləm, cəmiyyət, şəxsiyyət də pozular,
Saf niyyət də pozular, zəhmət çəkilməyəndə.

---

[242]*II variant* Kimlər səni yad edər, kimdi qeydinə qalan?
Kimdi könlünü alan, zəhmət çəkilməyəndə.
[243]*II variant* Nə şəhərlər, qəsəbə, nə də kəndlər kənd olar,
Nə də bəndlər bənd olar, zəhmət çəkilməyəndə.
[244]Sürsün öz dövranını, götürsünlər kamını.

Nə hünər var, nə zəfər, nə qalib, nə müzəffər,
De alan varmı nəmər, zəhmət çəkilməyəndə?[245]

Harda vardır yüksəliş, harda vardır təntənə?[246]
Fayda varmı Vətənə, zəhmət çəkilməyəndə?

Ünsiyyət də, ülfətdə de məhəbbət olarmı?
De sədaqət olarmı, zəhmət çəkilməyəndə?[247]

Kimdi səni arayan, xeyir-şərə yarayan?[248]
Sınığını sarıyan, zəhmət çəkilməyəndə.

Nə ağılda qüvvə var, nə də sözdə əsər var,
Kimdən-kimə səmər var, zəhmət çəkilməyəndə?

Ellər sərvətdən qalır, vardan, dövlətdən qalır,
İnsaf mürvətdən qalır, zəhmət çəkilməyəndə.[249]

İnsan yararsız olur, tamam gərəksiz olur,
Süfrə çörəksiz qalır, zəhmət çəkilməyəndə.[250]

Bağa baxsan bağ olur, baxmayanda dağ olur,
Kimin üzü ağ olur, zəhmət çəkilməyəndə?[251]

Qardaş-qardaşı saymır, yoldaş-yoldaşı saymır,
Tay-tuş tay-tuşu saymır, zəhmət çəkilməyəndə.[252]

Gün də hədərə gedər, ay da hədərə gedər,
Yay da hədərə gedər, zəhmət çəkilməyəndə.

---

[245]*II variant* Nə hünər var, nə zəfər, nə igid, nə müzəffər,
Kimdi alan de nəmər, zəhmət çəkilməyəndə?

[246] Deyin varmı iftixar, deyin varmı təntənə?

[247]*II variant* Ünsiyyət də, ülfətdə məhəbbət də azalar,
Sədaqət də azalar, zəhmət çəkilməyəndə.

[248] Kimdi səni arayan, de xeyirinə yarayan?

[249]*II variant* Çöllər sərvətdən qalar, insan mürvətdən qalar,
Vardan, dövlətdən qalar, zəhmət çəkilməyəndə.

[250]*II variant* İnsan yararsız olar, insan gərəksiz olar,
Süfrə çörəksiz qalar, zəhmət çəkilməyəndə.

[251]*II variant* Bağa baxsan bağ olar, baxmayanda dağ olar,
Kimin üzü ağ olar, zəhmət çəkilməyəndə?

[252]*II variant* Qardaş-qardaşı saymaz, yoldaş-yoldaşı saymaz,
Taytuş-taytuşu saymaz, zəhmət çəkilməyəndə.

Tay da hədərə gedər, tuş da hədərə gedər,
Huş da hədərə gedər, zəhmət çəkilməyəndə.

Payız hədərə gedər, qış da hədər gedər,
Xış da hədərə gedər, zəhmət çəkilməyəndə.

İnsan bunu qanmasa, qəflətlərdə qalacaq,[253]
Vicdanını satacaq, zəhmət çəkilməyəndə.

Küdurətdə məhv olub, hiddətlərdə solacaq,
Zülmətlər də qurtarmaz, zllətlərdə qalacaq,
Düçar olub azara, hillətlərdə qalacaq.

Kamal özünə gəlməz, amal özünə gəlməz,
Mahal özünə gəlməz, zəhmət çəkilməyəndə.

Cavan özünə gəlməz, ahal özünə gəlməz,
Kahal özünə gəlməz, zəhmət çəkilməyəndə.

Cahil özünə gəlməz, nadan özünə gəlməz,
Adam özünə gəlməz, zəhmət çəkilməyəndə.

Yer üzündə, cahanda müsibətlər azalmaz,
Fəlakətlər azalmaz, məşəqqətlər azalmaz,
Ədavətlər kəsilməz, zəhmət çəkilməyəndə.[254]

Nadanlıqlar çoxalar, cəhalətlər çoxalar,
Xəyanətlər çoxalar, zəhmət çəkilməyəndə.

Mərifəti azalar, ləyaqəti duyulmaz,[255]
Xidmət edilməyəndə, zəhmət çəkilməyəndə.

Elin varı azalar, cah-calalı azalar,
Əhli-halı azalar, zəhmət çəkilməyəndə.

İnsan-insan sayılmaz, yatanlar da ayılmaz,
Adı-sanı yayılmaz, zəhmət çəkilməyəndə.

---

[253] İnsan itib-batacaq, qəflətlərdə yatacaq.
[254] *II variant* Yer üzündə, cahanda müsibətlər çoxalar,
Fəlakətlər çoxalar, məşəqqətlər çoxalar,
Ədavətlər çoxalar, zəhmət çəkilməyəndə.
[255] Ləyaqətlər azalar, mərifətlər azalar.

Taleyin üzü dönər, bəxtin də üz döndərər,
Taxtın da üz döndərər, zəhmət çəkilməyəndə.

Qış da hədərə gedər, yaş da hədərə gedər,
Ayaqlar düz yeriməz, baş da hədərə gedər.

Arzulardan, istəkdən sönüb gedər hərarət,
Xalqı boğar səfalət, zəhmət çəkilməyəndə.

Qəbahət də çoxalar, fəlakət də çoxalar,
Müsibət də çoxalar, zəhmət çəkilməyəndə.

Xoş arzuya, murada, şərafətə çatmarıq,
Gülüstana çatmarıq, təravətə çatmarıq.

Nə kitab var, nə dəftər, nə kağız var, nə qələm,
Yaşayarmı de aləm, zəhmət çəkilməyəndə?

Nə sahil var, nə gəmi, nə də könül həmdəmi,
Nə tarla var, nə zəmi, zəhmət çəkilməyəndə.

Nə bostan var, nə dirlik, nə də barlı bir bağ var,
Nə şamama, nə tağ var, zəhmət çəkilməyəndə.

Nə alan var, nə satan, nə də bir iş tutan var,
Nə arzuya çatan var, zəhmət çəkilməyəndə.

Nə oxuyub bilən var, nə şənlənib gülən var,
Nə şərəflə ölən var, zəhmət çəkilməyəndə.

Nə qayğını çəkən var, nə qeydinə qalan var,
Nə könlünü alan var,  zəhmət çəkilməyəndə.

Kimdi görən karını, kimdi görən barını?
Namusunu, arını zəhmət çəkilməyəndə.

Nə alim var, nə loğman, kara yetən nə dərman,
Nə vəl işlər, nə xırman, zəhmət çəkilməyəndə.

Nə ucalan ucalar, nə bac alan, bac alar,
Nə güc alan güc alar, zəhmət çəkilməyəndə.

İgid eldə tanınmaz, şərəfli ada çatmaz,
Qohuma, yada çatmaz, zəhmət çəkilməyəndə.

Hamı karsız görünər, iqtidarsız görünər,
İlan kimi sürünər, zəhmət çəkilməyəndə.

Zəmanənin ahəngi zəhmət üstə köklənir,
Bu kök üstə çalınır, bu kök üstə dillənir.

Qayğı ilə bəslənir, xidmət ilə səslənir,
Aşıb-daşır var-halı, bazarlara yönəlir.
Yer üzündə hərnə var, bu hikmətlə yaranır,
Bu məramla əkilir, bu niyyətlə daranır.
Bu hünərlə, təpərlə, bu riqqətlə yaranır,
Bu nəzərlə bəslənir, bu diqqətlə yaranır.
Bacarıqla, fəhmlə, fərasətlə yaranır,
Yerbəyerdən boy atıb, üzə çıxır, daranır.
Bu qüdrətdən kənarda de hardadır güzəran?
Xoşa gəlməz dağ, aran zəhmət çəkilməyəndə.

Yer üzünün əşrəfi sayılsada bu insan,
Ala bilməz qiyməti, zəhmət çəkilməyəndə.

Bu naməni yazdım ki, oğul yuxudan oyan,
Kimdi səni de sayan, zəhmət çəkilməyəndə.[256]

***Cəmil Əkbər*** 28. 09 -1996

## 10. QƏLƏTDİR

İnsanların insanları soyması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.
Bir-birini ağlar günə qoyması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

İnsanların birbirinə pisliyi,
Zalımlığı, qəddarlığı, nəsliyi,
Höcətliyi, inadlığı, tərsliyi,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

---

[256] *II variant* Bu naməni yazdım ki, bir yuxudan ayılın,
Bu dünya, bu cahanda, insan kimi sayılın.

İnsanların bir-birini döyməsi,
Ünvanına qara yaxıb, söyməsi,
Dar ayaqda gözlərini döyməsi,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[257]

İnsanların bir-birini satması,
Şər uydurub aralığı qatması,
Namərdliklə şan-şöhrətə çatması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[258]

İnsanların törətdiyi günahı,
Acgözlüyü, hərisliyi, tamahı,
Göylərə yüksələn qarğışı, ahı,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[259]

İnsanların bir-birini əzməsi,
Əzab verib incitməsi, bezməsi,
Sinə gərib ağrılara dözməsi,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

İnsanların Vətənindən qaçması,
Özgə yurda didərgintək köçməsi,
Qaçmaq nədir, qanad alıb uçması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

İnsanların xainliyi, kəcliyi,
Birbirinə inadlığı, öclüyü,
Hiyləgərlik, dələduzluq, bicliyi,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

İnsanların bir-birini vurmağı,
Onu-bunu təpikləyb yormağı,
Tələ qurub pusqusunda durmağı,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[260]

---

[257] Avamlıqdır, qəbahətdir, qələtdir.
[258] Rəzalətdir, qəbahətdir, qələtdir.
[259] Namərdlikdir, naqislikdir, qələtdir.
[260] Xəyanətdir, cinayətdir, qələtdir.

İnsanların törətdiyi dava da,
Zəhərlərə bülənd olan hava da,
Yerli-yersiz and-qəsəm də, tova da,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

İnsanların bir-birini yıxması,
Qanqaraldıb ürəyini sıxması,
Cəngə girib axırına çıxması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[261]

İnsaf-mürvət, əqidəni danması,
Ürəklərin ruhdan düşüb sınması,
Od-ocaqsız alışması, yanması,
Nadanlıqdır, cəhalətdir, qələtdir.[262]

İnsanların qanmazları, nadanı,
Haqq-sayı sümürəni, udanı,
Addımını tərsəməssəb adanı,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

Cəmil Əkbər nəzakətsiz olanlar,
Xeyirxahsız, fəzilətsiz qalanlar,
İçin-için çürüyənlər, sınanlar,
Nadanlıqdır, cəhalətdir, qələtdir.

***Cəmil Əkbər*** 29. 05 – 1993

## 11. DEMƏSİNLƏR

Böyük-kiçik anlamayan, qanmayan,
Xətir-hörmət yada salıb sanmayan,
Yeri gəlcək axtarmayan, anmayan,
Deməsinlər nə cəhalət, dəhşətdir?

El dərdini daşımayan, çəkməyən,
Çox çalışıb tər torpağa tökməyən,
Yer şumlayıb, toxumunu əkməyən,
Deməsinlər bu nə əzab, zillətdir?

---

[261] Rəzalətdir, yoxsulluqdur, zillətdir.
[262] Xəyanətdir, cinayətdir, zülmətdir.

İnciməsin bir nəfər də sözündən,
Acıqlanmış, qəzəblənmiş üzündən,
Yayınmasın yaxşı-yaman gözündən,
Deməsinlər bu nə nəzər, diqqətdir?

Ellərin içində həyayla dolan!
Əqidə, məsləklə, qayəylə dolan!
Yardımla, qayğıyla, sayəylə dolan!
Deməsinlər bu nə təpər riqqətdir?

Ünsiyyət-ülfətdə sədaqətli ol!
Saf-arzu istəkli, məhəbbətli ol!
İnsaflı, mürvətli, kəramətli ol!
Deməsinlər bu nə məna, hikmətdir?

Düşüncə, dərrakə, kamalla dolan!
Ən ülvi, müqəddəs amalla dolan!
Mənəvi gözəllik, camalla dolan!
Deməsinlər bu nə dəyər, qiymətdir?

Verməynən qəlbində xəbisliyə yer,
Ellərn varına, hərisliyə yer,
Nanəcib, namərdlik, naqisliyə yer,
Deməsinlər bu nə arzu, niyyətdir?

Cəmil Əkbər, yaşa-yarat, qur dolan!
Elə hərlən, elə girlən dur dolan!
Şan-şöhrətlə ömrü başa vur dolan!
Deməsinlər bu nə zəhmət, xidmətdir?

***Cəmil Əkbər*** 29. 05 – 1993

## 12. HALINA?

Dağıdan dağıdır, yeyənlər yeyir,
Bəs kim qalsın əl-ayaqsız halına?
Bəzənən düzənir, geyənlər geyir,
Bəs kim qalsın fəqirlərin halına?

Alanlar alırlar, satanlar satır,
Üzənlər üzürlər, batanlar batır,
Var-hala qərq olub, çatanlar çatır,
Bəs kim qalsın məzlumların halına?

Məzlum atasına gicdi dedilər,
Xaindi, xəbisdi, kəcdi dedilər,
Haqqa-ədalətə öcdü dedilər,
Bəs kim yansın səqirlərin halına?

Yaşayan yaşayır, ölənlər ölür,
Ağladan ağlayır, gülənlər gülür,
Gözünün yaşını silənlər silir,
Bəs kim yansın ağlayanın halına?

Alimlər qəm yeyir, nadan kef çəkir,
Təlimdən yarımçıq dadan kef çəkir,
Haqq-say sümürüb udan kef çəkir,
Bəs kim yansın qananların halına?

Fürsət keçib həyasızlar əlinə,
Əqidəsiz, qayəsizlər əlinə,
Tərbiyəsiz, dayəsizlər əlinə,
Bəs kim qalsın həyalının halına?

Dağıdan dağıdır, sökənlər sökür,
Bezdirib zəhlələr tökənlər tökür,
Şux gəzən, şux gəzir, çökənlər çökür,
Bəs kim yansın dözməyənin halına?

Əzilən əzilir, əzənlər əzir,
İnciyən inciyir, bezənlər bezir,
Dözməyən dözməyir, dözənlər dözür,
Bəs kim qalsın əzilənin halına?

Tökülən tökülür, axanlar axır,
Boylanan boylanır, baxanlar baxır,
Əllərdə, ayaqda tapdanır fağır,
Bəs kim qalsın zavallının halına?

Cəmil Əkbər, bu nə qəmdi çəkirsən?
İçin-için gözyaşını tökürsən?
Qəlb evinin təməlini sökürsən?
Bəs kim qalsın sən səqirin halına?

***Cəmil Əkbər*** 5. 02 – 1995

## 13. YETİM OLUB

Səni də ana doğub, a vicdansız, a qansız,
Duymursanmı sən bunu, a şərəfsiz, a şansız?
Əzəl gündən, binadan, məhəbbətdən yarandın,
Ədəb-ərkan, mərifət, nəzakətdən yarandın.
Eşqə giriftar olan, ləyaqətdən yarandın,
Doğruluqdan, düzlükdən, həqiqətdən yarandın.
Sədaqətdən zühur edib, səxavətdən yarandın,
İnsaf-mürvət, kəramət, mərhəmətdən yarandın.

Etiqadla, inamla, etibarla doğuldun,
Nəvazişlə bəslənib, düz ilqarla doğuldun.
Hanı bəs sədaqətin, hanı bəs səxavətin?
Hanı ülvü istəyin, hanı bəs məhəbbətin?
Harda qaldı mürvətin, kəramətin de görüm?
Şan-şöhrətin bəs hanı, şərafətin de görüm?[263]
İnsanlığa xas olan, ləyaqətin hardadır?
Xeyirxahlıq nişanı, fəzilətin hardadır?
Ünsiyyətdə-ülfətdə mərhəmətin bəs hanı?
İgidliyin hardadır, məharətin hardadır?
Bacarığın, fəhimin, fərasətin hardadır?
Bəs hünərin, zəfərin, cəsarətin hardadır?
Harda qaldı zəhmətin, harda qaldı xidmətin?
Gözə dəymir məzmunun, məziyyətin, hikmətin.
Yoxsa anan doğmayıb, səni ata əkməyib?
Sənə qayğı göstərib, zəhmətini çəkməyib?
Düşüb eniş-yoxuşa, qamətini bükməyib?
Heç tükünü ürpədib, ətini də tökməyib?

Ay insan bu məramla törəmisən bəs nədən?
Boy atmırsan bəs nədən, cücərmisən bəs nədən?
Ana səni doğsaydı, sənə mürvət verərdi,
Abır-həya bəxş edib, sənə ismət verərdi.
Gecə-gündüz durmadan, sənə xidmət edərdi.
Topu vurub əyriyə, yaxşı zinət verərdi.
Dadlı-duzlu, məzəli sənə söz öyrədərdi,
Hər nə desə, danışsa, doğru-düz öyrədərdi.

---

[263] Harda qaldı şöhrətin, şərafətin de görüm?

Gecikməzdi bir anda, sənə tez öyrədərdi,
Səksən, doxsan nədir ki, sənə yüz öyrədərdi.
Yetişərdi idrakın, səndə kamal olardı,
Bu mənəvi gözəllik, surət, camal olardı.
Öyrədərdi o sənə oturmağı, durmağı,
Şərafətlə, şöhrətlə yaratmağı, qurmağı.
Dost-tanışı axtarıb, aramağı, sormağı,
Fərəh ilə, sevinclə ömrü başa vurmağı.
Dərs almayan anadan, davalara düşübdür,
Zəhərlərə qərq olan havalara düşübdür.
Oğruluğa yön alıb, əyriliyə gedibdir,
Özgə səmtə üz tutub, qeyriliyə gedibdir.
Ana bizə can verib, ana bizə qan verib,
Zəhmət çəkib tər töküb, süfrə açıb, nan verib.
Övlad gərək hərzaman, düz eşitsin ananı,
Gecikməsin bir anda, tez eşitsin ananı.
Səksən, doxsan nədir ki, yüz eşitsin ananı,
Rəva deyil heçkəsə, üz eşitsin ananı?
Harda olsa, yaşasa qoy dinləsin atanı,
Qəbahətə yol verib, törətməsin xətanı.
Ən birinci təlimi analardan alaq biz,
Onlar bizə nə desə, yadımıza salaq biz.
Ataları dinləyək, babaları dinləyək,
Seyrə çıxıb elləri, obaları dinləyək.[264]
Qoy görənlər, bilənlər qınamasın bizləri,
Tərbiyəsiz, təlimsiz tanımasın bizləri.
Görən-bilən, eşidən bizə nifrət etməsin,
Kin-küdurət bəsləyib, nə də hiddət etməsin.
Giley-güzar eyləyib, bizə töhmət etməsin,
Daldalarda danışıb, bizə lənət etməsin.
Bizi ana doğubdur, analara söydürmə,
Nifrət ilə yad edib, qəzəb ilə döydürmə.
Bizi ata əkibdir, hər an onu şad edək,
Toxunmayaq ruhuna, məzarını yad edək.
Övlad gərək şen edə, atasının yurdunu,
Dədəsinin, nənəsinin, anasının yurdunu.
Hərbir övlad şərəfli oğul olsun anaya,

[264] Qarış-qarış gəzərək, obaları dinləyək.

Dillərdə dastan olsun, nağıl olsun anaya.
Atalardan-anadan dərsini düz almalı,
Gecikməyib bir anda, təlimi düz almalı.
Ata-ana kəlamı gərəkdir hər insana,
Əyilməyən sütundur, dirəkdir hər insana.
Harda olsa, yaşasa o köməkdir insana,
Yorulmayan qollardır, o biləkdir insana.
Atalardan, anadan dərsini almayanlar,
Düşünərək dərk edib, xəyala dalmayanlar.
Əqidədən, məsləkdən, kamaldan yetim olub,
Bu mənəvi sərvətdən, camaldan yetim olub.
Cavanlara, qocaya, ahala sitəm olub,
El-obaya, vətənə, mahala sitəm olub.

***Cəmil Əkbər*** 15. 03 -1995

## 14. İNSAN VƏ ZAMAN

Oxu, öyrən dühalardan, anla, dərk et, gör nə var?[265]
Orda-burda yatıb qalan, bilinməyən sirr nə var?[266]
Dayazlarda baş girləmə, dərinlərə gir öyrən![267]
İstiləri, soyuqları, sərinləri gir öyrən![268]
Dəymiş, sütül, acıları, şirinləri gör öyrən![269]
İncələri, kobudları, zərifləri bir öyrən!
Zaman deyir tez ayılın, görə-görə kor olma!
Eşit, anla xalq səsini, qulaqları kar olma!
Səma tərlanı xoşlayır, qarğa olma, sar olma!
Gözdən düşüb el içində, əzəl-axır xar olma!
Yaxşı-yaxşı oxu, öyrən, kitablarda gör nə var?
Əmr, fərman, qərarlarda, xitablarda gör nə var?
Təbiblərdə, loğmanlarda, dərmanlarda gör nə var?
Dəyirmanda, tarlalarda, xırmanlarda nələr var?
Gülüstanda, gül-çəməndə, ormanlarda nələr var?
İxtiyarda, iqtidarda, fərmanlarda nələr var?
Düşüncədə, dərrakədə, ürəklərdə gör nə var?

---

[265] Oxu, öyrən sərbəsər, anla, dərk et, gör nə var.
[266] Gör haçandan bəridir, bilmədiyin sir nə var.
[267] Dayazlıqda hərlənmə, dərinlərə gir öyrən,
[268] 1) İstilərə, soyuqlara, sərinlərə gir öyrən. 2) İstilərə, bürkülərə, sərinlərə gir öyrən.
[269] Acılardan halı ol, şirinləri bir öyrən.

Arzularda, istəklədə, diləklərdə gör nə var?
Tufanlarda, sazaqlarda, küləklərdə gör nə var?
Fitnə-fəsad, hiylələrdə, kələklərdə gör nə var?
Nanəcibdə, namərdlərdə, xəbislərdə gör nə var?[270]
Acgözlərdə, tamahkarda, hərislərdə gör nə var?[271]
Mömin, iblis, şeytanlarda, mələklərdə bax nə var?
Şadarada, xəlbirlərdə, ələklərdə bax nə var?
Təlxəklərdə, şıltaqlarda, yaltaqlarda gör nə var?
Həyasızda, abırsızda, sırtıqlarda gör nə var?
Ayrı-ayrı kimsələrdə, şəxsiyyətdə gör nə var?[272]
Bu kainat, bu cahanda, cəmiyyətdə gör nə var?[273]
Çeşitlərdə, keyfiyyətdə, kəmiyyətdə gör nə var?
Arzularda, istəklərdə, saf niyyətdə gör nə var?[274]
Təmkinlikdə, dözümlükdə, qətiyyətdə gör nə var?
Xəsislikdə, simiclikdə, səxavətdə gör nə var?
Ülvü-istək, məhəbbətdə, ədavətdə gör nə var?
Avamlıqda, nadanlıqda, çəhalətdə gör nə var?
Ədalətdə, həqiqətdə, ləyaqətdə gör nə var?
Dönüklükdə, saxtalıqda, sədaqətdə gör nə var?
Tənbəllikdə, fərasətdə, cəsarətdə gör nə var?
Əyrilikdə, doğruluqda, həqiqətdə gör nə var?
Sərsəridə, gicbəsərdə, divanədə gör nə var?
Müqəvvada, bitərəfdə, biganədə gör nə var?
Koryapalaqda, sarquşda, pərvanədə gör nə var?
Dərrakəli idraklıda, kamallıda gör nə var?
Enişlərdə, yoxuşlarda, dərələrdə gör nə var?
Yallarda, yal-yamaclarda, bərələrdə gör nə var?
Aqillərdə, cahillərdə, nadanlarda gör nə var?
Təlimindən yarımçıqda, dadanlarda gör nə var?
Lovğalarda, dambatlarda, xudbinlərdə gör nə var?
Həyatından küsgünlərdə, bədbinlərdə gör nə var?
Məzlumlarda, yazıqlarda, fəqirlərdə nələr var?
Yoxsullarda, kasıblarda, səqirlərdə nələr var?

---

[270] Paxıllarda, xainlərdə, xəbislərdə gör nə var?
[271]Tamahkirdə, acgözlərdə, hərislərdə gör nə var?
[272] Səndə, məndə, onlarda, şəxsiyyətdə gör nə var.
[273] Başdan-başa el-obada, cəmiyyətdə gör nə var.
[274] Xeyirxahlıq, bədxahlıqda, saf niyyətdə gör nə var?

Gör nəqədər düşünən var, öz borcunu qanan var?
Od-ocaqsız alışan var, atəşlərdə yanan var?
Öz əhdini, peymanını, bircə anda danan var?
İlqarından dönənlər var, ora-bura qonan var?
Kütbeyinlər, dəngəsərlər, gör nəqədər nadan var?
Yol-izini səhv salanlar, tərsəməssəb azan var?
İnsanlara cələ quran, dərin quyu qazan var?
Bu dünyada gör nəqədər öyrənən var, bilən var?
İnildəyən, sızıldayan, ağlayan var, gülən var?
Gör nəqədər vaxt-vədəsiz köçənlər var, ölən var?
Dövranı başa vurmamış, gedənlər var, gələn var?
Ünsiyyətdə, ülfətlərdə bezdirən var, bezən var?
Məhbəslərdə inldəyən, çürüyən var, dözən var?
Tər qönçəsi açılmamış, saralan var, solan var?
Arzu-murada çatmamış, gözü yolda qalan var?
Xəyallara qərq olan var, qapılan var, dalan var?
Dilqəminin bəm kökündə, qəm sazını çalan var?
Damarda, rişədə, gendə, qanımızda nələr var?
Arı kimi pətəklərdə, şanımızda nələr var?
Gör nəqədər ülfətlərdə ədavətlər hökm edir?
Fəzilətlər hökmü-rəvan, rəzalətlər hökm edir?
Əyər-əksiklər var hələ, qəbahətlər hökm edir?
Hər cür müsibət, dəhşətlər, fəlakətlər hökm edir?
Ədəb-ərkan, böyük-kiçik, xətir-hörmət hökm edir?
Mərhəmət, rəhm yaşayır, insaf-mürvət hökm edir?
Gör kimlərdə sədaqətlər, səxavətlər hökm edir?
İnsanlığa məxsus olan, ləyaqətlər hökm edir?
Gör kimlərdə nadanlıq var, cəhalətlər hökm edir?
Xəta-bəla törədənlər, xəsarətlər hökm edir?
Gör kimlərdi qəflətlərdə, qərq olaraq yatanlar?
Çamırlığa qərq olanlar, üfunətə batanlar?
Gör kimlərdi vicdanını, məsləkini satanlar?
Şər-böhtanı uyduranlar, aralığı qatanlar?
Gör nəqədər bu dünyada çəkləsi dərdlər var?
Namərdlərə qul olanlar, igidlər var, mərdlər var?
Gör nəqədər insanların hədər gedib zəhməti?
Verilməyib düz qiyməti, itib-batıb xidməti?
Axtar ara neçə-neçə samballı var, karlı var?
Tutarlı var, tutarsız var, sərvətli var, varlı var?

Ünsiyyətdə-ülfətlərdə yaxşılar var, yaman var?
Dağın başını bürüyən, sis, çisgin var, duman var?
Birbirindən qəlbiqırıq inciyən var, küsən var?
Salam-kalamı unudub, yerli-dibli kəsən var?
Bu dünyada gör nəqədər xəstəlik var, azar var?
Haqlı-haqsız meyillər var, səfərlər var, güzar var?
Çox dərdlərin əlacı var, məlhəmi var, dəva var?
Ekoloji fəlakətlər, korlanılmış hava var?
Ustad aşığın sazında gəraylı var, təcnis var?
"Divani" , "Cəngi Koroğlü", "Şəqai" var, "Təxmis" var?
Oxu, öyrən bu həyatı, öz dərsini yaxşı bil!
Öz yerini doğru tanı, öz hirsini yaxşı bil!
Nəqədərki ömrün varsa, oxu-öyrən həmişə,
Xidmətinlə, öz işinlə ətir qoxu həmişə.
Xəlbirində ələkləyib, arpaları samandan,
Dəqiq ayır, sən yaxşı seç, yaxşıları yamandan.

***Cəmil Əkbər*** 15. 01 – 1989

## 15. VAY HALINA

Vay halına o kəsə ki, məhəbbətdən kasaddır,
Könül şamı zəif yanır, hərarətdən kasaddır.
Etibardan xəbəri yox, sədaqətdən kasaddır,
Nəzamandır yetişməyib, ləyaqətdən kasaddır.
Səxavətdə payı yoxdur, kəramətdən kasaddır,
Ədəb-ərkan tanımayır, mərifətdən kasaddır.
İnsanlığa lazım olan, zərurətdən kasaddır.
Ədalətdən çox uzaqdır, həqiqətdən kasaddır,
Ustadından dərs almayıb, nəsihətdən kasaddır.
Xeyirxahlıq tanımayır, fəzilətdən kasaddır.[275]
Ülviyyətdən, qüdsiyyətdən, keyfiyyətdən kasaddır,[276]
Yox ülfəti, ünsiyyəti, cəmiyyətdən kasaddır.[277]
Nə deyəsən biçarəyə, təməlindən kasaddır?!
Sözlərindən, söhbətindən, əməlindən kasaddır.
Əcdadından, soykökündən, əsilindən kasaddır,
Doğulduğu nəs ayından, nəs ilindən kasaddır,
Boran qopub, tufan əsmiş, fəsilindən kasaddır.

---

[275] Xətir-hörmət tanımayır, kəramətə dönükdür.
[276] Bədxahlıqla armağandır, saf-niyyətə dönükdür.
[277] Özü-özünə aşiqdir, cəmiyyətə dönükdür.

Qəddarlıqda ad çıxarıb, mərhəmətdən kasaddır.[278]
Xəyalında kəc fikirlər, ürəyində kin yatır,
Məskən salıb, cövlan edir, iblis, şeytan, cin yatır.
Fitnə yatır, fəsad yatır, hiylə, kələk, fel yatır,
Arzusunda, istəyində, üfunətli göl yatır.
Nəzər salmır bu gününə, nihayəti görməyir,[279]
Məzmunundan xəbəri yox, mahiyyəti görməyir.
Öz xalqından borc alıbdır, tez qaytarıb verməyir,
Bağlar salıb, peyvənd vurub, öz barından dərməyir.
Qurşanıbdır əyri yola, doğru yola gəlməyir,
Nə utanır, nə qızarır, həya edib ölməyir.
Cahillikdən həzz alaraq, xam xəyala düşübdür,
Səbəb odur, qəm-qüssəyə, dərd-məlala düşübdür.
Avamlıqda ömür sürür, ədavətdən qurtulmur,
Törətdiyi xətalardan, qəbahətdən qurtarmır.
Gün keçirir qal-qovğada, davalardan qurtulmur.
Zəhərlərə bülənd olmuş havalardan qurtulmur.
Ha çalışır, ha can atır səadətə qovuşmur,
Yayınmayır xətalardan, bəlalardan sovuşmur.
Nə müddətdir zaman keçir, arzusuna yetməyir,
Bəslənilib, becərilir, cücərməyir, bitməyir.

***Cəmil Əkbər*** 25. 07- 1987

## 16. SÖZ QILINCIM

*Söz qılıncım* sovun alıb, Hatəmlərin səxasından,
Gözəllərin ismətindən, igidlərin vəfasından.
Zəhmətkeşin qollarından, dahilərin zəkasından,
Bahar fəsli, gül çiçəkli təbiətin havasından.
*Söz qılıncım* sovun alıb, Nizaminin “Xəmsə”sindən,
Ovxarlanıb, kəsərlənib, hər beytindən, misrasından.
*Söz qılıncım* sovun alıb, ədalətdən, həqiqətdən,
Yer üzündə bəşər oğlu, nəki varsa ləyaqətdən.
*Söz qılıncım* ovxar alıb, Vətənimin qüdrətindən,
Ariflərin kəlamından, zəhmətkeşin mürvətindən.
*Söz qılıncım* ovxar alıb, idrakımdan, kamalımdan,
Vicdanımdan, məsləkimdən, əqidəmdən, amalımdan.

***Cəmil Əkbər***

[278] Qəddarlıqda ad çıxarıb, mərhəmətə dönükdür.
[279] Bu gününə aldanaraq, nihayəti görməyir.

## 17. QULUYAM MƏN!

Əzəl gündən, ibtidadan hiddət ilə yoxdur aram,
Mehribanlıq amalımdır, məhəbbətin quluyam mən!
Kin-küdurət  eşitdikcə, sızıldayır köhnə yaram,
Mehri-ülfət səmimiyyət, bu adətin quluyam mən!
Eysüd  əmib qidalandım, doğulmuşam bu xislətlə,
Meylim qondu etibara, sədaqətin quluyam mən!
Çox tökmüşəm alın təri, yaşamışam bu xidmətlə,
Sinə gərdim hər çətinə, bu zəhmətin quluyam mən!
Bu sözlərlə, əməllərlə heçkimsə qoy öyünməsin,
Saf əqidə, düşüncənin, pak niyyətin quluyam mən!
Bədxahlıqla, ev yıxmaqla yaşayanlar sevinməsin,
İnsanlığa xidmət edən, ləyaqətin quluyam mən!
Nə lazımdır hiylə, kələk ya saxtalıq, yalan sözlər?
Doğruluğun, ədalətin, həqiqətin quluyam mən!
Olmayaydı aralıqda, onu-bunu çalan sözlər,
Xoş mərama qulluq etdim, səadətin quluyam mən!
Sevə-sevə gün keçirib ilham ilə yaşamışam,
Meylim qonub poeziyaya, şeiriyyətin quluyam mən!
Ömürboyu çəkə-çəkə el dərdini daşımışam,
Beylə sirrin, möcüzənin, bu hikmətin quluyam mən!
Qəhərləndim əzilənə, nifrət etdim əzənlərə,
Bu arzunun, bu həvəsin, bu riqqətin quluyam mən!
Nifrət etdim dözdürənə, acımışam dözənlərə,
İnsaf-mürvət əhli oldum, kəramətin quluyam mən!
Ariflərlə yaxın oldum, nadanlardan kənar durdum,
Xoşlamışam ədəb-ərkan, mərifətin quluyam mən!
Ürəyimdən keçən sözü, öz yerində demişəm də,
Həzz almışam duzlu sözdən, zərafətin quluyam mən!
Uymamışam fitnə-felə, bir dəqiqə, bir an belə,
Ülvü-ülfət, ünsiyyətin, məlahətin quluyam mən!
Eşitmişəm acı söz də, sinirmişəm, yemişəm də,
Dolubsa da səbr kasam, dəyanətin quluyam mən!
Nə bacardım kənar qaçdım, bataqlıqdan, üfunətdən,
Qönçələrdə ətir saçan, təravətin quluyam mən!
Çalışdım ki, uzaq olum, xəbislikdən, xəyanətdən,
Abır-həya eyləmişəm, bu ismətin quluyam mən!
Dönə-dönə əhsən dedim nəcibliyə, həssaslığa,

Nifrət etdim kobudluğa, lətafətin quluyam mən!
Ən sadəcə dolansam da, tərlan xəyal çəkdi göyə,
Zirvələrə qondu meylim, ülviyyətin quluyam mən!
El-obadan ilham aldım, xoşlamadım tənhalığı,
Tək özümü düşünmədim, cəmiyyətin quluyam mən!
Tamahıma əsir olub son günümə var yığmadım,
Xoşlamadım ötərilik, nihayətin quluyam mən!
Xidmət etdim əzəl gündən, öz adımın mənasına,
Bu fəhimin, fərasətin, bu diqqətin quluyam mən!
Cəmil oldu adım mənim, bu ad ilə çağrılmışam,
Qulluq etdim gözəl ada, bu qüdrətin quluyam mən!

***Cəmil Əkbər*** 5.10 – 1986

## 18. SÖYLƏMƏ!

İzhar edib sözlərini, hər yetənə söyləmə!
Nabələdə, yol zana, hər yetənə söyləmə!
Uyuyaraq qəflətlərdə, yatanlardan uzaq ol!
Çamırlığa qərq olaraq, batanlardan uzaq ol!
Vicdanını, məsləkini satanlarla əylənmə!
Şər danışıb aralığı qatanlarla əylənmə!
Ürəyi çaş, qəlbi xain olanlarla danışma!
Kin-küdurət, ədavətlə dolanlarla danışma!
Doğru sözü tərsəməssəb yozanlara söz demə!
Yol-izini dağa-daşa azanlara söz demə!
Sərsəridən, kəmağıldan, dəngəsərdən gendə dur!
Bədəsildən, divanədən, sərsəridən gendə dur!
Hiyləgərlə, dələduzla, biclər ilə oturma!
Söz anlamaz, mətləb qanmaz, giclər ilə oturma!
Qayda-qanun, yol-ərkana öc olandan uzaq ol!
Əhd-peyman, düz ilqara kəc olandan uzaq ol!
Gəl sözünü kamalından küt olana söyləmə!
Əqidədən, amalından qıt olana söyləmə!
Məramından, qayəsindən dönənlərdən uzaqlaş!
Xətir-hörmət mövqeindən enənlərdən uzaqlaş!
Hər mətləbə qulluq edib, gəzənlərdən uzaqlaş!
Hər sifətə sinə gərib dözənlərdən uzaqlaş!
Zəhmət çəkib, canı qoyub, ürəyini üzmə sən!
Ülvi arzu, nəcib istək, diləyini üzmə sən!

Sözlərini sən söyləmə, hər səsrsəri nadana?
Mehribansan gəl söyləmə hər yetirən adama?
Qoy gəlməsin yaxınına, uzaqlarda dolansın,
Qərq olsada özü bilər, sazaqlarda dolansın.
Sözlərini açıq söylə, söz qədirini bilənə,
İşarədən eyham ilə, göz qədrini bilənə.
Elə danış, elə din ki, xətirlərə dəyməsin,
Kaman kimi dal eyləyib, qamətləri əyməsin.
İrzikdirib əhli-halı, zəhləsini tökməsin,
Qəlb evini viran qoyub, bəndlərini sökməsin.

***Cəmil Əkbər***

## 19. İNAM

*I variant*

İnam ilə getmişik, inam ilə gəlmişik,
Oxuyub, öyrənmişik, inam ilə bilmişik.
Axtarmışıq inamla, sormuşuq da inamla,
Yaratmışıq inamla, qurmuşuq da inamla.
Oturmuşuq inamla, durmuşuq da inamla,
Zəhmət çəkib hünərlə, yormuşuq da inamla.
İnam ilə sevinib, gülmüşük də dünyada,
Varı-halı qardaştək, bölmüşük də dünyada.
İnam ilə qurulub ünsiyyətin binası,
Bünövrəsi təməli, sarsılmayan əsası.
İnam ilə dost olub, insan biri-birinə,
Gəl-get edib qarışıb, həm xeyrinə, şərinə.
İnamla yoğrulubdur ünsiyyətin mayası,
Pak arzunun, istəyin, məhəbbətin mayası. [280]
İnam ilə yetişib sevdamızın barı da,
İgidlərin qeyrəti, gözəllərin arı da. [281]
İnam ilə bəslənib, sədaqətin nübarı,
Doğruluğun, düzlüyün, həqiqətin nübarı.
İnsaf, mürvət nə varsa, kəramətin nübarı.
İnam ilə yaranıb, yarananın hamısı,
Cücərənin, bitənin, darananın hamısı.

---

[280] Hikmət dolu sözlərin, nəsihətin mayası.
[281] 1) İgidlərin namusu, qeyrəti də, arı da. 2) İnsanlığa xas olan ləyaqətin barı da.

İnam ilə ucalıb, ucalanın özü də,
Zəfər çalıb hünərlə, bac alanın özü də.
İnam ilə çatıblar hər məqsədə, mətləbə,
Hər tutulan mənsəbə, hər çalınan qələbə.
İnam ilə yer üzü, gözəlləşib deyirlər,[282]
Boya-başa gəlibdir, əməlləşib deyirlər.[283]
İnam ilə yaşayır, yaşayanın hamısı,
Bu həyatın yükünü daşıyanın hamısı.
İnam ilə çoxalır, çox olanın hamısı, [284]
İnam yoxsa məhv olur, yox olanın hamısı.[285]
İnam yoxsa arada, yaşamaq da çətindir,
İnsanlığın yükünü daşımaq da çətindir.
Qardaş, gəl bu dünyada, inamı itirməyək,
Bu töhfəni, bu payı, ənamı itirməyək.
İnam yoxsa arada, nəyə ümid bağlayaq?
Necə şövqə gələrək, fərəh ilə çağlayaq?
İnam xətir deməkdir, inam hörmət deməkdir,
İnam qüvvət deməkdir, inam qüdrət deməkdir.
Rəhmlilik deməkdir, insaf-mürvət deməkdir,
Abır-həya deməkdir, iffət, ismət deməkdir.
İnam nicat deməkdir, inam nüsrət deməkdir,
İnam məzmun deməkdir, inam hikmət deməkdir,
İnam dəyər deməkdir, inam qiymət deməkdir.
İnam həyat deməkdir, inam nəfəs deməkdir,
İnam fərəh deməkdir, inam həvəs deməkdir.
İnam ilə yaranıb, nəzakətin əsası,
Xeyirxahlıq, amalın, fəzilətin əsası.
İnam ilə yaranıb, yarananın hamısı,
Cücərənin, bitənin, dararananın hamısı.
İnam itsə dünyada, gözəllik çirkin olar,
Ürəkləri dərd basar, nikbinlər bədbin olar.
İnam itsə dünyada, yer üzü zülmət olar,
Kef-damağın yerində, dərd-azar, hillət olar.
İnam itsə dünyada, pozulacaq  həyat da,

---

[282] İnam ilə yer üzü, gözəlləşib əzəldən.
[283] Yaxşılaşıb hərzaman, əməlləşib əzəldən.
[284] İnam ilə çoxalır, çoxalanın hamısı,
[285] Var olanın hamısı, tox olanın hamısı.

Xətir-hörmət nə varsa, azalar toy-büsat da.
İnam itsə yəqin bil, yer üzündə davadır,
Zəhərlərə qərq olan, bülənd olan havadır.
Qardaş gəlin hər yerdə, inam ilə oturaq,
İnam ilə çalışaq, inam ilə yaradaq,
İnam ilə dolanaq, inam ilə hərlənək.
İnam yoxsa həyatda, nə hikmət var əzizim,
Nə gözəllik, incəlik, təravət var əzizim.
Aramızda hərzaman, qoy bu varlıq var olsun,
Əhd-peyman, düz ilqar, vəfadarlıq var olsun.
İnam vüsət yoludur, inam nicat yoludur, .
Bu kəhkəşan ulduzu, inam icad yoludur.
Səadətin açarı inamdadır qardaşım,
Ləyaqətin açarı inamdadır qardaşım.
Ədalətin özü də inamdadır inamda,
Həqiqətin gözü də inamdadır inamda.
İnam yoxsa ürəkdə, xətir-hörmət kəsilər,
Xoş arzular, diləklər, insaf, mürvət kəsilər.
Səmimiyyət tükənər, məhəbbət də azalar,
Gediş-gəliş azalar, ünsiyyət də pozular.
İnam yoxsa ürəkdə, daşa dönər bu varlıq,
Tərsəməssəb çevrilib, çaşa dönər bu varlıq.
İnam ilə arzlar birləşibdir əzəldən,
İnam ilə urzular birləşibdir əzəldən.
Hərnəvarsa qardaşım, inamdadır bunu bil,
Bu varlıqda cəm olub, qanımdadır bunu bil.
İnam həvəs deməkdir, inam nəfəs deməkdir,
Ruhumuza xoş gələn ən gözəl səs deməkdir.
İnam varsa dünyada, ünsiyyət də pozulmaz,
Xoş arzular, istək də, pak niyyət də azalmaz.
İnam qüvvət deməkdir, inam qüdrət deməkdir,
İnam qeyrət deməkdir, inam cürət deməkdir.
Finişə tez çatmaqda inam sürət deməkdir.
İnam ilə yaranır, ləyaqətin əsası,
Ədalətin özülü, həqiqətin binası.

***Cəmil Əkbər*** 17. 06 – 1985 // 20. 10 – 1985

## 20. İNAM

*II variant*

İnam ilə yaranıb, bu dünyaya gəlmişik,
İnam ilə oturub, inam ilə durmuşuq.
İnam ilə yaradıb, inam ilə qurmuşuq,
İnam ilə sevinib, biz şənlənib gülmüşük,
Qardaş kimi arada, dərdi-qəmi bölmüşük.
İnam ilə dost olub, insan biri-birinə,
Həm gediblər, gəliblər, həm xeyir, həm şərinə.
İnam ilə qurulub ünsiyyətin mayası,
Xoş arzunun, istəyin, məhəbbətin binası.
İnam ilə bəslənib sədaqətin barı da,
Doğru-dürüst, düzlük də, həqiqət nübarı da.
İnam ilə yetişib, ləyaqətin özü də,
Səxavətin, mürvətin, kəramətin özü də.
İnam ilə yaranıb, yarananın hamısı,
Cücərənin hamısı, darananın hamısı.
İnam ilə ucalıb, ucalanın hamısı,
Zəfər çalıb hünərlə, bac alanın hamısı.
İnam ilə çatılıb, hər məqsədə, mətləbə,
Hər uğurlar, hər zəfər, hər çalınan qələbə.
İnam ilə yer üzü gözəlləşib əzəldən,
Yaxşılaşıb, dirçəlib, əməlləşib əzəldən.
İnam xətir deməkdir, inam hörmət deməkdir,
İnam insaf deməkdir, rəhim, mürvət deməkdir.
İnam ilə yaşayır, yaşayanın hamısı,
Bu həyatın yükünü daşıyanın hamısı.
İnam vüsət yoludur, inam nicat yoludur,
İnam həyat yoludur, inam büsat yoludur.
İnamdadır deyirlər, səadətin açarı,
Ədəb-ərkan qaydanın, nəzakətin açarı.
İnam yoxsa ürəkdə, məhəbbət də tükənir,
Doğruluq da, düzlük də, həqiqət də tükənir.
Gediş-gəliş azalır, ünsiyyət də pozulur,
Əql-kamal fikir də, nəsihət də azalır.
İnam həvəs deməkdir, inam qüdrət deməkdir,
İnam həyat deməkdir, inam hikmət deməkdir.
Deyirlər hərnəvarsa, o inamla bağlıdır,

O  töhfəyə, peşkəşə, bu ənama bağlıdır.
İnam  qüvvət deməkdir, inam qüdrət deməkdir,
Finişə qaçhaqaçda, inam sürət deməkdir.

***Cəmil Əkbər*** 20. 10 – 1968

## 21.  İNAM

*III  variant*

Deyirlər inam olub, yerin-göyün ləngəri,
Odur bizi yaşadan, milyon illərdən bəri.
İnam ilə yaranıb bu dünyanın neməti,
Bilinibdir mənası, həm məzmunu, hikməti,
Yaranıbdır dəyəri, verilibdir qiyməti.
İnam ilə yaranıb, səadətin mayası,
İnsanlığın mayası, ləyaqətin mayası,
Təmiz istək, arzunun, saf niyyətin mayası.
İnam ilə qoyulub sədaqətin özülü,
Ədalətin təməli, həqiqətin özülü.
İnam olub hərzaman, ünsiyyətin əsası,
Ülviyyətin əsası, qüdsiyyətin əsası,
Xoşməramlı arzunun, xoş niyyətin binası.
İnam ilə edirik, hər edilən hörməti,
Həm mərhəməti, rəhmi, səxavəti, mürvəti,
İnam ilə çəkirik, hər çəkilən zəhməti.
İnam olub deyirlər, etibarın əsası,
Ta qədimdən indiyə, düz ilqarın əsası.
İnam ilə yaranıb, kainatın özü də,
İşləyibdi idrakı, açılıbdı gözü də.
İnam ilə yazılıb, şairlərin əsəri,
Ovxar alıb qılıncı, bilinibdir kəsəri.
İnam ilə gedirik, al-şəfəqli səhərə,
Son qoyuruq qüssəyə, dərdə, qəmə, qəhərə.
İnam olub hərzaman, insanları yaşadan,
Bu həyatın yükünü, zaman-zaman daşıdan.
İnam olub hərzaman, qüdrətimiz deyirlər,
Gündən-günə hey artıb, sürətimiz deyirlər.
İnam olub hərzaman, qolumuzdan qaldıran,
Bu həyatda qələbə, zəfərləri çaldıran.
Təki inam yaşasın, hər ürəkdə qardaşım,

Hər arzuda-istəkdə, hər diləkdə qardaşım.
Harda olsaq, yaşasaq, qoyun inam var olsun,
Kimin varsa günahı, gen dünyası dar olsun.
Görə-görə gözləri, qarov olsun, kor olsun,
İnamsızlar utansın, bədnam olsun, xar olsun.
Harda olsaq, yaşasaq, inam bizə yar olsun,
Təbiətdə bu varlıq, ənam bizə yar olsun.
İnam olan ürəklər, daim bəxtiyar olsun,
Qollarında, qılçında, daim iqtidar olsun.

***Cəmil Əkbər*** 11.11– 1985

## 22. SƏADƏTƏ QOVUŞAQ

Cahan adlı dünyanın övladıyıq, oğluyuq,[286]
Nəcib arzu-istəyin, bir amalın oğluyuq,[287]
Ülvi eşqin, həvəsin, məhəbbətin oğluyuq,
Etibarın, inamın sədaqətin oğluyuq.[288]
Dözüm-durum, dəyanət, qətiyyətin oğluyuq,
Aləmi heyran edən, saf niyyətin oğluyuq.
Bu məqsəd, xoş məramla, hər kəs gərək yaşaya,[289]
Bu həyatın yükünü, ləyaqətlə daşıya.[290]
Hər məkanda hərzaman sadiq olaq insana,
Gözəlliklər bəxş edib, rövnəq verək cahana.[291]
Qoy bizlərdən inciyib, bezib küsən olmasın,[292]
Əllərini əllərdən üzüb, kəsən olmasın.[293]
Biz elə işləyək ki, gətirməyək bəhanə,
Saxta sözlər gəlməsin, dil-dodağa, dəhanə.
Ünsiyyətdə, ülfətdə, biganəlik etməyək,
Haqq yolundan uzaşıb, əyri yolla getməyək,
Orda-burda cücərib, kol-kos kimi bitməyək.
Ürəklərdə paxıllıq, xəbisliklər olmasın,

---

[286] Cahan adlı diyarın, biz bir elin oğluyuq.
[287] Bir əqidə, məsləyin, bir amalın oğluyuq.
[288] Əhdi-peyman oğluyuq, sədaqətin oğluyuq.
[289] Bu məqsədlə, məramla, bu ürəklə yarandıq.
[290] Orda-burda bəslənib, üzə çıxdıq, darandıq.
[291] Zəhmət çəkib bəsləyək, rövnəq verək cahana.
[292] Qoy bizlərdən inciyib, nə də küsən olmasın.
[293] Qorxusundan titrəyib, nə də əsən olmasın.

Naxələflik, namərdlik, naqisliklər olmasın.
Harda olsaq, yaşasaq, əlbir olaq daima,[294]
Fikirlərdə, xəyalda, dilbir olaq daima.[295]
İnsan övladı hər an, bir-birini düşünsün,
Ocağına sığınıb, istisinə isinsin.
Göstərdiyi hünərə, zəhmətinə sığınsın,
Qayğısına, yardıma, xidmətinə sığınsın.
Dara düşdüyü zaman birbirinə yarasın,
Araşdırıb axtarsın, tapsın dərdin çarasın.
Hamı gərək bilsin ki, bu kainat onundur,
Bu el-oba, bu mahal, bu camaat onundur.
Kənd, şəhər, qəsəbələr, vilayət də onundur,
Yaxşı-yaman hərnəvar, hərəkət də onundur.
Birağızdan desin ki, Nizamitək düham var,
Əfzələddin Xaqani, Füzulitək babam var.
Nəsimitək, Tusitək, Seyd Əzimtək babam var,
Sabir kimi fədaim, Cavid kimi atam var.
Gör nə gözəl diyarım, ellərim var, obam var?
Hərbirkəs qoy desin ki, “Xəmsə” mənə yazılıb,
“Gülüstan” da, “Bustan” da hamsı mənə yazılıb.
Quran mənə yazılıb, kitab mənə yazılıb,
Hər bir kəlmə, hər kəlam, xitab mənə yazılıb.
Qərar mənə yazılıb, fərman mənə yazılıb,
Təbib məni düşünüb, dərman mənə yazılıb.
Hamı gərək anlasın, yer də mənim yerimdir,
Mövcud olan xeyir də, şər də mənim şərimdir.
Bilsin ana yurdumda, var da mənim varımdır,
Saz da mənim sazımdır, tar da mənim tarımdır.
Bu vətəndaş, bu vətən, el də mənim elimdir,
Xəzanlara qərq olan, gül də mənim gülümdür.
Bu çəmən də, çiçək də, çöl də mənim çölümdür,
Bu inci də, sədəf də, ləl də mənim ləlimdir.
Kamanımda inləyən, tel də mənim telimdir,
Muğan, Şirvan hərnəvar, Mil də mənim Milimdir.
Az da mənim azımdır, çox da mənim çoxumdur,
Qəhətlik də, qıtlıq da, yox da mənim yoxumdur.

---

[294] Harda olsa, yaşasa, əlbir olsun bu bəşər.
[295] Az boğuşsun, didişsin, orda-burda xeyir-şər.

Yer də mənim yerimdir, göy də mənim göyümdür,
Çöl də mənim çölümdür, ev də mənim evimdir.
İz də mənim izimdir, yol da mənim yolumdur,
Sağ da mənim sağımdır, sol da mənim solumdur.
Adətim, ənənəm də, dəb də mənim dəbimdir,
İlham mənim ilhamım, təb də mənim təbimdir.
Hamı gərək desin ki, ucalan da mənimdir,
Əldən, heydən düşən də, qocalan da mənimdir.
İnildəyib sızlayan, ağlayan da mənimdir,
Başlarına qaralar, bağlayan da mənimdir.
Ünsiyyət məqamında, hərarət də mənimdir,
Bacarıq da, fəhm də, fərasət də mənimdir.
Biganə, laqeydlik, soyuqluq da mənimdir,
Müqəvvalıq, bütlük də, oyuqluq da mənimdir.
Əzilən də mənimdir, əzənlər də mənimdir,
İnciyənlər, küsənlər, bezənlər də mənimdir.
Hər əzaba, zillətə, dözənlər də mənimdir,
Veyil-veyil dolanan, gəzənlər də mənimdir.
Yanaqları saralan, solanlar da mənimdir,
Əl-ayaqda tapdanan, qalanlar da mənimdir.
Sevinib şad olanlar, gülənlər də mənimdir,
Cəhalətin əlində ölənlər də mənimdir.
Hamı gərək bilsin ki, dağ da onun dağıdır,
Bol bəhrəli tarlalar, bağ da onun bağıdır,
Xəstə onun xəstəsi, sağ da onun sağıdır.
Şirin-şəkər, doşab, bal, acılar da onundur,
Ata, ana qardaşlar, bacılar da onundur.
Düyünlənən, çatılan, qaş da onun qaşıdır,
Vaxt-vədəsiz kəsilən, yaş da onun yaşıdır.
İnildəyən ürək də, baş da onun başıdır,
Zəhərlərə qarışan, aş da onun aşıdır.
Kədərlərə qərq olan, qəmə düşən onundur,
Əyər-əksik naqisə, kəmə düşən onundur.
İztirabın içində inləyənlər onundur,
Yaraları qövr edən, simləyənlər onundur.
Hamı gərək desin ki, əzilənlər mənimdir,
Qatarından ayrılıb, üzülənlər mənimdir.
Vaxtsız rəngi soluxan, saralanlar bizimdir,
Bulud kimi dolanlar, qaralanlar bizimdir.

Müsibətdən, dəhşətdən qırılanlar bizimdir,
İçin-için çürüyən, darılanlar bizimdir.
Bəlkə onda bir qədər, bu dünyamız düzələ,
Yolu-izi azanlar, törpülənib nəzilə.
Dərk eyləyib həyatı, düşünərək qanalar,
Böyükləri, kiçiyi pəsinələr, sanalar.
Hamı gərək desin ki, ağrıyan baş mənimdir,
Düyünlənən, çatılan, qabaqlar, qaş mənimdir,
Sızıldaşıb göynəyən, çəkilən diş mənimdir.
Görülməmiş qalanlar, iş də mənim işimdir,
Yaz da mənim yazımdır, qış da mənim qışımdır,
İşləməyən kotan da, xış da mənim xışımdır.
İşə başım qarışıb, zəhməti mən çəkirəm,
Torpaqları şumlayıb, toxumu mən səpirəm.
Tarlaları suvarıb, bağlarımı əkəcəm,
Qayğıları göstərib, xidmətimi edəcəm.
Xətirimi gözləyib, hörmətimi edəcəm,
Böyüklərə-kiçiyə, mürvəti mən edəcəm.
Açıq-aşkar danışıb, söhbəti mən edəcəm,
Malqaranı otarıb, pambığı mən dərəcəm.[296]
Görüləsi işləri öz vaxtında görəcəm,
Borcumu öz xalqıma, ləyaqətlə verəcəm.
Hamı gərək harda var, qəbahətdən uzaşsın,
Nadanlığı tərk edib, cəhalətdən uzaşsın.
İnsanlığı məhv edən, zəlalətdən uzaşsın,
Paxıllıqdan əl çəkib, xəyanətdən uzaşsın,
İşgəncədən, zülümdən, müsibətdən uzaşsın.
Hamı gərək desin ki, mən yaradıb quracam,
Hamıdan gec yatacam, səhər erkən duracam.
Hərkəs gərək hamıya, qardaş kimi yanaşa,
Sirdaş olub, mehriban yoldaş kimi yanaşa.
Bir kənara çəkilib, eyləməyə tamaşa,
Səmimiyyət nurundan gözlər baxıb qamaşa.
Hamı gərək düşünüb, dərk etməyi bacara,
Yollarını azana görk etməyi bacara.
Qəlbə dəyən hərnəvar, tərk etməyi bacara,
Xainlərə, xəbisə bərk etməyi bacara.

[296] Qartofu mən becərib, üzümü mən dərəcəm.

İnsan gərək insanın heç qəlbinə dəyməyə,
Dərdi-qəmə salaraq, qamətini əyməyə.
Haralarda yaşasa, hünərini bildirə,
Savab əməlləriylə el-obanı güldürə.
Haqsızlıqdan uzaşıb, həqiqətə gələlər,
İnsanlığa qovuşub, ləyaqətə gələlər.
Xeyirxahlıq eyləyib, fəzilətə gələlər,
Saf arzuya, istəyə, pak niyyətə gələlər.
Sədaqətə gələlər, səxavətə gələlər,
İnsaf, mürvət, kəramət, mərhəmətə gələlər.
Heçkəs gərək uymaya, nanəcibə, pislərə,
Zalımlara, qəddara, bədxahlara, nəslərə.
Dərrakədən kütlərə, kamalından kəmlərə,
Vicdanından, məsləkdən, amalından kəmlərə.
Hərkəs gərək uymaya, hər yetirən kəslərə,
Eşq-məhəbbət bağında, kol bitirən kəslərə.
Gedib yoldaş olmasın, qəflətlərdə yatana,
Xəta-bəla törədib, günahlara batana.
Harda varsa ləyaqət, ona meydan verilsin,
Görünəydi məharət, ona meydan verilsin.[297]
Hərkəs gərək hamının, əməyilə öyünə,
Soykökü, bünövrəsi, təməliylə öyünə.
Əcdadıyla, irsiylə, nəsiliylə öyünə,
Doğulduğu ay ilə, fəsiliylə öyünə.
Deyilməsin heçkəsə, pis nəsildən törəyib,
Mərdimazar, şərxəta, nəs nəsildən törəyib.
Hərkəs gərək hamının diqqətinə inana,
Ürəkdəki təpərə, riqqətinə inana.
Gecə-gündüz düşünüb, dərk eyləsin, anlasın,
Kimin varsa nöqsanı, öz-özünü danlasın.
Hərkəs gərək hamıya, qiymətini düz verə,
Gecikib ləngiməsin bir andaca tez verə.
Yemək-içmək, naz-nemət, var-dövlətə çatdıra,
Tükənməyən sərvətə, bərəkətə çatdıra.
Yaradıb qurmaq üçün, heçkəs gendə qalmaya,
Dalanlarda girlənib, heçkəs tində qalmaya.
Hərkəs gərək hamının, imdadına yetişsin,

[297] Boğulmasın məharət, ona meydan verilsin.

Harayını eşitsin, fəryadına yetişsin.
Dara düşən zamanda, arxasında dayansın,
Qəflətlərdə yatmasın, daha bəsdir oyansın.
Hamı gərək bilsin ki, pislər bizi öldürür,
Gəlin ona son qoyaq, nəslər bizi öldürür.
Cahil, avam, sərsəri, nadan bizi öldürür,
Tərbiyədən kəm-kəsir dadan bizi öldürür,
Haqq-sayı sümürən, udan bizi öldürür.
Hərkəs gərək anlasın, ona zəhmət gərəkdir,
Ona qayğı gərəkdir, ona xidmət gərəkdir.
Hərkəs gərək dərk edib, nəzər salsın özünə,
Görə-görə kor olub, tor gəlməsin gözünə.
Hərkəs gərək harda var, qəbahətdən uzaşsın,
Qəsd-qərəzdən uzaşsın, ədavətdən uzaşsın.
Nadanlığı tərk etsin, cəhalətdən uzaşsın,
Paxıllıqdan əl çəkib, xəyanətdən uzaşsın.
Nə zamandan kök salan, müsibətdən uzaşsın,
İnsanlığı məhv edən, bu dəhşətdən uzaşsın.
Hərkəs gərək hamıya can deməyi bacarsın,
Bu həyatı anlayıb, qan deməyi bacarsın.
Hamı gərək hərkəsə mehribanlıq eyləsin,
Səmimilik göstərib, istiqanlıq eyləsin.
Beylə etsək yəqin ki, tez ağarmaz başımız,
Qabağımız tutulmaz, tez çatılmaz qaşımız.
Belə olsa yəqin ki, ürəyimiz sevinər,
Çiçək açar arzular, diləyimiz sevinər.[298]
Qollarımız yorulmaz, biləyimiz sevinər,
Qanadımız açılar, lələyimiz sevinər.
Yəqin onda üzümüz el içində ağ olar,
Xəstəliyi tanımaz, bədənimiz sağ olar.
Bəlkə onda bu bəşər, davalara son qoya,
Zəhərlərə qarışan, havalara son qoya.
Xətalardan, bəladan, uzaq olub sovuşa,
Axtarıb aradığım, səadətə qovuşa.

***Cəmil Əkbər*** 3. 10 -1996

[298] Nəcib arzu-istəklər, diləyimiz sevinər.

## 23. SAHİBİM *(P o e m a)*

*I bölüm*

Sahib sahib olarsa, o hamıya gərəkdir?
O hamıya qayğıdır, o hamıya köməkdir,
Təsəlli verənimdir, təskinlikdir hərkəsə,
Saf arzudur, istəkdir, pak diləkdir hərkəsə.
Harda olsa hərzaman elə ətalıq eylər,
Xidmətini göstərib, elə atalıq eylər.[299]
O nəqədər bilsədə, eldən öyrənən olar,
Ağız, dəhan, dodaqdan, dildən öyrənən olar.
Görüb-götürən olar, sahib biləndər olar,
Öz işinin ustası, müdrik ələmdar olar.
Sayəsində vətəndə birlik olar həmişə,
Həyəcandan, qorxudan aləm düşməz təşvişə.
Xeyir-bərəkət artar, çörəyimiz bol olar,
Nəcib arzu, istəklər, diləyimiz bol olar.
Yorulmayan qolumuz, biləyimiz bol olar.
El-obaya, xalqıma, köməyimiz bol olar.[300]
Zülmət çöksə araya, o şam olub əriyər,
Gecə-gündüz çalışıb, el xeyrinə düşünər.
Günəş kimi işığı, nuru düşər həryana,
Rəhmi gələr yazığa, məzlumlara, üryana.
Qal-qovğanı yatırar, dava-dalaş törətməz,
Nə həyəcan, səksəkə, qorxu, təlaş törətməz.
Ədəb-ərkan gözləyər, mehribanlıq eyləyər,
Səmimiyyət göstərib, istiqanlıq eyləyər.
Sahib qayğıkeş olar, sahib cəfakeş olar,
El xeyrinə şəninə, sahib zəhmətkeş olar.
Oturanda, duranda, kamalını bildirər,
Əqidəni, məsləki, amalını bildirər.
Tikib, qurub yaradan, mahalının gülüdür.
El-obanın tanınan incisidir, ləlidir.
Rəiyyətə heç zaman o xəyanət eyləməz,
Yalan-yanlış söyləyib, onu bəyan eyləməz.
Ünsiyyətdə, ülfətdə o dayazlıq edərmi?

---

[299] Mərhəmətin bildirib, elə atalıq eylər.
[300] Elə, xalqa, vətənə gərəyimiz bol olar.

Soyuqluğu göstərib, o ayazlıq edərmi?
Salmaz ayrıseçkilik, o ölsə də araya,
Bais olmaz heç zaman, qövr eyləyən yaraya.
Qoymaz küsə bir anda, qardaşları qardaşdan,
Həmdəmləri həmdəmdən, sırdaşları sirdaşdan.
Tay-tuşları tay-tuşdan, çağdaşları çağdaşdan,
Həmkarları həmkardan, yoldaşları yoldaşdan.
Haqq-sayı itirib nanıkorluq eyləməz,
Evlər yıxıb, qan töküb ziyankarlıq eyləməz.
Şər-böhtanlar danışıb, fitnəkarlıq edərmi?
Xalq malını talayıb, qəsbkarlıq edərmi?
Cavabdehdi Vətəndə yaxşı-yaman hər işə,
Hər nə varsa, nə yoxsa xeyir işə, şər işə.
Tək özünə deyildir, özgəyə də gərəkdir,
Tat, Ayrıma, Kürdə də, Ləzgiyə də gərəkdir.
Doğma, yaxına deyil, ögeyə də gərəkdir,
Həm güneyə gərəkdir, həm quzeyə gərəkdir.
Həm yaxına gərəkdir, həm uzağa gərəkdir,
Özbəklərə, Türkmənə, həm Qazağa gərəkdir.
Harda məskən salarsa, xətir-hörmət gözləyər,
Vicdan, məslək, əqidə, insaf-mürvət gözləyər.
Yaxşı tanıyıb bilsin, kimdi ara qatanlar,
Yoğurmamış, yapmamış, dövlət vara çatanlar.
Abırını itirən, həyasını satanlar,
Əqidədən dönənlər, qayəsini atanlar,
Dəyərinə-dəyməzə, insanlığı satanlar.
Fitnə-fəsad törədib, kimdi bəd iş tutanlar?
Bədəməli işləyən, min günaha batanlar?
*Sahib sahib olarsa,* ədaləti atarmı?[301]
Doğruluğu, düzlüyü, həqiqəti atarmı?[302]
İnsanlığı atarmı, ləyaqəti atarmı?[303]
Sədaqəti atarmı, səxavəti atarmı?[304]
Ədəb-ərkan, mərifət, nəzakəti gözləyər,[305]

[301] Sahib sahib olarsa, ədaləti gözləyər.
[302] Doğruluğu, düzlüyü, həqiqəti gözləyər.
[303] İnsanlığa xas olan, ləyaqəti gözləyər.
[304] Sədaqəti qoruyub, səxavəti gözləyər.
[305] Ədəb, ərkan gözləyər, nəzakəti atarmı?

Xeyirxahlıq eyləyər, fəziləti gözləyər.
Ürəyinin başında məhəbbəti yaşadar,[306]
Min bir məna kəsb edən, bu hikməti yaşadar.
*Sahib sahib olarsa,* ədavəti törətməz,
Paxıllığa meyl edib, xəyanəti törətməz.
Car eyləyib həryana, şikayəti o salmaz,
Min cür xəta-bəlanı, cinayəti o salmaz.
İnsanları çaşdırıb, cəmiyyəti o pozmaz,
Birkimsəyə toxunub, şəxsiyyəti o pozmaz.
Obasını pəsinib, o elindən utanar,
Damarından, qanından, o genindən utanar.
Yol-izini azana o bəraət eyləməz,
Vətəninə, xalqına yad hərəkət eyləməz,
Bu bəşərə, bu xalqa, beylə xəyanət etməz.
Dərrakədə, kamalda beylə xəsislik etməz,
Bir bu qədər əksiklik, nə də naqislik etməz.
İlqarından o dönməz, əhd-peyman gözləyər,
Din-məzhəbi tapdanmaz, ilqar-iman gözləyər.
Əqidəyə, məsləkə o dönüklük eyləməz,
Saxtakarlıq eyləməz, o sünilik eyləməz.
El varına, halına o əniklik eyləməz,
Hər bir səmtə üz tutub, o yönüklük eyləməz.
Oturub qalxan zaman o gədəlik eyləməz,
Yara vurub ürəyə, nə zədəlik eyləməz.
*Sahib sahib olmasa,* düşünməsə, qanmasa,
Pəsinərək bu xalqı, böyük-kiçik sanmasa.
Onda nə görüm-baxım, töhfə ənaət olmaz,
Gələcəyə layiqli onda əmanət olmaz.
Bu məramla axırda pozularıq bir anda,
Tərsəməssəb çevrilib, yozularıq bir anda.
Baxıb çərxi-zamana, darılarıq yəqin ki,
İçin-için çatdayıb, qırılarıq yəqin ki.
Bürələyib dağları, çisgə-duman çoxalar,
Birbirindən inciyib, küsən, uman çoxalar,
Könüllərdə şübhələr, gəlib güman çoxalar.
Vəlvələlər düşəcək, hər millətin içinə,
El-obanın içinə, cəmiyyətin içinə.

[306] 1)Ürəyinin başından məhəbbəti atarmı? 2) Qəlbində yuva salan məhəbbəti atarmı?

Çaşar yolu, izini, durnaların qatarı,
Dəm-dəstgahı pozular, qala bilməz tutarı.
Buminvalla deyəsən bəşər azar yolunu,
Doğru təsbit edərmi, həm sağını, solunu?
Məzlum bəşər görərmi sədarətdə böyük var?
Haqq yolunu göstərən, həqiqətə yönük var?
Görə bilməz heç zaman, dağ da dağa söykənir,
Kök torpağa işləyir, tağ da tağa söykənir.
Çaylar çaya qovuşur, sel də sellə birləşir,
Obalar da obayla, el də elə birləşir.
O görərmi el gücü, zərbi kərən sındırır?
Sözü tutarlı olur, qanmazı da qandırır?
Daş da daşa söykənib, divar olur deyirlər,
Ucalaraq saraylar, vüqar alır deyirlər.
Ha deyilib yazılsa, söylənsədə min kərə,
Qulaqardına vurub, ötürəcək peysərə.
Zənnedərki hər şeyin biləndəri olubdur,
Həm alimi, loğmanı, qələndəri olubdur.
Anlamaz ki, oba da, ellər də var dünyada,
Neçə-neçə yaradan, qollar da var dünyada.[307]
İşə-gücə yarayan, fillər də var dünyada,
Düz danışıb, düz deyən, dillər də var dünyada.
*Sahib sahib olmasa,* sədaları görərmi?
Qal-qovğanı salanı, qadaları görərmi?
Sızlayanı görərmi, ağlayanı görərmi?
Başlarına qaranı bağlayanı görərmi?
Kükrəyəni görərmi, çağlayanı görərmi?
Sinəsini çal-çarpaz, dağlayanı görərmi?
Atalardan söz qalıb, igid olsa sərkərdə,
Öz işində gücündə, kamil olsa pərgərdə.
O hökmündə yanılıb, ordunu verməz bada,
Öz adına, sanına ləkə yaxmaz dünyada.
*Sahib sahib olmasa,* qana bilməz hikməti,
Saxlayanmaz əlində o mənəvi sərvəti.
O gözləməz vəfanı, ilqar-iman saxlamaz,
Nə etibar, etiqad, əhd-peyman saxlamaz.
Əfsus olsun nədənsə, belələri az deyil,

[307] Mahir qurub yaradan, əllər də var dünyada.

Tamahına qul olan, kölələri az deyil.
Bilən yoxdur nə yolla, sədarətə yetişir,
“Bacarığa”, “fəhimə”, “fərasətə” yetişir.
Şan-şöhrətə yol tapır, şərafətə yetişir,
Çalıb-çapır, talayır, var-dövlətə yetişir.
Görən hansı qanadla, zirvələrə ucalır?
Hiylə-məkr, kələklə, zəfər çalıb, bac alır.
*Sahib onu seçək ki,* dayaq olur hamıya,
Bir kəhkəşan ulduztək, mayaq olur hamıya.
O yatmasın qəflətdə, oyaq olsun hərzaman,
Vəzifədə xalqına, dayaq olsun hərzaman.
*Sahib seçək o şəxsi*, yaradandı, qurandı,
O hamıdan gec yatan, səhər erkən durandı.
Dəyanətli, dözümlü varisimiz o olsun,
Haralarda çalışsaq, sahibimiz o olsun.
Fikrndə heç çaşmasın, o azmasın yolunu,
Düz tanısın sağını, yanılmasın solunu.
Xidmət edə xalqına, etibardan ötəri,
Doğru sözlər danışa, düz ilqardan ötəri.
Bu bəşəri, bu xalqı ləyaqətə çıxara,
Səxavətə gətirə, mərhəmətə çıxara.
Xoş arzuya, istəyə, pak niyyətə çıxara,
Azadlığa gətirə, səadətə çıxara.
Yersiz-yersiz danışıb, bezdirməsin bu xalqı,
Müsibətə, bəlaya, dözdürməsin bu xalqı.
Kəc fikirlə, məramla aralığı qatmasın,
Əsəbləri korlayıb, min günaha batmasın.
*Sahib onu seçək ki,* qəbahətlər etməsin,
Küdurətlə dolanıb, ədavətlə getməsin.
Külüngüylə dağıdıb, tikiləni sökməsin,
Şam-şum edib həryanı, yerində turp əkməsin.
Ora-bura çaşaraq, haqq yolunu azmasın,
Ünsiyyəti korlayıb, ülfətləri pozmasın.
Doğruları tərsinə, çevirərək yozmasın,
Onun bunun gorunu goreşəntək qazmasın.
Hiylə, məkr işlədib min bir oyun açmasın,
Çıxılmaz vəziyyətdə, Vətənindən qaçmasın.
Qəlbi xain olmasın, bizə xəbis olmasın,
Tamahına qul olub, acgöz, həris olmasın.

Millətinə lağ edib, dildən-dilə salmasın,
Oyuncağa çevirib, əldən-ələ salmasın.
Vuruşdurub hamını, aralığı qatmasın,
Yer üzündə qan töküb, min günaha batmasın.
Sahibi seçmirik ki, xəyanətlər eyləsin,
Addımbaşı yanılıb, cinayətlər eyləsin.
Yol-izini azaraq, tərsəməssəb yerisin,
Mənliyini itirib, diri-diri çürüsün.
Bəd işlərlə, əməllə xalqını pat eyləyə,
Vəzirini itirib, şahını mat eyləyə.
Eşidirmi bu sözü, harda qaldı "sahibim?"
Niyə düşdü çətinə, darda qaldı "sahibim?"
Görən niyə bu qədər, girsiz oldu "sahibim?"
İffət-ismət bilmədi, arsız oldu "sahibim"?
Uyuyubdu qəflətdə, ayılmadı "sahibim",
El içində tanınıb sayılmadı "sahibim".
Ləngiyib gecikməzdi, niyə gəlmir "sahibim?"
Yoxsa düşüb kəməndə, toru görmür "sahibim?"
Ha eşitdi, ha gördü götürmədi "sahibim",
Bağa peyvənd vuraraq, bitirmədi "sahibim".
Harda yatıb görəsən, heç oyanmır "sahibim?"[308]
Arxamda mərd-mərdanə, heç dayanmır "sahibim?"[309]
Bəlkə heç eşitməyir, yoxsa görmür "sahibim?"[310]
Öz borcunu xalqına niyə vermir "sahibim?"[311]
Ədəb-ərkan bilməyən, mərifətsiz "sahibim",
Abır-həya qanmayan, xəcalətsiz "sahibim".[312]
Tutduğundan utanmır, həyasızdır "sahibim",
Əqidəsiz, məsləksiz, qayəsizdir "sahibim".
Bədxahlıqdan çəkinib, pəsinməyən "sahibim",
Nə qısqanıb ürpəşən, diksinməyən "sahibim".
Sədaqəti bilməyən, səxavətsiz "sahibim",
Böyük-kiçik sanmayan, nəzakətsiz "sahibim".
Görən niyə yanıldı, səhv eylədi "sahibim?",

[308] Harda yatıb görəsən, harda qaldı sahibim?
[309] Niyə düşdü çətinə, darda qaldı sahibim?
[310] El səsini eşitmir, niyə bilmir sahibim.
[311] Öz xalqına borcunu niyə vermir sahibim?
[312] Abır-həya bilməyən, xəcalətsiz sahibim.

Olan qayda-qanunu, məhv eylədi “sahibim?”[313]
Kəramətsiz “sahibim”, fəzilətsiz “sahibim?”,
Taxt-taca yaraşmayan, ləyaqətsiz “sahibim?”
El gözündə nədənsə çəkilmədi “sahibim”,
Başımızdan rədd olub, əkilmədi “sahibim”.
Bu sözləri dedim ki, qoy anlasın “sahibim”,
Öz-özünü qınayıb, hey danlasın “sahibim”.
Nələr oldu həyatda, görmədimi görəsən?
Bu bəşərin dərdini bilmədimi görəsən?[314]
Özü başqa “sahibim”, sözü başqa “sahibim”,
Yolu başqa “sahibim”, izi başqa “sahibim”.
Üzü bəzək “sahibim”, içi təzək “sahibim”
Dərdi-qəmə tablaşıb, necə dözək “sahibim?”
Ay laqeyd, keyqubad, ay biganə “sahibim?”
Tayı-tuşu olmayan, ay “yeganə” “sahibim?”
Ay sərsəri “sahibim”, ay dəngəsər “sahibim?”
Ay ixtisar “sahibim”, ay müxtəsər “sahibim?”
Nadanlıq ucbatından nələr etdi “sahibim?”
Vicdanını ataraq, hara getdi “sahibim?”
Böyüdükcə nədənsə, bala oldu sahibim,
Əqidədən, məsləkdən dala qaldı sahibim.[315]
Ağa ikən nədənsə, gədə oldu “sahibim”,
Rəiyyətə, xalqına zədə oldu “sahibim”.

***Cəmil Əkbər***

## BELƏ SAHİBLİK OLMAZ

*II bölüm*

Müdam baxıb güzgüdə, hey özünü görmüsən,
Yuxuda öz oğlunu, öz qızını görmüsən.
Sinən üstə kökləyib, öz tarını çalmısan,
Əhd-peyman bağlayıb, öz yarını almısan.
Gah dərinə düşmüsən, gah dayaza getmisən,
Gah istiyə, bürküyə, gah ayaza getmisən.
Kimə doğma göründün, kimə ögey göründün?

---

[313] Yersiz-yersiz bu xalqı, məhv eylədi sahibim?
[314] Ağrıları, acını dərmədimi sahibim.
[315] Dayı ikən nədənsə, xala oldu sahibim.

Kimə quzey göründün, kimə güney göründün?
Bu nə ayrıseçkilik salınıbdır araya?
Qövr etdirib təzədən, duz səpirlər yaraya.
Gör nəqədər bəşərə, ziyankarlıq edilir?
İtib-batır haqq-say, nanıkorluq edilir.
Şər-böhtanlar yayılır, fitnəkarlıq edilir,
Xalqın malı talanır, qəsbkarlıq edilir.
Ərşə çıxıb eləbil, hörmət-izzət görünmür,[316]
Hara getdi görəsən, insaf-mürvət görünmür.[317]
Bu həyatı dərk edib, görənmirmi sahibim?[318]
Öz borcunu xalqına, verənmirmi sahibim?
Fitnə-fəsad törədib, qatıbdılar aranı,
Ünsiyyət məqamında yağdırırlar boranı.
Beylə sahiblik olmaz, beylə rəiyyət olmaz,
Beylə ədalət olmaz, beylə həqiqət olmaz.
Beylə əzab-əziyyət, beylə məşəqqət olmaz,
Beylə öcəşmək olmaz, beylə ədavət olmaz.
Nə beylə gün-güzəran, beylə vəziyyət olmaz,
Beylə dühalıq olmaz, beylə şəxsiyyət olmaz.
Nə Allahdan qorxmadı, nə bəndədən utandı,[319]
Əqidədən, məsləkdən, nə genindən utandı.
Sədaqətə xidmətdə beylə qəbahət olmaz,
Bu qədər nə avamlıq, nə də cəhalət olmaz.
Şərafətə-şöhrətə əsla xəyanət olmaz,
Nədir bu giley-güzar, beylə şikayət olmaz.
*Biz ki, səni seçmədik,* öz yolunu azasan?
Doğru fikri tərsinə çevirəsən, yozasan?
Ünsiyyəti-ülfəti, nə bacarsan pozasan,
Onun-bunun gorunu eşələyib qazasan?
Böyük-kiçik sanmayıb, sərhəddini keçəsən?
Özün üçün münasib, təzə dostlar seçəsən?
Demədik ki, ilqardan, etibardan dönəsən?
Mövqeindən alçalıb, gədə kimi enəsən?
Demədik ki, ay zalım bizə kömək olasan?

---

[316] Ərşə çıxıb eləbil, hörmət-izzət qalmadı.
[317] Hara getdi görəsən, insaf-mürvət qalmadı.
[318] Eşitmirmi, bilmirmi, görənmirmi sahibim?
[319] Nə Marksdan utandı, nə Lenindən utandı.

Hiylə, məkr işlədib, bizə tülək olasan?
Bizə xain çıxasan, bizə xəbis olasan?
Bizə acgöz olasan, bizə həris olasan?
Bizi adam sanmayıb, əldən-ələ salasan?
Yalan-yanlıc yağdırıb, dildən-dilə salasan?
Vuruşdurub bu xalqı, aralığı qatasan?
Nahaq yerdən qan töküb, min günaha batasan?
*Biz ki, səni seçmədik,* xəyanəti edəsən?
Yolu-izi çaşaraq, tərsəməssəb gedəsən?
Hər adımın başında, cinayət eyləyəsən,
Xalqa pis xəbərləri bəyanət eyləyəsən.
Şərafəti, şöhrəti tamam gözdən salasan,
Öz yolundan tərpədib, onu düzdən salasan.
Bədəməllə, bəd işlə, milləti mat qoyasan,
Vəzirini qopardıb, şahını pat qoyasan.
*Beylə sahiblik olmaz,* beylə varislik olmaz!
Bir bu qədər əksiklik, nə də xəbislik olmaz!
Dərrakədə, kamalda beylə xəsislik olmaz!
Bu qədər kəm-kəsirlər, nə də naqislik olmaz!
Beylə acgözlük olmaz, beylə hərislik olmaz!
Ən adicə çobanda beylə "nəzakət" olmaz,[320]
Beylə müsibət olmaz, beylə fəlakət olmaz.
İlqar-iman qalmadı, əhd-peyman pozuldu,
İtdi-batdı arada, zaman-zaman yozuldu.
Beylə saxtalıq olmaz, beylə dönüklük olmaz,
Beylə qanıqlıq olmaz, beylə əniklik olmaz.
Nə babalıq, atalıq, beylə dədəlik olmaz!
Bir bu qədər cılızlıq, beylə gədəlik olmaz![321]
Beylə falabaxanlıq, beylə siqanlıq olmaz!
Gözgörəti bu qədər, nə də ciqanlıq olmaz!
Bu bəşərə, bu xalqa beylə divan tutulmaz,
Xətir-hörmət, haqq-say, ayaq altda atılmaz.
Həya edib, ar elə, eldən utan ayıbdır,[322]
Bir bu qədər sözlərdən, dildən utan ayıbdır.[323]

---

[320] Ən adicə çobanda beylə ədavət olmaz.
[321] Beylə kişilik olmaz, beylə gədəlik olmaz!
[322] Həya edib, ar edib, sahib eldən utanar.
[323] Sahib eli pəsinər, sahib eldən qısqanar!

Bədəməl iş tutanlar, çıxmaz xalqın üzünə,[324]
Ha cəhd etsə, çalışsa, baxa bilməz gözünə.[325]
Beylə sahib olunca, kaş sahibsiz olaydıq,
Kaş ki, sonsuz qalaydıq, lap varissiz qalaydıq.
Görən səbəb nədir ki, maskalanıb sahibim?
Bədəməllə bu qədər, sısqalanıb sahibim?
Sahibsizlik üzündən gör nələri görürük?
Gör nələri eşidib, gör nələri bilirik?
Dərdə düçar oluruq, qəddimizi bükürük,
İnildəyib, sızlayıb, gözyaşını tökürük!
*Sahib sahib olmasa,* biz pis günə düşürük,
Yolu-izi çaşaraq, dağ-düyünə düşürük.
Böyük-kiçik görünür, kiçik böyük görünür,
Sönən yanan görünür, yanan sönük görünür.
Başa ayaq deyilir, ayağa baş deyilir,
Vicdana kor deyilir, məsləkə çaş deyilir.
Sahibsizlik əlindən nələr çəkmədi bəşər?
Hey dalaşdı, vuruşdu, bir-birilə xeyir-şər!
Tarlalar da, zəmi də, ala-ula bitirdi,
Fürsət tapıb cücərdi, bala-bala gətirdi.
Nələr gördü gözümüz, nələr çəkdi başımız?
O səbəbdən çatıldı, qabağımız, qaşımız.
Giley-güzar içində, keçirildi günümüz,
Dağa-daşa salındı, eşidildi ünümüz.
Dedi-qodu yayıldı, şikayətlər nə qədər?
Neçə dastan yazıldı, hekayətlər nə qədər?
Çox igidlər silindi, qaralandı dəsdədən,
Salınaraq zindana, aralandı dəsdədən.
Bostantəki toplanıb, uralandı yazıqlar,
Ora-bura ayrılıb, sıralandı yazıqlar.
*Sahibsizlik üzündən,* məhv edildi çoxları,
Hüquqları tapdanıb, səhv edildi çoxları.
Arzusuna-istəyə çoxları yetişmədi,
Paralandı, dağıldı, çoxları bitişmədi.
Peyvənd olub çalındı, bir çoxu üyüşmədi,
Cəh-cəh vurub bülbültək, bir çoxu ötüşmədi.

---

[324] Daha bəsdir ayıbdır çıxma xalqın üzünə.
[325] Tüpürərlər hər yanda, inan sənin üzünə.

Ondan-bundan şəkləndi, neçəsi qaralandı,
Yerlibazlıq üzündən, neçəsi haralandı.
Al-qanları qaraldı, korlanıldı nəqədər,
Əsəbinə dəyildi, zorlanıldı nəqədər.
Mövqeində yüksəlib, ucalmadı neçəsi,
Zəfər çalıb işində, bac almadı neçəsi,
Şan-şöhrətə çatmayıb, tac almadı neçəsi.
Əl-ayaqda qalaraq, orda-burda əzildi,
İnildədi sozaldı, gündən-günə nəzildi.
Eşitmədi görəsən, bu sözləri sahibim?
Tutanmadı nə üçün, nəbzləri sahibim?
Harda qaldı qayğısı, harda qaldı köməyi?
Bəs hardadı xidməti, harda qaldı əməyi?
Nə sədası bilinmir, nə sorağı gəlməyir,
Nə həvəsi duyulmur, nə marağı gəlməyir.
*Beylə sahib nə üçün*, kimə gərək görəsən?
Başımızdan eyləyib, kimə verək görəsən?
Yaxamızı qurtarıb, hara gedək əlindən?
Xilas olaq, yayınaq, fitnəsindən-felindən?
Belə sahib olmasa, bəlkə daha yaxşıdır,
Ucuz ətdən deyirlər, olsa baha yaxşıdır,
*Sahib karsız olanda*, bizi salır müşgülə,
Düçar edir zülmətə, qərq eyləyir nisgilə.
Belə rəhbərlik olmaz, belə sahiblik olmaz.
İdarə edən olmaz, belə varislik olmaz.
Sahib abır gözləyər, sahib həya gözləyər,
Sahib məslək gözləyər, sahib qayə gözləyər.
Sahib ustadlıq eylər, sahib dayəlik eylər,
El-obanı toplayıb, ona yiyəlik eylər.
Sahib-sahiblik eylər, sahib atalıq eylər,
Sahib ənaət eylər, sahib ətalıq eylər.
Sahib öyrədən olsa, həm də öyrənən olar,
Bədəməldən, bəd işdən, tez də ürpənən olar.
Sahib işləyən olar, sahib tərpənən olar,
El-obanı pəsinən, sahib irkinən olar.
Sahib öyrədən olar, sahib biləndər olar,
Öz işində-gücündə, sahib qələndər olar.
Sahib xərratlıq edər, sahib çilingər olar,
Sahib kamallı olar, sahib ələmdar olar.

Sayəsində sahibin, birləşirik hamımız,
Şölə saçır həryana, işıq saçır şamımız.
Sahib qal-qovğa bilməz, dava-dalaş törətməz,
Həyəcan, təşviş, qorxu, nə də təlaş törətməz.
Sahib sülhə can atar, mehribanlıq eyləyər,
Ünsiyyətdə, ülfətdə istiqanlıq eyləyər.
Sahib cəfakeş olar, sahib qayğıkeş olar,
Xidmətini göstərər, sahib zəhmətkeş olar.
O ellərə sığınar, el də ona sığınar,
Fikir, xəyal, düşüncə, dil də ona sığınar.

## SAHİBSİZLİK ÜZÜNDƏN

*III bölüm*

Sahibsizlik üzündən nələr çəkdi bu bəşər?
Bir-birilə öc oldu, xeyirlə-şər sərbəsər!
Əsəbimiz korlandı, al-qanımız qaraldı,
Ovqatımız təlx oldu, gen dünyamız daraldı.
Qaraya ağ deyildi, ağa qara deyildi,
Kəsirə tam deyildi, tama para deyildi.
Neçəsinin hüququ, aralıqda yeyildi,
Düzələsi çox işlər düzəlmədi, əyildi.
Aman Allah rəhm edin, kamal verin sahibə,
Vicdan verin sahibə, amal verin sahibə.
Vəzifəyə yaraşan, ağıl verin sahibə,
Kəm-kəsirli olmasın, mağıl verin sahibə.
Bəlkə onda birtəhər şen dünyamız düzələ,
Dar olmaya başlara, gen dünyamız düzələ.

## ÇOX SAHİBLƏR GÖRMÜŞÜK

*IV bölüm*

Çox sahiblər görmüşük, dünya qərar olandan,
Ona qulluq edəndən, ona qərar alandan.
Bəşər olan zamandan, yaranandan bəridir,
Cücərəndən bəridir, daranandan bəridir.
Biri dərin düşünüb, birsi üz düşünüb,
Biri əyri düşünüb, birsi düz düşünüb.
Birisi çox düşünüb, birisi az düşünüb,

Birisi gec anlayıb, birisi tez düşünüb.
Birisi də borcunu anlamayıb nədənsə?
Öz-özünü qınayıb, danlamayıb nədənsə?
Məharətlə bəzənib, masqalanıb həmişə,
Adı böyük olsa da, sısqalanıb həmişə.
Tamı belə olubdur, dadı belə olubdur,
Tüstüsü çox olsa da, odu belə olubdur.
Beləsini gördükcə, öz-özümə darıldım,
Dodağımı çeynəyib lap içimdən qırıldım.
Əfsuski deyənmədik, səndən olmaz sahibim,
Nə əcdadım, nə köküm, nə gələcək varisim.
Sahib olan kəslərin qanı duru olmalı,
Zülalına nə söz var, şanı duru olmalı.
Hüceyrəsi, nüvəsi, geni duru olmalı,
Dağarcıqda, torbada dəni duru olmalı.
Mayası halal gərək, düzgün ola qayəsi,
Kamil ola ustadı, ibtidadan dayəsi.
Təmiz ola arzusu, ülvi ola niyyəti,
Xalqa olan zəhməti, vəzifədə xidməti.
Sahib belə deyilsə, gedib gendə dolansın,
Girişməsin meydana, gedib tində dolansın.
Nə başımız ağrısın, nə dişimiz ağrısın,
Nə qolumuz yorulsun, nə işimiz ağrısın.
Sahib gərək yerində, düz oturub, düz dursun,
Hamıdan gec otursun, duranda da tez dursun.
Qərq olaraq qəflətə, mürgüləyib yatmasın,
Yatıbsada oyansın, çamırlığa batmasın.
İstərdim ki,  heçkəsin sahibi kal olmasın,
Ürəklərdə qəm-kədər, qüssə-məlal olmasın.
Sahibimiz kal olsa, varisimiz neyləsin?
Qəzəlxanlar, şairlər, nasirimiz neyləsin?
Tərbiyəni əzəldən, alanmayan neyləsin?
Məqamında zəmisi, sulanmayan neyləsin?
Peyvənd olub əzəldən, calanmayan neyləsin?
İnsan kimi yaşayıb, dolanmayan neyləsin?
Ey İlahi! birkəsi sən sahibsiz eyləmə,
Ustadını kəm-kəsir, münasibsiz eyləmə.
Ustadı xam olanın başına kül olubdur,
Başı qapazlı olub, gözünə mil dolubdur.

Ustad kamil olmasa, şagird kimdən götürər?
Tarlasını şumlayıb, nə bəsləyib bitirər?
Gələcəyə indidən, nə xəbəri yetirər?
Estafeti bəs necə, əldən-ələ ötürər?
Kimin yoxsa sahibi, dəhnəsindən pozulur,
Özlülündən sarsıyır, təməlindən pozulur.
Ünsiyyətdə-ülfətdə, dolaşdırır özünü,
Toz-torpağa qataraq, bulaşdırır özünü.
O kəsin ki, əzəldən kamil deyil dayəsi,
Düzgün deyil nütvəsi, halal deyil mayəsi.
Yetə bilməz heçkəsə, nə kölgəsi, sayəsi,
Nə amalı, məramı, əqidəsi, qayəsi.
Sahib arxa deməkdir, sahib dayaq deməkdir,
O kəhkəşan ulduzu, parlaq mayaq deməkdir.
Sahib ustad deməkdir, sahib ata deməkdir,
Bəxşiş, ənam deməkdir, sahib əta deməkdir.
Gəl ilqara, vəfaya sən dönüklük eyləmə,
Hərbir yana üz tutub, sən yönüklük eyləmə.
O məsləksiz olanda, o amalsız olanda,
İtirərək əqlini, o kamalsız olanda.
Biz əzablar çəkirik, məşəqqətə düşürük,
Müsibətə düşürük, zəlalətə düşürük!
Çox sahiblər görmüşük, göz açandan bəridir,
Bu dünyaya gələndən, gör haçandan bəridir?
Biri fərsiz sayılıb, biri fərli sayılıb,
Birisi də təpərli, çox hünərli sayılıb.
Şan-şöhrətli sayılıb, şərafətli sayılıb,
Vuran-tutan cəngavər, məharətli sayılıb.
Sədaqətli sayılıb, səxavətli sayılıb,
Ədəb-ərkan gözləyib, nəzakətli sayılıb.
Xalqa çörək veribdir, bərəkətli sayılıb,
Eləsi də olub ki, şorəkətli sayılıb.
Eləsi də olubdur, qovğanı-qalı salıb,
Dəymişlərə dəyməyib, daş atıb kalı salıb.
Zaman keçib, vaxt ötüb, nifrət ilə yad olub,
Küdurətlə yad olub, nifrət ilə yad olub.
Ünvanına dəyilib, arxasından söyülüb,
Nəhənginə söyülüb, zorbasına söyülüb.
Hərbisinə söyülüb, ordusuna söyülüb,

Torbasına, duzuna, urvasına söyülüb.
Xırdasına söyülüb, irisinə söyülüb,
Ölüsünə söyülüb, dirisinə söyülüb.
*Elə sahib olub ki,* hörmət ilə yad olub,
Şərafətlə yad olub, şöhrət ilə yad olub.
Təmiz arzu-istəklə, niyyət ilə yad olub,
Dəyər ilə yad olub, qiymət ilə yad olub.
Biri lənət qazanıb, biri rəhmət qazanıb,
Biri əhsən qazanıb, biri töhmət qazanıb.
Dünya əzəldən bəri görüb-götürənindir,
Zəhmət çəkib tər tökən, bağlar bitirənindir.
Könlün nəyi istəsə, sən də ondan gör-götür,
İstəyirsən kol-kosu, istəyirsən gül bitir.
Çalış ki, bu dünyada, nifrət ilə yad olma!
Qəzəb ilə yad olma, hiddət ilə yad olma!
Qoy sənə də dünyada, ər kişilər desinlər,
İgid kişi, nər kişi, zor kişilər desinlər.
*Sahibi sahib edən,* diqqətidir deyirlər,
Ürəyində təpəri, riqqətidir deyirlər.
Təmiz arzu-istəyi, niyyətidir deyirlər,
İnsafıdır deyirlər, mürvətidir deyirlər.
Bu mənəvi aləmi, sərvətidir deyirlər,
Yenilməyən qüvvəsi, qüdrətidir deyirlər.
Kim ki, çəkdi zəhməti, tökə bildi tərini,
O ağ etdi üzünü, uca etdi sərini.
Qəlb evində tapıbdır əbədilik yerini,
Yaxşı bildi hərzaman, öz xeyrini, şərini.
Xidmətilə, işiylə, heyran etdi hamını,
İftixarla, fərəhlə, o götürdü kamını.
Kim ki, bunu qanmadı, zülmət oldu dünyaya,
Əzab oldu dünyaya, zillət oldu dünyaya.
Bəla, dad-hazar oldu, bezar oldu dünyaya,
Sağalmayan xəstəlik, azar oldu dünyaya.
El də elə sandı ki, sahibi var, böyük var,
Nə bilsinki əhdində, ilqarında dönük var?
Hər məzhəbə, mətləbə üz tutan var, yönük var,
Bir bu qədər dadamal, bir bu qədər ənik var.
Beylə sahib olunca, kaş sahibsiz qalaydıq,
Zurnamızı püfləyib "Bağdaduru" çalaydıq.

Sahib ilə rəyyətin ürəyi düz olmalı,
Zəhməti düz olmalı, çörəyi düz olmalı.
Ünsiyyətlə ülfətin arası düz olmalı,
Məvacibi, qazancı, parası düz olmalı.
Dərdlərinə tapmağa çarası düz olmalı,
İşləməyə dərinə, yarası düz olmalı.
Düşüncəsi, xəyalı, həm fikri düz olmalı,
Dərdi-səri, azarı, həm zikiri düz olmalı.
Əqidəsi, məsləki, ilqarı düz olmalı,
Əyilməyə qaməti, vüqarı düz olmalı.
Kiçik-kiçiklik edə, iri-irilik edə,
Böyük-böyüklük edə, xırda-xırdalıq edə.
Əməlləri, işi də, sözü də düzgün ola,
Baxışları, nəzəri, gözü də düzgün ola.
İnanın ki, o zaman sahibə can deyərdim,
Vətən oğlu deyərdim, Azərbaycan deyərdim.
Belə olsa hərkəsdə, inam olar sahibə,
Məhəbbətdən, hörmətdən, ənam olar sahibə.
Kim nə deyər sahibə, nə söz olar sahibə?
Nə çox olar sahibə, nə az olar sahibə?
Nə ədalət azalar, nə həqiqət azalar,
Nə sədaqət azalar, nə səxavət azalar,
Nə şan-şöhrət yox olar, nə şərafət azalar.
Nə rəftar, ədəb-ərkan, nə təriqət yozular,
Nə təlimat silinər, nə şəriət pozular,
Həryan cənnətə dönər, nur ələnər cahana,
Abır-ismət çox artar, ar ələnər cahana.
Çalıb-çapıb azalar, talayanlar azalar,
Dişlərini al-qana, bulayanlar azalar.
Qudurub onu-bunu, dalayanlar azalar,
Hərkəsi barmağına dolayanlar azalar.
Hər diyarda, hər yerdə düz seçilə sahibim,
Doxsan doqquz çox azdır, yüz seçilə sahibim.
Seçəndə yol olmaya, bir nəfər gədələrə,
Qəlbi çamır olana, bir nəfər zədələrə.
Bircəciyi seçilsə, dağ başını qar alar,
Ovqatımız təlx olar, gen dünyamız dar olar.
Qoy susmasın vicdanı, sahiblərin amandır,

Vicdan-məslək susarsa, xalqın halı yamandır.[326]
Hamı əyri getsə də, sahib qeyri getməsin,
Hamı əyri bitsə də, sahib əyri bitməsin.
Onda dünya düzələr, onda hamı düzələr,
Boyunduruq qırılmaz, onda samı düzələr.
Sahiblik məqamına çatmasın hər gədələr,
Əgər gəlib çatarsa, qəlbimizi zədələr.
Kölgəsinə baxdıqca, ədalanıb gedəcək,
Nifrətlə yad olunub, sədalanıb gedəcək.
Sahib, sahib olmasa, gözdən salar hamını,
Baltalayıb dirəyi, uçuracaq samını.
Asta-asta tanınıb, gözdən düşər sahibim,
Günortaya çatmamış, tezdən düşər sahibim.
Qoy xətiri-hörməti, itirməsin sahibim,[327]
Gül yerinə tikanı, bitirməsin sahibim.
Sahib elə yarasa, el də ona yar olar,[328]
Lalə, nərgiz, qərənfil, gül də ona yar olar.[329]
Kim ki, onu qanmasa, dünya ona dar olar,[330]
Solar bağı-bağçası, tamam-kamal xar olar.
Sahib olan xalqına xidmətini göstərər,
Töküb alın tərini, zəhmətini göstərər.
Sahib gərək hərzaman sədaqətlə çalışsın,[331]
Vətəninə, xalqına məhəbbətlə çalışsın.
Kişi kimi işləsin, dəyanətlə çalışsın,
Hatəm kimi ad alıb, səxavətlə çalışsın.
Ada-sana çataraq, ləyaqətlə işləsin,[332]
Ədəb-ərkan gözləyib, nəzakətlə işləsin.
İncidərək nahaqdan, bezdirməsin xalqını,
Cəhənnəmin oduna dözdürməsin xalqını. [333]
Köç etsə də dünyadan, hörmətini saxlasın,
İtirməyib dəyəri, qiymətini saxlasın.

---

[326] O susarsa bir anlıq, xalqın halı yamandır.
[327] Tez-tələsik xətiri, itirməsin sahibim.
[328] Sahib elə yarasa, el də ona yarayar.
[329] Çəmən-çiçək bir yana, gül də ona yar olar!
[330] Kim ki, bunu qanmasa, dünya ona dar olar.
[331] Sahib gərək hərzaman sədarətlə iş görə.
[332] Mərifətlə, ədəblə, ləyaqətlə iş görə!
[333]Yersiz-yersiz əzaba, dözdürməsin xalqını.

Bəzəyini qoruyub, zinətini saxlasın,
İnsafını saxlasın, mürvətini saxlasın,
Məzmununu, mənanı, hikmətini saxlasın.
Atalarımız deyib: "balıq başdan ilənər",
"Çeşmə gözdən durular", "su da başdan bulanar".
Hara xarab olsa da, amandı baş olmasın,
Daş harda olsa belə, ürəkdə daş olmasın.
Harda olur qoy olsun, başda qələt olmasın,
Düşüncədə, fikirdə, huşda qələt olmasın.
Əgər varsa qələtim, o da başımdan gələr,
Xəyalımdan dolanıb, hamsı huşumdan gələr,
Od alsaq da ayaqdan, tüstü başımdan gələr.
Dostlar gəlin hərzaman başı yaxşı saxlayaq,
Təxəyyülü, xəyalı, huşu yaxşı saxlayaq. [334]
Düz işləsə başımız, səadətə çatarıq,
Saf arzuya, istəyə, pak niyyətə çatarıq.[335]
*Sahib gərək* ellərdə düz otursun, düz dursun,
Gecə-gündüz çalışıb, düz yaratsın, düz qursun.
*Sahib gərək* hər şeyi, o hamıdan düz görsün,
Öz borcunu xalqına, doğru, dürüst tez versin.
Sahib bunu etməsə, bu mövqedən əkilsin,
Gedib tapsın yerini, öz qınına çəkilsin.
*Sahib gərək* haqqını, hüququnu anlasın,
Az da olsa, səhv etsə, öz-özünü danlasın.
Harda olsa işləsə, o böyükdür orada,
O başçıdır orada, o zirəkdir orada.
*Sahib gərək* hərkəsi, öz yoluna düzəldə,
Gecikməyə bir anda, tez yoluna düzəldə.
Hərkəs harda çalışsa, sahibidir oranın,
Sahibidir dağların, sahibidir aranın.
Yaxasını yan çəkib, yad bilməsin özünü,
Söndürməsin qəlbində, məhəbbətin közünü.
*Sahib sahib olmasa,* işə xələl gətirər,
Qəm-qüssəni artırar, dərdi-məlal gətirər.
Ünsiyyətə-ülfətə zərbə dəyər həmişə,
Tarlanı kol-kos basar, qamış bitər həmişə.

---

[334] Sarsılmayaq heç zaman, huşu yaxşı saxlayaq.
[335] Gözəl-gözəl ən-ənə, xoş adətə çatarıq.

Hərkəs gərək hardasa, orda sahiblik etsin,
Orda hünər göstərib, orda varislik etsin.
Orda vətəndaş olsun, orda yoldaşlıq etsin,
Orda həmkarlıq etsin, orda sirdaşlıq etsin.
Orda hünər göstərib, orda zəfər qazansın,
Orda riqqətə gəlsin, orda təpər qazansın.
Orda xətir qazansın, orda hörmətə çatsın,
Orda şərəfə çatsın, orda şöhrətə çatsın.
Ay yaramaz sahibim, mənə sahib olunca,
Ona sahib olunca, buna sahib olunca,
Get oğluna sahib ol, get qızına sahib ol!
Öz ərkinə sahib ol, öz nazına sahib ol!
Öz varına sahib ol, öz yoxuna sahib ol!
Öz elinə sahib ol, öz kəndinə sahib ol!
Öz hiylənə sahib ol, öz fəndinə sahib ol!
Zəhlə töküb gəl bizim başımızı dəng etmə!
Hay-küy salıb araya, ora-bura zəng etmə!
Sənin cinsin bəllidir, gəl yorğalıq eyləmə!
Başımızda nalbəndlik, gəl darğalıq eyləmə!
Sahib olmaq istəsən, Nizamitək sahib ol,
Füzulini yada sal, Nəsimitək sahib ol.
Sabir kimi sahib ol, Vaqif kimi sahib ol,
Nərimantək sahib ol, Cavid kimi sahib ol.
Vurğun kimi sahib ol, Müşviq kimi sahib ol,
Üzeyirtək sahib ol, Zərdabitək sahib ol.
Olursansa hərzaman, beylə sayaq sahib ol,
Gedib yatma qəflətdə, daim oyaq sahib ol.
Sən də sahib olanda, çalış elə sahib ol,
Qaratikan bəsləmə, çalış gülə sahib ol.
Vicdanına sahib ol, əqidənə sahib ol,
Öz elinə-obana, vətəninə sahib ol.
Məsləyinə, peşəyə, sənətinə sahib ol,
Əməlinə sözünə, niyyətinə sahib ol.
Qazandığın xətirə, hörmətinə sahib ol,
Namusuna, arına, qeyrətinə sahib ol.
Ədəb-ərkan nə varsa, ismətinə sahib ol,
Qəlbindəki riqqətə, təpərinə sahib ol.
Cəsarətə sahib ol, cürətinə sahib ol,
Şahin kimi qanad al, sürətinə sahib ol,

Dəyərinə sahib ol, qiymətinə sahib ol.
Sahib gərək hardasa, mənliyini saxlasın,
Qürurunu gözləsin, şənliyini saxlasın.
Öz elini, xalqını, hərəkətə gətirsin,
Torpağını, daşını bərəkətə gətirsin.
Hərkəs gərək yerində canfəşanlıq eyləsin,
Öz nurunu salaraq, kəhkəşanlıq eyləsin.
İnsanları ülfətə, ünsiyyətə səsləsin,
Yaxın-uzaq nə varsa, məhəbbətə səsləsin.

***Cəmil Əkbər*** 25. 02 – 1990

## 24. GÖRƏN NİYƏ?

Bədxahlardan kənar gəzdim, nə oturdum, nə də durdum,
Nə axtardım, nə aradım, əhval tutdub nə də sordum.
Əzəl gündən bilməmişəm, düzə əyri deməyi mən,
Beşə on beş, on beşə beş, yüzə əlli deməyi mən.
Yaxşıları yamanlara qatmamışam, qatmaram da,
İnsafımı, vicdanımı satmamışam, satmaram da.
Qaraya-ağ, ağa-qara deməmişəm, demərəm də,
Nanəciblik çörəyini yeməmişəm, yemərəm də.
Dələduzun, hiyləgərin yol-yoldaşı olmamışam,
Nə həmkarı, nə həmdəmi, nə sirdaşı olmamışam.
Bircə anlıq ülfət qılıb, bircə addım getməmişəm,
Haqq-ədalət yollarında, kol-kos kimi bitməmişəm.
Ucalana sevinmişəm, yıxılana pisikmişəm,
Xainlərdən, xəbislərdən səksənmişəm, diksinmişəm.
Yaxşıya-pis, pisə-yaxşı demədikcə, "de!" - dedilər,
Oğrun-oğrun haram tikə yemədikcə, "ye!" - dedilər.[336]
Qaranı-ağ, ağı-qara görmədikcə, "gör!" - dedilər,[337]
Yaramaza yaxşı qiymət vermədikcə, "ver!" - dedilər.
Düzü əyri, əyrini düz bilmədikcə, "bil!" - dedilər,
Bu aləmə, mənzərəyə gül dedikcə, "gül!"- dedilər.
Görən niyə yol verilir yalanlara, saxtalara?
Vicdanı kəm, ürəyi daş, sinəsində taxtalara?
Bədxahlara, paxıllara, xainlərə, xəbislərə,
Tamahkara, tülkülərə, nanəcibə, naqislərə.

---

[336] Bilə bilə haram tikə yemədikcə, "ye!"- dedilər.
[337] Düzü əyri, əyrini düz görmədikcə, "gör!"- dedilər.

Cibgirlərə, pulgirlərə acgözlərə, hərislərə,
Qəddarlara, zalımlara, alçaqlara, o pislərə.
Görən niyə yol verilir əqrəblərə, iblislərə?
Yaramaza, mənfurlara, rəzillərə, munislərə?
Nanəcibə, naqislərə yol-yoldaşı niyə olduq?
Ya həmkarı, ya həmdəmi, ya sirdaşı niyə olduq?
Görən niyə yol verilir yollarını azanlara?
Sağlam ülfət-ünsiyyəti paralayıb, pozanlara?
Sərsəriyə, gicbəsərə, düzü tərsə yozanlara?
Üzəbarı irişənə, daldalardan qazanlara?
Biri deyir: Ayrımam mən, biri deyir: Qarabağlı,
Biri deyir: Şirvanlıyam, biri deyir: Aladağlı.
Biri deyir: həmşəriyəm, biri deyir: Kolanıyam,
Biri deyir: mən Mildənəm, biri deyir: Muğanlıyam.
Biri Talışlıyam deyir,  biri Gəncəliyəm deyir,
Biri Xınalıyam deyir, biri İncəliyəm deyir.
Biri Naxçıvanlı deyir, biri İrəvanlı deyir,
Biri Şəkiliyəm deyir, biri Lənkəranlı deyir.
Biri deyir mən Sünniyəm, biri deyir mən Şiəyəm,
Biri deyir çaşbaş oldum, nə karaçı, bilməm, nəyəm?
Biri deyir zəhmətkeşəm,  biri də deyir mən bəyəm,
Biri deyir mən arifəm, biri də deyir mən keyəm,
Biri deyir mən palıdam, biri də deyir mən şöyəm.
Biri deyir şəhərliyəm, biri deyir mən kəndliyəm,
Biri deyir kef əhliyəm, biri deyir mən dərdliyəm.
Biri deyir asaram mən, biri deyir kəsərəm mən,
Biri deyir inciyərəm, biri deyir küsərəm mən.
Yol verilir avamlığa, nadanlığa, cəhalətə,
Bilə-bilə, görə-görə hər nöqsana, qəbahətə.
Doğru yollar, düz cığırlar gedə-gedə haçalanır,
Doğru fikir, düz xəyallar, neçə səmtə parçalanır.
Çox mənliklər birbirinə yersiz-yersiz sataşdılar,
Dönə-dönə, ölə-ölə, əlbəyaxa tutaşdılar.
Birbirinə nifrət edib, əməlinə bəd də dedi,
Əsli-nəcabət, nəsilinə, təməlinə bəd də dedi.
Vətəninə, həm elinə, obasına bəd də dedi,
Komasına, daxmasına, yuvasına bəd də dedi.
Bu düşüncə, bu xislətlə, görən niyə doğulduq biz?
Bu zülümlə, bu zillətlə, görən niyə doğulduq biz?

Bu dərd ilə, bu hillətlə, görən niyə doğulduq biz?
Bu mənayla, bu hikmətlə, görən niyə doğulduq biz?
Bu namusla, bu qeyrətlə, görən niyə doğulduq biz?
Bu qəzəblə, bu hiddətlə, görən niyə doğulduq biz?
Bu arzuyla, bu niyyətlə, görən niyə doğulduq biz?
Bu istəklə, məhəbbətlə, görən niyə doğulduq biz?
Bu dözümlə, dəyanətlə, görən niyə doğulduq biz?
Bu nəzərlə, bu diqqətlə, görən niyə doğulduq biz?
Bu zülüm, bu məşəqqətlə, görən niyə doğulduq biz?
Bu ənənə, ədalətlə, görən niyə doğulduq biz?
Bu vərdişlə, xasiyyətlə, görən niyə doğulduq biz?
İnsanoğlu əbəs yerdən birbirinə sataşdı da,
Çox mənliyə hücum çəkib, əlbəyaxa tutaşdı da.

***Cəmil Əkbər*** 21-28 / 01– 1984

## 25. YAŞAYAYDI

Nəolaydı insan oğlu qəbahətsiz yaşayaydı?
Son qoyaydı avamlığa, cəhalətsiz yaşayaydı?[338]
Törədərək qal-qovğanı, salmayaydı dava-dalaş,
Bilməyəydi nə həyəcan, nə vahimə, qorxu, təlaş.
Etməyəydi paxıllığı, xəyanətsiz yaşayaydı, [339]
Üz tutmaya əyri yola, cinayətsiz yaşayaydı.
Fərəh ilə, sevinc ilə yaradaydı, quraydı da,
Al-şəfəqli günəş ilə, oyanaydı, duraydı da.
Şərafətlə ömür sürüb, ləyaqətlə yaşayaydı,
İnsanlığın karvanını, məharətlə daşıyaydı.
Birbirinə zülm edərək, verməyəydi qüssə-qəhər,
Xoş məramla gün keçirə, seyrə çıxa axşam-səhər.
Ədəb-ərkan gözləyərək, mərifətlə yaşayaydı,
Yaxşılığı edə peşə, fəzilətlə yaşayaydı.
Çəkməyəydi qəm-kədəri, nə hicranı, nə qübarı,
Sadiq ola əhd-peymana, unutmaya düz ilqarı.
Nə usanıb doymayaydı, birbirinə məhəbbətdən,
İnsaf-mürvət, mərhəmətdən, səxavətdən, sədaqətdən.

---

[338] Ömür sürə mərifətlə, cəhalətsiz yaşayaydı.
[339] Tanımaya paxıllığı, xəyanətsiz yaşayaydı.

Təmiz arzu, saf diləklə, küdurətsiz yaşayaydı,[340]
Dedi-qodu, giley-güzar şikayətsiz yaşayaydı.
Qərq olmaya müsibətə, fəlakətsiz yaşayaydı,
Bilməyəydi kəm-kəsiri, səfalətsiz yaşayaydı.
Birbirinə qəsd etməyə, bəd adətsiz yaşayaydı,[341]
El içində şux dolana, xəcalətsiz yaşayaydı.
Düşməyəydi kəc fikirə, nəs halətsiz yaşayaydı,
Cəhli-bəhsdən uzaqlaşıb, ədavətsiz yaşayaydı,[342]
Yarı yolda qalmayaydı, nihayətsiz yaşayaydı,
Çəkməyəydi ağrı-acı, əziyyətsiz yaşayaydı,
Bəd fikirsiz, bəd xəyalsız, bədniyyətsiz yaşayaydı.
Qorxu-ülkü bilməyəydi, cəsarətlə yaşayaydı,
Eyham ilə gün keçirə, məharətlə yaşayaydı.
Qoçaqlıqla, zirəkliklə, fərasətlə yaşayaydı,
Ədəb-ərkan gözləyərək, nəzakətlə yaşayaydı.
Cəmil Əkbər bezməyəydi, saxta ülfət ünsiyyətdən,
Həzz alaydı kainatdan, doymayaydı cəmiyyətdən.

***Cəmil Əkbər*** 5.10 – 1993

## 26. SAXLAMISAN

Bərəkallah kişi sənə, yaxşı arvad saxlamısan,
Sən olsan da xani-xarab, onu abad saxlamısan.
Xatirinə dəyməmisən, heç olmasa bircə dəfə,
Doğru-dürüst danışmayıb, sərrast vurmadın hədəfə.
Hər hökmünə bəli deyib, qarşısında mil durmusan,
Şəstinə toxunsa belə, onu yaman qudurtmusan.
Kişi də olsanda ay yazıq, arvad kimi yaşamısan,
Müsibətlər çəkə-çəkə, qəm yükünü daşımısan.
İldə bir yol fürsət tapıb, kurortlara göndərmisən,
Arvadlıqdan çıxararaq, lotulara döndərmisən.
Görən-bilən deyir əhsən, yaxşı arvad saxlamısan,
Sən olsan da dili gödək, onu dilşad saxlamısan.
Eləbilki çıxıb təxtə, sənin bu lovğa arvadın,
Tapılandöy, tayı yoxdur, sənin bu darğa arvadın.

---

[340]Tövbə edə xəbisliyə, küdurətsiz yaşayaydı.
[341]Bəd işlərdən əl götürə, bəd adətsiz yaşayaydı.
[342] Salmayaydı qal-qovğanı, ədavətsiz yaşayaydı.

O desəki “at vicdanı”, tez-tələsik atmısan da,
Ömürboyu ayılmayıb, qəflətlərdə yatmısan da.
“Öldür” - dedi öldürmüsən, “vur” - deyəndə vurmusan da,
“Otur” - dedi oturmusan, “dur” - deyəndə durmusan da.
“Get” - deyəndə, sən getmisən, “qal” - deyəndə qalmısan da,
“Ağla” - dedi, ağlamısan, “gül” - deyəndə gülmüsən də,
“Diril” - dedi, dirilmisən, “öl” - deyəndə ölmüsən də.
“Oyna” - dedi oynamısan, “çal” - deyəndə çalmısan da,
“Öz xalqını müflis eylə, yol” - deyəndə yolmusan da.
“Dağıt” - dedi dağıtmısan, “tala” - dedi talamısan,
“Tüpür” - dedi tüpürmüsən, “yala” - dedi yalamısan.
Görən deyir: “bərəkallah, olmusan evdar bir adam”,
Baqqalları ötüb, keçib, olmusan çovdar bir adam.
Zövcən üçün keçib candan, eli soyub, talamısan,
Dişlərini itiləyib, al-qanlara bulamısan.
El-obanı soya-soya, toplamısan pul-paranı,
Sağlığına yaxşı keçir, pis deyildir güzəranı.
Kəm-kəsirdöy daşı-qaşı, tana, saat, boyunbağı,
Görən deyir: “bərəkallah, pis deyildir kef-damağı”.
Gözdəyməsin kişi sənə, yaxşı arvad saxlamısan,
Ləkə salsada ad-sana, onu abad saxlamısan.
Dağıtmaqda, talamaqda qalmamısan daldan-dala,
Son gününə toplamısan, var-dövləti bala-bala.
Qeyrətini gözləməyib, namus-arı saxlamadın,
Hər əmrinə tabe olub, inanaraq yoxlamadın.
Hökm eyləyir ağbacımız, yer-göyə sığmır ədası,
Görən, bilən nələr deyir, ərşə çıxıbdır sədası?
Əfsunlayıb, ram eyləyir, gözləriylə yeyir bizi,
Məftun edib salır bəndə, döyündürür qəlbimizi.
Görən deyir: “sədd-afərin, onu yaman azdırmısan”,
Hər işinə göz yumaraq, başdan-başa pozdurmusan.
Deyiləsi nə söz varki, yaman arvad saxlamısan?
Çəkməmisən doğru yola, onu bərbad saxlamısan.
Damarına hücum çəkib, zəli kimi sorur qanı,
Var-dövlətdən zərər yoxdur, heydən salır, üzür canı.
Gözgörəti, açıq-aşkar Vallah səni xar eyləyir,
El içində bədnam edib, gen dünyanı dar eyləyir.
Yeməmişdən, içməmişdən səni lalü-məst eyləyir,
Hörmətinə xələl vurur, canına da qəst eyləyir.

Təzyiqini qaldıraraq, artırır da şəkərini,
Ayağına buxov olur, geri çəkir təkərini.
Görən deyir: "ay maşAllah, yaxşı arvad saxlamısan",
Sən özünü unutsan da, onu abad saxlamısan.
Göz dəyməsin kişi sənə, yaxşı baxıbsan arvada,
Anlamır ki, canı çıxır, gəmin qərq olur dəryada.[343]
Tökülübdür, sifətində heç iffətin də qalmadı,
Qarışıbdı birbirinə, halal mayan da qalmadı.
Şərəfini qorumadı, adını da gözləmədi,
Qohum-qardaş, nə dostunu, yadını da gözləmədi.
Özgələri heç demirəm, özünü də gözləmədi,
Oğlunu mən heç demirəm, qızını da gözləmədi.
Bütün ellər deyir əhsən, yaman arvad saxlamısan,
Vicdanı kəm, qanı xarab, onu bərbad saxlamısan.
Əhsən olsun eşqinizə, ətəyindən bərk tutmusan,
Uyaraq fitnə-felinə, sən özünü unutmusan.
Qalmamışdır üz-gözündə, abır-ismət, nə həyası,
Bilən yox əsli-nəslini, kimdi onun əqrəbası?[344]
Özü səndə, gözü bizdə, bilmirsənmi yazıq bunu?
Öz əhdinə, vəfasına onun dönük olduğunu?
Aşiq olub var-halına, dövlətinə, cəlalına,
Görmürsənmi ay "bəxtəvər", acımayır heç halına?
Əldən-dildən sən gedirsən, çürüyürsən diri-diri,
Anlamırki gedəcəksən, bir daha gəlməzsən geri?[345]
Möhübünü yaxşı düzüb, onu gürşad saxlamısan,
Əmlik quzu bəsləyərək, kimə sovqat saxlamısan?[346]
Gəzdirmisən hər mahalı, hər obanı, oylaqları,
Neçə-neçə şəhər, kəndi, aran, dağ-daş yaylaqları.
Gəzdirmisən Bakı-Tiflis, Quba, Xaçmaz, Lənkəranı,
Apar çıxart sirkə sarı, gəl azdır sən bu heyvanı.
Qoy baxsınlar dönə-dönə gedənlər də, gələnlər də,
Bu hoqqabaz, kəndirbaza, eşidən də, bilənlər də.
De bir görüm qalıbmı heç, ora ayağı dəyməsin?
Elə forma, elə moda, taparaq ondan geyməsin?

---

[343] Bilməyir ki, çıxır canın, gəmin batıbdır dəryada.
[344] Bilən yox əsli-nəslini, kimdi onun cəddavasi.
[345] Bilmirsənmi gedəcəksən, qayıtmazsan bir də geri.
[346] Əmlik kimi bəsləyərək, onu ərşad saxlamısan.

Desinlərki “Bərəkallah, yaman arvad saxlamısan?”
Sən özünü xar etsən də onu abad saxlamısan.
Buraxmısan öz başına veyillənir küçələri,
Bilirsənmi heç hardadır, gündüzləri, gecələri?
Deyirsənki “öz yarıma təzə tirmə, şal yaraşır”,
Hər nə desə, nə istəsə, “tez-tələsik al!” yaraşır.
Nə lazımdır bəribaşdan qocalmamış, öl yaraşır,
İstər ağla, istər sızla, istərsə də gül yaraşır.
Nə utanma, nə qızarma, yaman arvad saxlamısan,
Özgələrə uyan arvad, uman arvad saxlamısan.
Xatirinə dəyməsən də, qəlbini şad saxlamısan,
Mənliyini itirsən də, onu abad saxlamısan.
Arvad sənə zəng eyləsə, tez birini göndər işə,
Nə lazımdır yoxlayasan, təhsil, savad, ya da peşə?
“Tez ol kişi, dayanma sən, dərhal çıxart, ver qərarı!”
Sən qulaq as o deyənə, göstər müti etibarı,
Hər işdəcə çək qabağa, itirməynən bu nigarı,
İnanginən sən həmişə çəkəcəksən xeyri-karı.
Şoferi göndər bazara, alma-heyva nə var alsın,
Səbətləri qoşa-qoşa, göz gördükcə nə var alsın.
Yığsın qohum-qardaşını, cəm eyləsin öz başına,
Ənliklənsin, kirşanlansın, sürmə çəksin göz-qaşına.
Saçlarına yaxsın həna, onu çin-çin yan darasın,
Dost-tanışa  zəng eyləsin, gündə min bir yol arasın.
Görən sənə desin: “əhsən, yaxşı arvad saxlamısan”,
Könlünü sındırmamısan, qəlbini şad saxlamısan.
Görən kim sənə deyərki, “arvad-uşağı saxlama?”
Yaddan çıxart, unut onu, nə axtarma, nə yoxlama.
Kimdi deyən: “dağıt-tala el malını çalın-çapın?”
Neçə-neçə eyvan, otaq, Koroğlutək qala yapın.
Deyirlərki “dəb yaratma, korlamayın adətimi”,
Ayaq altda tapdalama, abırımı, isмətimi.
Bunu bilsin kişi-qadın hər şeyin öz ölçüsü var,
Hər şeyin bir əndazəsi, hər şeyin öz biçisi var.
Qoy desinlər: “sədd afərin, millətini saxlamısan”,
Ar-namusu qorumusan, qeyrətini saxlamısan.[347]
Dəyərini artırmısan, qiymətini saxlamısan,

[347]Atmamısan namus-arı, qeyrətini saxlamısan.

Məzmununu artırmısan, hikmətini saxlamısan.
Aləm bilir, ellər bilir, qadın bizim anamızdır,
Südü bizim mayamızsa, qanı bizim canımızdır.
O istəkli məşuqəmiz, o sevimli yarımızdır,
Onlar bizim ismətimiz, iffətimiz, arımızdır,
Məhəbbətin şah əsəri, baştacımız bacımızdır.
O pozulsa siz inanın, bütün bəşər pozulacaq,
Ədalət də, həqiqət də hər şey tərsə yozulacaq.
Onlar çıxarsa yolundan, yer çıxar öz məhvərindən,
Bu dünyada olmaz həyat, biz batarıq lap dərindən.
Qadınların gözəlliyi paklığında, arındadır,
Böyütdüyü övladlarda, saxladığı yarındadır.
Kim deyərki bu gözəllik süni, saxta bəzəkdədir?
Bazubənddə, mirvaridə, sırğadadır, üzükdədir?[348]
Bu daş-qaşlar, bu bər-bəzək, ünsiyyəti paralayır,
İnsanları birbirindən usandırır, aralayır.
Qadın uysa bu zinətə, ürəkləri sıxacaqdır,
Məhəbbətə zərbə vurub, dirəkləri yıxacaqdır.[349]

Heç qoymadın saçlarına bircə dənə dən də düşə,
Nəşəsinə xələl gələ, kef-damaqdan gendə düşə.
Hamı sənə pis desə də, arvadın heç pis demədi,
Hamı sənə tərs desə də, xanımın heç tərs demədi.
Sən öləndə, qorxma kişi, səni hər an yad edəcək,
Tapacaqdır təzə aşna, ruhunu da şad edəcək.
Vəcdə gəlib, eşqə düşüb, bulaq kimi qaynayacaq,
Göz-qaş atıb, him-cim edib, yallı gedib oynayacaq.
Neçə təzə aşnalarla seyrə çıxıb gəzəcəkdir,
Səfasını sürəcəkdir, cəfasına dözəcəkdir.
Hey axtarıb, arayacaq, tapacaqdır müştərini,
Ovsunlayıb, bəndə salıb, soxacaqdır neştərini.
El deyəcək: “a gorbagor, yaxşı arvad saxlamısan”,
Sən olsan da xani-xarab, onu abad saxlamısan.

***Cəmil Əkbər***

[348] Bazubənddə, sırğadadır, mirvaridə, üzükdədir.
[349] Məhəbbəti sarsıdacaq, dirəkləri yıxacaqdır.

## 27. İNCİYƏR SƏNDƏN

Bədxahlıq eyləyib girmə qəsdimə,[350]
Sınar qəlbim, küsər, inciyər səndən.
Toxunub xətirimə, dəymə şəstimə,[351]
Sınar qəlbim, küsər, inciyər səndən.

Məhəbbət əhlinə biganə olsan,
İtirib əqlini divanə olsan,
Hər yanan şamlara pərvanə olsan,
Sınar qəlbim, küsər, inciyər səndən.

İnsan övladının bədinə getsən,[352]
Yolunda, izində kol kimi bitsən,
Yaxşılıq yerində yamanlıq etsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Bədinə dolansan ol həqiqətin,
Doğruluq, düzgünlük ol ədalətin,[353]
Çəkərsən axırda bil xəcalətin,
Sınar qəlbim, küsər, inciyər səndən.

Sahibi olmasan sağlam niyyətin,
Nəcib arzuların, pak məhəbbətin,[354]
Kəsərsən kökünü səmimiyyətin,[355]
Sınar qəlbim, küsər, inciyər səndən.

Ədəblə, oturub, dura bilməsən,
Yaşadıb, yaradıb qura bilməsən,
Bu yolda özünü yora bilməsən,
Sınar qəlbim, küsər, inciyər səndən.[356]

---

[350] 1) Əsəblər korlasan dilbilməz, qanmaz. 2) Əsəblər korlama dilbilməz, qanmaz.
[351] 1) Kəc fikirdən, kəc xəyaldan, utanmaz. 3) Bədxahlıqdan, kəc xəyaldan, utanmaz.
[352] Xeyirxah kəslərin bədinə getsən.
[353] Bilməzsən qədrini ol ədalətin,
[354] 1) Nəbzini tutmasan əbədiyyətin. 2) Sağlam ünsiyyətin, sağlam ülfətin.
[355] 1) Baisi olarsan əzab-əzyətin. 2) Nifrətin alarsan bu cəmiyyətin.
[356] *II variant* Ədəblə, ərkanla oturun, durun,
Çalışın, yaşayın, yaradın, qurun,
Axtarın, arayın, soruşun, sorun,
Sınar qəlbim, küsər, inciyər səndən.

Aldığın sovqatı, payı itirsən,
Yediyin, içdiyin çayı itirsən,
Xətir-hörmət, haqq-sayı itirsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Qədirbilməz, nanıkorluq eyləsən,
Bəd dolanıb, ziyankarlıq eyləsən,
Çalıb-çapıb, haramxorluq eyləsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Övladı-bəşərə pislik eyləsən,
Höcətlik göstərib, tərslik eyləsən,
Xainlik, xəbislik, nəslik eyləsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Aldansan fitnəyə, uysan fellərə,
Yalançı sözlərə, yağlı dillərə,
Qərq olub gedərsən daşqın sellərə,
Sınar qəlbim, küsər, inciyər səndən.

Hər yetən kəslərlə oturub dursan,
Kefini kök edib, bığını bursan,
Hörümçəksayağı torunu qursan,
Sınar qəlbim, küsər, inciyər səndən.

Şər-böhtan danışıb vursan aralıq,
Alarsan ellərdən üzüqaralıq,
Eyləmə dambatlıq, yekəxanalıq,[357]
Sınar qəlbim, küsər, inciyər səndən.

Onun-bunun kölgəsində dolansan,
Qazanında, sinisində yallansan,
Cana gəlib, qana gəlib sulansan,
Sınar qəlbim, küsər, inciyər səndən.

Özgələr malına eyləmə meyl,
Zəhmətsiz var-hala olmaynan qail,
Eşit bu sözləri qəflətdən ayıl,
Sınar qəlbim, küsər, inciyər səndən.[358]

[357] Eyləmə lovğalıq, yekəxanalıq.

Xəyanət eyləsən dosta, yoldaşa,
Yaxına, uzağa, qohum-qardaşa,
Namusla ömrünü vurmasan başa, [359]
Sınar qəlbim, küsər, inciyər səndən.

Hiyləgərlik, dələduzluq eyləsən,
Başı keylik, qəlbi buzluq eyləsən,
Min bir sifət, ikiüzlük eyləsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Lovğalıq eyləyib ədalanma sən!
Pis adla hallanma, sədalanma sən!
Böyük ol, ali ol, gədalanma sən!
Sınar qəlbim, küsər, inciyər səndən.

Böyük olan yerdə böyüklük etsən,
Hər dinə, məzhəbə yönüklük etsən,
İlqara, vəfaya dönüklük etsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

Sevməsən bəşəri, bu kainatı,
Elin şənliyini, toyu, büsatı,
Korlasan dövranı, gözəl həyatı,[360]
Sınar qəlbim, küsər, inciyər səndən.

---

[358] *I variant*
Olmaynan tamaha, nə qul, nə sayıl,
Özgələr malına eyləmə meyl,
Nəqədər sulansa, bar vermir ceyil,
Sınar qəlbim, küsər, inciyər səndən.

*II variant*
Ey Cəmil, hərkəsə eyləmə meyl,
Deyirlər qozbellər düzələn deyil,
Ha sula, ha bəslə, bar vermir ceyil,
Sınar qəlbim, küsər, inciyər səndən.

*III variant*
Olsan tamahına ya qul, ya sayıl,
Zəhmətsiz dövlətə, var-hala qayıl,
Deyərlər ay yazıq qəflətdən ayıl,
Sınar qəlbim, küsər, inciyər səndən.

*IV variant*
Özgələr malına eyləmə meyil,
Onsuzda kəm-kəsir düzələn deyil,
Nəqədər sulasan, bar vermir ceyil,
Sınar qəlbim, küsər, inciyər səndən.

[359] İlişər tərsanən qayaya, daşa.

[360] Bu gözəl dövranı, gözəl həyatı.

Qanmazdan qanana şikayətim var,
Yazmaqla qurtarmaz, hekayətim var,
Sonluğu görünməz, nihayətim var,
Sınar qəlbim, küsər, inciyər səndən. [361]

Xalqımızın dürdanəsi olmasan,
İnci, əşrəf, zərdanəsi olmasan,
Nadir övlad, yeganəsi olmasan,
Sınar qəlbim, küsər, inciyər səndən.

Qəlbimdən keçəni mən deyəsiyəm,
Onu izhar edib söyləyəsiyəm,
Dəysən də xətrimə neyləyəsiyəm? [362]
Sınar qəlbim, küsər, inciyər səndən.

Hünərlər göstərib ad qazanmasan,
Ülfət-ünsiyyətdə yad qazanmasan,[363]
Ocaqlar qalayıb, od qazanmasan,
Sınar qəlbim, küsər, inciyər səndən.

İncitmə Cəmili aha düşərsən,
Xəta-bəla, min günaha düşərsən,
Güman etmə sən iştaha düşərsən,
Sınar qəlbim, küsər, inciyər səndən.

***Cəmil Əkbər*** 12. 09 -1984

## 28. İTİRMİŞİK

*I variant*

Qürurla dolanıb gəzə bilmirik,
Şöhrət itirmişik, şan itirmişik.
Bu dərdə tablaşıb dözə bilmirik,
Süfrə ayaqlayıb, nan itirmişik.

---

[361] *I variant* Qanmazdan qanana şikayət olsa,
Yazmaqla qurtarmaz, hekayət olsa,
Sonluğu görünməz, nihayət olsa,
Sınar qəlbim, küsər, inciyər səndən.

[362] Eşidib, duymasan neyləyəsiyəm?

[363] Oturub durmasan, yad qazanmasan.

Dövrü-zəmanədə alveri görüb,
Qulduru, dəllalı, pulgiri görüb,
İnsafsız, mürvətsiz cibgiri görüb,
Korlayıb əsəbi, qan itirmişik.

Qanundan, qaydadan qalmayıb əsər,
Düşübdür soyundan qalmayıb kəsər,
Tükənib faydası, qalmayıb səmər,
Gövhər itirmişik, kan itirmişik.

Ömür-gün kədərdən əriyir gedir,
Günbəgün paslanıb, çürüyür gedir,
Qalıbdır çarəsiz, kiriyir gedir,
Anlayıb, dərk eylə, qan itirmişik.

Ona-buna ləkələri yaxaraq,
Damğalayıb axırına çıxaraq,
Əl çalaraq arxasınca baxaraq,
Nəqədər layiqli can itirmişik.

Qədrini bilmədim ötən günlərin,
Cücərib, boy verib, bitən günlərin,
Həryanda haraya yetən günlərin,
Oqədər xoş günlər, an itirmişik?

Kef-damaq pozulub, hal da korlanıb,
“Tirmə” də, “qədək” də, “şal” da korlanıb,
Arıçı korlanıb, bal da korlanıb,
Zülal itirmişik, şan itirmişik.

Baxıb zəmanəyə qaralır qanım,
Sarsıyır varlığım, üzülür canım,
Cəmil, nə gizlədim, de kimdən danım?
Bu dərdlərə alış, yan itirmişik.

***Cəmil Əkbər*** 11.07 – 1995

## 29. İTİRMİŞİK

*II variant*

Keçirib günləri avarə gəzib,
Dəyərli vaxtları boş itirmişik.
Tapmayıb dərdlərə biçarə gəzib,
Nəqədər yaz, payız, qış itirmişik?

Tükəndi qüvvəmiz, hədərə getdi,
Düşdü qəm-qüssəyə, qəhərə getdi,
Təmz abı-hava zəhərə getdi,
Üzüyə layiqli qaş itirmişik.

Ötən qərinələr adi ildimi?
Yoxsa gül-çiçəkli qərənfildimi?
Darçınmı, mixəkmi, ya da hildimi?
Nəqədər zəkalı baş itirmişik?

Gərdişi-dövranlar bizi qocaltdı,
İnlətdi, sızlatdı, bizi sozaltdı,
Günbəgün əridib bizi azaltdı,
Altun itirmişik, daş itirmişik.

Nəqədər cəhd etdik üzə çıxmadıq,
Enişdən, yoxuşdan düzə çıxmadıq,
Doxsandan adlayıb yüzə çatmadıq,
Ömür qayçılayıb, yaş itirmişik.

Olan-qalan fürsət, əllərdən getdi,
Qalmadı obada, ellərdən getdi,
Düşdü dəhanlardan, dillərdən getdi,
Xəyala qərq olub, huş itirmişik.

Ömürdən boş keçən görən gündümü?
Yoxsa hay-küydümü, səsmi, ündümü?
Boranmı, dumanmı, çisgə, çəndimi?
Nəqədər güc-qüvvə, iş itirmişik?

Ötən əyyamları pis anlayaraq,
Düzgün dərk etməyib nəs anlayaraq,
Zalım, höcət, inad, tərs anlayaraq,
Kotan bada verib xış itirmişik.

Qova-qova şahinləri yormuşuq,
Qanadını, lələyini qırmışıq,
Sinəsinə dağ-düyünlər vurmuşuq,
Neçə tərlan kimi quş itirmişik.

Ay Cəmil, o günlər düşəndə yada,
Qərq olur yelkənli gəmim dəryada.
Nəqədər mərd igid getdilər bada?
Sədd heyif demişik, kaş itirmişik.

***Cəmil Əkbər*** 10-16 / 07 - 1995

## 30. İTİRMİŞİK

*III variant*

Qədrini bilmədik ötən günlərin,
Nəqədər vədəni boş itirmişik.
Gəlib karımıza yetən günlərin,
Keçirib yaz, payız, qış itirmişik.

Çalışdıq vuruşduq, ucalanmadıq,
Zəfər dünyasından bac alanmadıq,
Hünərlər göstərib tac alanmadıq,
Nəqədər zirvələr, qaş itirmişik?

Gücümüz, qüvvəmiz, hədərə getdi?
Qərq oldu qüssəyə, qəhərə getdi?
Qaraldı qanımız zəhərə getdi?
Üzüyə layiqli qaş itirmişik.

Kamal sahibinə pisdi deyərək,
Zalımdı, bədxahdı, nəsdi deyərək,
Höcətdi, inaddı, tərsdi deyərək,
Nəqədər zəkalı baş itirmişik?

Gərdişi-dövranlar qocaltdı heyif,
Bizi hey sızlatdı, sozaltdı heyif,
Günbəgün əritdi, azaltdı heyif,
İncitək,  sədəftək diş itirmişik.

Ötən qərinələr adi il deyil,
Nə lalə, nə nərgiz, qərənfil deyil,
Zəncəfil, zəfaran, nədə hil deyil,
Altun itirmişik, daş itirmişik.

Heç məhəl qoymadıq payıza, yaza,
İşvəyə, qəmzəyə, nə ərki-naza,
Baltanı çəkmişik palıda, qoza,
Doğrayıb nəqədər yaş itirmişik.

Yaşadıq birtəhər, zillət içində,
Qəm-qüssə, dərd-məlal, hillət içində,
Gileylər, güzarlar, qeybət içində,
Ömür-gün çürüdüb, yaş itirmişik.[364]

İmkanlar, fürsətlər, əllərdən getdi,
Obadan, oymaqdan, ellərdən getdi,
Həftədən, aylardan, illərdən getdi,
Xəyala qərq olub, huş itirmişik.

Ömürdən boş keçən o da gündümü?
Haraymı, həşirmi, səsmi, ündümü?
Tufanmı, boranmı, duman, çəndimi?
Nəqədər güc-qüvvə, iş itirmişik?

Ayaq düz getmədi, çaşdı sərimiz,
Xeyrimizi üstələdi şərimiz,
Ha cütləsək, qoşa düşməz zərimiz,
Nəqədər şeş-qoşa, beş itirmişik?

Qova-qova şahinləri yoraraq,
Sinəsinə dağ-düyünlər vuraraq,
Qərəzində, qisasında duraraq,
Neçə tərlansayaq quş itirmişik?

Dövrü-zəmanədə əngəllik edib,
Qal-qovğa salaraq, cəncəllik edib,
Yorulub, ərinib tənbəllik edib,
Nəqədər naz-nemət, aş itirmişik?[365]

---

[364]*II variant* Dönməsin geriyə bir də o illər,
Açılsın dolaşıq düşən düyünlər,
Qoy düzgün işləsin başlar, beyinlər,
Nəqədər ömür-gün yaş itirmişik?

Ay Cəmil, o günlər düşdügcə yada,
Qərq olur yelkənli gəmim dəryada,
Ləyaqət sahibi getməsin bada,
Deməyin sədd heyif, kaş itirmişik.

***Cəmil Əkbər*** 10-16 / 07 – 1995

## 31. GENDƏ YAŞAYIR

*I variant*

Gör nələr var kiçik gendə?
İtib-batmır duman-çəndə.
Aranda-dağda yaşayır,
Çəməndə, bağda yaşayır.
Baharda, qışda yaşayır,
Fikirdə, huşda yaşayır.
İnsanda, quşda yaşayır,
Əməldə, işdə yaşayır.
Obada, eldə yaşayır,
Zəncəfil, hildə yaşayır.
Pələngdə, şirdə yaşayır,
Xeyirdə, şərdə yaşayır.
Cəsarət-cürət onundur,
Ar-namus, qeyrət onundur.
Dağıdıb sökdürən odur,
Zəhlələr tökdürən odur.
Dirildən, qırdıran odur,
Dağ-düyün vurduran odur.
Gör nələr var adi gendə?
O bəslənir hərbir tində.
Onunla güc alır insan,
Zirvəyə ucalır insan.
O hökm edir, salır dava,
Zəhərə qarışır hava,
Törəyir sərsəri-yava.
Onunla bitənlər-bitir,
Tapılır, itənlər-itir.
Düşünür, qananlar-qanır,

---

[365] Çörək tapdalayıb, aş itirmişik.

Od alıb yananlar-yanır.
O hökm etdi, bəy yarandı,
Arif, aqil, key yarandı,
Kəmağıl, səy də yarandı.
Gen ilə həyat var oldu,
Kim sevildi, kim xar oldu?
Kimlər tərlan, kim sar oldu?
Kimi məchul, kim car oldu?
Gör nələr var, adi gendə?
Günah nə səndə, nə məndə.
Axtarıb genləri tapaq,
Bu səs-küy, ünləri tapaq.
Bacarıq da, ləyaqət də,
Sədaqət də, səxavət də.
O gendə, qandadır qardaş,
Zülalda, şandadır qardaş.
Yaxşı-yaman, pis nə varsa?
Zalım, bədxah, nəs nə varsa?
Dəymiş, sütül, kal nə varsa?
İnsan, heyvan, mal nə varsa?
Fitnə-fəsad, fel nə varsa?
Oxu, öyrən, bil nə varsa?
Hüceyrədə, o gendədir,
Bu döngədə, o tindədir.
Dərrakə, kamal onundur,
Əqidə, amal onundur.
Gözəllik, camal onundur,
El-oba, mahal onundur.
Kim görüb tikan gül ola?
Saxsılar gəlib ləl ola?
Qarışqa gəlib fil ola?
Hamı gəlib dür olanmır,
Səssiz axır, gür olanmır.
Yaşa dolub pir olanmır,
Zənan olur, ər olanmır.
Bu bəşəri azdıran da,
Ünsiyyəti pozduran da.
Hüceyrədi, gendi bilin,
Damardakı qandı bilin.

Axtarıb genləri görək,
Üyünmüş dənləri görək.
Görəkki genlərdə nə var?
Xırmanda, dənlərdə nə var?
Xidmət də onda bilinir,
Zəhmət də onda bilinir.
Hərkəsin genini bilək,
Geninə qiyməti verək.
Sovqatı, payını verək,
Çörəyi, çayını verək.

İnsana qiymət verəndə,
Hüceyrə, nüvələr, gen meyar olsun,
Zülal meyar olsun, qan meyar olsun,
Əcdad meyar olsun, soy meyar olsun.
Genlərə bağlıdır şəxsiyyətlər də,
Hərkəsə xas olan fərdiyyətlər də.
Genlərə bağlıdır hamının sözü,
Hamının oğulu, hamının qızı.
Hörməti edəndə gen meyar olsun,
Sümük meyar olsun, qan meyar olsun.

***Cəmil Əkbər*** 3. 09 – 1988

## 32. GENDƏ YAŞAYIR

*II variant*

Gör nələr yaşayır adi bir gendə?[366]
Heç itib-batmayır dumanda, çəndə.
Aranda yaşayır, dağda yaşayır,[367]
Çəməndə, çiçəkdə, bağda yaşayır.[368]
Torpaqda yaşayır, daşda yaşayır,[369]
Əllərdə, ayaqda, başda yaşayır.[370]
Baharın fəslində, qışda yaşayır,[371]

---

[366] Gör nələr yaşayır kiçik bir gendə,
[367] Yaşayır aranda, yaşayır dağda,
[368] Yaşayır çəməndə, çöllərdə, bağda,
[369] Yaşayır torpaqda, yaşayır daşda,
[370] Yaşayır ayaqda, yaşayır başda,
[371] Yaşayır baharda, yaşayır qışda,

Fikirdə, xəyalda, huşda yaşayır.[372]
İnsanda yaşayır, quşda yaşayır,[373]
Əməkdə dolanır, işdə yaşayır.[374]
Genin sayəsində bal da düzəlir, [375]
Yanağa yaraşıb, xal da düzəlir.[376]
Qoyun da, quzu da, mal da düzəlir,[377]
Qovğada törəyir, qalda yaşayır,
Darçında, mixəkdə, hildə yaşayır,
Ceyildə, çətəndə, cildə yaşayır.
Obada-oymaqda, eldə yaşayır,
Ağızda yaşayır, dildə yaşayır.
Qarışqa, begamont, fildə yaşayır,
Pələngdə, tülküdə, şirdə yaşayır.
Ayqırda, dəvədə, nərdə yaşayır,
Xeyirdə yaşayır, şərdə yaşayır,
Sərrafda, nalbənddə, zərdə yaşayır.
Başda, huşda, ağıl, sərdə yaşayır.
Genlərin hökmüylə pislər törəyir,
Zalımlar, qəddarlar, nəslər törəyir.
Höcət də, inad da, tərs də törəyir,
Qızıl da, gümüş də, mis də törəyir.
Kəramət yaşayır, mürvət yaşayır,
Ar-namus yaşayır, qeyrət yaşayır,
Cəsarət, fərasət, cürət yaşayır.
Cəmiyyət yaşayır, millət yaşayır,
Dərd-azar yaşayır, hillət yaşayır,
Əzablar, əziyyət, zillət yaşayır.
Qalalar dağıdıb sökdürən odur,
Bezdirib zəhlələr tökdürən odur.
Əyilməz qaməti bükdürən odur,
Zəliyə qanları sorduran odur.
İnsanı dirildən, qırdıran odur,
Sinəyə dağ-düyün vurduran odur.

---

[372] Yaşayır xəyalda, yaşayır huşda,
[373] Yaşayır insanda, yaşayır quşda,
[374] Yaşayır əməldə, yaşayır işdə,
[375] Onun sayəsində bal da yaşayır,
[376] Yanaqada gözəllik, xal da yaşayır.
[377] Qoyun da, quzu da, mal da yaşayır.

Gör nələr yaşayır adi bir gendə,
Böyüyür, bəslənir, künc-bucaq, tində.
Genlərin hökmüylə qocalır insan,
Zəfərlər çalaraq, bac alır insan.
Genlərin hökmüylə tikib qururuq,
Ömrü şərəf-şanla başa vururuq.
Genlərin hökmüylə salınır dava,
Zəhərə qarışır tərtəmiz hava.
Genlərin hökmüylə ölən də oldu,
Gözünün yaşını silən də oldu.
Sevinən də oldu, gülən də oldu,
Gedənlər də oldu, gələn də oldu.
Boşalan da oldu, dolan da oldu,
Saralan da oldu, solan da oldu.
Fikirə-xəyala dalan da oldu,
Gözləri yollarda qalan da oldu.
Əkilən də oldu, bitən də oldu,[378]
Tapılan da oldu, itən də oldu.[379]
İnciyən-incidi, bezənlər-bezdi,
Tablaşan-tablaşdı, dözənlər-dözdü.
İşləyən-işlədi, gəzənlər-gəzdi.
Anlayan-anladı, sezənlər-sezdi.
Qanmayan-qanmadı, qananlar-qandı,
Böyüyü-kiçiyi sananlar-sandı.
Genlərin hökmüylə key də tapıldı,
Xəsis də, simic də, göy də tapıldı.
Namərd də tapıldı, mərd də tapıldı,
Narazı olan da, pərt də tapıldı.
Onun sayəsində həyat var oldu,
Kimiyə gen oldu, kimə dar oldu?
Kimi bədnam oldu, kimi xar oldu?
Kimi tərlan oldu, kimi sar oldu?
Kimi tanınmadı, kimi car oldu?
Gen olubdu insanı, dağa-daşa azdıran,
Ünsiyyəti-ülfəti, bir andaca pozduran.
Al-qanları qaraldıb, əsəbləri korlayan,

[378] Əkilən-əkildi, bitənlər-bitdi.
[379] Tapılan-tapıldı, itənlər-itdi.

Tarımlara çəkərək, hissimizi zorlayan.
Gen olubdur insanı, dolaşdıran-çaşdıran,
Od-ocaqsız qaynadıb, bircə anda daşdıran.
Bircə anda ruh verib, bircə anda coşduran,
Dastanları yazdıran, şeirləri qoşduran.
Səni-sən eyləyən də, məni-mən eyləyən də,
Bizi məyus eyləyən, bizi şən eyləyən də.
Bizi duman eyləyən, bizi çən eyləyən də,
Hər xətadan, bəladan, bizi gen eyləyən də.
Bizi məhşər ayağa saldıran da odur bil,
Xəzanlara qərq edib, solduran da odur bil.
Qolumuzdan yapışıb, qaldıran da odur bil,
Zəfərlərin təblini, çaldıran da odur bil.
Hansı insan genində yaxşılıqlar var isə,
Baxışında-gözündə, yaxşılıqlar var isə.
O insanın özündə yaxşılıqlar olacaq,
Yolağında, izində yaxşılıqlar olacaq.
Hərkiminki genində var isə naşılıqlar,
Qəddarlıqla zalımlıq, var isə vəhşiliklər.
O insanın özü də bilin naşı olacaq,
Oğul-qız övladı da bilin vəhşi olacaq.
Hansı insan genində var olsa əyriliklər,
Var olsa ögeyliklər, var olsa qeyriliklər.
O insanın özündə əyriliklər olacaq,
Bəşər üçün yaramaz, qeyriliklər olacaq.
Hərkiminki genində kəm-kəsiri var isə,
Əyər-əksiyi varsa, kəm-kəsiri var isə.
Dənliyində, dənində kəm-kəsiri olarsa?
Urvasında, ununda kəm-kəsiri olarsa?
Boşqasında, çənində kəm-kəsiri olarsa?
İxtisarı olarsa, müxtəsəri olarsa?
O məzlumun özü də kəm-kəsirli olacaq,
Kəm-kəsirlə açılıb, kəm-kəsirlə solacaq.[380]
Kəm-kəsirlə boşalıb, kəm-kəsirlə dolacaq,
Kəm-kəsirlə oxuyub, kəm-kəsirlə çalacaq.
Kəm-kəsirlə axtarıb, kəm-kəsirlə bulacaq,
Kəm-kəsirlə düşünüb, kəm-kəsirlə biləcək.

[380] Kəmkəsirlə saralıb, kəmkəsirlə solacaq.

Kəm-kəsirlə sevinib, kəm-kəsirlə güləcək,
Kəm-kəsirlə doğulub, kəm-kəsirlə öləcək.
Gen insanın atası, o insanın babası,
Gen insanın nənəsi, gen insanın anası.
Gen insanın özülü, həm təməli, əsası,
Tufanlardan, sazaqdan sarsılmayan binası.
Gen insanın nəsili, nəcabəti, əslidir,
Hər insanı yaşadan, soykökülüdür, nəslidir.
Heçkəs ondan ayrılıb, uzaqlara gedənməz,
Nə yaxşılıq, nə pislik heç bir işi edənməz. [381]

***Cəmil Əkbər*** 30. 05 – 1993

## 33. GENDƏ YAŞAYIR

*III variant*

Gör nələr yaşayır, adi bir gendə,
Günah nə məndədir, nədəki səndə.
Gəlin biz axtarıb, genləri tapaq,
Çıxan səs küyləri, ünləri tapaq.
Hamının daxildə genini görək,
Tökək qabağına dənini verək.
Görək hərkəsdənin genində nə var?
Xırmanında nə var, dənində nə var?
Hərkəsin əməli onda bilinər,
Bünövrə, təməli, onda bilinər.
Zəhməti, xidməti onda bilinər,
Şərəfi-şöhrəti onda bilinər.
Gəlin hərkəsdənin genini bilək,
Geninə görə də qiymətin verək.
Genlərə münasib payını verək,
Çörəyini verək, çayını verək.
İnciyib bizlərdən küsməsin heçkəs,
Əlini-əllərdən kəsməsin heçkəs.
Heçkəs birbirindən qaralanmasın,
Şəklənib, uzaşıb, aralanmasın.
Yaxşılar gözlərə pis görünməsin,
Keçib prizmadan, tərs görünməsin.

[381] Ondan ayrı yaradıb, heç bir işi edənməz.

Bizi aldatmasın tərifnamələr,
Hiyləgər, yaltaqlar, hərifnamələr.
Qiymət veriləndə gen meyar olsun,
Hörmət ediləndə gen meyar olsun.
Damar meyar olsun, qan meyar olsun,
Sümük meyar olsun, süd meyar olsun.
Ciyər meyar olsun, öd meyar olsun,
Əsil meyar olsun, kök meyar olsun.
Zirvə meyar olsun, pik meyar olsun,
Əcdad meyar olsun, soy meyar olsun,
Hüceyrə, nüvələr qoy meyar olsun.

İnsanlıq da, ədalət də, gendədir,
Doğru-düzlük, həqiqət də gendədir.
Ədəb-ərkan, nəzakət də gendədir,
Xeyirxahlıq, fəzilət də gendədir.
Bacarıq da, məharət də gendədir,
Fərasət də, cəsarət də gendədir.
Gözəllik də, çirkinlik də gendədir,
Lovğalıq da, xudbinlik də gendədir.
Nikbinlik də, bədbinlik də gendədir,
Yaxşılıq, yamanlıq, pislik gendədir.
Bədxahlıq, zalımlıq, nəslik gendədir,
Höcətlik, inadlıq, tərslik gendədir.
Genlərə bağlıdır, bəşərin canı,
Bəşərin damarı, bəşərin qanı.
Bəşərin ülfəti, ünsiyyəti də,
Təlim-tərbiyəsi, nəsihəti də.
Genlərə bağlıdır, şərafətimiz,
Odumuz, közümüz, hərarətimiz,
Dözüm-durumumuz, qətiyyətimiz.
Genlərə bağlıdır hərəkətimiz,
Xeyrimiz, şərimiz, bərəkətimiz.
Genlərə bağlıdır şəxsiyyətimiz,
Hərkəsə xas olan fərdiyyətimiz.
Genlərə bağlıdır hərkəsin yeri,
Hərkəsin xeyiri, hərkəsin şəri.
Genlərə bağlıdır hamının özü,
Hamının söhbəti, hamının sözü.

Hamının yolağı, hamının izi,
Hamının oğulu, hamının qızı.
Genlərə bağlıdır əməl, də iş də,
Fikir də, xəyal da, ağıl da, huş da.
O səni eşitmir, mənə də baxmır,
Nə səsə, nə küyə, ünə də baxmır.
Onun öz məramı, öz əsası var,
Təməli, özülü, öz binası var.
Ona nə desən də söz əsər etmir,
Ovxara gətirib, söz kəsər etmir.
Deyirlər ki, çax-çax başın ağrıdır,
Dəyirman hərlənib bildiyin edir.

***Cəmil Əkbər*** 30.05 – 1993

## 34. RƏDD ETMƏLİYİK

Bizi cəhalətə aparanları,
Biryolluq imtina, rədd etməliyik.
Çəkib kökümüzdən qoparanları,[382]
Qovub mövqeindən, rədd etməliyik.

Şər-böhtan danışıb, yalan deyəni,
Boğazdan yuxarı, kalan deyəni,
Ellərin varını talan edəni,
Tutub yaxasından rədd etməliyik.

Vicdanı, məsləki atan kəsləri,
Mərdləri-namərdə satan kəsləri,
Qərq olub qəflətdə yatan kəsləri,
Atıb sıramızdan, rədd etməliyik.

Hər yetən kəslərlə barışmaq olmaz,
Kefini-halını soruşmaq olmaz,
Xeyrinə-şərinə qarışmaq olmaz,
İmtina eyləyib, rədd etməliyik.

---

[382] Bizi kökümüzdən qoparanları.

Bizi yolumuzdan azdıranları,
Ünsiyyət-ülfəti pozduranları,
Doğrunu-tərsinə yozduranları,
Fürsəti verməyib, rədd etməliyik.

Abırsız, ismətsiz, həyasızları,
Əqidə, məsləksiz, qayəsizləri,
Təlimdən kəmləri, dayəsizləri,
Məqamı çatıbdır, rədd etməliyik.

Övladı-bəşərə zillət verəni,
Salıb dərd-azara, hillət verəni,
Qəzəb artıranı, hiddət verəni,
Hökmünü çıxarıb, rədd etməliyik.[383]

İnciyib taledən bezmək bəs eylər,
Qəmlər dəryasında üzmək bəs eylər,
Tablaşıb hər dərdə dözmək bəs eylər,[384]
Gecikmək əbəsdir, rədd etməliyik.

Nəqədər əzaba sinə gərməli?
Dadsız, tamsız bəhrəsini dərməli,[385]
Ağrısını, acısını görməli,
Dayanıb durmadan rədd etməliyik.

İmtina etməyə fərasət gərək,
İgidə yaraşan cəsaraət gərək,
Qılıncda, qalxanda kəsarət gərək,
Gecikmək yaramaz, rədd etməliyik.

İnkar eyləmək də özü hünərdir,
Astarı hünərdir, üzü hünərdir,
Nə danım, gizlədim, düzü hünərdir,[386]
Həyatdan bezmədən rədd etməliyik.

---

[383] *II variant* Bəşər övladına zillət verəni,
Dərd-azar verəni, hillət verəni,
Qəzəblər artırıb, hiddət verəni,
Hökmünü çıxarıb, rədd etməliyik.

[384] Bu qədər tablaşıb dözmək bəs eylər,

[385] Vəhşiliyin bəhrəsini dərməli,

[386] Nə deyim, danışım, düzü hünərdir.

Yalana nəqədər göz yummalıyıq?
Danışıb, dinməyib söz yummalıyıq?
Yolaqlar bağlayıb, iz yummalıyıq?
İmtina inkarla, rədd etməliyik.

Bəsdir tənəzzüldə inləmək artıq,
İnilti, sızıltı dinləmək artıq,
Yarası qövr edib, simləmək artıq,
Bu ahı-naləni rədd etməliyik.

Bizə əngəl olan qalmasın gərək,
Zəfərlər təblini çalmasın gərək,
Nə də ilhamını almasın gərək,
Fürsəti vermədən rədd etməliyik.

Kəsək, saxtalığa yol verildiyi!
Qajlar ayrıldığı, qol verildiyi!
İxtiyar, iqtidar bol verildiyi!
Yolunu azanı rədd etməliyik.

Yetər! getdiyimiz tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Qarğışa, naləyə, ya aha sarı,
Bəsdir bu ləngimək, tez getməliyik.

***Cəmil Əkbər*** 2.09 – 1996

## 35. BAXIN *(şikayətnamə)*

Bir zamanlar yoldaş idi, Hayes Türkes harda varsa?
Dostdoğmaca qardaş idi, orda varsa, burda varsa.
Gözəl idi dövrü-zaman, işlərə, əmələ baxın,
Mahir əllə düzəldilən, bünövrə, təmələ baxın.
Ülfət edib birbirinə qız alardı, qız verərdi,
Qonşuluqda gediş-gəliş, duz alardı, duz verərdi.
Əl uzadıb, yardım edib, dolanardı xoş mehriban,
Bir-birilə qaynayardı, qarışardı çox mehriban.
Gözəl idi ünsiyyət də, gözəl idi ülfətlər də,
Şirin idi danışıq da, gözəl idi söhbətlər də.
Məqam gəldi, səbəb nədir, millət indi pozğunlaşdı?[387]
Ünsiyyətə zərbə dəydi, görən niyə azğınlaşdı?[388]

[387] Məqam gəldi, səbəb nədir, millət indi pozuldu?

Hayes niyə özgələrin torpağına göz dikirlər?[389]
Dövranına, büsatına, növrağına göz dikirlər?[390]
Abırsıza, həyasıza, bədəsil, nacinsə bir bax,
Ədavətə, küdurətə, xainə, xəbisə bir bax.
Nanəcibə, naxələfə, namərdə, naqisə bir bax,
Hər qitədə yer axtaran, acgözə, hərisə bir bax.
Öldürənə cəza yoxdur, ölənlərin qanı batır,
Vaxt-vədəsiz şəhid olur, torpaqlarda canı batır.
Mərmilərdən qulaq batır, gülləyə-borana baxın,
Dağılan,tarmar olana, xərabə, virana baxın.
Gör nəqədər vəhşiləşib, yırtıcı heyvana baxın?
Mərd igidlər fəda gedir, qanına-qaltana baxın.
Millət qırır bir-birini, "sahibi-kamala" baxın,
Qalmayıbdır abır-həya, mənəvi-camala baxın.
Daşa dönən ürəklərə, vicdana, amala baxın,
Gözü yolda, könlü xəstə, qocaya, cahala baxın.
Gör haçandan bəşəriyyət, zühur edib doğulubdur?
Ayılmayır avamlıqdan, cəhalətdə boğulubdur.
Çoxalıbdır qaçqın-köçkün, "sahibi-qeyrətə" baxın,
Yekə-yekə ada-sana, şərəfə-şöhrətə baxın.
Ha desən də, danışsan da, harayına gələn yoxdur,
Canı-dillə maraqlanıb, dərdi-halı bilən yoxdur.
Gör nəqədər fitnə-fəsad, şər danışıb, ara qatır?
Oğru-əyri, quldurbaşı, çalıb-çapıb vara çatır.
Törədilən cinayətə, salınan dəhşətə baxın,
İdraka bax, zəkaya bax, fəhmə-fərasətə baxın.
Yersiz gəlib yerliləri, dərdə salıb, dəng eyləyir,
Haldan salır, gücdən salır, yazıq xalqı təng eyləyir.
Üzdə-gözdə yoxdur həya, abıra-ismətə baxın,
Zaman yaman bəd gətirib, taleyə, qismətə baxın.
Dava salıb, ara qatan iblisə, şeytana baxın,
Birbirinə qara yaxan, şərə bax, böhtana baxın.
Yeyib-içir məzələnir, etdiyi cövlana baxın,
Yetişdiyi cah-calala, qurduğu dövrana baxın.
Kimi acdır, kimi toxdur, mövcudu-imkana baxın,

[388] Ünsiyyətə xələl gəldi, düz əyriyə yozuldu?
[389] Hayes niyə özgələrin torpağına göz dikir?
[390] Dövranına, büsatına, növrağına göz dikir?

İgidləri bada verən, qan içən aslana baxın.
Dərd ağırdır, yara dərin, təbibi-loğmana baxın,
Şil-küt olan xəstələrə, verilən dərmana baxın.
Fikir-xəyal dolaşıbdır, göydəki dumana baxın,
İtib-batıb qalmayıbdır, məzhəbi-imana baxın.
Gör nəqədər çoxalıbdır, sərsəri nadana baxın?
Yollarını-izlərini tərsinə adana baxın?
Tərbiyədən kəm-kəsirə, yarımçıq dadana baxın,
Xətir-hörmət tapdayana, haqq-say udana baxın.
Talan olan vara-hala, sürülən karvana baxın,
İxtiyara, iqtidara, sərdara-sarvana baxın.
Bəşər düşən müsibətə, zülmətə, zindana baxın,
Şeytan, əqrəb yuvasına, külli-İrəvana baxın.
Qan tökülən torpaqlara, düzlərə, ormana baxın,
İşləməyir dəyirmanlar, dağılan xırmana baxın.
Alan-alır, satan-satır, bazara dükana baxın,
Çıxarılan qərarlara, verilən fərmana baxın.
Bakıya bax, Gəncəyə bax, Şəkiyə, Şirvana baxın,
Şamaxıya, Lənkərana, Muğana, Salyana baxın.
Hay vurun ay qoçaqlarım, cümleyi-cahana baxın,
Yaxın nədir, uzaq nədir, boylanın həryana baxın.
Arandakı istilərə, dağdakı dumana baxın,
Ürəkdəki nisgillərə, könüldə gümana baxın.
Bəsdir daha bəşər oğlu, göz açıb cahana baxın,
Bir düşünün, nəzər salın, yazılan dastana baxın,
Bir özünə, bir Xaliqə, yaradan Sübhana baxın.

***Cəmil Əkbər*** 14. 11 – 1989

## 36. DÜZ GÖRƏNMƏDİN

Nəqədər tərlana sardı demisən?
Ləyaqət əhlini düz görənmədin.
Güllü bağçamıza xardı demisən?
Təravət əhlini düz görənmədin.[391]

---

[391] *II variant* Nəqədər tərlanı sar anlamısan?
Ləyaqət əhlini düz görənmədin.
Görən gözlərini kor anlamısan,
Fərasət əhlini düz görənmədin.

Nəqədər mərdlərə namərd demisən?
Xoryad gədələrə həmdərd demisən?
Can-ciyər bilərək, comərd demisən?
Cəsarət əhlini düz görənmədin.[392]

Nəqədər igidə naqisdi dedin?
Tamahkar anlayıb, hərisdi dedin?
Paxıldı, xaindi, xəbisdi dedin?[393]
Ədalət əhlini düz görənmədin.

Nəqədər əyriyə düzdü demisən?
Tirmə, qumaş, şala bezdi demisən?
Dərinə dayazdı, üzdü demisən?
Həqiqət əhlini düz görənmədin.

Qəlbində şeytanı, cini bəslədin,
Nifrəti, hiddəti, kini bəslədin,
Nə Məkkə, Mədinə, dini pislədin,
Təriqət əhlini düz görənmədin.

Nəqədər arifə gicdi demisən?
İlqara-imana kəcdi demisən?
Ünsiyyət-ülfətdə öcdü demisən?[394]
Şəriət əhlini düz görənmədin.

Nəqədər Hatəmə xəsisdi dedin?
Xaindi, paxıldı, xəbisdi dedin?[395]
İnsafdan, mürvətdən naqisdi dedin?
Səxavət əhlini düz görənmədin.

Nəqədər alimi küt anlamısan?
Müqəvva saymısan, büt anlamısan?
Elimdən, helimdən qıt anlamısan?
Fəzilət əhlini düz görənmədin.

---

[392] *II variant* Nəqədər mərdləri namərd bilmisən,
Xoryad gədələri həmdərd bilmisən,
Arxa hesab edib comərd bilmisən,
Cəsarət əhlini düz görənmədin.

[393] Dünyanın malına varisdi dedin.

[394] Höcətdi, inaddı, öcdü demisən.

[395] Qəddardı, qəlizdi, xəbisdi dedin.

Aldı ixtiyarı key oğlu keylər,
Sərsəri, kəmağıl səy oğlu səylər,
Xəsis oğlu xəsis, göy oğlu göylər,
Sədarət əhlini düz görənmədin.

Nəqədər sadəyə xudbin demisən?
Bədbin zavallıya, nikbin demisən?[396]
Gözələ, göyçəyə çirkin demisən?[397]
Məlahət əhlini düz görənmədin.

İnciyib küsən də, bezən sənsən,
Səbr edib, tablaşıb, dözən də sənsən,
Əlini-əllərdən üzən də sənsən,
Əziyyət əhlini düz görənmədin.

Nəyaman qəddarsan, daş ürəklisən?
Vicdanı, məsləki çaş ürəklisən?[398]
Niyə səksəkəli, quş ürəklisən?
Sədaqət əhlini düz görənmədin.

Nəqədər yaxşıya pisdi demisən?
Qızıla-gümüşə misdi demisən?
Danışma sözünü, bəsdi demisən?
Mərhəmət əhlini düz görənmədin.

Nəqədər insanı tanımamısan?
Çəkib imtahana sınamamısan?
Saya gətirməyib unamamısan?
Nəzakət əhlini düz görənmədin.

Neyləyək gözlərin kor oldu sənin?
Dilin lal, qulağın kar oldu sənin?
Təfəkkür, idrakın dar oldu sənin?
Mərifət əhlini düz görənmədin.

---

396 Məzluma, yazığa nikbin deyildi.
397 Qənirsiz gözələ çirkin deyildi.
398 Vicdanı, kəmkəsir, çaş ürəklisən.

Nəqədər insanı arsız anladın
Xeyirsiz, bəhrəsiz, karsız anladın,
Söyüd ağacıtək barsız anladın,
Məharət əhlini düz görənmədin.

Əlinin yerinə Vəlini verdin,
Aqilin yerinə dəlini verdin,
Dirinin yerinə ölünü verdin,
Cəsarət əhlini düz görənmədin.

Nəqədər insanın adı çıxmadı?
İstisi, həniri, odu çıxmadı?[399]
Bir tama gəlmədi, dadı çıxmadı?
Səadət əhlini düz görənmədin.

Nəqədər əfəli başa çəkmisən?
Çıxarıb zirvəyə, qaşa çəkmisən?
Qumaşa bürüyüb daşa çəkmisən?
Mətanət əhlini düz görənmədin.[400]

O səbəbdən dünya sənə daraldı,
Gül-çiçəyi xəzan vurdu, saraldı,[401]
Dağ başını duman aldı, qar aldı,
Şərafət əhlini düz görənmədin.

Nəqədər zalıma bəli demisən?
Övladı-bəşərin ləli demisən?
Kamal sahibinə dəli demisən?
Kəramət əhlini düz görənmədin.

Ümid bəsləmisən yaltaq kəslərə,
Özündən bədgüman şıltaq kəslərə,[402]
Abırsız, ismətsiz, sırtıq kəslərə,
Dəyanət əhlini düz görənmədin.

---

[399] İstisi bilinib, odu çıxmadı?

[400] *II variant* Nəqədər ilqara dönüklər oldu?
Eşqdən, həvəsdən sönüklər oldu?
Hər yola, hər səmtə yönüklər oldu?
Mətanət əhlini düz görənmədin.

[401] Gül-çiçəyi xəzan vurdu, xar aldı.

[402] Hoqqabaz, ədəbaz, şıltaq kəslərə.

Çoxaldı dünyada  qəlbiqaralar,
Dərdə tapılmadı əlac, çaralar,
Qövr etdi, simlədi köhnə yaralar,
Saf niyyət əhlini düz görənmədin.

Nəqədər qapılar bağlı qoymusan?
Sinələri düyün, dağlı qoymusan?
Talelər qaralı-ağlı qoymusan?
Məhəbbət əhlini düz görənmədin.

Ünsiyyət-ülfətlər pozuldu getdi,
Doğrular tərsinə yozuldu getdi,
Xətir də, hörmət də azaldı getdi,
Qəbahət əhlini düz görənmədin.

Bəşər o səbəbdən zara gəlibdir,
Əzəldən yığvalı qara gəlibdir,
Özü də bilmədi hara gəlibdir?
Küdurət əhlini düz görənmədin.

Bilmədin aranı qatan kim oldu?
İnsafı-mürvəti atan kim oldu?
Dəyər-dəyməzinə satan kim oldu?
Ədavət əhlini düz görənmədin.

***Cəmil Əkbər*** 15. 02 – 1991

## 37. BU NECƏ GÜZƏRAN, DÖVRÜ-ZAMANDI?

Çoxları çörəyi bicliklə yeyir,
Bu necə güzəran, dövrü-zamandı?
Xəyanət eyləyib kəcliklə yeyir,
Bu necə güzəran, dövrü-zamandı?

Doğruluq kimsənin xoşuna gəlmir,
Qəlbinə yatmayır, döşünə gəlmir.
Beyninə işləmir, başına gəlmir,
Bu necə güzəran, dövrü-zamandı?

İlqara-imana kəclər çoxalıb,
İnadlar çoxalıb, öclər çoxalıb,
Xainlər, xəbislər, ləclər çoxalıb,
Bu necə güzəran, dövrü-zamandı?

Filə hücum çəkir, alabaş indi,
Kəsməyir səsini yekəbaş indi,
Sanırlar özünü diribaş indi,
Bu necə güzəran, dövrü-zamandı?[403]

Ədaləti, həqiqəti danırlar,
Gözgörəti ləyaqəti danırlar,
Mənа dolu məziyyəti danırlar,
Bu necə güzəran, dövrü-zamandı?

Tərini tökmədən yeyən çoxdu-çox,
Zər-ziba qurşanıb, geyən çoxdu-çox,
Özünü haqq-nahaq öyən çoxdu-çox,
Bu necə güzəran, dövrü-zamandı?[404]

Abır azalıbdır, həya qalmayıb,[405]
Təlimi düz verən dayə qalmayıb,[406]
İnsandan-insana sayə qalmayıb,
Bu necə güzəran, dövrü-zamandı?[407]

---

[403]*II variant* Filə hücum çəkir, alabaş hürür,
Çəkinmir, pəsinmir, birbaşa hürür,
Verməyir bir ara, ay qardaş, hürür,
Bu necə güzəran, dövrü-zamandı?

[404]*II variant* Tər tökmədən narın-narın yeyən çox,
Altdan-üstdən zər-zibadan geyən çox,
Meydan açıb sinəsinə döyən çox,
Bu necə güzəran, dövrü-zamandı?

[405] Ünsiyyət-ülfətdə həya qalmayıb.
[406] Nurani-ağsaqqal, dayə qalmayıb.
[407]*II variant* Halal süfrə, halal mayə qalmayıb,
Qəhədləşib, kamil dayə qalmayıb,
Namus, qeyrət, abır-həya qalmayıb,
Bu necə güzəran, dövrü-zamandı?

Namərdlər-mərdlərin bədinə gedir.[408]
Qanını qaraldır, qəlbini didir,[409]
Özü də bilməyir nə məqsəd güdür?
Bu necə güzəran, dövrü-zamandı?

Hamı at çapırır tamaha sarı,
Xətaya-bəlaya, günaha sarı,
Gedən yox uğurlu sabaha sarı,
Bu necə güzəran, dövrü-zamandı?[410]

İnsan bir-birinin qəlbinə dəyir,
Vurub qamətini, qəddini əyir,
Düşür müsibətə, qaralar geyir,
Bu necə güzəran, dövrü-zamandı?[411]

Arvad kişi olub, kişilər arvad,
Bürüyür həryanı ah-nalə, fəryad,
Qınayıb deyən yox, ay işi bərbad,[412]
Bu necə güzəran, dövrü-zamandı?

Göğrə-görə gözü korlar çoxalıb,
Vicdanı kəm, qəlbi darlar çoxalıb,
Şan-şöhrətsiz hökmdarlar çoxalıb,
Bu necə güzəran, dövrü-zamandı?

Çərxi dönmüş zəmanəyə nə deyim?
Əqli-kəmə, divanəyə nə deyim?
İnsanlığa biganəyə nə deyim?
Bu necə güzəran, dövrü-zamandı?

---

[408] İnsan bir-birinin bədinə gedir.

[409] Xainlik hökm edib, qəlbini didir.

[410] *II variant*
Hamı yön alıbdır tamaha sarı,
Baxan yox naləyə, nə aha sarı,
Xətaya, bəlaya günaha sarı,
Bu necə güzəran, dövrü-zamandı?

[411] *II variant*
Nadanlıq, cəhalət qəlblərə dəyir,
Nəqədər vüqarı, qaməti əyir,
İtib xətir-hörmət, qalmayıb xeyir,
Bu necə güzəran, dövrü-zamandı?

[412] Qınayıb deyən yox, ay yazıq övlad.

Yorma əsəbini, korlama Cəmil!
Hissi-həyəcanı zorlama Cəmil!
Gözünün yaşını carlama Cəmil!
Bu necə güzəran, dövrü-zamandır.

***Cəmil Əkbər*** 22.03 -1992

## 38. DAİM YADA SALINACAQ

Dönə-dönə min ehtiram, dərya kamal sahibinə,
Saf düşüncə, pak əqidə, məslək, amal sahibinə.
Yer üzündə insanların şərəfinə, alisinə,
Dərin idrak sahibinə, dərrakəli valisinə.
Salam olsun bizdən deyin, böyük ustad Nizamiyə,
Füzuliyə, Nəsimiyə, Seyid Əzimə, Xaqaniyə.
Vidadiyə, Vaqifə də, Səmədə də, Osmana da,
Həsənbəyə, Nəcəf bəyə, Üzeyirə, Cavidə də,
Sabirə də, Cəlilə də, Səbuhiyə, Müşviqə də.
Salam olsun bizdən deyin, dərk edənə, qananlara,
Kərəmlərə, Məcnunlara, Fərhadlara, Sənanlara.
Dönə-dönə ədalətdən yazanlara salam olsun,[413]
Doğruluqdan, həqiqətdən yazanlara salam olsun,[414]
İnsanlıqdan, ləyaqətdən yazanlara salam olsun,[415]
Ədəb-ərkan, mərifətdən, yazanlara salam olsun,[416]
Ellər üçün çalışana, Vətən üçün can qoyana,
Sinə gərib çətinliyə, torpaqlara qan qoyana.
Zəhmət çəkib gecə-gündüz, öz tərini tökənlərə,
İncisini, sədəfini, öz zərini tökənlərə.
Min ehtiram, min ehtiram, şərəf-şöhrət sahibinə,
Könüllərdə izi qalan, dərin hörmət sahibinə,
Vicdan-məslək sahibinə, namus-qeyrət sahibinə.
Harda varsa, harda olsa, mərd oğula, mərd qızlara?
Kamalıyla nur saçana, kəhkəşantək, ulduzlara?
İftixarla ömür sürüb, qürur ilə dolanana?
Peyvənd olub ürəklərdən-ürəklərə calanana.
Salamımı siz çatdırın, məhəbbətlə yaşayana,

---

[413] Dönə-dönə ehtiramlar, ədalətdən yazanlara,
[414] Doğruluqdan, düzgünlükdən, həqiqətdən yazanlara.
[415] İnsanlığa can atana, ləyaqətdən yazanlara.
[416] Ədəb-ərkan, mərifətdən, şəriətdən yazanlara.

Etibarla, düz ilqarla, sədaqətlə yaşayana.
Yaxşı ad-san sahibinə, böyük hünər sahibinə,
Mənliyinə qiymət qoyan, böyük zəfər sahibinə.
Dil-dodağı tərpətməmiş, deməmişdən sözqanana,
Eyham ilə mətləb duyan, işarədən gözqanana.
Haqq yoluyla gedənlərə, izi doğru salanlara,
Düz işindən, əməlindən, müdam ilham alanlara.
Bizdən salam deyin barı, zaman-zaman yaşayana,
İnsanlığın hər yükünü, insan kimi daşıyana.
Mərd övladı doğanlara, mərd oğulu əkənlərə,
Qeyrət ilə yaşayana, bu zəhməti çəkənlərə.
Beylə insan harda olsa, ondan ilham alınacaq?!
Xatirəsi əbədidir, daim yada salınacaq!

***Cəmil Əkbər*** 3. 06 -1993

## 39. SEZMƏZDİM

Dadmasaydım acını, şirinləri sezməzdim,
Seyr etməsəm dayaza, dərinləri sezməzdim.
Düşməsəydim bürküyə, sərinləri sezməzdim,
Gözəlləri görməsəm, çirkinləri sezməzdim.
Sadələri görməsəm, xudbinləri sezməzdim,
Əhli-kefi görməsəm, bədbinləri sezməzdim,
Qəmginləri görməsəm, nikbinləri sezməzdim.
Qananları görməsəm, nadanları sezməzdim,
Təbiətdən yarımçıq, dadanları sezməzdim.
Haqq-sayı sümürüb, udanları sezməzdim,
Tərsəməssəb yol gedən, adanları sezməzdim.
Vicdan, iman görməsəm, ədaləti duymazdım,
Doğruluğu, düzlüyü, həqiqəti duymazdım,
İnsanlıqdan baş açıb, ləyaqəti duymazdım.
Ədəb-ərkan anlayıb, nəzakəti duymazdım,
Yaxşılığı tanıyıb, fəziləti duymazdım.
Zərifliyi qanmayan, məlahəti duyarmı?
Gül-çiçəyi qanmayan, təravəti duyarmı?
Boran-qara düşməyən, hərarəti duyarmı?
Mərifəti qanmayan, şərafəti duyarmı?
Müsibətə düşməyən, məharəti duyarmı?

Həyatını qanmayan, qiraəti duyarmı?
Xətir-hörmət qanmayan, kəraməti duyarmı?
İnsanlığa xas olan, əlaməti duyarmı?
Çətinliyə düşməsəm, səadəti sezməzdim,
Hatəmlər olmasaydı, səxavəti sezməzdim,
Mehri-ülfət görməsəm, ədavəti sezməzdim.
Ülviliyi qanmayan, cəhaləti sezərmi?
Yaxşılığı duymayan, pis adəti sezərmi?
Şəxsiyyəti duymayan, cəmiyyəti sezərmi?
Ülfətdən baş açmayan, ünsiyyəti sezərmi?
Öyüd sənə götürüb, nəsihəti sezərmi?
Həyasızı görməyən, ismətlini duyarmı?
Yaxşı əsli-nəsili, xislətlini duyarmı?
Dərd-azarı tanıyıb, hilləti heç duyanmaz!
Öz xalqını dərk edib, milləti heç duyanmaz!
Pis günlərə düşərək, zilləti heç duyanmaz!
Donqarları görməyən, törpüləri sezənməz!
Daşqın çaylar olmasa, körpüləri sezənməz!
Qu tükünü görməyən, kirpiləri sezənməz!
Boşalanı görməyən, dolanları sezərmi?
Gedənləri görməyən, qalanları sezərmi?
Xəzanlara qərq olub, solanları görərmi?
Kasıbları görməyən, kalanları görərmi?
Verənləri görməyən, alanları görərmi?
Əqrəbləri görməyən, ilanları görənməz!
Bir pərdədə min hava, çalanları görənməz!
Ağlayanı görməyən, gülənləri sezənməz!
Əl-ayaqda qalanı, ölənləri sezənməz!
Anlamazı görməyən, bilənləri sezənməz!
Gözlərinin yaşını, silənləri sezənməz!
İnciyəni görməyən, bezənləri sezənməz!
Səbr eyləyib, tablaşıb, dözənləri sezənməz!
Canlarını bu yolda, üzənləri sezənməz!
Aralıqda boş-bikar, gəzənləri sezənməz!
Kim görməsə pisləri, yaxşıları sezərmi?
Ustaları tanıyıb, naşıları sezərmi?
Əhliləşmiş olanı, vəhşiləri sezərmi?
Nəyaxşıki təbiət, bizə görən göz verib,
Hər nə verib yerbəyer, tamam-kamal düz verib.

Görməsəydik həyatı, xeyri-şəri sezməzdik,
İnci, sədəf anlayıb, nə də zəri sezməzdik.
Bu həyatı duymaqda, biz görməyə borcluyuq,
Öz borcunu xalqına, tez verməyə borcluyuq.
Xeyirxahlıq görməsəm, mən bu borcu sezməzdim,
Nə gəliri-çıxarı, nə də xərci sezməzdim.
İnsan gərək bezməsin, yaxşı-pisi görüncə,
Qızıl-gümüş, qalayı, nə də misi görüncə.
Nə höcəti, inadı, nə də tərsi görüncə,
Bədxahları, zalımı, nə də nəsi görüncə.
İbtidadan, əzəldən, dünya belə yaranıb?
Neyləyəsən sən buna, dünya elə yaranıb?
Onun gündüzü də var, onun gecəsi də var,
Onun zülalı da var, onun cecəsi də var.
İnsan gərək həyatı, tamam-kamal anlasın,
Nöqsanını tez görüb, öz-özünü danlasın.
Həyat bir təcrübədir, həyat sınaq məktəbi,
O kitabdır oxuyaq, gərək qanaq məktəbi.
Düz oxuyub, anlayaq, doğru sezək məktəbi,
Düz dolanaq, hərlənək, doğru gəzək məktəbi.
Düz görməsək, duymasaq, həyat bizi qınayar,
Düşsək eniş-yoxuşa, həyat bizi sınayar!
Elin gözü tərəzi, yaxşı-pisi tanıyar,
Hamı baxıb yerbəyer, həyat bizi unayar.

***Cəmil Əkbər*** 23. 05 – 1993

## 40. HƏM SƏNİNDİR, HƏM DƏ MƏNİM

Bu dünyanın varı-halı,
Həm sənindir, həm də mənim.
Həm dəymişi, həm də kalı,[417]
Həm sənindir, həm də mənim.

Həm qovğası, həm də qalı,
Həm tirməsi, həm də şalı,
Həm arısı, həm də balı,
Həm sənindir, həm də mənim.

[417] Həm qüssəsi, dərd məlalı.

Enişi də, yoxuşu da,
Məğrur-məğrur baxışı da,[418]
Bəzəyi də, naxışı da,[419]
Həm sənindir, həm də mənim.

Tufanı da, boranı da,
Yaylağı da, aranı da,
Yıxılanı, duranı da,
Həm sənindir, həm də mənim.

Yorulanı, yoranı da,
Sorulanı, soranı da,
Vurulanı, vuranı da,[420]
Həm sənindir, həm də mənim.

Torpağı da, səması da,
Günəşi də, havası da,
Cəfası da, səfası da,[421]
Həm sənindir, həm də mənim.

Yaxşısı da, yamanı da,
Çisgini də, dumanı da,[422]
Məkanı da, zamanı da,
Həm sənindir, həm də mənim.

Güneyi də, quzeyi də,
Kahası da, muzeyi də,
Təpəsi də, dərəsi də,[423]
Həm sənindir, həm də mənim.

Hər havanın zili-bəmi,
Hər nəşəsi, hər dərd-qəmi,
Çoxu-azı, yoxu-kəmi,[424]
Həm sənindir, həm də mənim.

---

[418] Duruşu da, baxışı da.
[419] 1) Şimşəyi də, çaxışı da, 2) Məzəmməti, qaxışı da.
[420] Qırılanı, qıranı da,
[421] İlqarı da, vəfası da.
[422] Çisgəsi də, dumanı da.
[423] Talası da, bərəsi də.
[424] Həm qurusu, həm də nəmi.

Yal-yamac da, dağ da, daş da,[425]
Yaxşı-yaman, zor da, xoş da,[426]
Acı, şirin, bərk də, boş da,
Həm sənindir, həm də mənim.[427]

Küləyi də, sazağı da,
Yaxını da, uzağı da,
Gəncəsi də, Qazağı da,
Həm sənindir, həm də mənim.

Nəki oba-oymaq, el var,
Çəmən-çiçək, nəki gül var,
Neçə ümman, neçə göl var,
Həm sənindir, həm də mənim.[428]

Varlısı da, varsızı da,
Karlısı da, karsızı da,
Arlısı da, arsızı da,
Həm sənindir, həm də mənim.

Mən düzəldim, sən əymə gəl,
Mən can deyim, sən söymə gəl,
Mən öpəndə sən döymə gəl,
Həm sənindir, həm də mənim.

Gəl anlayaq sən də, mən də,
Dolaşmayaq dalda, tində,
Nə dumanda, nə də çəndə,
Həm sənindir, həm də mənim.

---

[425] Yer də, göy də, dağ da, daş da.

[426] Qol-qüvvə də, zor da, xoş da.

[427] *II variant*

Hər cür zəhmi, zoru-xoşu,
Acı-şirin, bərki-boşu,
Alagözü, qələmqaşı,
Həm sənindir, həm də mənim.

[428] *II variant*

Oba-oymaq, hər elləri,
Çəmən, çiçək hər gülləri,
Kəklikləri, bülbülləri,
Həm sənindir, həm də mənim.

Çirkini də, gözəli də,
Məzəsiz də, məzəli də,
Şeir, dastan, qəzəli də,
Həm sənindir, həm də mənim.

Fikirlərin alisi də,
Elmlərin banisi də,
Xalqımızın dahisi də,
Həm sənindir, həm də mənim.

Aşıqların telli sazı,
Bülbüllərin şən avazı,
Gözəllərin işvə-nazı,
Həm sənindir, həm də mənim.

Gözəlliyə darılmayaq,
Çatdamayaq, yıprılmayaq,
İçimizdən qırılmayaq,
Həm sənindir, həm də mənim.

Gəl məhv edək xəbisliyi,
Acgözlüyü, hərisliyi,
Xainliyi, naqisliyi,
Həm sənindir, həm də mənim.

İnsanları bezdirməyək,
Çətinliyə dözdürməyək,
Ürəkləri üzdürməyək,
Həm sənindir, həm də mənim.

Al-qanları qaralan da,[429]
Gen dünyası daralan da,[430]
Gülyanağı saralan da,[431]
Həm sənindir, həm də mənim.

---

[429] Al-qanları qaraltmayaq.
[430] Gen dünyanı daraltmayaq.
[431] Gül yanağı saraltmayaq.

Mövqeindən enənlər də,[432]
Susanlar da, dinənlər də,
Yana-yana sönənlər də,
Həm sənindir, həm də mənim.

Ağlayan da, zarıyan da,
Qocalan da, qarıyan da,
Taleyindən yarıyan da,
Həm sənindir, həm də mənim.

Ətəyindən tök daşını,[433]
Çox dik tutma gəl başını,[434]
Silək axan gözyaşını,[435]
Həm sənindir, həm də mənim.

Gəl güldürək ağlayanı,
Sinəsini dağlayanı,
Bizə ümid bağlayanı,
Həm sənindir, həm də mənim.

Bir oturub, bir də duraq,
Ömrü-günü başa vuraq,
Bir yaradaq, bir də quraq,
Həm sənindir, həm də mənim.

Gəl çalışıb zəhmət çəkək,
Qəddi bükub tər də tökək,
Bağlar salıb gül də əkək,
Həm sənindir, həm də mənim.

Məhv eyləyək naşılığı,
Avamlığı, vəhşiliyi,
Peşə edək yaxşılığı,
Həm sənindir, həm də mənim.

***Cəmil Əkbər***

---

[432] Ucalmamış enənlər də.
[433] Ətəyindən gəl tök daşı.
[434] Dik tutmayaq gəl biz başı.
[435] Gəl olmayaq daha naşı.

## 41. SƏS VER!

Kin-küdurət, ədavətdən uzaq dur,[436]
Məhəbbət əhlinin səsinə səs ver!
Avamlıqdan, cəhalətdən uzaq dur,[437]
Ləyaqət əhlinin səsinə səs ver!

Qəlbini bağlama gic oğlu gicə,[438]
Hiyləgər, dələduz, bic oğlu bicə,
Qanuna, qaydaya kəc oğlu kəcə,
Ədalət əhlinin səsinə səs ver!

Aldanma fitnəyə, azma yolunu,[439]
Çevirib tərsinə yozma yolunu,
Silib, qaralayıb, pozma yolunu,
Həqiqət əhlinin səsinə səs ver!

Ünsiyyət-ülfətdə naqislik etmə!
Paxıllıq, xainlik, xəbislik etmə![440]
Övladı-bəşərə gəl pislik etmə![441]
Səxavət əhlinin səsinə səs ver!

İlqara-imana dönülkük etmə!
Hər səmtə üz tutub, yönüklük etmə!
Ellərin varına əniklik etmə![442]
Sədaqət əhlinin səsinə səs ver!

Ayıbdır ellərdən qəbahət etmə!
İnsan övladının bədinə getmə!
Cücərib kol kimi yolunda bitmə!
Nəzakət əhlinin səsinə səs ver![443]

---

[436] Kin-küdurət qucağında yatmayın.
[437] 1) Nə bacarsan cəhalətdən uzaq ol. 2) Yaxşıları-yamanlara qatmayın.
[438] Meylini yetirmə gic oğlu gicə.
[439] 1) Aldanıb fitnəyə, azma yolunu. 2) Ünsiyyət-ülfətdə azma yolunu.
[440] Bədxahlıq eyləmə, xəbislik etmə!
[441] Gəl insanoğlununa sən pislik etmə!
[442] 1) Vicdanı, məsləki, sönüklük etmə! 2) Artırıb tamahı, əniklik etmə!
[443] *II variant* Oturub-duranda nadanlıq etmə!
İtirib əqlini avamlıq etmə!
Ömründə heç kimə yamanlıq etmə!
Nəzakət əhlinin səsinə səs ver!

Ədəblə, ərkanla, hörmətlə yaşa![444]
İnsafla, vicdanla, mürvətlə yaşa![445]
Mənəvi zənginlik, sərvətlə yaşa!
Kəramət əhlinin səsinə səs ver!

Hünər meydanında tənbəl olmayın!
Qal-qovğa törədib, cəncəl olmayın!
Dövrü-zəmanəyə əngəl olmayın!
Şərafət əhlinin səsinə səs ver! [446]

Qəlbini didməsin cəhalət sənin,
Kin-küdurət sənin, ədavət sənin,
Hər addımbaşında qəbahət sənin,
Xoş adət əhlinin səsinə səs ver!

Gözəl dünyamıza dava salmayın, [447]
Zəhərə qarışmış hava salmayın,[448]
Araya-bərəyə yava salmayın,
Fəzilət əhlinin səsinə səs ver!

Çalış ki, dünyada xətrin yayılsın,
Hikmətli sözlərin, sətrin yayılsın,
Açılsın qönçədən, ətrin yayılsın,
Təravət əhlinin səsinə səs ver!

Elləri düz yola səslə, ay Cəmil!
Durub xidmətində bəslə, ay Cəmil![449]
Cahil, sərsərini pislə, ay Cəmil![450]
Cəsarət əhlinin səsinə səs ver![451]

***Cəmil Əkbər*** 14-16 // 04 -1995

---

[444] Ədəblə dolanıb, hörmətlə yaşa!
[445] 1) Unutma insafı, mürvətlə yaşa! 2) İnsafla otur-dur, mürvətlə yaşa!
[446] *II variant*
Bu cahan mülkündə tənbəl görünmə,
Dövrü-zəmanəyə əngəl görünmə,
Qal-qovğa törədib, cəncəl görünmə,
Şərafət əhlinin səsinə səs ver!
*III variant*
İşində-gücündə tənbəllik etmə,
Qal-qovğa törədib, cəncəllik etmə,
Dövrü-zəmanədə əngəllik etmə,
Şərafət əhlinin səsinə səs ver!
[447] Rəhm edin dünyaya, dava salmayın.
[448] Zəhərə qərq olan hava salmayın.
[449] Gətirib ərsəyə bəslə, ay Cəmil!
[450] Mənfuru, zalımı pislə, ay Cəmil!
[451] Mərhəmət əhlinin səsinə səs ver!

## 42. NƏ DEYİM?

Dünən görün kim idik, bu gün kimlər olmuşuq?
İnildəyən, sızlayan, qırıq simlər olmuşuq.
Dünən ilham alırdıq, bu gün qəhər çəkirik,
Dünən zülal çəkirdik, bu gün zəhər çəkirik.
Xoş keçirdi zəmanə, dövranımız, günümüz,
Yerə-göyə səs salıb, bürüyürdü ünümüz.
Dəyirmanda vurhavur üyünürdü dənimiz,
Qəlbimizdə yox idi, nisgilimiz, kinimiz.
Cıra peyvənd vuraraq, bağban bağa baxardı,
Bostanları becərib, dürlü tağa baxardı.
İnsanlardan insana xətir-hörmət var idi,
Ünsiyyətdə, ülfətdə, insaf-mürvət var idi.
Könüllərin diyarı məhəbbət bəsləyərdi,
Sədaqət bəsləyərdi, səxavət bəsləyərdi.
Səmimilik var idi, mehri-ülfət var idi,
Səadətlər naminə şirin söhbət var idi.
Həmkar idik hamımız, sirdaş idik hamımız,
Əqidədə, məsləkdə yoldaş idik hamımız.
Hünərlərdə, zəfərdə əlbir idik hamımız,
Sözbir idik hamımız, dilbir idik hamımız.
Danışıqda, söhbətdə yalan-palan yox idi,
Vicdanını, məsləki alıb-satan yox idi.
İndi zaman dəyişdi, sarvan çaşdı yolunu,
Doğru gedə bilməyir, karvan çaşdı yolunu.
İndi ülfət pozuldu, ünsiyyətlər pozuldu,
Xətir-hörmət hərnəvar, yerbəyerdən azaldı.
Əyri düzə yozuldu, düz əyriyə yozuldu,
Şahrah yollar dağıldı, dərin quyu qazıldı.
Ürəkdəki təpər də, riqqətlər də pozuldu,
Nəzərlər də yayındı, diqqətlər də pozuldu.
Hər addımınbaşında qəbahətlər törəyir,
Kin-küdurət çoxalır, ədavətlər törəyir.
Ürəklərdə xəbislik, xəyanətlər çoxalır,
Yerli-yersiz söz-söhbət, bəyanətlər çoxalır.
Oğruluqlar, əyrilik, cinayətlər çoxalır,
Giley-güzar, qalmaqal, şikayətlər çoxalır.
Əhd-peyman qalmadı, ilqar-iman qalmadı,

Yetiş dada Xudaya, ay dad-aman qalmadı.
Dərrakədən, kamaldan bütə döndü bu bəşər,
İtirərək ağlını, kütə döndü bu bəşər.
İndi əsər qalmayıb, insanlardan-insana,
Söz də əsər etməyir, cahillərə, nadana.
Zəmanəni bu günə, qoyanlara nə deyim?
Dühaların gözünü oyanlara nə deyim?

***Cəmil Əkbər*** 14. 09 – 1996

## 43. DƏRS DEYİR

Öz xeyrini, öz nəfini güdənlər,
Bu bəşərdən, cəmiyyətdən dərs deyir.
Gəlir-çıxar, öz müfünü güdənlər,
Ədəb-ərkan, mərifətdən dərs deyir.

İnsanlıqdan nişanəsi olmayan,
Adi daxma, kaşanəsi olmayan,
Dostu-yarı, aşinası olmayan,
Davranışdan, nəzakətdən dərs deyir.[452]

Əqidəsi, qayəsindən kəm olan,
Tərbiyəçi, dayəsindən kəm olan,
Abır-ismət, həyasından kəm olan,
Ülviyyətdən, qüdsiyyətdən dərs deyir.

Üzü dərin, dərini üz görənlər,
Yüzü əlli, əllini yüz görənlər,
Düzü əyri, əyrini düz görənlər,
Ədalətdən, həqiqətdən dərs deyir.[453]

---

[452]*II variant* İnsanlıqdan nişanəsi olmayan,
Nə daxması, kaşanəsi olmayan,
Dost-mehriban aşinası olmayan,
Mehri-ülfət, nəzakətdən dərs deyir.

[453]*II variant* Üzə dərin, dərinə üz deyənlər,
Düzə əyri, əyriyə düz deyənlər,
Yüzə əlli, əlliyə yüz deyənlər,
Ədalətdən, həqiqətdən dərs deyir.

Şər danışıb, aralığı qatanlar,
Bəd iş tutub, min günaha batanlar,
Vicdanını kor qəpiyə satanlar,
Saf ülfətdən, ünsiyyətdən dərs deyir.[454]

Ustadlardan öz dərsini almayan,
Dərin, dayaz, üz dərsini almayan,
Təlim görüb düz dərsini almayan,
Sənə öyüd, nəsihətdən dərs deyir.[455]

Sözlərinin bir əsəri olmayan,
El xeyrinə bir səməri olmayan,
Zəfər çalıb bir nəməri olmayan,
Məna dolu, məziyyətdən dərs deyir.[456]

El içində adı-sanı olmayan,
Nə zülalı, nə də şanı olmayan,
İgidlikdən bir nişanı olmayan,
Dözüm, durum, qətiyyətdən dərs deyir.[457]

Atadan, anadan naqis olanlar,
Tamahkar olanlar, həris olanlar,
Xain doğulanlar, xəbis olanlar,
Xeyirxahlıq, fəzilətdən dərs deyir.

---

[454]*II variant* İnsafını, vicdanını satanlar,
Şər danışıb aralığı qatanlar,
Min sifətlə məqsədinə çatanlar,
Saf ülfətdən, ünsiyyətdən dərs deyir.

[455]*II variant* Ustadlardan öz dərsini almayan,
Düşüncəyə, dərrakəyə dolmayan,
El dərdinə şərik olub qalmayan,
Yerli-yersiz nəsihətdən dərs deyir.

[456]*II variant* Sözlərində məna, kəsər olmayan,
Elə fayda, bir səməri olmayan,
Nə təsiri, nə əsəri olmayan,
Məna, məzmun, məziyyətdən dərs deyir.

[457]*II variant* El-obada adı-sanı olmayan,
Pürkamalı, saf vicdanı olmayan,
Şərafəti, nə də şanı olmayan,
Fərasətdən, məharətdən dərs deyir.

Tərbiyə almayan öz babasından,
Sənət babasından, söz babasından,
Sərrast babasından, düz babasından,
Nəciblikdən, məlahətdən dərs deyir.

Cəmil Əkbər, dünya niyə belədir?
Biri arif, biri nadan, lələdir?
Biri ağa, biri muzdur, kölədir?
Xəsis, simic, səxavətdən dərs deyir.

***Cəmil Əkbər*** 15. 04 – 1990; 24. 12 - 1991

## 44. SƏNİN NƏVECİNƏ?

*Sənin nəvecinə* eniş-yoxuşlar?
Enişə-yoxuşa düşənlər bilər.
*Sənin nəvecinə* bu sərt baxışlar?
Süni cücərtilər, süni çıxışlar,
Süni bərbəzəklər, süni naxışlar,
Onu günahını yuyanlar bilər.
*Sənin nəvecinə* isti-soyuqlar?
Onu istilənən, donanlar bilər.
Sənin nəvecinə bütlər, oyuxlar?
Onu anlayanlar, qananlar bilər.
*Sənin nəvecinə* Leyli, Əslilər?
Onu eşq oduna yananlar bilər.
*Sənin nəvecinə* məhəbbət nədir?
Onu hiss edənlər, duyanlar bilər.
*Sənin nəvecinə* cəsarət nədir?
Onu məqamında göstərən bilər.
Dostlarda etibar, sədaqət nədir?
Onu da görənlər, bilənlər bilər.
*Sənin nəvecinə* kəramət nədir?
Mehri-ülfət nədir, səxavət nədir?
İnsanlıq naminə ləyaqət nədir?
Ona da giriftar olanlar bilər.
*Sənin nəvecinə* qənaət nədir?
Başına ehtiyac gələnlər bilər,
*Sənin nəvecinə* ənaət nədir?
İxtiyar əlinə gələnlər bilər.

*Sənin nəvecinə* əzilən kimdir?
İncələn kim oldu, nəzilən kimdir?
Sıxılanlar kimdir, üzülən kimdir?
*Sənin nəvecinə* bezdirən kimdir?
Salıb işgəncəyə dözdürən kimdir?
Əzab-əziyyətdə saralan kimdir?
Üzülə-üzülə yorulan kimdir?
İçindən çürüyüb, qırılan kimdir?
Həsəd çəkən kimdir, darılan kimdir?
Boynuna dolanan, sarılan kimdir?
*Sənin nəvecinə* duz da, çörək də,
Onu zəhmət çəkən, tər tökən bilər.
*Sənin nəvecinə* ölən, qalanlar?
Fələk kəməndinə salanlar bilər.

***Cəmil Əkbər***

## 45. ONDAMI PİS İDİ, İNDİMİ PİSDİR?

Ellərə car çəkdik beynəlmiləli,
Nəydi müəmmalı, nəydi şübhəli?
Nəydiki əcaib, nəydi gülməli?
Ondamı pis idi, indimi pisdir?

O zaman bu qədər qaçqın yox idi,
Didərgin yox idi, köçkün yox idi,
Dağıntı, söküntü, uçqun yox idi,
Ondamı pis idi, indimi pisdir?

Bazarda, dükanda çay da bol idi,
Nəqədər istəsən tayda bol idi,
Payızda bol idi, yayda bol idi,
Ondamı pis idi, indimi pisdir?[458]

Şokolad, konfet də, qənd də bol idi,
Hər dölmə, dalanda, tində bol idi,
Şəhər, qəsəbədə, kənddə bol idi,
Ondamı pis idi, indimi pisdir?

---

[458] *II variant* Bazarda dükanda qənd də bol idi,
Şəhərdə bol idi, kənddə bol idi,
Hər diyar, el-oba, səmtdə bol idi,
Ondamı pis idi, indimi pisdir?

O zaman bu qədər talan yox idi,
Ayaqlar altında qalan yox idi,
Züy tutub nağara çalan yox idi,
Ondamı pis idi, indimi pisdir?

Cəhalət dünyası məhv edilirdi,
Ədavət dünyası məhv edilirdi,
Qəbahət dünyası məhv edilirdi,
Ondamı pis idi, indimi pisdir?

Qanunu gözləyən dövlət var idi,
Saf arz-istəklər, niyyət var idi,
Mehri-ülfət, səmimiyyət var idi,
Ondamı pis idi, indimi pisdir?

İnsanlıq, ləyaqət kara gəlirdi,
Tarlalar, zəmilər bara gəlirdi,
Düşmənlər kor olub, zara gəlirdi,
Ondamı pis idi, indimi pisdir?

Sualım sizədir ay kor olanlar?
Qulağı tutulan, ay kar olanlar?
Ay bədnam olanlar, ay xar olanlar?
Ondamı pis idi, indimi pisdir?

Həryana baxırdın çörək bol idi,
Tərtəmiz döyünən ürək bol idi,
Qayğılar, yardımlar, kömək bol idi,
Ondamı pis idi, indimi pisdir?

Yeməyə, içməyə nemət bol idi,
Mənəvi gözəllik, sərvət bol idi,
Şərafət bol idi, şöhrət bol idi,
Ondamı pis idi, indimi pisdir?

Moskva yayırdı kurant səsini,
Kremlin ecazkar zümzüməsini,
Salırdı, ləyaqət bəhsəbəhsini,
Ondamı pis idi, indimi pisdir?

Gəzirdik həryanı eli, obanı,
Axtarıb tapırdıq dost-mehribanı,
Geyirdik tərtəmiz zəri-zibanı,
Ondamı pis idi, indimi pisdir?

Oxu bu naməni, ayıl ay bəşər!
Sənə deməsinlər zayıl ay bəşər!
Olmaynan pis işə qayıl ay bəşər!
Ondamı pis idi, indimi pisdir?

***Cəmil Əkbər*** 2. 12 – 1994

## 46. DEYİRLƏR

Bizi kara döndərən, bizi lala döndərən,
Avamlıqdı deyirlər, cəhalətdi deyirlər.
Bizi geriyə çəkib, salıb dala göndərən.[459]
Paxıllıqdı deyirlər, xəyanətdi deyirlər.

Bizi heyvan eyləyən, bizi mala döndərən,
Yetişməyə qoymayan, bizi kala döndərən, [460]
Salıb bizi məhşərə, qovğa-qala göndərən, [461]
Fitnə-fəsad olubdur, qəbahətdi deyirlər.

Bizi yazıq eyləyən, bizi fəqir eyləyən,
Bizi məzlum eyləyən, bizi səqir eyləyən,
Bizi bədnam eyləyən, bizi təhqir eyləyən,[462]
İşgəncədi, zülümdü, zəlalətdi deyirlər.

Bizə fikir söyləyən, bizə yolu göstərən,[463]
Bizə bağı göstərən, bizə kolu göstərən,
Bizə sağı tanıdan, bizə solu göstərən,[464]
Doğruluqdu, düzlükdü, ədalətdi deyirlər.[465]

Bizi ipək eyləyən, bizi pilə eyləyən,
Bizi dayə eyləyən, bizi lələ eyləyən,[466]
Bizi ağa eyləyən, bizi kölə eyləyən,
Sədaqətdi deyirlər, səxavətdi deyirlər.

---

[459] Bizi yoldan azdıran, sağa-sola döndərən.
[460] Bizi acı eyləyən, bizi kala döndərən.
[461] Dağa-daşa salaraq, bizi çala döndərən.
[462] Bizi zalım eyləyən, bizi fəqir eyləyən.
[463] Bizə izi göstərən, bizə yolu göstərən.
[464] Bizə sağı göstərən, bizə solu göstərən.
[465] Ədalətdi deyirlər, həqiqətdi deyirlər.
[466] Bizi ata eyləyən, bizi lələ eyləyən.

Bizə qol-qanad verib, bizi dağa qaldıran,
Bizi bağban eyləyən, bizi bağa qaldıran,
Bizi bara çatdıran, bizi tağa qaldıran,
Cəsarətdi deyirlər, fərasətdi deyirlər.[467]

Bizi alim eyləyən, bizi çoban eyləyən,
Bizi insan eyləyən, bizi adam eyləyən,
Bizi qoğal eyləyən, bizi badam eyləyən,
Bacarıqdı deyirlər, ləyaqətdi deyirlər.[468]

Səni məndən ayıran, məni səndən ayıran,
Səni məndən doyuran, məni səndən doyuran,
Səni ora buyuran, məni bura buyuran,
O namusdu deyirlər, o qeyrətdi deyirlər.[469]

Deyirlərki əzəldən insanlığın mayası,
Abır-ismət nə varsa, üzündəki həyası, [470]
Ən mötəbər köməkçi, həm də sadiq dayəsi,[471]
Sənə öyüd, tərbiyə, nəsihətdi deyirlər.

Deyirlərki həm sənin, həm də mənim ustadım,
Ən mehriban, səmimi, həm qohumum, həm yadım,[472]
Hər kefimiz, nəşəmiz, gözəl arzu, muradım, [473]
Bu bəşərdi deyirlər, cəmiyyətdi deyirlər.

Səni məndən ayıran nə dağ oldu, nə dərə,
Nə keçidlər, nə qajlar, nə bərəlgə, nə bərə,
Nə enişlər, nə yoxuş, nə də gözəl mənzərə,
O namusdu, o ardı, o qeyrətdi deyirlər.

---

[467] Fərasətdi deyirlər, cəsarətdi deyirlər.

[468] *II variant* Bizi alim eyləyən, bizi loğman eyləyən,
Bizi adam eyləyən, bizi insan eyləyən,
Bizi püstə eyləyən, bizi badam eyləyən,
Bacarıqdı deyirlər, ləyaqətdi deyirlər.

[469] O hikmətdi deyirlər, bu hikmətdi deyirlər.

[470] Əqidəsi-məsləki, üzündəki həyası.

[471] Azdan, çoxdan nə varsa, eylədiyi sayəsi.

[472] Həm mehriban, həm uzaq, həm dost-doğma, həm yadım.

[473] Hər kefimiz, nəşəmiz, həm amanım, fəryadım.

Deyirlərki insanı bircə şeydi saxlayan,
Ən çətində, asanda bircə şeydi haxlayan,
Bircə şeydi axtaran, bircə şeydi yoxlayan,
O qüvvədi, qüdrətdi, o zəhmətdi deyirlər.

Bu dünyada insanı, tək bircə şey qocaldan,
Bircə şeydi inlədən, tək bircə şey sozaldan,
Bircə şeydi sarsıdan, tək bircə şey azaldan,
O qəm-qüssə, kədərdi, o möhnətdi deyirlər.

***Cəmil Əkbər*** 15.04- 1988 ; 10. 05 – 1988

## 47. DÜNYAMIZDA

Seyrə çıxaq bu dünyanı,
Baxaq-görək biz hərnəvar?
Görək nə var bu dağlarda?
Bu bostanda, bu tağlarda?
Bu kol-kosda, bu bağlarda?
Görək nə var, görək nə yox,
Nələr azdır, nələrdi çox,
Kimlər acdır, kimlər toxdur?
Kimdi bədbin, kimlər şuxdur?
Acı kimdir, şirin kimdir?
Dayaz kimdir, dərin kimdir?
Kimdi gözəl, kimdi çirkin?
Kimdi sadə, kimdi xudbin?
Kimdi bədbin, kimdi nikbin?
Kimdi nahaq, kimlərdi haqq?
Ağlayan kim, gülən kimdir?
Öldürən kim, ölən kimdir?
Gedən kimdir, gələn kimdir?
Bilməyən kim, bilən kimdir?
Boşalan kim, dolan kimdir?
Açılan kim, solan kimdir?
Xəyallara dalan kimdir?
Gözü yolda qalan kimdir?
Şərafətə, şöhrətə bax,
Ar-namusa, qeyrətə bax.
İnsaf da var, mürvət də var,
Giley-güzar, qeybət də var.

Müsibət də, dəhşət də var,
Hiddət də var, nifrət də var,
Nicat da var, nüsrət də var.
Dağı da var, daşı da var,
Yazı-yayı, qışı da var.
Nabələd də, naşı da var,
Zoru da var, xoşu da var.
Dünyamızın, dünyamızın.

Gülləri var, tikanı var,
Dağıdanı, sökəni var.
Zəhlələri tökəni var,
Ağır yükü çəkəni var.
Qəddimizi bükən də var,
Qayğımızı çəkən də var,
Yer şumlayıb, əkən də var.
Dərəyə bax, təpəyə bax,
Dalğaya bax, ləpəyə bax.
Ələyə bax, kəpəyə bax,
Tulaya bax, köpəyə bax,
Qədəyə bax, ipəyə bax.
Kirpi də var, dələ də var,
Ağa da var, kölə də var.
Zümzüməsi, naləsi var,
Ağır yükdən şələsi var.
Dağıdan var, talayan var,
Altdan-altdan qalayan var.
Onu-bunu dolayan var,
Quyruğunu bulayan var.
Otaran var, haylayan var,
Cıra peyvənd calayan var.
Dayə də var, lələ də var,
Elə də var, belə də var,
Dünyamızda, dünyamızda.

Ağ da vardır, qara da var,
Sağalmayan yara da var.
Yetişməyən qora da var,
Dərman da var, çara da var.
Əkiləsi yerlər çoxdur,

Açılası sirlər çoxdur.
Töküləsi tərlər çoxdur,
Gediləsi pirlər çoxdur.
Görmədiyin günlər çoxdur,
Üyünməyən dənlər çoxdur.
Duyulmamış ürək də var,
Arzu da var, dilək də var.
Dəriləsi bağlar da var,
Şamamalı tağlar da var.
Ucalası himimiz var,
Köklənəsi simimiz var.
Deyiləsi söz də çoxdur,
Doğru da çox, düz də çoxdur.
Oğul odur dözə bilsin,
Diyar-diyar gəzə bilsin.
Kef-damaqlar, məzə bilsin,
Gecikməsin, təzə bilsin.
Dərk eyləyib qana bilsin,
Anaları ana bilsin.
Ona-buna darılmasın,
İçin-için qırılmasın.
Hər yetənə vurulmasın,
Qara qanı durulmasın.
Çətinlikdə ağlamasın,
Başa qara bağlamasın.
İçin-için əriməsin,
Gündən-günə çürüməsin.
Cavabını ala bilsin,
Qılığına girə bilsin.
Bağlar salıb dərə bilsin,
Öz borcunu verə bilsin.
Mövqeində qoy ucalsın,
Zəfər çalıb, bacın alsın,
Təxtə çıxıb tacın alsın.
Şərafət ilə qocalsın.
Özü getsə, sözü qalsın,
Könüllərdə izi qalsın.
Başı uca dağ görünsün,
Əməlləri ağ görünsün.

Ömürboyu sağ görünsün,
Kef-damağı çağ görünsün.
Yorulmasın, ərinməsin,
Əl-ayaqda sürünməsin,
Qaralara bürünməsin.
Şərafətli ad qazansın,
Neçə-neçə yad qazansın.
Dövlət, sərvət, var qazansın,
Namus, qeyrət, ar qazansın.
Seyrə çıxıb sezməliyik,
Hər çətinə dözməliyik.
Qəvvas kimi üzməliyik,
Kim deyir ki, bezməliyik?
Yaratmalı, qurmalıyıq,
Səhər tezdən durmalıyıq.
Nadanlığı vurmalıyıq,
Cəhaləti qırmalıyıq,
Haldan salıb yormalıyıq.
Səadətə çatmalıyıq,
Pozğunluğu atmalıyıq.
Fikirlərdə, xülyamızda.
Dünyamızda, dünyamızda,

***Cəmil Əkbər*** 16. 01 - 1996

## 48. LAZIMDÖY

Haqdan, həqiqətdən uzaq düşənin, [474]
Ayağı lazımdöy, başı lazımdöy.
Sağlam söz-söhbətdən uzaq düşənin,[475]
Gövhəri lazımdöy, daşı lazımdöy.

Xətiri-hörməti qanmayanların,
Yad edib haqq-say anmayanların,[476]
Böyüyü, kiçiyi sanmayanların,
Nə gözü, baxışı, qaşı lazımdöy.

---

[474] Haqdan, həqiqətdən gen düşənlərin.
[475] Sağlam bir niyyətdən gen düşənlərin.
[476] Axtarıb, arayıb anmayanların.

Lovğa, yekəxana, ədəbazların,
Hiyləgər, dələduz, kələkbazların,
Dondan-dona düşən modabazların,[477]
Nə yazı, nə yayı, qışı lazımdöy.

Çörəyi dizində olan kəslərin,
Saxta təbiətli yalan kəslərin,
Zəhmətsiz, xidmətsiz kalan kəslərin,
Bozbaşı, dolması, aşı lazımdöy.[478]

Vicdanı, məsləki daş olanların,
Fikiri, xəyalı çaş olanların,
Ayaqkən hamıya baş olanların,[479]
Xəyalı gərəkdöy, huşu lazımdöy.

Söyüd ağacıtək barsız olanın,
Tutarsız, yararsız, karsız olanın,[480]
Abırsız, ismətsiz, arsız olanın,[481]
Ölüsü, dirisi, leşi lazımdöy.

Üzündə həyası olmayanların,
Əqidə, qayəsi olmayanların,
Ustadı, dayəsi olmayanların,
Nə ömrü, nə günü, yaşı lazımdöy.[482]

Vətən qeyrətini çəkməyənlərin,
Ona təzim edib, çökməyənlərin,
Tərini torpağa tökməyənlərin,
Torpağı gərəkdöy, daşı lazımdöy.

---

[477] Dondan- dona düşən hoqqabazların.

[478]*II variant* Qərq olub qəflətdə yatan kəslərin,
Mərdləri namərdə satan kəslərin,
Dünyanı dörd əlli tutan kəslərin,
Bozbaşı, kiftəsi, aşı lazımdöy.

[479] Özü cahil ikən baş olanların.

[480] Gərəksiz olanın, karsız olanın.

[481] Etibarsız, düz ilqarsız olanın.

[482] *II variant* Kiminki üzündə həyası yoxdur,
Əqidə, məsləki, qayəsi yoxdur,
Təlimi düz verən dayəsi yoxdur,
Nə ömrü, nə günü, yaşı lazımdöy.

Eşidə-eşidə kar olanların,
Düşüb el gözündən xar olanların,
Adı lənət ilə car olanların,
Nə yalı-yamacı, döşü lazımdöy.

Əhd-peymanına dönük çıxanın,
Eşqi, məhəbbəti sönük çıxanın,
Xalqın nemətinə ənik çıxanın,
Nə sözü, söhbəti, işi lazımdöy. [483]

Toxunub qəlbimə dəyən namərdin,
Haqqımı, sayımı yeyən namərdin,
Vurub qamətimi əyən namərdin,
Kotanı gərək döy, xışı lazımdöy.

Zəhmətsiz, xidmətsiz müftəxorların,
Həqiqətsayağı haramxorların,
Haqq-say itirən nanıkorların,
Gülüşü, qımışı, xoşu lazımdöy.

***Cəmil Əkbər*** 7. 10 – 1991

## 49. DÖY

Qanmazları qandırmağın əbəsdir,
Qanmayıb, qanmayır, qanası da döy.
Odu qoyub yandırmağın əbəsdir,
Yanmayıb, yanmayır, yanası da döy.

Hər yetənə zəhmət çəkib qan demə!
Hayıf edib bircə kəlmə can demə!
Haqq-sayı xatırlayıb an demə![484]
Anmayıb, anmayır, anası da döy.

Hər damardan axanlara qan demə!
Hər gədaya sultan demə, xan demə!
Bir pəsinib böyük-kiçik san demə![485]
Sanmayıb, sanmayır, sanası da döy.

---

[483] *II variant* Əhdinə, ilqara dönük olanın,
Hər yana üz tutan yönük olanın,
Xalqın sərvətinə ənik olanın,
Nə sözü, söhbəti, işi lazımdöy.

[484] Yaxşı-pisi xatırlayıb an demə!

[485] Böyük-kiçik yada salıb can demə!

Hər yetənin qanadından qaldırma,[486]
Fikirlərə, xəyallara daldırma,
Çox dən töküb, dənciyini doldurma, [487]
Dolmayıb, dolmayır, dolası da döy. [488]

Hər yetəni danışdırma, dindirmə!
Mövqeindən çox aşağı endirmə!
Qəsd eyləyib çırağını söndürmə!
Sönməyib, sönməyir, sönəsi də döy.

Hər yetənə, seyrə çıxıb bax demə![489]
Belə sellən, elə çağla, ax demə!
Belə gurla, elə gurla, çax demə!
Baxmayıb, baxmayır, baxası da döy.

Hər yetənə könüllərdə gəz, demə!
Məhəbbətin güllərini üz, demə!
Səbr eyləyib, sinə gərib döz, demə!
Dözməyib, dözməyir, dözəsi də döy.

Hər pətəkdə olanlara şan demə!
Qohumlara, qardaşlara yan demə!
Vicdanını, məsləkini dan demə!
Danmayıb, danmayır, danası da döy.

Hər yetənə inci demə, dür demə!
Yaşa demə, yarat demə, qur demə!
Oyan demə, ayıl demə, dur demə!
Durmayıb, durmayır, durası da döy.

Hər yetənə öz fikrini bildirmə!
Zəhmət çəkib gözyaşını sildirmə!
Vaxt-vədəsiz qəsd eyləyib öldürmə!
Ölməyib, ölməyir, öləsi də döy.

---

[486] Hər yetənin gəl kefini qaldırma.
[487] Əbəs yerdən dənliyini doldurma.
[488] *II variant* Hər yetənin qollarından qaldırma,
Qüvvət verib zəfərini çaldırma,
Dəni töküb, dənliyini doldurma,
Dolmayıb, dolmayır, dolan da deyil.
[489] Hər yetənə ayıq gözlə bax demə.

Hər yetənə gəl könlümü al demə!
Tirmə, atlas, qumaş demə, şal demə!
Bu dünyada yaxşı adla qal demə!
Qalmayıb, qalmayır, qalası da döy.

Hər yetənə şirin-şəkər bal demə!
Danışmaynan, dillənməynən, lal demə!
Təzənə al, sazı köklə çal demə!
Çalmayıb, çalmayır, çalası da döy.

Hər yetənə danış demə, sus demə!
İnci demə, incit demə, küs demə!
Bədxah bilib, höcət bilib nəs demə!
Susmayıb, susmayır, susası da döy.

Hər yetəndən gəl sirrini gizlətmə,
Nə xeyrini, nə şərini gizlətmə,
İnci-sədəf, nə zərini gizlətmə,
Açmayb, açmayır, açası da döy.

Hər yetənə öyrən demə, bil demə!
Yada salıb bir yanıma gəl demə!
Utan demə, qızar demə, öl demə!
Ölməyib, ölməyir, ölməsi də döy.

Hər yetəndən sədaqəti gözləmə!
Ədaləti, həqiqəti gözləmə!
Kəraməti, səxavəti gözləmə!
Olmayıb, olmayır, olası da döy.[490]

---

[490] *II variant* Ar-namuslu, gəl qeyrətli ol demə!
Nə şərəfli, nə şöhrətli ol demə!
Nə abırlı, nə ismətli ol demə!
Olmayıb, olmayır, olası da döy.

*III variant* Bacarıqlı, məharətli ol demə!
Nə hünərli, fərasətli ol demə!
Qorxmaz, ülkməz, cəsarətli ol demə!
Olmayıb, olmayır, olası da döy.

*IV variant* Hər yetəndən mərhəməti gözləmə!
Hökmranlıq, sədarəti gözləmə!
İnsaf-mürvət, kəraməti gözləmə!
Olmayıb, olmayır, olası da döy.

Hər yetənə igid demə, zor demə!
Atəş demə, alov demə, qor demə!
Bəşər üçün gəl özünü yor demə!
Yormayıb, yormayır, yorası da döy.

Hər yetənə gəl dərdimi bil demə!
Gözlərimin gəl yaşını sil demə!
Söhbət açıb, bircə kəlmə dil demə!
Silməyib, silməyir, siləsi də döy.

Cəmil Əkbər, hər yetənə söz demə!
Dərin demə, dayaz demə, üz demə!
Xətir görüb, möhübləri düz demə![491]
Düzməyib, düzməyir, düzəsi də döy.

***Cəmil Əkbər*** 7. 04 -1991

## 50. YERİNDƏDÖY

*I variant*

Nə günə qalmışıq Allah amandır?
Əyri yerindədöy, düz yerindədöy.
Bəşər övladının halı yamandır,
Dərin yerindədöy, üz yerindədöy.

Hər yetən dırmaşıb tez başa çıxır,
Ayaq nə, orta nə, düz başa çıxır,
Payız başa çıxır, yaz başa çıxır,
Oğul yerindədöy, qız yerindədöy.[492]

Eləbilki hər şey daddan çıxıbdır,
Löyündən düşübdür, moddan çıxıbdır,
Xəyaldan silinib yaddan çıxıbdır,
Torbayerindədöy, duz yerindədöy.

Zimistan insanın ürəyindədir,
Arzu-istəyində, diləyindədir,
Qonub ciyərinə, kürəyindədir,
Şaxta yerindədöy, buz yerindədöy.

[491] Zəhmət çəkib möhübləri düz demə!

[492] *II variant* Hər yetən yol tapıb başa da çıxır,
Gəlib bərəlgəyə, qaşa da çıxır,
Yaz nədir, yay nədir, qışa da çıxır,
Dərin yerində döy, üz yerində döy.

Hərənin öz gücü iqtidarı var,
Hüquq vəzifəsi, ixtiyarı var,
İlqarı, imanı, etibarı var,
Noxta yerindədöy, biz yerindədöy.

Dəyişib bazarkom, dəyişib bazar,
Çoxalıb xəstəlik, qövr edir azar,[493]
Dəyişib sarvanlar, dəyişib güzar,
Cığırlar, yolaqlar, iz yerindədöy.

Biri əyri gedir, biri düz gedir,
Birisi gecikir, biri tez gedir,
Biri əlli gedir, biri yüz gedir,
Əlli yerindədöy, yüz yerindədöy.

Sənət meydanıma yad səslər gəlir,
Kobud səslər gəlir, cod səslər gəlir,[494]
Düşüb təzə dəbə, mod səslər gəlir,
Aşıq yerindədöy, saz yerindədöy.

Ənlikli, kirşanlı mələklər artıb,
Hiylə, dələduzlar, kələklər artıb,
Həryana yön alan küləklər artıb,
İşvə yerindədöy, naz yerindədöy.

Hamı lovğalanıb ədalanırlar,
Yalandan, yanlıcdan sədalanırlar,
Çıxıb əndazədən gədalanırlar,
Ördək yerindədöy, qaz yerindədöy.

Nadanı alimdən başa çəkirlər,
Buğdanın yerində darı səpirlər,
Alma əvəzinə söyüd əkirlər,
Heyhat yaxşı-yaman öz yerindədöy.[495]

Ay Cəmil, insanlar həyasızlaşıb,
Məsləkdən uzaşıb, qayəsizləşib,
Tanımır heçkəsi, sayəsizləşib,
Toxmaq yerindədöy, paz yerindədöy.[496]

***Cəmil Əkbər*** 12. 07 -1988 // 30. 01 – 1990

---

[493] Dəyişib loğmanlar, dəyişib azar.
[494] Xaric səslər gəlir, cod səslər gəlir.
[495] Nə yaxşı, nəyaman öz yerində döy.
[496] Dayaz yerində döy, düz yerində döy.

## 51. YERİNDƏDÖY

*II variant*

Ünsiyyət-ülətlər alabəzəkdir,
Nədənsə heçkimsə öz yerindədöy.
Üzü bəzəkdirsə, içi təzəkdir,
Baxış yerindədöy, göz yerindədöy.

Çoxları xeyrini, şərini qanmır,
İncisini qanmır, zərini qanmır,
Həyat yoldaşını, ərini qanmır,
Züryət, övlad, oğul, qız yerindədöy.[497]

Nədənsə yaxşıya pisdi deyirlər?
Bədxahdı, cılızdı, nəsdi deyirlər,
Höcətdi, inaddı, tərsdi deyirlər,
Söhbət yerindədöy, söz yerindədöy.[498]

Alimə nadanlar lağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər,
Çəkib sinəsinə dağ eyləyirlər,
Dərin yerindədöy, üz yerindədöy.

Yaşamaq deyəsən tamsızlaşıbdır,
Gözlər nurdan düşüb şamsızlaşıbdır,
Bu çərxi-dövran da kamsızlaşıbdır,
Torba yerindədöy, duz yerindədöy.

Dəyişib satıcı, dəyişib bazar,
Dəyişib xəstəlik, dəyişib azar,
Deyəsən səmtini dəyişib güzar,
Cığır yerindədöy, iz yerindədöy.

---

[497] *II variant* Xeyrini düşünmür, şərini qanmır,
İrəlini görmür, gerini qanmır,
Həyat yoldaşını, ərini qanmır,
Oğul yerində döy, qız yerində döy.

[498] *II variant* Yaxşıya nə üçün pisdi deyirlər?
Bədxahdı, zalımdı, nəsdi deyirlər,
Höcətdi, inaddı, tərsdi deyirlər,
Söhbət yerində döy, söz yerində döy.

Tutulub səma da, açılmır fəza,[499]
Fikirdən, xəyaldan inləyir əza,[500]
Doğrudöy mükafat, düz deyil cəza,
Noxta yerindədöy, biz yerindədöy.

Bədöy meydan açıb, yorğalıq edir,
Kişnəyib ilxıda darğalıq edir,
Bülbüllər ay aman "qarğalıq" edir?[501]
Ördək yerindədöy, qaz yerindədöy.

Hayanda qalıbdır namus, arımız?
Səslənmir nə üçün ulu tarımız?
Deyirlər turş dadır sənət barımız,
Aşıq yerindədöy, saz yerindədöy.

***Cəmil Əkbər***21. 05.1990

## 52. YERİNDƏDÖY

*III variant*

Ünsiyyət-ülətlər pozulub yaman,
Nə xətir, nə hörmət öz yerindədöy.
Doğrular tərsinə yozulub yaman,
Nə insaf, nə mürvət düz yerindədöy.

O səbəbdən qəlizləşib işimiz,
Sərt gəlibdir payızımız, qışımız,
Çatılıbdır qabağımız, qaşımız,
Nəzər, diqqət, baxış, göz yerindədöy.

Fikirlər, xəyallar dolaşıq düşüb,
İpi ilməsinə culaşıq düşüb,
Yaxşısı pisinə qarışıq düşüb,
Söhbət yerindədöy, söz yerindədöy.[502]

---

[499] Tutulub, qaralıb nəyaman fəza.
[500] Fikirdən, xəyaldan sağ deyil əza.
[501] Biçarə bülbüllər ay aman "qarğalıq" edir.
[502]*II variant* Fikirlər, xəyallar çaşıbdır yaman,
Həddi-hüdudunu aşıbdır yaman,
Səbr kasaları daşıbdır yaman,
Baxış yerində döy, göz yerində döy.

Deyəsən haqq-say yaddan çıxıbdır,
Əndazədən düşüb, moddan çıxıbdır,
Dəhandan, damaqdan, daddan çıxıbdır,
Torba yerindədöy, duz yerindədöy.[503]

Nadanlar alimi lağa qoyurlar,
Çəkib cızdağını dağa qoyurlar,
Kəfənə bükürlər, ağa qoyurlar,
Nə dərin, nə dayaz, üz yerindədöy.

Yaxşını, pisləri tanıyan hanı?
Çəkib imtahana sınayan hanı?
Məzəmmət eyləyən, qınayan hanı?
Astar yerindədöy, üz yerindədöy.

Ədəbdən, ərkandan əsər görünmür,
Qanundan, qaydadan kəsər görünmür,
Ha deyib, danışsan səmər görünmür,
Cığır yerindədöy, iz yerindədöy.

Eşşək arpa yeyir, at saman yeyir,
Xilqət dərd əlindən ah-aman yeyir,
Səbr edir, tablaşır, nə zaman yeyir?
Kabab yerindədöy, köz yerindədöy.

"Qaragül" geyinir oğru-əyrilər,
Ona da, buna da lağ eyləyirlər,
Əyrini düzəldib, düzü əyirlər,
Noxta yerindədöy, biz yerindədöy.

Dağarcıq çuvaldan yekə görünür,
Oğlaqlar, çəpişlər təkə görünür,[504]
Gözlərə tor gəlib, ləkə görünür,
Badam yerindədöy, qoz yerindədöy.

---

[503]*II variant* Həyatın mənası tamsızlaşıbdır,
Dövran bəd gətirib, kamsızlaşıbdır,
Gözlər nurdan düşüb şamsızlaşıbdır,
Torba yerində döy, duz yerində döy.

[504] Oğlaqlar böyüyüb təkə görünür.

Kimə nə deyirsən hirsinə dəyir,
Yağrına toxunub, kirsinə dəyir,
Əslinə, nəslinə, cinsinə dəyir,
İşvə yerindədöy, naz yerindədöy.

Dəyişib fəsillər, dəyişib illər,
Senibdir daşqınlar, qabarmır sellər,
Görünmür gözümə sonalı göllər,
Ördək yerindədöy, qaz yerindədöy.

Ədalət də, həqiqət də mat qalıb,
Bacarıq da, məharət də pat qalıb,
İnsanlıq da, ləyaqə də çat qalıb,
Mismar yerindədöy, paz yerindədöy.

Niyə tapdalanır namus, arımız?
Toylarda çalınmır ulu tarımız?
Deyirlər kal dadır sənət barımız,
Aşıq yerindədöy, saz yerindədöy.

Ay Cəmil qəlbdəki dayazlığa bax,
Ləkəyə, qaraya, bəyazlığa bax,
Soyuğa, şaxtaya, ayazlığa bax,
Qırov yerindədöy, buz yerindədöy.

***Cəmil Əkbər*** 21. 05.1990

## 53. YERİNDƏDÖY

*IV variant*

Nə deyim zamanın kəc gərdişinə?[505]
Əyri yerindədöy, düz yerindədöy.
Hiyləgər, dələduz, bic vərdişinə?[506]
Fikir yerindədöy, söz yerindədöy.

Ünsiyyət-ülfətlər bərbaddır, bərbad,
Sanmayın yaxşıdır, abaddır, abad.
Kişilər deyəsən arvaddır, arvad,
Oğul yerindədöy, qız yerindədöy.[507]

---

[505] Nə deyəsən zəmanənin işinə.
[506] Adət vərdişinə, kəc gərdişinə.

Hörmət yoxdur dərakəyə, kamala,
Vicdan, məslək, əqidəyə, amala,
İnsandakı bu mənəvi camala,
Dərin yerindədöy, üz yerindədöy.

Çox danışsan toxunarlar hirsinə,
Soykökünə, əcdadına, irsinə,
Doğru desən, sanacaqlar tərsinə,
Astar yerindədöy, üz yerindədöy.

Qazanan-qazanır, yeyənlər-yeyir,
Düzələn düzəlir, əyənlər-əyir,
Tikənlər tikirlər, geyənlər geyir,
Kabab yerindədöy, köz yerindədöy.

Bir çoxları tərk ediblər peşəni,
Sındırıblar qəlb evində şüşəni,
Özü üçün seçə bilib guşəni,
Hərkəs öz işində, öz yerindədöy.[508]

Daş-qaş nadanların əlində gəzir,
Şanələr gör kimin telində gəzir?
Yəhərlər eşşəyin belində gəzir,
Noxta yerindədöy, biz yerindədöy.

Dəyişib fəsillər, bəd gəlib illər,
Nəsillər dalınca gəlib nəsillər,
Mat qalıb bu işə sonalı göllər?
Ördək yerindədöy, qaz yerindədöy.

---

[507] *II variant*
Ünsiyyət-ülfətlər bərbad olubdur,
Sanmayın yaxşıdır, abad olubdur,
Kişilər çevrilib arvad olubdur,
Oğul yerində döy, qız yerində döy.

*III variant*
Ünsiyyət-ülfətlər bərbadlaşıbdır,
Kim deyər azacıq abadlaşıbdır?
Kişilər deyəsən arvadlaşıbdır,
Oğul yerində döy, qız yerində döy.

[508] *II variant*
Vəzifə verilib qəlbidaşlara,
Vicdanı kəmlərə, yekəbaşlara,
Fillərə hürüşən alabaşlara,
Hərkəs öz işində, öz yerində döy.

Sovqat da dəyişib, pay da dəyişib,
Çörək də dəyişib, çay da dəyişib,
Xeyir-şər dəyişib, toy da dəyişib,
Aşıq yerindədöy, saz yerindədöy.

Heçkəsə küsənib darılma Cəmil!
Qoluna-qılçına sarılma Cəml!
Çatdayıb, kövrəlib, qırılma Çəmil!
Səbr edib, tablaşıb, döz yerindədöy.

***Cəmil Əkbər*** 21. 05.1990

## 54. BU QOZBELLƏRİ (1)

Düzəltmək istədi Sabir babamız,
Seyid Əzim Şirvani, Hadi babamız,
Vidadi, Vaqif də, Vurğun babamız,
Düzəldə bilmədi bu qozbelləri.

Nəqədər dahilər söz söylədilər?
Nədən danışdılar, düz söylədilər,
Məqamı gələndə tez söylədilər,
Düzəldə bilmədi bu qozbelləri.

Düzəltmək istədi Nizami babam,
Nəsimi, Füzuli, Xaqani babam,
Nəsrəddin, Fərabi, Nəvai babam,
Düzəldə bilmədi bu qozbelləri.

Bu yolda nəqədər loğmanlar getdi?
Düşünən, dərk edən insanlar getdi?
Anlayanlar getdi, qananlar getdi?
Düzəldə bilmədi bu qozbelləri.

Nəqədər qəm çəkdi, dərdlədi getdi?
İnlədi, sızladı, çərlədi getdi,
Çalışdı, vuruşdu tərlədi getdi,
Düzəldə bilmədi bu qozbelləri.

***Cəmil Əkbər*** 26. 09 - 1999

## 55. BU QOZBELLƏRİ (2)

Dövrü-zəmanədə gör nələr keçir?
Düzəldə bilmədik bu qozbelləri.
Nəsillər dalınca nəsillər keçir,
Düzəldə bilmədik bu qozbelləri.

Haçandan bəridir özünə gəlmir,
Qayıdıb yoluna, izinə gəlmir,
Dolanır tərsinə, düzünə gəlmir,
Düzəldə bilmədik bu qozbelləri.

Nanəcib, bədəsil naqis naqisdir,
Paxıllar, xainlər, xəbis xəbisdir,
Acgöz, tamahkarlar həris hərisdir,
Düzəldə bilmədik bu qozbelləri.

Cahillər, avamlar, nadan nadandır,
Təlimdən yarımçıq dadan dadandır,
Görükür gözlərə sanki adamdır,
Düzəldə bilmədik bu qozbelləri.

Onun öhdəsindən gələ bilmədik,
Fitnə-fəsadını bilə-bilmədik,
Qərq olduq qüssəyə, gülə bilmədik,
Düzəldə bilmədik bu qozbelləri.

Əlindən inciyib bezənlər-bezir,
Tablaşıb birtəhər dözənlər-dözür,
Anlayan-anlayır, sezənlər-sezir,
Düzəldə bilmədik bu qozbelləri.

Hərə bir diyarda öz işindədir,
Dərinmi, dayazmı, üz işindədir?!
Axtarsan taparsan, gəz işindədir,
Düzəldə bilmədik bu qozbelləri.

Şeirlər də yazdıq, söz də söylədik,
Dərin də, dayaz da, üz də söylədik,
Səksən də, doxsan da, yüz də söylədik,
Düzəldə bilmədik bu qozbelləri.

Əsəbi korlayır, qanı qaraldır,
Gen dünyanı başımıza daraldır,
Xəzan olub bağımızı saraldır,
Düzəldə bilmədik bu qozbelləri.

Ağardı saqqal da, ağardı baş da,
Pozuldu qabaq da, çatıldı qaş da,
Qısaldı ömür də, kəsildi yaş da,
Düzəldə bilmədik bu qozbelləri.

Söz dedim, danışdım dəydi hirsinə,
Toxundu yağrına, dəydi kirsinə,
Boylandı əcdada, baxdı irsinə,
Düzəldə bilmədik bu qozbelləri.

Nəqədər söz deyib danışdıqsada?
Xeyrinə, şərinə qarışdıqsada?
Umduq da, küsdük də, barışdıqsada?
Düzəldə bilmədik bu qozbelləri.

Çəkib cəfasını, nazına dözdük,
Çoxunu görmədik, azına dözdük,
Oğlunu eşitdik, qızına dözdük,
Düzəldə bilmədik bu qozbelləri.

İnsana nəqədər söz demək olar?
Həqiqət söyləyib düz demək olar?
Yolunu göstərib iz demək olar?
Düzəldə bilmədik bu qozbelləri.

Onların əlindən nələri gördük?
Biz nələr becərdik, nələri dərdik?
Nələri qazandıq, nələri verdik?
Düzəldə bilmədik bu qozbelləri.

Düzələn qaməti, beli əydilər,
Muğanı, Şirvanı, Mili əydilər,
Obanı, oymağı, eli əydilər,
Düzəldə bilmədik bu qozbelləri.

Hayanda qalıbdır dəmirçi gəlmir?
Körüyü basanlar kömürçü gəlmir?
Kəsilib sorağı, xəbəri gəlmir,
Düzəldə bilmədik bu qozbelləri.

Əyrilər düzlərin bədinə gedib,
Qarnını otarıb, cibini güdüb,
Gör nələr törədib, gör nələr edib?
Düzəldə bilmədik bu qozbelləri.

Dinib-danışdıqca qəlbimə dəydi,
Anlamaq bilməyir, key oğlu-keydi,
Dəngəsər, gicbəsər, səy oğlu-səydi,
Düzəldə bilmədik bu qozbelləri.

Övladı-bəşəri pis günə qoyur,
Salıb zülmətlərə nəs günə qoyur,
Azdırıb yolundan tərs günə qoyur,
Düzəldə bilmədik bu qozbelləri.

Dövrü-zəmanədə kefini çəkir,
Zurnasını çalır, dəfini çəkir,
Götürüb qazancı, nəfini çəkir,
Düzəldə bilmədik bu qozbelləri.

Ana-bacıları ağlar qoyubdur,
Çəkib sinələrə dağlar qoyubdur,
Qapı-bacaları bağlar qoyubdur,
Düzəldə bilmədik bu qozbelləri.

Nəqədər danışıb sözlər söylədik?
Haqqı-ədaləti bəyan eylədik?
İnsanlığı ha çağırıb küylədik?
Düzəldə bilmədik bu qozbelləri.

Çəkilən zəhmətlər hədərə getdi,
Qərq oldu qüssəyə kədərə getdi,
Düşdü müsibətə məhşərə getdi,
Düzəldə bilmədik bu qozbelləri.

Nifrət olsun qozbellərin belinə,
Fitnəsinə, fəsadına felinə,
Obasına, oymağına, elinə,
Düzəldə bilmədik bu qozbelləri.

Dağıdan-dağıdır, sökənlər-sökür,
Əzab-əziyyətdən çökənlər-çökür,
Axıdıb gözyaşı tökənlər-tökür,[509]
Düzəldə bilmədik bu qozbelləri.

Fikirə, xəyala dalıb gedirəm,
Xəzana qərq olub solub gedirəm,
Dünyadan nigaran qalıb gedirəm,
Düzəldə bilmədik bu qozbelləri.

Ay Cəmil, onların dərdini çəkmə,
Əyib qamətini, qəddini bükmə,
Heyifdi, qəlbinin bəndini sökmə,
Düzəldə bilmədik bu qozbelləri.
Qəbir düzəldəcək bu qozbelləri!

***Cəmil Əkbər*** 26. 09 - 1999

## 56. SƏNİNDİR

*I variant*

Çoxalıbdır məkrlər, əyyam bic əyyamıdır,
İlqarına-imana indi kəc əyyamıdır.
Alim gözdən düşübdür, loğman gözdən düşübdür,
Düşünüb dərk edənlər, qanan gözdən düşübdür.
İndi cahil dünyası, indi gic əyyamıdır,
Qanunlara, qaydaya indi öc əyyamıdır.
Hamı çaşıb yolunu, yön alıbdır tərsinə,
Düz danışsan sözünü, tezcə dəyər hirsinə.
Alan indi çoxalıb, satan indi çoxalıb,
Qərq olaraq qəflətdə, batan indi çoxalıb.
İndi meydan mənimdöy, dövrü-zaman mənimdöy,
Nə din-məzhəb mənimdöy, inam, iman mənimdöy.
İndi bazar mənimdöy, indi dükan mənimdöy,

[509] Bezdirib zəhlələr tökənlər-tökür.

İndi lövbər mənimdöy, indi sükan mənimdöy.
Hörmət-izzət nə varsa dələduzun, bicindir,
İlqarına-imana xainindir, kəcindir.
İndi namus mənimdöy, indi qeyrət mənimdöy,
İndi şərəf mənimdöy, indi şöhrət mənimdöy.
Çığır-bağır salsam da, səsim çatmır heçkəsə,
Ha əsirəm, coşuram gücüm  çatmır birkəsə.
Ha yazıram, pozuram  oxuyanım tapılmır,
Ətirimi duyanım, qoxuyanım tapılmır.
Düşünənlər, anlayan, dərk edənlər yox olub,
Çəkib haqqı-hesabı görk edənlər yox olub.
İndi qələm mənimdöy, indi kitab mənimdöy,
Nə qətnamə, nə qərar, nə də xitab mənimdöy.
Axtarıb görərsiniz gözü yolda qalanam,
Fikirləri, xəyalı sözü yolda qalanam.
Dərya kimi çalxanıb, ümman kimi dolanam,
Qasırğadan, tufandan, xəzan olub solanam.
İndi məslək mənimdöy, indi amal mənimdöy,
Nə düşüncə, dərrakə, nə də kamal mənimdöy.
Nə həmyaşıd, nə tay-tuş, nə də çağdaş mənimdöy,
Nə həmkarlar, nə həmdəm, nə də sirdaş mənimdöy.
Mənimkidöy bu dövran, mənimkidöy bu bazar,
Mənimkidöy bu səfər, mənimkidöy bu güzar.
Sanki ayrı düşmüşəm bu obadan, bu eldən,
Cüda düşüdüm çəməndən, ayrı düşdüm bu güldən.
İndi sanki dəryada, yalqız bir adadayam,
Sussuz qalan cəzirə, yanan bir səhradayam.
İndi meydan mənimdöy, indi zəfər mənimdöy,
İndi təpər mənimdöy, indi hünər mənimdöy.
Dəyişibdir zəmanə, indi dövran mənimdöy,
Nə bu dağlar, dərələr, nə də aran mənimdöy.
İndi dövran sənindir, indi zaman sənindir,
Vəl, dəyirman sənindir, indi xırman sənindir.
Bağça nədir, bağat nə, indi orman sənindir,
Bu fırıldaq qurğular, bu planlar sənindir.
Bu fitnələr, fəsadlar, bu yalanlar sənindir,
Bu əqrəblər, iblislər, bu ilanlar sənindir.
Ona-buna qəsd edən, bu çalanlar sənindir,
Bu səksəkə vuruşlar, bu talanlar sənindir,

Çuval kimi gözənən, bu dolanlar sənindir.
İndi nə var həyatda köhnə-təzə sənindir?!
Bu kef-damaq nə varsa, bu mey-məzə sənindir,
Bu vurhavur, qırhaqır, dava-dalaş sənindir,
Bu səksəkə, vahimə, qorxu-təlaş sənindir.
Bildirçinin bəyliyi darı soğuluncadır,
İxtiyarı, hüququ yarı soğuluncadır.
Zaman gəlib yetişər, sən də gözdən düşərsən,
Günəş çeştə qalxmamış, yoldan-izdən düşərsən.
İndi sual mənimdir, indi cavab sənindir,
Döşür dolma bozbaşdan, indi kabab sənindir.
Törədilən xətalar, qəzalar da sənindir,
Matəmində yığılan azalar da sənindir.
Elə sandım, anladım fəzalar da sənindir,
Bilmədinki alarsan, cəzalar da sənindir!

***Cəmil Əkbər*** 5. 01 - 1993

## 57. SƏNİNDİR

*II variant*

Zaman yaman dəyişib, indi bic əyyamıdır,[510]
İlqarına, imana, indi kəc əyyamıdır.
Alim gözdən salınıb, loğman gözdən düşübdür,
Düşünüb anlayanlar, qanan gözdən düşübdür.
İndi cahil dünyası, indi gic əyyamıdır.
Haqq-nahaqqa qarışıb, indi öc əyyamıdır.[511]
Hamı çaşıb yolunu, yön alıbdır tərsinə,
Düz danışsan sözünü, tezcə dəyər hirsinə.
Çalıb-çapan çoxalıb, alıb-satan çoxalıb,
Qəflətlərdə qərq olub, batan indi çoxalıb.
Dəllal yaman çoxalıb, baqqal yaman çoxalıb,
Tülkü yaman çoxalıb, çaqqal yaman çoxalıb.
Dəyişib dövrü-zaman, indi meydan mənimdöy,
Nə bu dağlar, dərələr, nə də aran mənimdöy.
Daha məslək mənimdöy, daha amal mənimdöy,
Nə düşüncə, dərrakə, nə də kamal mənimdöy.
Nə kiçiklər, nə böyük, nə də cahal mənimdöy,

---

[510] Çoxalıbdı məkrlər indi bic əyyamıdır.
[511] Haqq-nahaqqa baxan yox, indi öc əyyamıdır.

Bu məmləkət, bu oba, nə də mahal mənimdöy.
Nə tay-tuşlar, nə çağdaş, nə də yoldaş mənimdöy,
Nə həmkarlar, nə həmdəm, nə də sirdaş mənimdöy.
Mənimkidöy bu meydan,  mənimkidöy bu bazar,
Mənimkidöy bu səfər, mənimkidöy bu güzar.
Ayrı düşdüm elimdən, sanki bir adadayam,
Sussuz qalan səhrada, yanan cəzirədəyəm.
Daha meydan mənimdöy, daha hünər mənimdöy,
Nə qələbə, təntənə, nə də zəfər mənimdöy.
Alan indi özgədir, satan indi özgədir,
Qəflətlərdə qərq olub, yatan indi özgədir.
İndi dövran mənimdöy, daha zaman mənimdöy,
İndi məzhəb mənimdöy, inam, iman mənimdöy.
İndi bazar mənimdöy, indi dükan mənimdöy,
Nə tərsanə, nə gəmi, nə də sükan mənimdöy.
Hörmət-izzət nə varsa, indi hamsı bicindir,[512]
İlqarına-imana xainindir, kəcindir.
İndi namus mənimdöy, indi qeyrət mənimdöy,
Nə şərafət mənimdöy, nə də şöhrət mənimdöy.
Ha çağrıram, bağrıram, ünüm yetmir heçkəsə,
Ha əsirəm, coşuram, gücüm çatmır birkəsə.
Hey yazıram, pozuram, oxuyanım tapılmır,
Ətirini duyanım, qoxuyanım tapılmır.
Ha anladıb desəm də, dinləyənim tapılmır,
Bu dərdimə acıyıb, inləyənim tapılmır.
Düz düşünüb, dərk edən, anlayanlar yox olub,
Yeyib-içib məst olub, gözü-könlü tox olub.[513]
İndi qələm mənimdöy, indi kitab mənimdöy,
Nə qətnamə, nə qərar, nə də xitab mənimdöy.
Axtarsanız taparsız, gözü yolda qalanam,
Özüm üçün kökləyib qəm sazını çalanam.[514]
Dərya kimi çalxanıb, ümman kimi dolanam,
Qasırğadan, tufandan xəzan olub solanam.
Dəyişb dövrü-zaman, daha mənimdöy dövran,
Nə bu dağlar, dərələr, indi mənimdöy aran.

---

[512] Hörmət-izzət nə varsa, dələduzun bicindir.
[513] Sanki yeyib-içiblər, gözü-könlü tox olub.
[514] Fikirləri, xəyalı, özü yolda qalanam.

Məqam gəlib yetirib, indi dövran sənindir,
Təbib-loğman nə varsa, indi dərman sənindir.
İndi kainat sənin, indi zaman sənindir,
Həm gitara, saksafon, indi kaman sənindir.
Dəyirman da, zəmi də, indi xırman sənindir,
Bağça nədir, bağat nə, indi orman sənindir.
Bu hiylələr, məkrlər, bu plan da sənindir,
Bu fitnələr, fəsadlar, bu yalan da sənindir.
Əqrəb, iblis, cin-şeytan, ilanlar da sənindir,
Əl-ayaqda tapdanıb, qalanlar da sənindir.
Gül bənizi saralıb, solanlar da sənindir,
Fikirlərə, xəyala, dolanlar da sənindir,
Milyonerlər, mafyalar, kalanlar da sənindir.
İndi nə var həyatda, köhnə-təzə sənindir,
Yemək, içmək, kef-damaq, bu mey-məzə sənindir.
Bu vurhavur, çalhaçal, dava-dalaş sənindir,
Bu səksəkə, vahimə, qorxu, təlaş sənindir.
Bildirçinin bəyliyi darı soğuluncadır,
İxtiyarı, hüququ yarı soğuluncadır.
Zaman gəlib yetişər, sən də gözdən düşərsən,
Günəş çeşdə qalxmamış, yoldan-izdən düşərsən.
İndi sual mənimdir, indi cavab sənindir,
Elə sanma çığırtma, bozbaş, kabab sənindir?
Törədilən xətalar, qəzalar da sənindir.
Matəmində yığılan, azalar da sənindir,
Elə bilmə bu torpaq, fəzalar da sənindir,
Qurtaran döy yaxanız, cəzalar da sənindir!

***Cəmil Əkbər*** 5. 01- 1993

## 58. SƏNİ YOLA SALACAQLAR

İnsanoğlu zəhmət çəkib, bu dünyanın seyrinə çıx,
Qərq olmaynan çovğun qarda, istiyə bax, sərinə çıx.
Nəzər salıb bu həyata, diqqət yetir gör nələr var?
Ənliklilər, kirşanlılar, qaşı-gözü sürmələr var.
Haqq-nahaqdan zülm olana, ölənə bax, qalana bax,
Bu dünyanı ram eyləyən, zəfərləri çalana bax.
Əl-ayaqda tapdalanan, saralanı, solanı gör,
İçin-için qəhərlənib, dərd əlində dolanı gör.
Şeytanlara, ibslilərə, əqrəblərə, ilana bax,

Onu-bunu zəhərləyib, addımbaşı çalana bax.
Müsibətdə, zülm içində, ölənlərin halına bax.
Törədilən qal-qovğanın əvvəlinə, dalına bax.
İnsaf eylə, mürvət eylə, ah-naləyə, amana bax,
Könülləri bürələyən çisginə bax, dumana bax.
Şər danışıb, ara qatan, şarlatanı görün barı,
Yalanları, saxtaları, böhtanları görün barı.
Nanəcibi, naxələfi, naqisləri görün barı,
Paxılları, xainləri, xəbisləri görün barı,
El varına sahib olan, varisləri görün barı.
Bu bəşəri çaşbaş salıb, yollarından əyən kimdir?
Çalasılıq edəni kim, könüllərə dəyən kimdir?
Yolu verib tamahına, yazıq xalqı soyan kimdir?
Çalıb-çapıb altun yığıb, son günlərə qoyan kimdir?
Ünsiyyəti, ülfətləri addımbaşı pozan kimdir?
Doğru-düzlük, həqiqəti tərsəməssəb yozan kimdir?
El qurduğu bu dövranı uçuran kim, sökən kimdir?
Yazıq xalqı çaşbaş salıb, zəhlələri tökən kimdir?
İnsanoğlu nəzər yetir yaxşıya da, pislərə də,
Zalımlara, qəddarlara, bədxahlara, nəslərə də.
Bir gör kimdir qənim çıxan ədalətə, həqiqətə,
Ədəb-ərkan, nəzakətə, insanlığa, ləyaqətə.
Mehri-ülfət, səmimilik, xeyirxahlıq, fəzilətə,
Ayrı-ayrı insanlara, kollektivə, cəmiyyətə.
Hörmət edin ağbirçəyə, nuraniyə, ağsaqqala,
Qoca tarix yola salan, müdriklərə, əhli-hala.
Nəzər yetir bu dünyada özgəyə də, özünə də,
Əməlinə, işinə də, yoluna da, izinə də.
Yerli-yersiz söhbətinlə könülləri zədələmə,
Qırıb-töküb butaqları, qönçələri, pedələmə.
Gəl unutma, yadına sal, bu dünyanın qonağısan,
Zəhmətinlə, xidmətinlə, zəmanənin növrağısan.
Əbədilik qalan döysən, vaxt gələrkən gedəcəksən,
Uzaqlaşıb bu meydandan, ayağını kəsəcəksən.
Deyirlərki tezi-geci kim nə əksə biçəcəkdir,
Öz saldığı yollar ilə, məqam gəlib keçəcəkdir.
Hər nə etsən onu bil ki, qisasını alacaqlar,
Əməlinə qiymət verib, səni yola salacaqlar.

***Cəmil Əkbər*** 21. 07 -1995

## 59. SƏNİ DÜŞÜNÜRƏM…

Səni düşünürəm, səni ay oğul,
Taleyin üzünə güləcəkdirmi?
Axsa, gözyaşını siləcəkdirmi?
Paxıllar səni də darılacaqmı?
İçindən sarsıyıb qırılacaqmı?
Qoluna, boynuna sarılacaqmı?
Bədinə getməkdən yorulacaqmı?
Necə çıxacaqdır dostun, yoldaşın?
Həmkarın, tay-tuşun, yaxın yoldaşın?
Əhdinə vəfası olacaqdımı?
Sürməyə səfası olacaqdrmı?

Səni düşünürəm, səni ay oğul,
Necə olacaqdır yoldaşın, yarın?
Dadlımı, duzlumu təzə nübarın?
Necə olacaqdır şərəfin, şanın?
Sərraf bazarında gövhərin, kanın.
Səndən nigaranam, səndən ay oğul,
Səni düşünürəm, səni ay oğul...

***Cəmil Əkbər***

## 60. SƏN DƏ SUS!

*Şair Hüseyn Ariflə Cəmil Əkbərin deyişməsi*

***Hüseyn Arif:*** Asta tərpət ayağını, əlini,
Yaxşı susur, yaman susur, sən də sus!
Vaxt-vədəsiz işə salma dilini,
Qanmaz susur, qanan susur sən də sus!

**Cəmil Əkbər:** Hüseyn Arif gəl bəşərə sus demə!
Arzu, istək,dilək sussa sən də sus!
Hər yetənə yerli-yersiz kəs demə!
Vicdan sussa, məslək sussa sən də sus!

***Hüseyn Arif:*** Palıd qopur bircə anın içində,
Gözdən itir dağ-dumann içində,
Yar-yoldaşın, el-obanın içində,
Enən susur, qalxan susur, sən də sus!

**Cəmil Əkbər:** İnsanoğlu bir-birini bezdirir,
Hər əzaba, əziyyətə dözdürür,
Cəhənnəmi diri-diri gəzdirir,
Hiylə sussa, kələk sussa sən də sus!

***Hüseyn Arif:*** Bilirsənmi kim izləyir, kim güdür?
Koryapalaq qızıl quşu ülküdür,
Güman etmə bu tülkü, o tülküdür,
Pələng susur, aslan susur, sən də sus!

**Cəmil Əkbər:** Meydan açıb gör nə deyir ağalar,
Böyük-kiçik pəsinməyir "qağalar",
Səs-küy salır, qığıldayır çağalar,
Nənni sussa, bələk sussa sən də sus!

***Hüseyn Arif:*** Xeyri nədir yeri-göyü soraqla,
O kitabı, bu kitabı varaqla,
Öz-özünə ha gurulda, ha çağla,
Dərya susur, ümman susur, sən də sus!

**Cəmil Əkbər:** Sinəsinə çox döyənlər getdilər,
Öz-özünü çox öyənlər getdilər,
Harın-harın çox yeyənlər getdilər,
Çərxi-fələk bir an sussa sən də sus!

***Hüseyn Arif:*** Dar macalda nə ordular basılıb,
Qancırğadan neçə başlar asılıb,
O yerdəki birbirinə qısılıb,
Qartal susur, tərlan susur, sən də sus!

**Cəmil Əkbər:** Yaxşı-yaman birbirindən seçilir,
Boya görə öz xələti biçilir,
Çox "nəhənglər" məqam gəlir kiçilir,
Xəlbir sussa, ələk sussa sən də sus!

***Hüseyn Arif:*** Nə kamala, nə vicdana güvənmə,
Saf ürəyə, sağlam cana güvənmə,
Bu dəvaya, bu dərmana güvənmə,
Görmürsənmi Loğman  susur, sən də sus!

**Cəmil Əkbər:** Təbiətin fitrəti var a şair,
Mərd igidin qüdrəti var a şair,
Qəzəbi var, hiddəti var a şair,
Tufan sussa, külək sussa sən də sus!

***Hüseyn Arif:*** Adam demə, hər adama həyatda,
Qafil olub çəkmə xana həyatda,
Hüseyn Arif baş aparma həyatda,
Zaman susur, dövran susur, sən də sus!

**Cəmil Əkbər:** Cəmil Əkbər yaratmağa çalışır,
Ömürləri uzatmağa çalışır,
İnsanlığı yaşatmağa çalışır,
Fikir sussa, dilək sussa sən də sus!

***Cəmil Əkbər*** 20. 09 - 1987

## 61. SƏN

Hünər yoxsa, təpər yoxsa canında,
Dözənməzsən aya, günə, ilə sən.[515]
Zülal yoxsa, şəkər yoxsa şanında,
Xoş gəlməzsən obaya sən, elə sən.[516]

Abır yoxsa, ismət yoxsa üzündə,
Qüvvət yoxsa, qüdrət yoxsa dizində,[517]
Məna yoxsa, hikmət yoxsa sözündə,
Düşənməzsən dəhana sən, dilə sən.

Zatın zaysa nəcabətdən, nəsildən,[518]
İnciməynən mərd igiddən, əsildən,
Öz mayanı tutublarsa xəsildən,
Batacaqsan çamırlığa, lilə sən.

---

[515] 1) Neyləyimki, neyləyimki eləsən. 2) El neyləsin, mən neyləyim eləsən?
[516] Yaramazsan obaya sən, elə sən.
[517] Taqət yoxsa, qüdrət yoxsa dizində.
[518] *II variant* Kökün zaysa nəcabətdən, nəsildən,
Dədə-baba cəddavadan, əsildən,
İnciməynən doğulduğun fəsildən,
1) Qərq olarsan bataqlığa, lilə sən. 2) Düşəcəksən bataqlığa, lilə sən.

Kasaddırsa ədəb-ərkan, mərfətin,[519]
Sədaqətin, səxavətin, mürvətin,
İnsanlığa məxsus olan xislətin,
Qərq olarsan qasırğaya, yelə sən.[520]

İşləmirsə təfəkkürün kamalın,
Pak əqidən, pak məsləkin, amalın,[521]
Azdırarsa, çaşdırarsa xəyalın,[522]
Uyacaqsan fitnə-fəsad, felə sən.[523]

Ustadları eşitməsən, bilməsən,
Haqq yoluna üz tutaraq gəlməsən,
Bəd işlərdən utanmasan, ölməsən,
Batacaqsan ümmana sən, gölə sən.[524]

Deməynənki belə gedib gəzərəm,
Meydan açıb, sinə gərib dözərəm,
Belə şaham, belə Ağanəzərəm, [525]
Rast gələrsən daşqın çaya, selə sən.

Haqq yolundan dönənləri görməsən,
Zirvələrdən enənləri görməsən,
Çıraqları sönənləri görməsən,[526]
Olacaqsan əvvəl-axır belə sən.[527]

---

[519] 1)Kasaddırsa məhəbbətdən nemətin.     2) Kasaddırsa məhəbbətdən qismətin.
[520] 1) Düşəcəksən qasırğaya, yelə sən.     2) Düşəcəksən tufana sən, yelə sən.
[521] Xoş görünməz kimsələrə camalın.
[522] Azdıracaq, çaşdıracaq xəyalın.
[523] 1) Düşəcəksən fitnə-fəsad, felə sən.     2) Düşəcəksən fitnələrə, felə sən.

[524] *II variant*     Ustadlardan öz dərsini almasan,
Dediyini xatirinə salmasan,
Bəd işlərdən uzaqlaşıb qalmasan,
Qərq olarsan ümmana sən, gölə sən.

[525] Onun-bunun xirtdəyini üzərəm.
[526] Külə dönüb sönənləri görməsən.
[527] Əvvəl-axır olacaqsan belə sən.

Anlamasan həyat səni əzəcək,[528]
Elə sanma möhübünü düzəcək,[529]
Geci-tezi usanacaq, bezəcək,[530]
Sən də ona ömürboyu köləsən.[531]

Qoy sözlərim xatirinə dəyməsin,
Vüqarını, qamətini əyməsin,
Ünvanına dönə-dönə söyməsin,
Söz dedim ki, tez gələsən yola sən.[532]

Dərk eyləyib gəl Cəmili anlayın,
Səhvi varsa kötəkləyin, yanlayın,
Nəki varsa məzəmmətlə danlayın,
Hesab etmə özün üçün lələsən.

***Cəmil Əkbər*** 23. 01 – 1986 // 28. 05 – 1986

## 62. SƏN DƏ, MƏN DƏ

Göz dikmə gəl varıma,
Alma, heyva, narıma.
Bağımdakı barıma,
Güllü çəmənzarıma.
Gəl qanımı qaraltma!
Gen dünyamı daraltma!
Gülrəngimi saraltma!
Gəl sən məni bezdirmə!
Hər cəfaya dözdürmə!
Nə mən səni bezdirim,
Hər cəfaya dözdürüm.
Toxunmaynan şəsdimə,
Sən girməynən qəsdimə.
Şeşələnmə üstümə,
Tikan vermə dəstimə.

---

[528] Düz getməsən həyat səni əzəcək.
[529] Xirtdəyinə ilmə salıb üzəcək.
[530] 1) Əvvəl-axır usanacaq, bezəcək. 2) Kim deyir ki, möhübünü düzəcək?
[531] Olacaqsan ömürboyu kölə sən.
[532] 1) Çalışdım ki, tez gələsən yola sən. 2) Neyləyək ki, tez gələsən yola sən?

Toxunmaram şəstinə ,
Mən girmərəm qəsdinə,
Ayaq almam üstünə,
Bais olmam tüstünə.
Gəl düz baxaq həyata,
Bu toya, bu büsata.
Bura mehman gəlmişik,
Sanki bir an gəlmişik,
Sən gəzdiyin torpaqda,
El-obada, oymaqda.
O da, mən də gəzirik,
Sinə gərib dözürük.
Sən sevdiyin həyatı,
Bilki mən də sevirəm.
Sən baxdığın səhnəyə,
Bilki mən də baxıram.
Sən gördüyün nəki var,
Mən də onu görürəm.
Sən çəkdiyin zəhməti,
İnan mən də çəkirəm.
Sən çəkdiyin hicranı,
Qardaş mən də çəkirəm.
Sən çəkdiyin həsrəti,
Yoldaş mən də çəkirəm.
Sən duyduğun nəki var,
Tay-tuş, mən də duyuram.
Nə sən məni danlama,
Kötəkləmə, yanlama.
Nə mən səni danlayım,
Kötəkləyim, yanlayım.
Nə əlini əlimdən,
Birdəfəlik üzmə gəl.
Nə əlimi əlindən,
Birdəfəlik üzməyim.
Nə sən məndən küsüb get,
Aralığı kəsib get.
Nə mən səndən küsməyim,
Aralığı kəsməyim.
Sən də insan oğlusan,

Mən də insan oğluyam.
Sən də yerin oğlusan,
Mən də yerin oğluyam.
Sən də istək oğlusan,
Mən də istək oğluyam.
Sənə sərvət gərəksə,
Şərəf-şöhrət gərəksə,
Hörmət izzət gərəksə,
Nəşə, ləzzət gərəksə,
Nazü-nemət gərəksə.
Bəzək, zinət gərəksə,
Dövran, büsat gərəksə,
Bizlərə də gərəkdir.
Bizə zəhmət gərəksə,
Abır, ismət gərəksə,
Namus, qeyrət gərəksə,
İnsaf, mürvət gərəksə,
Qüssə, möhnət gərəksə,
Cəza, töhmət gərəksə.
Sizlərə də gərəkdir.

Bizə səbr gərəksə,
Bizə cəbir gərəksə,
Bizə qəbir gərəksə,
Bizə dərman gərəksə,
Bizə fərman gərəksə,
Bizə zülüm gərəksə,
Bizə ölüm gərəksə,
Sizlərə də gərəkdir.

Salma bizi əzaba,
Çəkmə şişə, kababa,
Nə sən məni əzmə gəl,
Nə mən səni əzməyim.
Nə sən mənə "xox" demə,
Artıq-əksik çox demə.
Nə mən sənə "xox" deyim,
Çərənləyib çox deyim.
Nə sən mənə yalvarma,
Nə mən sənə yaxarım.

Gözlərimi tökmə sən,
Gözlərini töküm mən.
Mən sənə bağlıyamsa,
Sən də mənə bağlısan.
Mən də sənə lazımam,
Sən də mənə lazımsan.
Nə sən varlı olma gəl,
Nə sən kasıb olma gəl.
Nə mən varlı olmayım,
Nə mən kasıb olmayım.
Sən də insan oğlusan,
Mən də insan oğluyam.
Vicdana kəm olmayaq,
İçməmiş dəm olmayaq.
Məni selə atma gəl,
Səni selə atmayım.
Məni yelə satma gəl,
Səni yelə satmayım.
Məni gölə salma gəl,
Səni gölə salmayım.
Xam xəyala dalmayaq,
Dərd-qəm çəkib solmayaq.
Saçımızı yolmayaq,
Sonra peşman olmayaq.
Mənim də övladım var,
Sənin də övladın var.
Qohumum var, yadım var,
Qohumun var, yadın var.
Mənim də var ürəyim,
Öz arzu, öz diləyim.
Mənim də var amalım,
Sənin də var amalın.
Mənim də var kamalım,
Öz hüsnüm, öz camalım.
Sənin də var kamalın,
Öz hüsnün öz camalın.
Mənim də var düşüncəm,

Öz hissim, öz işgəncəm.[533]
Sənin də var düşüncən,
Öz hissin, öz işgəncən.[534]
Sənin varsa yaddaşın,
Mənim də var yaddaşım.
Sənin varsa hiddətin,
Mənim də var hiddətim.
Sənin varsa nifrətin,
Mənim də var nifrətim.
Gəl seyr edək dünyanı,
Sağı-solu, həryanı.
Görək lütü, üryanı,
Dövr eyləyən cəryanı.
Gəlin görək nəki var,
Azı-çoxu, təki var.
Nə gördükcə götürək,
Könüldə gül bitirək.
Bağban olub bağ salaq,
Kef-damağı çağ salaq.
Düz eşidib, düz görək,
Gecəni gündüz görək.
Qaraya ağ deməyək,
Təpəyə dağ deməyək.
Nəzər salaq sabaha,
Yol verməyək tamaha,
Qərq olmayaq günaha.
Eyləməyək hərislik,
Nə xainlik, xəbislik,
Nə bədxahlıq, nə pislik.
Artırmayaq hiddəti,
Nə kini, nə küdrəti.
Bədəməli, niyyəti,
Çox edirəm minnəti.
Gəl kəsməyək aranı,
Nə dağı, nə aranı?
Yandırmayaq boranı?

[533] Öz cəzam, öz işgəncəm.
[534] Öz cəzan, öz işgəncən.

Tapaq dərdə çaranı.
Nəolsunki Rusmusan,
Ukrayın, Belorussan.
Taciksən, ya Özbəksən,
Qırğızsan, ya Türkmənsən.
Gürcü, ya Moldavansan.
Estonsan, ya Latışsan,
Fransız, ya Almansan,
Hindlisən, ya Çinlisən,
Sən ağsan, mən qarayam,
Nəolsunki, sarıyam?
Bir deyildir dilimiz,
Quran, kitab, dinimiz.
Bir deyildir peşəmiz,
Sənətimiz, işimiz.
Yaşımız da başqadır,
Başımız da başqadır.
Sən də insan oğlusan,
Mən də insan oğluyam.
Bir olsun niyyətimiz,
Bir olsun sərvətimiz.
Hiddətdə də bir olaq,
Nifrətdə də bir olaq.
Görmürsənmi azanı?
Ayaq altdan qazanı?
Görmürsənmi öləni?
Ağlayanı, güləni?
Görmürsənmi cəzanı?
Cəhənnəmdə qazanı?
Yol-ərkanı düz gedək,
Həm gecə-gündüz gedək.
Gəlin yolu azmayaq,
Düzü tərsə yozmayaq.
Hörmət ilə yaşayaq,
Mürvət ilə yaşayaq.
Qeyrət ilə yaşayaq,
İsmət ilə yaşayaq,
Hikmət ilə yaşayaq.
Xəstələrə rəhm edək,

Gücsüzlərə rəhm edək.
Bədbinlərə rəhm edək,
Çirkinlərə rəhm edək.
Məzlumlara rəhm edək,
Məhkumlara rəhm edək.
Sən də insan oğlusan,
Mən də insan oğluyam.
Sən də istək oğlusan,
Mən də istək oğluyam.

***Cəmil Əkbər*** 26.07 – 1980

## 63. YAMAN QONŞU, YAMAN GÜNƏ QAL SƏNİ!

Yaxşı qonşu qonşuluqda gərəkdir,
Yaman qonşu, yaman günə qal səni!
Təsəllidir, təsginlikdir, köməkdir,
Yaman qonşu, yaman günə qal səni!

Ataların atasıtək gərəkdir,
Qızılgülün butasıtək gərəkdir,
Təbiətin ətasıtək gərəkdir,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu gedib-gəlmək deməkdir,
Fərəhlənmək, deyib-gülmək deməkdir,
Əhval tutub onu bilmək deməkdir,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu, qonşuluqda həyandır,
Kim deyirki təkcə-tənha dayan, dur?
Nə lazımdır artıq-əksik bəyandır,
Yaman qonşu, yaman günə qal səni!

İnsan olan qonşusuyla dalaşmaz,
Hay-küy salıb əl-ayağa dolaşmaz,
Toz-torpağa, zir-zibilə bulaşmaz,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu qonşusuna darılmaz,
Xainlikdə, xəbislikdə saralmaz,
Əl-qoluna, ayağına sarılmaz,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu qonşusuna can deyər,
Düşün deyər, anla deyər, qan deyər,
Süfrə açıb, çörək verib nan deyər,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu qonşusuna küsənməz,
Ünsiyyəti-ülfətləri kəsənməz,
Tufan olub bağçasında əsənməz,
Yaman qonşu, yaman günə qal səni!

Yaxşı qonşu küdurətlə yaşamaz,
Qərəz-qisas, ədavətlə yaşamaz,
Xəta-bəla, qəbahətlə yaşamaz,
Yaman qonşu, yaman günə qal səni!

Qonşu-qonşuluqda xəyanət etməz,
Oğruluq, əyrilik cinayət etməz,
Giley-güzar etməz, şikayət etməz,
Yaman qonşu, yaman günə qal səni!

***Cəmil Əkbər*** 2. 10 – 1991

## 64. OLUR

Bir zaman anadan körpə olanlar,
Başqa bir zamanın qocası olur.
Adicə bir qəlpə, təpə olanlar,
Sonradan zirvənin ucası olur.

Bir zaman dəryadan dərin olanlar,
Dağlar havasından sərin olanlar,
Şəkərdən, şərbətdən şirin olanlar,
Sonralar bibərin acısı olur.[535]

Bir zaman dünyaya meydan oxuyan,
Ətiri-gülüstan, ənbər qoxuyan,
Şeytana min cürə papış toxuyan,
Başqa bir zamanın cücəsi olur.

---

[535] *II variant* Bir zaman şəkərdən, şirin olanlar,
Ülfət-ünsiyyətdə dərin olanlar.
Çeşmələr suyu tək, sərin olanlar,
Sonralar istotun acısı olur.

Bir zaman hamıdan fəqir olanlar,
Məzlum görünənlər, səqir olanlar,
Döyülüb, söyülüb təhqir olanlar,
Sonradan zamanın qoçusu olur.

Dövr edir zəmanə, dəyişir yaman,
Heçkəsə verməyir azacıq, aman,
Nadan şahlıq etsə, dad-hazar, aman,
İnsan başgötürüb qaçası olur.

Zəmanə hökm edir, atır daşları,
Axıdır gözlərdən tökür yaşları,
Vurub ilikləri, kəsir başları,
İnsan varlığından keçəsi olur.[536]

Bir zaman atlanan, bir zaman düşür,
Xəyal Səməndiylə dağları aşır,
Çağlayıb, çalxanıb, sellənib daşır,[537]
Başlara gör nələr açası olur?

Nəzər yetir cavan, qoca ya pirə,
Ya şairə, ya ədibə, nasirə,
Azalır bədəndə qalmayır şirə,
Eləbil üzümün cecəsi olur.

Olsada ellərdə əqidən, qayən,
Harayın, həşirin, köməyin, sayən,
Zəhmətin, hünərin, işığın, ziyan,
Hər günün özünün gecəsi olur.

Bir zaman ellərdə qanan sayılan,
Alışıb dərdlərə yanan sayılan,
Cahilə, nadana çoban sayılan,
İndi də onların keçisi olur. [538]

---

[536] Əcəl şətbətini içəsi olur.
[537] Bir zaman öyrənən, bir zaman çaşır.
[538] *II variant* Bir zaman ellərin qanan kəsləri,
Alışıb dərdindən yanan kəsləri,
Nadanın, cahilin çoban kəsləri,
Sonradan onların keçisi olur.

Dövrün gərdişindən baş açmaq olmur,
Oxşayıb ruhunu, yanaşmaq olmur,
Yaxınlaşmaq olmur, uzaşmaq olmur,
Biryolluq quş kimi uçası olur.[539]

Bir zaman anadan nər doğulanlar,
İgid doğulanlar, ər doğulanlar,
Nurani ağsaqqal, pir doğulanlar,
Sonradan zamanın bacısı olur.

Bir zaman həqiqi marksist olan,
Sınanmış bolşevik, kommunist olan,
Tanınmış mübariz, ateist olan,
Sonradan Məkkənin Hacısı olur.

Heçkəs deməsinki dəyişməmişəm,
Bərkiyib, boşalıb, üyüşməmişəm,
Vicdanla vuruşub, söyüşməmişəm,
İnsan zəmanənin yolçusu olur.

Əzəldən ellərə çatsada qayəm,
Harayım, həşirim, köməyim, sayəm,
Hənir-hərarətim, işığım, ziyam,
Hər günəşli günün, gecəsi olur.[540]

Heçkəsə əbədi verilmir həyat,
Əlindən ixtiyar gedir nəhayət,
Ey Cəmil, sənə də vermir zəmanət,
İnsan bu cahandan köçəsi olur.[541]

***Cəmil Əkbər*** 15. 09 -1978 // 27. 07 -1979

---

539 Yanından quş kimi uçası olur.

540 *II variant* Cəmiləm ellərə çatıbdı qayəm,
Çatıbdı köməyim, çatıbdı sayəm,
Çatıbdı hənirim, çatıbdı ziyam,
Hər günün gündüzün gecəsi olur.

541 *II variant* Yetişir vaxt-vədə, dəyişir zaman,
Nə üçün pozulur düz ilqar, peyman?
Qarışır nəşələr, hal-əhval yaman,
Dünyaya gələnlər köçəsi olur.

## 65. MƏHƏBBƏTİM

*Şair Tofiq Bayrama nəzirə*

Məni saldın yaman günə,
Ay gecikən məhəbbətim.
Ömürboyu dağ-düyünə.
Ay gecikən məhəbbətim.

Sonam göldən uçub getdi,
Başqa səmtə köçüb getdi,
Tutammadım qaçıb getdi,
Ay gecikən məhəbbətim.

Dərd əlində qoydun məni,
Gözlərimə saldın nəmi,
Özgəsinə verdin çəmi,
Ay gecikən məhəbbətim.

İlk eşqimi qaraladın,
Parça-parça paraladın,
Onu məndən araladın,
Ay gecikən məhəbbətim.

Günüm keçdi ahuzarda,
Həsrət dolu intizarda,
Bu səfərdə, bu güzarda,
Ay gecikən məhəbbətim.

Qoydun məni yana-yana,
Qəsd eylədin şirin cana,
Neyləmişdim de mən sana?
Ay gecikən məhəbbətim.

Gözüm qaldı dağda-daşda,
Ala gözdə, qələm-qaşda,
Gülər üzdə, meyli-xoşda, [542]
Ay gecikən məhəbbətim.

[542] Yanıb kül oldum atəşdə.

Məcnun kimi düşdüm çölə,
Soraqladım eldən-elə,[543]
Aldanmışam fitnə-felə,[544]
Ay gecikən məhəbbətim.

Tərlan könlüm döndü sara,
Tapılmaz dərdimə çara,
Kəmənd atıb saldın tora,
Ay gecikən məhəbbətim.

Eşqimi mənə dandırdın,
Qəlbimi oda yandırdın,[545]
Məni-məndən usandırdın,
Ay gecikən məhəbbətim.

Düçar oldum dərdi-qəmə,
Zildən-pəsə, pəsdən-bəmə,
Çətin gələm bir də dəmə,
Ay gecikən məhəbbətim.

Məni qoydun yanı üstə,
Könül mülküm oldu xəstə,
Niyə girdin beylə qəsdə?
Ay gecikən məhəbbətim.

Qanadımı niyə qırdın?
Yoxsa mənlə qəsdə durdun?
Xəyalımı daşa vurdun?
Ay gecikən məhəbbətim.

Nələr gətirdin başıma?
Qayçı uzatdın yaşıma,
Zəhəri qatdın aşıma,
Ay gecikən məhəbbətim.

---

[543] Soraq saldım eldən-elə.
[544] Həsrət qaldım şirin dilə.
[545] Salıb odlara yandırdın.

Yol gözlədim axşam-səhər,
Həmdəm oldu qüssə-qəhər,
Halım oldu min bir təhər,
Ay gecikən məhəbbətim.

Sənin səhvin bircə anlıq,
Mənə vurdu min ziyanlıq,
Fayda vermir peşimanlıq,
Ay gecikən məhəbbətim.

Məni saldın yaman dərdə,
Ömürboyu pərdə-pərdə,
Həsrət qaldım  o həmdərdə,
Ay gecikən məhəbbətim.

Yar yanında günahkarsan,
Naxələfsən, nanıkorsan,
Ülviyyətə ziyankarsan,[546]
Ay gecikən məhəbbətim.

Məni etdin müşgül-məlil,
Bədən sağkən oldum zəlil,
Səndən yaman küsüb Cəmil,
Ay gecikən məhəbbətim.

***Cəmil Əkbər*** 15. 09 - 1982

## 66. SƏN YARANDIN NAMƏRD ÜÇÜN DƏRD OĞUL

Sinə gərdin həyatından bezmədin,
Səfil-səfil divanətək gəzmədin,
Oğrun-oğrun özgə gülün üzmədin,
Əhsən sənə, harda varsan mərd oğul?
Sən yarandın namərd üçün dərd oğul.

Ellərdə-obada adını yaydın,
Məqsədin, məramın, diləyin aydın,
Mənasız günləri havayı saydın,
Əhsən sənə, harda varsan mərd oğul?
Sən yarandın namərd üçün dərd oğul.

---

[546] Sitəmkarsan, ziyankarsan.

Vermədin namusu, qeyrəti əldən,
Hünər, cəsarəti, cürəti əldən,
İnsafı, vicdanı, mürvəti əldən,
Əhsən sənə, harda varsan mərd oğul?
Sən yarandın namərd üçün dərd oğul.

Bərkdə-boşda insanları yoxladın,
Ustadların sözlərini haxladın,
Qızıl kimi dəyərini saxladın,
Əhsən sənə, harda varsan mərd oğul,
Sən yarandın namərd üçün dərd oğul.

***Cəmil Əkbər***

## 67. OĞUL OLASAN

Anadan olanda oğul olasan,
Sərrast düşünəsən, mağıl olasan.
Kamalın, amalın başda düz ola,
Fikir də, xəyal da, huş da düz ola.
İşgəncə, kədərin elə dəyməyə,
Çəmənə toxunub, gülə dəyməyə.
Yığışalar, sığınalar kölgənə,
Söykənələr mahalına, bölgənə.
Baxıb əməlinlə öyünə hamı,
İftixar, qürurla sevinə hamı.
Elə gətirəsən baş ucalığı,
Ömür ucalığı, yaş ucalığı.
Ünsiyyət ülfətdə bilinə yerin,
Alına gövhərin, satıla zərin.
Çəkilən zəhmətə el əhsən desin,
Kaman əhsən desin, tel əhsən desin.
Aylar əhsən desin, il əhsən desin,
Dəryalar, dənizlər göl əhsən desin,
Etdiyin xidmətin itib getməyə,
Arada-bərədə batıb getməyə.
Sözlərin-söhbətin beyinə bata,
İdraka yetişə, zehinə çata.

Zamandan-zamana yaddaşda qala,
Həmyaşıd, tay-tuşda, çağdaşda qala.
Həmkarda, həmdəmdə, yoldaşda qala,

Ən yaxın səmimi sirdaşda qala.
Kamal dünyasından nurun saçıla,
Qüvvətin, qüdrətin, zorun saçıla.
Vətəndən ilhamı ala biləsən,
Əsrlər keçdikcə qala biləsən.
Fikirə, xəyala dala biləsən,
Zəfərlər təblini çala biləsən.
Baxıb fəxr edəsən əməllərinlə,
Əslinlə, nəslinlə, təməllərinlə.
Sağlam fikirinlə diləklərinlə,
Yorulmaz qollarla, biləklərinlə.
Ellərin içində utanmayasan,
Sıxılıb, çəkinib qısqanmayasan.
Cana doymasınlar qəbahətindən,
Kinin-küdurətin, ədavətindən.
Avamlıq, nadanlıq, cəhalətindən,
Paxıllıq, xainlik, xəyanətindən.
El-obalar isinələr istinə,
Qaralmaya, qarsıxmaya tüstünə.
Təzim edib hüzurunda baş əyə,
Hara getsən, güzarında baş əyə.
Baxıb əməlinə el qınamaya,
Aylar qınamaya, il qınamaya.
Dəhan qınamaya, dil qınamaya,
Çaylar vəcdə gəlib sel qınamaya.
Yersiz söz-söhbətdən qan qaralmaya,
Bədən gücdən düşüb, can saralmaya.
İnciyib-küsənlər bezən olmaya,
Çəkib əzabını dözən olmaya.
Atadan, anadan oğul olasan,
Doğulan günündən mağıl olasan.

***Cəmil Əkbər*** 12. 11 – 1997

## 68. MƏN ELƏ SANIRDIM

Mən elə sanmışam hamı insandır,
Hamı dərk edəndir, hamı qanandır.
Düşünüb, anlayan ali canlıdır,
Mehriban, səmimi, istiqanlıdır.

Hamı ata görüb, ana görübdür,
Məhəbbət sarayı bina görübdür.
Nurani, pirani baba görübdür,
Mahalda yaşayıb, oba görübdür.

Hamının qəlbində məhəbbəti var,
Əhdi var, andı var, sədaqəti var.
Bacarıq, fəhmi var, fərasəti var,
İnsanlıq naminə ləyaqəti var.
Zənn edirdim hamı anlayır, qanır,
Qəlbi vicdanının oduna yanır.
Hərkəsin namusu, qeyrəti də var,
Hünəri, zəhməti, xidməti də var.
Ədəbi, ərkanı, nəzakəti var,
Düşüncə, qanacaq, mərifəti var.

Sən demə zağada yatanlar da var,
İnsafı-mürvəti atanlar da var.
Şər deyib aranı qatanlar da var,
Vicdanı, məsləki satanlar da var.

Nəqədər cahillər, nadanlar da var?
Təlimdən yarımçıq dadanlar da var?
Haqq-say sümürüb udanlar da var?
Yolunu tərsinə adanlar da var?

İnsan sifətində çaqqallar da var,
Abırsız, ismətsiz baqqallar da var,
Viranə xoşlayan bayquşlar da var,
Yapalaqsayağı, sarquşlar da var.

Mən elə sanmışdım hamı insandır,
Hamı can-ciyərdir, dost-mehribandır.
Hamı əməkdaşdır, hamı yoldaşdır,
Hamı həməsrdir, hamı çağdaşdır.

İlahi nəqədər qanmazlar da var?
Xətiri-hörməti anmazlar da var?
Ünsiyyət-ülfətdə avamlar da var?
Süksünü dönməyən qabanlar da var?
Bezdirib zəhlələr tökənlər də var,
Əyilməz qaməti bükənlər də var.

Hərkəsin damarı, qanı başqadır,
Zülalı başqadır, şanı başqadır.
Anası başqadır, ata başqadır,
Ünvanı, adresi, adı başqadır,
Qohumu, qardaşı, yadı başqadır.
Düşüncə, dərrakə, kamal başqadır,
Əqidə başqadır, amal başqadır.
Deməklə eşitmir, anlamır, qanmır,
Dünya alışsa da bir tükü yanmır.

Sən demə hərənin yolu başqadır,
Var-halı başqadır, pulu başqadır.
Qovğası başqadır, qalı başqadır,
Dırnağı başqadır, nalı başqadır.

Hərənin getdiyi öz yolu vardır,
Əyri yolu vardır, düz yolu vardır.
Hərə bir fikirdə, bir xəyaldadır,
Biri kef-damaqda, dərd-məlaldadır.
Heçkəsin tutduğu yolu bir deyil,
Həyat bambaşqadır, buki sir deyil.

Başqadır güzəran, bu dövran həyat,
Başqadır zəmanə, toy-düyün, büsat.
Fərasət başqadır, fəhm başqadır,
Kəramət başqadır, rəhm başqadır.
Hərə bir yol tutub getməyindədir,
Başqa bir avazla ötməyindədir.

***Cəmil Əkbər*** 16. 07 -1993

## 69. BAMBAŞQADIR

Hərkəsin öz xətası var,
Hərkəsin öz cəzası var.
Hərkəsin öz səması var,
Hərkəsin öz fəzası var.
Hərkəsin öz zəhməti var,
Hərkəsin öz xidməti var.
Öz diləyi, arzusu var,
Hərkəsin öz niyyəti var.
Öz məsləki, əqidəsi,

Öz istəyi, mətləbi var.
Hərənin öz ehtiyacı,
Hərənin öz tələbi var.
Eyni deyil fikirlər də,
Eyni deyil düşüncələr.
Eyni deyil zikirlər də,
Eyni deyil işgəncələr.
Eyni deyildir nəfsimiz,
İştahımız, tamahımız.
Eyni deyil günahımız,
Eyni deyil savabımız.
Bir deyildir nəsilimiz,
Bir deyildir əsilimiz.
Bir deyildir əcdadımız,
Qohumumuz, nə yadımız.
Bir deyildir nə nəşəmiz,
Nə toyumuz, düyünümüz.
Bir deyildir görüşümüz,
Bu həyata baxışımız.
Bir deyildir sürətimiz,
Qüvvətimiz, qüdrətimiz.
Bir deyildir uçuşumuz,
Yürüşümüz, qaçışımız.
Bir deyildir  ünvanımız,
Nə adımız, nə sanımız.
Eyni deyil şöhrətimiz,
Nə tamımız, nə dadımız.
Bir deyildir elimiz də,
Çəməndəki gülümüz də.
Bir deyildir bazarımız,
Bir deyildir güzarımız.
Bir deyildir imkanımız,
Eyni deyil dükanımız.
Sən görəni mən görmürəm,
Mən görəni sən görmürsən.
Sən verəni, mən vermirəm,
Mən verəni, sən vermirsən.
Sən yeyəni mən yemədim,
Sən deyəni, mən demədim.

Mən yeyəni sən yemədin,
Mən deyəni, sən demədin.
Sən yazanı mən yazmadım,
Sən pozanı mən pozmadım.
Mən yazanı sən yazmadın,
Mən pozanı sən pozmadın.
Sən yozanı mən yozmadım,
Sən qazanı mən qazmadım.
Sən sevəni mən sevmədim,
Mən sevəni sən sevmədin.
Həyat yaman bambaşqadır,
Örüşlər də bambaşqadır,
Görüşlər də bambaşqadır,
Zikrlər də bambaşqadır,
Fikirlər də bambaşqadır.

***Cəmil Əkbər***

## 70. MƏNİ YAMAN QORXUDUR

*Məni yaman qorxudur,* ünsiyyətdə xəyanət,
Dedi-qodu, söz-söhbət, giley-güzar, şikayət.
Nadanlıqla, cəhalət, addımbaşı qəbahət,
Qəsd-qərəzlər, qisaslar, kin-küdurət, ədavət,
Orda-burda oğruluq, törədilən cinayət.

*Məni yaman qorxudur,* tamahkarlıq, hərislik,
Ləyaqətin qənimi, nanəciblik, naqislik,
Qarınqulu, acgözlük, o murdarlıq, o pislik.
Harda varsa lovğalar, kütbeyinlər, başıboş,
Qanı, geni xarablar, vicdanı kəm, qəlbidaş.

*Məni yaman qorxudur,* ürəyində kin olan,
Dillərində zəhrimar, kəlləsində cin olan.
İncidirlər qəlbimi, keydən olan keyqubad,
Ləyaqətə darılan, səydən olan, səyqubad.

*Məni yaman qorxudur,* gədələrdən törəyən,
Vicdanları kəm-kəsir, zədələrdən törəyən.
Çaşbaş salıb əzəldən saxtalıqlar, yalanlar,
Min bir kökün üstündə zurna, qaval çalanlar.
Əsəbləri korlayıb ilhamını alanlar,
Ürəklərdə yaşayan əqrəb, iblis, ilanlar.

*Məni yaman qorxudur,* ilqarına dönüklər,
İdrakından, kamaldan zəkasından sönüklər.
El varına sussayan, ağzıqara əniklər,
Ora-bura üz tutan, min bir səmtə yönüklər.

*Məni yaman qorxudur,* min sifəti olanlar,
Yalan-yanlıc hərnəvar, söz-söhbəti olanlar.
Əqidədən, vicdandan, amalından kəm olan,
Bu mənəvi sifətdən, camalından kəm olan.
Doğru yoldan qaçanlar, ədaləti dananlar,
Baxıb gendən yan keçib, həqiqəti dananlar.
Xeyirxahlıq, yaxşılıq, fəziləti udanlar,
İnsanlığa qəsd edib, ləyaqəti udanlar.

*Məni yaman qorxudur,* yollarını azanlar,
Düzə əyri deyənlər, əyrini düz yozanlar.
Fitnə-fəsad uydurub, aralığı qatanlar,
Əsəbləri korlayıb, min günaha batanlar.

*Məni yaman qorxudur,* bu hərzəkar gədələr,
Bu biganə, əhli-kef, bu səhlənkar gədələr.
Bilə-bilə bilməyən, görə-görə kor olan,
Hissimizə toxunan, qəlbimizə zor olan.

*Məni yaman qorxudur,* düzəlməyən gədələr,
Ha vursaq da topunu, nəzilməyən gədələr,
Səxavətdən əl çəkən, sədaqəti dananlar,
Ədəb-ərkan qanmayan, nəzakəti dananlar.

***Cəmil Əkbər*** 15.01-1997

## 71. MƏNİ YAMAN İNCİDİR

*Məni yaman incidir,* harda görsəm nadanlar,
Doğruluğu unudub,yolu tərsə adanlar.
Tərbiyədən kəm-kəsir, alayarı dadanlar,
Haqq-sayı döşürüb, sümürərək udanlar.
Ünsiyyəti, ülfəti korlayanlar, pozanlar,
Ona-buna şər deyib, dərin quyu qazanlar.
Al-qanları qaraldıb, əsəbləri korlayan,
Könülləri sındırıb, hissləri zorlayan.

*Məni yaman incidir,* görə-görə kor olan,
Bayquş təbli, xislətli, koryapalaq, sar olan.
Söz-söhbətə biganə, qulaqları kar olan,
Bədəməllər törədib, əvvəl-axır xar olan.
Oxusa da, yazsa da anlamayan, qanmayan,
Böyükləri, kiçiyi, pəsinməyən, sanmayan.
İnsanlığa qəsd edib, ədaləti dananlar,
Doğurluğu, düzlüyü, həqiqəti dananlar.
Daxilindən eybəcər, üzdən bəzək olanlar,
Zahirindən təmtəraq, içdən təzək olanlar.
Abır, iffət, isməti, həyasını atanlar,
Əqidəni, məsləki, qayəsini atanlar.
Hüceyrəsi, genləri, qanı xarab olanlar,
Zülalından qəhətlər, şanı xarab olanlar.
*Məni yaman incidir,* nanəciblər, naqislər,
Xain, xəbis, naxələf, bədəsillər, nacinslər.
Göyü bulud alanda, dağda duman olanda,
Könüllərdə nisgillər, yersiz güman olanda.
Aralarda, bərədə, giley-güzar olanda,
İnsanoğlu usanıb, candan bezar olanda.
İnciyirəm, bezirəm, əyriliyi görəndə,
Ünsiyyətdə-ülfətdə, qeyriliyi görəndə.
Zəhlələri tökəni, hərzəkarı görəndə,
Harda varsa biganə, səhlənkarı görəndə.
İnciyirəm, küsürəm, zəhmət sevilməyəndə,
Tufan olub əsirəm, xidmət sevilməyəndə.
Ləyaqətin əhlinə qiymət verilməyəndə,
Gördükləri işlərə zinət verilməyəndə.
Küdurəti görəndə, ədavəti görəndə,
Addımbaşı hərzaman, qəbahəti görəndə.
Ona-buna qəsd edib, bezdirəni görəndə,
Müsibətə salaraq, dözdürəni görəndə.
Düşünənlər, qananlar, bezməməyi bacarmır,
Hiss eyləyib duymağı, sezməməyi bacarmır.
Kükrəyir qəm dəryası, üzməməyi bacarmır,
Əlac səbrə qalanda, dözməməyi bacarmır.
*Məni yaman incidir,* qafaları boş olan,
Arzuları, istəyi, fikirləri çaş olan.
Məhəbbətin yerində ürəkləri daş olan,

Min bir hiylə, məkrlə, orda-burda baş olan.
Daldalarda, tinlərdə, uzaqlarda dolanan,
Yeyib-içib bordaqda, əmlik kimi sulanan.
Ac qurd kimi sırışıb, el malını talayan,
Parçalayıb dağıdan, dişi qana bulayan.
*Məni yaman incidir,* aralığı qatanlar,
Pul xərcləyib yol tapan, vəzifəyə çatanlar.
Qərq olaraq əbədi, qəflətlərdə yatanlar,
Min bir bədəməl törədib, günahlara batanlar.
Cəmil Əkbər eyləyir, beləsindən dad-hazar,
Götürdüyü yükündən, şələsindən dad-hazar.
Harda olsa danışsa, nifrət edib pisləyir,
Haray salıb həryanda, insanlığa səsləyir.

***Cəmil Əkbər*** 26. 09 - 1997

## 72. BİR QADININ ÜRƏK SÖZÜ

Papa mənim canımdır,
Şöhrətimdir, şanımdır.
Gövhərimdir, kanımdır,
Dinimdir, imanımdır.
Atam olub ambardar,
Hər işdən də xəbərdar.
Qardaşım alverçidir,
Bilin böyük çərçidir.
Anam ev xanımdır,
Mənim şirin canımdır.
Damarımda qanımdır,
Yolumdur, ərkanımdır,
Lövbərim, sükanımdır.
Məni çox istəyirlər,
Hər gün məni öyürlər.
Çəkməyirəm dərdi-sər,
Bilin bunu müxtəsər.
Yormayıram başımı,
Süzürəm göz-qaşımı.
Soruşmurlar hardasan?
Palçıqdasan, qardasan?

Gəzirəm küçələri,
Gündüz həm gecələri.
Eyləyirəm mən şikar.
Günüm keçir boş-bikar,
Axtarıram, tayım çox,
Dərdim az, ah-vayım yox.
Zəhmət nədir qanmıram,
Həqiqəti danmıram.[547]
Belə doluram yaşa,
Ömrü vururam başa.
Papam tapıb gətirir,
Çalıb-çapıb yetirir.
Özü üçün nəf edir,[548]
Yeyib-içib kef edir.[549]
Mən də gözəl qızıyam,
Göydə "Dan ulduzu"yam,
Dildə əzbər sözüyəm.
Heç nəyi pəsinmirəm,
Heç nədən diksinmirəm.
Dünya yansa yanmıram,
Yaxşı-yaman qanmıram.
Düz deyirəm, danmıram,
Bəd işdən ovsanmıram.
Olmasada sifətim,
Yoxdu mənim nifrətim,
Nə kinim, nə küdrətim.[550]
Ağılsız oğlanlara,
Var-hala uyanlara.
Seyr edəcək "çəməni",
Gəlib tapacaq məni,
Uyub alacaq məni.
Oğlanlar tez aldanır,
Yanyörəmə fırlanır.[551]

---

[547] Yalan deyil danmıram.
[548] 1) Hərnə olsa nəf edir. 2) Hardan olsa nəf edir.
[549] Gündə min cür kef edir.
[550] Nə kinim, nə hiddətim.
[551] Ətrafıma fırlanır.

Beynimə girməyibdir,
Əqlimi görməyibdir.
Aldanar var-halıma,
Qabağıma, dalıma.
Alar məni yad edər,
El içində car edər.

Bir gün bəxtim gətirdi,
Mənə bir ər yetirdi.
Ərlə dolandım biraz,
Çox keçmədi gəldi yaz.
İstədim yenə gəzim,
Sandım yenə bir qızam,
Göy səmada ulduzam.
Eylədikcə işvə-naz,
Halım oldu sərəfraz.
Ərim dedi: "Gəzmə sən!"
Ürəyimi üzmə sən!
Sən çalış sev əməyi,
Burax deyib-gülməyi.
Yadırğama əməyi.
Sən əməyi sevməsən,
Məni başa düşməzsən.
Əmək böyük nemətdir,
Hər insana zinətdir.
Düşün, anla, bunu bil,
Gözlərini yaxşı sil.
Zəhmət çək sərvət qazan,
Özünə hörmət qazan.
Hər neməti bilki sən,
Əməyinlə qazansan,
Bilərsən qiymətini,
Çəkərsən ləzzətini.
Sən olmaynan sərsəri,
Gəl sev kitab-dəftəri.
Məni başa düşərsən,
Gözəl xoş gün görərsən.[552]

[552] Daim xoş-gün görərsən.

Cavabında söylədim,
Açıq bəyan eylədim.
Heç bir işi sevmirəm,
Əmək nədir, bilmirəm.
Utanmıram, ölmürəm.
Sən də o qonşum kimi,
Atam, qardaşım kimi,
Ərsən, qazan, gətir gəl!
Oğurlayıb fətir, gəl!
Pendir, lavaş, ötür gəl!
Hər nə tapsan götür gəl!
Topla pulu, paranı,
Sağalt köhnə yaranı.
Qoşul sən də hər işə,
Giriş alış-verişə.
Çox iş gəlsin əlindən,
Yalan-yanlıc dilindən.
Dadan yağlı aşa da,
Gələcəksən xoşa da.
Çəkilərsən sən başa,
Görüm səni min yaşa.
Əlin tutduğunca sök,
Gücün çatdığınca çək.
Aslana bənzət özün,
Hərdən də bərəlt gözün.
Al arvada daş-qaşı,
Olma yazıq, sən naşı.
Qoy ürəyim şad olsun,
Damağımda dad olsun.
Desinlər evdar kişi,
Södakar çovdar kişi.
Parçalayıb gətir-gəl,
Cahanda gör xətir gəl.
Etmə heçkəsə pislik,
Nə simiclik, xəsislik.
Pulu doldur cibinə,
Dərd gətirmə vecinə.
Biraz əliaçıq ol,
Yatma gözü açıq ol.

Rəvan gedər işlərin,
Qapıb yeyər dişlərin.
Yeyib cana gələrik,
Ətə-qana gələrik.
Dünya qalmır heç kimə,
Kişi sən də gecikmə.
Çək kefini dünyada,
Ölən günü sal yada.
Qocalarkən əlin də,
Ağzındakı dilin də.
O qüvvətli qolun da,
Ədəb-ərkan yolun da.
Səndən üz döndərəcək,
Acıq edib gedəcək.
Özün üçün ad qazan,
Bacar yaltaqlığı da,
Biraz şıltaqlığı da.
Doldur evi-eşiyi,
Arı kimi yeşiyi.
Desinlər bərəkAllah,
İş rəvandır inşAllah,
Göz dəyməsin maşAllah.

Ər baxmadı sözümə,
Tüpürdü üz-gözümə.
Çoxdakı mən yarıyam,
Kəbinli arvadıyam.
Ağzının da dadıyam.
Vardır oğul-uşağım,
Yanan şamım, çırağım.
Keçdi cavanlıq çağım,
Əqlim çıxdı biruzə,
Ərlə gəldim üz-üzə.
Ər yoxladı əqlimi,
Bildi hər əhvalımı.
İstədiki boşasın,
Məndən ayrı yaşasın.
Getdik məhkəməyə biz,
Dərdi söyləməyə biz.

Sındırmışdım qəlbini,
Artırmışdım dərdini.
Mənimlə barışmadı,
Dərdimə qarışmadı,
Halımı soruşmadı.
Atdı evi-eşiyi,
Çəkmir mənə keşiyi.
Daha məni sevməyir,
Gözyaşımı silməyir.
Çalışdım yola gedim,
Sözünə əməl edim.

Əqlim çatmır başımda,
İşləmədim yaşımda.
Atam aldı gətirdi,
Çaldı-çapdı gətirdi.
Anam yoldu gətirdi,
Ər qazandı gətirdi,
Lap uzandı gətirdi,
Mən də müftə ötürdüm.
Nə söz-söhbət götürdüm.
Bilmədim hardan gəlir?
Çətindən, dardan gəlir.
Ər dözmədi bu günə,
Bu müşkülə, düyünə.[553]

Məni bir gün boşadı,
Gedib ayrı yaşadı,
Alimenti alıram,
Yana-yana qalıram.[554]
Zəhər etdim aşımı,
Tökürəm qan-yaşımı.
Çatmadı əqlim-huşum,
Nə kamalım, nə başım.

---

[553] Bu dağa, bu düyünə.
[554] Baxa-baxa qalıram.

Deyirəm qızlar sizə,
Dəyməsin qəlbinizə.
Hərbir işə alışın,
Gecə-gündüz çalışın.[555]
Yar qədrini bilin siz,
Gözyaşını silin siz.

Uyma ay qız formana,
Nə də saza, qarmona.
Yar bezməsin əlindən,[556]
İnciməsin dilindən.[557]
Daim artsın əməyin,
Gözəl olsun diləyin.
İndi ki, oldun insan,
Yaxşı danış barı sən.
İnsan gərək işləsin,
Yaxşı loxma dişləsin.
Xoş keçirsin dövranı,
Gəzsin dağı-aranı.

İstəsən seviləsən,
Gərək özün sevəsən.
Bil ərinin qədrini,
Çək nazını, dərdini,[558]
Ömür-gün yoldaşıdır,
Ocağının başıdır.
Xoş yaradıb təbiət,
Bunu bilin nihayət.

***Cəmil Əkbər*** 1953

[555] Yorulmayın, çalışın.
[556] Ər bezməsin əlindən,
[557]Yerli-yersiz dilindən.
[558] Artırmaynan dərdini.

## 73. QOCALDAN MƏNİ

Ay şair eloğlu, əziz Mehbalı,
Kədərdir, möhnətdir qocaldan məni.
Dərdimi söyləyim, sən də ol halı,
Biganə diqqətdir, qocaldan məni.[559]

Xainlikdə, xəbislikdə bəslənən,
Nanəciblik, naqislikdə pislənən,
Acgözlükdə, hərislikdə səslənən,
Kindir-küdurətdir qocaldan məni.[560]

Namusdan, qeyrətdən, ardan ötəri,
Etibardan, düz ilqardan ötəri,
Abırlı, ismətli yardan ötəri,
Çəkilən həsrətdir qocaldan məni.[561]

---

[559] *II variant*

Laçınlı kürd oğlu, şair Mehbalı,
Kədərdi, möhnətdi qocaldan məni,
Vicdanı, məsləki qadir Mehbalı,
Natəmiz xislətdi qocaldan məni.

*III variant*

Ay əziz eloğlu, şair Mehbalı,
Laqeyid diqqətdir qocaldan məni.
Vicdanı, məsləki təmiz Mehbalı,
Təpərsiz riqqətdi qocaldan məni.

[560] *II variant*

Ürəklərdə xəbisliklə bəslənən,
Nanəciblik, naqislikdə səslənən,
Bədəsillik, bədcinsliklə pislənən,
Kindi-küdurətdi qocaldan məni.

*III variant*

Xainlikdən, xəbislikdən törənən,
Nanəciblik, naqislikdən törənən,
Simiclikdən, xəsislikdən törənən,
Nifrətdi, hiddətdi qocaldan məni.

[561] *II variant*

Namusdan, qeyrətdən, ardan ötəri,
Dünyanın neməti, vardan ötəri,
İlqarlı, vəfalı yardan ötəri,
İntizar, həsrətdi qocaldan məni.

Qaynayıb, qarışıb uyuşanmayan,
Sevda məqamında qovuşanmayan,
Xətadan-bəladan sovuşanmayan,
Sönən məhəbbətdir qocaldan məni.[562]

El-obanın dərdi-sərin çəkməyən,
Zəhmət çəkib tər torpağa tökməyən,
Peyvənd vurub bir ağacı əkməyən,
Şərəfsiz şöhrətdir, qocaldan məni.[563]

Araqarışdıran ziyankarlara,
Vartazar, Mıkırtıç, Kinikorlara,
Haqq-say itirən nanıkorlara,[564]
Edilən hörmətdir, qocaldan məni. [565]

Sərsəri, dəngəsər, səy oğlu səyə,
Kütbeyin, kəmağıl, key oğlu keyə,
Qal-qovğa törədən, zay oğlu zaya,
Çəkilən xidmətdir, qocaldan məni.[566]

Min bir sifət ilə ucalanların,
Ellərdən, obadan, güc alanların,
Yol tapıb, iz tapıb qocalanların,
Bəhrəsiz zəhmətir, qocaldan məni. [567]

---

[562]*II variant* Biri-birisinə uyuşanmayan,
Qaynayıb, qarışıb yovuşanmayan,
Biri-birisilə qovuşanmayan,
Nakam məhəbbətdi qocaldan məni.

[563]*II variant* El-obanın zəhmətini çəkməyən,
Alın tərin torpaqlara tökməyən,
Haraya-həşirə, kara yetməyən,
Saxta bəyanətdi, qocaldan məni.

[564] Nanəcib, naxələf nanıkorlara.

[565] Edilən nüsrətdi, qocaldan məni.

[566]*II variant* 1) Gicbəsər, dəngəsər, səy oğlu səyə. 2) Sərsəri, gicbəsər, səy oğlu səyə.
Kütbeyin, kəmağıl, key oğlu keyə,
1) Dədədən-babadan zay oğlu zaya, 2) Əvvəldən axıra zay oğlu zaya,
1) Çəkilən zəhmətdi, qocaldan məni. 2) Edilən xidmətdi, qocaldan məni.

[567]*II variant* Min bir sifət ilə ucalanlarıa,
Hünərlər göstərib bac alanlara,
Tacı-təxt qacanıb, tac alanlara,
Verilən şöhrətdi, qocaldan məni.

Ömürboyu xəyanətlər törədən,
Giley-güzar, şikayətlər törədən,
Qəlb incidən bəyanətlər törədən,
Adi qəbahətdir, qocaldan məni.[568]

Tirməyə, qumaşa, şala bürünən,
Qırmızı, çəhrayı, ala bürünən,
Kef-damağa, cah-calala bürünən,
Layiqsiz zinətdir, qocaldan məni.

Bu qoca dünyada nələr görmüşəm?
Gör nələr əkmişəm, nələr dərmişəm?
Nələr qazanmışam,  nələr vermişəm?
Laqeyd diqqətdir, qocaldan məni.[569]

Ellərdə-obada həyalı gəzdim,
Vicdanlı, məsləkli, qayəli gəzdim,
Qədəmi uğurlu, sayəli gəzdim,
Naxələf xislətdir, qocaldan məni.[570]

Haqdan, ədalətdən xof eyləmərəm,
Çəksələr mənşərə, of eyləmərəm,
Böhtan danışmaram, laf eyləmərəm,
Nadan, cəhalətdir qocaldan məni.[571]

---

*III variant* Elin şərəfinə darılanların,
İçindən çatdayıb, qırılanların,
Tərini tökmədən yorulanların,
Verilən qiymətdi, qocaldan məni.

[568]*II variant* Ömürboyu xəyanətlər eyləyən,
Addımbaşı qəbahətlər eyləyən,
Gözgörəti cinayətlər eyləyən,
1) Hərbir qəbahətdir, qocaldan məni. 2) Xəta, xəsarətdir qocaldan məni.

[569]*II variant* Mən də budünyada nələr görmüşəm?
Əkmişəm, səpmişəm, nələr vermişəm?
Nələr becərmişəm, nələr dərmişəm?
Əzabdır, zillətdir qocaldan məni.

[570] 1) Mənfur təbiətdi qocaldan məni. 2) Abırsız ismətdı qocaldan məni.
[571] Qəsddi, cəhalətdir qocaldan məni.

Qanqaraldıb əsəbləri korlayan,
Qəlbə dəyib hissiləri zorlayan,
Onu-bunu ləkələyən, xorlayan,
İnsafsız mürvətdir, qocaldan məni?[572]

Saxta ünsiyyətdir, saxta ülfətdir,
Saxta danışıqdır, saxta söhbətdir,
Saxta kəramətdir, saxta mürvətdir,
Saxta şan-şöhrətdir, qocaldan məni.[573]

Cəmil Əkbər söz deməkdən yoruldu,
Düz danışıb, düz deməkdən qovruldu,
Zaman-zaman şirətəki soruldu,
Quru əziyyətdir, qocaldan məni.[574]

***Cəmil Əkbər*** 26-27 // 02– 1997

## 74. ALMAMIŞAM MƏN

Anamdan aldlğım məhəbbətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.
Əhdimi, andımı, sədaqətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Abırı, həyamı, ismətimi də,
Çəkdiyim zəhməti, xidmətimi də,
Saf arzu, istəyi, niyyətimi də,
Heç kimdən, heçkəsdən almamışam mən.

---

[572]*II variant* Çox olubdur əsəbləri korlayan,
Qəlbə dəyib hissiləri zorlayan,
Onu-bunu bəyənməyən, xorlayan,
De hansı mürvətdir, qocaldan məni?

[573] Saxta şərafətdi, qocaldan məni.

[574]*II variant* Cəmil Əkbər söz deməkdən yoruldu,
Tər qönçədən şirə təki soruldu,
Çalxalana-çalxalana duruldu,
1) Zülüm-zəlaətdi, qocaldan məni. 2) Aldığım qiymətdi qocaldan məni.

Babamdan aldığım qeyrətimi mən,
Mənalı, hikmətli söhbətimi mən,
Ellərdən aldığım qiymətimi mən,
Heç kimdən, heçkəsdən almamışam mən.

Atamdan aldığım dəyanətimi,
Yenilməz iradə, qətiyyətimi,
Doğruluq, düzlüyü həqiqətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Vətəndən aldığım qüdrətimi mən,
Şərəfi, şanımı, şöhrətimi mən,
Məzmunu, mənamı, hikmətimi mən,
Heç kimdən, heçkəsdən almamışam mən.

Hatəmdən aldığım səxavətimi,
İnsafı, mürvəti, kəramətimi,
İnsanlıq naminə ləyaqətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Bu cahan mülkündə cəsarətimi,
Torpağa təzimi, ziraətimi,
Günəşdən aldığım hərarətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Bahardan aldığım şərafətimi
Nəciblik, zəriflik məlahətimi,
Ətiri, ənbəri, təravətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Bulaqdan aldığım təmizliyi mən,
Poladdan aldığım qəlizliyi mən,
Saflığı, paklığı, xalisliyi mən,
Heç kimdən, heçkəsdən  almamışam mən.

Dağlardan aldığım vüqarımı da,
Etibar, etiqad, ilqarımı da,
Bərəlgə, bərəmi, şikarımı da,
Heç kimdən, heçkəsdən almamışam mən.

Dəryadan aldığım dərinliyimi,
Zülaldan, şəkərdən şirinliyimi,
Xəzritək küləkdən sərinliyimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Torpaqdan aldığım bərəkətimi,
İşimi, gücümü, hərəkətimi,
Münbitli, münbitsiz şorəkətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

Vətəndən aldığım məharətimi,
Odumu, közümü, hərarətimi,
Bacarıq, fəhimi, fərasətimi,
Heç kimdən, heçkəsdən almamışam mən.

"Xəmsə"dən aldığım o hikmətləri,
Məzmunlu, mənalı nəsihətləri,
İncini, sədəfi, o zinətləri,
Heç kimdən, heçkəsdən almamışam mən.

Məndə qərar tutan bu məziyyəti,
Ülvi keyfiyyəti bu kəmiyyəti,
Düzlük doğruluğu bu həqiqəti,
Heç kimdən, heçkəsdən almamışam mən.

***Cəmil Əkbər*** 26. 01 – 1991

## 75. MƏN SƏNDƏN İSTƏYİRƏM!

Mən səndən istəyirəm, xətir-hörmət gözlə sən!
Vicdanından uzaşma, insaf, mürvət gözlə sən!
Həqiqətdən bərk yapış, əyrilikdən uzaqlaş!
Saxtalıqdan əl çəkib, qeyrilikdən uzaqlaş!
Ülfət qılıb, ünsiyyət qur, sədaqətə xidmət et!
Öz xalqının, Vətəninin zəhmətini çəkib get!
Tarlasına, bağçasına, öz tərini töküb get!
Mən səndən istəyirəm, qoşulmaynan şər işə,
Bədfikirə, bədxəyala, bədəmələ, vərdişə.
Kəm düşüncə, kəm xəyaldan, bicliyindən əl götür!
Sərsərilik, nadanlıqdan, gicliyindən əl götür!
Qulluq edib, yol verməynən, fitnəyə, böhtanlara!
Əqrəblərə, iblislərə, bac vermə şeytanlara!

Acgözlüyə nifrət eylə, tamahından uzaqlaş!
Savabını çoxlu qazan, günahından uzaqlaş!
Sədaqətli ol Vətənə, doğma elə, yurduna,
Ləyaqətli sərkərdə ol, minbaşı ol orduna.
Ustadlardan dərsini al, oxu, öyrən həmişə,
Törətməynən qal-qovğanı, düşməginən təşvişə.
Dözümlü ol, durumlu ol, şöhrətli ol həmişə,
Abırlı ol, həyalı ol, ismətli ol həmişə.
Haqq-sayı tez unudub nanıkorluq eyləmə!
İnsanlığa zərər vurub, ziyankarlıq eyləmə!
Eşidənlər inciməsin hərzə-hərzə dilindən,
Nifrət edib küsməsinlər, obanızdan elindən.
Mənim istəyim budur, təmiz ürəkli olun,
Saf arzulu, istəkli, təmiz diləkli olun.
Halal süfrəli olun, halal çörəkli olun,
İnsanlara dar gündə həyan, gərəkli olun.
Nə xəyanət eyləyin, nə də pislik eyləyin,
Nə höcətlik göstərin, nə də tərslik eyləyin.

***Cəmil Əkbər*** 29. 03 - 1984

## 76. MƏN ŞEİRİMİ YAZANDA…

Gözlərimin önündə adam durur hərzaman,
Haqq-sayı sümürüb, udan durur hərzaman.
Qanan durdu hərzaman, nadan durdu hərzaman,
Tərbiyədən yarımçıq dadan durdu hərzaman.

Sözlər üstə düşünüb, mən şeirimi yazanda,
Təlatümə gələrək, asta-asta qızanda,
İnsan durdu hərzaman, hər misramın önündə,
Yolağımın önündə, izlərimin önündə,
Ocağımın önündə, közlərimin önündə.

*Mən şeirimi yazanda,* ellər durdu önündə,
Neçə-neçə fəsillər, illər durdu önündə.
Nə zamandan ağlayan, gülən durdu önündə,
Gedən durdu önündə, gələn durdu önündə,
Neçə-neçə boşalan, dolan durdu önündə,
Diri-diri ölənlər, qalan durdu önündə.

*Mən şeirimi yazanda,* kütlər durdu önündə,
Neçə-neçə müqəvva, bütlər durdu önündə,
Əqidədən, məsləkdən, lütlər durdu önündə,
Ona-buna çəmkirən, itlər durdu önündə.

*Mən şeirimi yazanda,* gəda durdu önündə,
Ünsiyyətdə-ülfətdə zədə durdu önündə.
Neçə-neçə hiyləgər, yaltaq durdu önündə,
Həyasızlar, abırsız, sırtıq durdu önündə.
Hiyləgərlər, dələduz, biclər durdu önündə,
Əqidəsiz, vicdansız, kəclər durdu önündə.
Xain durdu önündə, xəbis durdu önündə,
Acgöz durdu önündə, həris durdu önündə.
Neçə-neçə nanəcib, naqis durdu önündə,
Neçə-neçə sirr qalan hədis durdu önündə.

*Mən şeirimi yazanda,* xudbin durdu önündə,
Məzlum durdu önündə, bədbin durdu önündə.
*Mən şeirimi yazanda*, hörmət durdu önündə,
Namus durdu önündə, qeyrət durdu önündə.
Şərəf durdu önündə, şöhrət durdu önündə,
Zəhmət durdu önündə, xidmət durdu önündə.
Məzmun durdu önündə, hikmət durdu önündə,
Abır durdu önündə, ismət durdu önündə.
Vətən durdu önündə, günəş durdu önündə,
Misir durdu önündə, Həbəş durdu önündə.
Dərya durdu önündə, ümman durdu önündə,
Dağlar durdu önündə, duman durdu önündə.

*Mən şeirimi yazanda,* ellər durdu önündə,
Bağçalarda bülbüllər, güllər durdu önündə.
Ölən durdu önündə, qalan durdu önündə,
Neçə məzlum fəqirlər, kalan durdu önündə.
*Mən şeirimi yazanda,* dönükləri görmüşəm,
Hər məzhəbə, hər dinə, yönükləri görmüşəm.
Dadamalı görmüşəm, ənikləri görmüşəm,
Dərrakədən, kamaldan sönükləri görmüşəm,
Yaxşıları yamana, qatanları görmüşəm,
Vicdanını atanı, satanları görmüşəm.

*Mən şeirimi yazanda,* həqiqəti görmüşəm,
İnsanlığa xas olan, ləyaqəti görmüşəm.
Neçə-neçə nöqsanı, qəbahəti görmüşəm,
Neçə-neçə küdrəti, ədavəti görmüşəm.
Sədaqətə qul olan, səxavəti görmüşəm,
Əsli-Kərəm sevdalı, məhəbbəti görmüşəm.
İxtiyarı, hüququ, sədarəti görmüşəm,
Eşq oduna yananı, hərarəti görmüşəm.
Ülfətləri seyredib, ünsiyyəti görmüşəm,
Tək bir insanı deyil, cəmiyyəti görmüşəm.

*Mən şeirimi yazanda,* ədəbaz da görmüşəm,
Hoqqabaz da görmüşəm, kəndirbaz da görmüşəm.
Vəzifəyə səhv düşüb, gələnləri görmüşəm,
Qurban gedib nəfsinə, ölənləri görmüşəm.
Neçə-neçə xaini, xəbisləri görmüşəm,
Acgözləri, şorgözü, hərisləri görmüşəm.

*Mən şeirimi yazanda,* ürəyimi görmüşəm,
Nəcib arzu-istəyi, diləyimi görmüşəm.
Öz xalqımı seyredib, millətimi görmüşəm,
Öz köksümü ötürüb, hillətimi görmüşəm.

*Mən şeirimi yazanda,* el dərdindən yazmışam,
Oxu, öyrən a qardaş, bil dərdindən yazmışam.
İstəmişəm dünyada dava-dalaş olmaya,
Nə həyəcan, nə təşviş, qorxu, təlaş olmaya.
Nə xətirə dəyilsin, nə qabaqlar çatılsın,
Nə əqidə, nə məslək, nə də vicdan atılsın.

***Cəmil Əkbər*** 21. 02 - 1991

## 77. SƏN MƏNİM GÖZÜMDƏ...

*Sən mənim gözümdə* mələksən, nəsən?
Arzusan, xəyalsan, diləksən, nəsən?
Zərifsən, lətifsən, çiçəksən ay qız,
Lalədən, reyhandan qəşəngsən ay qız.
İncisən, həssassan, paksan təmizssən,
Doğmasan, yaxınsan, candan əzizsən.
Mən səni gördükcə gəlirəm vəcdə,
Qarşında təzimlə edirəm səcdə.

*Sən mənim gözümdə* izzətsən, nəsən?
Nəşəsən, damaqsan, ləzzətsən nəsən?
Xətirsən, hörmətsən, şərəfsən, şansan,
Xəlq oldun, yarandın, nə gözəl cansan?
Günəşsən, ulduzsan, havasan, susan,
Mən sənə demirəm adi insansan.

*Sən mənim gözümdə* ləlsən, yaqutsan,
Hamıya məlumsan, artıq sübutsan.
Şahlar da baş əyib sənin yolunda,
Hərlənib, fırlanıb sağın-solunda.
Qoca da görəndə bəh-bəh deyibdir,
Bülbül də gül üçün cəh-cəh deyibdir.
Şair də görəndə vəcdə gəlibdir,
Loğman da baş əyib səcdə qılıbdır.

*Sən mənim gözümdə* dinsən, imansan,
Könlümün evində yanan bir şamsan.
*Sən mənim gözümdə* doğma bacımsan,
Namusum, qeyrətim, başda tacımsan.

*Sən mənim gözümdə* Leyli sayaqsan,
Eşqimin yolunda parlaq mayaqsan.
Sənə bağlanıbdır varlığım mənim,
Həm dağım, aranım, yaylağım mənim.
Qoy sənsiz olmasın bir günüm mənim,
Nə səsim, səmirim, nə ünüm mənim.
Qoy sənsiz olmasın bir anım mənim,
Nə varım, nə halım, nə canım mənim.
Qoy sənsiz olmasın nə səsim mənim,
Kəsilsin hünərim nəfəsim mənim.

*Sən mənim gözümdə* səmasan, aysan,
Dənizsən, ümmansan, dəryasan, çaysan.
Dərdimin ən mahir loğmanısan sən,
Təbibi, şəfası, dərmanısan sən.
Sən mənim varlığım, əzəldən bəri,
Bezmərəm yolunda töksəm də təri.

Sən mənim qəlbimin yanar odusan,[575]
Ağzımın, dilimin tamı, dadısan.[576]
Sən mənim həyatım, canım-ciyərim,
Cürət, cəsarətim, həm də hünərim.[577]
Sən mənim gözümdə ülvi, müqəddəs,
Cərrah ol qəlbimin dərdini sən kəs.[578]
Yaradan bəxş edib, gör nə qəşəngsən?
Yasəmən, qərənfil, gülsən, çiçəksən.
Dodağın qaymaqdır, dəhanın baldır,
Düşmüşəm eşqinə, demə kahaldır.

*Sən mənim gözümdə* baldan şirinsən,
Şərbətsən, noğulsan, yoxsa şəkərsən?
*Sən mənim gözümdə* təravətlisən,
Eşqin mehvərisən, hərarətlisən.
İnsaflı-mürvətli kəramətlisən,
Nə gözəl, xeyirxah, sədaqətlisən?
Qıymaram, yolumu sən gözlədəsən,
Düşüb sorağıma sən izlədəsən.
Qoy sənin yolunu mən gözləyim yar!
Sürünüm kölgənlə qeyri-ixtiyar!

***Cəmil Əkbər***

## 78. MƏNİM QƏLBİMİ QIRMA

*Mənim qəlbimi qırma,* gəda cəhalətinlə,
Törətdiyin bəd işlə, nə də qəbahətinlə.
*Qırma mənim qəlbimi*, yüz min nahaq işinlə,
Ona-buna əyilib, şıllaqlama a bala.
*Qırma mənim qəlbimi,* yersiz-yersiz sözünlə,
Yersiz əməllərinlə, səmtsiz-səmtsiz izinlə.
*Qırma mənim qəlbimi,* onu-bunu soymaqla,
Var toplayıb yığmaqla, yersiz-yersiz ədanla,
Utanıram yerinə, çıxardığın sədanla.

---

[575] Sən mənim işığım, alovum, odum.
[576] Sən mənim ağzımda hər tam, hər dadım.
[577] Sən mənim cəsarət, təpər, hünərim.
[578] Yaxın gəl qəlbimin dərdini sən kəs.

*Qırma mənim qəlbimi,* gəl yaramaz işinlə,
Onun-bunun varıyla, itilənmiş dişinlə.
*Qırma mənim qəlbimi,* bədəməlli xəyalla,
Belə sərsəm əqillə, belə sərsəm kamalla,
Belə sərsəm əqidə, belə sərsəm amalla,
Düşəcəksən gözümdən, bu görkəmlə, camalla.
*Qırma mənim qəlbimi,* hərisliklə, tamahla,
Cılızlıqla yaşayıb, nəfisliklə, günahla.
*Qırma mənim qəlbimi,* beylə divanəliklə,
Beylə laqeyd olub, beylə biganəliklə.
*Qırma mənim qəlbimi,* fərsiz-fərsiz olmaqla,
Mütiliyi göstərib, karsız-karsız olmaqla,
Söyüd kimi göyərib, barsız-barsız olmaqla,
Peysərini yoğnudub, arsız-arsız olmaqla.

***Cəmil Əkbər*** 9. 03 - 1987

## 79. GƏL MƏNİMLƏ HESABLAŞ!

*Firuzə Paşaqızının dilindən*

Mənki oldum rəhbərin,
Gəl mənimlə hesablaş!
Oldum başın, sərkərin,
Hünərindir gəl tablaş.
Bu işin əncamı var,
Bu işin matəmi var.
Bu işin sitəmi var,
Bu işdə səriştəm var,
Ağrımayan başım var.
Sən südəmər uşaqsan,
Uduzarsan yarışsan.
Çoxdur dostum, tanışım,
Həm də qohum-qardaşım.
Sən asılı adamsan,
Yetişməmiş badamsan.
Girmə mənimlə bəhsə,
Saldıraram qəfəsə.

***Cəmil Əkbər*** 1955 – oktyabr

## 80. MƏNİM ARZUM

Mənim də diləyim, arzularım var,
Dinləyin, danışım eşidin məni.
İstərdim bəşərin ürəklərindən,
Məhdud düşüncələr, diləklərindən.
Silinsin kin-küdrət, çəkilsin həsəd,
İfritə olmasın füsunkar, cəsəd.
Hər yerdə yayılsın qardaşlıq səsi,
Böyük dahilərin gözəl cümləsi.
İnsan bir-birinin yağısı deyil,
İlanın zəhəri, ağısı deyil.
Şüurlu varlıqdır, zəkası vardır,
Aləmə səs salan sədası vardır.
İnsana lazımdır əminamanlıq,
Al-günəş lazımdır, nəki qaranlıq.
Bu fani dünyada qonaq qalmışıq,
Onun vüsalına heyran olmuşuq.
Mən istərdim güllələrin səsindən,
Ürəklər diksinib, qulaq batmasın.
Silahlar işləyib şaraqha-şaraq,
Güllələr torpaqdan toz sovuraraq.
Vaxtsız ölümlərə səbəb olmasın,
Heç zaman Vətənin gülü solmasın.
Yollarda qalmasın ananın gözü,
Ürəkdə qalmasın insan arzusu.
Azadlıq, qardaşlıq daim var olsun,
Yolunu azana dünya dar olsun.

***Cəmil Əkbər*** 1958

## 81. MƏNİM XİSLƏTİM

*Xislətimi almışam, öz atamdan, anamdan,*
*Ünsiyyətdə, ülfətdə, düz atamdan, anamdan.*

Anadan olandan saf ürəkliyəm,
Ülvi-istəkliyəm, pak diləkliyəm.
İgid ata gördüm, ismətli ana,
Onlardan almışam gözəl nişana.
Bir insan oğluna əl açmayıblar,
Yalvarıb, yaxarıb, dil açmayıblar.
Az oldu, çox oldu, şükür dedilər,

Bizə lazım deyil, zikir dedilər.
Gözlərdən, könüldən tox idi onlar,
Acgözə, hərisə ox idi onlar.
Kimsəyə küsənib darılmazdılar,
İçindən çatdayıb qırılmazdılar.[579]
Aciz füqəraya dayaq oldular,
Qohuma, qardaşa mayaq oldular.
Dərsimi almışam ata-anadan,
Oxudum, öyrəndim əzəl binadan.
Məni öyrətmişdi öz müdrik atam,
Heçkəsə dəyməsin azacıq xətam.
Çalışdım hərkəsin dadına çatam,
Yaxına, uzağa, yadına çatam.
Heçkəslə olmayıb qərəzim, qəsdim,
Kimsənin gözünü tökməyib tüstüm.[580]
Düz çəkdi qəlbimdə vicdan tərəzim,[581]
Bu olub əzəldən ülvü mərəzim.
Heçkəsə qəsd edib sataşmamışam,
Qapı-bacasına daş atmamışam,
Müsibət, işgəncə daşıtmamışam.
Yoluna, izinə hasar olmadım,
Biqeyrət olmadım, yassar olmadım.
Bir insan oğluna üz verəndə qəm,
Bu dərddən alışdı mənim də sinəm.
Rəğbətim olubdur mehribanlara,
Xeyirxah, mülayim, istiqanlara.
Doğru düşünənə, düz qananlara,[582]
Yol-ərkan tanıyıb, iz qananlara.
Mətləb anlayana, söz qananlara,[583]
İşarə anlayıb, göz qananlara.[584]
Səksən nə, doxsan nə, yüz qananlara,
Dərin düşüncəli pürkamallara,
Ruhumu oxşayan gül əndamlara.

---

[579] İçindən çürüyüb qırılmazdılar.
[580] Gözləri kor edib, tökmədi tüsdüm.
[581] Düz çəkib, düz ölçüb vicdan tərəzim.
[582] Doğru dərk edənə, düz qananlara.
[583] Özünə dememiş söz qananlara.
[584] Eyhamı dərk edib, göz qananlara.

Dünyada amalım ədalət olub,
Doğruluq, düzgünlük, həqiqət olub.
Sədaqət, səxavət, kəramət olub,
Ehtiram, etiqat, mərhəmət olub.
Ədəb-ərkan olub, nəzakət olub,
İnsanlıq naminə əlamət olub.
Bu yoldan azacıq yayınanda mən,
Saraldı qəlbimdə güllər, yasəmən.
Azıb özgə yana uzaşan zaman,
Vicdanım, məsləkim vermədi aman.
Özüm də özümə nifrət eylədim,
Küdurət saxlayıb, hiddət eylədim.
Korlandı əsəbim, qaraldı qanım,
Sarsıldı varlığım, üzüldü canım.
Nə üçün gizlədim, nə üçün danım?
Əziz vətəndaşım, ay din-imanım?
Sandımki dünyada günahımdı bu,
Fəryadım, naləmdi, həm ahımdı bu.
Nifrətim olubdur həyasızlara,
Amalsız, məsləksiz, qayəsizlərə.[585]
Kətəyənsayağı sayəsizlərə,
Təlimi kəm alan dayəsizlərə.
Kamalı kəmlərə, dəliqanlara,
Diri görünsə də ölücanlara.
Haqq-say itirən nanıkorlara,
Övladı-bəşərə ziyankarlara.
Hiyləgər, dələduz, yaltaqlara da,
Hərdəmxəyallara, şıltaqlara da.
Lovğa, yekəxana, dambatlara da,
Araqızışdıran Sumbatlara da.
Gicbəsər, dəngəsər, sərsərilərə,
Kəmağıl, kütbeyin, dəngəsərlərə.
Nifrətim olubdur xəbislərə də,
Acgöz tamahkara, hərislərə də,
Nanəcib, naxələf, naqislərə də.
Qantökən zalıma, cəlladlara da,
Bədəsil, nanəcib, xoryadlara da.

[585] Məsləksiz olana, qayəsizlərə.

Xətirə, hörmətə biganəyə də,
Əqildən kasada, divanəyə də.
Nanıkor olana, qədirbilməzə, [586]
Haqqın yollarıyla gedib-gəlməzə.
Hiyləgər biclərə, dələduzlara,[587]
Eşqi sönüklərə, qəlbi buzlara.[588]
Nifrət eyləmişəm şər deyənlərə,
Qalay, qurğuşuna, zər deyənlərə.
Fəhm-fərasətə darılana da,
Çürüyüb içindən qırılana da.
İnsafsız, mürvətsiz, qəlbidaşlara,
Filə hücum çəkən alabaşlara.
Yataryerimızə, tənbəllərə də,
Həyat yollarında əngəllərə də.
Yolunu, izini azanlara da,
Ünsiyyət-ülfəti pozanlara da.
Doğrunu tərsinə yozanlara da,
Ayaqlar altından qazanlara da.
Nifrətim olubdur sönükbaşlara,
İlqara-imana dönükbaşlara.
Min səmtə üz tutan yönükbaşlara,
Ellərin varına ənikbaşlara.
Hörmətim olubdur, zəhmət əhlinə,
Vətənə, xalqına xidmət əhlinə,
Mənalar kəsb edən hikmət əhlinə.
Nəcib təbiətli doğulmuşam mən,
İlhamım, həvəsim, hissiyatım var.
Sanmayın bu yolda soğulmuşam mən,
Dözümüm, durumum, dəyanətim var.
Məhəbbət şahinim dağları aşır,
Dövr edir bədəndə al-qanım coşur.
İdrakım, düşüncəm qaynayıb daşır,
Sığmır məcrasına, həddini aşır,
Gözəllik eşqilə dastanlar qoşur.
Eşqin-məhəbbətin divanəsiyəm,

[586] İnsafsız, mürvətsix qədir bilməzə.
[587] Araqarışdıran dələduzlara.
[588] Vicdanı kəmlərə, qəlbi buzlara.

Atanın, ananın yeganəsiyəm.
İncisi, sədəfi, dürdanəsiyəm,
Səməndər quşuyam, pərvanəsiyəm.
Cəmiləm, tanıyıb bilməyən bilsin,
İstər hünərimlə sevinsin, gülsün,
Uzaqda durmayıb yanıma gəlsin,
İstəyir darılsın, istərsə ölsün.

***Cəmil Əkbər***

## 82. ZİDDİYYƏT

Bir yanda bahardır, bir yanda qışdır,
Bir yanda qar yağır, bir yan yağışdır.
Bir yanda gecədir, bir yanda gündüz,
Bir yan dərə-təpə bir yan da dümdüz.
Bir yanda tikilir, saray ucalır, [589]
Bir yanda daxmalar uçur qocalır.[590]
Bir yanda dövlət var, bir yanda sərvət,
Bir yan da, yoxluqdan çəkir məşəqqət.
Bir yanda cah-calal, kef var, nəşə var,[591]
Bir yanda müsibət, min isgəncə var.[592]
Birisi zəlitək qan çəkməkdədir,
Biri də, sozalıb can çəkməkdədir.
Birisi möhtacdır çörəyə, duza,
Biri də, dartılır göydə ulduza.
Birinin varı var, iştahı yoxdur,
İştah olanın da üç şahı yoxdur.
Birisi dağ çəkir, biri dağlanır,
Birisi sozalır, biri yağlanır.[593]
Birisi ağlayır, biri ağladır,
Biri qapı açır, biri bağladır.[594]
Biri tər içində boğulmaqdadır,
Biri də şişməkdə, yoğnumaqdadır.

---

[589] Bir yanda saraylar ucalır göyə.
[590] Bir yanda tikilir daxmalar, dəyə.
[591] Bir yanda yemək var, kef var, nəşə var.
[592] Bir yanda əzab var, min isgəncə var.
[593] Birisi ət tökür, biri yağlanır.
[594] Birisi yol açır, biri bağladır.

Biri süd gölündə üzüb dolanır,
Biri sudan yanır, biri sulanır.[595]
Bir yanda şərəf var, bir yanda şöhrət,
Bir yanda qüssə-qəm, bir yanda möhnət.
Birisi gül kimi açılmaqdadır,
Biri qönçəikən soluxmaqdadır.
Birisi arzuya, kama da çatır,
Biri də böyüyüb tama da çatır.
Biri də yastıqda, azarda yatır,
Üç-beş ay içində məzarda yatır.[596]
Birisi doğulur, birisi ölür,
Birisi ağlayır, birisi gülür.
Birisi ucalır, birisi enir,
Biri alovlanır, birisi sönür.[597]
Birinin damarı çıxıbdır üzə,
Tükənib taqəti, güvənmir dizə.
Birinin peysəri, süksünü dönmür,
Gur yanır ocağı, işığı sönmür.
Birinin möhkəmdir kökü, kömənci,
Biri fəqir, yoxsul, lütdür, dilənçi.
Bilmirsən əsili, nəsili kimdir?
Bəlkə də çaqqaldır, tuladır, itdir?
Əyridir, oğrudur, nacinsdir zatı,
Başına salasan ala bir çatı.
Dayısı qumarbaz, əmisi lotu,
Bürüyür tarlanı alağın otu.
Naqisdir əcdadı, babası bicdir,
Kökü, sülaləsi nəki var gicdir.[598]
Zatı xarablardan nə doğub törər?[599]
Kim fayda götürüb, kim xeyir görər?
Ölənə hay vermir, qalanlara pay,
Yetişmir haraya zayın oğlu, zay.
Bilməyir ülfət nə, ünsiyyət nədir?

---

[595] Biri korluq çəkir, biri sulanır.
[596] Biri də bir yaşda məzarda yatır.
[597] Birisi alışır, birisi sönür.
[598] Nəvə nəticəsi, nəki var gicdir.
[599] Naqis əcdadlardan nə doğub törər?

Xeyirxahlıq nədir, xoşniyyət nədir?
Düşünüb dərk etmir, anlayıb qanmır,
Dünya alışsa da, bir tükü yanmır.
Dönükdü peymana, əhdə-ilqara,
Nəsil-nəcabəti tamam avara.
Deyirsən eşitmir, nəsihət nədir?
Nə xahiş, təvəqqə, ya minnət nədir?
Xaindir, xəbisdir, qəlbiqaradır,
Əqidə kasaddır, məslək paradır.
Kamaldan dayazdır, başı da boşdur,
Həmədan eşşəyi, lap "hoşha-hoş"dur.
Eləbil yaranıb dünyaya qəhər,
Söhbəti acıdır, dili də zəhər.
Çibistan doludur, qəlbi kasaddır,
Xalqına zülm edən istibidaddır.
Birisi ölüdür, nə də diridir,
Nə kiçik, nə xırda, nə də iridir.

Birisi xaindir, vəfa, ilqara,
Düzəlməz heç zaman, çəksən də dara.
Birisi eşitmir min nəsihəti,
Etsəndə təvəqqi, xahiş, minnəti.
Gəlməyir dilinə düzlük, doğruluq,
Törədir cinayət, edir oğruluq.
Düşünüb dərk etmir, nə də qanmayır,
Qəlbi məhəbbətlə alovlanmayır.
Varlığı, vücudu heçdir, hədərdir,
Xalqına qüssədir, qəmdir, kədərdir.
Fitnədir, fəsaddır, çox qeylü-qaldır,
Yetişmək bilməyir, əbədi kaldır.
Birisi ölsə də, danışmaz yalan,
Salsan da üstünə əjdaha, ilan.

Birisi dünyanın qəhrini çəkir,
Qəm yeyir, sızlayır, gözyaşı tökür.
Biri də dünyaya eynəklə baxır,
Tikanlar batırıb, iynələr soxur.
Bilməyir istək nə, məhəbbət nədir?
Sədaqət, səxavət, kəramət nədir?

Sanırsan dəlidir, ya divanədir,
Laqeyd, əhli-kef ya biganədir.
Ellərdən kin-küdrət, möhnət qazanır,
Lənətlər qazanır, nifrət qazanır.
Xətada, bəlada, qeylü-qaldadır,
Özü də bilməyir heç nə haldadır?
Hansı düşüncədə, nə xəyaldadır?
Hansı cığırdadır, hansı yoldadır?
Əlindən, dilindən gəlmir yaxşılıq,
Göstərir nadanlıq, edir naşılıq.
Günəş də gözündə qara görünür,
Vicdan da, məslək də para görünür.
Hiylədir, kələkdir, fitnə-felmandır,
Eləbil əqrəbdir, şahmar ilandır.[600]
Ölsə də dilinə doğru söz gəlmir,[601]
Girsədə qəbirə, qozbel düzəlmir.[602]
Dondan-dona düşüb kələk qururlar,
Ötəri əl verib hal da sorurlar.
Meyl edir küləktək, həryana əsir,
Sədaqət, səxavət nəki var kəsir.
Biri yaxşılığı edibdir peşə,
Düşməyir həyəcan, nə də təşvişə.
Birinin qəlbində vicdan tapılmır,
Mənim istədiyim insan tapılmır.
Birisi yelbeyin, çox dəngəsərdir,
Acizdir, fəqirdir, çox füqəradır,
Biri də cahildir, nadan gədədir.
Birinin vicdanı pakdır, təmizdir,
Xalqına mehriban, doğma, əzizdir.
Tanınır, sayılır bütün ellərdə,
Əməli söz salır hər könüllərdə.
Biri öz evində tanınmır belə,
Böyüyüb yetişmir gəlmir əmələ.
Birisi tez görür, tez də götürür,
Hər arzu, mətləbə çatıb yetişir.

[600] Eləbil şahmardır, əfi ilandır.
[601] Birinin dilinə doğru söz gəlməz,
[602] Qəbirə girsədə əsla düzəlməz.

Dünyaya sığmayan idrakı vardır,
Qəlbində yaşayan namusdur, ardır.
Birinin yaxşılıq götürmür gözü,
Bişirmir kababı, sönükdür közü.
Birinin başına gen dünya dardır,
Vicdandan kasaddır, məsləkdən kardır.
Birisi aldadır, biri aldanır,
Biri də ocaqsız alışıb yanır.
Birisi həyatdan min ilham alır,
Ellərin, obanın qeydinə qalır.
Birisi bilməyir, ünsiyyət nədir?
Xeyirxah arzu nə, xoşniyyət nədir?
Əql-kamal yoxdur, çatmır düşüncə,
Verir digərinə, zülm, işgəncə.
Birinin düzgündür, pakdı vicdanı,
Unutmur ilqarı, əhd-peymanı.
Birisi qanmayır böyük kiçiyi,
Biri də it sayır, körpə küçüyü.
Birisi pələngə çaqqaldır deyir,
Mərdlərə lağ edir, naqqaldır deyir.
Övladı-bəşərə ləkə gətirir,
Gül-çiçək yerində tikan bitirir.
Yaxşını-yamanı görə bilməyir,
Aldığı borcları verə bilməyir.
Özünü hamıdan çoxbilən sayır,
Ürəyi titrəyir, könlü axsayır.
Fitnələr törədib, aralıq qatır,
Həmişə yaxşını-yamana satır.
Qaynayıb dolmamış, sellənib daşır,
Gözləmir hüdudu, həddini aşır.
Evinin içində sayılmır belə,
Doğulandan sərxoş, ayılmır hələ.
Yetişib, böyüyüb gəlməyir ələ,
Yaramır mahala, obaya, elə.
Əqldən kütbeyin, tamahdan iti,
Bəyənmir pambıqdan parçanı, çiti.
Axtarır "qabardin", "metro"nu, "şal"ı,
Gəşt edir dünyanı, gəzir mahalı.

Birisi oxuyur, birisi yazır,
Biri də dolaşıb yollarda azır.
Biri də silərək yazını pozur.
Poza bilməsə də, tərsinə yozur.

Birisi dünyanın dərdini çəkir,
Birinin dünyalar dərdini çəkir.
Bağbanı olanın bağçası yoxdur,
Kitabı olanın taxçası yoxdur.
Taxçası olanın kitabı yoxdur,
İnsanlıq naminə hesabı yoxdur.
Birisi yüzcürə geyinər, yeyər,
Biri də ac qalar, bəxtinə söyər.
Birisi lovğadır, yekəxanadır,
Qısqancdır, qorxaqdır, axta danadır.
Birisi gözəldir, baxıb can alır,
Biri də çirkindir, bağrı qaralır.
Birisi yaxşıdır, birisi pisdir,
Birisi xeyirxah, birisi nəsdir.
Birinin atası, anası mərddir,
Təbiət bəxş edən böyük nemətdir.
Eşq-məhəbbətdən saraylar qurur,
Məclislər düzəldir, halaylar qurur.

Birisi günləri verməyib bada,
Sayılır, seçilir eldə-obada.
Seyr edir dünyanı görür, götürür,
Tər tökür, becərir, əkir, bitirir.
Düşünür, dərk edir, kamala çatır,
Məsləkə, vicdana, amala çatır.
Düzgün fikirləşir, dəqiq danışır,
İşinə, gücünə sadiq yanaşır.
Doğruluq, düzlükdə şöhrət qazanır,[603]
Ar-namus toplayıb, qeyrət qazanır.
Dost-tanış qazanır, yadlar qazanır,[604]

[603]Çalışır, vuruşur şöhrət qazanır.

Ellərdə, obada hörmət qazanır,
Adının üstünə adlar qazanır.
Biri də ən gözəl adı batırır,
Qohumu itirir, yadı itirir.

Birisi qoçaqdır, igiddir, nərdir,
Şücaət, cəsarət var, bu hünərdir.
Bəşər övladına qol-qanad verir,
Koroğlu, Fərhada o isnad verir.
Əyilmir vüqarı, dağtək ucalır,
Ulduza yüksəlir, aydan bac alır.
Bir günün içində yüz gün yaşayır,
Elin dərd yükünü çəkir, daşıyır.
Ölsədə eləbil yaşayır, gəzir,
Könül diyarından gül-çiçək üzür.
Birisi ilantək yerdə sürünür,
Biri də al-əlvan dona bürünür.
Kimsəni satmayır, nə də satılmır,
Yay kimi dartılıb, oxtək atılmır.
Yaşayır, yaradır alın tərilə,
Özünün zəhməti, öz hünərilə.
Həyata qəlbinin gözüylə baxır,
Ay kimi parlayıb, günəştək çıxır.
Vicdandan, məsləkdən pakdır, təmizdir,
Mehriban, səmimi, doğma, əzizdir.
Fikirdə, xəyalda sözdə dərindir,
Yollarda, cığırda, izdə dərindir.
Dünyada heç kimə yalan danışmaz,
Bilmədiyi bir iş olsa qarışmaz.
İnsafı, vicdanı, kənara atmır,
Aldanıb tamaha, dinara satmır.
Zəkalı başı var, amalı dərin,
Arzusu, diləyi, məramı şirin.
Birisi yaranıb dünyaya qəhər,
Sözləri çox acı, dilində zəhər.
Birisi incidir, birisi küsür,
Sədaqət, səxavət, hörməti kəsir.

---

[604] Yüzlərlə dost tutub yadlar qazanır.

Birisi yüz yerdə min kələk qurur,
Ötəri əl verib hal-əhval sorur.
Birisi bağ salır, güllər də əkir,
Ona tər axıdıb, zəhmət də çəkir.
Biri bağ becərmir, meyvələr yeyir,
Bağbana lağ edib, ağzına əyir.
Nübarı bəsləyən budağı qırır.[605]
Gəmirib meyvəni yerlərə çırpır.[606]
Birisi bağ salır, bağban olmayır,
Böyüyüb, boy atıb yaşa dolmayır.
Birisi bağçadır, bağbanı yoxdur,
Birisi bağbandır, bağçası yoxdur.
Bilinmir nəçidir, nəkarəçidir,
Eləbil "siqandır", ya qaraçıdır.
Beylə eybəcərdən nə doğub törər?
Kim fayda götürüb, kim xeyir görər?

Birinin ağzından tökülür dürlər,
Səpilir incilər, tökülür zərlər.
Kamalı cahana nur işıq saçır,[607]
İnsanlıq elmində geniş yol açır.[608]
Biri yarasatək zülmətdə uçur,
İşıqlı dünyadan kənara qaçır.
Birisi vurğundur, əhdə, ilqara,
Dönməz öz yolundan çəkilsə dara.
Anlayır, düşünür, dərk edir, qanır,
Qəlbi vicdanının oduna yanır.
Çalışır, öyrənir, oxuyur, yazır,
Bəd sözü, əməli nəki var pozur.
Halaldı mayası, təmizdi qanı,
Xalisdi cövhəri, gövhəri-kanı.
Gözləyir ədəbi, yolu-ərkanı,
Unutmur heçzaman əhd-peymanı.
Elinin, gününün qeydinə qalır,
Etdiyi xidmətdən min ilham alır.[609]

[605] Əfsus ki, bar verən butağı qırır.
[606] Dişləyib meyvəsin yerlərə vurur.
[607] Birisi həyata nur işıq saçır,
[608] Geniş meydan açır, geniş yol açır.

Heç bilməz nə hiylə, nədəki kələk,
Eləbil hurimi, qılmanmı, mələk?
Görünür, tanınır, mərd oğlu mərddir,
Yenilməz qüvvəsi, böyük hünərdir.

Belədir əzəldən sirli kainat,
Adi bir "peşka" da şahı edir mat.
Əzəldən qurulub bu həyat belə,
Bir yanda ağa var, bir yanda kölə.
Yaxşılar yamanla gəlib üz-üzə,
Düşüb öcəşməyə gəlib söz-sözə.
Güclülər gücsüzlə diz-dizə gəlib,
Günəş də dumanla göz-gözə gəlib.
Birisi köç edir, biri doğulur,
Ziddiyyət içində fikir boğulur.
Olsaydı dünyada bəlkə eyniyyət,
Olmazdı nə xəta, nə də bədniyyət.
Bəlkə də həyatın kefi, ləzzəti,[610]
Xətiri, hörməti, cəmi izzəti.
Həm kefi, həm zövqü, həm məşəqqəti,
Dünyada baş verən ziddiyyətdədir,
Övladı-bəşərdə, cəmiyyətdədir,
Gözəllik aləmi təbiətdədir.
Bəlkə də olsaydı tamam eyniyyət,
Yaşaya bilməzdi özü təbiət.

Arzumuz budur ki, bu mənfi tiplər,
Azmayıb yolunu tez düzələlər.[611]
Olmaya həyatda naqis, avara,
Xain tapılmaya əhdə, ilqara.
Könüldə qalmaya nə qüssə, nə qəm,
Hərkəsdən hamıya olaydı həmdəm.
Nə paxıl olaydı, nə qəlbiqara,
Paxıllıq, xainlik, insanlıq hara?
Könüldən-könülə yol açılaydı,

---

[609] Çəkdiyi zəhmətdən min ilham alır.
[610] Nə bilim dünyanın bəlkə ləzzəti,
[611] Həyatda çevrilib tez düzələlər.

Sədaqət-səxavət bol açılaydı.
Əzib tapdamaya insan-insanı,
Töküb axıtmaya nahaqdan qanı.
Olmaya arada qərəz, təmənna,
Nə böhtan, nə yalan, nə də bəhanə.
İnsanlar insana vicdanla baxa,
Nadanlar əlindən qurtula yaxa.

***Cəmil Əkbər*** 1964 – 1984

## 83. KİRİMƏZ

*I variant*

*Nəqədərki* insan oğlu kal qalıb?
Düşünməyib, dərk etməyib, mal qalıb?[612]
Tay-tuşunudan geri qalıb, dal qalıb?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

*Nəqədərki* bu dünyada pislik var?
Bədxahlıq var, zalımlıq var, nəslik var?
Höcətlik var, inadlıq var, tərslik var?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

*Nəqədərki* yer üzündə zillət var?
Ağrı-acı, dərd-azar var, hillət var?
Bəşər oğlu, cəmiyyət var, millət var?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

*Nəqədərki* kol-koslar var, tikan var?
Dağıdan var, talayan var, sökən var?
Bezikdirib zəhləlir tökən var?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

[612] Oxumayıb, öyrənməyib, mal qalıb?

*Nəqədərki* vicdan-məslək susubdur?
İnsanoğlu birbirindən küsübdür?
Əllərini ətəyindən kəsibdir?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

*Nəqədərki* bu dünyada təzad var?
Ahı-fəqan, qəm-qüssə var fəryad var?
Keçəl Həmzə, Koroğlu var, Fərhad var?
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

Cəmil Əkbər, ədalətdən güc alıb,
Doğru-düzlük, həqiqətdən güc alıb,
Xeyirxahlıq, fəzilətdən güc alıb,
Mənim sözüm-söhbətim də kiriməz,
Qəzəbim də, hiddətim də kiriməz.

***Cəmil Əkbər*** 19. 05 -1993

## 84. TÜKƏNMƏZ

*II variant*

*Nəqədərki* haqqın səsi boğulur?
Mənim iradlarım bitib, tükənməz.
Haqq yerinə, nahaq gəlib doğulur?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* öldürən var, ölən var?
Ağlayan var, sızlayan var, gülən var?
El varını sökhasök var, şülən var?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* meydan açır gədələr?
Cibi pullu, gönü qalın dədələr?
Könüllərdə qövr eyləyir zədələr?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* ünsiyyəti pozurlar?
Güzarını səhv salırlar, azırlar?
Ayaq altdan dərin quyu qazırlar?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* həyasızlar görürəm?
Əqidəsiz, qayəsizlər görürəm?
Tərbiyəsiz, dayəsizlər görürəm?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* cahillər var, nadan var?
Tərbiyədən dadar-doymaz dadan var?
Haqq-sayı birnəfəsə udan var?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* ağ deyilir qaraya?
Duz səpirlər qövr eləyən yaraya?
Çatan yoxdur səsə, ünə, haraya,
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* ləyaqətlər boğulur?
Ləyaqətsiz zühur edib doğulur?
Fikir, xəyal yerbəyerdən dağılır?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* hiyləgər də, bic də var?
Xain də var, xəbis də var, kəc də var?
Sərsəri də, kəmağıl da, gic də var?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* həqiqətə qənim var?
Ədəb-ərkan, mərifətə qənim var?
Xeyirxahlıq, fəzilətə qənim var?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* düz düşünüb görən yox?
Öz borcunu qaytaran yox, verən yox?
Zəhmətinin meyvəsini dərən yox?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* müqəvvalar başdadır?
Bozartmada, kababdadır, aşdadılr?
Səhər tezdən araqdadır, xaşdadır?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* kara çatan dayı var?
Kölgəsi var, sovqatı var, payı var?
Sirdaşı var, yoldaşı var, tayı var?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* qanun-qayda pozulur?
Əyri düzə, düz əyriyə yozulur?
Mərd igidlər inildəyir, sozalır?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

*Nəqədərki* məhəl yoxdur hörmətə?
Sədaqətə, səxavətə, mürvətə?
Bu mənəvi gözəlliyə, sərvətə?
Mənim iradlarım bitib, tükənməz.
Hiddətim, nifrətim heçvaxt tükənməz.

***Cəmil Əkbər*** 17- 20 / – 1993

## 85. OLACAQ

*III variant*

*Nəqədərki* bu dünyada nadan var?
Mənim əmrim, töhmətim də olacaq.
Addımını tərsəməssəb adan var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.[613]

[613]*II variant* Nəqədər dünyada naqis görürəm,
Mənim səsim-söhbətim də olacaq.
Tamahkar, acgözlər, həris görürəm,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* ünsiyyəti pozan var?
Şər danışıb, böhtanları yazan var?
Ayaq altdan eşənlər var, qazan var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* saxtalıq var, yalan var?
Məzlum, fəqir, kasıb-kusub, kalan var?[614]
Onu-bunu əqrəb kimi çalan var?
Mənim sözüm-söhbətim də olacaq.
Qəzəb, hiddət, nifrətim də olacaq.[615]

*Nəqədərki* bezdirən var, bezən var?
Aralıqda boş-bikarə gəzən var?
Səbr edən var, tablaşan var, dözən var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* paxıl, xain, xəbis var?
Nanəcib, nadürüst,  namərd, naqis var?
Tamahkar var, şorgöz, acgöz, həris var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* vicdanını atan var?
Kol-kos olub ayaqlara batan var? [616]
Mərd igidi namərdlərə satan var?[617]
Mənim sözüm-sö hbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.[618]

---

[614] Dağılan var, sökülən var, talan var.
[615] Qəzəb, hiddət, nifrətim də olacaq.
[616] Namərdliklə muradına çatan var.
[617] Onun-bunun kölgəsində yatan var.
[618]*II variant* Nəqədərki aralığı qatan var,
Vicdanını, qeyrətini satan var,
Namərdliklə məqsədinə çatan var,
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* ədaləti boğurlar?
Doğruluğu, həqiqəti boğurlar?
İnsanlığı, ləyaqəti boğurlar?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* könüllərə dəyirlər?
Harın-harın döşürürlər yeyirlər?
Altdan-üstdən bəzənirlər, geyirlər?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* əl-ayaqda qalan var?
Dağılan var, sökülən var, talan var?
Xəzan vuran, saralan var, solan var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* cinayət var dünyada?[619]
Paxıllıq var, xəyanət var dünyada?[620]
Yalan-yanlıc bəyanət var dünyada?[621]
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* həyasız var cahanda?
Əqidəsiz, qayəsiz var cahanda?
Tərbiyəsiz, dayəsiz var cahanda?[622]
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* pis yayılır, sədalar?
Yerə-göyə sığışmayır ədalar?
Gəlib bizə yol göstərir gədalar?[623]
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

---

[619] Nəqədərki qəbahət var dünyada.
[620] Elə, xalqa xəyanət var dünyada.
[621] 1) Yersiz-yersizbəyanət var dünyada. 2) Qan qaraldan bəyanət var dünyada.
[622] Təlimsiz var, dayəsiz var dünyada.
[623] 1) Kəsilməyir dava-dalaş, qadalar. 2) Başımızı dəng eyləyir gədalar.

*Nəqədərki* böyük-kiçik sayan yox?[624]
Hərkəsdəni öz yerinə qoyan yox?
Günahını təmizləyib yuyan yox?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* qamətləri bükən var?[625]
Gözyaşını axıdan var, tökən var?[626]
Dağıdıb-talayan, qırıb sökən var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* ayaq başla yarışır?
Yaxşı-pisə, pis yaxşıya qarışır?
Tülkü hinə, qurd sürüyə sırışır?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.[627]

Qınamasın, oba məni, el məni,
Ağız, dəhan, dodaq məni, dil məni,
Neçə-neçə qərinrələr, il məni,
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* səfalət var dünyada?[628]
Avamlıq var, cəhalət var dünyada?[629]
Addımbaşı qəbahət var dünyada?[630]
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

---

[624] Nəqədərki ağsaqqalı sayan yox.
[625] Şah vüqarı, qamətləri bükən var.
[626] 1) Qəlbə dəyib zəhlələri tökən var. 2) Bezikdirib zəhlələri tökən var,
[627] *II variant* Nəqədərki yaxşı pisə qarışır,
Qalay, gümüş, qızıl misə qarışır,
Xeyirxahlar gedib nəsə qarışır,
Mənim sözüm-söhbətim də olacaq.
[628] Ehtiyac var, səfalət var dünyada.
[629] Nadanlıq var, cəhalət var dünyada.
[630] Pis vərdiş var, pis adət var, dünyada.

*Nəqədərki* gədə gəlib bəy olur?
Avam "alim", alimlər də "key" olur?
Xəsis "hatəm", hatəmlər də "göy" olur?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* gedən yoxdur düzünə?
Qiymət yoxdur nər oğluna, qızına?
Baxan yoxdur yolağına, izinə?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* bu dünyada dava var?
Asimanda zəhərlənmiş hava var?
Sərsəri var, kəmağıl var, yava var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* əzilən var, əzən var?
İncidən var, inciyən var, bezən var?
Dərd-qəm verib ürəkləri üzən var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* ünsiyyətlər düzəlmir?
Pis arzular, nəs niyyətlər düzəlmir?
Zaman keçir cəmiyyətlər düzəlmir?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* gözü yolda qalan var?
Fikirlərə, xəyallara dalan var?
Üzcıran var, saçlarını yolan var?
Mənim sözüm-söhbətim də olacaq,
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* həyasızlar susmayır?
Yediyini, içdiyini qusmayır?
Gilavarı meh gətirib əsməyir?
Mənim sözüm-söhbətim də olacaq
Qəzəb, hiddət, nifrətim də olacaq.

*Nəqədərki* qaraya ağ deyirlər?
Bağa kol-kos, kol-kosa bağ deyirlər?
Hərzə-hərzə ustada lağ deyirlər?
Mənim sözüm-söhbətim də olacaq
Qəzəb, hiddət, nifrətim də olacaq.

***Cəmil Əkbər*** 16-18 / 05 – 1993

## 86. QALACAQ!

*IV variant*

*Nəqədərki* cəsədimdə canım var?
Damarımda cövlan edən qanım var?
Halal süddən zülalım var, şanım var?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* düşünürəm, qanıram?
Haqq-sayı yada salıb anıram?
El dərdinə için-için yanıram?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* saf ürəklər yaşayır?
Halal süfrə, duz-çörəklər yaşayır?
Xoş məramlar, pak niyyətlər yaşayır?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* ləyaqətdən nişan var?
Doğru-düzlük, həqiqətdən nişan var?
Ədəb-ərkan, nəzakətdən nişan var?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* bu sinəmdə ürək var?
Ülvi istək, nəcib arzu-dilək var?
Xalqım üçün ediləsi kömək var?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* dərk eyliyən başım var?
Düşüncəm var, idrakım var, huşum var?
Həyatım var, ömür-günüm, yaşım var?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* xətir-hörmət yaşayır?
Vicdan, məslək, insaf-mürvət yaşayır?
Şərafət yaşayır, şöhrət yaşayır?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* ağsaqqalı sayırlar?
Dərdbiləni, əhli-halı sayırlar?
Hikmət əhli, pürkamalı sayırlar?
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

*Nəqədərki* bu dünyada qanan var?
Haqq-sayı yada salıb anan var?
Qədirbilən gözəllər var, canan var?[631]
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!

---

[631] Qədirbilən mürvət əhli, canan var.

El qəlbində yaxşıların yeri var,
Zəhməti var, hünəri var, təri var,
Əşrəfi, incisi, sədəf, zəri var,
Mənim xətrim, hörmətim var olacaq,
Sağlam fikir, niyyətim var olacaq,
Məzmun, məna, hikmətim var, qalacaq!
***Cəmil Əkbər*** 16-18 / 05 – 1993

## 87. KİM SEVİRSƏ, SEVİLİRSƏ

*Kim sevirsə-sevilirsə,* əsl ürək onunkudur,
Saf arzular, pak düşüncə, ülvi dilək onunkudur.[632]
Yer də, göy də, təbiət də, sevilənin, sevənindir,
Küllü-aləm, bəşəriyyət, bu yol ilə gedənindir.[633]
Bu el-oba, bu yal-yamac, bu dağ-dərə onunkudur,[634]
Könülləri ram eyləyən, bu mənzərə onunkudur.[635]
Bahar fəsli lalə-nərgiz, çəmənzar da onunkudur,[636]
Ətri zərif, xətri incə, güllüzar da onunkudur.[637]
Milyon illər ötüşsədə, odur bilin yaşayanlar,
Adı-sanı əsrlərdən-əsrlərə daşıyanlar.
*Kim sevirsə-sevilirsə,* şərafət də onunkudur,
Qabiliyyət, məharət də, ləyaqət də onunkudur.[638]
Ədəb-ərkan mərifət də, nəzakət də onunkudur,[639]
Səxavət də, kəramət də, sədaqət də onunkudur.[640]
Doğruluq da, düzgünlük də, həqiqət də onunkudur,
Əbədiyyət onunkudur, nihayət də onunkudur.
İxtiyar da, iqtidar da, sədarət də onunkudur,
Bacarıq da, fərasət də, cəsarət onunkudur.[641]
Yer üzündə oğul-qız da sevilənin, sevənindir,

---

[632] 1)Sağlam arzu, nəcib dilək, təmiz ürək onunkudur. 2) Sağlam bədən, sağlam ürək, təmiz dilək onunkudur.
[633] Külli-aləm, bəşəriyyət, bu məramla ölənindir.
[634] Bu el-oba, bu yurd-yuva, bu dağ-dərə onunkudur.
[635] Harda varsa gözəl-göyçək, bu mənzərə onunkudur.
[636] Bahar fəsli, lalə-nərgiz, sevilənin, sevənindir.
[637] Çiçək açan güllüzar da, sevilənin, sevənindir.
[638] 1)Ünsiyyətdə mövcud olan ləyaqət də onunkudur. 2) Ünsiyyətdə hər gözəllik, ləyaqət də onunkudur. 3) Yerdə, göydə gözəlliklər, ləyaqət də onunkudur. 4) Qəlbə yatan, ruh oxşayan, ləyqət də onunkudur.
[639] 1)Ədəb-ərkan, ehtiram da, nəzakət də onunkudur. 2) Ədəb-ərkan nəzakət də, mərifət də onunkudur.
[640] Ünsiyyətdə, ülfətlərdə sədaqət də onunkudur.
[641] Qorxu-ülkü tanımayan, cəsarət də onunkudur.

Mövcud olan çox da, az da sevilənin, sevənindir.
Gözəl şeir, gözəl dastan harda varsa onunkudur,
Şərəfli ünvan, gözəl ad, nəki varsa onunkudur.

*Kim sevirsə-sevilirsə,* ən zəkalı loğman odur,[642]
Uzaqlara seyrə çıxan, düz düşünən, qanan odur.[643]
Səmimiyyət, mehribanlıq, məhəbbət də onunkudur,[644]
Zəriflik də, nəciblik də, məlahət də onunkudur,[645]
Qızılgültək ətir saçan, tərvət də onunkudur.
El içində etiqad da, ehtiram da onunkudur, [646]
Mehri-ülfət, əhd-peyman, düz ilqar da onunkudur.[647]

*Kim sevirsə-sevilirsə,* xəzan olub solan deyil,[648]
O yaşayır ürəklərdə, ayaq altda qalan deyil.[649]
Qazanılan qələbələr, zəfərlər də onunkudur,[650]
Al-şəfəqli səhərlərə səfərlər də onunkudur.
Neçə-neçə könüllərdə, məskəni var, yeri vardır,
Yorulmayan biləklərdə, incisi var, zəri vardır.
Sevilən də, sevənlər də ürəklərdə yaşayacaq,[651]
Nəcib arzu-istəklərdə, diləklərdə yaşayacaq.[652]
Nəqədərki bu dünya var, həyat ona var olacaq?
Sevilənə, sevənlərə tale özü yar olacaq.

*Min ehtiram sevilənə,* min biri də sevənlərə,
Əhsən olsun dönə-dönə, bu ərlərə, ərənlərə.
Neçə-neçə yazılası hekayət də onunkudur,[653]
Ürəklərə ilham verən, bəyanət də onunkudur.[654]
Dözüm-durum, qətiyyət də, dəyanət onunkudur.[655]

---

[642] 1) Kim sevirsə-sevilirsə,əsl insan, loğman odur. 2) Zəka odur, düha odur, alim odur, loğman odur.
[643] Axar çaylar, daşan sellər, dərya-dəniz ümman odur.
[644] 1) Ünsiyyətə ziynət verən, məhəbbət də onunkudur, 2) Ali istək, ali həvəs, məhəbbət də onunkudur.
[645] Zəriflik də, incəlik də, məlahət də onunkudur.
[646] El içində etiqad da, etibar da onunkudur.
[647] Mehribanlıq, səmimilik, düz-ilqar da onunkudur.
[648] Qopsa tufan, əssə sazax, xəzanlarda solan deyil.
[649] Ürəklərdə məskən salıb, ayaq altda qalan deyil.
[650] Əldə olan qələbələr, zəfərlər də onunkudur.
[651] Bu məramla yaşayanlar, ürəklərdən silinən döy.
[652] Nəcib arzu-istəklərdən, diləklərdən silinən döy.
[653] Dilə düşüb dastan olan, hekayət də onunkudur.
[654] 1)Deyilməmiş, bilinməmiş, bəyanət də onunkudur. 2) Zəfər çalan, zərbə vuran, bəyanət də onunkudur.
[655] Dözüm-durum iradə də, qətiyyət də onunkudur.

*Kim sevgiyə biganəsə,* dünya ona dar olacaq,[656]
Tezi-geci, əvvəl-axır aqibətdə xar olacaq.[657]
Aranına qış düşəcək, dağlarına qar yağacaq,
Tarlasını dolu döyər, bağlarına qar yağacaq.
Məhəbbəti kəm-kəsirin aqibəti fəlakətdir,[658]
Ömrü-günü ah-nalədir, müsibətdir, rəzalətdir.
Qəzəb ilə gün keçirib, hiddət ilə öləcəkdir,[659]
Nifrət ilə yad olunub, küdurətlə öləcəkdir.[660]
Xainliklə eşələnib, xəyanətlə gedəsidir,
İçin-için çürüyərək, ədavətlə gedəsidir.
Hərbir dərdin öz dərmanı, bu sirləri bilməkdədir,
Gözündəki ləkələri birdəfəlik silməkdədir.

*Kim sevirsə-sevilirsə,* tale ona yar olacaq,
Xoş keçəcək güzəranı, dövran ona var olacaq.
Qorxu-ülkü nədir bilməz, cəsarətlə yaşayacaq,
Məğrur gəzib dolaşacaq, iftixarla yaşayacaq,
Həyatını xoş keçirib, şən vüqarla yaşayacaq.
Ha yansa da odu sönməz, hərarətlə dolanacaq,
Odu-közü, külü sönməz, məharətlə dolanacaq.
Eşqin ülvi sevdasından, yatanlar da ayılacaq,
Ötsə dövran, keçsə zaman, yad olunub sayılacaq,
Xoş sədası nur saçacaq, kainata yayılacaq.
O paslanmaz, nə çürüməz, qızıl kimi qiymətlidir,
Könüllərə rövnəq verir, bər-bəzəkli, zinətlidir.

*Kim sevirsə-sevilirsə,* dövran onun, kef onundur,[661]
Saz bir yana, tar bir yana, zurna, qaval, dəf onundur.[662]
Əsrlərlə qoy yaşasın, min ehtiram sevilənə,[663]
Zaman-zaman vaxt yetişsin, təzim edək sevənlərə.[664]
Alagözlər, qələmqaşlar, laləyanaq onunkudur,[665]

---

656 Kim sevgiyə biganəsə, əvvəl-axır xar olacaq.
657 Uzaq gedib başa varmaz, dünya ona dar olacaq.
658 Məhəbbəti olmayanın aqibəti fəlakətdir.
659 2) Qəzəb ilə gün keçirib, hiddət ilə öləsidir.
660 1) Nifrət ilə xatırlanıb, küdurətlə öləcəkdir, 2) Nifrət ilə ölüb gedər, küdrət ilə heç olacaq.
661 Ötüb-keçən dövrü-zaman, xoş güzəran onunkudur.
662 Geniş çöllər, gen tarlalar, dağlar, aran onunkudur.
663 Min ehtiram sevilənə, qoy eşq olsun sevənlərə.
664 Zaman gəlib, dövran ötsün, bu məşq olsun sevənlərə.
665 Şirin zəban, qaymaq dodaq, tuti dillər onunkudur.

Sərvi-qamət, mərmər-sinə, billur-buxaq onunkudur.[666]
Qərənfillər, lalə-nərgiz, çəmən-çiçək onunkudur,
Qəlbə yatan, ruh oxşayan, gözəl-göyçək onunkudur,[667]
Bahar olsa, qış da olsa, qar da olsa onunkudur.
Neçə-neçə aşiq-məşuq bu qüdrətlə ucalmışdır,[668]
Sinə gərib çətinliyə, zəfər çalıb bac almışdır.[669]
Bu məramla yaşayanlar, ürəklərdə qalacaqdır,
Baxıb hərbir əməlinə, ilhamını alacaqdır.

*Kim sevirsə-sevilirsə,* yaşamağa qüdrəti var,[670]
El şəninə, şərəfinə, nicatı var, nüsrəti var. [671]
Qayğısı var, yardımı var, zəhməti var, xidməti var,
Yerə-göyə sığışmayan, məzmunu var, hikməti var.
Xeyirxahlıq, fəzilət də, sevilənin, sevənindir,[672]
Gecə-gündüz Məcnun kimi eşq yoluyla gedənindir.
Sağlam arzu, təmiz fikir, saf niyyət də onunkudur,
Bu cahan da, kainat da, cəmiyyət də onunkudur.
Neçə-neçə yazılası hekayət də onunkudur,[673]
Könüllərə ilham verən, bəyanət də onunkudur.[674]
Dözüm-durum, qətiyyət də, dəyanət onunkudur.[675]
Min ehtiram sevilənə, min biri də sevənlərə,
Əhsən olsun dönə-dönə, bu ərlərə, ərənlərə.
Arı kimi şan çəkirəm, sevib-sevilən zülalım,[676]
Gözəlliyə biganələr, qəm-qüssəm, dərdi-məlalım.[677]
Cəmil Əkbər, harda varsa sevilənlər səninkidir,
Təmiz arzu, saf niyyətlər, xoş əməllər səninkidir.

***Cəmil Əkbər*** 19. 10 -1993

---

[666] Lalə yanaq, mərmər sinə, billur-buxaq onunkudur.
[667] Qəlbə yatan, ruh oxşayan, harda olsa onunkudur.
[668] Hamı bilsin ucalanlar, bu qüdrətlə ucalmışdır.
[669] Bu qüdrətlə zəfər çalıb, bu qüdrətlə bac almışdır.
[670] 1) Sevənlərin, sevilənin yaşamağa qüdrəti var. 2) Dövrü-zaman ha etsədə, yaşamağa qüdrəti var.
[671] El şəninə, el xeyrinə, nicatı var, nüsrəti var.
[672] 1) Səmimilik, xeyirxahlıq, fəzilət də onunkudur. 2) Xeyirxalıq, fəzilət də, harda varsa onunkudur.
3) Bacarıq da, məharət də, harda varsa onunkudur.
[673] Dilə düşüb dastan olan, hekayət də onunkudur.
[674] 1)Deyilməmiş, bilinməmiş, bəyanət də onunkudur. 2) Zəfər çalan, zərbə vuran, bəyanət də onunkudur.
[675] Dözüm-durum iradə də, qətiyyət də onunkudur.
[676] Sevilənlər harda varsa, şəkərimdir, zülalımdır.
[677] Gözəlliyə biganələr kədərimdir, məlalımdır.

## 88. İTİRMƏ GƏL!

*Hər nəyini sən itirsən*, kamalını itirmə gəl!
Məsləkinə xələl vurma, amalını itirmə gəl!
Tutarını, vüqarını, sambalını itirmə gəl!
Öz hüsnünü gözdən salıb, camalını itirmə gəl!
Nüfuzunu yaxşı qoru, mənliyini itirmə gəl!
Sevincini qəhərləmə, şənliyini itirmə gəl!
El içində salma gözdən, hörmətini itirmə gəl!
İnsafını əldən verib, mürvətini itirmə gəl!
Bağban olub peyvənd eylə, kol-kosları bitirmə gəl!
Nə məzəmmət, qınaq yemə, nə də möhnət götürmə gəl!
*Hər nəyini itirsən də,* qeyrətini itirmə gəl!
Şərəfini yaxşı qoru, şöhrətini itirmə gəl!
Ona-buna müti olub, qüdrətini itirmə gəl!
Ədəb-ərkan, qayda-qanun, mərfətini itirmə gəl!
*Hər nəyini itirsən də,* haqq-sayı itirmə gəl!
Nə süfrəni, nə çörəyi, nə də çayı itirmə gəl!
*Hər nəyini itirsən də,* etibarı itirmə gəl!
Bağladığın əhd-peyman, düz ilqarı itirmə gəl!
*Hər nəyini itirsən də,* qardaşını itirmə gəl!
Əqidəcə yaxın olan, yoldaşını itirmə gəl!
Öz xalqını, öz elini, millətini itirmə gəl!
Ünsiyyətdə-ülfətlərdə, kol-kosları bitirmə gəl!

***Cəmil Əkbər*** 2. 04 -1988

## 89. QEYRƏTƏ GƏL!

Vətən bizə ana olub, doğulduğun bina olub,
Bu qüvvəti, bu qüdrəti, yadına sal, qeyrətə gəl!
Odur bizə nemət verən, qol-qılçaya qüvvət verən,
Odur bizə süfrə açan, nazü-nemət, çörək verən,
Odur bizə hünər verən, təpər verən, cürət verən.
Yaşadığın doğma yurdu, el-obanı yadına sal,
Gözəl diyar, bu məskəni, bu ünvanı yadına sal.
Bu nə addır, didərginlik, götürmüsən öz üstünə?
Bu qaçqınlıq, bu köçkünlük, fərarilik öz üstünə?
Yaman adı, bu damğanı sil üstündən ay eloğlu,

Bu ləkədir, bu çirkabdır bil, üstündən ay eloğlu.
Ölümdən də betərdir bu, didərginlik, bu nisgillik,
Bu məzlumluq, bu fəqirlik, bu yazıqlıq, bu miskinlik.
Bu bədbəxtlik, bu fəlakət, bu rəzalət, bu pis günlük,
Bu dönüklük, bu satqınlıq, bu alçaqlıq, bu nəs günlük.
Oyansalar nə deyərlər, o babalar varisinə?[678]
Nə danışar, nə söyləyər, gör onların hərəsinə?[679]
Gəzdiyiniz diyarları, yadına sal, cürətə gəl!
Talan olan, var-dövləti, yadına sal, qeyrətə gəl!
Əldən gedən yurduna bax, yuvana bax ay eloğlu,
Odu-közü sönüb gedən, sobana bax ay eloğlu.
Ötüb keçən ayına bax, ilinə bax, gününə bax,
El-obada danışılan, səsə-küyə, ününə bax.
Gül yanağı saralana, solana bax, qeyrətə gəl!
Əl-ayaqda tapdalanan, qalana bax, heyrətə gəl!
Nə susmusan, kirimisən, dəhşətə gəl ay eloğlu?
Həyəcana, təşvişə düş, cürətə gəl, ay eloğlu.
Tapdalanan  mənlikləri yadına sal, qeyrətə gəl!
Məyus olan şənlikləri yadına sal, qeyrətə gəl!
Gör nəqədər sinələrə əbəs yedən dağ çəkilib?[680]
Bel bükülüb, qədd əyilib, yadına sal qeyrətə gəl!
Neçə-neçə qəsəbələr, neçə şəhər kənd dağılıb,
Koma uçub, ev yıxılıb, ocaqlar sönüb, qaralıb,[681]
Vaxt-vədəsiz ölən olub, gözyaşını silən olub.
Gör nəqədər şəhid olub, qan tökülüb ay eloğlu?
Nələr çəkib gör başımız, cəsarətə, cürətə gəl?
Bükülübdür vüqarımız, nicata gəl, nüsrətə gəl!
Aç gözünü ay vətəndaş, heyrətə gəl, dəhşətə gəl!
Nizamini, Füzulini yadına sal, qeyrətə gəl!
Xaqanini, Nəsimini yadına sal, heyrətə gəl!
Koroğlunu, Eyvaz xanı, yadına sal, qeyrətə gəl!
Cavanşiri, Babəkləri yadına sal, qeyrətə gəl!

***Cəmil Əkbər*** 30. 03 -1994

---

678 Oyansalar nə deyərlər, görün sizə o babalar?
679 Nə danışar, nə söyləyər, nuranilər, piranilər?
680 Gör nəqədər sinələrə dağ çəkilib, düyün düşüb?
681 Koma uçub, ev yıxılıb, neçə-neçə ocaq sönüb.

## 90. HANI?

Hanı öz çörəyim, hanı təndirim?
Hanı yağ motalım, hanı pendirim?
O təndir bizlərə nənədən qalıb,
O motal, o pendir babadan qalıb.
Hanı dəyirmanım, hanı öz unum?
Hanı öz səs-küyüm, hanı öz ünüm?
Hanı bəs xırmanım, hanı öz dənim?
Hanı öz çanağım, hanı öz çənim?
Unumuz, dənimiz uzaqdan gəlir,
Ərzurum, Ankara, Dehlidən gəlir.
Fələstin, İrakdan, Yunandan gəlir,
Ukrayna, Qazaxdan, Turandan gəlir.
Adi yumurta da İrandan gəlir,
Bilmirsən heç hansı diyardan gəlir?
Özümün sərvəti bazarda qıtdır,
Çıxmayır qarşıma, güzar da qıtdır.
Nəyaman azalıb milli sərvətim?
Yeməyim, içməyim, milli nemətim?
Hanı öz çobanım, mala baxanım?
Dəymişə, sütülə, kala baxanım?
Hanı öz kotanım, hanı öz xışım?
Girləmir özümü niyə öz huşum?
Düşüncəm, idrakım, dərrakəm hanı?
Öz zehnim, biliyim öz zəkam hanı?
Hayanda qalıbdır öz fərasətim?
Hünərim, qeyrətim, öz cəsarətim?
Nə üçün özgəyə əl açırıq biz?
Yalvarıb, yaxarıb, dil açırıq biz?
Nəyaman süstləşib mahalım mənim?
Əqidəm, məsləkim, amalım mənim?
Yoxsa çatışmayır kamalım mənim?
Mənəvi gözəllik, camalım mənim?
Niyə yol göstərmir ahalım mənim?
Eşitmək istəmir cahalım mənim.
Qane eyləməyir öz işim mənim,
Adətim, ənənəm, vərdişim mənim.
Artırır qüssəmi öz obam mənim,

Öz yerim, öz yurdum, öz yuvam mənim.
Hayanda qalıbdır baba qeyrəti?
Vətən şərafəti, Vətən şöhrəti?

***Cəmil Əkbər***

## 91. GƏLİN PEYVƏND VURAQ

Gəlin peyvənd vuraq ünsiyyətə biz,
Adət-ənənəyə, xasiyyətə biz.
Pislər əl götürsün öz pisliyindən,
Nəslər uzaqlaşsın öz nəsliyindən.
Hərkəs qoy utansın qəbahətindən,
Kini-küdurəti, ədavətindən.
Xainlər əl çəksin xəbisliyindən,
Bədxah əməlindən, naqisliyindən.
Lovğalar əl çəksin öz ədasından,
Dayaz ədasından, üz ədasından.
Biclər əl götürsün öz bicliyindən,
Xainlər əl çəklsin öz kəcliyindən.[682]
Ayıbdır, ellərdən utansın biraz,
Çəkinsin, qısqansın, pəsinsin biraz.
Varlılar, hallılar göylük etməsin,
Alimlər, loğmanlar keylik etməsin.
Amandır gədələr bəylik etməsin,
Pozub ünsiyyəti səylik etməsin.
Hamı dərs öyrənsin öz ustadından,
Fəhmin-fərasətin düz ustadından,
Sənət ustadından, söz ustadından.
Satan hörmət etsin alan kəslərə,
Gözləri əllərdə qalan kəslərə.
Əzənlər əzməsin əzilənləri,
Əllərdə, ayaqda üzülənləri.
Əlinə keçəni başa satmasın,
Rəhm etsin xalqına, daşa basmasın.
İqtidar pəsinsin cəmaətini,
Kəsməsin üstündən ənaətini.
Gəzsin el-obanı, görsün nələr var,

---

[682] Kəc olan əl çəklsin öz kəcliyindən.

Oxuyub, öyrənsin görsün nələr var.
Qərq olub qəflətdə yatmasın gərək,
Yaxşını-yamana qatmasın gərək.
Vətən torpağında qayda var olsun,
Hər fəsil, hər ildə, ayda var olsun.
Şairlər görsünki nədən yazıblar?
Nəyi qaralayıb, nəyi pozublar.
Sözləri-söhbəti eldə qalıbmı?
Muğanda, Şirvanda, Mildə qalıbmı?
Yoldaşlar pəsinsin öz yoldaşını,
İlqara-imana düz yoldaşını.
Hamı peyvənd etsin öz meşəsində,
Olduğu ərazi, öz guşəsində.
Hamı peyvənd vursun öz sənətində,
Öz vərdiş, ənənə, öz adətində.
İşində-gücündə əməlində də,
Əsas bünövrəsi, təməlində də.
Hamı peyvənd vursun kəlməsində də,
Hər addımbaşında, cümləsində də.
Gəlin peyvənd vuraq, bağlar bağ olsun,
Şamama yetirən tağlar-tağ olsun.
Mahir bağban olub bağlar becərək,
Aranlar bəsləyək, dağlar becərək.
Qoymayaq torpağı sellər aparsın,
Küləklər qoparsın, yellər aparsın.
Gəlin peyvənd edək bardan ötəri,
Almadan, heyvadan, nardan ötəri.
Etibardan, düz ilqardan ötəri,
Nazü-nemət, küllü-vardan ötəri.
Qoymayaq bağları cırlaşıb getsin,
Ulğunlar, söyüdlər çoxalıb bitsin.
Qoymayaq tarlanı alaqlar bassın,
Böcəklər, həşərat murada çatsın.
Kolları-kosları bara gətirək,
Dadlı meyvələrə bara gətirək.
Peyvəndsiz qalmasın bir butaq belə,
Bir mahal, bir ölkə, bir otaq belə.
Gəlin peyvənd vuraq ürəklərə biz,
Arzu-istəklərə, diləklərə biz.

Gəlin peyvənd vuraq məharətə biz,
Bacarıq, fəhimə, fərasətə biz.
Gəlin peyvənd vuraq kamalımıza,
Əqidə, məsləkə, amalımıza.
Ellərə, obaya, mahalımıza,
Qocaya, cavana, ahalımıza.
Ünsiyyət-ülfətdə yalan olmasın,
Qanları soranlar, kalan olmasın.
Hamı xidmət etsin sədaqət ilə,
İnsanlıq naminə ləyaqət ilə.
İnsafla-mürvətlə, kəramət ilə,
Ədəblə, ərkanla, nəzakət ilə.
Xeyirxahlıq ilə, fəzilət ilə,
Saf-arzu istəklə, pak niyyət ilə.
Dözümlə, durumla, qətiyyət ilə,
Çatsın səadətə, cəmiyyət ilə.
Gəlin peyvənd vuraq sözümüzə də,
Özgə axtarmayaq özümüzə də.
Baxışa, nəzərə gözümüzə də,
Könülə həkk olan izimizə də.
Gəlin ürəkləri calaya bilək,
Gəlin diləkləri calaya bilək.
Gəlin yoldaşlığı calaya bilək,
Gəlin qardaşlığı calaya bilək.
Peyvəndsiz qalmasın bir ürək belə,
Bir arzu, bir istək, bir dilək belə.
Bəlkə buminvalla murada çataq,
Şərəfli-şöhrətli bir ada çataq.
Bəlkə buminvalla kamala çataq,
Əqidə, məsləkə, amala çataq.
Mənəvi gözəllik, camala çataq,
Firavan ölkəyə, mahala çataq.
Bəlkə buminvalla dava kəsilsin,
Zəhərə qarışmış hava kəsilsin.
Peyvəndsiz bu dünya düzələn deyil,
Cəhalət qurtarıb üzülən deyil.
Peyvəndsiz yetişmir gözəl meyvələr,
Dadlı, tamlı, ləziz özəl meyvələr.
Peyvəndlə bu həyat gözəlləşir bil,

Ərsəyə gələrək, əməlləşir bil.
Bəlkə buminvalla ucala bilək,
Zəfərlər çalaraq, bac ala bilək.
Ellərdə-obada tanına bilək,
Enişdə, yoxuşda sınana bilək.
Bəlkə buminvalla oyana bilək,
Yaşayıb, yaradıb dayana bilək.
Bəlkə buminvalla ölüm azala,
Müsibət, işgəncə zülüm azala.
Sən məni, mən səni qorumalıyıq,
Xeyrinə, şərinə yarımalıyıq.
Bəlkə buminvalla nemət bol ola,
Var-dövlət çoxala, sərvət bol ola.
Atalar göstərib bu yolu bizə,
Göstərib bu qajı, bu qolu bizə.
Göz açıb onlara bir nəzər salaq,
Yatmayaq qəflətdə bir güzar salaq.
Dünya gör-götürdü, atalar deyib,
Görüb-götürməyən hədərə gedib.

***Cəmil Əkbər*** 15-20 / 02– 1995

## 92. QİDALANMIŞ

İnsanoğlu əzəl gündən, qəbahətdən bezikibmiş,
Nəciblikdən, zəriflikdən, ləyaqətdən qidalanmış.
Nifrət etmiş nadanlığa, cəhalətdən zinhar olmuş,
Xeyirxahlıq, alilikdən, fəzilətdən qidalanmış.
O istəmiş son qoyulsun fərsizliyə, acizliyə,
Qoçaqlıqdan, zirəklikdən, fərasətdən qidalanmış.
Ömürboyu zərər çəkmiş, fitnələrdən, fəsadlardan,
Doğru sözdən, düz ilqardan, həqiqətdən qidalanmış.
İnsanoğlu ziyan görmüş, qəddarlıqdan, zalımlıqdan,
Abır-həya, insaf-mürvət, kəramətdən qidalanmış.
Haldan düşüb usanmışdır, üfunətdən, çamırlıqdan,
Ətir saçan gül-çiçəkdən, təravətdən qidalanmış.
O hər zaman zərər görmüş saxta sözdən, nəs fikirdən,
Əhd-peyman, təmiz addan, saf niyyətdən qidalanmış.
Sarsılmışdır, pozulmuşdur, giley-güzar, şikayətdən,
Ünsiyyətə nur ələyən, məhəbbətdən qidalanmış.

Haldan, heydən, dildən düşmüş qəddarlıqdan, zalımlıqdan,
Xətir-hörmət, haqq-saydan, mərifətdən qidalanmış.
İnsanoğlu zərər çəkmiş, saxtalıqdan, dönüklükdən,
Təzim etmiş sədaqətə, səxavətdən qidalanmış.
Daima dad-hazar çəkib, biganəlik, sünilikdən,
Dədə-baba, haqq-saydan, ənaətdən qidalanmış.
İnsanoğlu zara gəlmiş sərsəridən, divanədən,
İncəlikdən, zəriflikdən, mərifətdən qidalanmış.
İstəmişdir son qoyulsun, məsumluğa, fəqirliyə,
İşgüzarlıq, zirəklikdən, məharətdən qidalanmış.
Mütilikdən, səqirlikdən, əl götürüb çıxmaq üçün,
Dözüm-durum iradədən, dəyanətdən qidalanmış.
İnsanoğlu əzəl gündən nifrət etmiş kobudluğa,
Xeyirxahlıq, xoş əməldən, nəzakətdən qidalanmış.
Zəhmət çəkmiş, tər tökmüşdür, bu hikmətdən qidalanmış,
Məna dolu, məzmun dolu, məziyyətdən qidalanmış.
İnsanoğlu əzab çəkmiş, ömürboyu qəhətlikdən,
Çalışmışdır bolluq üçün, bu nemətdən qidalanmış.
Hər zaman nifrət eyləmiş, xarab işdən, zay məhsuldan,
Kəmiyyətə qulluq etmiş, keyfiyyətdən qidalanmış.
İnsanoğlu qəribsəmiş tənhalıqdan, qəriblikdən,
Əlbirlikdən, dilbirlikdən, cəmiyyətdən qidalanmış.
Ha boylanıb, ha baxsa da, doyarmı heç gözəllikdən?
Xoş vərdişdən, ənaətdən, bu adətdən qidalanmış.
Ümid olub, yol gözləmiş, bel bağlamış görün nəyə?
Nəciblikdən, alilikdən, ləyaqətdən qidalanmış.
Gör haçandan cana doymuş, zinhar olmuş ədavətdən?
Mehribanlıq, xeyirxahlıq, fəzilətdən qidalanmış.
İnsanoğlu ömürboyu zərər çəkmiş naqislərdən,
Qeyrəti kəm, hünəri kəm, karsız olan varislərdən.
Əsli-nəsli, kökü xarab, zatıqırıq gədalardan,
Al-qanları xarab edən, yerli-yersiz sədalardan.
İnsanoğlu əzəl gündən dönüklükdən bezikmişdir,
Hər məssəbə, hər mətləbə, yönüklükdən irzikmişdir.
Dönə-dönə zərər çəkmiş, şeytanlardan, iblislərdən,
El varına şülən çəkən, acgözlərdən, hərislərdən.
Əqidəsi, məsləkini, vicdanını satanlardan,
Yaxşı-yaman tanımayan, qəflətlərdə yatanlardan.
Zərər çəkmiş, çox itirmiş, fırıldaq söz, yalanlardan.

Əqrəblərdən, iblislərdən, əfilərdən, ilanlardan.
Qanqaraldıb, ev yıxandan, onu-bunu çalanlardan,
Sağlam fikir, düşüncədən, pak ülfətdən qidalanmış.
İnsanoğlu əzəl gündən, kənar gəzmiş divanədən,
Nəcib arzu-istəklərdən, saf niyyətdən qidalanmış,
Doğru sözdən, saf fikirdən, ədalətdən qidalanmış.

***Cəmil Əkbər***

## 93. QOYMAYIN

Qoymayın dünyada davalar olsun,
Əqli-kəmlər olsun, yavalar olsun.
Dağılsın ev-eşik, qapı bağlansın,
Əsəblər korlansın, sinə dağlansın.
Dağılsın şəhərlər, talansın kəndlər,
Yerlərə, göylərə sığmasın dərdlər.
Viranə çevrilsin yurdlar, yuvalar,
Matəmə qarışsın ellər, obalar.
Qoymayın qırılsın bu xalq, bu millət,
Çəksinlər müsibət, görsünlər zillət.
Durmasın üz-üzə xeyir ilə şər,
Fəlakət görməsin bu yazıq bəşər.
Qoymayın söyülən, döyülən olsun,
Haqqı tapdalanıb yeyilən olsun.
Qoymayaq yolundan əyilən olsun,
Ünvanı dalınca deyilən olsun.
Qoymayın əzilən, əzənlər olsun,
Bezdirənlər olsun, bezənlər olsun.
Yaxşılar yamana qatılıb getsin,
Vicdanlar, məsləklər satılıb getsin.
Hökmlər verilsin, kəsilsin başlar,
Tökülsün zəhərlər, çatılsın qaşlar.
Qoymayın səadət pozulsun getsin,
Düz fikir tərsinə yozulsun getsin.
Kimsələr bəxtinə qaralar desin,
Tapmayıb dərdinə çaralar desin.
Qoymayaq ağrılar, acılar olsun,
Dərd çəkən qardaşlar, bacılar olsun.
Ucalsın göylərə ahlar-amanlar,
Zəhərə qarışsın mey-piyalələr.

Görməyək dünyada kəc baxışları,
Sərsəm xəyalları, gic baxışları.
Uçrumlu enişi, sərt yoxuşları,
Gileyi-güzarı nə qaxışları.
Son qoyaq bəd sözə, bədəməllərə,
Uymayaq böhtana, fitnə-fellərə.
Düşməyək çovğuna, tufana yelə,
Düşməyək bəd sözlə, dəhana dilə.
Son qoyaq dünyada toqquşmalara,
Döyüş meydanında vuruşmalara.
Azğın hücumlara, hərbə-zərbəyə,
Davaya, dalaşa qanlı zərbəyə.
Qoymayaq törəsin həyəcan, təlaş,
Tökülsün gözlərdən axsın qanlı yaş.
Bu bəşər övladı görməsin pislik,
Qəddarlıq, zalımlıq, höcətlik, nəslik.
Məhv olsun qəzəblər, məhv olsun hiddət,
Məhv olsun gərginlik, məhv olsun şiddət.
Məhv olsun rəzillik,  məhv olsun günah.
Məhv olsun dünyada, hər yersiz cəza,
Dağılsın dumanlar, açılsın fəza.
Olmasın ah-nalə, olmasın fəqan,
Kədərlə, qüssəylə dolmasın cahan.
Didməsin qəlbləri qəm-qüssə, kədər,
Keçməsin ömrümüz, günümüz hədər.
Qoymayın uçurub yıxanlar olsun,
Bəşər övladını sıxanlar olsun.
Asılanlar olsun, kəsənlər olsun,
İnciyənlər olsun, küsənlər olsun.
Pozulsun ünsiyyət, pozulsun ülfət,
Çəkilsin dərd-azar, çəkilsin xiffət.
Qoymayaq yaxşılar yaman görünsün,
Nabələd, naşılar loğman görünsün.
Hər yetən gədalar çəkilsin başa,
Bəşərin taleyi çırpılsın daşa.
Qoymayaq qurdları qoyunu qırsın,
Axıdıb qanları min yara vursun.
Qoymayaq tülkünü aralıq qatsın,
Çaqqallar kol-kosda günaha batsın.

Qoymayaq şeytanlar mələk görünsün,
Peyğəmbər, imamlar kələk görünsün.
Gədalar, alçaqlar ucalmasınlar,
Əsəblər korlayıb bac almasınlar.
Qoymayaq həqiqət arada batsın,
Əyrilər, oğrular murada çatsın.
Uymayaq sərvətə, vara dövlətə,
Uymayaq avamlıq, nə cəhalətə.
İnsanıq, hər şeyi düşünüb qanaq,
Ellərin dərdinə od alıb yanaq.
Çalışaq, birlikdə verək əl-ələ,
Nadana, cahilə salaq vəlvələ.
Deyək ki, vəhşilik əbədi bəsdir!
Bu nə ashaasdır, nə kəshakəsdir?

***Cəmil Əkbər***

## 94. GÖRƏN HARA GEDİRİK? (1)

Nə ağadan ağayıq, nə kölədən köləyik,
Ay Cəmil, bu məramla görən hara gedirik?
Nə qəjildən qəjilik, nə piledən-piləyik,[683]
Ay Cəmil, bu məramla görən hara gedirik?[684]

Nə sazaqdan sazağıq, nə küləkdən küləyik,
Nə huridən huriyik, nə mələkdən mələyik,[685]
Nə doğrudan doğruyuq, nə kələkdən kələyik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə görəndən görənik, nə biləndən bilənik,
Nə gedəndən gedənik, nə gələndən gələnik,
Nə qalandan qalanıq, nə öləndən ölənik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

[683] Nə elədən eləyik, nə belədən beləyik.

[684] *II variant*
Nə qədəkdən qədəyik, nə pilədən piləyik,
Nə inəkdən inəyik, nə kələdən kələyik,
Nə şeytandan şeytanıq, nə mələkdən mələyik,
Buminvalla, məramla görən hara gedirik?

[685] Şadaradan, xəlbirdən, nə ələkdən ələyik.

Nə yatanla yatırıq, nə duranla dururuq,
Nə tikənlə tikirik, nə quranla qururuq,
Nə deyənlə deyirik, nə vuranla vururuq,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə yaxşını tanıdıq, nə də pisdən çəkindik,
Nə xeyirxah tanıdıq, nə də nəsdən çəkindik,
Nə qisasdan, qərəzdən, nə də qəsddən çəkindik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə zirvədən zirvəyik, nə təpədən təpəyik,
Nə dənizdən dənizik, nə ləpədən ləpəyik,
Nə qayadan qayayıq, nə qəlpədən qəlpəyik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə arvaddan arvadıq, nə kişidən kişiyik,
Nə alimdən alimik, nə naşıdan naşıyıq,
Nə siçandan siçanıq, nə pişikdən pişiyik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə heyvandan heyvanıq, nə insandan insanıq,
Nə qanmazdan qanmazıq, nə qanandan qananıq,
Nə sönəndən sönənik, nə yanandan yananıq,
Ay Cəmil, bu məramla görən hara gedirik?[686]

Nə çavandan cavanıq, nə qocadan qocayıq,
Nə gödəkdən gödəyik, nə ucadan ucayıq,
Nə vəzirdən vəzirik, nə xocadan xocayıq,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Bu dövranda, zamanda belə keçdi günümüz,
Belə çıxdı səsimiz, belə çıxdı ünümüz,
Belə keçdi güzəran, belə keçdi şənimiz,
Ay Cəmil, bu məramla görən hara gedirik?

---

[686]*II variant* Nə yanandan yananıq, nə sönəndən sönənik,
Nə qalxandan qalxanıq, nə enəndən enənik,
Nə susandan susanıq, nə dinəndən dinənik,
Buminvalla, məramla görən hara gedirik?

Nə gözəldən gözəlik, nə çirkindən çirkinik,
Nə sadədən sadəyik, nə xudbindən xudbinik,
Nə bədbindən bədbinik, nə nikbindən nikbinik,[687]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə yatanla yatırıq, nə duranla dururuq,[688]
Nə qaçanla qaçırıq, nə vuranla vururuq,
Hədər yerə, havayı özümüzü yoruruq.
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə kiçikdən kiçiyik, nə baladan balayıq,
Nə bibidən bibiyik, nə xaladan xalayıq,
Nə çiçəkdən çiçəyik, nə lalədən laləyik,[689]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Özümüzü xoşlayıb, onu-bunu döyürük,
Arxasınca danışıb, ünvanına söyürük,
Varlığını sarsıdıb, vüqarını əyirik,[690]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə zamandan bəridir, düzəlməyir bu bəşər,
Dayanıbdır üz-üzə, qabaq qənşər xeyir-şər,
Hey vuruşur, didişir ömürboyu sərbəsər,[691]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Neçə insan qərq oldu, ziddiyyətlər içində,
Addımbaşı törənən, qəbahətlər içində,
Qəsd-qərəzlər, xəyanət, küdurətlər içində,
Ay Cəmil, bu məramla görən hara gedirik?[692]

---

[687] Nə qəmgindən qəmginik, nə xurrəmdən xurrəmik.
[688] Nə tikənlə tikirik, nə quranla qururuq.
[689] Nə köpəkdən köpəyik, nə tuladan tulayıq.
[690] Al-qanına sussayıb, var-yoxunu yeyirik.
[691] Bir-birini eyləyir, məlul-müşgül, dərbədər.
[692] *II variant*
Gör nəqədər boğuldu, ziddiyyətlər içində,
Törədilən, xətalar, qəbahətlər içində,
Həqarətlər içində, rəzalətlər içində,
Buminvalla, məramla görən hara gedirik?

Nə dayazdan dayazıq, nə dərindən dərinik,
Nə istidən istiyik, nə sərindən sərinik,
Nə acıdan acıyıq, nə şirindən şirinik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Əhd-peyman, ilqara nədir belə dönüklük?
Nədir belə soyuqluq, nədir belə sönüklük?
Hər diləyə, mətləbə, nədir belə yönüklük?
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə həmkardan həmkarıq, nə yoldaşdan yoldaşıq?[693]
Nə tay-tuşdan tay-tuşuq, nə çağdaşdan çağdaşıq?
Nə həmdəmnən həmdəmik, nə sirdaşdan sirdaşıq?
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə yaxşıdan yaxşıyıq, nə yamandan yamanıq,
Nə çiskindən çiskinik, nə dumandan dumanıq,
Nə arpadan arpayıq, nə samandan samanıq,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə sədaqət gözlənilir, nə səxavət gözlənilir,
Nə insanlıq, mərhəmət, nə ləyaqət gözlənilir,[694]
Nə din-məzhəb, şəriət, nə təriqət gözlənilir,[695]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə zəriflik, incəlik, məlahət gözlənilir,
Nə gül-çiçək, qərənfil, təravət gözlənilir,
Nə qoçaqlıq, zirəklik, məharət gözlənilir,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Görə-görə kor olub, ədaləti danırıq,
Doğruluğu, düzlüyü, həqiqəti danırıq,
Saf arzunu, istəyi, pak niyyəti danırıq,
Ay Cəmil, bu məramla görən hara gedirik?[696]

---

[693] Nə bacıdan-bacıyıq, nə qardaşdan-qardaşıq.
[694] 1)Xətir-hörmət, nə izzət, nə ləyaqət gözlənilir. 2) Xətir-hörmət, nə izzət, nə fəzilət gözlənilir.
[695] Ədəb-ərkan, mərifət, nəzakət gözlənilir.
[696] *II variant* Görə-görə kor olub, gözlərimiz nədənsə?
Qulaqlara çatmayır, sözlərimiz nədənsə?
Eşidilmir, tutlmur izlərimiz nədənsə?
Buminvalla, məramla görən hara gedirik?

Nə böyükdən ar edib, nə kiçiyi pəsindik,
Nə vicdandan, namusdan, nə qeyrətən diksindik,
Nə dövlətdən, nə xalqdan, cəmiyyətdən səksəndik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə abırdan,  ismətdən, nə həyadan utandıq,
Nə əqidə, məsləkdən, nə qayədən utandıq,
Nə köməkdən, yardımdan, nə sayədən utandıq,[697]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə gedəni pəsindik, nə gələni pəsindik,
Nə qalanı pəsindik, nə öləni pəsindik,[698]
Nə eşidib, anlayan, nə biləni pəsindik,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə doğrudan doğruyuq, nə yalandan yalanıq,[699]
Nə əqrəbdən əqrəbik, nə ilandan ilanıq,
Nə vurandan vuranıq, nə çalandan çalanıq,
Ay Cəmil, bu məramla görən hara gedirik?

Nə dinəndən dinənik, nə susandan susanıq,
İnciyəndən inciyən, nə küsəndən küsənik,
Nə asandan asanıq, nə kəsəndən kəsənik,[700]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Sözümüz də başqadır, özümüz də başqadır,
Yolumuz da başqadır, izimiz də başqadır,
Astarımız başqadır,  üzümüz də başqadır,[701]
Ay Cəmil, bu məramla görən hara gedirik?

Bu sözləri yazdım ki, ağıl gələ başlara,
Sərrast gələ başlara, mağıl gələ başlara,
Dastan gələ başlara, nağıl gələ başlara,[702]
Ay Cəmil, bu məramla görən hara gedirik?

***Cəmil Əkbər*** 16. 10 - 1990

---

[697] Nə nökərdən, naibdən, nə dayədən utandıq.
[698] Nə hönkürüb ağlayan, nə güləni pəsindik.
[699] Nə öləndən ölənik, nə qalandan qalanıq.
[700] Nə oyanlıq, buyanlıq, nə titrəyib əsənik.
[701] Aranımız, dağımız, düzümüzdə başqadır,
[702] Ayağımız dəyməyə nahaq yerdən daşlara.

## 95. GÖRƏN HARA GEDİRİK? (2)

Nə inam, etibar, nə ilqar qalıb,
Buminvalla görən hara gedirik?
Nə şan-şöhrət qalıb, nə vüqar qalıb,
Buminvalla görən hara gedirik?

Nə igid igiddir, nə arvad arvad,
Çoxalıb biqeyrət, çoxalıb xoryad,
Özünü anlamır bu evibərbad,
Buminvalla görən hara gedirik?

Çoxalıb nəyaman yelbeyin dullar?
Sovrulur göylərə, xərclənir pullar,
Hayana aparır cığırlar, yollar?
Buminvalla görən hara gedirik?

Hamı at çapırır, tərsinə gedir,
Nə desək xətrinə, hirsinə dəyir,
Nəslinə, əslinə, çinsinə dəyir,
Buminvalla görən hara gedirik?

Nə molla, nə qazı, nə dindar qalıb,
Nə seyid, nə axund, nə cindar qalıb,
Nə pərvanə qalıb, səməndər qalıb,
Buminvalla görən hara gedirik?

Gör nəqədər al-qanları qaraltdıq?
Zülmə salıb, gendünyanı daraltdıq?
Xəzan vurdu, bağlarını saraltdıq?
Buminvalla görən hara gedirik?

Gör nəqədər yıxılana baisik?
Əzilənə, sıxılana baisik?
Axırına çıxılana baisik?
Buminvalla görən hara gedirik?

Gör nəqədər düzələni əymişik?
Bilə-bilə xatirinə dəymişik?
Ünvanına qara yaxıb söymüşük?
Buminvalla görən hara gedirik?

Gör nəqədər yarımçıq var, nadan var?
Haqq-sayı sümürən var, udan var?
Tərbiyədən kəm-kəsirlə dadan var?
Buminvalla görən hara gedirik?

Nə dağdan dağ olduq, nə bağdan bağıq,[703]
Nə xəstədən xəstə, nə sağdan sağıq,
Nə şordan şor olduq, nə yağdan yağıq,
Buminvalla görən hara gedirik?

Gör nəqədər igidləri öldürdük?
Vurub, salıb zirvələrdən endirdik?
Hədər yerə çırasını söndürdük?[704]
Buminvalla görən hara gedirik?

Tutulub qaşqabaq, açılmır eyin,[705],
Hardadır düşünən, dərk edən beyin?[706]
Ay Cəmil, az danış, gileylən, deyin,
Buminvalla görən hara gedirik?

***Cəmil Əkbər*** 16. 10 – 1990

## 96. SİRLİ KAİNAT

Əzəldən belədir sirli kainat,
Onun sirlərinə biz qalmışıq mat.[707]
Gözəllik varikən çirkinlik nədir?[708]
Nikbinlik varikən, bədbinlik nədir?[709]
Məhəbbət varikən, nifrət də vardır,[710]
Mərhəmət varikən, hiddət də vardır.[711]
Şirinlər varikən, zəhər nə imiş? [712]

---

[703] Nə təpədən-təpə, nə dağdan-dağıq.
[704] Qova-qova haralara göndərdik.
[705] Nəyaman kütləşib, korlaşıb zehin?
[706] 1) Nə təmiz ürək var, nə açıq beyin. 2) Açılmır qaş-qabaq, açılmır eyin.
[707] Baş aça bilmirik, biz qalmışıq mat.
[708] Gözəllik varikən çirkinlik də var.
[709] Nikbinlik varikən, bədbinlik də var.
[710] 1) Məhəbbət varikən nifrət bəs nədir? 2) Məhəbbət varikən, bəs nifrət nədir?
[711] 1) Mərhəmət varikən hiddət bəs nədir? 2) Mərhəmət varikən bəs hiddət nədir?
[712] 1) Şirinlər yanında zəhərlər nədir? 2) Şirinlər yanında zəhərlər də var.

Kef-damaq varikən, qəhər nə imiş?[713]
Yaxşılar varikən, pislər bəs nədir?[714]
Xeyirxah varikən, nəslər bəs nədir?[715]
Yaşayış varikən, ölümlər nədir?
Səadət varikən, zülümlər nədir?
Həqiqət varikən, yalanlar nədir?
Məzlumlar varikən, kalanlar nədir?
Açılan varikən, solanlar nədir?
Ellərin varilə dolanlar nədir?
Ucalan varikən, enənlər nədir?
İstisi çıxmamış sönənlər nədir?
Bülbüllər varikən, bayquşlar nədir?
Bu ziddiyyət nədir, dəhşətlər nədir?
Bu əzab-əziyyət, məşəqqət nədir?
Kaş dünyada çirkab olmasaydı heç,[716]
Açılan gül-çiçək solmasaydı heç.[717]
Gözəllik dünyaya bəs etməzdimi?[718]
Zəriflik cahana bəs etməzdimi?
Nifrətlər, hiddətlər olmaya keşkə,
Məzəmmət, töhmətlər olmaya keşkə.
Məhəbbət, mərhəmət bəs etməzdimi?
Sədaqət, səxavət bəs etməzdimi?
Acılar, zəhərlər olmaya kaşki,
Qəm-qüssə, qəhərlər olmaya kaşki.
Şirin, bal, şərbətlər bəs etməzdimi?
Nəşələr, ləzzətlər bəs etməzdimi?
Pisliklər, nəsliklər olmayadı kaş,
Höcətlik, tərsliklər olmayadı kaş.
Yaxşılıq dünyaya bəs etməzdimi?
Ehtiram dünyaya bəs etməzdimi?
Ölümlər, zülümlər olmasa keşkə?
İnsanlıq dünyaya bəs etməzdimi?
Dumanlıq, qaranlıq kaş heç olmaya,

[713] 1) Nəşələr yanında qəhərlər nədir? 2) Nəşələr yanında qəhərlər də var.
[714] Yaxşılar varikən, pislilklər nədir?
[715] Bədxahlıq, höcətlik, nəslilklər nədir?
[716] Əksiklik, çirkinlik olmasa görən.
[717] Açılan gül-çiçək solmasa görən,
[718] Nəciblik dünyaya bəs etməzdimi?

Qəddarlıq, yamanlıq kaş heç olmaya.
Aydınlıq, açıqlıq bəs etməzdimi?
Bu səma, saçıqlıq bəs etməzdimi?
Nanəcib, namərdlər olmasaydı heç,[719]
Gəlib aralığa dolmasaydı heç.
Mərdlər bu dünyaya bəs etməzdimi?
Ad-san çıxararaq səs etməzdimi?
Arsızlar, karsızlar olmaya heç vaxt,
Abır, ismətlilər bəs etməzdimi? [720]
Cahillər, nadanlar olmaya barı,
Talayıb, çapanlar olmaya barı.
Anlayıb qananlar bəs etməzdimi?[721]
Davalar, dalaşlar olmasaydı heç?
Azadlıq, səadət bəs etməzdimi?
Görəsən yaranıb pislər nə üçün?[722]
Paxıllar, xainlər, nəslər nə üçün?[723]
Bu ziddiyyət nədir, bu dəhşət nədir?
Bu həngamə nədir, bu zülmət nədir?
Nədir bu həyacan, nədir bu təşviş?
Nədir bu qalmaqal, nədir bu müdhiş?
Bu vurhavur nədir, bu oyun nədir?
Bu canavar nədir, bu qoyun nədir?
Sirrilə doludur qoca kainat,
Onun sirlərinə biz qalmışıq mat.
Aşikar edilmir, tapılmır heyhat,
Sirri heç çözülmür, çözülmür heyhat.

***Cəmil Əkbər*** 4. 09 -1979

## 97. MƏNDƏN İNCİMƏSİN

Çeşmə kimi dup-duruyam.
Lillər məndən inciməsin.

Yaş deyiləm, qupquruyam,
Nəmlər məndən inciməsin.

---

[719] Namərdlər biryolluq olmasaydı heç.
[720] Arlılar, karlılar bəs etməzdimi?
[721] Ariflər, qananlar bəs etməzdimi?
[722] Pislər yaranıbdır görən nə üçün?
[723] Nəslər yaranıbdır niyə nə üçün?

Ölənlərə ağlamayın,
Qalan məndən inciməsin.

Yaxşılara tərəfdaram,
Yaman məndən inciməsin.

Nifrətim var züytutana,
Çalan məndən inciməsin.

Mən günəşə tərəfdaram,
Duman məndən inciməsin.

İnsafım var sorulana,
Dolan məndən inciməsin.

Mən kasıba tərəfdaram,
Kalan məndən inciməsin.

Verənlərə nə deyəsən?
Alan məndən inciməsin.

Qurulandan həzz alıram,
Talan məndən inciməsin.

Tərəfdaram doğru sözə,
Yalan məndən inciməsin.

Heyranam alışan közə,
Sönən məndən inciməsin.

Vurğunam gültək açana,
Solan məndən inciməsin.

***Cəmil Əkbər***

## 98. ARZULARIM (1)

Elə insan olub xətirlənəydim,
Nəsildən-nəsilə, əsrlərlə mən.
Qönçə gül olaydım ətirlənəydim,
İllərlə, aylarla, fəsillərlə mən.

Elə insan olam səxavətimdən,
İnsanlıq naminə ləyaqətimdən.
Xalqıma paylayıb verə biləydim,
Yaxını, uzağı görə biləydim.
Çəkib zəhmətimdən doya biləydim,
Bəşəri-aləmə yaya biləydim.

Elə dağ olaydım yaylaqlarımda,
Buludlar çaxnaşıb, sel açılaydı.
Barlı bağ olaydım butaqlarımda,
Şeyda bülbül ötüb, gül açılaydı.

Elə leysan olub axa biləydim,
Sussuz səhralara çata biləydim.
Oqədər toplanıb gölmələnəydim,
Yanan torpaqlarda bata biləydim.

Elə çeşmə olub mən içiləydim,
Odlu ürəkləri sərinlədəydim.
Buludtək toqquşub çaxa biləydim,
Göylərdən yerlərə səpələnəydim.
Daşqın çaylar kimi axa biləydim,
Dənizdə, dəryada ləpələnəydim.

Elə toxum olam, elə dən olam,
Ələnib ələnib xəlbirlənəydim.
Düşsəm də torpağın dərin qatına,
Yenidən cücərib təzələnəydim.

Elə kitab olub sətirbəsətir,
Bəşərin dilində əzbərlənəydim.
Mənim taleyimin köhlən atına,
Hünər meydanında çox hərlənəydim.

Elə yol olaydım, mən keçiləydim?
Ülvi-ünsiyyəti dərinlədəydim.
Elə loğman olam dərmanlarımla?
Xəstəyəm deyəni sağlamlaşdıram.

Elə hakim olam fərmanlarımla?
Yanlış fikirlərdən qaça biləydim.
Qərarı düz yazıb, hökmü düz verəm?
Bağlı qapıları aça biləydim.

Həyatda hər şeyi doğru, düz görəm,
İdrakdan ziyamı saça biləydim.
Haqdan əta olan öz ilhamımla,
Şeir dünyamızda uça biləydim.

Elə igid olam mərdi-mərdana,
Astarım bir ola, üzüm bir ola.
Deyələr qızıldır, ya da dürdanə,
Əməlim bir ola, sözüm bir ola.

Elə alim olam, deyəm sözümü,
Övladi-bəşərə səadət verəm.
Yummayam yaxşıya, pisə gözümü,
Məzluma, fəqirə rəşadət verəm.
Acgözə, hərisə səxavət verəm,
Cəllada, qansıza kəramət verəm.
Qorxaq dovşanlara cəsarət verəm,
Aciz biçarəyə, fərasət verəm.
Nadana, cahilə düşüncə verəm,
Xainə, xəbisə işgəncə verəm.

Elə insan olam polad qollarla,
Övladı-bəşərə çörək verəydim.
Elə dahi olam doğru yollarla,
Sağlam düşüncələr, dilək verəydim.

Elə ata olam övladlarımla,
Əbədi sevinib fərəhlənəydim.
Baxanda onların əməllərinə,
Fəxr edib hərzaman ürəklənəydim.

Elə baba olum nəvələrimlə,
Danışıb güləydim, məzələnəydim.
Oğlumla, qızımla, gəlinlərimlə,
Dünyalar durduqca əzizlənəydim.

Elə ər olaydım öz nigarımla,
Ömrümü, günümü başa vuraydım.
İstəkdən, sevincdən, küllü-varımla,
Leyliylə, Məcnunla qoşa duraydım.

Öz tale, öz bəxtim, öz qismətimlə,
Sevincimi yarı bölə biləydim.
Abırım, həyamla, öz ismətimlə,
Şərəflə yaşayıb, ölə biləydim.

Əhdimlə, vəfamla, düz ilqarımla,
Əbədi sevinib gülə biləydim.
Dost-tanış, qardaşla, tay-tuşlarımla,
Məclislər düzəldib, qura biləydim.

Hünər meydanında həmkarlarımla,
Əyilməz vüqarla dura biləydim.
Elə şair olam söz-söhbətimlə,
Əsrdən-əsrə keçə biləydim.

Elə sərraf olam öz diqqətimlə,
Yaxşını-yamandan, seçə biləydim.
Fəhmim, fərasətim, öz riqqətimlə,
Halal zəmiləri biçə biləydim.

Hərarət alaydım oddan, alovdan,
Zülmətdə çıraqban ola biləydim.
Biryolluq dünyadan köçüb getməyəm,
Könüllər mülkündə qala biləydim.
Qələmə aldığım söz sənətimlə,
Zəfərlər təblini çala biləydim.

***Cəmil Əkbər***

## 99. ARZULARIM (2)

Alınlar açıla, üzlər güləydi,
Dodaqlar sevinib, sözlər güləydi.
Həyatdan siləydim avamlıqları,
Cahillik törədən nadanlıqları.

Könüllər mülkündə ocaq yandıram,
Şüur dünyasını işıqlandıram.
Düşüncəm düz ola, sözüm kəsərli,
Böyük dahilərtək yetkin, əsərli.

Elləri yaşadan varım olaydı,
Öz gücüm, qüdrətim, karım olaydı.
Dünyada yaşayan sözüm olaydı,
Könüllər mülkündə izim olaydı.
Ölüb getməyəydim ünvansız, adsız,
İnsafsız, mürvətsiz, imansız qansız.
Mən özüm getsəm də, sözüm qalaydı,
Astarım qalaydı, üzüm qalaydı.
Elə yol göstərə yetkin kamalım,
Məqsədim, mətləbim, arzum, amalım.
Əsrdən adlayıb keçə biləydim,
Mərifət şərbətin içə biləydim.
Almayam dünyada el məzəmməti,
Ürək məzəmməti, dil məzəmməti.
Mən gərək olaydım əbədiyyətə,
Övladı-bəşərə, bu cəmiyyətə.
Mən gərək olaydım hərbir insana,
Mən düşmən olaydım, qatı düşmana.
Tarlalar becərib, ağac əkəydim,
Bu elə, bu xalqa zəhmət çəkəydim.
Qoymayam dünyada kədər-qəm ola,
Könüllərdə nisgil, gözdə nəm ola.
Məndən dərs alaydı gələn nəsillər,
Ötən qərinələr, ötən əsrlər.
Məndən öyrənəydi elmi, sənəti,
Düşmənə nifrəti, dosta hörməti.
Məndən öyrənəydi xeyirxahlığı,
Mehriban olmağı, istiqanlığı.
Mənə dərs verəydi Qadiri-Sübhan,
Ya açıq-aşikar, yadaki pünhan.
Yaxını, uzağı görə biləydim,
Aldığım borcları verə biləydim.
Verəydim dərsimi bir ustad kimi,
Vicdanı tərtəmiz, qəlbi şad kimi.
Öyrədə biləydim bilməyənləri,
Güldürə biləydim gülməyənləri.
Dindirə biləydim dinməyənləri,
Sindirə biləydim sinməyənləri.
Mən insaf verəydim insafsızlara,

Mən mürvət verəydim mürvətsizlərə.
Canımdan cansıza can da verəydim,
Qanımdan qansıza qan da verəydim.
Dilimdən dilsizə dil də verəydim,
Əlimdən əlsizə əl də verəydim.
Oyada biləydim yatanları mən,
Yaxşını yamana qatanları mən.
Yatmayam qəflətdə oyaq olaydım,
Kimsəsiz şəxslərə dayaq olaydım.
Kaş ürək olaydım ürəksizlərə,
Kaş çörək verəydim çörəksizlərə.

***Cəmil Əkbər***

## 100. BAŞ ƏYİR

İnsanoğlu əzəl gündən məhəbbətə baş əyir,
Ülviyyətə, qüdsiyyətə, ləyaqətə baş əyir.
O çox düşüb dağa-daşa, ədalətə aşiqdir,
Doğruluğa təzim edib, həqiqətə aşiqdir.
Nifrət edir dönüklüyə, sədaqətə baş əyir,
Kara yetib səxa əhli, səxavətə baş əyir.
Əzəl gündən, ibtidadan nəzakətə aşiqdir,
İnsaf-mürvət, kəramətə, mərhəmətə aşiqdir.
Çox çalışıb, cəhd eyləyib, yıxılanı qaldırıb,
Hünərləri göstərənə, zəfərləri çaldırıb.
İnsanoğlu əzəl gündən qurmaq üçün yaranıb,
Sülh yolunda ayıq olub, durmaq üçün yaranıb.
Etibara sığınaraq, inam üçün yaranıb,
Birbirinə hörmər üçün, ənam üçün yaranıb.
Ünsiyyətdə ədəb-ərkan, mərifətə baş əyir,
Qayda-qanun, haqq yoluna, şəriətə baş əyir.
Zərifliyə, incəliyə, nəzakətə baş əyir,
Bahardakı gülüstana, təravətə baş əyir.
İnsanoğlu əzəl gündən naz-nemətlə dolanır,
Tər tökərək bu yollarda, zəhmətilə dolanır.
Ruha yatan gözəlliyə, bu həyata aşiqdir,
Bu dövrana, zəmanəyə, bu büsata aşiqdir.
Yerə-göyə, dənizlərə, bu dağlara aşiqdir,
Tarla, zəmi, çəmənlərə, bu bağlara aşiqdir.

***Cəmil Əkbər*** 20. 02 – 1989

## 101. BAŞ ƏYİRƏM

İbtidadan, əzəl gündən məhəbbətə baş əyirəm,
Bizi yoxdan var eyləyən, bu qüdrətə baş əyirəm.
Bu yollarda sərf edilən, hər zəhmətə baş əyirəm,
Bu həvəsə təzim edib, bu xidmətə baş əyirəm.
Belə nəcib ünsiyyəti, ülfətləri alqışlayıb,
Xətir-hörmət nəvazişi, ismətləri alqışlayıb,
Bu zirvəyə, aliliyə, qüdsiyyətə baş əyirəm,
Batillərdə cövlan edən, ülviyyətə baş əyirəm.
Saf arzuya, pak istəyə, bu hikmətə qulluq edib,
Ülvi, nəcib ənənəyə, bu adətə baş əyirəm.
Ədəb-ərkan, qayda-qanun, nəzakətə baş əyirəm.
Abır-həya, ismətlərə, mərifətə əhsən deyib,
Zərifliyə, incəliyə, lətafətə əhsən deyib,
Sədaqətə, səxavətə, kəramətə baş əyirəm.
Azadlığa çıxa-çıxa, səadətə baş əyirəm.
Bacarığa heyran olub, cəsarəti car edərək,
Qocaqlığı, zirəkliyi, fərasəti car edərək,
Dözümlüyə, durumluğa, dəyanətə baş əyirəm.
Yenilməyən iradəyə, qətiyyətə baş əyirəm.
Karsızlara, müqəvvaya, saxtalara nifrət edib,
Vicdanı kəm, məsləki kəm, taxtalara nifrət edib,
Doğruluğa, düzgünlüyə, ədalətə baş əyirəm.
Ömürboyu haqq yoluna, həqiqətə baş əyirəm.
Gerbimizin çəkicinə, orağına əhsən deyib,
Bəşər üçün qayğı çəkən, bu dövlətə baş əyirəm.
Vətənimin bayrağına, əzəmətə baş əyirəm.

***Cəmil Əkbər*** 11. 06– 1985

## 102. BİLMİR

Birisi gözəldir, biri çirkindir,
İnsan bir-birilə yovuşa bilmir.
Birisi sadədir, biri xudbindir,
Xətadan-bəladan sovuşa bilmir.

Birisi gecikir, biri düz gedir,
Biri dərin gedir, biri üz gedir,
Birisi dayanır, biri tez gedir,
İnsan bir-birilə uyuşa bilmir.

Haçandan bəridir qəm içindədir,
Zildən pəsə düşüb, bəm içindədir,
Əyərlər-əksiklər, kəm içindədir,
İnsan gülümsünüb, qımışa bilmir.

Qulaqlar oqədər karlaşıbdıki?
Gözlər görə-görə korlaşıbdıki?
İgidlər oqədər cırlaşıbdıki?
Deyib həqiqəti, danışa bilmir.

Fikirlər, xəyallar dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman,
İpi-ilməsinə culaşıb yaman,
İnsan bir-birilə barışa bilmir.

Ünsiyyət oqədər pozulubduki,
Doğrular tərsinə yozulubduki,
Xətirlər-hörmətlər azalıbdıki,
Ürəkdən keçəni soruşa bilmir.

Əfəllər çoxalıb, kütlər çoxalıb,
Müqəvva çoxalıb, bütlər çoxalıb,
Tulalar çoxalıb, itlər çoxalıb,
İnsan xeyrə-şərə qarışa bilmir.

***Cəmil Əkbər*** 10.01- 1996

## 103. İNSAN BİR-BİRİLƏ YOL GEDƏ BİLMİR

Birisi düzəldir, birisi əyir,
Biri zərər verir, birisi xeyir,
Birisi qazanır, birisi yeyir,
İnsan bir-birilə yol gedə bilmir.

Bir-birinə dağlar çəkib öldürür,
Qönçəsində güllərini soldurur,
Zalımlığı, qəddarlığı bildirir,
İnsan bir-birilə yol gedə bilmir.

Birisi bədxahdı, biri xəbisdir,
Nanəcibdi, naxələfdi, naqisdir,
Əsli yoxdur, bədəsildir, nacinsdir,
İnsan bir-birilə yol gedə bilmir.

Biri-birisini danlaya bilmir,
Məzəmmət eyləyib qınaya bilmir,
Kötəkləyə bilmir, yanlaya bilmir,
İnsan bir-birilə yol gedə bilmir.

Birisi karsızdı, biri karlıdır,
Birisi kasıbdı, biri varlıdır,
Birisi arsızdır, biri arlıdır,
İnsan bir-birilə yol gedə bilmir.

Haçandan bəridir cəhalətdədir?
Yoxsulluq içində səfalətdədir?
Kində-küdurətdə, ədavətdədir?
İnsan bir-birilə yol gedə bilmir.

Birisi çılpaqdı, latı-lüt gəzir,
Birisi müqəvva, sankı büt gəzir.
Birisi dəngəsər, tamam küt gəzir,
İnsan bir-birilə yol gedə bilmir.

***Cəmil Əkbər*** 10.01- 1996

## 104. İNSAN BİR-BİRİLƏ DİL TAPA BİLMİR

Haçandan bəridir dava başlayıb,
Vuruş didişlər, qal-qovğa başlayıb,
Zəhərə qarışmış hava başlayıb,
İnsan bir-birilə dil tapa bilmir.

Bir-birini nahaq qırıb qurtarır,
Dağı sinəsinə vurub qurtarır,
İncidir, bezdirir, yorub qurtarır,
İnsan bir-birilə dil tapa bilmir.

Küdurət bəsləyib, ədavət edir,
Qəbahət törədir, cinayət edir,
Paxıllıq, xainlik, xəyanət edir,
İnsan bir-birilə dil tapa bilmir.

Bəd işlər törədib, nəs hala salır,
Qanını qaraldıb, pis hala salır,
Höcət hala salır, tərs hala salır,
İnsan bir-birilə dil tapa bilmir.

Vurub qamətini yay kimi əyir,
Haqqını-sayını döşürüb yeyir,
Anlayıb qanmayır nə gəlsə deyir,
İnsan bir-birilə dil tapa bilmir.

***Cəmil Əkbər*** 10.01- 1996

## 105. ÇATMIRKİ-ÇATMIR?!

Qafası qalına, kütbeyinlərə,[724]
Deyirsən sözünü çatmırki-çatmır?!
İdrakı sönüyə, ət beyinlərə,[725]
Soxursan bizini batmırki-batmır?!

Əsər etmir ha desən də giclərə,
Xainlərə, xəbislərə, öclərə,
Tərsəməssəb inadkara, ləclərə,
Gəlib məsləhətə yatmırki-yatmır?![726]

Naxələflər, nanəciblər, naqislər,
İpə-sapa yatmayanlar xəbislər,
Tamahkar, quldurlar, acgöz, hərislər,
Daşı ətəyindən tökmürki-tökmür?!

Namusu xərcləyib, arı satanlar,
Dostu-müsahibi, yarı satanlar,
Əhd-peymanı, düz ilqarı satanlar,[727]
Utanmır, qızarmır, ölmürki-ölmür?!

---

[724] Sərsəri, kəmağıl, kütbeyinlərə.
[725] Biganə, laqeyid yağlı gönlərə.
[726] *II variant*
Cəhd edib deyirsən bəlkə min kərə,
Dürr töksən dəhandan, almır nəzərə,
Alınır əcaib yaman mənzərə,
Gəlib məsləhətə yatmırki yatmır?!
[727] Başacan varmayan, yarı satanlar.

Şər danışıb aralığı qatanlar,
Min sifətlə məqsədinə çatanlar,
Qərq olaraq qəflətlərdə yatanlar,
Gedib öz işini tutmurki-tutmur?!

Haqqa-ədalətə vurğun olanlar,
Bu yolda yorulub, yorğun olanlar,
Düşsə də çətinə qırğın olanlar,
Yaxşını-yamana qatmırki-qatmır?!

Namussuz, qeyrətsiz, arsız olanlar,
Bəhrəsiz, xeyirsiz, karsız olanlar,
Söyüd ağacıtək barsız olanlar,
Əyib qamətini bükmürki-bükmür?!

İdrakı, kamalı-kəm olanlara,
Məsləkdən, amaldan bəm olanlara,
Anadan olandan dəm olanlara,
Qoyursan közünü yanmırkı-yanmır?!

Əzəldən ey südlə mayalanan kəs,
Elindən, xalqından həyalanan kəs,
Saf arzu-istəklə qayələnən kəs,
Mərdləri-namərdə satmırki-satmır?!

Cəmil Əkbər aşiq haqq-ədalətə,
Sağlam düşüncəyə, saf məhəbbətə,
Düşsə də bu yolda çox məşəqqətə,
Tutub ətəyindən atmırkı-atmır?!

***Cəmil Əkbər*** 10. 07 - 1983

## 106. HƏLƏ ÖLMƏK İSTƏMİRƏM (1)

*Hələ ölmək istəmirəm,* deyilməmiş sözlərim var,
Gedilməmiş yollarım var, salınmamış izlərim var.
*Hələ ölmək istəmirəm,* xəbisliyi öldürməmiş,
Tamahkara son qoymamış, hərisliyi öldürməmiş.
*Hələ ölmək istəmirəm,* cəncəlləri öldürməmiş,
Yaşamağa, yaratmağa əngəlləri öldürməmiş.
*Hələ ölmək istəmirəm,* vətənimdən doymamışam,
Gələnimdən, gedənimdən, ötənimdən doymamışam.
*Hələ ölmək istəmirəm,* gədalara son qoymamış,

Qəlbağrıdan, qanqaraldan sədalara son qoymamış.
Yalanları məhv etməmiş, böhtanları dəfn etməmiş,
İblisləri məhv etməmiş, şeytanları dəfn etməmiş.
*Hələ ölmək istəmirəm,* dar gözləri öldürməmiş,
Bayquş kimi xainləri, sar gözləri öldürməmiş.
*Hələ ölmək istəmirəm,* mərd igidə qəsd edən var,
Qaralara ağ deyən var, astarları üst edən var.
Ülfətləri, ünsiyyəti pozanları öldürməmiş,
Yol-ərkanı tərsəməssəb yozanları öldürməmiş.
*Hələ ölmək istəmirəm,* dünyamızdan doymamışam,
Xəyalımdan əl çəkməyib, röyamızdan doymamışam.
*Hələ ölmək istəmirəm,* alagözlər həsrət qalıb,
Şux zərafət, təbəssümlər, şirin sözlər həsrət qalıb.
*Hələ ölmək istəmirəm,* matəmlərdə ağlayarlar,
Üz-gözünü cıran olar, başa qara bağlayarlar,
Ürəyinə xal salarlar, sinəsini dağlayarlar.
Dərdi-qəmdən aşıb-daşıb, tüğyan edib coşan olar.
*Hələ ölmək istəmirəm,* məndən ayrı qalar sazım,
Ayrı qalar payız-qışım, gözəl yayım, gözəl yazım.
Qulaq asmaq istəyirəm, bülbüllərin nəğməsinə,
Nəvələrin, nəticənin, şaqraq ötən şən səsinə.
Məlahətli baxışlara, lətafətli qığıltıya,
Məsum məsum ağlamağa, çığırtıya, cığıltıya.
*Hələ ölmək istəmirəm,* nəqədərki cəhalət var,
Dedi-qodu, giley-güzar, kin-küdurət, ədavət var,
Paxıllıq var, xainlik var, xəyanət var, cinayət var.
*Hələ ölmək istəmirəm,* cəhalətə son qoymamış,
Pis vərdişə, ənənəyə, pis adətə son qoymamış.
Dedi-qodu, giley-güzar, küdurətə son qoymamış,
Təmənnaya, umacağa, ədavətə son qoymamış,
Paxıllığa, xainliyə, xəyanətə son qoymamış.

***Cəmil Əkbər*** 31.11 - 1983

## 107. HƏLƏ ÖLMƏK İSTƏMİRƏM (2)

*Hələ ölmək istəmirəm,* yaşamağa həvəsim var,
Eşqim, andım, məhəbbətim, ciyər dolu nəfəsim var.
Avamlığı, nadanlığı, cəhaləti öldürməmiş,
Kin-küdrəti, ədavəti, qəbahəti öldürməmiş.

İstəmirəm ölüb gedəm, gədalığa son qoymamış,
Lovğalığa, danbatlığa, ədalığa son qoymamış.
Bədfikirli, kəc xəyallı sevdaları puç etməmiş,
İnsanlığa zərbə vuran qaydaları puç etməmiş.

İstəmirəm köçüb gedəm, azğınları yox etmədən,
Qatilləri kül etməmiş, pozğunları yox etmədən.
Gicbəsəri haldan salıb, sarsaqları yox etmədən,
El malına şülən çəkən, ortaqları yox etmədən.

*Hələ ölmək istəmirəm,* yalançını məhv etmədən,
Oğruları, əyriləri, talançını məhv etmədən.
Canavarı buxovlayıb, quzğunları məhv etmədən,
Yeyib-içib harınlaşan, qızğınları məhv etmədən.

İstəmirəm ölüb gedəm əyriləri düzəltməmiş,
Ləyaqətə biganəni, qeyriləri düzəltməmiş.
Nəqədərki bu dünyada qal-qovğa var, ədavət var?
Törədilən xəta-bəla, paxıllıq var, xəyanət var?

*Hələ ölmək istəmirəm,* yıxılanı qaldırmamış,
Büdrəyəni dikəltməmiş, zəfərləri çaldırmamış.
Kamalsıza kamal verib, yol-ərkanı düzəltməmiş,
Körpələri bəsləməmiş, cavanları böyütməmiş.

*Hələ ölmək istəmirəm,* rəzalətlər qala-qala,
Nəs adətlər, bədəməllər, xəcalətlər qala-qala.
İşgəncələr, iztirablar, səfalətlər qala-qala,
Fitnə-fəsad, qal-qovğalar, xəyanətlər qala-qala.

*Hələ ölmək istəmirəm,* ilanları öldürməmiş,
Onu-bunu zəhərləyib, çalanları öldürməmiş.
El varilə aşıb-daşan, dolanları öldürməmiş,
Zalım, qəddar nəki varsa qalanları öldürməmiş.

*Hələ ölmək istəmirəm,* görüləsi işim çoxdur,
Düz işləyir təfəkkürüm, fəhm-fərasət, huşum çoxdur.
Kamalımın səmasında, xəyalımın qanadı var,
Dərrakəmin, düşüncəmin, qərarı var, inadı var.

*Hələ ölmək istəmirəm,* əyiləni qaldırmamış,
Xam xəyallarla yuxuda yatanları oyatmamış.
Cahilləri başa salıb, öz yoluna qoymadımki?
Arifləri, sərrafları düz yoluna qoymadımki?

*Hələ ölmək istəmirəm,* qollarımda qüdrətim var,
Xeyirxahlıq eyləməyə, nicatım var, nüsrətim var.
Gözü yolda, könlü xəstə, olanım var, qalanım var,
Qəm dəryasında boğulub, qərq olanım, dalanım var.

*Hələ ölmək istəmirəm,* xətir-hörmət gözləyirəm,
Əməyimdən zövq alaraq, ləzzət, izzət gözləyirəm,
Doğru sözdən, düz ilqardan, sədaqətdən heç doymadım,
Səxavətdən pay umuram, kəramətdən heç doymadım.

Gör nəqədər nəşr olmamış, neçə-neçə əsərim var?
Yeni-yeni şeirlərim, külliyatdan kəsərim var?
Bu məramla yaşayaraq, hələ qalmaq istəyirəm,
Yeni yeni qələbələr, zəfər çalmaq istəyirəm.

*Hələ ölmək istəmirəm,* dost-müsahib ağlayarlar,
Matəmimdə kədərlənib, başa qara bağlayarlar.
Çalışaraq, vuruşaraq biraz da qalmaq istərəm,
İlhamımla vəcdə gəlib, yenə də dolmaq istərəm.

*Hələ ölmək istəmirəm,* qardaşları güldürməmiş,
Həmkarlara həmdəm olub, yoldaşları güldürməmiş.
Ürəklərə hakim olub, sirdaşları güldürməmiş,
Əsrlərlə yaşayaraq çağdaşları güldürməmiş.

Çatmadığım illərim var, aylarım var, günlərim var,
Biçilməmiş zəmilərim, üyünməmiş dənlərim var.
Ediləsi qayğılarım, veriləsi borclarım var,
Toplanası gəlirlərim, çəkiləsi xərclərim var.

*Hələ ölmək istəmirəm,* gör nələri görməmişəm?
Gör nələri bəsləməyib, gör nələri dərməmişəm?
Çıxmadığım neçə yoxuş, neçə zirvə, dağlar qalıb,
Neçə peyvənd vurulmamış, təzə-təzə bağlar qalıb.

İstəmirəm ölüb gedəm, gəziləsi yerlərim var,
Neçə-neçə pünhan qalan açılmamış sirlərim var.
Ürəyimdə gör nəqədər deyiləsi söz var hələ?
Gediləsi cığır, yolum, salınası iz var hələ?

Seyrə çıxıb gözəllikdən ilhamımı almamışam,
Uyumuşam qəflətlərdə qələbəmi çalmamışam.
Könüllərdə nə yurd-yuva, hələ məskən salmadımki?
Şerimlə bu dünyaya hələ səda salmadımki?

Ölməyi heç düşünmürəm, bir hörmətli baba kimi,
Nurani ağsaqqal kimi, bir mürvətli baba kimi.
İstərdim ki, ülfət edəm, neçə nübar nəticəylə,
Ömür sürüb, gün keçirəm, hələ neçə kötücəylə.

Bağban olub bağça saldım, meyvəsini heç dərmədim,[728]
Gecə-gündüz cəfa çəkdim, faydasını heç görmədim.[729]
Məğrur olan bu sinəmdə, neçə arzu-diləyim var,[730]
El xeyrinə, el şəninə, sevda dolu ürəyim var.

Mənki ölmək istəmirəm, bu könlümün qüdrəti var?
İstəyi var, qayğısı var, neşə-neçə nüsrəti var?
Gözü yolda, könlü xəstə qalanım var, solanım var,
Düşüncələr aləmində, bulud kimi dolanım var.[731]

Əgər vaxtsız ölər olsam, yarpaq kimi solan olar,
Ağlayaraq, sızlayaraq saçlarını yolan olar.
Həsrət, intizar içində, gəlişimi gözləyərlər,
Ünvanımı soraqlayıb addım-addım izləyərlər.

Hələ yaşamaq istərəm, mənki ölmək istəmirəm,
Millətimə xidmətim var, görüləsi işlərim çox!

***Cəmil Əkbər*** 31.11 - 1983

---

[728] Bağban olub bağ salmışam, meyvəsini dərməmişəm.
[729] Cəfasını çox çəkmişəm, faydasını görməmişəm.
[730] Məğrur olan bu sinəmdə, gör nəqədər diləyim var.
[731] Dərdi-qəmlərin əlində bulud kimi dolanım var.

## 108. NƏCİB ARZU-İSTƏKLƏR (1)

Nəcib arzu-istəklər, bu bəşəri yaşadır,
Əsrlərdən-əsrə, xoş xəbərlər daşıdır.
Gör haçandan bəridir, ellər bundan nur əmir?
Tərtər, Şəmkir nədirki, Araz əmir, Kür əmir?
Bu arzudur, istəkdir, yerin-göyün ləngəri,
Xəyallardır, diləkdir, ünsiyyətin şakəri.
Onun ilə qoyulub, məhəbbətin əsası,
Xeyirxahlıq, yaxşılıq, səadətin binası.
Çatdı yerə-göyə də, ədalətin sədası,
Doğruluğun, düzlüyün, həqiqətin sədası.
Bu arzuyla-istəklə, nur saçıldı dünyaya,
Xoş xəbərlər yayıldı, dürr saçıldı dünyaya.
Odur bizə hökm edən, yarat deyən, qur deyən,
Gecələri gec yatın, səhər tezdən dur deyən.
Odur qardaş bil bunu, məni-mən eyləyən də,
Hər xətadan, bəladan, məni gen eyləyən də.
Bu xoş məramlar ilə, yoxa çıxır kinimiz,
Qərar tutub yaşamır, başımızda cinimiz.
Bu arzudur-istəkdir, məni pilə eyləyən,
Bu Vətənə, bu xalqa, daim kölə eyləyən.
Bu eşqlə, bu həvəslə, biz mehriban oluruq,
Mehri-ülfət bağlayıb, biz canhacan oluruq. [732]
Bu arzudur, istəkdir, bizi qardaş eyləyən,[733]
Bizi həmkar eyləyən, bizi yoldaş eyləyən.[734]
Bu arzuyla-istəklə, son qoyulur davaya,
Son qoyulur qovğaya, zəhərlənmiş havaya.[735]
Lüğətlərdən silinir, cəhalətin pası da,[736]
Könülləri çürüdən, ürəklərin yası da.[737]
Bu arzuyla-istəklə, səadətə çatırıq,[738]
Nadanlığın yükünü, üstümüzdən atırıq.

---

[732] Bu qərarla, niyyətlə, biz canhacan oluruq.
[733] Odur aşkar, yaxşı bil, bizi qardaş eyləyən.
[734] Doğru yola gətirib, bizi yoldaş eyləyən.
[735] Qol gücüylə, kötəklə, zəhərlənmiş havaya.
[736] Lüğətlərdən silinir, cəhalətin kəlməsi.
[737] Addımbaşı törəyən, qəbahətin kəlməsi.
[738] Bu arzuyla, istəklə, biz murada çatırıq.

Qoy yaşasın bu arzu, ürəklərdə əbədi,
Silinməsin həyatdan, diləklərdə əbədi.[739]
Belə olsa nə var ki, nə dərd olar, nə aləm?
Qərq olmazdı məlala, bu göy, bu yer, nə aləm?[740]
Qoy yaşasın bu istək, hər obada, hər eldə,
Qərinədə, əsrdə, hər fəsildə, hər ildə.
Qoy yaşasın o insan, bu niyyətlə yaşayır,
O alimlər, o loğman, bu hikmətlə yaşayır.
Qoy yaşasın o kəslər, bu məramla yaşayır,
O avazlar, o səslər, bu qərarla yaşayır.
Nəcib arzu-istəklər, qoy həryanı bürüsün,
Kimki ondan uzaqdır, diri-diri çürüsün.

***Cəmil Əkbər*** 31. 03 – 1993

## 109. NƏCİB ARZU-İSTƏKLƏR (2)

Bu arzudur, istəkdir, insanları yaşadan,[741]
Əsrlərdən keçərək, xoş xəbərlər daşıdan.[742]
Gör haçandan bəridir, ellər ondan nur əmir?
Tərtər, Şəmkir nədirki, Araz əmir, Kür əmir.
Bu arzudur, istəkdir yerin-göyün ləngəri,
Nəcib fikir, diləkdir, ünsiyyətin mehvəri.[743]
Onun ilə qoyulub sədaqətin əsası,
Xeyirxahlıq, yaxşılıq, səadətin binası.
Çatdı yerə-göyə də, insanlığın sədası,[744]
Doğruluğun, düzlüyün, ləyaqətin ədası.[745]
Bu arzuyla, istəklə nur ələndi dünyaya,[746]
İnci-sədəf yayıldı, dürr ələndi dünyaya.[747]
Odur bizə hökm edən, yarat deyən, qur deyən,
Gecələri gec yatın, səhər erkən dur deyən.
Odur, açıq bil bunu, məni-mən eyləyən də,

---

[739] Qoy yaşasın bu niyyət, diləklərdə əbədi.
[740] Qərq olmazdı dəhşətə, nə göy, nə yer, nə aləm.
[741] Bu arzudur, istəkdir, insanlarla yaşayan.
[742] Əsrlərdən əsirə, xoş xəbərlər daşıyan.
[743] Beylə sağlam diləkdir, ünsiyyətin mehvəri.
[744] Çatdı yerə-göyə də, məhəbbətin sədası.
[745] Doğruluğun, düzlüyün, həqiqətin ədası.
[746] Bu arzuyla, istəklə nur yayıldı dünyaya.
[747] İnci-sədəf, cəvahir, dür yayıldı dünyaya.

Hər xətadan, bəladan məni gen eyləyən də.
Bu arzuyla, istəklə, yoxa çıxır kinimiz,
Qərar tutb yaşamır, başımızda cinimiz.[748]
Bu arzudur, istəkdir bizi pilə eyləyən,
Bu Vətənə, bu xalqa, bizi kölə eyləyən.
Dar ayaqda yapışıb, qolumuzdan tutur o,
Bizə arxa duraraq, dadımıza çatır o.
Bu arzudur, istəkdir qardaşlığın əsası,
Ən səmimi, mehriban, yoldaşlığın əsası.
Bu arzuyla, istəklə son qoyulur davaya,
Son qoyulur qovğaya, zəhərlənmiş havaya.
Lüğətlərdən silinir, cəhalətin kəlməsi,[749]
Avamlığın cümləsi, qəbahətin kəlməsi.[750]
Bu arzuyla, istəklə səadətə çatırıq,
İnsanlığa qovuşub, ləyaqətə çatırıq.
Son qoyulur dünyada əzilənə, əzənə,
Ah-naləyə, fəryada, sinə gərib dözənə.
Belə olsa nəvarki, nə dərd olar, nə ələm?!
Tutulmazdı qaşqabaq, nə göy, nə yer, nə aləm.
Bu arzuyla, istəklə bəşər cana gəlibdir,
Yetişərək şərəfə, şöhrət-şana gəlibdir.
Qoy yaşasın bu arzu, ürəklərdə əbədi,
Ünsiyyətdə, ülfətdə, diləklərdə əbədi.
Qoy yaşasın o insan pak niyyətlə yaşayır,
Bu fikirlə, xəyalla, bu nüsrətlə yaşayır.[751]
Nəcib arzu diləklər, qoy həryanı bürüsün,
Kimki ondan uzaqdır, diri-diri çürüsün.

***Cəmil Əkbər*** 31. 03 -1991

## 110. İNSANTƏK DOLAN

İnsandır dünyanın ali canlısı,
Düşünüb qananı, həyəcanlısı.
Odur yer üzündə şəhərlər salan,
Qəsəbələr tikən, o kəndlər salan.

---

[748] Qərar tutb durmayır, başımızda cinimiz.
[749] Lüğətlərdən silinir, cəhalətin izləri.
[750] Avamlığın nişanı, qəbahətin izləri.
[751] Bu məramla, nicatla, bu nüsrətlə yaşayır.

Bütün yer üzünə nemət o verir,
Var-dövlət qazanıb, sərvət o verir.
İnsansız söz olmaz, nə söhbət olmaz,
Nə eşq-həvəs olmaz, məhəbbət olmaz.
Nə inam, etibar, sədaqət olmaz,
Nə insaf, nə mürvət, kəramət olmaz.
İnsansız nə nüsrət, nə nicat olmaz,
Səmərə, ixtira, nə icad olmaz.
İnsandır insanın dadına çatan,
Qohum-əqrəbası, yadına çatan.
Düzəldən də odur, əyən də odur,
Axırda gözünü döyən də odur,
Taledən inciyib söyən də odur.
İnsandır, insanı qocaldan da bil,
Qolundan yapışıb ucaldan da bil.
İnsandır insana güzəran verən,
Yaylaq da, qışlaq da, dağ-aran verən.
İnsandır insana həyan olan da,
Yayılıb həryanda bəyan olan da.
Gəlin insanların qədrini bilək,
Qəmdə bir ağlayaq, kefdə bir gülək.
İnsan birbirindən bezməsin əsla,
Qırıb ümidini, kəsməsin əsla.
Əlini-əlindən üzməsin keşgə,
Ayrılıb uzaqda gəzməsin keşgə.
Ünsiyyət, ülfətdə nəzakət gərək,
Xeyirxahlıq gərək, fəzilət gərək.
İnsan birbirindən gen dolanarmı?
Firəvan yaşayıb şən dolanarmı?
Xeyrinə-şərinə qarışmalıdır,
Kefini halını soruşmalıdır.
Küsüb inciyibsə barışmalıdır,
Bu yolda, bu izdə yarışmalıdır.
Hamı birbirinə can deməlidir,
Düşün deməlidir, qan deməlidir.
Nahaqdan inciyib bezməməlidir,
Əzab-əziyyətə dözməməlidir.
İnsana lazımdır əməkdaş olsun,
Əqidə bir olsun, məsləkdaş olsun.

Fikirdə, xəyalda, sözdə bir olsun,
Yolaqda, cığırda, izdə bir olsun.
Enişdə, yoxuşda, düzdə bir olsun,
Dərində, dayazda, üzdə bir olsun.
İstidə, sərində, müdam bir olsun,
Acıda, şirində müdam bir olsun.
Yeməkdə, içməkdə kefdə bir olsun,
Qazancda, gəlirdə, nəfdə bir olsun.
Obalar bir olsun, el də bir olsun,
Çəmən də, çiçək də, gül də bir olsun.
Dərya da, dəniz də, göl də bir olsun,
Kaman da, mizrab da, tel də bir olsun.
Muğan da, Şirvan da, Mil də bir olsun.
Birlik hardadırsa qüvvət ordadır,[752]
Şan-şərafət orda, şöhrət ordadır.
İnsan birbirindən aralanmasın,
Nahaqdan şəklənib qaralanmasın.
İnsan birbirinə qəsd edə bilməz,
Yeməmiş, içməımiş məsd edə bilməz.
İnsan təklənərsə yaşaya bilməz,
Həyatın yükünü daşıya bilməz.
Çalış bu dünyada insantək dolan,
Düşünüb dərk edən, qanantək dolan.
Çalış bədəməldən gen dolan insan!
Firəvan yaşayıb, şən dolan insan!
Çalış bu dünyada beləcə yaşa,
Ömrünü şərəflə yetir, sən başa.
Oxucum bu sözü yadına salsın,
Bu hikmətli kəlam yadında qalsın.

***Cəmil Əkbər*** 26. 05 – 1993

## 111. İNSANLARI YAŞADAN, İNSANLARI ÖLDÜRƏN

*İnsanları öldürən,* nə infarktdır, nə xərçənk,
Nə həşərat, nə mikrob, nə hörümçək, nə böcək.
Nə isitmə, qızdırma, nə vərəmdi, nə şəkər,
Nə ağıdır, nə acı, nə zəqqutun, nə zəhər.
Diş ağrısı deyildir, baş ağrısı deyildir,

[752] Birlik hardadırsa dirlik ordadır.

Köks, qəfəs ağrısı, döş ağrısı deyildir.
Qol ağrısı deyildir, bel ağrısı deyildir,
Oynaqlarda gizlənən, yel ağrısı deyildir.
Deyirlərki insanı məhv eyləyən, öldürən,
Dost-tanışı ağladan, düşmənləri güldürən.
Avamlıqdı deyirlər, cəhalətdi deyirlər,
Ünsiyyətdə ülfətdə, qəbahətdi deyirlər.
Qal-qovğadı deyirlər, ədavətdi deyirlər,
Xainliklə paxıllıq, xəyanətdi deyirlər.
Giley-güzar qeybətdi, şikayətdi deyirlər,
Əyriliklə, oğruluq, cinayətdi deyirlər.
Ürəklərdə kök salan, küdurətdi deyirlər.

*İnsanları öldürən*, xəbislikdir deyirlər,
Tamahkarlıq, acgözlük, hərislikdi deyirlər.
Nanəciblik, namərdlik, naqislikdir deyirlər,
Düşüncədə, idrakda xəsislikdir deyirlər.
Törədilən davalar, dalaşlardı deyirlər,
Həyəcandır, qorxudur, təlaşlardı deyirlər.
Deyirlərki insanı dil ağrısı öldürür,
Fitnə-fəsad ağrısı, fel ağrısı öldürür.
Daşa-qaşa vurulmaq, ləl ağrısı öldürür,
Gizlətməynən gəl bunu bil, ağrısı öldürür.
Deyirlərki insanı, biganəlik öldürür,
Sərsərilik, cahillik, divanəlik öldürür.
Hiyləgərlər, dələduz, bic öldürür insanı,
İlqarına-imana kəc öldürür insanı.
Qanunlara-qaydaya öc öldürür insanı,
Tərsəməssəb inadkar, ləc öldürür insanı.

*İnsanları öldürən,* pis adətdi deyirlər,
Bədxahlıqdır deyirlər, nəs adətdi deyirlər.
Müqəvvalıq, kütlükdür, karsızlıqdı deyirlər,
Ulğun, söyüdsayağı, barsızlıqdı deyirlər.
Həyasızlıq, sırtıqlıq, arsızlıqdı deyirlər,
Səfalətdə yoxsulluq, varsızlıqdı deyirlər.
Xeyir-şərə yaramaz, gücsüzlükdü deyirlər,
Acizlikdi deyirlər, vecsizlikdi deyirlər.
Ləyaqətə kor olmaq, görməməkdir deyirlər,
Ona düzgün qiyməti, verməməkdir deyirlər.

*İnsanları yaşadan* məhəbbətdir, məhəbbət!
Hatəm təbli səxavət, sədaqətdir sədaqət!
İncəliklə, zəriflik, məlahətdir məlahət!
Dadı dildən getməyən, lətafətdir lətafət!
Ədəb-ərkan, mərifət, nəzakətdir nəzakət!
Xeyirxahlıq, yaxşılıq, fəzilətdir fəzilət!
İnsaf-mürvət gözləmək, kəramətdir deyirlər,
Nə bacarsan, nə etsən, mərhəmətdir deyirlər.
Ünsiyyətdə-ülfətdə ədalətdir deyirlər,
Doğruluqdur, düzlükdür, həqiqətdir deyirlər.

*İnsanları yaşadan,* xoş əməldir deyirlər,
Nə bacarsan ondan iç, nuş əməldir deyirlər.
Bu əsasdır, bu kökdür, bu təməldir deyirlər,
Düz qoyulan himindən, bünövrədir deyirlər.
*İnsanları yaşadan,* məharətdir deyirlər,
İgidlikdir, hünərdir, cəsarətdir deyirlər.
Dözüm-durum, dəyanət, mətanətdir deyirlər,
Haqq Taaladan soy almaq, kəsarətdir deyirlər.
Nə zamandır sağalmır, qövr eyləyir bu azar,
Nəsillərdən-nəsilə dövr eyləyir bu azar.
Tapan yoxdur, deyən yox, çarəsini bu dərdin,
Yoxdur məlhəm qoyanı, yarasına bu dərdin.
"Şprisi" doldurub mürvət yerit qanıma,
Namus yerit qanıma, qeyrət yerit qanıma.
Dözüm-durum, dəyanət, qüvvət gətir canıma,
Abır gətir, həya ver, ismət gətir canıma.
Həkim qardaş çarə et, bu dərdlərə dərman ver,[753]
Çıxart hökmü-qərarı, gecikməynən fərman ver.[754]

***Cəmil Əkbər*** 29-30 / 12 – 1993

## 112. SÖZ

Sözlər ilə başlayır, insan oğlu söhbətə,
Sözlər ilə başlayır, giley-güzar, qeybətə.
Sözlər ilə başlayır, ünsiyyətə-ülfətə,
Ustadlardan dərs alıb, qulluq edib sənətə.
Sözlər ilə dünyada tanınır insan oğlu,

---

[753] Həkim qardaş amandır bu dərmanı ver bizə.
[754] Çıxart hökmü-qərarı, bu fərmanı ver bizə.

Sınanır insan oğlu, qınanır insan oğlu.
Sayılaraq seçilir, unanır insan oğlu,
Hər cür xəta-bəladan, yayınır insan oğlu.
Sözlər ilə bilinir, fikir aşikar olur,[755]
İnsan oğlu tanınıb, ellərdə məşhur olur.
Sözlər ilə açılır, pünhan qalan ürəklər,
Könüllərdə kök salan, neçə arzu-diləklər.
Buminvalla açılır, yer üzünün sirləri,
Silinərək yuyulur, hər ləkənin kirləri.
Sözlər ilə insana qaralar da yaxılır,
Sinəsinə medallar, ordenlər də taxılır.
Sözlər ilə dünyada ürəklər də sıxılır,
Qapılar da bağlanır, dirəklər də yıxılır.
Sözlər ilə insanın axırına çıxılır,
Sürüsünə baxılır, naxırına baxılır.
Sözlər ilə deyirik, duyuruq həqiqəti,
Anlayıb, dərk eyləyib, görürük ədaləti.
Ünsiyyətin ülfətin başı sözə bağlıdır,
Bərəlgəsi, zirvəsi, qaşı sözə bağlıdır.
Söz varkı, arxasında neçə xülyalar yatır,
Neçə-neçə əfsanə, neçə röyalar yatır.
Söz var ki, arxasında neçə böhtanlar yatır,
Neçə iblis, əqrəblər, neçə şeytanlar yatır.
Söz var ki, arxasında neçə mamırlıq yatır,
Üfunətli gölməçə, neçə çamırlıq yatır.
Söz var ki, arxasında məhəbbət dayanıbdır,
Sədaqət dayanıbdır, səxavət dayanıbdır.
El-obalar dayanıb, kəramət dayanıbdır,
İnsaf-mürvət dayanıb, kəramət dayanıbdır.
Söz var ki, istisindən, bütün dünya isinir,
Söz var ki, tüstüsündən, bütün dünya diksinir.
Söz var ki, bir kəlmədən tutulur insan oğlu,
Dəyərinə dəyməzə satılır insan oğlu.
Zibilliyə tullanıb atılır insan oğlu,
Yaxşı ikən yamana qatılır insan oğlu.
Söz var ki, qüdrətindən pəsinir insan oğlu,
Zəhimindən ürpəşir, səksənir insan oğlu.

[755] Sözlər ilə bilinir, hər mətləb aşkar olur.

Söz var ki, hiddətindən soyuyur insan oğlu,
Xəyallara qərq olub, yuyulur insan oğlu.
Söz var ki, hər kəlməsi eləbilki bal dadır,
Söz də var ki, butaqda yetişməmiş kal dadır.
Sözlər var ki, lüğətdən o silinsə yaxşıdır,
Onun yurdu, məkanı, tez bilinsə yaxşıdır.
Sözlər var ki, dünyada deyilməsə ey olar,
Sözdə var ki, duymasaq, insan oğlu key olar.
Dostlar gəlin yayınaq, bəd sözlərdən amandır,
Bəd yollara düşməyək, bəd gözlərdən amandır.

***Cəmil Əkbər*** 16.12 – 1989

## 113.CAR ÇƏKƏK

*I variant*

Bu nə haray-həşirdi kimlər saldı araya?[756]
Səsi-səsə verərək düzülüblər sıraya?
Fürsət tapıb nəyaman iblis girib araya?
İstəyirki qan töküb, duzu səpsin yaraya.[757]
Kimdi bunun böyüyü, kimdi bunun "banisi?"
Kim bunun sərkərdəsi, görən kimdi "dahisi?"[758]
Nədir bu xam xəyallar, nədir bu kəc fikirlər?
Xain-xəbis düşüncə, böylə də öc fikirlər? [759]
Kimdi deyən: "əzəldən səhv bölünüb yerimiz?"[760]
Özgə ələ keçibdir, səhv düşübdür zərimiz?
Çox pünhanda qalıbdır, açılmayıb sirrimiz.
Bu hansı dərrakədən yolu tapıb çıxıbdır?
Çaşıb sağa yön alıb, solu azıb çıxıbdır?[761]
Çoxdandır ki, şərikdir, dəymişimiz, kalımız,[762]
Kimdi deyən görəsən bölünməyib malımız?
O bilmirmi bu işin mürür vaxtı qurtarıb?[763]
Əda vaxtı tükənib, qürur vaxtı qurtarıb?[764]

---

[756] 1) Bu nə haydı həşirdi, salıbdılar araya? 2) Bu nə ayrı-seçkilik, salınıbdır araya?
[757]Yağı düşmən istəyir duzu səpsin yaraya.
[758] Kimdi bunun başçısı, kimdi bunun dahisi?
[759] Beylə xain, düşüncə, beylə də öc fikirlər.
[760] Görən kim deyibdiki, səhv bölünüb yerimiz?
[761] Sağı azıb çıxıbdır, solu azıb çıxıbdır?
[762] Şəriklidir çoxdandır, dəymişimiz, kalımız?
[763] Bu iddia, tələbin mürur vaxtı qurtarıb,
[764]1) Meydan açıb, hökm etmək, qürür vaxtı qurtarıb? 2) Mənəm-mənəm deməsin qürür vaxtı qurtarıb?

İndi kamal vaxtıdır, indi amal vaxtıdır,
İndi dərin dərrakə, nurlu camal vaxtıdır.
Bunu deyən bilmirmi, nələr keçib o vaxtdan?
O yazılı qərardan, o sənəddən, o aktdan?
O zamandan dolanıb, çox nəsillər keçibdir,
Qərinələr adlayıb, çox fəsillər keçibdir.
Zəmanəmiz dəyişib, indi dövran başqadır,
Ülfət-ünsiyyət başqa, əhd-peyman başqadır.
Xəritəyə baxmırmı, millət necə qarışıb?[765]
İnciyənlər, küsənlər, yüz illərdir barışıb.[766]
Elimizdə, obamda hamı qardaş olubdu,
Ən mehriban, səmimi yaxın yoldaş olubdu.[767]
Hər küçədə, dalanda, hamı əlbir olubdu,
Hamı həmfikir olub, hamı dilbir olubdu.
Canı-dildən dost olub, məhəbbətlə yaşayır,
Ehtiramla, ədəblə, sədaqətlə yaşayır.
Biz millətçi deyilik, beynəlmiləl oğluyuq,
Xoş arzular, istəklər, nəcib əməl oğluyuq.
Ərazicə ən yaxın bir torpağın oğluyuq,[768]
Bir gövdədə boy atan, bir saplağın oğluyuq.
Ta qədimdən, unumuz, çörəyimiz bir olub,
Bir tavanın altında, dirəyimiz bir olub.
Dillərimiz fərqlisə, ürəyimiz bir olub,
Ehtiyaclar ödənib, gərəyimiz bir olub.
Doğru, dürüst, saf, təmiz, əsl, qonşu olmuşuq,
Biz güneyli, quzeyli, lap yanaşı olmuşuq.[769]
Aranımız bir olub, dağlarımız bir olub,
Bostanımız yan-yana, tağlarımız bir olub.
Harayına gəlmişəm, harayıma gəlmisən,
Məhəbbətdən qurulan, sarayıma gəlmisən.
Nə zamandan bəridir, əli-ələ vermişik?
Obaları-obaya, eli-elə vermişik?
Fəsilləri-fəsilə, ili-ilə qatmışıq,

---

[765] Xəritəyə nəzər sal, millət necə qarışıb?
[766] 1) O zamandan küsənlər lap çoxdandır barışıb. 2) O zamandan küsənlər yüz illərdir barışıb. 3) İnciyənlər, küsənlər, çoxdan gəlib barışıb.
[767] Ən istəkli, mehriban, hamı yoldaş olubdu.
[768] Ərazicə yaxınıq, bir torpağın oğluyuq.
[769] Hər millətdən irəli, lap yanaşı olmuşuq.

Çəmənləri-çəmənə, çölü-çölə qatmışıq.
Naxırları-naxıra, malı-mala qatmışıq,
Arıları-arıya, balı-bala qatmışıq.
Dəymişləri dəymişə, kalı-kala qatmışıq,
Yanaqları-yanağa, xalı-xala qatmışıq.
Neyləyimki mən sənə, səpələnib getmisən?[770]
Hərbir yana üz tutub ləpələnib getmisən,[771]
Kəndimizdən kəndlərə, calanarq getmisən,
Obalardan-obaya dolanaraq getmisən.
Butaqlardan-butağa, qona-qona getmisən,[772]
Bilə-bilə getmisən, qana-qana getmisən.[773]
Qəsəbələr adlayıb, keçə-keçə getmisən,
Şəhərlərdən şəhərə, köçə-köçə getmisən.
Bulaqların gözündən içə-içə getmisən,[774]
Sən haranı xoşladın, o məkana getmisən?
O yerlərdə kök salıb cücərmisən, bitmisən.
Peyvənd olub hər yana calanmısan, neyləyək?
Gün keçirib, firavan dolanmısan neyləyək?
Hər diyarda kök atıb, oraları tutmusan,[775]
Becərilib hər yanda sulanmısan, bitmisən.
Hər bir eldə yerləşib, orda məskən salmısan,
O yerdə məskunlaşıb, əbədilik qalmısan.
Azərbaycan nədir ki, sən dünyanı tutmusan,
Yerevandan addayıb, Mancuryanı tutmusan.
Tokioda məskənin, İstambulda evin var,[776]
Pakistanda, Yəməndə,  Kabulda yurd-yuvan var.[777]
Sən haranı xoşladın, oralarda qalmısan?!
Lövbərini salaraq zəfər marşı çalmısan.
Güzəranın pis deyil, dövranını sürürsən,[778]
Hər millətlə dil tapıb, qılığına girirsən.[779]

---

[770] Yer üzünə, hər yana səpələnib getmisən?
[771] Dəniz kimi hər yana, ləpələnib getmisən.
[772] Hər ağaca, butağa, qona-qona getmisən.
[773] Otaqlardan otağa, qana-qana getmisən.
[774] Bulaqlardan bulağa içə-içə getmisən.
[775] Hər şəhər, qəsəbə, kənd, hərbir yanı tutmusan.
[776] 1) Tokioda, Nyu-yorkda, İstambulda evin var.  2) Tokionu tutmusan, İstambulu tutmusan,
[777] 1) Anqolada, Livanda, Kabulda da evin var. 2) Səpələnib hər yana, ta Kabulu tutmusan.
[778] Harda oldu yaşayıb dövranını sürürsən.

Dağılmısan hər yana Muğana da, Milə də?
Şərik oldun mixəyə, darçına da, hilə də.[780]
Sən dağlarda yaşayıb, aranlı da olmusan!
Muğan, Salyan nədir ki, Şirvanlı da olmusan?![781]
İmişlidə yaşayıb, Gəncəli də olmusan!
Qazağımda dolanıb, İncəli də olmusan!
Qarabağda yaşayıb, Şəkili də olmusan![782]
Zərdab, Ucar, Göyçaylı, Ləkili də olmusan![783]
Mərdəkanda yer tapıb, Bakılı da olmusan![784]
Voronejli olmusan, Rostov-Donlu olmusan!
Hərbir səmtə üz tutub, sən həryanlı olmusan!
Buxaralı, Daşkəntli, Almatalı olmusan,
Hər hünərli doğulub, hər həytalı olmusan.[785]
Nə qəribə məxluqsan, sırışmısan hər yana?
Qarışqatək yayılıb, daraşmısan hər yana.
Üşüyəndə sığınıb, qucağıma gəlmisən,
İsinməkdən ötürü, ocağıma gəlmisən.[786]
İrəvana sığmayıb, Azərbaycana gəldin,
Azərbaycan nədir ki, sənki hər yana gəldin?
Ocaq mənim olubdu, hənir mənim olubdu,[787]
Hər nazına dözməyə, səbr mənim olubdu.
Əzəl gündən el bilir, odlar yurdu mənimdir,
Özgə yerdə yaşayan, yadlar yurdu sənindir.
Gör haçandan bəridir növrağıma gəlmisən?[788]
Güzəranı xoş görüb, xoş çağıma gəlmisən.
Sənə deyən oldumu "Bura niyə gəlmisən?"
Bu yer səninki deyil, "Ora niyə gəlmisən?",[789]
Oğuz babam dedimi, burda durma, orda dur?[790]

---

[779] Tez-tələsik dil tapıb, qılığına girirsən.
[780] Dadanmısan neyləyim, darçına da, hilə də.
[781] Ankarada doğulub, Şirvanlı da olmusan.
[782] Kəlbəcərdə yaşayıb, Şəkili də olmusan.
[783] Qusarımda yaşayıb, Ləkili də olmusan.
[784] 1) Mərdəkana göz dikib, Bakılı da olmusan, 2) Mərdəkanlı, Novxanlı, Bakılı da olmusan.
[785] İndi yaman hirslənib, nə haytalı olmusan.
[786] 1) Gör hayandan üz tutub ocağıma gəlmisən. 2) Hər küncümə sığınıb, ocağıma gəlmisən.
[787] İsinməyə aldığın, hənir mənim olubdu.
[788] Darıxanda küsənib növrağıma gəlmisən.
[789] Bu yer sənin deyildir, "Ora niyə gəlmisən?"
[790] Sənə deyən olmadı, burda durma, orda dur!

Tikdiyin imarəti, burda qurma, orda qur?
Sənə deyən yoxduki, bizdən biraz gendə dur?[791]
Bu meydandan uzaqlaş, çəkil biraz tində dur.
Qorqud babam deginən, heç xətrinə dəydimi?
Ağacına əl atıb, budağını əydimi?
Şah İsmayıl Xətaim səni burdan qovdumu?
Bu yerlrdən köçürüb, toz kimi sovurdumu?
Bakı xanı dedimi, Bakımızda nəyin var?[792]
Şirvanımda nəyin var, Muğanımda nəyin var?
Ağdamımda nəyin var, Salyanımda nəyin var?
Gəncəmizdə nəyin var, Şəkimizdə nəyin var?
Fətəli xan dedimi, Qubamızda nəyin var?
Elim, yurdum, obamda, yuvamızda nəyin var?
İbrahim xan dedimi, Şuşamızda nəyin var?
Beylə gözəl diyarda, guşəmizdə nəyin var?
Kəc baxdımı üzünə, Babəkimiz, Nəbimiz?
Özün söylə, bir denən, nədə olub səhvimiz?
Kəc baxdımı üzünə, Cahangirim, Koroğlum?
Cavanşirim, Eldarım, neçə-neçə nər oğlum?
De bir sənin üzünə, pis baxdımı Nizami?
Kəc baxdımı Nəsimi, tərs baxdımı Füzuli?
Kəc baxdımı Sabirim, öc baxdımı Cavidim?
Vidadim tərs baxtımı, kəc baxdımı Vaqifim?
Hara getsən qardaşım, üzünə xoş baxmışıq,
Oğlunuza baxmışıq, qızınıza baxmışıq.
Sənə deyən olmadı, Tiflis sənin deyildir,
Əndican sənin deyil, Nukus sənin deyildir,[793]
Kiyev sənin deyildir, Vilnüs sənin deyildir.
Tacikistan sənin döy, Türkmənistan sənin döy,
Qırğızıstan sənin döy, Özbəkistan sənin döy.
Belarusya sənin döy, Qazaxıstan sənin döy,
Sənə deyən yoxdu ki, Talıstan da sənin döy.
Soçi sənin deyildir, ya Dağıstan sənin döy.
Zaman belə hökm edir, hara xoşdur get yaşa,
Dövranını xoş keçir, ömrü-günü vur başa.

---

[791] Sənə deyən oldumu, çəkil biraz gendə dur?
[792] 1) Sənə deyən oldumu, Bakımızda nəyin var? 2) Sənə deyən yoxdu ki, Bakımızda nəyin var?
[793] Sənə deyən yoxdu ki, Nukus sənin deyildir.

Hara getsən qardaşım üzünüzə gülürlər,
Oğlunuzla fəxr edib, qızınıza gülürlər.
Ərkimizə dözürlər, nazınıza dözürlər,
Çoxumuza güvənib, azınıza dözürlər.
Harda günün xoş keçir, ora oldu eliniz,
Orda çıxdı səsiniz, orda ötdü diliniz.
Ora oldu vətənin, ora oldu yeriniz,
Zühur etdi keşişin, orda oldu piriniz.
Görmürsənmi hər yerdə hamı hörmət eyləyir?
Hamı insafa gəlir, hamı mürvət eyləyir?
Daha doymadınmı heç, gözün qaldı hər yanda?
Haqqı-sayı itirdin, sözün qaldı hər yanda?[794]
Hara getsən, nədənsə, ay erməni "qardaşım?"
"Arkadaşım", "çağdaşım", ay "səmimi yoldaşım".
Səbəb nədir bilmirəm yönün hara düşürsə?
Səsin hara çatırsa, ünün hara düşürsə?
Fürsət tapıb əlüstü, nəqş edirsən xaçını,
Vay-şivəni salaraq, tez yolursan saçını.
Deyirsənki bu yerlər babamızdan mirasdı,
Nənəmizdən hədiyyə, anamızdan mirasdı.
Tərpədəndə biraz da hay-həşiri salırsan,
Aralığa çağırıb, mürdəşiri salırsan.
Sən hamıya söykənib öz kamını alırsan,
Səbəb nədir, bəs niyə qeylü-qalı salırsan?[795]
Yoxsa baban Keşişin hərbir yanda payı var? [796]
Qohum-qardaş, yaxını, çağdaşı var, tayı var?
Yoxsa dayın Hayqazın hərbir yanda xaçı var?
Alınası xəracı, veriləsi bacı var?[797]
Ayağına yer edib indi şeşələnirsən,
Toyuq kimi dən üstə yaman eşələnirsən?
Bu ellərdən ayıbdı, belə kişilənmə gəl,
Eyibini dedikcə indi peşələnmə gəl.
El misalı düz olur, "yersiz gəldi, yerli qaç",
Nəvecinə arsızın, "ərsiz gəldi, ərli qaç".

---

[794] 1) Yaman düşdün dillərə, sözün qaldı hər yanda, 2) Niyə düşdün dillərə, sözün qaldı hər yanda.
[795] Bəs səbəbi nədir ki, qeylü-qalı salırsan?
[796] 1) Bəlkə Qarkeşişin hərbir yanda payı var? 2) Yoxsa kişi babanın hərbir yanda payı var?
[797] Hər diyarda xəracı, hərbir yanda bacı var.

İndi nədir iddian, de nəyindi çatmayan?
Nə xoşuna gəlməyən, nə döşünə yatmayan?
Ayağına yer edib başımıza çıxırsan,
Asta-asta dırmaşıb döşümüzə çıxırsan.
Ünsiyyəti korlayan tamah olub deyirlər,[798]
Hissiləri zorlayan günah olub deyirlər. [799]
Gəl qardaşım abırla, həya ilə dolanaq,
Məslək ilə dolanaq, qayə ilə dolanaq.
Azğınlaşan tamaha, gəl təpinək tət deyək,
Gözümüzdən uzaqlaş, çəkil deyək, get deyək.
İnsan gərək atmasın ta ölüncə mürvəti,
Unutmasın xətiri, haqqı-sayı hörməti.
Nəvaziş göstərərək yerimizdən vermişik,
Evimizin içində sirrimizdən vermişik.
Bir de görüm sən bizdən, nə pisliyi görmüsən?[800]
Nə paxıllıq, xəbislik, nə nəsliyi görmüsən?[801]
Hərkəs gərək edilən haqqı-saydan utansın,
Dost əlilə verilən hərbir paydan utansın.
Səbəb nədir bəs indi, bu kin səni öldürür?[802]
Şeytan səni öldürür, bu cin səni öldürür?
Niyə belə çoxaldı, bəs hiddətlər görəsən?
Zəiflədi yaddaşlar, bəs diqqətlər görəsən?
Harda oldu Hamparsun, karvanını əylədin,
Yeddiarxa dolanan, nəyin varsa küylədin.
Sənə deyən olmadı, “gözün üstə qaşın var”,
Nə çamırlı ürəyin, nə hiyləgər başın var.[803]
Ağ eyləsən deyərlər, nanıkorun oğlusan, [804]
Acgöz oğlu Poqosun, Kinikorun oğlusan.[805]
Nə müddətdir, haçandır sığınmısan elə sən,
Kim deyib ki, ay dığa, mənim üçün köləsən?
Gör nəqədər bil sənə, xətir-hörmət edilib?

---

[798] Ünsiyyəti korlayan tamah oldu deyirlər,
[799] Əsəbləri zorlayan günah oldu deyirlər.
[800] Açıq denən sən bizdən, nə pisliyi görmüsən?
[801] Nə höcətlik eşidib, nə nəsliyi görmüsən?
[802] Səbəb nədir bəs niyə, bu kin səni öldürür?
[803] Necə kinli ürəyin, nə dumanlı başın var?
[804] 1) Çox ağ etmə, deyərlər nanıkorun oğlusan, 2) Gəl ağ etmə, deyərlər nanıkorun oğlusan.
[805] 1) Mıkırtıçın, Poqosun, Kinikorun oğlusan. 2) Mıkırtıçın oğlusan, Kinikorun oğlusan.

Sənə insaf edilib, sənə mürvət edilib?
Ayıbdı el-obadan, yer davası etmə gəl!
Azıb doğru yolunu, tərsəməssəb getmə gəl![806]
Bil yaxşısı budur ki, gözlə abır-həyanı,
Acışdırsan bu xalqı, götürəcək pəyanı,
Çağırsan da əmini, Vartazarı, dayını.
Od vuracaq xotmana, yandıracaq tayanı.
Ellər qalxar yerbəyer, hərbir yandan qovarlar,
Qazandığın hərnəvar, ixtiyardan qovarlar.
Deyərlərki ağ etdin, bu yerlərdən çəkil get!
Görünməynən gözlərə, bir dəfəlik əkil get![807]
Sənki hörmət qanmadın, sənki mürvət qanmadın,
Sənki xətir qanmadın, sənki hörmət qanmadın.
Gəl dolanma yanımda, görünməynən gözümə,
Ayaq basma yoluma, cığırıma, izimə.
Onda danış, onda din, bəs halınız nəolar?
Onda sənin dəymişin, bəs kalınız nəolar?
İnsan olan unutmaz, haqq-sayı ölüncə,
Dost əliylə verilən sovqat-payı ölüncə.
İnsan olan gözünü özgə paya dikməsin,
Ondan-bundan inciyib, qaş-qabağı tökməsin.
Bizki doğma bir yurdun, bir obanın oğluyuq,[808]
Eyni quşun qanadı, bir yuvanın oğluyuq.[809]
Əzizbəyov, Şaumyan burada şöhrət tapıbdır,
Burda hünər göstərib, burda qeyrət tapıbdır.[810]
Baqramyanla, Həzimiz gör necə də yaşadı?[811]
İgidliyin adını kişi kimi daşıdı.[812]
Samvel çalan kamanı Habilimiz dindirir,[813]
Arşaq çalan zurnanı, Qabilimiz dindirir.[814]
Ələsgərin sazını, Sayad Nova da çalıb,

---

[806] Yol-izini çaşaraq, tərsəməssəb getmə gəl.
[807] Görünməynən gözümə, rədd ol burdan əkil get.
[808] 1) Bizki doğma bir elin, bir obanın oğluyuq, 2) Biz bir elin oğluyuq, bir obanın oğluyuq,
[809] Bir diyarda böyümüş, bir yuvanın oğluyuq.
[810] 1) İlqar-iman bağlayıb, burda qala yapıbdır. 2) Burda saray qurdular, burda qala yapıbdır.
[811] Baqramyanla Həzimiz bu yerlərdə tanındı,
[812] Düşdü eniş-yoxuşa, bu yerlərdə sınandı.
[813] 1) Samvel çalan kamanı Habilimiz də çalır, 2) Samvel çalan kamanı Habilim gözəl çalır,
[814] 1) Arşaq çalan zurnanı, Qabilim gözəl çalır. 2) Arşaq çalan zurnanı, Qabilimiz də çalır,

Dilqəm bəmə kökləyib, bir gör nə hava çalıb?[815]
Musiqimiz bir olub, alətimiz bir olub,[816]
Könülləri oxşayan sənətimiz bir olub.[817]
Qoy sözlərim toxunub, xatirinə dəyməsin,
Qamətini sarsıdıb, vüqarını əyməsin.
Ocağımdan ocağın köz alıbdı həmişə,
Qonşu olub Hayqanuş, duz alıbdır həmişə.
Dilimizdən diliniz, söz də alıb bilirik,
Pambığımdan yorğanın, üz də alıb bilirik.
Çox sözünün kökündə, mənim sözüm olubdu.[818]
Əksər yolda həkk olan, mənim izim olubdu.[819]
Bu sözlərin sonuna şəkilçi "yan" qoşmusan,[820]
Səni məndən ayıran, köməkçi "yan" qatmısan.
Gör nəqədər sözümə, onu peyvənd etmisən?
Düz kəlməmi əyərək, onu səyvənd etmisən?
Dəmir bizim oğulsa Dəmirçiyan sənindir,
Musa mənim adımsa, Musaelyan sənindir.
Bala bizim oğulsa, Balayanı sən dedin,
Bədəl mənim sözümsə, Bədəlyanı sən dedin.
Baba bizim oğulsa, Babayanı sən dedin,[821]
Murad bizim övladsa, Muradyanı sən dedin.[822]
Aydın mənim adımsa, Aydınyanı sən dedin,[823]
Mirzə bizim addısa, Mirzəyanı sən dedin.
Qərib bizim oğulsa, Qəribyanı sən dedin,
Mayıl bizim oğulsa, Mayılyanı sən dedin.
Sevən mənim sözümdü, Sevanı da sən dedin, [824]
İrəvan mənim sözüm, Yerevanı sən dedin. [825]
Fürsət tapıb nə yaxşı, bu şəkilçi yanını,

[815] Neçə köklər üstündə, gör nə hava çalıbdı?
[816] Musiqimiz bir olub, sənətimiz bir olub.
[817] Onu ifa eyləyən, alətimiz bir olub.
[818] Çox sözünün kökündə, mənim sözüm görünür.
[819] Çox yolunda, izində, mənim izim görünür.
[820] Bu sözümün sonuna şəkilçi "yan" qatmısan,
[821] Baba mənim sözümsə, Babayanı sən dedin.
[822] Murad bizim sözdüsə, Muradyanı sən dedin.
[823] Aydın bizim sözdüsə, Aydınyanı sən dedin,
[824] Sevən bizim sözdü bil, Sevanı da sən dedin,
[825] İrəvanı mən dedim, Yerevanı sən dedin.

Səni məndən ayıran, öz köməkçi yanını.
Nə Nizami, Füzuli, nə Xaqani babama,
Nə Nəsimi, Səbuhi, nə də Sabir babama.
Nə Vidadi, Vaqifə, nə Səmədə, Cavidə,
Üzeyrimə, Bülbülə, Seyd Əzimə, Vahidə,
Hüseynə, Həsənə, Məhəmmədə, Vəliyə,
Ələsgərə, İmana, Şəmşirimə, Əliyə,
İsmayıla, Həmidə, Fərzalıya, Dilqəmə,
Feyzullaya, Fərmana, Fərmayıla, Əsədə,
Alməmmədə, Novruza, Gülməmmədə, Əhmədə.
Seyfullaya, Nərimana yanaşmağı bilmədi,
Alnağıya, Cəfərə yanaşmağı bilmədi.
Nəyaxşıki, yanını calamamış qalıbdır,
Barmağına hamını dolamamış qalıbdır.
İnanıram inanki, mənə də sən deyərdin,
Göydə danıb günəşi, ona da çən deyərdin.
Bu tamahki səndə var, qınamıram səni mən,
Eniş, yoxuş, nə düzdə, sınamıram səni mən.
Bu sözləri dedim ki, həqiqəti görələr,
Kimdə varsa nə isə, ləyaqəti görələr.
Eşidələr, bilələr, sözümüzdə vəhdəti,
Oğlumuzda vəhdəti, qızımızda vəhdəti.
Adətimdə vəhdəti, ənənəmdə vəhdəti,
Nəşəmizdə vəhdəti, dəbdəbəmdə vəhdəti.
Sən kəlmədə şəkilçi, hərbir sözdə kök mənəm, [826]
Hər ərişdə, arğacda, hər ilmədə kök mənəm.
Səbəb nədir görəsən, yollarını azan var?
Şər danışıb nədənsə, ayaq altdan qazan var?
Gedə-gedə uzaşıb yadlaşırıq nədənsə?
Başqa-başqa sözlərlə, adlaşırıq nədənsə?
Qədim Göyçə gölümüz, Sevan olub nədənsə?[827]
Qoca babam haçandan, cavan olub nədənsə?[828]
Basarkeçər deyilən, Vardenisə çevrilib,
Zəngibasar nədənsə, o Masisə çevrilib.[829]

---

[826] Hər cümlədə mübtəda, hər kəlmədə kök mənəm,
[827] Göyçə gölüm nədənsə, dönüb Sevan olubdu,
[828] Qoca babam haçandan, lap novcavan olubdu.
[829] Zəngibasar adlanan, o Masisə çevrilib.

Zəngəzura nədənsə, indi Gorus deyirlər?
Qarakilsə kəndinə, Kirovakan deyirlər.
Qırxbulağa nədənsə, indi Getar deyirlər.
Gözəl Arpaçayıma, Axuriyan deyirlər.
Dərəçiçək çayına, niyə Razdan deyirlər?
Unudulub nə üçün, köhnə Qaraqoyunlum?
Babasının yurdunu, yadırğayır öz oğlum.[830]
Görən nədir səbəbi, bu fikirin, xəyalın?
Kim çəkəcək altını, bu qüssənin, məlalın?
Səbəb nədir görəsən, qədim adlar danılır?[831]
Şarlatanlar, dələduz lap münəccim sanılır.[832]
Səbəb nədir görəsən, düzü tərsə yozurlar?
Zaman-zaman ülfəti, ünsiyyəti pozurlar.[833]
İndi düşün, cavab ver gövdə kimdir, butaq kim?[834]
Böyük kimdir, kiçik kim, saray, daxma, otaq kim?
Kim gəlmədi, kim yerli, de kim-kimə söykənən?
Kimdi qaçqın, köçəri, kimdi himə söykənən?[835]
Gəl "qardaşım" düz görək, həqiqəti danmayaq,
Haqqı tamam danaraq, ləyaqəti danmayaq.
Açıq-aşkar de indi, kimdi qatan aranı?
Qurdalayıb qanadıb, qövr etdirən yaranı?
Ellər görüb tanıyır yollarını azanı,
Əvvəl-axır verirlər, ən layiqli cəzanı.
Acışaraq bu bəşər, götürərlər payanı.
Tapdalayıb məsləki, itirərlər qayəni,
Yandırarlar hər yanı, odlayarlar tayanı,
Ellər qalxar yerbəyer, hər diyardan qovarlar,
Qazandığın hüquqdan, ixtiyardan qovarlar.
Deyərlərki ay dığa, bu yerlərdən çəkil get,
Görünməynən gözümə, rəddol burdan əkil get.
Deyərlərki tanıdım, nanıkorun oğlusan,
Bir həyasız, abırsız Kinikorun oğlusan.
Nə müddətdir, haçandır sığınmısan elə sən,

---

[830] Babasının yurdunu, tanımayır öz oğlum.
[831] Səbəb nədir görəsən, qədim adı danırlar?
[832] Özlərini çoxları lap münəccim sanırlar.
[833] Ünsiyyəti-ülfəti, gedə-gedə pozurlar.
[834] Gəlin biraz düşünək, gövdə kimdir, butaq kim?
[835] Kimdi qaçqın, köçəri, kimdi elə söykənən?

Daldalanıb külüngə, sığınmısan belə sən.
Ayıbdı el-obadan yer davası etmə gəl!
Azıb doğru yolunu, tərsəməssəb getmə gəl!
Açıq söylə, cavab ver, beylə tamah olarmı?
Beylə xəta olarmı, beylə günah olarmı?
Bu nə ayrıseçkilik, ay Erməni "qardaşım?"
Ay fırıldaq həmkarım, ay saxtakar yoldaşım?
Gəl çəkil səhv əməldən, zərəri var bu yolun,
Min cürə əzabı var, xətəri var bu yolun,
Hələ buna nəvarki, betəri var bu yolun?
Karvanı var bu yolun, qatarı var bu yolun.
Bəd işlərdən, əməldən, gendə dursaq yaxşıdır,[836]
Bu meydandan çəkilib, tində dursaq yaxşıdır.[837]
Bu sözləri dedim ki, hamı bilsin, anlasın,
Kimin səhvi var isə, ellər onu danlasın.[838]
Qoy görünsün, bilinsin, kimin qəlbi qaradır,
Kimin içi bəzəkdir, kimin içi yaradır?[839]
Kimdi kimə toxunan, kimdi-kimə sataşan? [840]
Kimdi-kimdən inciyən, kimdi-kimə daş atan?[841]
Kim hiyləgər, dələduz, kimdi kələk, şarlatan?
Kimdi zəhlətökənlər, kimdi gəlib baş qatan?
Ellər görüb, tanısın, yollarını azanı,
Düz çıxarıb qərarı, doğru versin cəzanı.
Kimdi deyən həyasız, Qarabağa mənimdir?
Murovuma, Məndilə, Dəlidağa mənimdir?
Qarabağın adı da, Azərbaycan sözüdür,
Aranı da, dağı da, onun iki gözüdür.
Onu deyən gərək ki, utanalar bu sözdən,
Çəkinələr bu sözdən, qısqanalar bu sözdən.
Bu ad mənim babamın qoyduqları ad olub,
Bu ad ilə öyünüb, bu ad ilə şad olub.
Bu yerlərdə yaşayan, ulu babam olubdur,

---

[836] Bədəməldən, bəd işdən, gəlin gendə dolanaq,
[837] Uzaqlaşaq meydandan, gedib tində dolanaq.
[838] Kimin səhvi çox isə ellər onu danlasın.
[839] Kimin üzü bəzəkdir, kimin içi yaradır?
[840] Qoy görünsün, bilinsin kimdi-kimə sataşan?
[841] Kimdi-kimlə öcəşən, kimdi-kimlə tutaşan?

Orda quran aşiyan, dədəm, babam olubdur,
Bu yerləri saxlayan, atam, babam olubdur.
Elim-günüm olubdur, mənim obam olubdur.
Sinə gərib bu yerdə vuruşubdur babalar,
Çox inciyib küsübdür, barışıbdır babalar.
Onlar dözdü bu yerin, soyuq, sazaq, qışına,
Dolandılar min dəfə, torpağına, daşına.
Torpaq namus deməkdir, torpaq qeyrət deməkdir,
Torpaq Vətən deməkdir, torpaq şöhrət deməkdir.
Ərazini, sərhəddi, elə-belə vermirlər,
Xoşhaxoşla paylayıb, gülə-gülə vermirlər.
Qoy oxunsun dastanım, eldən-elə, sərbəsər,
Hərkəs desin sözünü, çox qısaca müxtəsər.
İndən sonra deyin siz, ayrı düşmək olarmı?
Özgələşib yad olmaq, qeyriləşmək olarmı?
Bizə yolu göstərən əqidəmiz birdi-bir,
Sağı-solu göstərən, məsləkimiz birdi-bir.
Səadətə səfərdə, əllərimiz birdi-bir,
Külüng, balta, yavamız, bellərimiz birdi-bir.
Niyyətimiz xoş məram, amalımız birdi-bir,
İdrakımız, əqlimiz, kamalımız birdi-bir.
Elin gücü deyirlər, birləşəndə gur olur,
Selin gücü deyirlər, qovuşanda gur olur.
Birlik harda var isə, dirilik də ordadır?!
Birlik harda yox isə, gerilik də ordadır?!
İndən belə görəsən, parçalanmaq olarmı?
Özgələşib, yadlaşmaq, haçalanmaq olarmı?
İbtidadan, əzəldən sevincimiz bir olub,
Əzabımız bir olub, işgəncəmiz bir olub.[842]
Əsli sizin olubsa, Kərəm bizim olubdu,
Hicran sizə düşübsə, vərəm bizim olubdu.
Qəlbimizə yol tapıb, ədavətlər dolmasın,
Kin-kidurət qızışıb, xəyanətlər dolmasın.[843]
Nə ərazi, nə sərhəd, elə-belə bölünmür,
Öz xoşuna bölünmür, xoşməramla bölünmür.
Babaların yer üstə, axıdılan qanı var, [844]

---

[842] Həsrətimiz bir olub, işgəncəmiz bir olub.
[843] Kin-kidurət dolmasın, xəyanətlər dolmasın.

Davalarda, dalaşda, fəda gedən canı var.
Torpaq üstə salınıb, davaların hamısı,
Zəhərlənib, korlanıb havaların hamısı.
Torpaq üstə tökülüb, ah-nalələr hamısı,
Əldən düşüb qırılıb, piyalələr hamısı.
Torpaq üstə deyirlər, təngə girdi babalar,[845]
Qılınc, qalxan oynadıb, cəngə girdi babalar.
Davalarda, dalaşda çox saraylar boşaldı,[846]
Çox səs-küylər səngidi, çox haraylar boşaldı.[847]
Bərk ayaqda Vətəni satanlar da olubdu,
Yad ətəkdən yapışıb, tutanlar da olubdu.
Tərk eyləyib Vətəni qaçanlar da az deyil, [848]
Sığınaraq özgəyə, köçənlər də az deyil. [849]
Dar ayaqda, məqamda Vətənini unutdu,
Ölənini unutdu, itənini unutdu.
Bizim məğrur babalar Vətənini atmadı,
Yabançıya sığınıb, ətəyindən tutmadı,
Dəyərinə-dəyməzə peşkəş edib satmadı.
Babaların izi var, hər torpağın daşında,
Zəhmətkeşin əli var, kotanında, xışında,
Mənim babam deyirlər Koroğlular nəslidir,
Qorxu-ülkü bilməyən zor oğlular nəslidir.
Sinə gərib vuruşub, gör nəqədər fatehlə?
Teymurlənglə, Qacarla, neçə-neçə quldurla?[850]
Çox əqlini itirən, haqq yolunu azanla.
Kimdə günah olubsa, cavabını alıbdı,[851]
Əvvəl-axır köpünü, havasını alıbdı. [852]
Heçkimsənin qisası, qalmamışdır heçkəsdə,
Mərd igidlər qoymadı, bir hal qala nakəsdə.
Səbəb nədir bəs indi, Vətənindən qaçanlar?

---

[844] Babaların bu yerdə, damla-damla qanı var.
[845] Torpaq üstə deyirlər, səngə girdi babalar.
[846] Bu torpağın üstündə çox saraylar boşaldı.
[847] Çox səs-küylər kəsildi, çox haraylar boşaldı.
[848] Dar ayaqda vətəndən, qaçanlar da oldular.
[849] Yad ellərə, obaya uçanlar da oldular.
[850] Onlar meydan açdılar Teymurlənglə, Qacarla,
[851] Çox azğınlar davada cavabını aldılar.
[852] Nəfəsini dərdilər, havasını alıdılar.

Yad ölkəyə, diyara, qanadlanıb uçanlar.
Sərsəm qalıb yuxudan, vətən-vətən deyirlər,
Əsl vətəndaşa da, yolnan ötən deyirlər.
Bizim məğrur babalar, baş əyməyib özgəyə,
Təzim edib, diz çöküb, döş əyməyib özgəyə.
Babalardan almışıq ar-namusu, qeyrəti,
Dost-tanışa hörməti, düşmənlərə nifrəti.
O səbəbdən kəsirik, cəhalətin yolunu,[853]
Nadanlığın yolunu, səfalətin yolunu. [854]
Sayılanı sayıblar, seçiləni seçiblər,
Əkiləni əkiblər, biçiləni biçiblər.
Sadiqlərə sadiqdir, dönüklərə dönükdür,
Qanıxlara qanıxdır, əniklərə ənikdir.
Nifrətləri edirik, qəlbində kin olana, [855]
Düşüncədə, huşunda, başında cin olana. [856]
Vay halına o kəsin nəcabətdən xarabdır,[857]
Tərbiyədən, təlimdən, nəzakətdən xarabdır.[858]
İnsan gərək düşünə, irəlini, gerini,
Düz anlaya bəşərin, həm xeyrini, şərini.
İbtidadan, binadan sağlam deyil mayası,
Üz-gözündə görünməz, abır-ismət, həyası.
Vay halına o kəsin, təməlindən kəc olub,
Hər işindən, gücündən, əməlindən kəc olub.
Çox eşidib, görmüşük, yer üzündə davanı,
Korlanan ünsiyyəti, zəhərlənmiş havanı.
Zaman deyir əl çəkək, dava-dalaş olmasın,
Nə həyəcan, nə qorxu, ülkü, təlaş olmasın.
Nə qazanıb dalaşan, qal-qovğanı salanlar?
Bədəməllə öyünən, ondan ilham alanlar? [859]
Hərkəs gərək düz görə ədalətin yolunu, [860]
Doğruluğun, düzlüyün, həqiqətin yolunu,[861]

---

[853] Çalışıblar kəsələr, cəhalətin yolunu,
[854] Nadanlığın yolunu, qəbahətin yolunu.
[855] Nifrətləri edib həmişə, qəlbində kin olana.
[856] Ürəyində çamırlıq, başında cin olana.
[857] Vay halına o kəsin mayasından xarabdır.
[858] 1) Məsləkindən xarabdır, qayəsindən xarabdır, 2) Tərbiyədən kasaddır, nəzakətdən xarabdır.
[859] Onun ilə öyünən, ondan ilham alanlar?
[860] Zəhmət çəkib düz görək ədalətin yolunu.

İnsanlığın yolunu, ləyaqətin yolunu.
Səxavətin yolunu, kəramətin yolunu,
Xoşbəxtliyin yolunu, səadətin yolunu.
Yaşamağın yolunu, yaratmağın yolunu,
Ömürləri, günləri uzatmağın yolunu.
Qeyzlənib meydana baş atmasaq yaxşıdır,
Qəlbimizdə küdurət yaşatmasaq yaxşıdır.
Nə sən mənə, mən sənə sataşmasaq yaxşıdır,
Tüfəng, mərmi, top nədir, daş atmasaq yaxşıdır.
Deyin indi düzünü, bu mən ölüm, o da sən,[862]
Rəvadırmı heç bizə, ya mən ölüm, ya da sən?
İtirməyək bir anda, düşüncəni, kamalı,
Nə vicdanı, məsləki, əqidəni, amalı.
İnsan gərək insanın, arxasında dayansın,
Dağ da gərək dağların, arxasında dayansın.
Millət gərək millətin, arxasında dayansın,
Qeyrət gərək qeyrətin, arxasında dayansın.
Ölkə gərək ölkənin, arxasında dayansın,[863]
Qonşu gərək qonşunun, arxasında dayansın.[864]
Əllər gərək əllərin, arxasında dayansın,
Dillər gərək dillərin, arxasında dayansın.
Hərkəs gərək yatıbsa, bu səs-küyə oyansın,
Öz başına, gözünə döyə-döyə oyansın,
Bu fikirdə, xəyalda möhkəm dursun, dayansın.
Gəlin bilək qədrini, səadət dünyasının,
İnsanlığa xas olan, ləyaqət dünyasının,
Gəlin bilək qədrini, qardaşlıq dünyasının,
Əməkdaşlıq eyləyən, yoldaşlıq dünyasının,
Saf arzunun, istəyin, pak niyyət dünyasının.
Sən mənə Akper denən, mən sənə qardaş deyim,
Sən mənə hinkor denən, mən sənə yoldaş deyim.
Qoy var olsun hər yerdə, azadlığın bayrağı,
Məhəbbətin təməli, ünsiyyətin dayağı.[865]

***Cəmil Əkbər*** 7-24 / 03 –1988

---

[861]Doğruluğun yolunu, həqiqətin yolunu.
[862] Özün denən a dostum, bu mən ölüm, o da sən.
[863] Ölkə gərək ölkənin sayəsində dolansın,
[864] Qonşu gərək qonşunun qayəsində dolansın.
[865] Yerin göyün ləngəri, ərşin-gürşün dayağı.

## 114. CAR ÇƏKƏK

*II variant*

Bu nə ayrı-seçkilik salıbdılar araya?
İstəyirlər qan töküb, duz səpələr yaraya.[866]
Nədir bu kəmxəyallar, nədir sərsəm düşüncə?
Nədir xalqa verilən, yersiz-yurdsuz işgəncə?
Bu hansı dərrakədən peyda olub, yaranıb?[867]
Bu hansı bədfikirdən, nəşət tapıb daranıb?[868]
Kimdi bunun böyüyü, qurucusu, banisi?[869]
Kimdi bunun dahisi, kimdi bunun canisi?[870]
Kimdi deyən əzəldən, səhv bölünüb yerimiz?[871]
Səhv qarışıb torpağa, axıdılıb tərimiz?
Qarışıbdı nəyaman, həm xeyrimiz, şərimiz?[872]
O zamandan indiyə şəriklidir malımız,[873]
Doğru bölünməyibdir dəymişimiz, kalımız.[874]
Bunu deyən bilmirmi, çox keçibdir o vaxtdan?[875]
O yazılan qərardan, o əmrdən, o aktdan?
İndi zaman dəyişib, çərxi-dövran başqadır,
Ünsiyyətlər, ülfətlər, əhd-peyman başqadır.[876]
İndi dərin dərrakə, indi kamal vaxtıdır,
İndi düzgün əqidə, sərrast amal vaxtıdır.
O zamandan bəriyə çox nəsillər dəyişib,
Çox qərinə dolanıb, çox fəsillər dəyişib.
Xəritəyə nəzər sal, millət necə qarışıb?
İnciyib, küsüşənlər, nə zamandı barışıb?[877]
Hər diyarda, hər yerdə millətlər qardaş olub,[878]

---

[866] Dava, dalaş salaraq duz səpirlər yaraya.
[867] 1) Nə düşüncə ağıldan peyda olub yaranıb. 2) Bu nə ayrı seçkilik, nə fikirdi yaranıb?
[868] 1) Nə azardan, zikirdən yer üzünə daranıb. 2) Hardan peyda olubdur, yer üzünə daranıb?
[869] Kimdi bunun böyüyü, kimdi bunun banisi?
[870] 1) Qabaqcılı, carçısı, "sərkərdəsi", "dahisi", 2) Kimdi bunun"nəhəngi", kimdi bunun dahisi?
[871] Kimdi deyən əzəldən, səhv düşübdü yerimiz?
[872] Qatqarışıq olubdur həm xeyrimiz, şərimiz.
[873] Kimdi deyən görəsən, şəriklidir malımız?
[874] 1) Bölünməyib tən yarı, dəymişimiz, kalımız, 2) Bölünməyib nədənsə, dəymişimiz, kalımız?
[875] Bunu deyən bilmirmi, çoxdan keçib o vaxtdan?
[876] İlqar-iman başqadır, əhdi-peyman başqadır.
[877] O dönəmdən indiyə çox küsənlər barışıb.
[878] Elimizdə, obamda hamı qardaş olubdu.

Hər şəhərdə, hər kənddə, dost-doğma yoldaş olub.[879]
Hər küçədə, dalanda, məhəbbətlə yaşayır,[880]
Gör necə də ədəblə, sədaqətlə yaşayır.[881]
Biz millətçi deyilik, beynəlmiləl oğluyuq,
Nəcib arzu-diləklər, pak əməllər oğluyuq.[882]
Bu nə ayrı-seçkilik, ay erməni qardaşım?
Ay "mehriban" həmkarım, ay "vəfalı" yoldaşım.
Bizki qədim zamandan yaxın qonşu olmuşuq,[883]
Hər millətdən irəli, yan-yanaşı olmuşuq.[884]
Harayına gəlmişəm, harayıma gəlmisən,
Məhəbbətdən qurulan, sarayıma gəlmisən.
Nəzamandan dost olub, əli-ələ vermişik,[885]
Obamızı-obaya, eli-elə vermişik.
Fəsilləri-fəsilə, ili-ilə caladıq,[886]
Çeşməmizi çeşmənə, gölü-gölə caladıq,
Qönçə ikən çiçəyi, gülü-gülə caladıq,
Sevinib şənlənərək, gülə-gülə caladıq.
Çəmənləri-çəmənə, çölü-çölə caladıq,[887]
Biləkləri-biləyə, qolu-qola caladıq,
Cığırları-cığıra, yolu-yola caladıq.
Naxırları-naxıra, malı-mala qatmışıq,
Arıları-arıya, balı-bala qatmışıq,
Dəymişləri-dəymişə, kalı-kala qatmışıq.
Süfrəmizdə oturub çörəyimi yemisən,
Badələri qaldırıb, sağlıqlar da demisən.
Bizki doğma bir elin, bir obanın oğluyuq?
Eyni quşun qanadı, bir yuvanın oğluyuq.
Neçə igid oğlumuz, qızınızı sevibdir,
Ərkinizi sevibdir, nazınızı sevibdir.

---

879 Ən mehriban, səmimi yaxın yoldaş olubdu.
880 Hər küçədə, dalanda, hamı əlbir yaşayır,
881 Hamı həmfikir olub, hamı dilbir yaşayır.
882 Saf arzular, istəklər, nəcib əməl oğluyuq.
883 Əsrlərdən bəriyə, yaxın qonşu olmuşuq,
884 Verib çiyin-çiyinə, lap yanaşı olmuşuq.
885 Nə zamandır, məqamdır əli-ələ vermişik?
886 Fəsilləri-fəsilə, ili-ilə qatmışıq.
887 Çəmənləri-çəmənə, çölü-çölə qatmışıq.

Əsli sizin olubdur, Kərəm bizim olubdur,
Hicran sizin olubdur, vərəm bizim olubdur.
Qəlbimizə yol tapıb xəyanətlər dolmasın,
Kin-küdurət qızışıb, ədavətlər dolmasın.
Torpaq üstə fatehlər, nələr qaldı etməsin?
Gözdikib qəddarlıqla, haralara getməsin?
Bu niyyətlə öldülər, ölənlərin hamısı,
Gedənlərin hamısı, gələnlərin hamısı.
Nədir belə təmənna, nədir belə iddia?
Nədir belə kəc fikir, nədir belə müddəa?
Nədir belə bir tamah, nədir belə umacaq?
Nədir belə dərrakə, nədir belə qanacaq?
Görmürsənmi həryanda dövlət sənə yer verir?
Yaşamağa hər imkan, sərvət verir, zər verir.
Yaxşı olar bir qədər, sən özünə baxasan,
Öz yoluna göz dikib, bir izinə baxasan.
İnsan gərək düz görə, əməlinin sonunu,
Öz kökünün sonunu, təməlinin sonunu.
Yanılmaya, düz gedə, ədalətin dalınca,
İnsanlığın ardınca, ləyaqətin dalınca.
Heçkəs gərək atmasın, nə insafı, mürvəti,
Unutmasın ölüncə, haqq-sayı, hörməti.
Heçkəs gərək pozmasın, ünsiyyəti, ülfəti,
Atmasınlar kənara, ədəb-ərkan, mərfəti.
İnsan gərək azmasın, ömürboyu yolunu,
Yaxşı bilsin, tanısın, həm sağını, solunu.
Hamı bilsin, tanısın, doğru nədir, düz nədir?
Dərin nədir, dayaz nə, astar nədir, üz nədir?
İnsan bilib biz sizə yerimizdən vermişik,
Evimizin içində sirrimizdən vermişik.
Bu bəşərdən, bu xalqdan, hansı pislik görmüsən?
Nə höcətlik, nə tərslik, de nə nəslik görmüsən?
İndi nədir təmənnan, de görüm nə çatmayan?
Nə xoşuna gəlməyən, nə döşünə yatmayan?
İnsan gərək edilən, haqq-saydan utansın,
Dost əliylə verilən, hərbir paydan utansın.
Ayağına yer edib, başımıza çıxma gəl,
Ayağımı tapdayıb, döşümüzə çıxma gəl.
İnsan gərək dünyada çox həyalı dolana,

Əqidəli, məsləkli, həm qayəli dolana.
Yol verməyə nəfisə, acgözlüyə tamaha,
Yol verməyə bir anda, qəbahətə, günaha.
Ünsiyyəti korlayan, daima bunlar olub,
Əli-ələ verərək inanın onlar olub.
İndi Vətən sözünün bil mənası dəyişib,
Həm aləmi dəyişib, bil dünyası dəyişib.
Xəyalı da dəyişib, röyası da dəyişib,
Fikiri də dəyişib, xülyası da dəyişib.
Vətənimin sərhəddi SSRİ olubdu,
Əvvəl həddi, son həddi SSRİ olubdu.
Odur bizi bəsləyən, ən müqəddəs anamız,
Azadlığa səsləyən ən mükəmməl binamız.
Odur bizə pasiban, odur bizə müəllim,
Odur bizim səsimiz, odur bizə mehriban.
Şərəf, şöhrət, şanımız, onunkudur bilginən,
Qolumda güc-qüvvətim onunkudur bilginən.
İndi sənin vətənin Ermənistan deyildir,
Əfqanıstan, Hindistan, nə Pakistan deyildir.
Ərazimiz, ölkəmiz, bizimçün əlbir olub,
Xoş məramı, məqsədi, əqidə dilbir olub.
Yaşadığın bu dünya, qardaşlıq dünyasıdır,
Əməkdaşlıq dünyası, yoldaşlıq dünyasıdır.
Sülhdür onun əməli, səadətdir əsası,
Mehribanlıq təməli, ləyaqətdir binası.
Dərin düşün, düz anla, yaxşı dərk et, yaxşı bil,
Gəl əqlini itirmə, gözlərini yaxşı sil.
Kim əqlini itirsə, cəzasını alacaq,
Nəfəsini dərəcək, havasını alacaq.
Kim əqlini itirsə, özü peşman olacaq,
Öz-özünə çevrilib, özü düşmən olacaq.
Ta qədimdən deyirlər, hərkəsin öz payı var,
Hər ayın öz həftəsi, hər ilin öz ayı var.
Hərkəs gərək gözünü, özgə paya dikməsin,
Nəfisinə qul olub, qaş-qabağı tökməsin.
Fitnə-fəsad törədib, qal-qovğaya düşməsin,
Xəbislikdən, pislikdən, harınlaşıb şişməsin.
Əqli olan kimsələr, dava-dalaş istəməz,
Nə həyəcan keçirməz, nə də təlaş istəməz.

Biz bir elin oğluyuq, bir torpağın oğluyuq,[888]
Bir gövdənin, budağın, bir saplağın oğluyuq.[889]
Ta qədimdən, əzəldən çörəyimiz bir olub,
Ehtiyaclar ödənib, gərəyimiz bir olub.
Dillərimiz başqasa, ürəyimiz bir olub,
Bir tavanın altında, dirəyimiz bir olub.
Şərəfsiz Şaumyan burda şöhrət tapıbdır,
Köhlənini sürərək, bir mənzilə çatıbdır.
Baqramyanla, Həzimiz bir bax necə yaşadı?
İgidliyin adını, gör necə də daşıdı?
Samvel çalan kamanı, Habilimiz dindirir,
Arşaq çalan zurnanı, Qabilimiz dindirir.
Ələsgərin sazını, Sayatnova çalıbdır,
Dilqəm bəmə kökləyib, gör nə hava çalıbdır?
Musiqimiz bir olub, alətimiz bir olub,
Könülləri oxşayan, sənətimiz bir olub.
Oxumuşam, bilmişəm, kəmənçəmiz bir olub,
Hər kefimiz, qəmimiz, işgəncəmiz bir olub.
Gedə-gedə uzaşıb, yadlaşmışıq nədənsə?
Başqa-başqa mənada, adlaşmışıq nədənsə?
İnsanoğlu unutmaz, haqq-sayı dünyada,
Nə süfrəni, çörəyi, nə də çayı dünyada.
Qoy sözlərim, söhbətim xatirinə dəyməsin,
Qamətinə toxunub, vüqarını əyməsin.
Ocağımdan-ocağın, köz alıbdır bilginən,
Yaxın qonşu olmuşuq, duz alıbdır gülginən.
Çox sözünün kökü də, bizim sözlə bağlıdır,
Çox bərəlgən, çox bəndin, bizim izlə bağlıdır.
Sözlərimin sonuna, şəkliçi "yan" qatmısan,
İblis, əqrəb, cin, şeytan, ilan-çayan qatmısan.
Mirzə mənim adımdır, Mirzəyanı sən dedin,
Aydın mənim adımsa, Aydınyanı sən dedin,
Murad bizim oğulsa, Muradyanı sən dedin.
Baba bizim oğulsa, Babayanı sən dedin,
Bala bizim övladsa, Balayanı sən dedin.

---

888 Bir diyarda yaşayan bir torpağın oğluyuq,
889 Bir gövdədə, butaqda, bir saplağın oğluyuq.

Bədəl bizim övladsa, Bədəlyanı sən dedin.
Qəribi biz dediksə, Qəribyanı sən dedin,
Mayılı biz dediksə, Mayılyanı sən dedin.
İndi düşün, özün de, gövdə kimdir, butaq kim?
Böyük kimdir, kiçik kim, saray kimdir, otaq kim?
Sən kəlmədə şəkilçi, hər kəlmədə kök mənəm,
Hər ərişdə, arğacda, hər ilmədə kök mənəm.
Açıq-aşkar bir söylə, kimdi-kimə söykənən?
Kimdi təməl binada, kimdi himə söykənən?
Yaxına gəl düz anla, həqiqəti unutma!
İnsanlığa xas olan, ləyaqəti unutma!
Əzəl gündən, binadan biz mehriban olmuşuq,
Xeyirxahlıq eyləyib, biz çıraqban olmuşuq.
Təmiz olub qəlbimiz, təmiz olub qanımız,
Təmiz olub süfrəmiz, təmiz olub nanımız.
Gəl ay qonşu itirmə, düşüncəni, kamalı,
Nə vicdanı, məsləki, əqidəni, amalı.
Qardaş gərək qardaşı, düz eşidib anlasın,
Səhvi varsa düşünsün, öz-özünü danlasın.
Birbirinə söykənib, arxasında dayansın,
Qəflətdə çox yatıbsa, bu səs-küyə oyansın.
Yağı düşmən nə girib, soxulubdur araya?
İstəyirki qan töküb, duzu səpsin yaraya.
Gəl görək, gəl birləşək, daima əlbir olaq,
Bircə amal uğrunda daima dilbir olaq.
Sən mənə Akper denən, mən sənə qardaş deyim,
Sən mənə hinker denən, mən sənə yoldaş deyim.
Dost əlimiz bir olsun, düşmənləri xar edək,
Qardaşlığı, birliyi eldən-elə car edək.
Gəlin qədrini bilək qardaşlıq dünyasının,
Həmkarlıq dünyasının, yoldaşlıq dünyasının,
Qoy yaşasın, var olsun, haqq-ədalət bayrağı,
Səadətin simvolu, yerin-göyün dayağı.

***Cəmil Əkbər*** 7. 03 – 1988

## 115. CAR ÇƏKƏK

*III variant*

Bu nə ayrı-seçkilik, nə fikirdi yaranıb?
Salınıbdı araya, nə xamxəyal daranıb?[890]
Nə zamandan görəsən, şərik düşüb malımız?[891]
Deyirlər bölünməyib dəymişimiz, kalımız.[892]
Çox keçibdir o vaxtdan, indi zaman başqadır,
İndi qərar başqadır, əhd-peyman başqadır.
Xəritəyə nəzər sal, millət necə qarışıb,
Bir-birilə dil tapıb, gör necə də barışıb?[893]
Biz millətçi deyilik, beynəlmiləl oğluyuq,
Gözəl arzu-istəklər, nəcib əməl oğluyuq.[894]
Hərbir kənddə-şəhərdə, millətlər qardaş olub,
Hər yerdə, hər sahədə, millətlər yoldaş olub.
Hər binada-blokda, bir çox millət yaşayır,
Hər küçədə, dalanda hərbir millət yaşayır.
Şəhərimiz, kəndimiz, beynəlmiləl olubdur,
Əməlimiz, fəndimiz, beynəlmiləl olubdur.
Bu nə ayrı-seçkilik, ay erməni "qardaşım?"
Hansı səmtə dönüklük, ay erməni "yoldaşım?"[895]
Bizə ayrılıq deyil, bizə birlik lazımdır,
Bizə qalmaqal deyil, bizə dirlik lazımdır.
Bizki çoxdan, qədimdən yaxın qonşu olmuşuq,
Çox mehriban, çox əziz, lap yanaşı olmuşuq.
Harayına gəlmişəm, harayıma gəlmisən,
Məhəbbətdən qurulan sarayıma gəlmisən.
Sığınmısan sən mənə, sığınmışam mən sənə,
Hörmət etdim mən sənə, hörmət etdin sən mənə.
Nə zamandan məqamdan əli-ələ vermişik,[896]
Fikirləri fikirə, dli-dilə vermişik.
Obamızı-obaya, eli-elə vermişik.

---

[890] Aralığa salınıb, xam-xəyaldan daranıb.
[891] Bölünməyib deyirlər, bölünməmiş malımız.
[892] Şərik düşüb deyirlər dəymişimiz, kalımız.
[893] Dostluq edir haçandır, bir-birilə barışıb.
[894] Pak arzular, istəklər, nəcib əməl oğluyuq.
[895] Ay erməni həmkarım, ay erməni yoldaşım.
[896] Nə zamandır, məqamdır, əli-ələ vermişik.

Naxırları naxıra, çölü-çölə qatmışıq,
Bülbülləri-bülbülə, gülü-gülə qatmışıq.
Süfrənizdə oturub, çörəyini yemişəm,
Bərəkətli süfrəmdə çörəyimi yemisən,
Usta kimi ev tikib, xeyir-dua vermisən.
Biz bir elin oğluyuq, bir obanın oğluyuq,[897]
Eyni quşun qanadı, bir yuvanın oğluyuq.
Mərd igid övladımız, qızınızı sevibdir,
Ərkinizi sevibdir, nazınızı sevibdir.
Əsli sizin olubdur, Kərəm bizim olubdur,
Hicran sizin olubdur, vərəm bizim olubdur.
Qəlbimizə yol tapıb, qoy xəyanət dolmasın,
Kin, qəzəbdən, hiddətdən məhəbbətlər solmasın.[898]
Torpaq üstə fatehlər, nələr qaldı etməsin?
Xamxəyala düşərək, hara qaldı getməsin?[899]
Torpaq üstə öldülər, ölənlərin hamısı,[900]
Gedənlərin hamısı, gələnlərin hamısı.
Əzəl gündən, binadan hərkəsin öz payı var,[901]
Öz süfrəsi, çörəyi, nimçəsində çayı var.
Hərkəs gərək gözünü özgə paya dikməsin,
Öz evində oturub, özgə çaya dikməsin.
Özgə varın yeyərək, lovğalanıb şişməsin,
Kəc fikir, nəs xəyala yolu verib düşməsin.
Ağlı olan kimsələr, dava-dalaş istəməz,[902]
Nə həyəcan, nə qorxu, heç bir təlaş istəməz.[903]
O aldanmaz həyatda, nə fitnəyə, nə şərə,[904]
Sonra gedib tuş olmaz müsibətə, mənşərə.[905]
Biz bir kökdən cücərən, bir torpağın oğluyuq,[906]
Bir butaqda bəslənən, bir saplağın oğluyuq.[907]

---

[897] Bil ki yaxın bir elin, bir obanın oğluyuq.
[898] Kin-kidurət cücərib, ədavətlər dolmasın.
[899] Haralara göz tikib, haralara getməsin?
[900] Bu niyyətlə öldülər, ölənlərin hamısı.
[901] Ta qədimdən deyirlər, hərkəsin öz payı var.
[902] Ağlı olan kimsələr, dava-dalaş eyləməz.
[903] Nə həyəcan keçirməz, nə də təlaş eyləməz.
[904] Nə aldanmaz, nə uymaz, nə fitnəyə, nə şərə,
[905] Dağı-daşı dolanmaz, yolu salmaz mənşərə.
[906] Biz bir elin oğluyuq, bir torpağın oğluyuq.

Əzəl gündən süfrəmiz, çörəyimiz bir olub,
Bir tavanın altında, dirəyimiz bir olub.
Fikirimiz bir olub, kamalımız bir olub,
Məramımız, arzumuz, amalımız bir olub.
Məşədimiz, Şaumyan burda şöhrət tapıbdır,[908]
Bir məqsədin yolunda köhlənini çapıbdır.
Burda xidmət eyləyib, burda hörmət tapıbdır.
Bir amalla Baqramyan, Həzimiz də yaşadı,
Bir həyatın yükünü, kişi kimi daşıdı.
Babacanyan, hər zaman bu yerlərdə sevindi,
Bu yerlərlə fəxr edib, bu yerlərlə öyündü.
Anastas Mikoyan da, bu yerlərdən güc aldı,
Bu torpaqda böyüyüb, bu yerlərdən ucaldı.
İnsan olan unutmaz, haqq-sayı dünyada,
Nə süfrəni, çörəyi, nə də çayı dünyada.
Göyçə gölü nədənsə, indi Sevan olubdu,
Köhnə, qoca dədənsə, təzə cavan olubdu.
Basarkeçər bilmirəm, nədən Vardenisə oldu?
Zəngibasar bilmirəm, niyə o Masis oldu?
Tarix yola salsaq da, kəmənçəmiz bir olub,
Hər kefimiz, qəmimiz, işgəncəmiz bir olub.
Sevincimiz bir olub, kədərimiz bir olub,
Səadətə, xoş günə, səfərimiz bir olub.
Samvel çalan kamanı, Habil necə dindirir?[909]
Arşaq çalan zurnanı, Qabil necə dindirir?[910]
Ələsgərin sazını, Sayat Nova çalıbdı,
Dilqəm bəmə kökləyib, o binəva çalıbdı.
Aşıq Avak sazını, Aşıq Teymur çalıbdı,
Aşıq Yervand sazını, Aşıq Məsim çalıbdı.
Alətimiz bir olub, musiqimiz bir olub,
Adətimiz bir olub, sənətimiz bir olub,[911]
Lap əzəldən kökümüz, köməncimiz bir olub,
Hər kefimiz, qəmimiz, işgəncəmiz bir olub.

---

907 Birgövdənin, butağın, bir saplağın oğluyuq.
908 Stepan Şaumyan da, burda şöhrət tapıbdır.
909 Samvel çalan kamanı, Habilim də dindirir.
910 Arşaq çalan zurnanı, Qabilim də dindirir.
911 Mədəniyyət bir olub, sənətimiz bir olub.

İnsan olan unutmaz, haqq-sayı heçzaman,
Gen süfrə, duz-çörəyi, nə də çayı heçzaman.
Qoy sözlərim söhbətim, xətirinə dəyməsin,
Nə şəstinə toxunub, qamətini əyməsin.[912]
Çox sözünün kökü də, bizim sözdən alınıb,
Ocağının közü də, bizim közdən alınıb.
Sözlərimin sonuna şəkilçi yan calanıb,
Səbəb nədir görəsən, yapışaraq calanıb?[913]
Mirzə adı bizimdir, Mirzə-yanı sən dedin,[914]
Aydın bizim addısa, Aydın-yanı sən dedin,[915]
Murad bizim addısa, Murad-yanı sən dedin.[916]
Qərib bizim övladsa, Qərib-yan da sənindir,
Baba bizim oğulsa, Baba-yan da sənindir,
Bala bizim oğulsa, Bala-yan da sənindir.
Bədəl bizim sözdüsə, Bədəl-yan da sənindir, [917]
Mayıl bizim oğulsa, Mail-yan da sənindir.
İndi düşün, özün de, gövdə kimdir, butaq kim?
Böyük kimdir, kiçik kim, saray kimdir, otaq kim?
Sən kəlmədə şəkilçi, hər kəlmədə mən kökəm,
Hər ərişdə, arğacda, hər ilmədə mən kökəm.
İndi etiraf eylə, kimdi kimə söykənən?
Gəl "qardaşım" düz anla, həqiqəti unutma!
İnsanlığa xas olan ləyaqəti unutma!
Əzəl gündən, binadan, biz mehriban olmuşuq,
Xeyirxahlıq eyləyib biz çıraqban olmuşuq.
Təmiz olub qəlbimiz, təmiz olub qanımız,
Təmiz olub süfrəmiz, təmiz olub nanımız.
Bir yaxın gəl anlayaq, həqiqəti düz görək,
İnsanlığa xas olan, ləyaqəti biz görək.
İtirməyək bir anda düşüncəni, kamalı,[918]
Nə vicdanı, məsləki, əqidəni, amalı,
İtirməyək insafı, itirməyək mürvəti,

[912] Qamətinə toxunub, vüqarını əyməsin.
[913] Nə səbəbdir, nə məqsəd, bircə dayan calanıb.
[914] Mirzə bizim oğulsa, Mirzəyan da sənindir.
[915] Aydın bizim oğulsa, Aydınyan da sənindir.
[916] Murad bizim addısa, Muradyanda sənindir.
[917] Bədəl bizim addısa, Bədəl-yanı sən dedin.
[918] Gəl qardaşım itirmə, düşüncəni, kamalı.

İtirməyək abırı, nə həyanı, isməti.
Qardaş gərək qardaşı, düz eşitsin, anlasın,
Səhvi varsa düşünüb, öz-özünü danlasın.
Birbirinə söykənib, arxasında dayansın,
Çox yatıbsa qəflətdə, bu səs-küyə oyansın.[919]
Yağı düşmən nə girib, soxulubdur araya?
İstəyirki qan töküb, duzu səpsin yaraya?[920]
Gəl a dostum birləşək, daima əlbir olaq,
Bir məqsədin üstündə, hərzaman dilbir olaq.[921]
Sən mənə Akper denən, mən sənə qardaş deyim,
Sən mənə Hinker denən, mən sənə yoldaş deyim.
Dost əlimiz bir olsun, düşmənləri xar edək,
Məhəbbəti, hörməti, eldən-elə car edək.[922]
Nifrət olsun xainə, nifrət olsun pislərə,
Nifrət olsun xəbisə, harda varsa nəslərə?
Bir yaxın gəl anlayaq, səhvimizi nə varsa?
İtirməyək qazancı, nəfimizi nə varsa?
Gəlin qədrini bilək, qardaşlıq dünyasının,
Bu səxavət, kəramət, yoldaşlıq dünyasının.[923]
Lənət deyək yalana, iftiraya böhtana,
Lənət deyək bir səslə, vicdanını satana.
Gəl qardaşım hər yana, ədaləti car edək,
Ünsiyyətdə, ülfətdə, pak niyyəti car edək.
Qoy yaşasın, var olsun, səadətin sorağı,
Sovetlərin birliyi, həm çəkici, orağı.
Qoy yaşasın, var olsun haqq-ədalət bayrağı,
Səadətin simvolu, yerin-göyün dayağı.
Gəl qardaşım birləşək, düşmənləri xar edək,
Məhəbbəti, dostluğu, diyar-diyar car edək.

***Cəmil Əkbər*** 8. 03 – 1988

---

[919] Qərq olmasın qəflətə, çox yatıbsa oyansın.
[920] İstəyirki qan tökə, duzu səpsin yaraya.
[921] Bircə amal uğrunda daima əlbir olaq.
[922] Qardaşlığı, birliyi, eldən-elə car edək,
[923] Həmkarlıq dünyasının, yoldaşlıq dünyasının.

## 116. TƏKCƏ VİCDAN SUSMASIN[924]

*I variant*

Hər nə susur qoy sussun, təkcə vicdan susmasın,
Hərkəs küsür qoy küssün, təkcə vicdan küsməsin.
*Vicdan-məslək susanda,* daşa dönür ürəklər,
Müşkül işə çevrilir, xoş arzular diləklər.[925]
Qaraya ağ deyilir, ağa qara deyilir,
Kəsirə tam deyilir, tama para deyilir.
Pisə yaxşı deyilir, yaxşıya pis deyilir,
Misə qızıl deyilir, qızıla mis deyilir.
İlqar-iman azalır, ünsiyyətlər pozulur,[926]
Haqq-nahaqqa qarışır, düz əyriyə yozulur.[927]
Tab gətirib dözənmir, cəmiyyət də pozulur,[928]
Böyük-kiçik tanımır, şəxsiyyət də pozulur.[929]
Giley-güzar, qal-qovğa, küsüb-uman çoxalır,[930]
Keçir dövran, ötür vaxt, zaman-zaman çoxalır.[931]
Göyü bulud bürüyür, dağda duman çoxalır,
Kəsmir ara-bərəni, vermir aman çoxalır.
Həddi aşır dönüklük, xəyanətlər çoxalır,[932]
Xəta-bəla törəyir, xəsarətlər çoxalır.[933]
Nadanlıqlar çoxalır, cəhalətlər çoxalır,[934]
Kin-kidurət oyanır, ədavətlər çoxalır,
Yer üzünü bürüyür, qəbahətlər çoxalır,[935]

---

[924] "Buta" ədəbi birliyinin üzvü, Cəmil Əkbərin bu şeiri Gəncədə yayınlanan "Toxucu" qəzetinin 28.02-1990-cı il № 8 (472) sayının 3-cü səhifəsində "Vicdan, məslək susanda" başlığı ilə çap olunmuşdur.

[925] Müşkül işə çevrilir, saf arzular, diləklər.

[926] Ara-bərə qarışdı, ünsiyyət də pozuldu,

[927] Tərs doğruya yozuldu, doğru-tərsə yozuldu.

[928] 1)Tab gətirib dözənmir, şəxsiyyət də pozulur, 2) Tab gətirib dözmədi, şəxsiyyət də pozuldu, 3) Ayrı-ayrı adamlar, şəxsiyət də pozuldu.

[929] 1) Yer üzündə nə varsa, cəmiyyət də pozulur. 2) Başdan-başa, yerbəyer, cəmiyyət də pozuldu, 3) El-oba gözdən düşdü, cəmaət də pozuldu.

[930] 1) Giley-güzar çoxalır, küsüb-uman çoxalır, 2) Giley-güzar, qal-qovğa, küsüb-uman çoxaldı.

[931] 1)Ədavətlər artaraq, zaman-zaman çoxalır. 2) Keçdi dövran, ötdü vaxt, zaman-zanman çoxaldı.

[932] 1) Dönüklük də baş verdi, xəyanət də çoxaldı.

[933] Xətalar da çoxaldı, cəsarət də çoxaldı,

[934] Avamlıq da çoxaldı, cəhalət də çoxaldı

[935] Yer üzünü bürüdü, qəbahət də çoxaldı.

Bəd arzular, istəklər, bəd adətlər çoxalır.[936]
Nəki varsa qoy sussun, təkcə vicdan susmasın,
Kimki küsür qoy küssün, təkcə vicdan küsməsin.
*Vicdan-məslək susanda,* biz gərəksiz oluruq,
Biz arxasız, kimsəsiz, biz köməksiz oluruq.
Biz hünərsiz, təpərsiz, lap ürəksiz oluruq,
Xoş arzusuz, istəksiz, pak diləksiz oluruq.
İtirərək kamalı, el gözündən düşürük,
Əndazədən çıxırıq, yol-izindən düşürük.[937]
Qəlbimizdə eşq-həvəs, məhəbbət də qalmayır,
İnsaf-mürvət tükənir, mərhəmət də qalmayır.[938]
Solur eşqin çiçəyi, təravət də qalmayır,[939]
Nə incəlik, zəriflik, məlahət də qalmayır.
Ünsiyyətdə, ülfətdə mərhəmət də qalmayır,
Ədəb-ərkan, mərifət, nəzakət də qalmayır,[940]
İnsanlığa nur saçan fəzilət də qalmayır.[941]
Həyat zülmətə dönür, gen dünyamız dar olur,[942]
Şaxta vurub soldurur, tər qönçələr xar olur.
Duman, çisgin, çən gəlir, görən gözlər kor olur,[943]
Ha bağırsan xeyri yox, qulaqlar da kar olur.[944]
*Vicdan-məslək susanda*, pis günlərə düşürük,[945]
Haqq yolundan uzaşıb, nəs günlərə düşürük.[946]
Qal-qovğaya, davaya, dalaşlara düşürük,[947]
Həyəcanlar keçirib, təlaşlara düşürük.[948]
İnsan azğına dönür, insan vəhşiyə dönür,[949]

---

[936] Bəd arzular, istəklər, bəd adətlər çoxaldı.
[937] Sağa-sola azaraq, yol-izindən düşürük.
[938] Ünsiyyətdə, ülfətdə mərhəmət də qalmayır.
[939] 1) Solur güldə-çiçəkdə, təravət də qalmayır, 2) Solur güllər-çiçəklər, təravət də qalmayır.
[940] Ədəb-ərkan qalmayır, nəzakət də qalmayır.
[941] 1) Ünsiyyətə-ülfətdə ləyaqət də qalmayır. 2) Xətir-hörmət nə varsa, fəzilət də qalmayır.
[942] Həyat zülmətə dönür, həyat bizə dar olur.
[943] Duman çökür, çən gəlir, gözlərimiz kor olur.
[944] 1) Ha bağırıb desən də, qulaqlar da kar olur, 2) Ha dinləsə, eşitsə, qulaqlar da kar olur.
[945] Vicdan-məslək susanda biz pis günə düşmüşük.
[946] Yaman günə qalaraq, biz nəs günə düşmüşük.
[947] 1) Qal-qovğaya, davaya, dalaşa da düşmüşük. 2) Qal-qovğaya, davaya, dalaşa da düşmüşük.
[948] 1)Vicdan, məslək susanda biz təlaşa düşürük, 2) Həyəcanlar keçirib, təlaşa da düşmüşük.
3) Həyəcana, qorxuya, təlaşlara düşürük.
[949] İnsan azğına döndü, insan vəhşiyə döndü.

Qanan-qanmaz görünür, sanki naşıya dönür.[950]
İnsan iblis, əqrəbə, ilan-çayana dönür,
Əfi, kürzəyə dönür, şahimarana dönür.
Həyat zülmətə dönür, dünya bizə dar olur,[951]
Şaxta vurub, soldurur tər qönçələr xar olur.[952]
*Vicdan-məslək susanda*, ünsiyyət də heçnədir,
Öyüd sənə alınmır, nəsihət də heçnədir.[953]
İtdi-batdı arada, ilqar-iman qalmayır,[954]
Nə etibar-etiqad, əhd-peyman qalmayır.[955]
Ha can qoyub çalışsan, yoldaş da yoldaş olmur,[956]
Dostdoğmaca can-ciyər, qardaş da qardaş olmur.
Həmkar-həmkardan küsür, sirdaş-sirdaşdan küsür,[957]
Taytuş-taytuşdan küsür, çağdaş-çağdaşdan küsür.[958]
Nəki varsa qoy sussun, təki vicdan susmaya,
Kimki küsür qoy küssün, təki vicdan küsməyə!
*Vicdan-məslək susanda*, ünsiyyət də heçnədir,
Ülviyyət də heçnədir, qüdsiyyət də heçnədir.
Ər arvadı tanımır, arvad əri tanımır,
Zərgər nalbəndlik edir, nalbənd zəri tanımır.
*Vicdan, məslək susanda,* qeyrət orda azaldı,
Abır orda tükəndi, ismət orda azaldı.
Xətir orda azaldı, hörmət orda azaldı,
Məzmun orda tükəndi, hikmət orda azaldı.
Dövlət orda qıt oldu, sərvət orda puç oldu,
Şərəf burda heç oldu, şöhrət orda heç oldu.
*Vicdan-məslək susanda*, dövran yaman bəd olur,
Hər şey gözdən düşərək, hər zaman bərbad olur.
Harda vicdan olubsa, orda tutdu qolumdan,[959]
O qoymayıb çaşmağa, nə azmağa yolumdan.[960]

---

950 Qanan da qanmaz oldu, sanki naşıya döndü.
951 1) Həyat zülmətə döndü, dünya bizə dar oldu, 2) Bilən də bilməz oldu, sanki naşıya döndü.
952 Şaxta vurdu, soldurdu tər qönçələr xar oldu.
953 Öyüd sənə alan yox, nəsihət də heçnədir.
954 İtdi-batdı arada, ilqar-iman qalmadı.
955 Nə etibar, etiqad, əhdi-peyman qalmadı.
956 Ha cəhd edib çalışsan, yoldaş da yoldaş olmur,
957 Həmkarlar da, həmdəm də, sirdaş da sirdaş olmur.
958 Həmfikir, həmrəy olmur, taytuş da çağdaş olmur.
959 Harda vicdan olubsa, tez yapışıb qolumdan.

Əzəl gündən, binadan, məni-mən edən odur,
Hər xətadan-bəladan məni gen edən odur.
Məni məmnun eyləyən, məni şən edən odur,[961]
Məni ulduz, ay edən, məni gün edən odur.[962]
Ondan ayrı nəçiyəm, ondan ayrı mən kiməm?
Təkcə-tənha inləyən, kökdən düşən bir siməm.
İnsanoğlu amandır, gəl vicdanı atmayaq,
Onu ucuz tutmayaq, kor qəpiyə satmayaq,[963]
Harda olsan hərzaman bu neməti itirmə![964]
Könül adlı diyarda, qara tikan bitirmə!
Hamı qoy bunu bilsin, vicdan, məslək susanda,
Ülvi-nəcib istəklər, arzu-dilək susanda,
Nadanlığa qurşanıb, cəhalətə gedirik,
Çamırlığa yol açıb, qəbahətə gedirik.
İnsanlığa qəsd olur, ləyaqətlər tapdanır,
Xətir-hörmət əzilir, fəzilətlər tapdanır.
*Vicdan-məslək düşməsin*, qoy heç kimdən aralı,
İnsan oğlu dərd çəkər, könül mülkü yaralı.
Vicdan haqqın səsidir, ədalətin səsidir,
Doğruluğun, düzlüyün, həqiqətin səsidir.
Ən müqəddəs, ən ülvi, ləyaqətin səsidir,[965]
İgidliyə xas olan, sədaqətin səsidir.[966]
Arzuların, istəyin, məhəbbətin səsidir,
Mehri-ülfət, mərifət, nəzakətin səsidir. [967]
Hər nə susur qoy sussun, təki vicdan susmasın,
Hərkəs küsür qoy küssün, təki vicdan küsməsin.
Məndən olsa vicdana, yaradandı deyərdim,
Bu bəşəri, bu xalqı, yaşadandı deyərdim.
Ona gözəl növrağım, büsatımız deyərdim,
Nüsrətimiz deyərdim, nicatımız deyərdim.
Vicdan bizlə olanda, biz qayğıkeş oluruq,

---

[960] O qoymadı çaşmağa, nə də çıxım yolumdan.
[961] Məni gümrah eyləyən, məni şən edən odur.
[962] Məni ulduz eyləyən, məni gün edən odur.
[963] Onu ucuz tutaraq, ayaq altda atmayaq.
[964] Harda olub, yaşasaq, bu neməti itirmə.
[965] İnsanlığa yol açan, ləyaqətin səsidir.
[966] Ədalətin səsidir, səxavətin səsidir.
[967] Ədəb-ərkan səsidir, nəzakətin səsidir.

Xalqa xidmət eyləyib, biz zəhmətkeş oluruq.
Cəsarətli, fəhmli, fərasətli oluruq,
Biz yenilməz vüqarlı, dəyanətli oluruq.
*Vicdan-məslək susanda,* ünsiyyət də pozuldu,
Kimdi öyüd götürən, nəsihət də pozuldu?!
Yer də, göy də, səma da, kainat da pozuldu,
El-obada yaşayan, camaat də pozuldu.
Həyat olur müsibət, dünya zülmətə dönür,
Artır əzab-əziyyət, dünya zillətə dönür. [968]
Göydə bulud qaralır, gen dünyamız daralır,
Məhəbbət bağcasında qönçələri xar alır.
Duman gəlir, çən çökür, görən gözlər kor olur,[969]
Ha çağırıb-bağırsan, qulaqlar da kar olur,
İtiririk nüfuzu, cahan bizə dar olur.
*Vicdan-məslək susanda,* qeyrət orda azalır,
Abır orda tükənir, ismət orda azalır.
Xətir orda azalır, hörmət orda azalır,
İnsaf orda azalır, mürvət orda azalır.
Dövlət orda azalır, sərvət orda azalır,
Şərəf orda azalır, şöhrət orda azalır.
*Vicdan-məslək susanda,* dövran orda pozuldu,
Əyriyə düz deyildi, düzlər əyri yozuldu.
İtib batır arada, ilqar-iman qalmayır,
Nə etibar, etiqat, əhd-peyman qalmayır.
İnsanlığa xas olan, ləyaqət də yox olur,
Ünsiyyətdə, ülfətdə hərarət də yox olur.
Buminvalla, məramla cəhalətə gedirik,
Müsibətə qərq olub, fəlakətə gedirik.
*Vicdan bizlə olanda*, ədalətli oluruq,
Əməldə qətiyyətli, dəyanətli oluruq.
Ədəb-ərkan gözləyib, nəzakətli oluruq,
Biz yenilməz oluruq, məharətli oluruq,
Həm dözümlü-durumlu, mətanətli oluruq.
Cəsarətli, ürəkli, fərasətli oluruq,
Hatəmsayaq oluruq, səxavətli oluruq.
Vətən üçün, xalq üçün, ləyaqətli oluruq,

---

[968] Əzab-əziyət içində, dünya zillətə dönür.
[969] Vicdan-məslək susanda, gözlərimiz kor olur.

Vicdana söykənəndə ucalmışıq hərzaman,
Hünərləri göstərib, bac almışıq hərzaman.
Hər işdə zəfər çalıb, tac almışıq kişitək,[970]
Vaxt-vədəsiz ölməyib, qocalmışıq kişitək.[971]
Əl uzadıb çoxunun harayına yetmişik,[972]
Fəsilinə, ilinə, hər ayına yetmişik.[973]
El –obada tanınıb, ada-sana çatmışıq, [974]
Düşünüb, dərk eyləyib, qana-qana çatmışıq.[975]
*Vicdan-məslək susanda,* biz pis günə düşmüşük,
Yaman günlərə qalıb, biz nəs günə düşmüşük.
Harda vicdan oldusa, orda tutdu qolumdan,[976]
O qoymadı çaşmağa, nə də çıxam yolumdan.[977]
İnsanoğlu amandır, vicdanını atma gəl,[978]
Onu ucuz tutaraq, hər yetənə satma gəl,[979]
Harda olsan, yaşasan bu neməti itirmə!
Könüllər bağçasında kol-kosları bitirmə![980]
Hamı bilsin qoy bunu, vicdanı biz atanda,
Onu gözdən salanda, onu ucuz tutanda.
Avamlığa yol verib, cəhalətə gedirik,
Doğru səmti dəyişib, nə halətə gedirik?
Rəhm eyləyin qardaşım, o düşməsin aralı,
Onsuz keçən günlərdə, könül bağım saralı.
Harda olsaq, yaşasaq o getməsin uzağa,
O bizimlə olarsa, heç düşmərik sazağa.
Məndən olsa vicdana yaradandı deyərdim,
Bu bəşəri, bu xalqı yaşadandı deyərdim.[981]
Ona gözəl növrağım, büsatımız deyərdim,[982]

---

970 Zəfər çalıb həyatda, bac almışıq hərzaman.
971 Kişi kimi ad alıb, qocalmışıq dünyada,
972 Əl uzadıb çoxunun harayına çatmışıq.
973 Həftəsinə, ilinə, hər ayına çatmışıq.
974 Şan-şöhrətə çatmışıq, ada-sana çatmışıq.
975 Dərk eyləyib, anlayıb, qana-qana çatmışıq.
976 Harda olsam vicdanım, yapış orda qolumdan,
977 Qoyma çaşım həyatda, qoyma çıxım yolumdan.
978 İnsanoğlu amandır, gəl vicdanı atmayaq.
979 Onu ucuz tutaraq, kor qəpiyə satmayaq.
980 Gül-çiçəyin yerində qaratikan bitirmə.
981 Ömür-günü uzadan, yaşadandı deyərdim,
982 Növrağımız deyərdim, büsatımız deyərdim.

Nüsrətimiz deyərdim, nicatımız deyərdim,[983]
Hər nə susur qoy sussun, bircə vicdan susmasın,
Hərkəs küsür qoy küssün, təkcə vicdan küsməsin.

***Cəmil Əkbər*** 1988

## 117.TƏKCƏ VİCDAN SUSMASIN

*II variant*

*Harda vicdan susdusa,* orda xəyanət oldu?!
Başqaldırdı küdurət, orda ədavət oldu![984]
Çoxalaraq nadanlıq, orda cəhalət oldu!
Xəta-bəla törədi, orda qəbahət oldu![985]
Giley-güzar çoxaldı, orda şikayət oldu![986]
Qanun-qayda pozuldu, orda cinayət oldu![987]
Doğru əyri göründü, əyri doğru göründü,
Yara-xora göynədi, orda ağrı göründü.
*Harda vicdan susdusa,* orda pozğunluq oldu?!
Orda çaşqınlıq oldu, orda azğınlıq oldu.
Tapdalandı ədalət, doğru əyri yozuldu,[988]
Xətir-hörmət sarsıldı, o inlədi, sozaldı.[989]
*Vicdan harda susdusa,* iş də orda azaldı?![990]
Orda xətir tükəndi, orda hörmət azaldı,
Orda insaf tükəndi, orda mürvət azaldı.[991]
Ar-namus da qalmadı, orda qeyrət azaldı,[992]
Orda dövlət tükəndi, orda sərvət azaldı.
Orda qüvvət tükəndi, orda qüdrət azaldı,
Orda şərəf azaldı, orda şöhrət azaldı.
Müsibətlər törədi, zəlalətlər göründü,[993]
İşgəncələr, əzablar, fəlakətlər göründü.

---

[983] Həyatımız deyərdim, nicatımız deyərdim.
[984] 1) Harda vicdan susdusa, orda ədavət oldu, 2) Orda küdurət oldu, orda ədavət oldu.
[985] 1)Orda cəhalət oldu, orda qəbahət oldu. 2) İnsanlığa qəsd oldu, orda qəbahət oldu.
[986] 1) Qondu giley-güzarlar, orda şikayət oldu. 2) Orda giley-güzarlar, orda şikayət oldu.
[987] 1) Xəta-bəla törədi, orda cinayət oldu. 2) Orda xəta törədi, orda cinayət oldu.
[988] Doğru əyri göründü, düz əyriyə yozuldu.
[989] Xətir orda azaldı, hörmət orda azaldı.
[990] Harda vicdan susdusa, ülfət orda pozuldu.
[991] İnsaf orda tükəndi, mürvət orda azaldı.
[992] Orda namus azaldı, orda qeyrət azaldı.
[993] Harda vicdan susdusa, orda zəlalət oldu.

İnsan zülmə-zillətə, orda dəlalət oldu,[994]
İnsan orda pisikdi, orda xəcalət oldu.
Çirkin gözəl göründü, gözəl çirkin göründü,
Xudbin sadə göründü, sadə xudbin göründü.
Qaraya ağ deyildi, ağa-qara deyildi,[995]
Paralara büsbütün, tama para deyildi,[996]
Pisə yaxşı deyildi, yaxşıya pis deyildi,
Misə qızıl deyildi, qızıla mis deyildi.
Qayda-qanun nə varsa, yerbəyerdən pozuldu,[997]
Nahaqqa-haqq deyildi, haqq tərsinə yozuldu.

*Harda vicdan susdusa,* insan vəhşi göründü?!
Qanmayanlar-qanana, qanan naşı göründü,[998]
Kişi gəda göründü, gəda kişi göründü,
Sağlam xəstə göründü, xəstə sağlam göründü.
Yerbəyerdən əyildi, hər şey tərsinə döndü,
Artıraraq qəzəbi, hər şey hirsinə dəydi.[999]
Sağlam arzu-diləklər, niyyət də gözdən düşdü,[1000]
Bərbəzəklər, təmtəraq, zinət də gözdən düşdü.[1001]
Dəyər də gözdən düşdü, qiymət də gözdən düşdü,
Məzmuna xələl gəldi, hikmət də gözdən düşdü.
Orda sayəsiz olduq, orda gərəksiz olduq,[1002]
Orda arxasız olduq, orda köməksiz olduq,
Orda kimsəsiz qalıb, orda çörəksiz olduq.
Çətinlikdə inləyib, orda dara düşmüşük,[1003]
Orda zülüm-zillətə, orda zora düşmüşük.[1004]
Qasırğaya, çovğuna, çalpoy, qara düşmüşük,[1005]
Orda tufan-borana, orda tara düşmüşük.

---

994 Hamı qəsdə-qərəzə, orda dəlalət oldu.
995 Ağa qara deyildi, qaraya ağ deyildi.
996 1) Dağa təpə deyildi, təpəyə dağ deyildi. 2) Yarıya tam deyildi, tama para deyildi.
997 Ünsiyyətlər-ülfətlər, yerbəyerdən pozuldu.
998 Qanmaz loğman göründü, qanan naşı göründü.
999 İnsanlara toxundu, hər şey hirsinə dəydi.
1000 Sağlam olan arzular, niyyət də gözdən düşdü.
1001 Bər-bəzəklər pozuldu, zinət də gözdən düşdü.
1002 Harda vicdan susdusa, orda gərəksiz olduq.
1003 Orda çətinlik oldu, orda zora düşmüşük.
1004 Orda zülmətə düşdük, orda dara düşmüşük.
1005 Orda borana düşdük, çalpoy-qara düşmüşük.

Qərq olaraq ah-vaya, orda zara düşmüşük,
Özümüz də bilmədik, hardan-hara düşmüşük?
*Harda vicdan susdusa,* biz də orda susmuşuq?!
Oralarda inciyib, oradaca küsmüşük.[1006]
Ünsiyyəti, ülfəti oradaca kəsmişik,
Yarpaq kimi titrəyib oradaca əsmişik.
Ləyaqət şikəst oldu, ədalətə qəsd oldu,
Doğruluğa, düzlüyə, həqiqətə qəsd oldu.
Ədəb-ərkan pozuldu, mərifətə qəsd oldu,
Gediş-gəliş kəsildi, ünsiyyətə qəsd oldu.
Ədəb-ərkan pozuldu, nəzakətə qəsd oldu,
Xeyirxahlıq tapdandı, fəzilətə qəsd oldu.
Başdan-başa bəşərə, cəmiyyətə qəsd oldu,
Müqəddəslik, ülvilik, qüdsiyyətə qəsd oldu.
*Harda vicdan susdusa,* həya orda sönübdür,
Orda məslək qalmadı, qayə orda sönübdür.[1007]
Təlimatı düz verən, dayə orda pozuldu,
Qayğı, yardım azaldı, sayə orda pozuldu,[1008]
İmdad, kömək kəsildi, sayə orda pozuldu.
O yerlərdə təkləyib, bizi orda döydülər,[1009]
Yolumuzdan döndərib, bizi orda əydilər,[1010]
Toxunaraq sərasər, qəlbimizə dəydilər.
Təhqir edib haqq-nahaq, orda bizə söydülər,
Yəqinki ağıldan qıt, deyən yaman səydilər?
*Harda vicdan susdusa,* kamal orda korlandı?![1011]
Əqidələr, məsləklər, amal orda korlandı.[1012]
Gözəlliklər, görkəmlər, camal orda korlandı,[1013]
Gözdən düşdü el-oba, mahal orda korlandı.[1014]
Qardaş kara yetmədi, yoldaş kara yetmədi,
Ruhdan düşdü tay-tuşlar, çağdaş kara yetmədi,[1015]

---

[1006] Oradaca inciyib, buradaca küsmüşük.
[1007] Məslək orda pozuldu, qayə orda pozuldu.
[1008] Qayğı, yardım olmadı, dayə orda pozuldu.
[1009] Harda vicdan susdusa, orda bizi döydülər.
[1010] Orda bizi döndərib, yolumuzdan etdilər.
[1011] Əql yazıq neyləsin, kamal kara yetmədi.
[1012] Nə əqidə, nə məslək, amal kara yetmədi.
[1013] Nə gözəllik, nə görkəm, camal kara yetmədi.
[1014] Nə el-oba, nə vətən, mahal kara yetmədi.

Sağlam kara yetmədi, naxoş kara yetmədi.
Ünsiyyət məqamında sədaqət də qalmadı,[1016]
Hatəm gözə dəymədi, səxavət də qalmadı.[1017]
İnsaf ərşə çəkildi, kəramət də yox oldu,
Oxumaq da, yazmaq da, qiraət də yox oldu.
Etiqad da azaldı, etibar da azaldı,
Əhd-peyman pozuldu, düz ilqar da azaldı.
Dövran orda bəd gəldi, pozuldu orda həyat,[1018]
Kef-damaqlar, nəşələr, pozuldu orda büsat.[1019]
Pozuldu, orda nüsrət, pozuldu orda nicat,
Dayandı ixtiralar, pozuldu orda icad.
Zülmət çökdü yerlərə, dağları nəm bürüdü,
Dolu döydü tarlanı, bağları çən bürüdü.[1020]
*Harda vicdan susdusa,* şənlik orda yox oldu?!
Dözənmədi ləyaqət, mənlik orda yox oldu.
Fikirlər çaşbaş oldu, söz də düşdü hörmətdən,
Cığırlar səhv salındı, iz də düşdü mürvətdən.
*Harda vicdan susdusa,* orda gərəksiz olduq?!
Orda süfrə açmadıq, orda çörəksiz olduq.
Tutanmadıq qollardan, orda kara yetmədik,
Ha çalışdıq, vuruşduq, dövlət-vara yetmədik.
*Harda vicdan susdusa,* biz də orda susmuşuq,
Orda yaman inciyib, biz də orda küsmüşük.
Saxlamayıb ülfəti, ünsiyyəti kəsmişik,
Xoş arzunu-istəyi, saf niyyəti kəsmişik.
*Harda vicdan susdusa,* şənlik orda pozuldu?!
İnsanlığa qəsd oldu, mənlik orda pozuldu.
Gəl ay qardaş hərzaman, vicdan ilə yaşayaq,
İnsanlığın yükünü, insan kimi daşıyaq.[1021]
Vicdan-məslək düşməsin, bir an bizdən aralı,
Ondan ayrı düşərsə, könül bağı saralı.

---

[1015] Həmdəm kara yetmədi, çağdaş kara yetmədi.
[1016] Harda vicdan susdusa, sədaqət də yox oldu.
[1017] Hatəm gözə dəymədi, səxavət də yox oldu.
[1018] 1) Harda vicdan susdusa, orda həyat pozuldu. 2) Orda dövran pozuldu, orda həyat pozuldu,
[1019] Orda dövran pozuldu, orda büsat pozuldu.
[1020] Tarlaları, zəmini, bağları çən bürüdü.
[1021] İnsanlığın yükünü, vicdan ilə daşıyaq.

Dağ başını bürüyər, yerbəyerdən qar alı,
Xəzan vurub bağları, vaxt-vədəsiz xar alı.
Hər nə susur qoy sussun, təkcə vicdan susmasın,
Hərkəs küsür qoy küssün, təkcə məslək küsməsin.

***Cəmil Əkbər*** 1987

## 118. TƏKCƏ VİCDAN SUSMASIN

*III variant*

*Harda vicdan susdusa,* orda cəhalət oldu?!
Orda küdurət oldu, orda ədavət oldu.
İnsanlığa qəsd oldu, orda qəbahət oldu,
Orda xəta törədi, orda cinayət oldu.
Orda giley-güzarlar, orda şikayət oldu,
Orda paxıllıq oldu, orda xəyanət oldu.
*Harda vicdan susdusa,* iş də orda pozuldu?!
Doğru əyri göründü, əyri doğru yozuldu.
Xətir-hörmət qalmadı, insaf-mürvət qalmadı,
Nə sədaqət, səxavət, nə də şöhrət qalmadı.
Orda namus azaldı, orda qeyrət azaldı,
Orda abır qalmadı, orda nemət azaldı.
Orda dövlət tükəndi, orda sərvət qalmadı,
Orda qüvvət azaldı, orda qüdrət qalmadı.
*Harda vicdan susdusa,* orda zəlalət oldu?!
Orda qəsd-qərəz oldu, orda dəlalət oldu.
Çirkin gözəl göründü, gözəl çirkin göründü,
Xudbin sadə göründü, sadə xudbin göründü.
Qaraya ağ deyildi, ağa qara deyildi,
Yarıya tam deyildi, tama para deyildi.
Pisə yaxşı deyildi, yaxşıya pis deyildi,
Misə qızıl deyildi, qızıla mis deyildi.
Qayda-qanun nə varsa, yerbəyerdən pozuldu,
Yerbəyerdən inlədi, yerbəyerdən sozaldı.
*Harda vicdan susdusa,* orda vəhşi göründü?!
Orda nadan göründü, orda naşı göründü.
Ünsiyyətdə, ülfətdə hər şey tərsinə döndü,
Toxunaraq insana, hər şey hirsinə dəydi.
Şərəf də gözdən düşdü, şöhrət də gözdən düşdü,
Dəyər də gözdən düşdü, qiymət də gözdən düşdü.

Sağlam fikir, arzular, niyyət də gözdən düşdü,
Alabəzək naxışlar, zinət də gözdən düşdü.
*Harda vicdan susdusa,* orda gərəksiz olduq?!
Orda arxasız olduq, orda köməksiz olduq.
Orda çətinlik oldu, orda dara düşmüşük,
Orda yaman dolaşdıq, orda tora düşmüşük.
Orda tufan, borana, orda düşdük qara biz,
Heç bilmədik yön alıb, üzü tutaq hara biz?
*Harda vicdan susdusa,* biz də orda susmuşuq?!
Biz də orda inciyib, biz də orda küsmüşük.
Ədalətə qəsd oldu, həqiqətə qəsd oldu,
İnsanlığa zülm oldu, ləyaqətə qəsd oldu.
Ədəb-ərkan nə varsa, mərifətə qəsd oldu,
Müqəddəslik pozuldu, ülviyyətə qəsd oldu.
*Harda vicdan susdusa,* həya orda olmadı?!
Məslək orda olmadı, qayə orda olmadı.
Orda bizi əzdilər, orda bizi döydülər,
Orda bizi qatlayıb, orda bizi əydilər.
Orda bizi çıxardıb, yolumuzdan etdilər,
Sağımızdan etdilər, solumuzdan etdilər.
Əql yazıq mat qaldı, kamal kara yetmədi,
Nə əqidə, nə məslək, amal kara yetmədi.
Nə gözəllik, nə görkəm, camal kara yetmədi,
Nə el-oba, nə vətən, mahal kara yetmədi.
Qardaş kara yetmədi, yoldaş kara yetmədi,
Həmkar kara yetmədi, sirdaş kara yetmədi.
*Harda vicdan susdusa,* sədaqət də yox oldu?!
Hatəm də gözdən düşdü, səxavət də yox oldu.
Etiqad da, inam da, etibar da azaldı,
Əhd-peyman pozuldu, düz ilqar da azaldı.
*Harda vicdan susdusa,* büsat orda pozuldu?!
Dövran qara gətirdi, həyat orda sozaldı.
Zülmət çökdü hər yana, dağları çən bürüdü,
Tarlaları, zəmini, bağları çən bürüdü.
Çaşbaş düşdü fikirlər, söz də hörmətdən düşdü,
Yollar da səhv salındı, iz də hörmətdən düşdü.
*Harda vicdan susdusa*, orda ürəksiz olduq?!
Orda həvəssiz olduq, orda diləksiz olduq.
Tutulmadı qollardan, orda kara yetmədik,

Nəbzlərdən yapışıb, dərdə çarə etmədik.
*Harda vicdan susdusa,* şənlik orda pozuldu?!
Ləyaqət gözdən düşdü, mənlik orda üzüldü.
Vicdan-məslək düşməsin, bircə an da aralı,
O gedərsə uzağa, könül bağı saralı.
Hər nə susur qoy sussun, təkcə vicdan susmasın,
Hərkəs küsür qoy küssün, təkcə məslək küsməsin.
Qardaş, gəlin hərzaman vicdan ilə yaşayaq,
İnsanlığın yükünü, insan kimi daşıyaq.

***Cəmil Əkbər*** 19. 01 - 1991

## 119. TƏKCƏ VİCDAN SUSMASIN

*IV variant*

Hər nə sususr qoy sussun, təkcə vicdan susmasın,
Orda-burda inciyib, vicdan bizdən küsməsin.
*Harda vicdan susdusa,* orda qəbahət oldu?!
Kin-kidurət çoxaldı, orda ədavət oldu.
Orda paxıllıq oldu, orda xəyanət oldu,
Hər xəta baş qaldırdı, orda məşəqqət oldu.
Avamlıqlar çoxaldı, orda cəhalət oldu.
Sinə gərdik çətinə, orda qiyamət oldu,
Giley-güzar kəsmədi, orda məzəmmət oldu.
Dedi-qodu başladı, orda şikayət oldu,
Hər addımın başında, orda cinayət oldu.
Pis sədalar yayıldı, bəyanətlər çoxaldı,
Deyiləsi nəqədər, hekayətlər çoxaldı.
İztirablar, əzablar, rəzalətlər çoxaldı,
Nanəciblər, naxələf, nadanlar da çoxaldı.
Təlimindən kəm-kəsir dadanlar da çoxaldı.
Qədəmini tərsinə adanlar da çoxaldı,
Haqq-sayı sümürüb, udanlar da çoxaldı.
İlqarını-imanı pozanlar da çoxaldı,
Tərsəməssəb danışıb, yazanlar da çoxaldı.
*Harda vicdan susdusa,* orda qalmaqal oldu?!
Dedi-qodu kəsmədi, orda qeylü-qal oldu.
Qəm-qüssələr, kədərlər, dərd-məlallar çoxaldı,
İnsanlığa yad olan qeyri-hallar çoxaldı.
Ünsiyyətdə-ülfətdə hörmət bizə yad oldu,

İnsaf bizdən uzaşdı, mürvət bizə yad oldu,
Namus bizdən uzaşdı, qeyrət bizə yad oldu.
Abır-həya qalmadı, ismət bizdən uzaşdı,
Nəzər bizdən yayındı, diqqət bizdən uzaşdı.
Nicat bizdən gen gəzdi, nüsrət bizdən uzaşdı,
Qüvvət bizdən gen gəzdi, qüdrət bizdən uzaşdı.
Dəyərlərə verilən, qiymət bizdən uzaşdı,
Sağlam fikir, arzular, niyyət bizdən uzaşdı.
Qayğı aralı gəzdi, xidmət bizdən uzaşdı,
Əl-qol işdən soyudu, zəhmət bizdən uzaşdı.
Qalxanmadıq səmaya, qanadımız qırıldı,
Səbri-qərar tükəndi, inadımız qırıldı.
Tüklərimiz yolundu, biz ləlәksiz qalmışıq,
Şadarasız, xəlbirsiz, biz ələksiz qalmışıq.
İtdi-batdı arada, zəhmətimiz danıldı,
Məzmunumuz, mənamız, hikmətimiz danıldı.
Duman gəldi, çən düşdü, görən gözlər kor oldu,
Eşitmədi, duymadı, qulaqlar da kar oldu.
Tərlanı susdurdular, şahinlər də sar oldu,
Namərdlər meydan açdı, mərd igidlər xar oldu.
*Harda vicdan susdusa,* orda gərəksiz olduq?!
Orda kimsəsiz qaldıq, orda köməksiz olduq.
Yemək, içmək azaldı, orda çörəksiz olduq,
Sındırıldı qəlbimiz, orda ürəksiz olduq.
Orda düşdük cəncələ, orda düşdük davaya,
Bələnmişik sərbəsər, zəhərlənmiş havaya.
Orda yalqız qalmışıq, orda tənha qalmışıq,
Xəzanlara qərq olub o yerlərdə solmuşuq.
Fikirlərə qapılıb, xəyallara dalmışıq,
Dilqəmiyə köklənib, "Hicranı"nı çalmışıq.
Qəsd-qərəzlər törədi, düşmənçilik başladı,
Xəcalətlər başladı, peşmançılıq başladı.
Gör haçandan bəridir, gözü yolda qalmışıq?
Haqsızlığın əlindən bulud kimi dolmuşuq.
Vicdan susan zamanda, ədalət də pozuldu,
Doğruluq da, düzlük də, həqiqət də pozuldu.
Ədəb-ərkan qalmadı, nəzakət də pozuldu,
Xeyirxahlıq tükəndi, fəzilət də pozuldu.
El-obalar dözmədi, məmləkət də pozuldu.

Ailə də, tayfa da, cəmiyyət də pozuldu,
Kəmiyyətlər azaldı, keyfiyyət də pozuldu.
Xoş xəbərlər deməyə, bəyanət də pozuldu,
Gözəl günlər, dövranlar, səadət də pozuldu.
İxtiyar da, hüquq da, sədarət də pozuldu,
Bacarıqlar, fəhmlər, fərasət də pozuldu.
Qoçaqlıqlar, zirəklik, məharət də pozuldu,
Ürəkdəki təpərlər, riqqətlər də pozuldu.
Könül açan xoş sözlər, söhbətlər də pozuldu,
Haqq-ədalət danıldı, düz əyriyə yozuldu,
Xətir-hörmət yerbəyer, günü-gündən azaldı.
*Harda vicdan susdusa*, orda zülmət başladı?!
Dərd-bəlalar çoxaldı, orda hillət başladı.
Orda qopdu qiyamət, dəhşət orda başladı,
Ürək orda ağrıdı, xiffət orda başladı.
Nizamını itirdi, hər şey döndü tərsinə,
Doğruluğu xorlayıb, dolandılar tərsinə.
Pərçim olub böyürdən, calandılar tərsinə,
Yolu-izi azaraq, yollandılar tərsinə,
Hoppandılar, düşdülər, tullandılar tərsinə.
Ədalətin haqq səsi yaman dəydi hirsinə,
Donqarına toxunub, yaman dəydi kirsinə.
Şər-böhtandan yapışıb, danışdılar tərsinə,
Umu-küsü edərək, barışdılar tərsinə.
Elə-belə əl sıxıb, soruşdular tərsinə,
Xeyir-şərə ötəri, qarışdılar tərsinə.
Tərs dolanan qoy getsin, dəfn olunsun tərsinə,
Hamı uzaq dolansın, gedilməsin dərsinə.
*Harda vicdan susdusa,* gözəl çirkin göründü?!
Xudbin sadə göründü, sadə xudbin göründü.
Karlı karsız göründü, karsız karlı göründü,
Arlı arsız göründü, arsız arlı göründü.
Barlı barsız göründü, barsız barlı göründü,
Doğru yalan göründü, yalan doğru göründü.
Qaraya ağ deyildi, ağa qara deyildi,
Para bütöv göründü, tama para deyildi.
Dayaz dərin göründü, dərinə üz deyildi,
Buminvala darıxma, səbr eylə döz deyildi.
Dağlar təpə göründü, təpəyə dağ deyildi,

Bağlar kol-kos göründü, kol-kosa bağ deyildi.
Mərdlər namərd göründü, namərdə mərd deyildi,
Ünsiyyətdə, ülfətdə ona həmdərd deyildi.
*Harda vicdan susdusa,* orda ürək sıxıldı?!
Orda evlər dağıldı, orda dirək yıxıldı.
Zəmanə bəd gətirdi, dövran orda korlandı,
Qəflə-qatır məhv olub, karvan orda korlandı.
İxtiyarət, sədarət, sarvan orda korlandı,
Nə din qaldı, nə məzhəb, iman orda korlandı.
Qərar orda pozuldu, fərman orda korlandı.
Çəmən orda saraldı, orman orda korlandı,
Təbib orda mat qalıb, dərman orda korlandı.
Əfsus olsun nədənsə, yaxşı pisə qatıldı,
Al-qanımız qaraldı, əsəbimiz korlandı,
Tarımlandı hissimiz, yerbəyerdən zorlandı.
Saqqal qara qalmadı, baş da orda ağardı,
Kipriklərə dən düşüb, qaş da orda ağardı,
Ömür orda gödəldi, yaş da orda ağardı.
İnsanoğlu qan bunu, vicdanı susdurmayın,
Harda olub yaşasan, siz onu küsdürməyin.
Bilki vicdan susanda, səadətin puç olur?
Bacarığın, fəhimin, fərasətin puç olur.
Zirəkliyin qalmayır, məharətin puç olur,
Etibarın, inamın, ibadətin puç olur.
Gözəl-gözəl ənənən, bil adətin puç olur,
Adın sanın silinir, şərafətin puç olur.
Yaşadığın el-oba, cəmiyyətin puç olur,
Ləyaqətin, varlığın, şəxsiyyətin puç olur.
Harda olub yaşasaq, vicdan bizə yar olsun,
Vicdan ilə yaşayan daim bəxtiyar olsun.
Zəmanə bəd gətirib, dövranımız susmasın,
Karvan heç yorulmasın, sarvanımız susmasın.
Haray-həşir çəkirəm, vicdanımız susmasın,
İnamımız küsməsin, imanımız susmasın.
Kim susur özü bilsin, təkcə vicdan susmasın.
Hərkəs küsərisə küssün, təkcə vicdan küsməsin.

***Cəmil Əkbər*** 16. 12 -1995

## 120. TAMAHDAN ƏL ÇƏK!

Dolan gəz dünyanı aqil ol, aqil,
Olma tamahına nə qul, nə sail.
Aldanıb nəfsinə tamahkar olma!
Elin qarşısında günahkar olma!
Tamaha uyanlar haqq-nahaq qanmır,
Dünya alışsa da bir tükü yanmır.
Gözündə çevrilib qara ağ olur,
Dağlar təpə olur, təpə dağ olur.
Sağlam "xəstələnir", xəstə "sağ" olur,
Bağlar "kol-kos" olur, kol-kos "bağ" olur.
Tamah hökm edəndə, mərd namərd olur,
Nəşələr pozulur, kef də dərd olur.
Beyin düşünməyir, göz də görməyir,
Dil də topuq çalır, söz deyənməyir.
Hərislik edəndə vara, dövlətə,
Altuna, daş-qaşa pula, sərvətə.
Zülm edir xilqətə, ağıl dünyası,
Sarsıdır qəlbləri tamah yarası.
Atmayın vicdanı, görəndə pulu,
Olmayın tamahın nökəri, qulu.
Tamahdan mənliklər məhv olub gedib,
Nəqədər doğrular səhv olub gedib?
Tamahdır çaşdırıb, aldadan bizi,
Bədəməl dalınca yolladan bizi.
Odur insanları yoldan azdıran,
Odur quyuları dərin qazdıran.
Tamahdır əqrəb də, iblis də bilin,
Mənfur da, xain də, xəbis də bilin.
Odur bu bəşərə ağılar verən,
Quldurlar törədən, yağılar verən.
Odur taleləri qara eyləyən,
Odur könülləri yara eyləyən.
Odur görən gözü kor eyləyən də,
Bəşərə zülm edib, zor eyləyən də.
Eşidən qulağı kar eyləyən də,
Dünyanı başlara dar eyləyən də.
Odur yaxşıları pisə döndərən,

Xeyiri şər edib, nəsə döndərən.
Gəlin gözümüzdən tox olaq dostlar,
Hatəmtək səxadan çox olaq dostlar.
Həyatda sadə ol, sadə də dolan,
Olma qarınqulu, xalqını yolan.
Zəhmətsiz yaranan var hala uyma!
Nə kef-damaq, cahi-cəlala uyma!
Çox şah taxtdan düşdü, saray boşaldı,
Çox taclar töküldü, hər ay boşaldı.
Qorxun tarixlərin həngaməsindən,
Vurhavur, sıxhasıx məngənəsindən.
Dünya gör-götürdü, atalar deyib,
Görüb-götürməyən hədərə gedib.
Agah ol kimsəyə yetirmə xəta!
Böyüyə kiçik ol, kiçiyə ata!
Nə töküb qazana yemiş babalar,
“Nə əksən biçərsən” demiş babalar.
Sanmaki kimsəni sən aldatmısan,
Əzmisən, sıxmısan, ya alçaltmısan.
Çox mənəm deyənin, qanlar tökənin,
Xaniman uçurub, saray sökənin,
Axırda özünün axdı qanları,
Çökdü dar məzara, endi canları.
Çatmadı haraya nə tacı-taxtı,
Nəqədər boylandı, nəqədər baxdı.
Qoymayın əyrilər doğru görünsün,
Doğru gözdən düşüb, oğru görünsün.
Qoymayın işığı dumanlar boğsun,
Zülm edib yaxşını yamanlar boğsun.
Qoymayın qanları zəlilər sorsun,
Əhli-keflər sorsun, dəlilər sorsun.
Qoymayın dəllallar kef eyləsinlər,
Var-dövlət toplayıb nəf eyləsinlər.
Gəlib yol göstərsin kamalı-kəmlər,
Çoxalsın aləmdə dərdlər, ələmlər.
Qoymayın pozulsun saf ünsiyyətlər,
Müqəddəs arzular, təmiz niyyətlər.
Həyat yollarından ehtiyatla keç,
Yeyəndə, içəndə qədərində iç.

Oqədər ye, iç ki, məsd eyləməsin,
Hissinə, huşuna qəsd eyləməsin.
Ağıl sarayını uçuranmasın,
Nəşəni, kefini qaçıranmasın.
Düşünüb yazmışam bu nəsihəti,
İstədim ayıldam bəşəriyyəti.
Vətənə, xalqıma elə bağlıyam,
Bülbüləm, çəmənə, gülə bağlıyam.
Gəlin ibrət alaq tariximizdən,
Sonra inciməyək taleyimizdən.
İbrət almayanlar xəcalət olur,
Tale üz döndərir, səfalət olur.
Cəmiləm a dostlar həyəcanlıyam,
Həssas düşüncəli təmiz qanlıyam.

***Cəmil Əkbər*** 1968

## 121. NƏYAXŞIKİ SİZ VARSINIZ ATALAR?!

Gör bir nələr yaratdınız, qurdunuz?
Nəyaxşıki siz varsınız atalar!
Gecələr gec yatıb, erkən durdunuz,[1022]
Nəyaxşıki siz varsınız atalar?!
Yeri gəlsə canınızdan keçdiniz,
Damla-damla qanınızdan keçdiniz,[1023]
Varınızdan, malınızdan keçdiniz,[1024]
Dəymişiniz, kalınızdan keçdiniz.
Vətənimin zəfərində payın var,
Gələcəyə səfərində payın var.
Kəndlərində, şəhərində payın var.
Al-şəfəqli səhərində payın var.[1025]
Nəyaxşıki siz varsınız atalar?!
Sizi görcək yada düşür babalar,
Neçə müdrik, neçə alim, dühalar?
Ötüb keçən zamanları anıram,
Könüllərdə gümanları anıram.
Yoxuşları, enişləri anıram,

---

[1022] Gecələr az yatıb, tezdən durdunuz,
[1023] Tər nədir ki, qanınızdan keçdiniz?!
[1024] Dövlətiniz, malınızdan keçdiniz.
[1025] Axşamında səhərində payın var.

Keçirdiyin acı günə yanıram.
Müqəddəsdir söhbətiniz, sözünüz,
Cığırınız, yolağınız, iziniz.
Ünvanınız, ocağınız, közünüz,
Varlığınız, əməliniz, özünüz.
Bərkdə-boşda sinənizi gərdiniz,
Hər əzabı, əziyyəti gördünüz.
Çətinliyə yol açdınız, girdiniz,
Vətən üçün borcunuzu verdiniz.
Sizi görcək uzaqları duyuram,
Çovğunları, sazaqları duyuram.
Bərkdə-boşda sınaqları duyuram,
Nakam ölən yazıqları duyuram,
Nəyaxşıki siz varsınız atalar?!

Hərbiriniz bir əməli məktəbdir,
Məna dolu, məzmun dolu hikmətdir.
Biz sizdən öyrəndik cəsarəti də,
Dözümü, durumu, dəyanəti də.
Etibar-etiqad, sədaqəti də,
Fəhmi, fərasəti, məharəti də.
İnsafı, mürvəti, kəraməti də,
İnsanlıq naminə ləyaqəti də.
Yaşlara dolmağı, qocalmağı da,
Zirvəyə qalxmağı, ucalmağı da.
Qüvvələr toplayıb güc almağı da,
Zəfərlər çalmağı, bac almağı da.
Öyrəndik yaradıb qurmağı sizdən,
Qəflətdən ayılıb durmağı sizdən.
Sizlərdən dərs alıb, söz öyrənmişik,
Sınaqdan çıxarıb düz öyrənmişik.
Görüb götürmüşük, tez öyrənmişik,
Könüldə qalmağa iz öyrənmişik.
Sözləriniz qanadımdı, qolumdu,
Ətri solmaz çəmənimdir, gülümdür.
Kəhkəşanım, ulduzumdur, yolumdur,
Tükənməyən sərvətimdir, pulumdur,
Nəyaxşıki siz varsınız atalar?!

Ustadı olmayan şagird xam olar,
Dostları ağlayar, düşmən kam alar.
Hər yaranmış öz kökündə ucalır,
Zəfər çalır, ad qazanır, bac alır.
Ey müqəddəs insan, ey qibləgahım,
Çətində, dar gündə, arxam, pənahım.
Açılan səhərim, gələn baharım,
Ümidim, diləyim, hökmüm, qərarım.
Sən olmasan yolumuzu azardıq,
Saf ülfəti, ünsiyyəti pozardıq.
Kəhkəşan ulduzu, yanan fənarsan,
Dizimdə taqətsən, gücsən, qərarsan.
Nəyaxşıki siz varsınız atalar?!
Sizdə yalnız bir sifəti görmüşəm,
Saf ünsiyyət, pak ülfəti görmüşəm.
Haqlı qürur, iftixarda payın var,[1026]
Açıq alın, şah vüqarda payın var.[1027]
Abır, ismət, həya sizdə, ar sizdə,
Halal nemət, bin-bərəkət, bar sizdə.
Tükənməyən dövlət sizdə, var sizdə,
Sədaqətli, səxavətli yar sizdə.
Övlad kimi dayanıram yanında,
Təzim edib səcdə qıllam önündə.
Kamilləşmiş, müdrikləşmiş günündə,
Şöhrətində, şərəfində, şənində.
Əhsən olsun çəkdiyiniz zəhmətə,
Qoyduğunuz haqq-saya, hörmətə.
Cəmilin gözündə uca dağsınız,
Barlı-bərəkətli dürlü bağsınız,[1028]
Topdağıtmaz qala bürcü, tağsınız,
Qəlbimizdə əbədilik sağsınız,
Nəyaxşıki siz varsınız babalar,
Nəyaxşıki siz varsınız atalar?!

***Cəmil Əkbər*** 21. 10 – 1982

[1026] Haqlı qürur, iftixar da sizdədir.
[1027] Açıq alın, şah vüqar da sizdədir.
[1028] Barlı-bərəkətli qoca bağsınız.

## 122. YAD ƏLDƏDİR

Dövran yaman dəyişib,
Vermir aman dəyişib.
Zaman yaman dəyişib,
Yoxdur imkan dəyişib.
Dağda duman dəyişib,
Qəlbdə güman dəyişib.
Küsüb-uman dəyişib,
Qanun-qayda dəyişib.
Yoxdu fayda dəyişib,
İl də, ay da dəyişib,
Yaxşı, zay da dəyişib.
Hər şey dönüb tərsinə,
Toxunurlar hirsinə.
Gedən yoxdur düzünə,
Baxan yoxdur üzünə,
Məhəl yoxdur sözünə.
Ünsiyyət də dəyişdi,
Xasiyyət də dəyişdi.
Adi insan nədir ki?
Cəmiyyət də dəyişdi.
Kəmiyyət də qalmadı,
Keyfiyyət də dəyişdi.
Ədalət də danıldı,
Doğruluq da, düzlük də,
Həqiqət də danıldı.
İnsanlıqda var olan,
Ləyaqət də danıldı.
Ad da, san da, hörmət də,
Şərafət də, şöhrət də,
Hərnəvarsa danıldı,
Harda olsa danıldı.
Xeyirxahlıq deyilən,
Haqq-sayı yeyilən.
Ədəb-ərkan qalmadı,
Fəzilət də danıldı.
Nəzakət də qalmadı,
Dərdə-dərman tapılmır,

Doğru fərman tapılmır.
Hər şey talan edildi,
Saxta, yalan edildi.
Düz tərsinə yozuldu,
Ünsiyyətlər pozuldu.
Xətir-hörmət qalmadı,
İnsaf-mürvət qalmadı.
Çalıb-çapan çoxaldı,
Yuğurmamış, yapmamış,
Kökə tapan çoxaldı.
Dünya giclərə qaldı,
Qəlbi kəclərə qaldı.
Hiylə biclərə qaldı,
Xain öclərə qaldı.
Etibar da azaldı,
Düz ilqar da azaldı.
Sayan yoxdur insanı,
Dərk edəni, qananı.
İndi başa çəkirlər,
Qanmazları, nadanı.
Xətir-hörmət qanmayan,
Haqq-sayı udanı.
Tərbiyədən yarımçıq,
Dadar-doymaz dadanı.
Törədirlər davanı,
Korlayırlar havanı.
Ağsaqqalı sayan yox,
Əhli-halı sayan yox.
Nə abır var, nə həya,
Nə əqidə, nə qayə.
Hamı uyub tamaha,
Yolu verir günaha.
Bahalıqdı bazar da,
Bu səfər də, güzar da.
Görən gözlər kor olub,
Qulaqlar da kar olub.
Başıboşlar hökm edir,
Qəlbidaşlar hökm edir.
Çirmələyib qolunu,

Əzən əzməyindədir.
Səbr eyləyib tablaşan,
Dözən-dözməyindədir.
İnciyənlər inciyir,
Bezən bezməyindədir.
Boş dolanıb avarə,
Gəzən gəzməyindədir.
Yağ gölünün içində,
Üzən üzməyindədir.
Dərk eyləyib anlayan,
Sezən sezməyindədir.
Satan satmağındadır,
Alan almağındadır.
Boşalanlar boşalır,
Dolan dolmağındadır.
Arzusuna, məqsədə,
Çatan çatmağındadır.
Şər danışıb aranı,
Qatan qatmağındadır.
Nadan, cahil ucaldı,
Zəfər çaldı, bac aldı.
Düşünənlər, dərk edən,
Zaman-zaman qocaldı.
İxtiyar yad əldədir,
Yoxdur imdad əldədir.

***Cəmil Əkbər*** 5. 05 -1992

## 123. HÜNƏR GÖSTƏR!

Eşit sözlərimi agah ol bala,
Dəstədən, tay-tuşdan qalmaynan dala.
Pərvaz et, qanad çal, zirvələrə çıx,
Şahin gözlərinlə yatanlara bax.
Namusla, vicdanla, qeyrətlə yaşa,
Abırla dolanıb, ismətlə yaşa.
Çalış əngəl olma dövrü-zamana,
Yol açıb, işıq saç cümləcahana.
Dolansın elləri qoy hünər pərin,
Görənlər söyləsin, desin afərin.
İnsana yaraşır, yaratsın, qursun,

Ömrünü şərəflə o başa vursun.
Gəlməyib dünyanın dərdini çəksin,
Bədəməl törədib, gözyaşı töksün.
Saf yaşa, pak dolan, otur-dur bala,
Qızıl da çürümür saf olduğundan,
Artıqdır dəyəri onun çuğundan.
Sərraflar ayırır, qızılı misdən,
Tanıyıb seçirlər, yaxşını pisdən.
Saf ol ki, sənə də qızıl desinlər,
Əridib mum kimi çeynəməsinlər.
Əməlin iz salsın ürək başında,
Ləl-gövhər tapılsın qoy daş-qaşında.
İnsanın gövhəri kamalıdır bil,
Məsləki, vicdanı, amalıdır bil.
Çalış məzlum olma, füqəra olma!
Vaxtı boş keçirən avarə olma!
Kimki öz vaxtını keçirir hədər?
Mənalı günləri mənasız gedər.
Sadiq ol Vətənə, doğma yurduna,
Böyük sərkərdə ol, sənət orduna.
Hərkəsin həyatda öz izi gərək,
Öz eşqi-həvəsi, öz sözü gərək.
Kamil ol sənətdə gurlasın səsin,
Sənin şərəfinə el dastan desin.
Qalmasın sənətin qönçəsi bağlı,
Açılsın gülləri qırmızı, ağlı.
Bülbültək ötüşün verin səs-səsə,
Biganə olmayın eşqə, həvəsə.
Gurlasın ilhamın, qaynasın təbin,
Eşidək hər yerdə zəfər nəğməsin.
Həyatda özünə şahrah bir yol aç,
Qaranlıq yollarda işığını saç.
Yorulma zəhmətdən, əbədi çalış,
Özgədən özündən nə bilsən danış.
Eşidib bilənlər dərs alsın səndən,
Dolanıb kənardan, gəzməsin gendən.
Nə çoxdur dünyada kəşf olunmamış,
Yazılıb, düzəlib nəqş olunmamış.
Düşünüb, dərk eylə, kəşflər eylə,

Aləmi bəşərə xəbərdar eylə.
Yerdə yaşasan da, göydən xəbər ver,
Günəşdən, ulduzdan, aydan xəbər ver.
Dünyaya gələnlər ölüb getsə də,
Ünvanı silinib, izi itsə də,
Ölməyir düşünən, yazan, yaradan,
Düz seçib ayıran ağı qaradan.
Özü bu dünyadan keçsədə insan,
Unutmur el-oba, unutmur cahan,
Nizami, Füzuli, Xaqaniyə bax,
Firdovsi, Sədiyə, Nəvaiyə bax.
Cəfər də, Cavid də, Müşviq də yatır,
Sabir, Mirzə Cəlil, Şaiq də yatır.
Vidadi, Vaqiflər, Vurğunlar ölmür,
Xəyal aləmində yorğunlar ölmür.
Gəlir Koroğlunun, Nəbinin səsi,
Cavanşir, Cahangir, Babəkin səsi,
Gəlir Qatır Məmməd, Əlinin səsi,
Cəmi dəlilərin gəlir dəsdəsi,
Gəlir İsrafilin, Qafurun səsi,
Mehdinin, Gərayın, Həzinin səsi.
Danışır Sərdarım, danışır Şaban,
Unutmaz el-oba, unutmaz cahan.
Əsrlər keçsə də dövrü-zamandan,
Düşəndöy igidin adı dəhandan.
Danışır Şamama, Qızqayıt bacı,
Alıblar başına şöhrətdən tacı.
Nəqş olub adları zəmanəmizə,
Həyat yollarında salnaməmizə.

***Cəmil Əkbər*** 1968 – 1969

## 124. UYMA İŞRƏTƏ

İşrətə uyaraq atma yarını,
Atma namusunu, atma arını.
İnsan övladının qəlbinə dəymə!
Ruhunu öldürüb, qəddini əymə![1029]

[1029] Ruhunu sarsıdıb, qəddini əymə!

Adına sanına ləkə gətirmə!
Qorxu-ülkü, nə səksəkə gətirmə!
Ellərə məlumdur atalar deyib,
Namusu atıblar, it də yeməyib.
İnsan olan ləkə salmaz adına,
Ana deyər, bacı deyər qadına.
Paltarın ləkəsi silinsə də bil,
Vicdanın ləkəsi silinən deyil!
Sağlam arzulu ol, sağlam diləkli,
Sağlam fikirli ol, sağlam ürəkli.
Sağlam meyilli ol, sağlam həvəsli,
Sağlam ciyərli ol, sağlam nəfəsli.
Əl çəkin böhtandan, fitnədən feldən,
Bədnam xəyallardan, çürük əməldən.
Sərsəm düşüncələr əridir bizi,
Dağıdıb məhv edir, çürüdür bizi.[1030]
Qəflət yuxusundan ayılın qafil,
Tanının, seçilin, sayılın qafil.[1031]
Ürəkdə qüssələr, qəmlər olmasın,
Qurusun gözyaşı, nəmlər olmasın.
Gəlin avamlığa əlvida deyək!
Gəlin nadanlığa əlvida deyək!
Gəlin qəbahətə əlvida deyək!
Gəlin ədavətə əlvida deyək!
Gəlin xəyanətə əlvida deyək!
Gəlin şikayətə əlvida deyək!

Keyfiyyət əsridir bizim əsrimiz,
Xoşniyyət əsridir bizim əsrimiz.
Mənasız danışma, mənasız gülmə,
Mənasız yaşama, mənasız ölmə.
Mənadır həyatın cövhəri, canı,
Mənadır insanın şöhrəti, şanı,
Mənadır həyatın kefi, ləzzəti,
Mənadır həyatın hər məziyyəti.

***Cəmil Əkbər***

---

[1030] Dağıdıb məhv edir mehvərimizi.
[1031] Ellərdə seçilin, sayılın qafil.

## 125. XOŞBƏXT O KƏSDİR

Xoşbəxt o kəsdirki oyaqdı bəxti,
Dövranı xoş keçib, qurulub təxti.
Sağlamdı bədəni, sağlamdı canı,
Sağlamdı fikiri, sağlamdı qanı.
Xainlik, paxıllıq sıxmayıb onu,
Vurub büdrətməyib, yıxmayıb onu.
Düzgündür əməli, kamildir işi,
Gözəldir adəti, pakdır vərdişi.
Yaşayıb dolanır öz zəhmətilə,
Öz arı, namusu, öz qeyrətilə.
Ellərin içində hörmət qazanıb,
Mənəvi gözəllik, sərvət qazanıb.
Onu aldatmayıb qəflət yuxusu,
Nə hiss-həyəcanı, nə də duyğusu.
Hünər göstərməkdən yorulmayıbdır,
Heçkəsə dərdi-sər yük olmayıbdır.
Elin qarşısında əyib başını,
Onların dərdindən çatıb qaşını.
Nələr yaradıbsa yenə az deyib,
Durmayıb, düşünüb yenə yaz deyib.
Bar verib zəhməti qırmızı, ağlı,
Qəlbi dərdli deyil, sinəsi dağlı.
Onu aldatmayıb tərifnamələr,
Yaltaqlar, sarsaqlar, hərifnamələr.
Eli bürüyəndə dünyanın qəmi,
Ağlayıb, sızlayıb könül həmdəmi.
Xoşbəxt o kəsdir ki, yaxşı yarı var,
Məhəbbət bağının xoş nübarı var.
Əsildi züryəti oğulu, qızı,
Parlayır göylərdə Ülkər ulduzu.
Ellərin boynunda haqq-sayı var,
İnsanlıq naminə dürlü payı var.
Şirin ülfətlidir, şirin dillidir,
Sağlam düşüncəli, saf əməllidir.
Elin xidmətində dayanıb durur,
Qəlbi məhəbbətlə döyünüb vurur.
O şeyki məsləhət deyil özünə?

Rəva bilməyibdir heç özgəsinə.
Düşüb imtahana çıxıb sınaqdan,
Düşməyib dəhandan, dildən, dodaqdan.
Könüllər mülkündə izi qalıbdır,
Sönməyən alovu, közü qalıbdır.

***Cəmil Əkbər***

## 126. HƏRKƏSİN ÖZ QİYMƏTİ VAR

Bu dünyada hərkəsdənin öz dəyəri, qiyməti var,
Görkəmi var, yöndəmi var, hərkəsin öz zinəti var.
Hərkəsin öz abırı var, həyası var, isməti var,
Yaranandan öz taleyi,  hərkəsin öz qisməti var.
Mətləbi var, məqsədi var, arzusu var, niyyəti var,
Zəhməti var, xidməti var, peşəsi var, sənəti var.
Məsləki var, vicdanı var, insafı var, mürvəti var,
Öz adı var, öz sanı var, şərafəti, şöhrəti var.
Hərkəsin öz soykökü var, bünövrəsi, təməli var,
Fərasəti, fəhimi var, işi-gücü, əməli var.
Keçmişi var, əcdadı var, nəcabəti, nəsili var,
Nanəcibi, namərdi var, xeyirxahı, əsili var.
Hərkəsin öz xəyalı var, öz istəyi, diləyi var,
İdrakı var, zəkası var, öz qəlbi var, ürəyi var.
Öz hüsnü var, camalı var, öz qaməti, vüqarı var,
Öz əhdi var, peymanı var, öz vəfası, ilqarı var.
Mövqei var, nüfuzu var, öz sambalı, çəkisi var,
Öz meyyarı, tərəzisi, hərkəsin öz ölçüsü var.[1032]
Öz eşqi var, həvəsi var, öz aləmi, dünyası var,
Məcnunu var, Fərhadı var, Şirini var, Leylası var.
Hərkəsdənin öz fikiri, öz zikiri, xülyası var,
Pünhan-pünhan gecələrdə, şirin-şirin röyası var.
Öz fərəhi, sevinci var, nəşəsi var, şənliyi var,
Kəmiyyəti, keyfiyyəti, şəxsiyyəti, mənliyi var.
Həmsöhbəti, həmdəmi var, ürək dostu, sirdaşı var,
Həmkarı var, həmdərdi var, tay-tuşu var, yoldaşı var.
Hərkəsin öz qələmi var, kitabı var, dəftəri var,
Öz yükü var, karvanı var, uzaq-uzaq səfəri var.

---

[1032] Vicdanında tərəzisi, hərkəsin öz ölçüsü var.

Bambaşqadır şəxsiyyətlər, keyfiyyətlər, ləyaqətlər,
Dözüm-durum iradələr, bambaşqadır dəyanətlər.
Müxtəlifdir körpələr də, cavanlar da, qocalar da,
Mövqeində kiçiklər də, böyüklər də, ucalar da.
Müğənnilər, şairlər də, ədiblər də, nasirlər də,
Dahilər də, alimlər də, müəllimlər, təbiblər də.
Nəzər salın hərkəsdənin mənfisinə, müsbətinə,
Əxlaqına, həyasına, abırına, ismətinə.
Duya bilək hər çiçəkdə, gözəlliyi, təravəti,
Hərkimsədə mövcud olan, sədaqəti, səxavəti.
Hər formanı, hər məzmunu, hər mənanı, məziyyəti,
Hər könüldən gəlib-keçən, arzuları, hər niyyəti.
Duya bilək gözəlliyi, görə bilək çirkini də,
Çirkinlikdə gözəlliyi, gözəllikdə çirkini də,
Qəmginləri, bədbinləri, əhli-kefi, nikbini də.
Qiymət verək hərkəsdənin, ömürboyu zəhmətinə,
Nəcib, ülvü qayğısına, öz xalqına xidmətinə.
Görməliyik, bilməliyik, hərkəsdənin camalını,
Düşüncəsi, dərrakəsi, əqidəsi, amalını.
Aldanmayın heçkimsənin, bəzəyinə, formasına,
Hoqqasına, ədasına, təzə-təzə modasına.
Görməliyik biz hərkəsin, zəhmətini, xidmətini,
Məzmununu, dəyərini, verməliyik qiymətini.
Görək kimdir bu dünyada yeyib-içib eşələnən?
El varını talan edib, öz-özünə kişilənən?
Görək kimdir bu dünyada onu-bunu çalıb-çapan?
Özü üçün var toplayan, Koroğlutək qala yapan.
Tutmalıyıq yaxasından, atmalıyıq sıramızdan,
Alaq kimi qopararaq, atmalıyıq aramızdan.

***Cəmil Əkbər***

## 127. AY ANA TORPAQ

Nəqədər ülvisən, gözəl nemətsən?
Qadirsən, qaimsən, gücsən, qüdrətsən?
Həyatın kökүsən, təməlisən sən.
Axır-aqibəti, əzəlisən sən?
Heyranam, nə qəşəng, məzəlisən sən?

Bəşəri xilqətin anası torpaq,[1033]
Əsas bünövrəsi, binası torpaq.[1034]
Dünyada yaranmış bütün canlının,[1035]
Mehriban, səmimi, istiqanlının.[1036]
Laqeyd, biganə, soyuqqanlının,[1037]
Sərsəri, biganə, dəliqanlının.[1038]
Varı da, yoxu da sənə bağlıdır,
Azı da, çoxu da sənə bağlıdır.
Həyat çeşməsisən əzəldən bəri,
Neçə qərinədən, yüzildən bəri.
Sən zinət yarandın cahana torpaq,[1039]
Övladı-bəşərə, insana torpaq.
Sənsən yetişdirən nazü-neməti,[1040]
Hər cürə dövləti, varı sərvəti. [1041]
Köksündə bəslənir cəvahirat da,
Almaz, brilliant da, ləl də, yaqut da.
Sənin övladındır aran da, dağ da, [1042]
Tarla da, zəmi də, bağça da, bağ da.
Şirin də, acı da, meyxoş da, turş da,
Nəhəng heyvanlar da, ən kiçik quş da.[1043]
Milçık də, böcək də, fil də camış da,
Palıd da, çinar da, ot da, qamış da.[1044]
Düşüncə, dərrakə, can da sənindir,
Damarda dövr edən qan da sənindir.
Səndən qidalanıb, nəf eyləmişik,
Ləzətlər çəkmişik, kef eyləmişik.
Üstündə gör nələr yaşayır durur?[1045]

---

[1033] Bütün canlıların anası torpaq.
[1034] Binövrə, təməli, binası torpaq.
[1035] Bəslənib böyüyən hər cür canlının.
[1036] Mehriban, istəkli, istiqanlılar.
[1037] İlanlar, həşərat, soyuqqanlılar.
[1038] Sərsəri divanə dəliqanlının.
[1039] Sən həyat verirsən cahana torpaq.
[1040] Sənsən yetişdirən hər neməti də.
[1041] Bütün gözəlliyi, təravəti də.
[1042] 1) Sənindir bu gözəl aran da, dağ da. 2) Sənin əsərindir aran da, dağ da,
[1043] Nəhəng begemont da, ən kiçik quş da.
[1044] Palıd da, Çinar da, Qarğı, Qamış da.
[1045] Üstündə gör nələr dayanıb durur.

Ömrünü, gününü o başa vurur.
Ucalan saraylar, qəsrlərə bax!
Kəndə, qəsəbəyə, şəhərlərə bax!
Çəkilən kanallar, bənd səninkidir,
Cığırlar, keçidlər səd səninkidir.
Şair də, düha da, loğman sənindir,
Çeşmə də, irmaq da, umman sənindir.
Qayalar, qıbçaqlar, daşlar sənindir,
Düşünən beyinlər, başlar sənindir.
Bizləri köksündə bəsləyən sənsən!
Çağırıb qoynuna səsləyən sənsən!
Bizi yedirən də, içirən də sən!
Axırda qoynuna köçürən də sən!
Gedib ağuşunda babalar yatır,[1046]
Nurani atalar, analar yatır,
Mehriban qardaşlar, bacılar yatır,
Qəlbində kədərlər, acılar yatır.
Beymuraz nakamlar, tay-tuşlar yatır,
Qohum-əqrəbalar, sirdaşlar yatır.[1047]
Sinəndə yerin var ölənlərə də,
Gedənə, qalana, gələnlərə də.
Koroğlusayağı igidlərə də,
Hünərlər göstərən cigidlərə də.[1048]
Fərhada, Sənana, Kərəmlərə də,
Ürəyi dərdləyən, vərəmlərə də.
Məcnuna, Məftuna, Dilqəmlərə də.
Əsliyə, Leyliyə, Şirinlərə də,
Gözəl nigarlara, Həcərlərə də.[1049]
Köksündə yer etdin çirkinlərə də,
Əhli-kef olana, nikbinlərə də.
Bədgüman, bədxaha, bədbinlərə də,[1050]
Lovğa, yekəxana, xudbinlərə də.
Hiyləgər, dələduz, pozğunlara da,

[1046] Sənin beşiyində babalar yatır,
[1047] Həmkarlar, həmdəmlər, sirdaşlar yatır,
[1048] Dəlilər dəsinə, cigidlərə də.
[1049] Nigar xanımlara, Həcərlərə də.
[1050] Qəmdən qocalana, bədbinlərə də.

Qan tökən cəllada, quzğunlara da.
Topal Teymura da, İsgəndərə də,
Qacartək qansıza, Hitlerlərə də, [1051]
Mənfura, xainə, xəbislərə də,
Tamahkar, acgözə, hərislərə də.
Üstündən nəqədər ayaqladılar, [1052]
Oyana-buyana oynaqladılar.[1053]
Köhlənlər yordular, at çapırdılar,
Qəsrlər qurdular, qala yapdılar.
Nəqədər kef edib məzələndilər?
Yedilər, içdilər, təzələndilər?
Qüvvəti, qüdrəti tükənən zaman,
Şərəfi, şöhrəti tükənən zaman,
Sultan, xaqan, xan da baş əydi sənə,
Tacidar şahlar da baş əydi sənə.
Nəqədər mehriban istiqanlısan,
Hatəm səxalısan, kərəm-kanlısan.
Heçkəsə, kimsəyə pislik etmədin,
Bədxahlıq, xoryadlıq, nəslik etmədin.
Bəşəri-xilqətə haqq-sayın var, [1054]
Dürlü sovqatın var, töhfən, payın var.[1055]
Necə səxavətli, mərhəmətlisən?
Necə kəramətli, nə mürvətlisən?
Borcluyuq biz sənə ay ana torpaq,
Bizi gətirmisən sən cana torpaq,
Həyat çeşməsisən insana torpaq.
Bu borcu canımla verməsəm olmaz,
Bu borcu qanımla verməsəm olmaz.
Nəqədər ülvisən, qüdrətlisən sən?
Müqəddəs alisən, şöhrətlisən sən?
Ən böyük töhfəsən cahana torpaq,
Bir daha qarışma al-qana torpaq.

***Cəmil Əkbər*** 3. 11 - 1982

[1051] Qacarlar nəslinə, Hitlerlərə də.
[1052] Üstündə nəqədər at oynatdılar.
[1053] Oyana, buyana çox oynatdılar.
[1054] 1) Dünyada nəqədər haqq-sayın var, 2) Bəşər övladına haqq-sayın var,
[1055] Nəqədər sovqatların, töhfən, payın var.

## 128. MƏNİM VƏTƏNİM (1)

Mənim Vətənim təkcə, doğulduğum yer deyil,
Açıq izhar eyləyim, buki gizli sirr deyil.[1056]
Doğulduğum ev deyil, qəsəbədöy, kənd deyil,[1057]
Çəkdiyimiz dar hasar, həyətdəki bənd deyil.[1058]
Bütün kəndlər kəndimdir, qəsəbələr qəsəbəm,
Şagirdlər öz şagirdim, tələbələr tələbəm.
Küçələri küçəmdir, şəhərləri şəhərim,
Sevincləri sevincim, qəhərləri qəhərim.
Vətənimdir el-oba, bu asiman, kainat,
Vətənimdir camaat, bayram, şənlik, toy-büsat.
Vətənimdir bu dövran, Vətənimdir şən həyat.
Aran, yaylaq məskənim, dağlar mənim Vətənim,
Gül-çiçəkli tarlalar, bağlar mənim Vətənim.
Güney mənim Vətənim, Guzey mənim Vətənim,
Qərb də mənim Vətənim, Şərq də mənim Vətənim.
Günəş mənim Vətənim, ay da mənim Vətənim,
Dərya mənim oylağım, çay da mənim Vətənim
İllər, həftələr, günlər, ay da mənim Vətənim.
Qərinələr, əsrlər, fəsillərin oğluyam,
Neçə-neçə mərd igid, nəsillərin oğluyam.
Mən bəşər övladıyam, mən hamıya bağlıyam,
Baba, nənə, ataya, həm anaya bağlıyam,[1059]
Bu təmələ, bu kökə, bu binaya bağlıyam.[1060]
Qohumlara, yadlara, qardaşlara bağlıyam,
Qədirbilən dostlara, yoldaşlara bağlıyam.[1061]
Yaşadığım dövranın, zəmanənin oğluyam,
Atəşlərə qalanan, pərvanənin oğluyam.
Ədalətə aşiqəm, həqiqətin oğluyam,[1062]

---

[1056] 1) Açıq-aşkar söyləyim, bukigizli sir deyil. 2) Açıq-aşkar deyirəm, bukigizli sir deyil.
[1057]Doğulduğum qəsəbə, aul deyil, kənd deyil. 2) Doğulduğum ev deyil, qoğulduğum kənd deyil.
[1058] Çəkdiyimiz hasarlar, həyətdəki bənd deyil.
[1059] Babalara, ataya, analara bağlıyam.
[1060] Can-ciyara, qohuma, qardaşlara bağlıyam.
[1061] Taytuşlara, çağdaşa, yoldaşlara bağlıyam.
[1062] Dürüstlüyə vuruldum, həqiqətin oğluyam.

Ədəb-ərkan, mərifət, ləyaqətin oğluyam,[1063]
Sədaqətin oğluyam, səxavətin oğluyam,
Mərifətin oğluyam, nəzakətin oğluyam.
Saf arzunun, istəyin, pak-niyyətin oğluyam,[1064]
Yenilməyən iradə, dəyanətin oğluyam.
Mən bu dağlar oğluyam, bu yerlərin oğluyam,
Mən asiman oğluyam, ərşin-gürşün oğluyam.
Mərd igidlər oğluyam, Cavanşirlər oğluyam,
Koroğlular oğluyam, Cahangirlər oğluyam.
Mənim yerim bu cahan, mənim yerim bu həyat,
Köç etsəm də bir anlıq, ömür deyil əmanət.
Mənim yerim nə Muğan, nə Kürdüstan deyildir,
Nə İrəvan, nə Bakı, nə Gürcüstan deyildir.
Nə Pakistan, nə Yəmən, nə Hindistan deyildir,[1065]
Nə Gədəbəy, nə Gəncə, nə Şamaxı, nə Bakı,
Nə Qubadlı, nə Salyan, nə Şirvandı, nə Şəki.
Nə Ucardı, nə Yevlax, nə Zazalı, nə Ləki.
Mənim yurdum-yuvam da, nə də yerim bir deyil,
Nə gizlədim, nə danım, buki gizli sirr deyil.[1066]
Babalar öz babamdır, atalar öz atamdır,
Allahımdan lütf olan, bəxş olunan ətamdır.
Analar öz anamdır, bacılar da bacımdır,
Şirini öz şirinim, acılar da acımdır,
Zəfərləri zəfərim, tacları da tacımdır.
Qardaşlar öz qardaşım, sirdaşlar öz sirdaşım,
Həmkarlar öz həmkarım, yoldaşlar öz yoldaşım.
Övladlar öz övladım, nəvələr mənim nəvəm,
Nəticələr nəticəm, kötücələr kötücəm.
Mən əkinçi balası, mən biçinçi oğluyam!
Birinci də olmasam, mən sonuncu oğluyam![1067]
Yoğrulmuşam poladdan, oraq-çəkic oğluyam!

---

[1063] 1) İnsanlığın oğluyam, ləyaqətin oğluyam. 2) Gözəlliklər oğluyam, ləyaqətin oğluyam.
[1064] 1) Pak arzunun oğluyam, saf niyyətin oğluyam. 2) Sağlam fikir-düşüncə, pak niyyətin oğluyam.
[1065] Nə Tokio, nə Şanxay, nə Pakistan deyildir.
[1066] Açıq-aşkar söylədim, bilin bunu sir deyil.
[1067] Həm əvvəlki oğluyam, həm sonuncu oğluyam.

İftixar övladıyam, min bir sevinc oğluyam!
Ürəklərdə bəslənən, məhəbbətin barıyam,[1068]
Əhd-peyman, düz ilqar, sədaqətin barıyam.[1069]
Nizamilər babamdır, Füzulilər babamdır,
Dəriləri soyulan, Nəsimilər babamdır,
Koroğlular oğluyam, Nəbilərin oğluyam!
Babəklərin oğluyam, Həzilərin oğluyam!
Həcərlərin oğluyam, Nigarların oğluyam!
Mərd igidlər balası, hünərlərin oğluyam!
Çalınmamış nəqədər, zəfərlərin oğluyam?!
Vətəninə qul olan, igidlər övladıyam,
Mən Azəri balası, simuzər övladıyam.
Vətənimdi bu diyar, onun adı Gəncədir,
Şərh eylədim bu qədər, izhar etdim müxtəsər.
Vətənimdir bu yerlər, Vətənim aydın səma,
Vətənimdir bu göylər, Vətənim açıq hava.
Vətənimdir bu ellər, Vətənim Azərbaycan,
Vətənimə bağlıyam, canımsan Azərbaycan.

***Cəmil Əkbər*** 30. 12 -1985

## 129. MƏNİM VƏTƏNİM (2)

Yaşadığım Vətənim, doğulduğum yer mənim.
Nə bir evdir, nə kənddir, nə qəsəbə, şəhərdir.
Nə də rayon deyildir.
Vətənimdir kainat, bilin bunu nihayət.
Vətənimdir bu cahan, yerdi, göydü, asiman.
Cənub mənim Vətənim, Şimal mənim Vətənim.
Şərq də mənim Vətənim, Qərb də mənim Vətənim.
Dağ da mənim məskənim, bağ da mənim məskənim.
Günəş mənim Vətənim, Ay da mənim Vətənim.
Çeşmə mənim Vətənim, çay da mənim Vətənim.
Vətənimdir ürəklər, nəcib arzu diləklər.
Mən bəşərin oğluyam, xeyir-şərin oğluyam.
Öz elimə bağlıyam, öz dilimə bağlıyam.

---

[1068] Xoş istəkdən yaranan, məhəbbətin barıyam.
[1069] 1) Əhdi-peyman övladı, sədaqətin barıyam. 2) Etibarın, ilqarın, sədaqətin barıyam.

Mən ellərin oğluyam, nəsillərin oğluyam.
Fəsillərin oğluyam, əsrlərin oğluyam,
Qərinələr oğluyam.
Mən hamının oğluyam, mən hamıya bağlıyam.
Cəmiyyətin oğluyam, təbiətin oğluyam,
Mən ədalət oğluyam, mən həqiqət oğluyam,
Mən ləyaqqət oğluyam, mən nihayət oğluyam.
Mən göylərin oğluyam, mən yerlərin oğluyam.
Mənim yerim kainat, yaranmadım amanat.
Mənim yerim səmadır, mavi təmiz havadır,
Hər dərdimə dəvadır, hər zövqümə səfadır.
Mənim yerim bir deyil, buki gizli sirr deyil.
Mənim yerim nə Gazax, nə Kürdüstan, Qarabağ.
Nə Muğandır, nə Mildir, nə Göyçədir, nə Cildir.
Nə Gəncədi, nə Bakı, nə Qubadı, nə Şəki.
Hər məkanın oğluyam, hər zamanın oğluyam,
Bir günəşdən od aldıq, bir nemətdən dad aldıq.
Soykökümüz bir olub, köməncimiz bir olub.
Nəolsunki sən orda, mən burada doğuldum?
Gövdəmiz də bir olub, butaqlar da bir olub,
Bina, daxma, saraylar, otaqlar da bir olub.
Sən də insanoğlusan, mən də insanoğluyam.
Sən də ata övladı, mən də ata övladı.
Köksümüzdə məhəbbət, əhd-peyman, sədaqət,
Arzumuzda səadaət, bu ənənə, bu adət.
Sən də sülhün oğlusan, mən də sülhün oğluyam.
Sən də zəhmət oğlusan, mən də zəhmət oğluyam.
Məhəbbətdən doğulduq, sədaqətdən doğulduq.
Sən də hünər oğlusan, mən də hünər oğluyam.
Atamız da bir olub, anamız da bir olub.
Nəolsunki sən orda, mən burada doğuldum?
Sən şəhərdə  doğuldun, mən də kənddə doğuldum.
Sən aranda böyüdün, mən də dağda böyüdüm.
Sən yaxında doğuldun, mən uzaqda doğuldum.
Sən Bakıda doğuldun, mən Şəkidə doğuldum.[1070]
Nəolsunki qardaşım, ay həmdəmim, sırdaşım?
Mən müəllim olmuşam, sən də fəhlə olmusan.

[1070] Mən Ləkidə doğuldum.

Amalımız bir olsun, kamalımız bir olsun.
Məsləkimiz bir olsun, əqidəmiz bir olsun.
Diləyimiz bir olsun, ürəyimiz bir olsun,
Çörəyimiz bir olsun.
Hörmətimiz bir olsun, mürvətimiz bir olsun.
Dəyərimiz bir olsun, qiymətimiz bir olsun,
Niyyətimiz bir olsun.
Şərəfimiz bir olsun, şöhrətimiz bir olsun.
Abırımız bir olsun, ismətimiz bir olsun.
Qeyrətimiz bir olsun, mərfətimiz bir olsun.
Qəlbimizdə istəklər, məhəbbətlər bir olsun.
Səxavətlər, kəramət, sədaqətlər bir olsun.
Qoy bizləri nə aran, nə qasırğa, nə boran?
Nə dağ-dərə ayırsın, nə də bərə ayırsın?
Qoy bizləri nə millət, nə qəm-kədər, nə möhnət.
Nə irqimiz ayırsın, nə fərqimiz ayırsın.
Bir fikirlə yaşayaq, bir zikirlə yaşayaq.
Qoy araya nə fəsad, nə ağladan, bir kasad,
Gəlib girə bilməsin, bizə hürə bilməsin.
El bir olsa deyirlər, zərbi kərən sındırar,
Qanmazları qandırar.
Qoy bir olsun elimiz, bir işləsin əlimiz.
Birlik harda olubdur, dirlik orda olubdur.
Birlik harda yox isə, gerilik də ordadır!

***Cəmil Əkbər*** 1987

## 130. VƏTƏNƏ

Hər nəyim var, nəyim yox, Vətənimdən almışam,
Öz soyumdan, kökümdən, təməlimdən almışam.
Baxıb dövrü-zamana, nəsillərdən almışam,
Ötüb-keçən qərinə, fəsillərdən almışam.
Çətin aylar, günlərdən, nəs illərdən almışam,
Ehtiyacda qaldığım, pis illərdən almışam.
Nə yazmışam, pozmuşam, bu ellərdən götürdüm,
Mərd igiddən öyrənib, ərənlərdən götürdüm.[1071]
Bircə peyvənd vurmamış, dərənləri görmüşəm,
Alanları görmüşəm, verənləri görmüşəm.

---

[1071] Bu ərlərdən götürdüm, ərənlərdən götürdüm.

Pünhan mətləbi qanıb, dərd-qəm çəkib yemişəm,
Vaxt olubki kədərdən, qəhərlənib bezmişəm.[1072]
Baxıb-baxıb səbr edib Vətənimdə gəzmişəm,
Enişinə dözmüşəm, yoxuşuna dözmüşəm.
Çətinlikdən qorxmayıb, sinə gərib dözmüşəm,
Azdan-çoxdan nə olsa, onu tapıb demişəm,
Qazanıma doğrayıb, onu qapıb yemişəm.
Az oldusa neyləyim, çox oldusa neyləyim?
Ac qaldımsa neyləyim, tox oldumsa neyləyim?
Axtarmadım zərxara, sətini də geymişəm,[1073]
Nimdaş bez də olmadı, qədəyi də geymişəm. [1074]
Gözlərimə dəyməyib, yox oldusa neyləyim?[1075]
El tənəsi üzümə, ox oldusa neyləyim?
Nəyim oldu-olmadı, azı-çoxu bilmədim,
Çoxunu görənmirəm, acdı, toxdu bilmədim,
Gecə-gündüz çalışdım, yuxu nədir bilmədim?!
Əgər günahım varsa bağışlasın el məni?!
Qoy arxamca söyməsin, alqışlasın dil məni,[1076]
Aşıb-daşan çaylarda, axıtmasın sel məni.
Hər nəyim var, nəyim yox, oba-görür, el görür,
Məndən sonra dolanan, aylar görür, il görür.
Hər nəyim var, nəyim yox, xalqa əmanətimdir,
Hatəm təbli ürəkdə, səxam-səxavətimdir.
Nə düşünüb yazmışam, xidmətimdi Vətənə,[1077]
Köməkliyim, yardımım, zəhmətimdi Vətənə.[1078]
Nə bacardım seyredib, gördüyümü götürdüm,[1079]
Estafeti nəsildən-nəsillərə ötürdüm.
Zəhmət çəkib tər töküb, bağlar saldım bitirdim,
Heç özüm də bilmədim, nə tapdım, nə itirdim?[1080]
Hər nə duyub eşitdim, bu ellərdə görmüşəm,[1081]

---

[1072] Vaxt olub ki, inciyib, vaxt olub ki, bezmişəm.
[1073] Vaxt olub ki, yamaqlı paltarı da geymişəm.
[1074] Sətin nədir, bez nədir, mən qədək də geymişəm.
[1075] 1) Var oldusa neyləyim, yox oldusa neyləyim? 2) Xətir-hörmət, ehtiram, yox oldusa neyləyim?
[1076] Hey arxamca söyməsin, alqışlasın dil məni.
[1077] Nə söylədim, nə yazdım, xidmətimdir vətənə.
[1078] Hər nəyim var, nəyim yox, zəhmətimdir vətənə,
[1079] Nə bacardım görmüşəm, nə bacardım götürdüm.
[1080] 1) Heç bilmirəm nə tapdım, heç nələri itirdim. 2) Heç bilmirəm nə tapdım, nələr-nələr itirdim.

Bağça-bağ, tarla, zəmi, bu çöllərdə görmüşəm.
Bülbül kimi şığıyıb bu güllərdə süzmüşəm,
Şeiriyyət dəryasında, qəvvas kimi üzmüşəm.
Seyrə çıxıb ellərdə, obalarda gəzmişəm,
Oymaqda, yal-yamacda, yuvalarda gəzmişəm.[1082]
Aranında gəzmişəm, dağlarında gəzmişəm,
Tarlaları seyredib, bağlarında gəzmişəm.
Səfasını sürmüşəm, cəfasını görmüşəm.
İnsanların-insana vəfasını görmüşəm.[1083]
Dərk eyləyib, anlayıb, nə bildimsə demişəm,
Qazandığım nemətdən azdan-çoxdan yemişəm.

***Cəmil Əkbər*** 29. 12 – 1993

## 131. MƏNDƏN SORUŞSAYDILAR

***H i k m ə t n a m ə***

*I variant*

Vətən hardan başlayır, Vətən harada qurtarır?[1084]
İbtidası, əvvəli, onun sonu hardadır?[1085]
İftixarı, qüruru, şöhrət-şanı haradır?
Mən deyərdim yerini, vətən ürəklərdədir,
Nəcib arzu-istəkdə, sağlam diləklərdədir.
Vətənimin sərhəddi, anamızdan başlayır,
Olduğumuz yerlərdən, binamızdan başlayır.
Doğma yurddan-yuvadan, elimizdən başlayır,
Adət ənənəmizdən, dilimizdən başlayır.
Vətənimin ünvanı, ədalətdi bunu bil,
Doğruluqdu, düzlükdü, həqiqətdi bunu bil.
İnsanlığa güc verən, ləyaqətdi Vətənim,
Dözüm, durum, qətiyyət, dəyanətdi Vətənim.
Ürəkdolu sevgidi, məhəbbətdi Vətənim,
Etibardı, ilqardı, sədaqətdi Vətənim.

---

[1081] Hərnəvarsa, nə yoxsa bu ellərdə görmüşəm.
[1082] Oymaqları dolanıb, yuvalarda gəzmişəm.
[1083] İlqarını-imanı, vəfasını görmüşəm.
[1084] Vətən hardan başlayır, o harada qurtarır?
[1085] Vətən necə yaşayır, o harada dolanır?

Vətən hardan başlayır, Vətən harda yaşayır?
Vətənimin sərhəddi, hünərlərlə başlayır,
Qələbəylə qurtarıb, zəfərlərlə başlayır.
Dost ellərə, obaya, məhəbbətdən başlayır,
Təmənnasız, qərəzsiz ünsiyyətdən başlayır.
Haqq-saylar qoyaraq hörmət ilə başlayır,
Tükənməyən insafla, mürvət ilə başlayır.
Vətənimin sərhəddi, zəhmət ilə başlayır,
Alıntəri tökməklə, xidmət ilə başlayır.
Vətən bizə şərəfdir, iftixardır, şöhrətdir,
Qədirini bilməsək, o hamıya möhnətdir.
Qəlbimizdən uzaqda, nə Vətən var, nə el var,
Nə baba var, nə ata, nə ana var, nə dil var.
Vətən harda qurtarır, Vətən harda azalır?
Vətən harda inləyir, Vətən harda sozalır?
Oyerdəki ürəkdə qəzəb ilə kin durur,
Əqrəb, iblis yurd salır, şeytan ilə cin durur.
Xətir hörmət tükənir, insaf-mürvət azalır,
Vicdan, məslək görünmür, namus, qeyrət azalır.
Meydan açıb çoxalır, paxıl, xain, xəbislər,
Qarınqulu, acgözlər, tamahkarlar, hərislər.
Yeyib-içib kef edir, el varını udanlar,
Yol-izini çaşanlar, tərsəməssəb adanlar.
Vətən orda silinir, Vətən orda pozulur,
Vətən orda danılır, Vətən orda yozulur.
Oyerdəki çoxalır, qanı soran zəlilər?
Xalqı əldən salaraq, onu yoran dəlilər?
Özü üçün qəsrlər, sarayları yapanlar,
Yoğurmamış, yapmamış, hazır kökə tapanlar.
Əsəbləri korlayıb, ürəkləri sıxanlar,
İnsanlığa qəsd edib, axırına çıxanlar.
Əyri düzü aldadıb pis günlərə qoyanda,
Yoldan izdən çıxarıb, nəs günlərə qoyanda.
Vətən orda qurtarır, Vətən orda puç olur,
Vətən orda tükənib, silinərək heç olur.

***Cəmil Əkbər*** 1. 08 -1987

## 132. MƏNDƏN SORUŞSAYDILAR

***H i k m ə t n a m ə***

*II variant*

Məndən soruşsaydılar, Vətən hardan başlayır?
Ərazisi, sərhəddi, görən harda qurtarır?[1086]
Tez deyərdim yerini, sevən ürəklərdədir,[1087]
Nəcib arzu-diləkdə, sağlam istəklərdədir.[1088]
Vətənimin sərhəddi, ədalətdən başlayır,
İnsanlıqdan güc alır, ləyaqətdən başlayır.[1089]
Ədəb-ərkan, mərifət, nəzakətdən başlayır,
Xeyirxahlıq, alilik, fəzilətdən başlayır.
Bacarıqdan, fəhimdən, fərasətdən başlayır,[1090]
İgidlikdən, hünərdən, cəsarətdən başlayır.[1091]
Ürəkdəki təpərdən, riqqətlərdən başlayır,
Dost ellərə-obaya, diqqətlərdən başlayır.[1092]
Etibardan, ilqardan, sədaqətdən başlayır,
İnsaf, mürvət, kəramət, səxavətdən başlayır.
Qətiyyətdən güc alır, dəyanətdən başlayır,
Ünsiyyətdə, ülfətdə xətirlərdən başlayır,
Ürəklərdə iz salan, sətirlərdən başlayır.
Vətən şərəfimizdir, Vətən şöhrətimizdir,[1093]
Qədirini bilməsək, bizim möhnətimizdir.[1094]
Bundan kənar məkanda, nə Vətən var, nə el var,
Nə ünsiyyət, nə ülfət, nə ana var, nə dil var.
Oyerdəki əyrilər gəlib düzə hökm edir?
Kütbeyinlər, sərsəri, nadan dizə hökm edir?[1095]
Yeyib-içib kef edir, el varını çapanlar,[1096]

---

[1086] Onun ilki, əzəli, axır sonu haradır?
[1087] Mən deyərdim yerini, Vətən ürəklərdədir,
[1088] Nəcib arzu-istəkdə, sağlam diləklərdədir!
[1089] İnsanlıqdan başlayır, ləyaqətdən başlayır.
[1090] Bacarıqdan başlayır, fərasətdən başlayır.
[1091] İgidlikdən başlayır, cəsarətdən başlayır.
[1092] Dost ellərə-obaya, məhəbbətdən başlayır.
[1093] Vətən bizə şərəfdir, Vətən bizə şöhrətdir.
[1094] Qədirini bilməsək, Vətən bizə möhnətdir!
[1095] Kütbeyinlər, qanmazlar gəlib bizə hökm edir.
[1096] Hökm eyləyir dağıdan, el varını çapanlar.

Yuğurmamış, yapmamış, yağlı kökə tapanlar.[1097]
Əli-ələ verirlər, xainlərlə, xəbislər,[1098]
Nanəciblər, xoryadlar, naxələflər, naqislər.[1099]
Hökm eyləyir acgözlər, fərman verir hərislər.
Pis yaxşıya zülm edib, ürəkləri sıxırsa,
Təmiz arzu-istəyi, diləkləri sıxırsa,
Fürsət tapıb əyrilər, düzü yoldan əyirsə, [1100]
Ürəyinə toxunub, xətirinə dəyirsə,
Vətən orda qurtarır, Vətən orda puç olur,
Vətən orda tapdanır, Vətən orda heç olur.
Qoy kor olsun gözləri, Vətənə xor baxanın,
Vətənini unudub, özgə səmtə baxanın.
Qoy kar olsun qulağı, Vətənini satanın,
Onun şərafətini ayaq altda atanın.
Vətən bizi bəsləyir, Vətən bizi saxlayır,
Dar məqamda, ayaqda Vətən bizi yoxlayır.
Vətən bizi yad edib, Vətən bizi unayır,
Enişlərdə, yoxuşda, Vətən bizi sınayır.
Vətən bizi böyüdür, Vətən bizi bəsləyir,
Tər tökməyə, zəhmətə Vətən bizi səsləyir.
Bir an durub gözləmə, Vətən yarat, qur deyir,
Yatma qəflət içində, oyan deyir, dur deyir.
Vətən deyir əl götür, bədəməldən, şər işdən,
Sondan-sona incimə, dövrü-zaman, gərdişdən.
Yaşadığın ellərə ləyaqətlə xidmət et,
Gözlə ədəb-ərkanı, mərifətlə xidmət et.
Yer üzündə insanın, qoyma qanı qaralsın,
Müsibətin içində gen dünyası daralsın.
Üzü-gözü tutulsun, qaş-qabağı çatılsın,
Mərd igidlər namərdə, yaxşı pisə qatılsın.
Qəsd-qərəzlər, qisaslar əsəbi korlamasın,
Zülm ərşə dirənib, qoy hissi zorlamasın.
Vətən behiştə dönsün, Vətən cənnətə dönsün,
Nazü-nemət çoxalsın, Vətən şöhrətə dönsün.

---

[1097] Yüyürməmiş, yortmamış, yağlı kökə tapanlar.
[1098] Hökm eyləyir iblislər, hökm eyləyir xəbislər.
[1099] Nanəciblər, xoryadlar, naxələflər, naqislər.
[1100] Əyri əyriliyilə düzü yoldan əyirsə.

Heç bir oğul tərk edib, yad ellərə qaçmasın,
Özgə yurda-yuvaya qanadını açmasın.
Hərkəs gərək qaytarsın, Vətəninə borcunu,
Keşiyində dayanıb, qoy sərf etsin gücünü.
Çox çətindi ödəmək, Vətən haqq-sayını,
Unutmasın heç zaman, çörəyini, çayını.
Harda olsaq, yaşasaq, Vətən qeyrət gözləyir,
Vətən nicat gözləyir, Vətən nüsrət gözləyir.
Vətən bizi böyüdüb, gərək olaq biz ona,
Dar ayaqda, məqamda kömək olaq biz ona.
Şərafətlə, şöhrətlə xidmət edək biz ona,
Heç unutmayaq onu, diqqət edək biz ona.
Gör haçandan bəridir, yol gözləyir o bizdən,
Əsirgəmə qüvvəni, bol gözləyir o bizdən.

***Cəmil Əkbər*** 1.08 – 1987

## 133. SÖZ VAR, SÖZ DƏ VAR (1)

Ömürboyu qulaq asdıq, çox sözlərə, danışığa,
Neçə-neçə umu-küsü, giley-güzar barışığa.
Seyrə çıxdıq bu elləri, obaları, oymaqları,
Eşitmişik neçə-neçə, müdrikləşmiş babaları.
Dərs almışıq, öyrənmişik, dünyagörmüş qocalardan,
Adi, sadə adamlardan, mövqeində ucalardan.
Qulaq asdıq müəllimə, xadimə də, alimə də,
Neçə-neçə qəzəlxana, şairə də, ədibə də.
Bəstəkara, müğənniyə, aşıqlara, xanəndəyə,
Sözlərində hazırcavab, natiqlərə, danəndəyə.
Axundları, qazıları, müştehidi dinləmişik,
Mollanı da, seyidi də, münəccimi dinləmişik.
Dönə-dönə dinləmişik, dostları da, tanışı da,
Həmdəmi də, həmkarı da, yoldaşı da, sirdaşı da.
Yəqin edib, əməl etdik, hikmət dolu nəsihətə,
Qulaq asdıq fikirlərə, ən dəyərli məsləhətə.
Eşitmişik, çox görmüşük, yollarından azanları,
Düzü əyri, əyrini düz, tərsəməssəb yozanları.
Hər sözün öz məzmunu var, hikməti var, mənası var,
Ayrı-ayrı məziyyəti, aləmi var, dünyası var.
Öz sahibi, yeyəsi var, danışanı, deyəni var,

Könülləri oxşayanı, ya da qəlbə dəyəni var.
Hər sözün öz səbəbi var, mənbəyi var, dəhnəsi var,
Öz bağı var, bağçası var, öz məhsulu, bəhrəsi var.
Elə söz var, şirin-şirin avazı var, xülyası var,
Açılmamış, bilinməmiş, neçə sirli röyası var.
Çox sözlərin sədasında, sədaqət var, səxavət var,
Doğruluq var, düzgünlük var, həqiqət var, ədalət var.
Etibar var, etiqat var, əhd-peyman, düz ilqar var,
İnsanlıq var, ləyaqət var, məğrurluq var, iftixar var.
Bu sözlərin sədasında babaların haqq səsi var,
Ariflərin, sərrafların dərrakəsi, nəfəsi var. [1101]
Bu sözlərlə, söhbətlərlə, ünsiyyətdə inam olub,
Hörmət olub, izzət olub, xeyirxahlıq, ənam olub.
Bu sözlərdən həyat üçün dürr tökülüb, nur ələnib,
Qönçələrdən çiçək açıb, budaqlardan bar ələnib.
Bəşər üçün, xilqət üçün, nələr-nələr xidməti var?[1102]
Qayğısı var, yardımı var, insafı var, mürvəti var.
Bu sözlərdə əsla yoxdur, nə bədxahlıq, nə də nəslik,[1103]
Yoxdu onda nə xainlik, nə xəbislik, nə də pislik.[1104]
Belə sözlər təbib kimi, məlhəm etmiş yaralara,[1105]
Əyrilərə düz deməyib, ağ deməyib qaralara.[1106]
Çətin gündə, dar ayaqda, kömək durmuş insanlara,[1107]
Geniş-geniş süfrə açmış, çörək olmuş insanlara. [1108]
Yıxılanın qollarından yapışaraq qaldırıbdır,
Zalımların əllərindən məzlumları saldırıbdır.
Belə sözlər yadigardır nəsillərdən-nəsillərə,[1109]
Bəşər üçün yol göstərir, əsrlərdən-əsrlərə.[1110]
Belə fikir, belə sözlər məhəbbətdən doğulmuşdur,
Səxavətdən, sədaqətdən, kəramətdən doğulmuşdur.

---

[1101] Müdriklərin düşüncəsi, dərrakəsi, nəfəsi var.
[1102] Bu sözlərin bəşər üçün, əbədilik xidməti var.
[1103] Bu sözlərdə hakim olub səmimilik, təbiilik.
[1104] Yox paxıllıq, yox xainlik, yox naqislik, yoxdu pislik.
[1105] Belə sözlər təbib olmuş, məlhəm etmiş yaralara.
[1106] Düzə əyri deməmişdir, ağ deməyib qaralara.
[1107] 1) Belə sözlər insanlara dar günündə gərək olmuş. 2) Belə sözlər xətir-hörmət, kömək olmuş insanlara.
[1108] 1) Halal zəhmət çəkdirərək, bərəkətli çörək olmuş. 2)Xoş arzular, xoş əməllər, dilək olmuş insanlara.
[1109] Belə sözlər yadigardır əsrlərdən-əsrlərə,
[1110] Yol göstərir nə zamandır, nəsillərdən-nəsillərə.

Bu sözlərin kəlməsində səadətin müjdəsi var,
Ən müqəddəs arzuların, xoş niyyətin nəfəsi var.
Belə sözlər eşitdikcə, könüllərə qanad verir,
Dərdi-qəmi yox eyləyir, insanlığa nicat verir.
İnsan üçün əbədilik, doğru-düzgün yol göstərir,
Sədaqəti bəsləyərək, səxavəti bol göstərir.
İlham alıb fərəhlənir, ürəklər də dağa dönür,
Qönçələri açılaraq, gül-çiçəkli bağa dönür.
Saf istəyi, pak arzunu, ləyaqəti düz göstərir,
Məna, məzmun, hikmət dolu, məziyyəti düz göstərir.
Yol göstərir büdrəyənə, yanılana, çaşana da,
Sərhəddini keçənə də, hüdudunu aşana da.
Belə sözlər əzəl gündən, xoş niyyətdən yaranmışdır,
Ürəklərdə eşq-həvəs, məhəbbətdən yaranmışdır.
Doğruluqdan, düzgünlükdən, həqiqətdən zühur etmiş,
Saf gövhərdən süzülərək, min hikmətdən zühur etmiş.
Keçsə illər, qərinələr, əsrlərlə silinməzdir,
Aylar-günlər, həftələrlə, fəsillərlə silinməzdir.
Günəş kimi, torpaq kimi, hava kimi əbədidir,
Hər dərdlərə şəfa verən, dəva kimi əbədidir.
Bu sözlərdən həvəslənib sevinmişik, gülmüşük də,
Aralıqda xeyir-şəri, qardaş kimi bölmüşük də.
Bu sözlərlə rəndələnib, nəcibləşib gözəlləşdik,
Sağlamlaşdıq, gümrahlaşdıq, pərvazlaşıb əməlləşdik.
Əzizlənib bəslənmişik, pillə-pillə ucalmışıq,
Qüvvətlənib, qüdrətlənib, zəfərlərdən bac almışıq.
Bu sözlərlə doğularaq, bu sözlərlə mayalandıq,
Bu sözlərlə abırlanıb, ismətləndik, həyalandıq.
Rəhmə gəlib insan oğlu, bu sözlərlə mürvətləndi,
Bu sözlərlə fərəhləndi, ürəkləndi, cürətləndi.
Bu sözlərlə zəhmət çəkdi, var-hal tapdı dövlətləndi,
Yaşamağa nemət tapdı, azdan-çoxdan sərvətləndi.
Belə sözlər insanlığa, yaşamağa həvəs verir,
Eşq-həvəsi artıraraq, ciyər dolu nəfəs verir.
Bu sözlərlə ölçülərək, bu sözlərlə qiymətləndik,
Məzmunlaşdıq, mənalaşdıq, ömürboyu hikmətləndik.
Bu sözlərdə istəklər var, həvəslər var, sevinclər var,
Neçə-neçə kəşf olmamış arzular var, diləklər var.
Bu sözlərdən qüvvət alıb dönə-dönə fərəhləndik,

Biz onlara yad olunca qəhərləndik, kədərləndik.
Açıq deyək belə sözlər sülh, azadlıq, səadətdir,
Ədəb-ərkan qanun-qayda, nəciblikdir, ləyaqətdir.
Xeyirxahlıq, mehribanlıq, səmimiyyət, xoş niyyətdir,
İnsaf, vicdan, səxavətdir, kəramətdir, sədaqətdir,
Xətir-hörmət möhüb düzmək, el xeyrinə çalışmaqdır,
Yeri gəlsə od alaraq, candan keçib alışmaqdır.
Gözəllikdir, nəciblikdir, zəriflikdir, ülviyyətdir,
İnsanlığa xidmət edən, məna dolu keyfiyyətdir.
Belə sözlər həyat üçün, çörək kimi gərəklidir,
Dəqiq çırpınan, döyünən, ürək kimi gərəklidir.
Bu sözlərlə ülviləşdik, cavanlaşdıq, təzələndik,
Əylənərək, dincələrək, nəşələndik, məzələndik.
Bu sözlərlə qiymətləndik, şərəfləndik, şöhrətləndik,
Mayalandıq, qidalandıq, əzizləndik, hörmətləndik.
Bu sözlərlə sadiq olduq, bu sözlərlə vəfalandıq,
Bu sözlərlə gümrahlanıb, bu sözlərlə şəfalandıq.
Belə sözlər danışana, deyənlərə halal olsun,
Bədxahlığa, nadanlığa söyənlərə halal olsun.
Əhsən olsun bu həyata, ləyaqətə baxanlara,
Ulduz kimi parıldayıb, günəş kimi çıxanlara.
Əhsən olsun bu sözlərlə, nəfəs alıb yaşayana,[1111]
İnsanlığa qiymət verib, el yükünü daşıyana.[1112]
Doğru görüb, düz düşünən, ən kamallı insanlara,
Ən vicdanlı, ən məsləkli, ən amallı insanlara.

Təəssüf ki, elə söz var, küdurətdən yaranmışdır,
Xainlikdən baş qaldırıb, xəyanətdən yaranmışdır.
Nanəciblik, namərdlikdən, xəbislikdən yaranmışdır,
Acgözükdən zühr eləyib, hərislikdən yaranmışdır.
Nadanlıqdan baş qaldırıb, cəhalətdən yaranmışdır,
Pis ənənə, pis vərdişdən, pis adətdən yaranmışdır.
Al-qanları qaraldaraq, əsəbləri pozubdur o,
Əyrilərə düz deyərək, doğruları yozubdur o.
Xatirinə dəyə-dəyə, ürəkləri qırıb gedib,
Onu-bunu əldən salıb, bezikdirib yorub gedib.

---

[1111] Əhsən olsun, bu sözlərlə yaradana, yaşayana.
[1112] Həyat boyu yorulmayıb, el yükünü daşıyana.

Oğrun-oğrun qapı gəzib, araları vurub gedib,
İnsanların qərəzində, qisasında durub gedib.
Kirpi kimi tikanlıdır, ilan kimi zəhərlidir,
Fəlakətdir, rəzalətdir, işgəncədir, qəhərlidir.
Aranının istisi yox, dağlarının heç qarı yox,
Budağının yarpaqları, çiçəyinin heç barı yox.
Nə istisi, hərarəti, nə közü var, nə odu var,
Nə kefi var, nə ləzzəti, nə tamı var, nə dadı var.
Belə sözlər eşitdikcə zəkamızı korlamışıq,
Hiddətlənib, qəzəblənib, hissimizi zorlamışıq.
Eşidənlər ağız büzüb, nifrət edib, üz döndərib,
Gəmisini çəkib yana, sükanını tez döndərib.
Belə sözlər insanlığı dərdə salıb qəhərləyir,
Arifləri bezikdirir, fikirini zəhərləyir.
Harda varsa belə sözlər, ünsiyyətin qənimidir,
Nəcib arzu-istəklərin, saf niyyətin qənimidir.
Bəd fikirlər, düşüncələr, qəlbimizi yandırıbdır,
Canımızda nəki qan var, yerbəyerdən dondurubdur.
Bu sözlərdən qaralmışıq, bulud kimi tutulmuşuq,
Zibil kimi süpürülüb, künc-bucağa atılmışıq.
Ev-eşiklər dağılaraq, neçə qapı bağlanıbdır,
Neçə ana ağlar qalıb, neçə sinə dağlanıbdır.
Belə sözlər əfsuslar ki, aralığı vura bilmiş,
Ülfətləri korlayaraq, ünsiyyəti qıra bilmiş.
Bu sözlərdən dönə-dönə, sarsılmışıq, pozulmuşuq,
Şər-böhtana düçar olub, biz tərsinə yozulmuşuq.
Dostlar gəlin eşitməyək, yersiz olan söz-söhbəti,
Fitnə-fəsad, şər-böhtanı, giley-güzar, nə qeybəti.
Eşitməyək belə sözü, o deyilir küdurətlə,
Bəd fikirlə, xəyanətlə, qəzəb ilə ədavətlə.
Eşitməyək elə söz ki, ürəkləri hədəf alır,
Saf arzunu, pak niyyəti, diləkləri hədəf alır.
Eşitməyək elə sözü, ünsiyyəti paralayır,
İnsanları vuruşdurub birbirindən aralayır.
Nifrət olsun bu sözləri deyənə də, yazana da,
Düz fikirdən, xəyallardan, uzaşana, azana da.
Sərsəm fikir, kəc xəyalla başlarını doldurana,
Məhəbbətin güllərini, şaxta kimi soldurana.
Nifrət olsun bu dünyada, insanlığı bezdirənə,

Zülmə salıb, əzab verən, iztiraba dözdürənə.
İnsanlığa, ləyaqətə, biganəlik edənlərə,
Kamalını itirərək, divanəlik edənlərə.
Nifrət olsun nəcibliyə kəc olana, darılana,
Öz içindən kiflənərək, çürüyərək qırılana.

Mən istərdim elə söz ki, hər kəlməsi dərin olsun,
Üfunətli göl olunca, şərbət kimi şirin olsun.
Yatanları oyadaydı, ilhamları coşduraydı,
Xəyallara qanad verib, fikirləri daşdıraydı.
Dolanaydı diyar-diyar, eldən-elə yayılaydı,
O düşəydi dildən-dilə, seçiləydi, sayılaydı.
Mən istərdim elə söz ki, xətirlərə dəyməyəydi,
Qaşqabağı çatmayaydı, qamətləri əyməyəydi.
Əsəbləri korlayaraq, qulaqları kar etməyə,
Dərdi-qəmi artıraraq, gen dünyanı dar etməyə.
Zəhləəri tökdürərək, eşidəni bezdirməyə,
Cəhalətə yol verərək, ürəkləri üzdürməyə.
Yollar açsın idraklara, hissiyata, xəyallara,
Neçə-neçə ölkələrə, diyarlara, əyallara.
Qulaqlarda sırğa olsun, damaqlarda dadı qalsın,
İdraklardan silinməsin, ürəklərdə odu qalsın.
Dərya kimi dalğalansın, sahilboyu ləpələnsin,
Bulud kimi dola bilsin, yağış kimi səpələnsin.
Mən istərdim elə söz ki, günəş kimi parlayaydı,
Şimşək kimi yalavıyıb, bərq vuraydı, gurlayaydı.
Mən istərdim elə söz ki, çeşmə kimi duru olsun,
Dizimizə taqət versin, gözümüzün nuru olsun.
Bu sözlərə inanırıq, təməli var, əsası var,
Genləri var, nüvəsi var, ülviyyətdən mayası var.
Gəl ay dostlar bu sözlərdən çox danışıb, çox eşidək,
Uzaq-uzaq yollar gedib, karvan sürüb mənzil kəsək.
Bu sözlərdən-söhbətlərdən, harda varsa tapa bilək,
Eşq-həvəs, məhəbbətdən bürc qalanı yapa bilək.

***Cəmil Əkbər*** 1970

## 134. ELƏ SÖZ VAR (2)

Elə söz var başdan-başa, həyat dolu mənası var,[1113]
Yaşamağa, yaşatmağa qadir olan dünyası var.
Bu sözlərin sədasından insanlığa inam olub,
Xətir-hörmət, izzət olub, neçə-neçə ənam olub.
Bu sözlərdən insanlığın, yollarına nur ələnib,
Yardım olub, qayğı olub, bağlarına bar ələnib.
Belə sözlər əmanətdir, nəsillərdən-nəsillərə,
Yollar salıb iz göstərir, əsrlərdən əsrlərə.
Bu sözlərin xidməti var, bəşər üçün əbədilik,
Bu sözlərdə çox görmüşük, sədaqətlik, təbiilik.
Belə sözlər təbib olmuş, məlhəm qoymuş yaralara,
Düzə əyri, əyriyə düz, ağ deməyib qaralara.
Bu sözlərdə dəyanət var, neçə-neçə ləyaqət var,
Namus, iffət, abır-ismət, səxavət var, kəramət var,
Bu sözlərdə saf arzular, saf istəklər, xoşniyyət var.
Belə sözlər insanlığa daim, hər an gərəklidir,
Xeyirxahlıq mayasıdır, bərəkətli, çörəklidir.
Belə sözlər ürəksizə dayaq olub, ürək olub,[1114]
Kimsəsizə, kimsə olub, köməksizə kömək olub.
Belə sözlər yıxılanın qollarından qaldırıbdır,
Neçə-neçə məzlumları, zalımlardan saldırıbdır.
Əhsən olsun bu sözləri yazanlara, deyənlərə, [1115]
Xainliyə, xəbisliyə nifrət edib söyənlərə. [1116]
Bu sözləri düşünərək, dönə-dönə yazanlara,[1117]
Cəhalətin, avamlığın məzarını qazanlara.
Loğmanlara, dahilərə, ədiblərə, şairlərə,[1118]
Ariflərə, müdriklərə, yazıçıya, nasirlərə.[1119]
Əhsən olsun, doğru görüb, düz düşünən o sərlərə,[1120]
Vətənimin mərdlərinə, qəhrəman igid nərlərə.[1121]

---

[1113] Söz vardır ki, başdan-başa, məzmunu var, mənası var.
[1114] Belə sözlər təsəllidir, dayaq olub, ürək olub.
[1115] Əhsən olsun belə sözlər yazana da, deyənə də.
[1116] Mənfurluğa, rəzilliyə, nifrət edib söyənə də.
[1117] Əhsən olsun bu sözləri, düşünərək yazanlara.
[1118] Əhsən olsun dahilərə, ədiblərə, şairə də.
[1119] Müdriklərə, ariflərə, yazıçıya, nasirə də.
[1120] Əhsən olsun doğru görüb, düz düşünən qardaşlara.
[1121] Həmkarlara, həmdəmlərə, sədaqətli yoldaşlara.

Əhsən olsun bu sözlərlə, xalqına düz yol açana,
Cığırları, keçidləri tamam-kamal bol açana.
Əhsən olsun bu sözləri dönə-dönə oxuyana,
Öz əməli, öz sözüylə, ətri-ənbər qoxuyana.
Əhsən olsun insanlığa insan kimi baxanlara,
Öz əhdinə, peymanına sədaqətlə çıxanlara.
Elə söz var hamı ondan uzaqlaşıb, üz döndərib,
Yaxınına getməyibdir, sükanını tez döndərib.
Mətləbi yox, məzmunu yox, nə duzu, dadı, tamı yox,
Nə balı var, nə şirəsi, nə cecəsi, nə şamı yox.
Addımbaşı xətası var, zərəri var insanlığa,
Yollar açır, izlər salır, cəhalətə, avamlığa.
O dağıdır, paralayır, ülfətləri, ünsiyyəti,
Xoş arzunu, xoş diləyi, xoş məramı, xoş niyyəti.
Nifrət olsun bu sözləri deyənə də, yazana da,
Ünsiyyətə xələl vuran, onu tamam pozana da.[1122]
Bəd danışıb, bəd düşünən, ağaya da, nökərə də,[1123]
Bədəmələ, bədxəyala, bədniyyətə, fikirə də.
Bəd görənə, eşidənə, bəd öyrənib bilənə də.[1124]
Bəd işlərdən həzz alana, sevinənə, gülənə də.[1125]
Nifrət olsun kəc fikirlə başlarını doldurana,
Məhəbbətin bağlarında, güllərini soldurana.
Bu dünyada insanları canlarından bezdirənə,[1126]
Əzab verən, zülmə salan, iztiraba dözdürənə.
Nifrət olsun ədalətə biganəlik edənlərə,[1127]
İnsanlığa zərər vurub, divanəlik edənlərə. [1128]

***Cəmil Əkbər*** 1970

## 135. SÖZ DƏ VARDIR (3)

Sözlər var ki, başdan-başa, həyat dolu mənası var,
Kəlməsində, cümləsində öz aləmi dünyası var.
Sözlər var ki, ellər ondan min səadət diləmişdir,

---

[1122] Doğruları tərsəməssəb yozana da, pozana da.
[1123] Nifrət olsun bəd düşünən ağaya da, nökərə də.
[1124] Bəd çatdırıb, eşidənə, bəd öyrənib bilənə də.
[1125] Bəd baxana, danışana, bəd sevinib gülənə də.
[1126] Nifrət olsun bu dünyada insanları bezdirənə.
[1127] 1) Nifrət olsun insanlığa biganəlik edənlərə. 2) Nifrət olsun doğruluğa biganəlik edənlərə.
[1128] 1) Həqiqətə, saf niyyətə biganəlik edənlərə.2)Bədəməllik, bədniyyətlik, divanəlik edənlərə.

İnsanlığın, yollarına öz nurunu ələmişdir.
Sözlər var ki, gələcəyə doğru-düzgün yol göstərib,
Bağça salıb, calaq vurub meyvəsini bol göstərib.
Söz də vardır, hamı ondan, uzaqlaşıb üz döndərib,
Dayanmayıb bir an yanda, tələsməyib, tez döndərib.
Söz də vardır, elə-belə dadsız-tamsız, mənasızdır,
Yoxdu onun aqibəti, röya kimi dünyasızdır.
Söz də vardır, ümididir körpənin də, qocanın da,
Adda-sanda kiçiyin də, böyüyün də, ucanın da.
Söz də vardır, xətası var, zərəri var insanlığa,
Yolu salır cəhalətə, meydan açır avamlığa.
Söz də vardır, yadigardır, nəsillərdən-nəsillərə,
Neçə ildir yol göstərir, əsrlərdən əsrlərə.
Söz də vardır, nə mənzili, nə də onun məkanı var,
Nə dənizi, nə ümmanı, nə lövbəri, sükanı var.
Söz də vardır, o korlayır ülfətləri, ünsiyyəti,
Xoş arzuları, istəyi, xoş diləyi, xoş niyyəti.
Sözlər vardır, baldan şirin, buzdan sərin, sudan təmiz,
Açıq-aşikar deyilib, o aydındır deyil qəliz.
Sözlər vardır, qan qaraldır, evlər yıxır, ürək sıxır,
İnsanlığa ziyan verir, zülm eyləyir, xain çıxır.
Sözlər vardır, xeyir verir, xidmət edir insanlığa,
Sipər olur, qala olur, yol verməyir nadanlığa.

***Cəmil Əkbər*** 1970

## 136. DƏRK EDƏK!

***H i k m ə t n a m ə***

Sən də, mən də insan oğlu, gəl düşünək birlikdə,
Seyrə çıxaq bu dünyanı, bu həyatı dərk edək!
Nə əkilib, nə səpilib, nə tapılır dirlikdə,
Azdı-çoxdu, nələr yoxdu, bu neməti dərk edək!
Laqeydlik, biganəlik, hər nəvarsa son qoyaq?!
İşə-gücə əməllərə, nəzarəti dərk edək!
Davranışda, yaşayışda biz ifrata varmayaq,
Həyat üçün ən gərəkli, zərurəti dərk edək!
Düşünməsək, anlamasaq, çətinlikdən çıxmarıq,
Ustadlardan dərs öyrənək, nəsihəti dərk edək!
Orda-burda veyil-veyil, pərən düşüb gəzməyək,

İnsanlığa rövnəq verən, şərafəti dərk edək!
Keçmişini inkar edib, ağız büzmə, lağ etmə,
Nəcib arzu-istəkləri, pak niyyəti dərk edək!
Fürsət tapıb yalan-palan, hərzə-hərzə danışma!
Ədəb-ərkan gözləyərək nəzakəti dərk edək!
Avamlıqdan, nadanlıqdan birdəfəlik əl çəkək,
Odur bizə əngəl olan, cəhaləti tərk edək!
Kəc fikirdən, xəyallardan kim olubdur yarıyan?
Gəl düşünək axirəti, xəcaləti dərk edək!
Düşünmədən, dərk etmədən dövran sürmək çətindir,
Səadəti bəxş eyləyək, ləyaqəti dərk edək!
Bəşər oğlu nələr çəkir, yaranandan dünyada,
Yol-ərkanı, haqq-divanı, ədaləti dərk edək!
Firəvanlıq xoş həyat da, güzəran da bundadır,
Biz düşünək insanlığı, ləyaqəti dərk edək!
Addımbaşı səhv edərək, yolu-izi azmayaq,
Doğruluğu, düzgünlüyü, həqiqəti dərk edək!
Avamlıqla gün keçirmək, insanlığa yaraşmır,
Dövran keçər, vaxt ötüşər, nihayəti dərk edək!
Pis fikirlər harda varsa, birdəfəlik yox olsun?!
Odur bizi zülmə salan, qəbahəti tərk edək!
Bəd işlərin, bəd sözlərin zərərini çəkməyək,
O saldığı qal-qovğanı, ədavəti tərk edək!
Aç gözünü bu dünyada, nəzər yetir həyata,
Hər əzabı, əziyyəti, zəlaləti tərk edək!
Bəşər oğlu əzəl gündən, birbirinə gərəkdir,
Xeyirxahlıq, kəraməti, fəziləti dərk edək!
Qoy olmasın dava-dalaş birdəfəlik dünyada,
Qanlar tökən, evlər yıxan müsibəti tərk edək!
Əzəl gündən bəd işlərdən kim olubdur yarıyan?
O vurduğu yaraları, xəsarəti tərk edək!
Fəqirlikdən, səqirlikdən yaxamızı qurtaraq,
Qoçaqlığı, zirəkliyi, fərasəti dərk edək!
Yorulmağın, ərinməyin kimə dəyib faydası?
Hünərləri, zəfərləri, məharəti dərk edək!
Dağıtmaqla, talamaqla yaşamağa çalışma!
Düçar olub el düşdüyü fəlakəti tərk edək!
Ömürboyu cəhd eyləyib, tək özünü düşünmə!
El-obanı, məmləkəti, cəmiyyəti dərk edək!

Ucuz alıb, baha satma, dəymişini, kalını,
El düşdüyü yoxsulluğu, səfaləti tərk edək!
Yamanlıqla ad qazanıb, sədalanmaq əbəsdir,[1129]
Yol göstərir Quran-kitab, şəriəti dərk edək!
El-obadan həya edək, ismət ilə dolanaq,
Ünvanlara layiq olan, şərafəti dərk edək![1130]
Tək deyilik, bizdən başqa dünya dolu adam var,
Gəl əl çəkək xəbislikdən, kainatı dərk edək![1131]
Düz oturub-durmalıyıq, harda olsaq, yaşasaq?
Həyat üçün gərək olan, məziyyəti dərk edək!
Paxıllıqdan, xainlikdən, xəbislikdən əl çəkək!
O saldığı qal-qovğanı, əziyyəti tərk edək![1132]
Qadir Allah özü yetsin dadımıza hərzaman, [1133]
Odur verən hər nicatı, hər nüsrəti dərk edək!
Düz düşünüb anlamasaq, zaman bizi qınayar,[1134]
Küsən bizi qınayar, uman bizi qınayar,[1135]
Dağlar bizi qınayar, duman bizi qınayar,[1136]
Yaxşı bizi qınayar, yaman bizi qınayar,[1137]
Gözəl günlər, xoş güzəran, dərk etməklə düzəlir,[1138]
Nadanlığı, avamlığı tərk etməklə düzəlir.[1139]
Düşünməsək, anlamasaq, bəşər üçün çətindir,[1140]
Seyrə çıxaq əvvəl-axır, aqibəti dərk edək![1141]
Zalımlıqdan, bədxahlıqdan birdəfəlik əl çəkək![1142]
Harda varsa pis vərdişi, pis adəti tərk edək![1143]
Kim yaşasa bu adətlə, onun üçün görk edək![1144]

---

[1129] Yerli-yersiz lovğalanıb ədalanmaq əbəsdir,
[1130] Ünvana ləkə yaxmayaq, şərafəti dərk edək!
[1131] Elin gözü tərəzidir, cəmiyyəti dərk edək!
[1132] Ünsiyyətdə-ülfətlərdə, sədaqəti dərk edək!
[1133] Qadir Allah özü yetər dadımıza, haraya.
[1134] Düz düşünüb anlamasaq, həyat bizi sıxacaq.
[1135] İmkan verməz əvvəl-axır, zaman bizi yıxacaq.
[1136] Ömürboyu haqq yolundan uzaşmayaq, dönməyək.
[1137] Bu gün ilə dolansaq da, inayəti dərk edək!
[1138] İnsanoğlu bu həyatı dərk etməklə düzəlir.
[1139] Dühalardan elm öyrənək, xitabəti dərk edək!
[1140] Düşünməmək, anlamamaq, insan üçün bəladır.
[1141] Ömür-günü bada verən, müsibəti dərk edək!
[1142] Tövbə edib bəd işlərdən, bir dəfəlik əl çəkək.
[1143] Nadanlığa qəbir qazaq, cəhaləti  dərk edək!

Ünsiyyətdə, ülfətlərdə biganəlik olmasın, [1145]
Qayğıkeşlik, həssaslığı, bu hikməti dərk edək![1146]
Daha yetər bir bu qədər, divanəlik eyləmək, [1147]
İnsan üçün yolgöstərən, mərifəti dərk edək!
Aldanmayaq hər yetənin fitnəsinə, felinə, [1148]
Ellər bizdən yol gözləyir, cəmaəti dərk edək![1149]
İnsan üçün ucalıqdır, gecə-gündüz çalışmaq, [1150]
Harda olsaq bu zəhməti, bu xidməti dərk edək![1151]
Bəsdir daha Cəmil Əkbər, sən də ayıl qəflətdən, [1152]
İnsan üçün ülvi olan əlaməti dərk edək![1153]
Bu bəşərə yol göstərək, irəliyə getməyə,[1154]
İxtiyarı, iqtidarı, sədarəti dərk edək![1155]
Çox düşünüb dərk eyləyib, yazıbdılar atalar,[1156]
Söylənilən kəlamları, qiraəti dərk edək![1157]

***Cəmil Əkbər*** 26. 10 – 1993

## 137. HƏRKƏSDƏNİN ƏMƏLLƏRİ

Güclüsənsə əzib sıxma məzlumları, füqəranı,[1158]
Zülm eyləyib nahaq yerdən, ayaqlama biçarəni.[1159]
Ədəb ilə xidmət eylə, bezikdirmə millətini,[1160]
Zəhlə töküb incidərək, gəl artırma hiddətini.[1161]
Arxalanıb qüvvətinə, aldanmaynan şöhrətinə,[1162]

---

[1144] Ünsiyyətdə harda varsa, pis adəti tərk edək!
[1145] Kim yol azsa, kim iz azsa, dərhal ona görk edək.
[1146] Bu dünyada yerli-yersiz ifrat sözə uymayaq.
[1147] Ən gərəkli, ən lazımlı, zərurəti dərk edək!
[1148] Harda varsa bu həyatda, hər hikməti dərk edək!
[1149] Dərk etməsək zərurəti, səadətə çıxmarıq,
[1150] Azadlığa qədəm qoyub, bəraətə çıxmarıq,
[1151] Bekar gəzmə, bəsdir daha, divanəlik eyləmə.
[1152] Həm özünə, həm özgəyə, sədaqəti dərk edək!
[1153] Zəhmət çəkib bu dünyada, bu xidməti dərk edək!
[1154] Düz düşünək, doğru görək, hər yetənə uymayaq.
[1155] Ellər bizdən yol gözləyir, bu xidməti dərk edək!
[1156] Cəmil Əkbər, sən də oyan, barı ayıl qəflətdən.
[1157] 1) Onlar yazan kəlamları, qiraəti dərk edək! 2) Sən özün də bir Hatəm ol, səxavəti dərk elə.
[1158] Güclüsənsə əzib sıxma gəl məzlum füqəranı.
[1159] Qol gücünə güvənərək, döymə bu biçarəni.
[1160] Ədəb ilə xidmət eylə, bezikdirmə xilqəti.
[1161] Zəhlə töküb incidərək, gəl artırma hiddəti.

Bel bağlayıb öz hökmünə, güvənməynən qüdrətinə.[1163]
Qayğı göstər insanlara, ata, ana, bacı kimi,[1164]
Bu həyatın, bu dövranın, bünövrəsi tacı kimi.[1165]
Köməksizə yardım eylə, tut qolundan yıxılanın,[1166]
Dərdlərinə əlac eylə, dadına çat sıxılanın.[1167]
Bu dünyada ömür sürmə, qəzəb ilə, nifrət ilə,[1168]
El içində yaxşı dolan, insaf ilə, mürvət ilə.[1169]
Gəl törətmə qal-qovğanı, yersiz dava nə dalaşı,[1170]
Ürəklərdə məskən salma, həyəcanı, nə təlaşı.[1171]
Yolu verib cəhalətə, meydan açma avamlığa,
Düşməginən çamırlığa, batmaginən bataqlığa.
Kim törətsə bədəməllər, peşimandır əzəl-axır,[1172]
Dost olanmaz öz xalqilə, o düşməndir əzəl-axır.[1173]
Sözlərimi eşidənlər, qoy anlasın bu mənanı,[1174]
Bədəməllər törədərək, korlamasın qoy dünyanı.[1175]
Əsəblərə toxunaraq, qaraltmasın al-qanları,[1176]
Qəlbə dəyib, ürək üzüb, bezdirməsin insanları.[1177]
İnsanoğlu cana doysa, bunun bilki xətası var,
Kənar olmaz heç də yaxan, sənə də pay çatası var.
Varlısansa səxan olsun, yoxsula da bir əl uzat,[1178]
Bacarırsan yaxşılıq et, bacarmırsan ol farağat![1179]
El çox görüb əzənləri, xalqına zülm edənləri,[1180]

---

[1162] Ona-buna bel bağlayıb, aldanmaynan şöhrətə.
[1163] Arxalanıb öz hökmünə, aldanmaynan qüdrətə.
[1164] Qayğı göstər insanlara, ata, ana, bacı tək.
[1165] Bu həyatın, bu dövranın, bünövrəsi tacı tək.
[1166] Köməksizə yardım eylə, tut qolundan rəhm elə,
[1167] Dərdlərinə əlac eylə, çat dadına rəhm elə.
[1168] Bu dünyada ömür sürmə, qəzəblə, nifrət iylə.
[1169] El içində yaxşı dolan, insafla, mürvət iylə.
[1170] Gəl törətmə qal-qovğanı, yersiz dava-dalaşı.
[1171] Ürəklərdə məskən etmə, həyəcanı təlaşı.
[1172] Kim törətsə bədəməllər, peşimandır gec-tezi.
[1173] Dost olanmaz öz xalqına, yəqin etsin qoy düzü.
[1174] Sözlərimi eşidənlər, anlasınlar mənanı.
[1175] Bədəməllər törədərək, korlamasın dünyanı.
[1176] Əsəblərə toxunaraq, qaraltmasın al-qanı.
[1177] Qəlbə dəyib, ürək üzüb, bezdirməsin insanı.
[1178] Varlısansa səxan olsun, yoxsula da əl uzat.
[1179] Bacarırsan yaxşılıq et, bacarmırsan farağat!
[1180] Xalq çox görüb əzənləri, ona zülm edənləri.

Yollarından azanları, tərsəməssəb gedənləri.
Elə etki ellər səni yad etməsin nifrət ilə,[1181]
Təzim etsin hüzurunda, ədəb ilə hörmət ilə.[1182]
Harayına gəlib çatsın, əldə ikən haqq divanın,[1183]
Zindanlarda çürüməsin, nə vicdanın, nə də canın.[1184]
Çox görüblər, eşidiblər asanları, kəsənləri,[1185]
Sondan-sona peşman olub, taleyindən küsənləri.[1186]
Çox asanlar asılıbdır, çox kəsənlər kəsilibdir,[1187]
Tarmar olub xanimanı, yurdunda turp əkilibdir.[1188]
Rəhmə gəlin ey insanlar, nahaq yerdən tökmə qanı,
Onu-bunu vurub yıxıb, haldan salıb üzmə canı.
Bir utanın, həya edin yaramayan əməllərdən,[1189]
Sarsınmamış bünövrədən, dağılmamış təməllərdən.[1190]
Bəd işlərdən çəkinməsən, namus, qeyrət əldən gedər,[1191]
Ad-sanımız birdəfəlik silinərək əldən gedər.[1192]
Əldə ikən yaxşı saxla şərəfini, şöhrətini,[1193]
Ömürboyu ülvi saxla namusunu, qeyrətini.[1194]
Qarışsanda torpaqlara, qızıl kimi pas götürmə,[1195]
Diri-diri ölüb getmə, möhnət çəkib yas götürmə.[1196]
Dərin düşün, dərk eləynən, insanlığın mənasını,[1197]
Sındırmaynan könüllərdə məhəbbətin aynasını. [1198]
Ona-buna kələk gəlmə, hamı indi ayılıbdır,[1199]

---

[1181] Elə etki ellər səni yad etməsin nifrətlə.
[1182] Təzim etsin hüzurunda, ədəb ilə hörmətlə.
[1183] Harayına gəlib çatsın, qurulanda haq divan.
[1184] Zindanlarda çürüməsin, nə cəsədin, nə də can.
[1185] Çox görüblər, eşidiblər asanları, kəsəni.
[1186] Sondan-sona inciyərək, taleyindən küsəni.
[1187] Çox asanlar asılıbdır, çox kəsənlər kəsilib.
[1188] Tarmar olub xanimanı, yurdunda turp əkilib.
[1189] Əl götürün bəd işlərdən, bəd sözlərdən, əməldən.
[1190] Abır edin, həya edin siz gələcək nəsildən.
[1191] Bəd işlərdən çəkinməsən, qeyrətin əldən gedər.
[1192] Adın-sanın birdəfəlik silinib əldən gedər.
[1193] Əldə ikən gözdən salma şərəfini, şöhrəti.
[1194] Çalış hər an ülvi saxla abırını, isməti.
[1195] Qarışsanda torpaqlara, qızıl kimi çürümə.
[1196] Diri-diri ölüb getmə, möhnət çəkib götürmə.
[1197] Dərin düşün, dərk eləyin, insanlıqda mənanı.
[1198] Sındırmayın könüllərdə parıldayan aynanı.
[1199] Ona-buna kələk gəlmə, hamı indi ayılıb.

Vətəndaşdır, hüququ var, hamı insan sayılıbdır. [1200]
Hamı indi dərs alıbdır, hamı indi oyanıbdır,[1201]
Bədəməldən, bəddə sözdən, insan cana dayanıbdır. [1202]
El nifrəti yaman olur, daşqın seltək yıxar səni,[1203]
Ayaq altda tullayaraq, pencər kimi sıxar səni.[1204]
Çalış eldə hörmət qazan, həyatında gərək olar,[1205]
Arxanızda dayaq olar, evinizdə dirək olar. [1206]
Doğru yolla gedən azmaz, bunu deyib ata-baba,
El sözünü yadda saxla, məqamında al hesaba.
Ömürboyu yadda saxla, unutmaynan haqq-sayı,[1207]
Həyatından gəlib-keçən payız-qışı, yazı-yayı.[1208]
Deməsinlər nankor oğlu, unudubdur haqq-sayı,
Yaxşılaşıb güzəranı, yəqin artıq düşüb payı.
Deməsinlər zalım oğlu, ayaqlayır millətini,[1209]
Artırırlar əzabını, artırırlar hillətini.[1210]
Lovğalanıb, havalanıb, gözü yeri-göyü seçmir,[1211]
Heçkimsəni saya almır, haqq yoluyla gəlib-keçmir.[1212]
Kimsəsizə birkimsə ol, heç olmasa bircə dəfə,[1213]
İmdada yet, haraya çat, heç olmasa bircə dəfə.[1214]
Hərkəsdənin əməlləri yadigardır nəsillərə,[1215]
Söylənərək dildən-dilə, o keçir əldən-əllərə.[1216]
Yaxşı əməl sahibinin, könüllərdə izi qalır, [1217]
Eldən-elə yayılaraq, adı-sanı, sözü qalır. [1218]

---

[1200] İxtiyarı, hüququ var, hamı insan sayılıb.
[1201] Ustadlardan dərsi alıb, indi hamı oyanıb.
[1202] Bəd sözlərdən, söhbətlərdən hamı cana dayanıb.
[1203] El nifrəti yaman olur, sel olub yıxar səni.
[1204] Ayaq altda tapdalayıb, pencərtək sıxar səni.
[1205] Çalış eldən hörmət qazan, o hamıya gərəkdir.
[1206] Arxanızda dayaq olar, evinizdə dirəkdir.
[1207] Ömürboyu yadda saxla, unutmaynan hörməti.
[1208] Həyatında gərək olar, ala bilsən qiyməti.
[1209] Deməsinlər zalım oğlu, ayaqlayır milləti.
[1210] İşgəncəyə dözdürürlər, artırırlar hillətini.
[1211] Lovğalanıb, ədalanıb, gözü yer-göyü seçmir.
[1212] Heçkimsəni saya almır, haqq yoluyla da keçmir.
[1213] Kimsəsizə birkimsə ol, heç olmasa bir dəfə.
[1214] İmdada yet, haraya çat, harda olsan hər dəfə.
[1215] Hərkəsdənin əməlləri yadigardır ellərə.
[1216] Söylənərək dildən-dilə, o keçir nəsillərə.
[1217] Yaxşı əməl sahibinin, könüllərdə izi var.

Baş girləmə, can saxlama, elə-belə arsız-arsız,
Gün keçirmə orda-burda, veyil-veyil, karsız-karsız.
Kamil insan miras qoymaz, bədəməllər uşağına,
Yaxşı bilir nə doğrasa çıxacaqdır qaşığına.
Qanqaraldıb ev yıxmağın insanlığa zərəri var,
Dərdi-səri, kədəri var, qüssəsi var, qəhəri var.
Hər qapının öz qıfılı, hər qıfılın açarı var.
Hərbir işin öz həddi var, öz hüdudu, qərarı var.
Gözləməsək hüdudunu, gözləməsək öz həddini,
El yanında gözdən düşüb, biz bükərik öz qəddini.
Arif olan yadda saxlar, qəbul edər nəsihəti,
Müdrikliklə söylənilən, hər kəlamı, hər söhbəti.
Bu sözlərlə cilalayır, zəkasını, kamalını,
Gözdən salmaz el yanında, öz hüsnünü, camalını,
Ətir saçan qızılgül ol, heyran eylə bülbülləri,[1219]
"Hərkəsdənin öz bəxtidir, törətdiyi əməlləri".[1220]

***Cəmil Əkbər***

## 138. ÖLÜRƏM (1)

Gəl dərdimə əlac eylə, sevgili-canan ölürəm,
Lalə yanaq, billur buxaq, qaşları kaman ölürəm.
Sərvi-boylu, mina gərdan, sinəsi mərcan ölürəm,
Sən mənə çor da desən, mən sənə haycan, ölürəm.
Qoy yayılsın sədalarım, eşitsin həryan ölürəm,[1221]
Kefi nasaz, halı bərbad qəlbi də viran ölürəm.[1222]
Yanır qəlbim dönür külə, sovurur boran ölürəm,[1223]
Həsəd çəkib deməyin ki, sürürəm dövran ölürəm.[1224]
Sevdamıza yoxdu güman, qalıb nigaran ölürəm,[1225]
Səndən ayrı düşsəm əgər, demə firəvan ölürəm.[1226]
Həsrətindən oldum xəstə, verməyir aman ölürəm,

---

[1218] Eldən-elə yayılaraq, adı-sanı, sözü var.
[1219] Ətir saçan qızılgül ol, dilə gəlsin bülbüllər.
[1220] "Hərkəsdənin öz bəxtidir, törətdiyi əməllər".
[1221] 1) Qoy yayılsın sədam mənim, eşitsin hər yan ölürəm.
2) Qoy yayılsın mahal-mahal, eşitsin hər yan ölürəm.
[1222] Halı bərbad, kefi pozğun, qəlbi də viran ölürəm.
[1223] Eşqim sönür dönür külə, sovurur boran ölürəm.
[1224] Həsəd çəkib söyləməyin, sürürəm dövran ölürəm.
[1225] Sağlığıma yoxdu güman, qalıb nigaran ölürəm.
[1226] Ayrı düşsəm səndən əgər, demə firəvan ölürəm.

Qoy dərdimə inildəsin, ney ilə kaman ölürəm.
Səndən ayrı günüm ildir, halı-pərişan ölürəm,
Əsəblərim tab gətirmir, qaralıbdır qan ölürəm.[1227]
Sən bir şamsan, mən pərvanə, oduna giryan ölürəm.[1228]
Tükənibdir səbri-qərar, gedir əldən can ölürəm,
Sanma məni gəl divanə, sərsəri, nadan ölürəm.
Dili şəkər, dodaq püstə, alagöz ceyran ölürəm,
Vətənimin nigarına, olmuşam heyran ölürəm.
Baxışından oxlanmışam bağrım olub şan ölürəm,[1229]
Hüzurunda müntəzirəm, qoy alım qadan ölürəm.
Ünvanını deyənmirəm, qalmışam pünhan ölürəm.
Neştər vurub alma qanım, verməynən fərman ölürəm,[1230]
Dərd məndədir, dərman səndə, verməsən dərman ölürəm.[1231]
Gözüm yolda, könlüm xəstə, qadiri-sübhan ölürəm,
İnanmasan and içərəm, gətirin Quran ölürəm.
Hicranına dözmək olmur, sanmaki asan ölürəm?[1232]
Didələrim tökür qan-yaş, axıdır leysan ölürəm.
Əssin külək, sovursun qar, qoy qopsun tufan ölürəm,
Bu dərdim olsun aşikar, cümleyi-cahan ölürəm.
Daşda kəklik, bağda bülbül, eyləsin fəqan ölürəm,[1233]
Sahil geniş, qəvvas cahil, batırsa sükan ölürəm.
Əzəl gündən əhli-halam, öldürür nadan ölürəm,[1234]
Gəlsin anam, qardaş, bacım, naleyi-aman ölürəm.
Adın qalsın ürəyimdə, ay ismi-pünhan ölürəm,
Könüllərdə yoxsa izim, qalıb binişan ölürəm.
Məhəbbətdən qurdum xanə, axırda üryan ölürəm,[1235]
Bu dərdə neyləsin Cəmil, edərək tüğyan ölürəm?

***Cəmil Əkbər*** 1981

---

[1227] Hicranına dözmək olmur, qaralıbdır qan ölürəm.
[1228] Sən şam oldun, mən pərvanə, oduna giryan ölürəm.
[1229] Baxışından ovlanmışam bağrım olub şan ölürəm.
[1230] Qaş-göz ilə alma canım, verməynən fərman ölürəm.
[1231] 1) Dərdim məndə, dərman səndə, vermirsən dərman ölürəm.
2) Bu dərdə neyləsin loğman, yoxumsa dərman ölürəm.
3) Yaram dərin, təbib naşı, verməyir dərman ölürəm.
[1232] Hicranına sinə gərmək, sanmayın asan ölürəm.
[1233] Bağda bülbül, daşda kəklik, eyləsin fəqan ölürəm.
[1234] Əzəl gündən əhli-halam, sanma ki, nadan ölürəm.
[1235] Çalışdım ki, var-hal ola, axırda üryan ölürəm.

## 139. ÖLÜRƏM (2)

Vaxt ötüşür, keçir günlər, gəşt edir dövran ölürəm,
Gədə-güdə çıxıb təxtdə, açıbdır meydan ölürəm.[1236]
Yalquzaqlar əlbir olub, tökəndə al-qan ölürəm,[1237]
Pozulanda qanun-qayda, yoxdursa divan ölürəm.[1238]
Quldurbaşı hakim olub, verəndə fərman ölürəm,[1239]
Girib qəsdə, dəyir şəsdə, verəndə ziyan ölürəm. [1240]
Halı-bərbad, kefi pozğun, qəlbi də viran ölürəm,
Düzəlməyə yoxdur güman, qalıb nigaran ölürəm.[1241]
Haqq-nahaqqa qalib gəlib, desələr dayan ölürəm,
Ədəb-ərkan tapdalanır, yoxdursa sayan ölürəm.
Zəhmətimiz uçur göyə, mən bu səmadan ölürəm,
Bilən yoxdur hara gedir, ərşi-əladan ölürəm?![1242]
Saxta sözdən, bədəməldən, yoxdu utanan ölürəm.[1243]
Deyən yoxdur ay həyasız, hanı bəs həyan ölürəm?[1244]
Sanmayınki kefikökəm, təxtində rəvan ölürəm?[1245]
Gün keçdikcə elə-belə, ötdükcə dövran ölürəm.
Tapılmayır halal nemət, halal süfrə, nan ölürəm,[1246]
Ora-bura yozma qardaş, doğru düşün, qan ölürəm,
Ha bəslədim, ha becərdim, tərtəmiz vicdan ölürəm.[1247]
Deməyinki xəstələnib, bircə azardan ölürəm,[1248]
Əqidəmiz dəyir daşa, mən bu güzardan ölürəm.[1249]

***Cəmil Əkbər*** 23.06 – 1993

[1236] 1) Gədə-güdə keçib başa, açanda meydan ölürəm.
2) Hökm edəndə tacı-təxtə, o Nuşirəvan ölürəm.
[1237] Canavarlar əlbir olub, tökdükcə al-qan ölürəm.
[1238] Pozulduqca qayda-qanun, yoxdursa divan ölürəm.
[1239] Quldurbaşı olub hakim, verəndə fərman ölürəm.
[1240] Girib qəsdə, dəyib şəsdə, vuranda ziyan ölürəm.
[1241] Düzəlməyə yoxsa güman, qalıb nigaran ölürəm.
[1242] Bilən yoxdur gedir hara, ərşi-əladan ölürəm?
[1243] Saxta sözdən, bədəməldən, varmı utanan ölürəm?
[1244] Deyən yoxsa ay həyasız, hanı bəs həyan ölürəm?
[1245] Sanmayın ki, kefikökəm, yada firəvan ölürəm.
[1246] Görmək olmur halal süfrə, halal nəmək, nan ölürəm.
[1247] Ha bəslədim təmiz arzu, təmiz də vicdan ölürəm.
[1248] Deməyinki xəstələnib, mən bir azardan ölürəm.
[1249] Nəcib arzu dəyir daşa, mən bu güzardan ölürəm.

## 140. QOŞA YAŞASIN

İnsanlıqla vəzifə, gərək qoşa yaşasın,
Onlar verib əl-ələ, lap baş-başa yaşasın.
Harda olub yaşasa, gərək onlar bir olsun?!
Birgə yaşa dolaraq, həm nurani pir olsun?!
İnsanlıq olmayanda vəzifə gözdən düşür,
Gün-günorta olmamış, atından tezdən düşür.
Vəzifə olmayanda, insanlıq da büdrəyir,
Mənzil başa çatmamış, yarı yolda yük əyir.
Tək bir əldən səs çıxmır, ellər bunu deyibdir,
Qoy qulaqlar eşitsin, dil də bunu deyibdir.
İnsanlıq olmayanda müqəvvaya gülürlər,
O saldığı hay-həşir, qal-qovğaya gülürlər.
Avamlara gülürlər, nadanlara gülürlər,
Tərbiyədən yarımçıq, dadanlara gülürlər.
Min bir hoqqa düzəldən, kəndirbaza gülürlər,
Dondan-dona düşənə, modabaza gülürlər.
İnsanlıq olmayanda, qiymət yoxdur zəhmətə,
Heç baxan yox insafa, baxan yoxdur mürvətə.
Nə hörmət var, qayğı var, nuraniyə, qocaya,
Dünya görmüş ağsaqqal, püraniyə, ucaya.
İnsanlıq olmayanda sədaqətlər tapdanır,
Ədəb-ərkan tapdanır, nəzakət də tapdanır.
Bacarıq gözdən düşür, məharət də tapdanır,
Fərasətlər, fəhimlər, cəsarət də tapdanır.
İnsanlıq olmayanda şərafət də tapdanır,
İncəlik də tapdanır, məlahət də tapdanır.
Qayda-qanun, şəriət, təriqət də tapdanır,
İtib-batır yaxşılıq, fəzilət də tapdanır.
Adi insan nədir ki, cəmiyyət də tapdanır,
Kəmiyyətlər bir yana, keyfiyyət də tapdanır.
Saraylar matəm geyir, tacı-təxt də ağlayır,
El-oba da, mahal da, camaat də ağlayır.
Dövran özü ağlayır, zaman özü ağlayır,
Dağ başını bürüyüb, çisgin-duman ağlayır.
Paxıllara, xainə, nəsə meydan açılır,
İfritəyə, iblisə, pisə meydan açılır.
Hökm eyləyir ay aman, nabələdlər, naşılar,

Fərman verib əmr edir, kəlləsiboş vəhşilər.
Yaman girir sazişə, sərsərilər, dəlilər,
Al-qanları sorurlar, həşarətlər, zəlilər.

***Cəmil Əkbər*** 17. 10 – 1987

## 141. HƏYATI SEVƏR OL!

***İ d r a k n a m ə***

Həyatı sevər ol, şən ol, nikbin ol!
İstər gözəl olun, istər çirkin ol!
Sevgisiz, fərəhsiz olma dünyada,
Sevgisiz yaşayan itər arada.
Sevgisiz ürəklər, ürək sayılmır,
Heçkəsə, heç yerdə gərək sayılmır.
Sevgisiz arzular saralıb solar,
Məhəbbət diyarı xərabə qalar.
Sevgi məhəbbətin məhək daşıdır,
Həyat üzükdürsə o daşqaşıdır.
Sevgidir insanın ülviyyəti də,
Hər məna, məzmunu, məziyyəti də.
Sevgidir insanın ləyaqəti də,
Dözümü, durumu, dəyanəti də.
Sevgiyə bağlıdır kef də, ləzzət də,
Ehtiram, etiqat hörmət-izzət də.
Sevgiyə bağlıdır ünsiyyətimiz,
İnsanlıq naminə qüdsiyyətimiz.
Sevgisiz ürəkdən cinayət törər,
Bədəməl baş verib, xəyanət törər.
Sevgisiz zirvəyə çıxmaq çətindir,
Zirvələr əlini sıxmaq çətindir.
Sevgisiz yaşayan çatmaz murada,
Yetişməz şərəfə, şöhrətə, ada.
Gəlin məhəbbətdən dağlar düzəldək,
Gülləri solmayan bağlar düzəldək.
Qoy ellər bu bağın barından yesin,
Onun bağbanına min rəhmət desin.
Yaşayaq, yaradaq eşq-həvəslə,
Taytuşla, yoldaşla, hey bəhsəbəhslə.
İnsana ruh verir, can verir həvəs,
Düşüncə, dərrakə qan verir həvəs.

Bəşərin taleyi həvəsə bağlı,
Ürəyə, ciyərə, nəfəsə bağlı.
Kiminki qəlbində yox məhəbbəti,
Çəkəcək dünyada çox əziyyəti.
Sevgi insanlara qol-qanad verir,
Övladi-bəşərə o nicat verir.
Sevərək yaşayın, qurun insanlar!
Dolanın, oturun, durun insanlar!

***Cəmil Əkbər*** 1968

## 142. HƏYATI SEVƏR OL! *İ d r a k n a m ə*

### *5 H İ S S Ə L İ  P O E M A*

### I h i s s ə

### *HƏYATI SEVƏR OL!*

Həyatı sevər ol, şən ol, nikbin ol!
İstər gözəl olun, istər çirkin ol!
Sevgisiz, fərəhsiz olma dünyada,
Dərd-möhnət içində solma dünyada.[1250]
Canından bezikmə, dərdi-qəm yemə,[1251]
Zilə meyil göstər, pəsdə bəm yemə.
Sevgisiz qaynayıb daşmaq çətindir,
Enişi-yoxuşu aşmaq çətindir.
Sevgisiz bir ömür yaşamaq deyil,
İnsanlıq borcunu daşımaq deyil.
Sevgisiz insanlar çatmaz murada, [1252]
Şərəfə, şöhrətə, bir fəxri ada. [1253]
Arzular, diləklər saralıb solar,[1254]
Məhəbbət mülkünün içi boş qalar.[1255]
Sevgisiz çırpınan ürək sayılmır,

---

[1250] Dərdi-qəm əlində solma dünyada.
[1251] Bezikmə həyatdan, qüssə-qəm yemə.
[1252] Sevgisiz yaşayan çatmaz murada.
[1253] Nə şərəf, nə şöhrət, nədəki ada.
[1254] Sevgisiz, arzular saralıb solar.
[1255] Könül dünyasının içi boş qalar.

Heç yerdə, heçkəsə gərək sayılmır.
Sevgisiz insanın qaralır qanı,
Heçkəsin olmasın onsuz bir anı.
Sevgi yaşamağın məhək daşıdır,
Ləli-gövhəridir, üzük qaşıdır.[1256]
Sevgidir insanın eşqi, vüqarı,
Onsuz bəhrə verməz könül diyarı.
Sevgisiz kimsənin olmaz həvəsi,
Sağlam düşüncəsi, saf əqidəsi.
Sevgidir insanın ləyaqəti də,
Dözümü, durumu, dəyanəti də.
Sevgiyə bağlıdır kef də, ləzzət də,
Etiram, etiqat, hörmət-izzət də.[1257]
Sevgiyə bağlıdır ünsiyyətimiz,
Ülviyyət, qüdsiyyət, şəxsiyyətimiz.
Sevgidir könüldə şəfəqlər saçan,
Hiddətdən, nifrətdən kənara qaçan.
Sevgisiz ürəkdə xəyanət olar,[1258]
Bədəməl törəyər, cinayət olar. [1259]
Sevərək yaşayın, qurun insanlar,
Dolanın, oturun, durun insanlar.
Sevərək yaşayan, əbədi yaşar,
Ölkələr dolanar, sərhədlər aşar.
Ülvi-məhəbbətdən dağlar düzəldək,[1260]
Çiçəkli, meyvəli bağlar düzəldək.[1261]
Qoy ellər bu bağın barından yesin,
Onun bağbanına min rəhmət desin.
Yaşayın, yaradın eşq-həvəslə,
Yoldaşla, taytuşla hey bəhsəbəhslə.
İnsana ruh verir, can verir həvəs,
Ruha qida verir, qan verir həvəs.
Bəşərin taleyi həvəsə bağlı,
Eşqə-məhəbbətə, nəfəsə bağlı.[1262]

---

[1256] 1) Ləli, cəvahiri, daşı-qaşıdır. 2) Gövhəri, ləlidir, üzük qaşıdır.
[1257] Kəramət, mürvət də, hörmət- izzət də,
[1258] Sevgisiz ürəkdə xəyanət törər,
[1259] Bədəməl baş verər, cinayət olar.
[1260] Gəl eşq-məhəbbətdən dağlar düzəldin,
[1261] Çiçəkli, meyvəli bağlar düzəldin.

Kiminki qəlbində yox məhəbbəti,
Çəkəcək hərzaman kini, küdrəti.
Anlayın dünyada bunu siz bilin,
Azmayın yolları, düz gedib-gəlin.
Hərkimin olarsa saf məhəbbəti,[1263]
Çəkərmi dünyada heç məşəqqəti? [1264]
Ey bəşər övladı bunu siz bilin,
Səadət yoluyla düz gedib-gəlin.
Sevməyi bacarın, sevilə bilin,
Sevərək yaşayıb, sevilib ölün.
Məhəbbət insana qol-qanad verir,[1265]
Səadət bəxş edib, o nicat verir. [1266]

**II h i s s ə**

***NƏZƏR SAL DÜNYAYA!***

Gedin hər şəhərə, gedin hər kəndə,
Fürsəti tapanda, yerigələndə,
Tanısın el-oba, adi bir bəndə.
Dinləyin qəlbləri, duyun diləyi,
Göstərin yardımı, edin köməyi.
Görün işləyəni, görün gəzəni,
Görün üzüləni, görün üzəni.
Bir bax qoçaq kimdir, tənbəllər kimdir?
Həyat yollarında əngəllər kimdir?
Ayırın yaxşını, seçin yamanı,
Seçin buğdasını, seçin samanı.
Qarışıb getməsin buğda samana,
Bərabər olmasın yaxşı-yamana,
Bizi qınamasın dövrü zəmanə.
Görün ac qalanlar, doyanlar kimdir?
Görün soyulan kim, soyanlar kimdir?

---

[1262] Ürəyə bağlıdır, nəfəsə bağlı.
[1263] Qəlbində olarsa saf məhəbbətin,
[1264] Yox olar qəlbində kinin-küdrətin,
[1265] Sevgi könüllərə qol-qanad verir,
[1266] İnsana ruh verir, o nicat verir.

Kimdi zəhmətkeşə zərbələr vuran?
Sussayıb qanına, zəlitək soran?[1267]
Baxın arana da, dağa da dostlar,
Zəmiyə, tarlaya, bağa da dostlar.
Duyun könüllərdən qopan səsləri,
Görün xeyirxahı, görün nəsləri.
Kimdir əlbir olan qurdla, qoyunla?
Kimdir məşğul olan odla, oyunla?
Görən haqlı kimdir, haqsızlar kimdir?
İnsaflılar kimdir, qansızlar kimdir?
Kimdir insanların qəddini bükən?
Ağladıb gözünün yaşını tökən.[1268]
Axtarıb-arayın, tapın qatili,
Görünsün, bilinsin zahir, batili.[1269]
Kimdir insanlığın qəsdinə girən?
Kimdir çox qoparan, kimdir az verən?
Kimdir ömürboyu kef eyləyənlər?[1270]
Var-dövlət toplayıb, nəf eyləyənlər?[1271]
Kimdir bu bəşərə ağılar verən?
Quldurlar bəsləyib, yağılar verən?[1272]
Kimdir evlər yıxıb, qapı bağladan?
Əsəbi korladıb, sinə dağladan?
Kimdir insanları vaxtsız qocaldan?[1273]
Vecsizi, karsızı tikib ucaldan?[1274]
Tanıyın yaxşı kim, yamanlar kimdir?
Bəhrə verməmişdən umanlar kimdir?
Ünsiyyət məqamı olmayın naşı,
Tanıyın tay-tuşu, yaxşı yoldaşı.
Çalışın dünyada aldanmayın siz,
Namərd kölgəsində daldanmayın siz.
Tanıyın ağ kimdir, qaralar kimdir,

[1267] Kimdi zəli kimi qanları soran.
[1268] Axıdıb gözünün yaşını tökən.
[1269] Görünsün ellərdə üzü batili.
[1270] Kimdir dəmtutanlar, kef eyləyənlər?
[1271] Qazanıb, götürüb nəf eyləyənlər?
[1272] Quldurlar böyüdüb, yağılar verən,
[1273] Kimdir cavanları vaxtsız qocaldan?
[1274] Fərsizi, karsızı tikib ucaldan?

Sağlam bir bədəndə yaralar kimdir.
Tutun yaxasından kəsin səsini,
Dağıdın cərgədən, səf dəsdəsini.
Kəsin qabağını, deyinki bəsdir!
Cəhalət, avamlıq artıq əbəsdir![1275]
Yetər qaralara ağ deyildiyi!
Kiçik təpələrə dağ deyildiyi.
Bəsdir astarlara üz deyildiyi!
Əyriyə üyrüyə düz deyildiyi!
Qəflət yuxusundan ayılın insan!
İnsantək tanının, sayılın insan![1276]
Gözlər yaranıbdır görmək üçündür,
Əql dərk eyləyib, bilmək üçündür.
Həqiqəti görün, bilin siz bunu,[1277]
Yatmayın qəflətdə görün siz sonu.[1278]
Qatıb-qarışdırma yaxşı-yamanı,
Axtarıb taparlar, gələr zamanı.
Olmayın dünyada əxlaq düşgünü,
Görməyin müsibət, nə də pis günü.
Yaxşını yamanı görə bilməsən,
Haqqın haqq yoluyla gedib-gəlməsən,
El nifrət eyləyib dalınca söyər,
Arxanca danışıb, bədinə deyər.[1279]
*"Getdi gündüzləri çölə, naxıra,*
*Gecələr qayıtdı yenə axura".*
Gəlin baxışlarda parçalanmayaq,
Fikirdə, xəyalda haçalanmayaq.
Hərzaman, hər yerdə bunu biz bilək,
Birlikdə çalışıb, şənlənək, gülək.[1280]
Obalar, oymaqlar, ellər bir olsun,[1281]
Arzular, istəklər, dillər bir olsun,[1282]

---

[1275] 1) Nadanlıq, cahillik artıq əbəsdir! 2) Nadanlıq, avamlıq, bilki əbəsdir!
[1276] Tanının, seçilin, sayılın insan.
[1277] Görüb həqiqəti, bilin siz bunu.
[1278] Baxın uzaqlara, görün siz sonu.
[1279] Nəfinə danışmaz, bədinə deyər.
[1280] Çalışaq bir yerdə, şənlənək, gülək.
[1281] Obalar bir olsun, ellər bir olsun.
[1282] Fikirlər bir olsun, dillər bir olsun.

Yaradan biləklər, əllər bir olsun.
Bəşəri yüz yerə xırdalamayaq,[1283]
Millətə, xalqlara zirdələməyək.[1284]
Soruşub deməyək sən haralısan?
Bakılı, Gəncəli, Qarabağlısan?
Şəkili, Salyanlı, Naxçıvanlısan?
Ayrımsan, Kürdsənmi, Kolanısanmı?
Muğanlı, Millimi, Şirvanlısanmı?
Bölməsin sərhəddi hərə bir yerə,
Kəsməsin aranı nə dağ, nə dərə.
Sərhədlər bir olsun, yerlər bir olsun,
Obalar, oymaqlar ellər bir olsun.[1285]
Şərqlilər, Qərblilər həmfikir olsun,
Şimal da, Cənubla oturub dursun.
Dost olub hər yerdə, süfrələr açaq,[1286]
Dostluq günəşindən şəfəqlər saçaq.[1287]
Qüvvələr azalar, parçalananda,
Fikirlər məhv olar haçalananda.
Arzular, əməllər, dilək bir olsun,
Nəbzlər bir vursun, ürək bir olsun,
Gəlin ey insanlar birlik yaradaq,[1288]
Bostanlar becərib, dirlik yaradaq.[1289]
Çəkilən əməyin bəhrəsi artsın,
Məhsulu bol olsun, hamıya çatsın.
Elin gücü, sel gücüdür deyiblər,
Tək-tək onu asanlıqla əyiblər.
*"El bir olsa zərbi kərən sındırar",*
Qanmazı da məcbur edib qandırar. [1290]

---

[1283] Bəşəri millətə bölüşdürməyək.
[1284] Dostları düşmənə gülüşdürməyək.
[1285] 1) Arzular bir olsun, sirlər bir olsun. 2)Ürəklər bir olsun, sirlər bir olsun.
[1286] Dost olub hər yerdə məclislər quraq.
[1287] 1) Sağlıqlar söyləyib, badələr vuraq. 2) Şərəfə söyləyib, badələr vuraq.
[1288] 1) Elin qüvvəsindən birlik yaradaq, 2) Gəlin aramızda birlik yaradaq,
[1289] Bostanlar becərək, dirlik yaradaq.
[1290] 1) Cahili də, nadanı da qandırar. 2) Qananları qanmazı da qandırar.

## III h i s s ə
## *ELƏ QAYĞI GÖSTƏR!*

Elə qayğı göstər bacardıqca sən,
Təzim et xalqına ucaldıqca sən.
Xidmət et canında, neçəki can var?
Hərzaman olmayır əldə ixtiyar.[1291]
Gözlə hüdudunu, keçmə həddini,[1292]
Bədəməl törədib bükmə qəddini.[1293]
Dərk edib, anlayın sözdə mənanı, [1294]
Sevin bu bəşəri, sevin insanı.[1295]
Hərzaman, hər yerdə yetişin dada,[1296]
İmdada çatanlar yetər murada.[1297]
Əyərki olmasan soyuq, biganə,[1298]
Unutmaz səni də dövrü-zəmanə.[1299]
Gördün ki, birinin pozulub halı,
Çoxalıb dərd-qəmi, artıb məlalı.[1300]
Ona təsəlli ver, qəlbini oxşa,[1301]
Dərdinə şərik ol, ruhunu oxşa. [1302]
Hərkim olursansa, ədalətli ol,
İnsaflı, mürvətli, səxavətli ol.
Görsənki tapdanır birinin haqqı,
Qoyma hakim ola haqqa-nahaqqı.
Ətir saç ellərə könül bağından,
Kölgə sal ətrafa cavan çağından.[1303]
Kölgəndə dincəlib sərinləsinlər,[1304]

---

[1291] Hərzaman əllərdə olmur ixtiyar.
[1292] Gözlə hüdudunu, aşma həddini,
[1293] Bədəməl törədib əymə qəddini.
[1294] 1)Dərk edib, anlayın, bilin məkanı. 2) Dərk edin, anlayın, bilin mənanı.
[1295] Sevin bu ölkəni, sevin cahanı,
[1296] 1) Hər yerdə, hərzaman yetişin dada, 2) Çalışın hərzaman yetişin dada,
[1297] 1) Haraya çatanlar yetər murada. 2) Haraya yetişən çatar murada.
3) Köməyə çatanlar yetər murada. 4) Köməyə çatmayan, tez gedər bada.
[1298] 1) Olma soyuqqanlı, olma biganə. 2) Olmasın xalqına soyuq, biganə,
[1299] 1) Səni də unutmaz bil ki, zəmanə. 2) Unutmaz o zaman səni zəmanə.
3) Unutmaz inankı səni zəmanə.
[1300] 1) Artıbdı qüssəsi, dərdi-məlalı. 2) Pozulub əhvalı, artıb məlalı.
[1301] Ona təsəlli ver, oxşa qəlbini,
[1302] Azalt kədərini, yox et dərdini.
[1303] 1) Kölgə sal ətrafa öz yarpağından. 2) Kölgə sal ətrafa öz butağından.

Onun bağbanına əhsən desinlər.[1305]
Gəlmisən dünyaya, sən hörmət qazan, [1306]
Min bir məna qazan, min hikmət qazan.[1307]
Bəşərin yükünü çəkəndən olun,
Bağ salıb, ellərə əkəndən olun.[1308]
Körpü sal üstündən, qoy ellər keçsin,
Bulaq çək, suyundan yananlar içsin.
Bəndlər qur, kanal çək, tarlalar suvar,[1309]
Halal zəhmət çəkən bəxtiyar olar.[1310]
Oxu kitabları vərəqlə bir-bir,
Dinlə ulu baban gör nə deyibdir? [1311]
İnsanam deyəndə vicdan gərəkdir,[1312]
Əqidə gərəkdir, saf qan gərəkdir.[1313]
Hərkəsə lazımdır əql sərvəti,[1314]
Dünyada ölməzdir onun qiyməti.
Heç zaman aldanma yeyib içməyə,[1315]
Şərab məclisində candan keçməyə.[1316]
Çox yeyib içənlər yarpağa döndü,
Payızı gələndə torpağa döndü.[1317]
Meylini salmaynan hərdəmxəyala,[1318]
Çalışarki səni salsınlar dala.[1319]
Həyatda hərkəsin öz izi gərək,[1320]

---

[1304] Kölgəndə oturub sərinləsinlər.
[1305] 1) Durub gedəndə də əhsən desinlər. 2) Durub gedənlər də əhsən desinlər.
[1306] Gəlmisən dünyaya, hörmət qazanın.
[1307] Mənalar qazanın, hikmət qazanın.
[1308] 1) Bağ salıb, calaq vur, əkəndən olun. 2) Bağ salıb, becərib, əkəndən olun.
[1309] Bəndlər tik, kanal çək, tarlalar suvar,
[1310] Hünərlə, zəhmətlə bu el şən olar.
[1311] Eşit babaları gör nə deyibdir?
[1312] İnsanda saf arzu, dilək gərəkdir,
[1313] Əqidə gərəkdir, məslək gərəkdir.
[1314] 1) Çalışın, toplayın əqili-sərvəti, 2) Hərzaman toplayın əqil sərvəti,
[1315] Aldanma dünyada yeyib içməyə,
[1316] 1) Şənlik məclisində candan keçməyə. 2) Məclislər başında candan keçməyə.
[1317] Çox yeyib içənlər irağa döndü,
[1318] 1)Aldanma dünyada hərdəmxəyala, 2) Qoşulma dünyada hərdəmxəyala,
3)Uymayın dünyada hərdəmxəyala,
[1319] 1) Çəkərlər salarlar dallardan-dala. 2) Çəkib salacaqdır səni də dala.
3) Çəkib salacaqlar qabaqdan-dala. 4) Çəkərlər, salarlar səni də dala.
[1320] 1) Hərkəsin həyatda öz izi gərək. 2) Hərkəsin həyatda öz izi olsun.

Öz eşqi-həvəsi, öz sözü gərək.[1321]
Çaşma həyatında doğru get yolu,[1322]
Sənətin şahı ol, Vətənin qulu![1323]

## IV h i s s ə

### *BƏDXAHLIQ ETMƏ!*

Bədxahlıq eyləmə, xoş niyyətli ol,[1324]
Açıq ürəkli ol, ünsiyyətli ol.[1325]
Övladı-bəşərə qəsd eyləməynən,[1326]
Yeməmiş, içməmiş məsd eyləməynən.[1327]
Qəsd etsən özünə düşmən taparsan,
Xəcalət çəkərsən, peşman olarsan.
Könül bulağının gözünü gen aç,
Həyat yollarında izini sən aç.
İnsan ol, insana vermə əzabı,[1328]
Nə şişi yandırma, nə də kababı,
Çəkərlər səndən də haqqı-hesabı.
Özünü bənzətmə, pələngə, şirə,
Təsir bərabərdir əks-təsirə.
Bu gün fərman səndə, boyun məndədir,[1329]
Sabah fərman məndə, boyun səndədir.[1330]
Buynuzsuz qoçun da, buynuzlu qoçda,
Qisası qalmayıb, heç bərkdə, boşda,[1331]
Uçurub, talayıb, dağıdan olma,[1332]
Bəşərə zülm edən yağıdan olma.[1333]

---

[1321] 1) Öz səsi, nəfəsi, öz sözü gərək. 2) Öz səsi, nəfəsi, öz sözü olsun.
[1322] 1) Çaşma bu dünyada doğru get yolu. 2) Sənətin şahı ol, vətənin qulu,
[1323] Çaşma həyatında doğru get yolu!
[1324] Saf arzu istəkli, xoş niyyətli ol.
[1325] Açıq ürəkli ol, təbiətli ol.
[1326] 1) Çalış ki, heçkəsə qəsd etməyəsən. 2) Heçkəsə zülm edib, qəsd eyləməynən.
[1327] Yeməmiş, içməmiş məsd etməyəsən.
[1328] 1) İnsan övladına vermə əzabı. 2) Çalışki insana vermə əzabı.
3) İnsansan-insana vermə əzabı.
[1329] Bu gün mən xəstəyəm, dərman səndəsə.
[1330] Sabah hökün, qərar, fərman məndədir.
[1331] Qisası qalmamış, nə bərkdə-boşda.
[1332] Uçurub, məhv edib dağıdan olma.
[1333] 1) Zülm edib, qəsd edən yağıdan olma. 2) Zülm edən, qəsd edən yağıdan olma.

Ünsiyyət zamanı olmayın naşı,[1334]
Əsəblər korlayıb, çatmayın qaşı,
Sızlatma heçkəsi, tökmə gözyaşı.[1335]
Xainlik, bədxahlıq versə əl-ələ,[1336]
Qoyarmı insanlıq əmələ gələ?[1337]
Girərsə qəlblərə bu mənfur iblis,[1338]
Didib könülləri eyləyir müflis.[1339]
Sussayar qanlara, didər qurd kimi,[1340]
Xərabə eyləyər köhnə yurd kimi.
Çəkər sinələrə çal-çarpaz dağı,[1341]
Saralıb quruyar məhəbbət bağı,
Vicdanı eyləyər könül dustağı.[1342]
Olmayın nə paxıl, nə qəlbiqara,
Paxıllıq, xainlik, insanlıq hara? [1343]
Gəlin məhv eyləyək xəbislikləri,[1344]
Tamah, acgözlüyü, hərislikləri. [1345]
Gəlin məhv eyləyək günahları biz,
Qəlbiqaraları, bədxahları biz.
Gəlin bu qurdların başını əzək,[1346]
Qurtaraq əlindən asudə gəzək.[1347]
Ürəkdə bu qurdu yaşatmayaq biz, [1348]
Nəsildən-nəsilə daşıtmayaq biz.[1349]
Yol açıb könüldə sevinclər görün,[1350]

---

[1334] 1) Çalış ünsiyyətdə olmaynan naşı, 2) Cahillik eyləmə, olmayın naşı. 3) Çalış ünsiyyətdə olmayın naşı.

[1335] 1) Qanları qaraldıb, tökmə gözyaşı. 2) Qanları qaraltma, tökmə gözyaşı! 3) Sızladıb heçkəsi tökmə gözyaşı.

[1336] Bu qara qüvvələr versə ələlə.

[1337] İnsanlar içinə salar vəlvələ.

[1338] Qəlblərə girməsin bu qara iblis.

[1339] 1) Girib istəkləri etməsin müflis. 2) Didib istəkləri etməsin müflis.

[1340] Girərsə qəlblərə yeyər qurd kimi.

[1341] 1) Qoymaz bəhrə versin, məhəbbət bağı. 2) Meyvələr yetirməz məhəbbət bağı.

[1342] Eyləyər vicdanı könül dustağı.

[1343] Paxıllıq, bədxahlıq, insanlıq hara?

[1344] Gəlin məhv eyləyək xəbisləri biz.

[1345] 1) Acgöz alçaqları, hərisləri biz. 2) Acgöz, qarınqulu, hərisləri biz. 3) Acgözlük, alçaqlıq, hərislikləri.

[1346] 1) Xainlik qurdunun başını əzək, 2) Paxıllıq qurdunun başını əzək.

[1347] Asudə dolanıb, asudə gəzək.

[1348] Bu qurdu ürəkdə yaşatmayın siz.

[1349] 1) Hicranın yükünü daşıtmayaq biz. 2) Hicranın yükünü daşıtmayın siz.

Onun bağlarından incilər dərin.[1351]
Heçzaman nahaqdan evlər yıxmayın,
Qanları qaraldıb, qəlblər sıxmayın.[1352]
Nahaqdan tökəndə gözyaşını sən,
Eləbil kəsirsən öz başını sən.
Tökdüyün gözyaşı axıdar səni,
Vurub qayalara dağıdar səni.
Haqsız qantökənin tökülür qanı,
Canları alanın, alınır canı,[1353]
Hərcürə hüququ, şövkəti-şanı.
Başkəsən cəlladın özü can verir,[1354]
Qansoran zəlinin özü qan verir.[1355]
Xana dağıdanın evi yıxıldı,[1356]
Növrağı pozuldu, kefi pozuldu,
Dövranı pozuldu, dəbi pozuldu.
Sanmayın kimsəni anlamaz, qanmaz,
Zənnetmə höyüşdür, yandırsam yanmaz.[1357]
Bədəməl törətmək yaraşmaz bizə,[1358]
Bəd işlər qalmasın qoy nəslimizə.[1359]
Düşünün həyatda nə iş görmüsən?[1360]
Nəqədər insana xeyir vermisən?[1361]
Ağac əkmisənmi, bağ salmısanmı?
İncik könülləri de almısanmı?
Kimsənin xeyrinə qarışmısanmı?[1362]
Düşünüb, dərk edib danışmısanmı?[1363]

---

[1350] 1) Yol açıb könüldə sevinclər görək. 2) Onların yerində sevinclər görək. 3) Yol açaq könüldə sevinclər görək.
[1351] 1) Könüllər bağından incilər dərək. 2) Onun bağlarından incilər dərək.
[1352] 1) Ürəklər ağrıdıb, qəlblər sıxmayın. 2) Başları ağrıdıb, qəlblər sıxmayın.
[1353] 1)Alınır hüququ, alınır canı. 2) Haqsız can alanın, alınır canı.
[1354] Çox can alanların özü can verir.
[1355] Zəlitək qan soran özü qan verir.
[1356] Çox evlər yıxanın yıxıldı evi.
[1357] Deməki od vursam alışıb yanmaz.
[1358] Qan töküb, zülm etmək yaraşmaz bizə,
[1359] Bədxahlıq qoymayaq qoy nəslimizə.
[1360] Düşünək həyatda nə iş görmüşük?
[1361] Nəqədər insana xeyir vermişik?
[1362] Kimsənin xeyrinə danışmısanmı?
[1363] İşinə-gücünə qarışmısanmı?

Elləri, obanı yad etmisənmi?[1364]
Könüllər oxşayıb, şad etmisənmi?[1365]
Başına qoyanda vəzifə tacı,
Baxdınmı xalqına sən də qiyqacı?[1366]
Nəqədər könüllər qırmısan qafil?
Qaşlara düyünlər vurmusan qafil?
Şər-böhtan danışıb vursan aralıq,[1367]
Ellərdən alarsan üzüqaralıq.[1368]
Nəqədər yaşasan incitmə xalqı,
Yalvardıb, yaxardıb, yoncutma xalqı.
Çalış el dərdinə qarışandan ol,[1369]
Öyrənib halını soruşandan ol.[1370]
Bu bəşər övladı unutmur haqqı,
Unutmur pisliyi, nə də nahaqqı.
Yaxşıya min əhsən, min rəhmət deyir,
Pisə nifrət edir, min lənət deyir.
Gedin büdrəyənin qolundan tutun,
Onun köməyinə, dadına çatın.
Əbəsdir havayı tökülən qanlar,
Tükənən qüvvələr, üzülən canlar.
İnsaf et bu bəşər cana doymasın,
Yerlərə tökülən qana doymasın. [1371]
Bir düşün, ey zalım evlər yıxanda, [1372]
Əsəblər korlayıb, ürək sıxanda. [1373]
Öz könül sarayın söküləcəkdir,
Dağılıb kökündən töküləcəkdir,
Sənin də gözyaşın selləncəkdir. [1374]
Yığdığın var-dövlət haraya çatmaz,[1375]

---

[1364] Axtarıb arayıb yad etmisənmi.
[1365] Könüllər mülkünü şad etmisənmi?
[1366] 1) Xalqına baxdınmı xain, qiyqacı? 2) Baxdınmı xalqına soyuq, qiyqacı?
[1367] 1) Nəqədər şər deyib vurdun aralıq? 2) Şər-böhtan danışıb vurdun aralıq?
[1368] 1) Almısan ellərdən üzü qaralıq. 2) Ellərdən almısan üzüqaralıq.
[1369] Ellərin dərdinə qarışdınmı sən?
[1370] Öyrənib halını soruşdunmu sən?
[1371] 1) Nahaqdan tökülən qana doymasın. 2)Bu bəşər övladı cana doymasın,
3) Bəşərin övladı cana doymasın.
[1372] Düşünün zalımlar evlər yıxanda,
[1373] Qanları qaraldıb ürək sıxanda.
[1374] Gözyaşın sel kimi töküləcəkdir.

Dar günə düşəndə əlindən tutmaz.[1376]
Ay zalım bir düşün, ali canlısan, [1377]
Həssas bir varlıqsan, nəcib qanlısan.[1378]
İnsan yaranıbdır, qurmaq üçündür, [1379]
Sülhün keşiyində durmaq üçündür.[1380]
Son qoyun davaya-dalaşa bir an,[1381]
Qovğaya, təşvişə, təlaşa bir an. [1382]
Döyülən, əzilən, əzən olmasın,
Bezdirən, bezikən, bezən olmasın.[1383]
Bir gün bu dünyadan köç edən zaman,
Ellər deməsin ki, *"Gəbərdi heyvan!"*
***Cəmil Əkbər*** 1968

**V hissə**

***HAMIYA BORCLUSAN!***

Vaxt olub körpəcə uşaq olmusan,[1384]
İllər dolandıqca yaşa dolmusan.
El səni bəslədi ustad olmağa,[1385]
Çatıb harayına imdad olmağa.[1386]
Hərənin öz işi, öz gücü vardır,
Zəfərlər çalmağa öz tacı vardır.
Biri bağ becərir, ağaclar əkir,[1387]
Biri də şum edir, pambıq becərir.[1388]

---

[1375] Yığdığın pul-para haraya çatmaz,
[1376] 1) Gəlib dar günündə əlindən tutmaz. 2) Əcəl məqamında əlindən tutmaz.
[1377] İnsansan, düşün ki, ali canlısan.
[1378] Müqəddəs arzulu, isti qanlısan.
[1379] İnsanıq, yaradıb qurmaq üçünük.
[1380] Sülhün keşiyində durmaq üçünük.
[1381] Son qoyaq davaya-dalaşa gəlin.
[1382] 1) Uymayın qal-qovğa təlaşa gəlin. 2) Qal-qovğa, həyəcan, təlaşa gəlin
3) Qovğa, həyəcana, təlaşa gəlin.
[1383] Nadanlar əlindən bezən olmasın.
[1384] Vaxt olub gənc olub, şagird olmusan,
[1385] El səni böyütdü ustad olmağa,
[1386] Haraya çatmağa, imdad olmağa.
[1387] Biri bağ becərdi, ağaclar əkdi.
[1388] Birisi tarlada zəhməti çəkdi.

Biri quyu qazır, nefti çıxarır,
Biri qaya çapır, filiz çıxarır.
Biri kəşf eyləyir, qanunlar açır,
İdrak şüasından şəfəqlər saçır.[1389]
Birisi əlifba, savad öyrədir.[1390]
Biri zəhmət çəkib, sənət öyrədir.[1391]
Biri paltarını toxuyub, tikir,
Biri yollar salır, biri ev tikir.[1392]
Biri çörəyini bişirir sənin,[1393]
Birisi küçəni süpürür sənin,
Biri də yükünü düşürür sənin.
Biri sərhədlərdə keşiyindədir,[1394]
Vətən kənarının eşiyindədir.[1395]
Oğul yaxşı eşit, yaxşı bil bunu,[1396]
Bəşərin övladı, sən olduğunu.
Boynunda ellərin haqq-sayı var,
Dürlü töhfəsi var, çoxlu payı var.[1397]
Bir peşə sahibi olduğun zaman,
Min peşə sahibi saxlayıb inan.
Gəlin peşəmizlə hörmət qazanaq,
Hər zaman şərəf-şan, şöhrət qazanaq.
Bizki borçlu qaldıq bu xalqa, elə,
Çəmənə, çiçəyə, gülə, bülbülə.
Borcluyuq böyüyə, yaşlılara da,
İdraklı, kamallı başlılara da.
Borcluyuq ellərin hörmətinə də,
Borcluyuq insanın zəhmətinə də.
Borcluyuq dünyanın nemətinə də,
Səxavət, kəramət, mürvətinə də.

---

[1389] İdrakdan, zəkadan şəfəqlər saçır.
[1390] Biridə dərs deyir, savad öyrədir,
[1391] Birisi dərs deyir, sənət öyrədir,
[1392] 1) Biri papaq tikir, biri ev tikir. 2) Biri məktəb tikir, biri ev tikir.
[1393] 1) Biri çörəyini bişirib sənin, 2) Biri xörəyini bişirib sənin,
[1394] 1) Birisi sərhəddə keşiyindədir, 2) Biri də sərhəddə keşiyindədir.
[1395] Vətən kənarında, eşiyindədir,
[1396] Oğul yaxşı oxu, yaxşı bil bunu,
[1397] 1) Nəqədər töhvəsi, çoxlu payı var. 2) Çoxlu töhvəsi var, çoxlu payı var.

Gəlin borcumuzu ödəyək müdam,[1398]
Elə təzim edək, baş əyək müdam.[1399]
Aldığın borcun var, dolanma veyil,[1400]
Nəqədər çalışsan ödənən deyil.
Bir vaxt el-obadan əmanət aldın,
Böyüdün, yetişdın kamallı oldun.[1401]
Məfkurə qazandın, amala doldun.
İndi xidmətinlə borcunu qaytar, [1402]
Borcunu qaytarsan, hörmətin artar.
Sənki bu dünyaya, cahana gəldin,[1403]
Dərk edib, anlayıb, öyrənib bildin.[1404]
Burada yaşadı ata-babalar,[1405]
Ağbirçək nənələr, müdrik atalar.[1406]
Yaşamış, yaşayır dostlar tanışlar,[1407]
Taytuşlar, qohumlar, bacı, qardaşlar.
Burada iz saldı köhnə nəsillər,[1408]
İndiki, gələcək körpə nəslillər.
Burada görmüşük nəfimizi də,[1409]
Doğrunu, düzü də, səhfimizi də.[1410]
Düşünüb dərk edək, anlayaq daha,
Cəhalət əlindən qurtarsın yaxa.
Gəlin nöqsanları yox eyləyək biz,[1411]
Artıraq nəşəni, çox eyləyək biz.
Qocaman bağbantək, bağlar becərək,

[1398] Gəlin bu borcları ödəyək bir-bir.
[1399] Elə təzim edib, baş əyək bir-bir.
[1400] Günü boş keçirmə, dolanma veyil.
[1401] Yeyərək, içərək kamala doldun.
[1402] Eləki böyüdün borcunu qaytar.
[1403] Ellərin içində dünyaya gəldik.
[1404] Yaşadıq, yaratdıq, sevindik, güldük.
[1405] Yaşadı ən qədim ulu babalar.
[1406] Ağbirçək nənələr, müdrik babalar.
[1407] Burada yaşayır dostlar tanışlar.
[1408] Burada iz salmış köhnə nəslimiz.
[1409] Burada görmüşük nəfi də dostlar.
[1410] Görmüşük düzü də, səfi də dostlar.
[1411] Gəlin avamlığı yox eyləyək biz.

Şamama üstündə tağlar becərək,
Bol məhsul yetirək, meyvələr dərək.[1412]
Bu bağın meyvəsi arzu, istəkdir,[1413]
Sevgi, məhəbbətdir, ülvi diləkdir.[1414]
Bu bağın meyvəsi şandır, şöhrətdir,[1415]
Ədəbdir, ərkandır, abır, ismətdir.[1416]
Gəlin biz bəsləyək bu meyvələri,[1417]
Yaddan çıxartmayaq biz nəvələri.
Bəhrə-bar yetişib onlara çatsın,[1418]
Yedikcə, içdikcə, murada çatsın.[1419]
Bu bağda şərəf-şan, şöhrət yetişsin,
Ar-namus bəslənsin, qeyrət yetişsin.
Arzular gül açsın, könül bağında,
Gözəl Vətənimin aran, dağında.
Bəslənsin ürəkdə sağlam niyyətlər,
Sədaqət naminə, saf ünsiyyətlər.
Ona daş atmasın gəlib-gedənlər,
Ona lağ etməsin yolnan ötənlər,[1420]
Həyat yollarında koltək bitənlər.
Deməsin babalar tənbəl olublar,
Qalmaqal salıblar, cəncəl olublar.
Həyat yollarında əngəl olublar.
Deməsin babalar həris olublar,
Nanəcib olublar, naqis olublar,
Bəd işə, bəd sözə səbəb olublar.
Deməsin babalar, qanmayıb gedib,
Yaxşını-yamanı sanmayıb gedib.
Deməsin babalar tamahkar olub,
Bəd işə, əmələ, səbəbkar olub,

---

[1412] Barlı budağından meyvələr dərək.
[1413] Bu bağın meyvəsi ürəklərdədəir,
[1414] Sevgi, məhəbbətdə, diləklərdədir.
[1415] Bu bağda şan-şərəf, şöhrət yetişsin,
[1416] Abırlar saxlansın, ismət yetişsin,
[1417] Gəlin yetişdirək bu meyvələri,
[1418] Bu bağın meyvəsi onlara çatsın,
[1419] Yedikcə arzuya, murada çatsın.
[1420] Bağ qədri bilməyən, yolnan ötənlər.

Vicdanı önündə günahkar olub.
Deməsin babalar paxıl olubdur,
Nəfsinin əsiri, daxıl olubdur.
Dağıdıb, talayıb qurd olub gedib, [1421]
Cəlalı pozulub, yurd olub gedib.[1422]
Deməsin qansoran, zəli olubdur,[1423]
İtirib əqlini, dəli olubdur.[1424]
Hiyləgər, dələduz, yaltaq olubdur, [1425]
Dəymədüşər olub, şıltaq olubdur. [1426]
Deməsin babalar, nadan olubdur,
Var-hal qazanmamış udan olubdur.
Qoy onlar görməsin avamlıq nədir,
Bəşərə qəsd etmək, yamanlıq nədir?
Cəhalət, avamlıq, nadanlıq nədir?
Nəvələr qoy bizdən əməl öyrənsin,
Binalar tikəndə təməl öyrənsin.
Çalışmaq, yaratmaq, əmək öyrənsin,
Qayğılar göstərmək, kömək öyrənsin.
Hərkəs ad qazansın öz hünərilə,
Yaşasın zəhmətlə, alıntərilə.
Müdrik babalara min rəhmət desin,
Ehtiram göstərib, hörmət bəsləsin.[1427]
Fəxr etsin nəvələr öz babasıyla,[1428]
Sənət babasıyla, söz babasıyla.
Öyünsün, sevinsin öz keçmişilə,
Həyat yollarının keşməkeşilə.
Öyrənsin yazmağı Nizamisindən,
Dərs alsın şairin söz "Xəmsə"sindən.[1429]
Öyrənsin mərdliyi Nəsimisindən,

---

[1421] Dədələr, babalar qurd olub gedib,
[1422] Pozulub növrağı yurd olub gedib.
[1423] Deməsin babalar zəli olubdur,
[1424] Kəmağıl, gicbəsər, dəli olubdur,
[1425] Hiyləgər, dələduz, yaltaq olubdur,
[1426] 1) Deməsin babalar şıltaq olubdur, 2) Deməsin hoqqabaz, şıltaq olubdur,
[1427] Ehtiram göstərsin, hörmət bəsləsin.
[1428] 1) Fəxr etsin gənc nəsil öz keçmişilə, 2) Qoy gənclər fəxr etsin öz keçmişilə,
[1429] Dərs alsın ustadın söz "Xəmsə"sindən.

Babaəkdən, Nəbidən, Koroğlusundan.
Öyrənsin sevməyi, Kərəm, Məcnundan,
Sabirdən, Caviddən, Müşviq, Vurğundan,
Fikir dünyasının yorğunlarından.[1430]

***Cəmil Əkbər*** 1968

## 143. SON GÜNƏ

Yer üzündə baqidir, xeyir ilə şər hələ,
Seçilməyib nədənsə, gövhər ilə zər hələ?
Əfsus olsun az gəlir, yaxşıların sədası,
Xatırlanmır ad-sanı, alınmayır qadası.
Çoxlarını sarsıdıb, gözlərini kor edir,
Sanki girib qəsdinə, gücə salıb zor edir.
Əfsus olsun çox qəlbə, xeyirxahlıq yatmayır,
Kəlləsinə yerləşib, idrakına batmayır.
Gözlərində mələk də, əqrəb, iblis görünür,
Çalan-çapan görünür, xain-xəbis görünür.
Neyləyəsən beləsi, aramızda var hələ,
Əqrəb, çayan, qurbağa, kərtənkələ, mar hələ.
Əfsus olsun nədənsə, yaxşılar yaddan çıxır,
Nimdaş paltarlar kimi, sıradan, moddan çıxır.
Az axtarıb, anırıq, qoluna az giririk,
Möhübünü az düzüb, hörməti az edirik.
Sağlığında xidməti, zəhməti çox olsa da,
Qayğısı çox olsa da, hörməti çox olsa da,
Məqamında hayıf ki, qədri çox az bilinir,
Yanına az gedilir, yanına az gəlinir.
Xatırlayıb çox zaman, adını da anmırıq,
Harayına yetişib, dadına da çatmırıq.
Əfsus olsun bəzən də, xətirinə dəyirik,
Varlığını sarsıdıb, qamətini əyirik.
Əsəbini korlayıb, ürəyini qırırıq,
Zora salıb qolunu, biləyini qırırıq.
Haqqında bəd danışıb, qaşlarını çatırıq,
Fitnə-fəsad törədib, aralığı qatırıq.
Xidmətini unudub bəzən də pis deyirlər,

[1430] Məhəbbət əhlinin öz yorğunundan.

Ünvanına, adına bəzən də nəs deyirlər.
Əfsus olsun nədənsə yaxşılar az görünür,[1431]
Açılmır qaş-qabağı, kefi nasaz görünür.
Dəyərinə münasib, qiyməti düz verilmir,[1432]
Qayğısı az çəkilir, zinəti düz verilmir.[1433]
Yaxşıların yerinə, pislər başa çəkilir,[1434]
Vara-hala çataraq daşa-başa çəkilir.[1435]
Aldanırlar nəfisə, satılırlar dinara,[1436]
Yaxşıları bir anda, tullayırlar kənara.[1437]
O məqama birisi, həmən gəlib oturur,
Zibilləyib hər yanı, həndəvarı batırır.
Al şəfəqin üzünü duman gəlib bürüyür,
Günəş isə örtülüb, böylə qalıb çürüyür.[1438]
Zaman verir hökmünü, pisə dözmək olmayır,[1439]
Axıracan onunla gedib gəzmək olmayır.
Tezi-geci vaxt gəlir, hərkəs tutur yerini,
Hər əməlin, hər işin, tarix açır sirrini.[1440]
Alim tutur yerini, nadan tutur yerini,
Heyvan tutur yerini, adam tutur yerini.
Pisin oğlu pislərdən, xalqın canı qurtarır,
Hay-həşiri qurtarır, ah-amanı qurtarır.
Nə deyəsən zamana, belə qurub qurğunu,
Bacarırsan uzaq ol, olma fikir yorğunu.
Ay Cəmil, dözək gərək, yaxşı pisin cənginə,[1441]
Sinə gərib, tablaşıb qalmalıyıq son günə.

***Cəmil Əkbər*** 15-20 // XII – 1989

---

[1431] Məclislərin başında yaxşılar az görünür.
[1432] Dəyəri düz ölçülüb, qiyməti az verilir.
[1433] Qayğısı az çəkilir, zinəti az verilir.
[1434] Yaxşıların yerinə, pisə yaxşı deyilir.
[1435] Xeyirxahın yerinə, nəsə yaxşı deyilir.
[1436] Aldanaraq nəfisə, satılaraq dinara.
[1437] Yaxşıları nədənsə, tullayırlar kənara.
[1438] Güləş isə biçilmir zaman-zaman çürüyür.
[1439] Zaman ötür, vaxt keçir, pisə dözmək olmayır.
[1440] Bədəməlin, işlərin tarix açır sirrini.
[1441] Dözməliyik həyatda, yaxşı-pisin cənginə.

## 144. ONA QARA YAXMAYIN!

***VLADİMİR İLİÇ LENİNƏ***

O loğmanlar loğmanı, dahilər-dahisidir,[1442]
Ustadlar ustadıdır, banilər-banisidir.[1443]
Dəryalardan dərindir, dağlardan da ucadır,
Cavanlardan-cavandır, qocalardan-qocadır.
Düşüncə, məfkurədə, fikirdə də dərindir,[1444]
Dərrakədə, kamalda, zikirdə də dərindir.[1445]
Onun sözü ədalət, onun özü ədalət,[1446]
Onun yolu haqq yolu, onun izi həqiqət.[1447]
Ona ləkə yaxmayın, ona qara yaxmayın,
Ona zərbə vurmayın, ona yara çaxmayın.
Ona qara yaxanın, dilinə düyün düşər,
Ayağına qandalaq, əlinə düyün düşər.[1448]
Şəhərinə, kəndinə, elinə düyün düşər,
Hiylə dolu fəndinə, felinə düyün düşər.[1449]
Ona qara yaxanda nə vicdan var, nə kamal,[1450]
Nə insaf var, nə mürvət, nə əqidə, nə amal.[1451]
Ona qara yaxanın ürəyində kin yatır,
Bədxahlığa hökm edən, iblis, şeytan, cin yatır.[1452]
Ona qara yaxanın, gözü-ağızı əyilər,
Ünvanına min lənət, təhqir söyünc deyərlər.
Ona qara yaxanda, nə ideya, nə məslək,
Zəhmətkeşə nə hörmət, nə xoş arzu, nə istək.
O azadlıq carçısı, o səadət carçısı,[1453]
Xoş ənənə carçısı, gözəl adət carçısı.

---

[1442] O dahilər dahisi, loğmanlar loğmanıdır.
[1443] O dənizlər dənizi, ümmanlar ümmanıdır.
[1444] O xəyalda dərindir, o fikirdə dərindir.
[1445] Düşüncə, dərrakədə, o zikirdə dərindir.
[1446] Onun sözü həqiqət, onun özü ədalət.
[1447] Onun yolu doğruluq, onun izi ədalət.
[1448] Ayağına qandallar, əlinə düyün düşər.
[1449] 1) Düşər eniş-yoxuşa, felinə düyün düşər. 2) Hiləsinə, məkrinə, felinə düyün düşər.
[1450] Ona qara yaxanda, nə əqil var, nə kamal.
[1451] Nə vicdan var, nə məslək, nə əqidə, nə amal.
[1452] Əqrəb-iblis hökm edir, şeytan yatır, cin yatır.
[1453] 1) O azadlıq carçısı, səadət carcısıdır. 2) Ona qara yaxmayın, səadət carcısıdır.

O ədalət carçısı, o həqiqət carçısı,
Xoş arzular, pak istək, o saf niyyət carcısı,
Ülvi məram carçısı, eşq-məhəbbət carçısı.[1454]
Fəzilət carçısıdır, bəraət carçısıdır,
Xalqıma məxsus olan xoş adət carçısıdır.
O bəşəri-aləmin, cəmiyyət carçısıdır,
Cəsarət carçısıdır, qətiyyət carçısıdır.
Ona qara yaxaraq, sevinməsin nadanlar,
Tərbiyədən kəm-kəsir, dadar-doymaz, dadanlar.
Cəmaəti yolundan eyləməsin gədələr,
Əqidəsi, vicdanı, məsləki kəm zədələr.
Ona qara yaxanın çənəsi də əyilər,
Tarix onu qınayar, ünvanına söyülər.
Ona qara yaxaraq, xalqı çaşbaş salmayın,
Kəc fikirə, xəyala, düşüncəyə dalmayın.
Bu bəşəri yolundan eyləməsin nadanlar,
Hər ağızına gələni söyləməsin gədalar.
O hamıya süfrədir, bin-bərəkət çörəkdir.
O hamıya arxadır, imdad, yardım, köməkdir,[1455]
Bu gün, sabah, gələcək, o hərkəsə gərəkdir.[1456]
O hamını düşünür, o hamını dərk edir,
Cəhaləti tərk edir, nadanlığı tərk edir.
Ona qara yaxanın özü pis olacaqdır,[1457]
Qarışaraq tüsdüyə özü his olacaqdır.[1458]
Alarsız zərbələri, özünüz məhv olarsız,
Yol-izini azarsız, özünüz səhv olarsız.
Onun yolu doğrudur, onun izi doğrudur,
Fikirləri sağlamdır, onun sözü doğrudur.
O qartal baxışlıdır, uzaqları düz görür,[1459]
Zalım, qəddar əlində yazıqları tez görür.[1460]
Ona qara yaxmayın, o günəş parçasıdır,
O alov parçasıdır, o atəş parçasıdır.

---

[1454] Müqəddəsliyin rəmzi, saf məhəbbət carçısı.
[1455] O hamıya arxadır, o hamıya köməkdir,
[1456] Tək özünə deyildir, o hamıya gərəkdir.
[1457] Ona qara yaxmayın, özünüz pis olarsız
[1458] Qərq olub tüstülərə, özünüz his olarsız.
[1459] O qartal gözləriylə uzaqları düz görür.
[1460] O zalımı, cəlladı, yazıqları tez görür.

Ona qara yaxmayın, doğru yolgöstərəndir,
Fikirləri yerbəyer, bizə bol göstərəndir.
Bu bəşərin sözünü Lenindən öyrənmişik,
Hər yolunu, izini, Lenindən öyrənmişik.
Sözlərində min hikmət, həqiqəti görmüşük,[1461]
İnsanlığa xas olan ləyaqəti görmüşük.
Azadlığı dərk edib, səadəti görmüşük,
Etibarı, ilqarı, sədaqəti görmüşük.
Yaşamağı dərk edib, yaşatmağı görmüşük,
Ömürləri, günləri uzatmağı görmüşük.
Gəlin ondan öyrənək, ona ağız büzməyək,
Ondan aralanmayaq, kənarlarda gəzməyək.[1462]
Ona qara yaxanın xəbəri yox dünyadan,
Xəzan vuran bağının, heç ətri yox dünyada.[1463]
O istəyir arada xəyanətlər olmasın,
Giley-güzar olmasın, şikayətlər olmasın.
Kin-kidurət olmasın, ədavətlər olmasın,
Xəta-bəla törəyib, cinayətlər olmasın,
Xalqı boğan nadanlıq, cəhalətlər olmasın.[1464]
Onun qəlbi məzluma məhəbbətlə doludur,
Sədaqətlə doludur, səxavətlə doludur.
İnsaf ilə, rəhmlə, mürvət ilə doludur,
Bəxşeyişlə doludur, ənaətlə doludur.
Onun qəlbi zalıma ədavətlə doludur,
Qəzəb, kin, nifrət ilə, küdurətlə doludur.
Od alovla doludur, hərarətlə doludur,
Zərbə ilə doludur, xəsarətlə doludur.
Ona qara yaxmayın, səadəti car çəkir,
Gözəl arzu-istəyi, xoş adəti car çəkir.
İnsanlığı car çəkir, ləyaqəti car çəkir,
Doğruluğu, düzlüyü, həqiqəti car çəkir.
Yol-ərkanı, ədəbi, mərifəti car çəkir,
Ülviliyi, paklığı, təravəti car çəkir.
O istəyir arada həşarətlər olmasın,

[1461] O sözdə biz ədalət, həqiqəti görmüşük.
[1462] Ondan ayrı düşməyək, ondan ayrı gəzməyək.
[1463] Ürəklərdə iz salan, sətiri yox dünyada.
[1464] Nadanlıqlar olmasın, cəhalətlər olmasın.

Xalqa dəyən xətalar, xəsarətlər olmasın.
Nə ağalar, nə qullar, nə də bəylər olmasın,[1465]
Nə sərsəri, kəmağıl, nə də səylər olmasın.
Haqsızlıqlar olmasın, qəbahətlər olmasın,
Nəs arzular, istəklər, nəs niyyətlər olmasın.
Nə əzilən olmasın, nə əzənlər olmasın,
Nə zülm edən, bezdirən, nə bezənlər olmasın.[1466]
Ona qara yaxmayın, yolgöstərən dahidir,
Sanmayın ki, bir anlıq gəlib-gedər, anidir.
O bəşərin amalı, diləyidir, diləyi,[1467]
Hər bir xalqın döyünən ürəyidir, ürəyi.[1468]
Ona qara yaxmayın, müdriklərdən müdrikdir,
Ayıqlardan ayıqdır, zirəklərdən zirəkdir.
Taleyindən küsənlər, inciyən də olmasın,
Ona-buna yalvarıb, yoncuyan da olmasın.
Ona qara yaxmayın, o parlayan günəşdir,
O od alov, ocaqdır, o əbədi atəşdir.
O dəryadır, ümmandır, o çeşmədir, dənizdir,
O ülvüdür, o pakdır, bəşər üçün əzizdir.
Deyərdim ki, cahanda tək deyildir günəş də,
Biri göydə dövr edir, biri yerdə dövr edir.
Bəşər oğlu əzəldən bu günəşlə yaşayır,
O günəşlə isinir, o günəşlə yaşayır.
O günəşlə istiyə, həm də nura boyanır.
Ona qara yaxanın, ədaləti hardadır?
İnsanlığa xidməti, ləyaqəti hardadır?
O  bəşəri, insanı səadətə səsləyir,
Ən gözəl bir günlərə, xoş adətə səsləyir.
O bəşəri paklığa, ləyaqətə səsləyir,
Doğruluğa, düzlüyə, həqiqətə səsləyir.
O deyir ki, nə əzən, nə əzilən olmasın,
İşsiz qalıb arada, bekar gəzən olmasın.
Min əzaba əzyətə, dözənlər də olmasın,
Gen dünyada canından, bezənlər də olmasın.

---

[1465] Nə ağalar, nə xanlar, nə də bəylər olmasın.
[1466] Nə dözdürən olmasın, nə dözənlər olmasın.
[1467] Ona qara yaxmayın, o bəşərin diləyi,
[1468] Dar məqamda, ayaqda o hamının ürəyi.

Tüfeylilər olmasın, zəlilər də olmasın,
Əqli-kəmlər olmasın, dəlilər də olmasın.
Taleyindən küsənlər, inciyən də olmasın,
Zalımlara yalvaran, yoncuyan da olmasın.
Ona qara yaxmayın, düz düşünən adamdır,
Doğru, dürüst fikirlə, tez düşünən adamdır.

***Cəmil Əkbər*** 3. 08 -1989

## 145. HƏYAT İMTAHANDIR

Qulaq as sözümə əqilli balam,[1469]
Mənki yaşa dolmuş bir ağsaqqalam.[1470]
Həyat imtahandır, həyat sınaqdır,[1471]
Görək kim verəcək, kim çıxacaqdır?
Burada bilinir güc də, qüvvət də,[1472]
Qələbə, təntənə, məğlubiyyət də.[1473]
Biri iki alır, biri beş alır,[1474]
Biri ayaq olur, biri baş olur.
Biri imtahanı zəfərlə verir,[1475]
Cəsarət göstərir, hünərlə verir.[1476]
Dərindən düşünür, dərk edir, qanır,
Qəlbi vicdanının oduna yanır.
Anlayır borcunu, işini bilir,
Hünərini bilir, gücünü bilir.
Zəfərlər təblini hey çala-çala,
Çalışır dəstədən qalmasın dala.[1477]
Dünyada şərəfli ad-san qazanır,[1478]
Adına yazılmış dastan qazanır.
Məkanı düz görür, yolu düz gedir,
Nə yana çəkilir, nə də üz gedir.[1479]

---

[1469] Sözümə qulaq as a körpə balam.
[1470] Mən də, yaşa dolmuş bir ağsaqqalam.
[1471] Həyat imtahandır, daim sınaqdır.
[1472] Burada zəfər var, məğlubiyyət də.
[1473] Burada sınanır güc də, qüvvət də.
[1474] Birisi üç alır, biri beş alır.
[1475] Biri zəhmət çəkib zəfərlə verir.
[1476] Cəsarət, qeyrətlə, hünərlə verir.
[1477] Taytuşdan, dəstədən qalmayır dala.
[1478] Hünər göstərərək ad-san qazanır.
[1479] Nə yarğana düşür, nə də üz gedir.

Şərəf-şan gətirir el-obasına,
Ana Vətəninə, yurd-yuvasına.[1480]
Qürurla dolanır, üzü ağ gəzir,[1481]
Əməli sağ gəzir, cağbacağ gəzir.[1482]
Düşməyir dillərdən sözü-söhbəti,
Sığmayır ellərə şanı-şöhrəti.[1483]
Dərsini düz alır öz ustadından,
İstər qohum olsun, istər yadından.
Aldanmır dünyanın cah-cəlalına,
Sərsəm fikirinə, kəc xəyalına.
Unudub çıxarmır əsla yadından,[1484]
Yapışır zəhmətin tunc qanadından.
Dərk edir həyatın nə olduğunu, [1485]
Zəfərin zəhmətdən doğulduğunu.[1486]
Kor deyil qəlbində vicdanın gözü,[1487]
Odurki düz görür əyrini, düzü.[1488]
Gərək həyatında imtahan verən,
Dərindən düşünüb uzağı görsün.
Səhər tez oyansın, gecə gec yatsın,
Yuxuya şəkər yox, acını qatsın.
Hərkim ki, meyl etsə yorğan-döşəyə,
Tənbəllik adlanan düşmən peşəyə,
Nə alnı açılmaz, nə üzü gülməz,
Yüz sual verilsə birini bilməz.
İmtahan dəryadır, nər meydanıdır,
Kişi meydanıdır, ər meydanıdır.
Həyat səadətdir bilənlər üçün,
Xoş məqsəd, mərama gələnlər üçün.
Həyatın hər anı, hər dəqiqəsi,
Hər fəsli, hər ili, hər qərinəsi,

[1480] Öz doğma yurduna, öz yuvasına.
[1481] Başı uca gəzir, üzü ağ gedir.
[1482] Əməli sağ gəzir, sözü sağ gedir.
[1483] Azalmır ellərdən şanı-şöhrəti.
[1484] Bir an da çıxarmır əsla yadından.
[1485] Dərk edir həyatın nə olduğunu.
[1486] Hünərin zəhmətdən doğulduğunu.
[1487] Qəlbində kor deyil vicdanın gözü.
[1488] Seçir yerbəyerdən əyrini, düzü.

Hərzaman yoxlayır, sınayır bizi,
Ya məzəmmət edir, qınayır bizi.
Gündəlik sınaqdan çıxasan gərək,
Zəfərlər əlini sıxasan gərək.
Zaman tələb edir, şöhrət vaxtıdır,
Ar-namus vaxtıdır, qeyrət vaxtıdır.
Hərkəski dərsini almadı kamil,
Dərin xəyallara dalmadı kamil,
Hərzaman hər yerdə ərinən gördüm,
Arxadan-arxaya sürünən gördüm.
Büdrədi, yıxıldı, dallarda qaldı,
Çatmadı mənzilə yollarda qaldı.
Hərkəs bel bağlasın öz qüdrətinə,[1489]
Özünün ad-sanı, öz şöhrətinə.[1490]
Sərraflıq igidin gözündə gərək,
Qüvvət qollarında, dizində gərək,
Özgədən özünə şöhrət gözləmə!
Cəsarət, dəyanət, qeyrət gözləmə!
Bir yaxşı nəzər sal Şeyx Nizamiyə,
Nə deyir, qulaq as sən, o dahiyə:
*“Eləki böyüdün, belədir qayda,*
*Atanın adından sənə nə fayda?”.*
Ariflər anlayır, sərraflar bilir,[1491]
Zəhmətlə, hünərlə üz-üzə gəlir.
Zəhmətsiz nə zəfər, nə qələbə var,
Nə alim, nə dahi, nə tələbə var.[1492]
Zəhmətdi dünyanı geniş eyləyən,
Yoxuşlu yolları eniş eyləyən.
Odur insanlara yaraşıq verən,[1493]
Gözlərə, könülə, gur işıq verən.
Odur bəxş eyləyən nazü-neməti,[1494]
Qazanıb toplayan varı, sərvəti.

---

[1489]Hərkəs ümid olsun öz qüdrətinə.
[1490]Öz şanı, şərəfi, öz şöhrətinə.
[1491] Sərraflar anlayır, ariflər bilir.
[1492] Nə düha sahibi, nə tələbə var.
[1493] Zəhmətdi insana yaraşıq verən.
[1494] Zəhmətdi yaradan nazu-neməti.

Zəhmətsiz insanın nə qiyməti var?
Nə adı, nə sanı, nə hörməti var?
Ona bağlı olub xoş arzu, niyyət,[1495]
Ən gözəl duyğular, ən saf məhəbbət.[1496]
Zəhmətdir insanın eşqi, həvəsi,
Onunla calınır zəfər nəğməsi.[1497]
Zəhmətdir, hər elmin əsas binası,[1498]
Həyatın özülü, əzəl mayası. [1499]
Ona səcdə qılır dağ da, aran da,[1500]
Yaradan, yaşadan, tikən, quran da.
Onunla yetişir düşüncə, kamal,[1501]
Ülviyyət, qüdsiyyət, gözəllik, camal.
Zəhmətə bağlıdır, ünsiyyətimiz,
İradə, dəyanət, qətiyyətimiz.[1502]
Bağlıdır fikir də, düşüncəmiz də,[1503]
Məslək də, vicdan da, əqidəmiz də.
Zəhmətə bağlıdır, namus da, ar da,
Sevgili canan da, istəkli yar da.
Zəhmətə bağlıdır igidin adı,
Qohum əqrəbası doğması, yadı.
Zəhmətdən uzaşıb aralananlar,
Silinib həyatdan qaralanırlar.
Zəhmətdən qaçanlar zəlil olurlar,
Bədən sağ olsa da, əlil olurlar.
Həyat imtahandır bilənlər üçün,
Çalışıb öyrənib gələnlər üçün.
Əfsus ki, bəzisi düşünüb qanmır,
Dünya alışsa da bir tükü yanmır.
Kəsilib çıxanda hər imtahandan,
Şikayət eyləyir öz zamanından.

---

[1495] Zəhmətdi insanın arzu, niyyəti.
[1496] Ən gözəl duyğusu, saf məhəbbəti.
[1497] 1) Zəhmətdir insanın zəfər nəğməsi. 2) Onunla canlanır zəfər nəğməsi.
[1498] Zəhmətdir, hər elmin əzəl binası.
[1499] Zəhmətdir həyatın əsas mayası.
[1500] Zəhmətə bağlıdır dağ da, aran da.
[1501] Zəhmətə bağlıdır düşüncə, kamal.
[1502] Dəyanət, iradə, qətiyyətimiz.
[1503] Zəhmətə bağlıdır düşüncəmiz də.

Hərkəsin taleyi öz əlindədir,
İşində, gücündə, əməlindədir.
Nə gözəl söyləyib şair Bəxtiyar,
Yayılıb bu sözlər diyarbadiyar.
*“Səadət hərkəsin öz əlindədir,*
*Sözündə, işində, əməlindədir”.*
Vaxtını havayı itirən kəsin,[1504]
Eşidən olmayıb zəfər nəğməsin.
Nə adı çəkildi, nə sanı oldu,
Nə balı bal oldu, nə şanı oldu.[1505]
Hər kimin yoxdursa bundan xəbəri?[1506]
Zəhmətlə yaranır hər təb əsəri.
Onunla ucalır insanın başı,[1507]
Zəfərlə açılır qabağı, qaşı.[1508]
Zəhmətsiz igidin çəkilmir adı,[1509]
Tanımır qohumu, dost-doğma, yadı.[1510]
Zəfərsiz olanda döyüş meydanı,
Korlanır insanın qaralır qanı.
Zəhmətsiz insanın yoxdur nişanı,
Bilinmir mənliyi, nə də ünvanı.
Zəhmətsiz arvad da tanımır əri,
Axtarır özünə təzə müştəri.
Zəhmətsiz yaşama bir an dünyada,[1511]
Zəhmətsiz de varmı çatan murada?[1512]
Nə gəmi, nə qayıq üzməz dəryada.
Zəhmətlə, hünərlə ucalır insan,[1513]
Yerdən də, göydən də bac alır insan.
Həyatın hər anı, hər dəqiqəsi,
Hər fəsli, hər ili, hər qərinəsi,

---

[1504]Vaxtını, vədəni itirən kəsin.
[1505] Nə arısı oldu, nə şanı oldu.
[1506] Kiminki vardırsa bundan xəbəri,
[1507] Zəfərlə ucalır insanın başı.
[1508] Açılır qabağı, açılır qaşı.
[1509] Zəfərsiz igidin çəkilməz adı,
[1510] 1) Tanımaz qohumu, tanımaz yadı, 2) Tanımır qohumu, tanımır yadı.
[1511] Zəhmətsiz  yaşama oğul dünyada,
[1512] Zəhmətsiz yaşayan çatmır murada.
[1513] Zəfərlə, hünərlə ucalır insan.

Sınayır hərzaman, yoxlayır bizi,
Ya inkar, ya da ki, haqlayır bizi.
Hər günkü sınaqdan çıxasan gərək,
Zəfərlər əlini sıxasan gərək.
Oğul, hünər vaxtı, şöhrət vaxtıdır,
Ar-namus vaxtıdır, qeyrət vaxtıdır.
Hərkəs öz dərsini almasa düzgün,
Düşüncə, xəyala dalmasa düzgün.
İmtahan özü yox, papası verər,
Bibisi, xalası, maması verər.
Belə imtahanı verən kimsənin,
Eşidən olmayır isti nəfəsin.
Hərzaman həyatda ərinən gördüm,
Arxada, quyruqda sürünən gördüm.
Papalar, mamalar versə imtahan,
Yetməyir köməyə deyildir pünhan.
Sınaq meydanında kəsilənləri,
Dizləri qorxudan əsilənləri.
Yollarda büdrəyib yıxılan gördüm,[1514]
Hərzaman əzilib, sıxılan gördüm.
Oğul, hər faydanı zəhmətinlə al,
Namusun, vicdanın, qeyrətinlə al.
Yatma daldalarda, qalma kölgədə,
Üstünə qalxmasın hər gədə-güdə.
Qorxma, al günəşin şəfəqlərindən,
Uzaşma dünyanın zəfərlərindən.
Hünərlə, qeyrətlə, namusla yaşa,
Ədəblə, ərkanla, hörmətlə yaşa.
İnsaf et, mürvət et dosta-yoldaşa,
Abırla dolanıb həyalı yaşa.
Qəlbindən kənar et qərəzi-qəsdi,
Sındırma qaməti, sındırma şəsdi.
Çalış el içində vüqarlı ol sən,
Vətənə sadiq ol, ilqarlı ol sən.
Çalış ki, arxadan söyülməyəsən,
Polad qatı kimi əyilməyəsən.
Çalış hər zəfərdə öz payın olsun,[1515]

[1514] Həyatda büdrəyib yıxılan gördüm.

Vətən qüdrətinə arxayın olsun.
Zəhmətsiz yaşamaq ardı ay oğul,
Səma da, torpaq da, dardı ay oğul.
Hünərlə, zəfərlə çıx imtahandan,
Alarsan qiyməti dövrü-zamandan.

***Cəmil Əkbər*** 12. 02 - 1977

## 146. SÖZ GÖVHƏRİ

Kimki söz gövhərindən öz payını almayıb?
Dərk eyləyib, anlayıb düz payını almayıb?
Hərkim olur qoy olsun, ondan insan olmayıb.
Yol-ərkanı düz gedən, doğru adan olmayıb.[1516][1517]

Kimki söz gövhəriylə ərsəyə gəlməmişdir?
Qol-qılçaya biləyə, dirsəyə gəlməmişdir?
Onda qüvvət olmamış, onda qüdrət olmamış,
Onda şərəf olmamış, onda şöhrət olmamış,
Abır-həya olmamış, nə də ismət olmamış,[1518]
Onda məzmun, nə məna, nə də hikmət olmamış.
Abır nədir qanmayır, həya nədir qanmayır,
Vicdan, məslək, əqidə, qayə nədir qanmayır.
Təlim nədir götürmür, dayə nədir qanmayır,[1519]
Quran, kitab tanımır, ayə nədir qanmayır.[1520]
Kölgə nədir salmayır, sayə nədir qanmayır,
Böyük-kiçik tanımır, əyə nədir nədir qanmayır.

Kimki söz gövhərindən tutmayıbdır yükünü,
Sarsıtmayır halını, ürpətməyir tükünü.
O səbəbdən biçarə gedib nadan olubdur,[1521]

---

[1515] Çalış ki, zəhmətdə öz payın olsun.
[1516] Yol-ərkanı düz gedərək, loğman ola bilməyib.
[1517] *II variant* Kimki söz gövhərindən öz payını almayıb.
Geçikərək ləngiyibdi tez payını almayıb.
1) Ömürboyu çiy qalıbdır, yetişməyib kamalı. 2) Ömürboyu çiy qalıb, yetişməyib kamalı.
Yol-ərkanı düz gedən, doğru adan olmayıb.
[1518] Onda abır olmamış, nə də ismət olmamış.
[1519] Təlimatı düz verən dayə nədir qanmayır.
[1520] Quran, kitab anlamır, ayə nədir qanmayır.
[1521] O səbəbə görədir, gedib nadan olubdur.

Haqq-sayı unudan, onu udan olubdur.
Tərbiyədən yarımçıq, yarı dadan olubdur,
Yollarını, izini, tərsə adan olubdur.

Kimki söz gövhərindən xəbərsizdi neyləsin?
Sorağını almayıb ötərsizdi neyləsin?
Düşüncədən idrakdan bəhrəsizdi o yazıq,
Əl-ayağı yalındı, dəhrəsizdi o yazıq.
Danışmağa, dinməyə, söz də tapıb deyənmir,
Üryan qalıb əndamı, bez də tapıb geyənmir.[1522]
Oturanda-duranda, bilə-bilmir yerini,
Görənməyir uzağı, seyr eyləmir dərini.

Kimki söz gövhərindən tam almamış qalıbdır,
Xoş keçməyib dövranı, kam almamış qalıbdır,[1523]
Zaman keçib, vaxt ötüb gələnməyir özünə,
Duman çöküb başına, tor gəlibdir gözünə.[1524]
El-obada tanınmır, baxan yoxdur sözünə,
Yolağına, yoluna, cığırına, izinə.

***Cəmil Əkbər*** 4. 01 – 1993

## 147. QULAQ AS!

Bülbül budağına qarğa qonanda,
Qarhaqara, qurhaqura qulaq as!
Şah yerinə gəda darğa olanda,
Qırhaqıra, vurhavura qulaq as!

İxtiyar sahibi gədə olarsa,
Şaqqulubəy gəlib dədə olarsa,
Loğmanlıq eyləyən zəli olarsa,
Udhauda, sorhasora qulaq as!

Nadanlar əlində olsa ixtiyar,
Salacaq düzlərə diyarbadiyar,
Tapılmaz ləyaqət, nə də iqtidar,
Qovhaqova, yorhayora qulaq as!

***Cəmil Əkbər***

[1522] Lüt qalıbdır əndamı, bez də tapıb geyənmir,
[1523] Dövranı xoş keçməyib, kam almamış qalıbdır,
[1524] Duman çöküb başına, su calanıb közünə.

## 148. O ZAMANDAN BƏRİDİR

O səbədən törədi dava-dalaş nə varsa,
Vahimələr, səksəkə, qorxu-təlaş, nə varsa.
Ünsiyyətdə, ülfətdə kəsən deyil qəbahət,

Kəsməmişdir küdurət, ara vermir ədavət.
Bu bəşəri məhv edir, qal-qovğa da, dava da,
Zəhərlənir səma da, yer də, göy də, hava da.
O səbədən ağarır insanların başı da,
Muradına çatmadı, yarı qaldı yaşı da.
Yaxşı nə var həyatda, gündən-günə korlanır,
Cəhalətin əlində, qol-budağı darlanır.
O zamandan bəridir nadan gəlmir yoluna,
Qiymət qoymur sağına, dəyər vermir soluna.
Doğulandan, qalandan, diriləndən ölən çox,
Avamlıq ucbatından gözyaşını silən çox.
O zamandan bəridir bəşər gəlmir özünə,
Hey qaralır, qarsıxır, su calanır gözünə.
Giley-güzar, qal-qovğa, dedi-qodu kəsməyir,
Çovğun, sazaq, yel əsir, gilavarı əsməyir.
Ustadlarsız yaşamaq cəhalətdi bunu bil!
İşgəncədir, zülümdür, müsibətdir, bunu bil!
Tezi-geci axırı fəlakətdir bunu bil!
Görmürükmü bunu biz, gözgörəti ölümdür?
Görə-görə kor olmaq rəzalətdir, zülümdür.
Müdrik ustad olmasa, bəşər oğlu xar olur,
Qalmaqalın içində gen dünyası dar olur.
O zamandan bəridir il də, ay da, bəd gəlir,
Payız nədir, qış nədir, yaz da, yay da bəd gəlir.
Arzular da, istək də, diləklər də bəd gəlir,
Çovğun ara verməyir, diləklər də bəd gəlir.

***Cəmil Əkbər***

## 149. DOLANAQ

Qardaş, gəlin gədalığa son qoyaq,
Ədəb-ərkan, mərifətlə dolanaq.
Dambatlığa, ədalığa son qoyaq,
Nəcibliklə, nəzakətlə dolanaq.

Fitnə-fəsad, yalanlara uymayaq,
Əqidəcə solanlara uymayaq,
Hər zurnanı çalanlara uymayaq,
Ədalətlə, həqiqətlə dolanaq.

Hər yetənlə oturmayaq, durmayaq,
Axtarmayaq, aramayaq, sormayaq,
Nə özgəni, özümüzü yormadıq,
Sağlam ülfət, ünsiyyətlə dolanaq.

Qəlbimizdə yaşatmayaq küdurət,
Dedi-qodu, giley-güzar, ədavət,
Nə xainlik, nə xəbislik, xəyanət,
Xoş məramla, xoş adətlə dolanaq.

Cahillikdən, avamlıqdan nə çıxar?
Cəhalətdən, nadanlıqdan nə çıxar?
Nabələdlik, ya xamlıqdan nə çıxar?
Xətir-hörmət, ləyaqətlə dolanaq.

Acgözlükdən, hərislikdən uzaq ol!
Xainlikdən, xəbislikdən uzaq ol!
Nanəciblik, naqislikdən uzaq ol!
Sədaqətlə, səxavətlə dolanaq.

Ay qardaşım ləkələmə adını,
Qohumunu, qardaşını, yadını,
Ana bilək, bacı bilək qadını,
İffət ilə, ismət ilə dolanaq.

Qəlbimizdə yaşamasın çamırlıq,
Üfunətli nə bataqlıq, mamırlıq,
Qarabulud, duman, çisgin, yağmurluq,
Saf arzuyla, pak niyyətlə dolanaq.

***Cəmil Əkbər*** 8. 09 – 1988

## 150. GƏLDİ-GETDİ

Nadan dünyasında qaraldı qanım,
Çəkildi zülalım, qurudu şamım,
İnlədi, sızladı biçarə canım,[1525]
Sarsıldı xəyalım huş gəldi-getdi.

[1525] İnlədi, sızladı bu yazıq canım.

Bacaran dünyanın ağası oldu,
Alimi, loğmanı, dahisi oldu,
Başbilən darğası, kovxası oldu,
Fərsizlər, karsızlar toş gəldi-getdi.
Bu dünya kefini çəkənin oldu,
Götürüb nəfini çəkənin oldu,[1526]
Əzablar, səhvini çəkənin oldu,
Car oldu gözümdən yaş gəldi-getdi. [1527]

Nadanlar əlindən dağıldı dünya,
Kəsildi, qırıldı, sağıldı dünya,
Röyadı, xəyaldı, nağıldı dünya,
Ayaqlar baş oldu, boş gəldi-getdi.

***Cəmil Əkbər*** 16. 03 – 1990

## 151.KEÇDİYİM HƏYAT YOLU

Gah dağa çıxmadım, aranda qaldım,
Gah çovğuna düşdüm, boranda qaldım.
Gah istiyə düşdüm, bürkülədim də,
Gah yuxusuz qalıb, mürgülədim də.
Gah mindim zamanın köhlən atına,
Üstümə gah yağış, gah da qar yağıb.
Çəkmişəm sinəmdə yar həsrətini,
İstiyə düşəndə qar həsrətini.
Düşdüm gah yoxuşa, gahdaki düzə,
Vuruldum qərəzsiz deyilən sözə.
Vaxt olub yollarda büdrəmişəm mən,
Dolaşıb, yanılıb küdrəmişəm mən.
Yaşamaq, yaratmaq düşüncəm olub,
Həyatda nadanlar işgəncəm olub.
İstəyim bu olub, könül şad olsun,
Hərkəsdən hamıya bir imdad olsun.
Bir insan oğluna üz verəndə qəm,
Odsuz ocaq olub, alışıb sinəm.

---

[1526] Əkənin, səpənin biçənin oldu,
[1527] 1) Dolurdu gözlərim yaş gəldi-getdi. 2) Doldu bulud kimi yaş gəldi-getdi.

Həm atam, həm anam, həm də qardaşım,
Xətirə dəyməyən insanlar olub.
Gənclik vaxtlarımda oyuna getdim,
Gah naxıra getdim, qoyuna getdim.
Gah hodaqlıq etdim Bal Məhəmmədə,
Gah Musa kişiyə, gah da Hümbətə.
Mala da getmişəm Cahan Pecilə.
Gah çisgəyə düşdük, gah da dumana,
Könül yad etdikcə düşür gümana.
Həyat yollarımız eniş-yoxuşdur,
Həm acı, həm şirin, həmdəki xoşdur.
Gördüm bu dünyada xaini, pisi,
Oğrunu, əyrini, acgöz hərisi.
İnsafı, vicdanı atanları da,
Yaxşını, yamana qatanları da.
Gördüm bu dünyada çaqqalları da,
Şöhrət düşgünləri, baqqalları da.
Doğru, düz yolları azanları da,
Ayaqlar altından qazanları da.
Görmüşəm vədəsiz qocalanları,
Dayı sayəsində ucalanları.
Görmüşəm nahaqdan ölənləri də,
Lağ edib özgəyə gülənləri də.
Görmüşəm fitnəyə, felə düşəni,
Tufana, borana, selə düşəni.
Görmüşəm alimi, görmüşəm bəyi,
Görmüşəm nadanı, görmüşəm səyi.
Heçkəs taleyimə göz eyləməsin,
Böhtanlar danışıb söz eyləməsin.

***Cəmil Əkbər***

## 152. A ŞAİR

*Xalq şairi Süleyman Rüstəmə xitabən*

Hisslərim oyanıb, tüğyan etsin ilhamım,
İşə düşüb gövhərim, alınaydı mətahım.
Sandıqlardan çıxaydı, saf eşqimin cövhəri,
İdrakımın məhsulu, xəyalımın mehvəri.

Kaş a  şair, sənintək tanınaydı qələmim,
Bərkdə-boşda çətində sınayaydı qələmim.
Belə olsa a şair, olmazdı dərdi-qəmim,
Dəryalarda batmazdı, nə yelkənim, nə gəmim.
Cahillərə, nadana güllə oldu şeirim,
Yumruq oldu şeirim, şillə oldu şeirim.
Acı oldu şeirim, zəhər oldu şeirim,
Qüssə oldu şeirim, qəhər oldu şeirim.
Ariflərə, qanana, şərbət oldu şeirim,
Hünər oldu şeirim, qeyrət oldu şeirim.
Dərdlərə məlhəm oldu, dərman oldu şeirim,
Ən müqəddəs, ən ülvi, fərman oldu şeirim.

Kaş a  şair, sənintək yer tutaydım ürəkdə,
Milyon-milyon arzuda, milyon-milyon diləkdə.
Sənin kimi həyatda, izim qala dünyada,
El içinə çıxanda, üzüm ola dünyada.
Zəfərimlə, hünərlə, ömrü başa vuraydım,
Ayla-günlə, ulduzla mən də qoşa duraydım.

***Cəmil Əkbər***

## 153. QALIB

Dəyişibdir dövrü-zaman,
Gör kimlərdən-kimə qalıb?
Dağ başını alıb duman,
Yal-yamaclar nəmə qalıb.

Meydan indi dələduzun,
Vicdanıkəm, qəlbibuzun,
Hər alçağın, yaramazın,
Qaşa-gözə, himcimə bax.

***Cəmil Əkbər*** 10. 02 - 1992

## 154.  DEMƏKİ

Deməki yanıma gəlməmisən sən!
Soruşub halımı bilməmisən sən!
Baxaraq üzümə gülməmisən sən!
Olaram yanında ədalətimlə.

Deməki qeydimə qalmamısan da,
İnciyən qəlbimi almamısan da,
Onun rübabını çalmamısan da,
Çalmışam haqqımla, həqiqətimlə.
Deməki yetmədin karıma mənim,
Bostana, bağıma, barıma mənim,
Oğluma, qızıma, yarıma mənim,
Yetdim sədaqətlə, səxavətimlə.

***Cəmil Əkbər***

## 155. SALAR[1528]

Şeir yazan belə yazar a Kamal,
Könüllərdə məskən tapıb, iz salar.
Hər oxuyub eşidəndə əhli-hal,
Dönə-dönə danışanda söz salar.

Məşəl olar, oxuyanda qanana,
Təsir eylər aşiqlərə, canana.
Əsər eylər eşq oduna yanana,
Ürəyinə atəş, alov, köz salar.

Eşidənlər çıxa bilməz yolundan,
Tutan olmaz nahaq yerdən qolundan.
Sağ axtarmaz bilə-bilə solundan,
Yol-ərkanı doğru gedib, düz salar.

***Cəmil Əkbər*** 6.09-1982

## 156. ŞƏMŞİRİM [1529]

Deyirlər sənətin qoca qartalı,
Əbədi sükuta daldı Şəmşirim.
Düşsədə dostlardan uzaq, aralı,
Könüllər mülkündə qaldı Şəmşirim.

[1528]Şair Cəmil Əkbərin “Salar” rədıflı qoşması Kamal Əlizadənin “Mən” rədifli şeirinə cavab olaraq yazılmışdır

[1529] Cəmil Əkbər “Şəmşirim” rədifli qoşmasını Dədə Şəmşirin haqq dünyasına qovuşması münasibəti ilə yazmışdır.

Dolandı ellərdə dağ vüqarilə,
Sədaqət, səxavət, düz ilqarilə,
Qüruru, fərəhi, iftixarilə,
Dağlardan vüqarı aldı Şəmşirim.

Matəm xəbərini aldım efirdən,
Kəlbəcər elindən tezdən, səhərdən,
On iki fevralda birdən, qəfildən,
Qəlbimə təlatüm saldı Şəmşirim.

Qızıl torpaqlarda çürüyən deyil,
Əsrlər keçsə də əriyən deyil,
Günəşi dumanlar bürüyən deyil,
İlhamdan sallandı, doldu Şəmşirim.

Elin aşığıydı, çaldı sazını,
Yaydı bülbül kimi şən avazını,
Sanıram bir anlıq yumdu gözünü,
Günəş qürubutək soldu Şəmşirim.

Fikirim, xəyalım döndü dumana,
Sinəmdə çağladı, döndü ümmana,
Könlümün telləri döndü kamana,
“Kərəmi”, “Dilqəmi” çaldı Şəmşirim.

Sənət meydanında nər oğlu nərdi,
Yenilməz qüdrəti böyük hünərdi,
Sərraf meydanında zər oğlu zərdi,
Zirvələr fəth etdi, aldı Şəmşirim.

Elindən, xalqından doyub getmədi,
Qərq olub qəflətdə uyub getmədi,
Sazını kimsəsiz qoyub getmədi,
Sənət kəhkəşanı oldu Şəmşirim.

Ayrılıq Cəmilə qəhər olsa da,
Hər axşam, günorta, səhər olsa da,
Əcəlin şərbəti zəhər olsa da,
Şəkərdi, şərbətdi, baldı Şəmşirim.

***Cəmil Əkbər*** 12.02 – 1981

## 157. GƏLMİŞƏM[1530]

Aşıq Şəmşir dur sazını çal yenə,
Məzarına ziyarətə gəlmişəm.[1531]
Məclis qurub gəl könlümü al yenə,[1532]
Hüzuruna ibadətə gəlmişəm.[1533]

Niyə yalqız qoydun Güllü nənəmi?
Sadiq vəfadarı, gözəl sənəmi,
Özün de, ilqarı kürdün beləmi?
Şuxluq üçün zərafətə gəlmişəm.

Dövran gözəl, oba gözəl, el gözəl,
Çəmən gözəl, çiçək gözəl, gül gözəl,
Çeşmə gözəl, Tərtər gözəl, sel gözəl,[1534]
Xoş iqbala, səadətə gəlmişəm.

Açılsın dağların çiçəyi, gülü,
Ötüşsün kəkliyi, şeyda bülbülü,
Xoş keçsin hər ayı, ili fəsili,
Güzar edib xoş niyyətə gəlmişəm.[1535]

Olmuşam xeyirdə, olmuşam şərdə,[1536]
Kim dözər hicrana, nisgilə, dərdə?[1537]
Dağlar da üzünə çəkdilər pərdə,[1538]
Abır-həya, pak ismətə gəlmişəm.

---

[1530] Cəmil Əkbərin "Gəlmişəm" rədifli şeiri Dədə Şəmşirin haqq dünyasına qovuşması səbəbi ilə yazılmışdır.

[1531] Torpağına ziyarətə gəlmişəm.

[1532] 1) Zəhmət çəkib gəl könlümü al yenə, 2) Yada salıb gəl könlümü al yenə.
3) Şuxluq edib gəl könlümü al yenə.

[1533] 1) Təzim edib ibadətə gəlmişəm, 2) Səcdə qılıb ibadətə gəlmişəm.

[1534] Kaman gözəl, mizrab gözəl, tel gözəl.

[1535] *II variant* Solmasın dağların çiçəyi, gülü,
Susmasın kəkliyi, şeyda bülbülü,
Yetişsin zəmidə sarı sünmülü,
Güzar edib xoş niyyətə gəlmişəm.

[1536] Yazdım sözlərimi mən Kəlbəcərdə.

[1537] Qoymadım heçkəsi bir dərdi-sərdə.

[1538] Dağlar da üzünə çəkirlər pərdə.

Dostun-dosta hörməti var bu yerdə,
İnsafı var, mürvəti var bu yerdə,
Hər çiçəyin zinəti var bu yerdə,
Elə sandım, mən cənnətə gəlmişəm.[1539]

Sərt qayanın zil haçası burdadır,
Zirvələrin ən ucası burdadır,
Sənətkarın ən qocası burdadır,
Müdrik kəlam, söz-söhbətə gəlmişəm.[1540]

Qurbanın, Şəmşirin sazını gördüm,
Güllü nənəmizin nazını gördüm,
Gözəl təbiətin yazını gördüm,
Heyran olub min halətə gəlmişəm.[1541]

---

[1539] *II variant*
Dostun-dosta var hörməti, xətiri,
Gözlərindən oxunulur sətiri,
Valeh edir çiçəklərin ətiri,
Elə sandım, mən cənnətə gəlmişəm.

*III variant*
Hər insanoğlunun xətri başqadır,
Hər şair ömrünün sətri başqadır,
Hər gülün, çiçəyin ətri başqadır,
Heyran olub tərəavətə gəlmişəm.

*IV variant*
Yazdım Kəlbəcərdə qısa sətiri,
Gözlənir insanın hörməti, xətiri,
Qoxuyur min cürə çiçək, ətiri,
1) Eləbildim mən cənnətə gəlmişəm. 2) Eləbilki mən cənnətə gəlmişəm.

*V variant* 1) Yazdım Kəlbəcərdə bu gözəl sətiri, 2) Xatirədən mən yazmışam bu sətri.
Əzizdir insanın hörməti, xətiri,
1) Qoxuyur min cürə çiçək, ətiri, 2) Qoxuyur hər yerdə çiçəyin ətri.
1) Eləbildim mən cənnətə gəlmişəm. 2) Eləbilki mən cənnətə gəlmişəm.

*VI variant*
Xatirədən mən yazmışam bu sətri,
Hər kəsin izzəti, hörməti, xətiri,
Qoxuyurlar çiçəkləri ətiri,
Elə sandım mən cənnətə gəlmişəm.

[1540] *II variant*
Sərt qayanın haçaları burdadır,
Zirvələrin ucaları burdadır,
Babaların qocaları burdadır,
Dinləməyə, söz-söhbətə gəlmişəm.

*III variant*
Qaya yarğanının haçası burda,
Dağların zirvəsi, ucası burda,
Sənət incisinin qocası burda,
Bu qərara, qənaətə gəlmişəm.

Hər güldən, çiçəkdən bir ətir saçır,
Arılar çiçəkdən-çiçəyə qaçır,
İlham vəcdə gəlir, qol-qanad açır,
Aşıb-daşıb mən riqqətə gəlmişəm.[1542]

Qəlbimdən silinməz haqq-say mənim,
Neçə qış, neçə yaz, neçə yay mənim,[1543]
Nə süfrə, nə çörək, nə də çay mənim,
Səxavətə, sədaqətə gəlmişəm.[1544]

Unutmaq olarmı əhdi-ilqarı?
Təbiət bəxş edən uca dağları?[1545]
Loğman təbiətli tər bulaqları?[1546]
Ədəb-ərkan, nəzakətə gəlmişəm.

Nəqədər olsam da mən orda-burda,
Qalsam bərəlgədə, olsam şikarda,
Əzəldən aşiqəm bu gözəl yurda,
Milyon məna, min hikmətə gəlmişəm.

Unutmaq olarmı haqq-sayları?
Nə payız, nə qışı, nə də yayları?
Saniyə, dəqiqə, ili, ayları?
Bu fikrimi bəyanətə gəlmişəm.

Bu eldə obada, əmanətim var,
Taleyim, yığvalım, səadətim var,
Hərzaman Şəmşirə ziyarətim var,
Ülvi istək, məhəbbətə gəlmişəm.

---

[1541]*II variant* Dədə Ələsgərin izi burdadır,
Qurbanın, Şəmşirin sazı burdadır,
Bülbüllərin şən avazı burdadır,
1) Heyran olub məlahətə gəlmişəm. 2) Həzin-həzin məlahətə gəlmişəm.

[1542] Aşiq olub mən riqqətə gəlmişəm.

[1543] Ötsə də neçə il, neçə ay mənim.

[1544]*II variant* Kürdlərlə ülfətim, ünsiyyətim var,
Eşidib götürsə, söz-söhbətim var,
Hikmətli, mənalı nəsihətim var,
1) Etibara, sədaqətə gəlmişəm. 2) Tapılarsa sədaqətə gəlmişəm.

[1545] Sərin çeşmələri, uca dağları.

[1546] Bülbüllər qonduğu şah butaqları.

Cəmiləm düşmərəm elin gözündən,
Çıxmaram ədalət, haqqın izindən,
Böyük xalqımızın müdrik sözündən, [1547]
Xidmət üçün bu minnətə gəlmişəm.[1548]

***Cəmil Əkbər*** 22. 06 – 1981

## 158. BAĞIŞLA MƏNİ [1549]

Gec gəldim haraya a Şəmşir əmi,
Çəkdiyim möhnətə bağışla məni.
Matəminlə dağlamışam sinəmi,
Əyilən qamətə bağışla məni.

Çıxmırsan qəlbimdən dəqiqə belə,
İnan, ötürdüyüm hər aya belə,
Hər solan çiçəyə, hər açan gülə,
Olan sədaqətə bağışla məni.

Unutmam, nəqədər canımda can var,
Bədəndə dövr edən qırmızı qan var,
Yediyim, içdiyim nə qədər nan var,
Bu halal nemətə bağışla məni.

Mərd igidlər dostu, yarı unutmaz,
Əhd-peyman, düz ilqarı unutmaz,
Etiqadı, etibarı unutmaz,
Ülvi ünsiyətə bağışla məni.

Yağsa da dağların qarı, boranı,
Nə ölüm, nə itim kəsməz aranı,
İnanmasan gətirərəm Quranı,
İncilə, Tövrata bağışla məni.

---

[1547] Elin xahişindən, elin sözündən.

[1548]*II variant* Cəmiləm, istərəm qalam ürəkdə,
Nəcib arzularda, nəcib diləkdə,
Zəhmətlə çalışan qolda, biləkdə.
Təmənnaya, bu niyyətə gəlmişəm.

[1549] Cəmil Əkbərin Dədə Şəmşirin dəfn mərasimində iştirak etməsinə gecikdiyi üçün peşimançılıq hissiləri ilə üzr istədiyi “Bağışla məni” rədifli qoşma.

Bir oyanıb, bir dururdu qəlbimiz,
Bir yaradıb, bir qururdu qəlbimiz,
Bir döyünüb, bir vururdu qəlbimiz,
O pak məhəbbətə bağışla məni.

Əzəmətli dağsan, mən sənin təpən,
Böyük bir ümmansan, mən sənin ləpən,
Sən qoca palıdsan, mən sənin çökən,
Bu qüvvət, qüdrətə bağışla məni.

Gəzsəmdə dünyanı mən diyar-diyar,
Nəqədər ölkə var, şəhər var, kənd var,
Könlüm matəminlə çəkdi intizar,
Hörmətə, izzətə bağışla məni.

Bilki məzarını sanıram Məkkə,
İnam qənim olsun, var isə şəkkə,
Yanında bilmirəm səhvim var bəlkə?
Olan xəcalətə bağışla məni.

Dost gərək dostunun qədrini bilsin,
Çatıb harayına, dadına gəlsin,
Vayında ağlasın, toyunda gülsün,
Xahişə, minnətə bağışla məni.

Yanında vardırsa əgər günahım,
Yandırar qəlbimi amanım, ahım,
Ey müqəddəs insan, ey qibləgahım,
Haqqa, ədalətə bağışla məni.

Mən sənə heyranam, görəndən bəri,
Olmusan dilimin sözü, əzbəri,
Ey ulu dağların qoca Şəmşiri,
Saf arzu-niyyətə bağışla məni.

Gəzdiyin yerlərə mən nəzər saldım,
Seyredib hər yanı, xəyala daldım,
Buludtək qaraldım, ümmantək doldum,
Gəldim ziyarətə, bağışla məni.

Dağların başından aşan bir günəm,
Qəlbi yaralıyam, xəstə, düşgünəm,
Arzular gözümdə halı-müşgüləm,
Düşdüyün "cənnətə" bağışla məni.

Qalıbdı ağzımda dostluğun dadı,
Dostluğun şərəfi, dostluğun adı,
Sönməyib, sönən döy qəlbimin odu,
Olan hərarətə bağışla məni.

Aralıqda haqq-say var, salam var,
Səni sevən neçə-neçə balam var,
Obamız var, elimiz var, aləm var,
O pak ünsiyyətə bağışla məni.

Çəkirsən adımı kəlmələrində,
Sazında, sözümdə, nəğmələrində,
Misrada, beytdə, cümlələrində,
Verdiyin qiymətə bağışla məni.

Bilirəm müddətdir gözün yoldadır,
Boylanır hər yana sağa, soldadır,
Yorulub köhlənin, qalıb yoldadır,
Tükənən qüvvətə bağışla məni.

Mehriban dostunam, bir əhli-diləm,
Oxuyan bülbüləm, açılan güləm,
Ya qismət, hüzruna birdəki gələm,
O müşk-təravətə bağışla məni.

Cəmilin qəlbini gəzib görmüsən,
Məhəbbət bağından üzüb görmüsən,
Ərkinə, nazına dözüb görmüsən,
Munis məhəbbətə bağışla məni.

***Cəmil Əkbər***

## 159. YENƏ YAZ![1550]

Dədə Şəmşir, dur ayağa təzədən,
Saf ülfətdən, ünsiyyətdən yenə yaz!
Bizi qurtar bu möhnətdən, cəzadan,
Təmiz arzu, pak niyyətdən yenə yaz!

Nisgil qalan ürəkləri sevindir,
Nakam qalan diləkləri sevindir,
Yorğun düşən biləkləri sevindir,
Qüdsiyyətdən, ülviyyətdən yenə yaz!

Yazıb göndər, əsərindən oxuyaq,
Faydasından, səmərindən qoxuyaq,
Qəlbimizdə əriş-arğac toxuyaq,
İnsanlıqdan, cəmiyyətdən yenə yaz!

Beynimizi dəng edibdir gədələr,
Az qalırlar göydən yerə od ələr,
Pulu çoxlu, gönü qalın dədələr,
Öyüd verib nəsihətdən yenə yaz!

Dostluq üçün doğulmuşdun bir dənə,
Yaraşırdın çox nurani, pir danə,
Tanınırdın el içində dürr danə,
Sədaqətdən, səxavətdən yenə yaz!

Şirin sözlə, xoş avazla bizə gəl,
Sənət dostun telli sazla bizə gəl,
Dost evinə ərki-nazla bizə gəl,
Əsib-coşub bədahətən yenə yaz!

Qədəminlə gəl Cəmili sevindir,
Qohum-qardaş, bu nəsili sevindir,
Ayı-günü, hər fəsili sevindir,
Qəlbindəki məhəbbətdən yenə yaz!

***Cəmil Əkbər*** 15.07 – 1981

[1550] 1981-ci ildə Dədə Şəmşirin məzarını ziyarət edərkən Cəmil Əkbərin əziz dostunun itkisinin təsirindən yaranan “Yenə yaz” şeiri.

## 160. BAX![1551]

Aşıq Şəmşir çox füqara dolanma,
Əhli-hal yanında hörmətinə bax![1552]
Pərvanətək eşq oduna qalanma,
Ər oğlu ər kimi, qeyrətinə bax!

Xəyalın ümmandır, düşüncən dərin,
Kamalın dəryadır, doludur sərin,
Kamil sənətkarsan, sözdü gövhərin,
İncidən düzələn sərvətinə bax!

İstəyin budurki, ellər şad olsun,
Hərkəsdən hamıya bir imdad olsun,
Könüllər qüssəyə, qəmə yad olsun,
Xeyirxah arzuna, niyyətinə bax!

Dinləyib sözünü, anlayıb, qandım,[1553]
Eləbil ruhuma min şəfa sandım,
"Kərəmi" çalanda, Kərəmtək yandım,[1554]
Biçarə Dilqəmin möhnətinə bax!

Qəlbində nəqədər elin dərdi var?
Qönçədə saralmış gülün dərdi var,[1555]
Muğan, Qarabağın, Milin dərdi var,
Döyünən ürəkdə mürvətinə bax.

Şənlik məclisini etmisən şikar,[1556]
Gəşt etdin elləri diyarbadiyar,[1557]
Kamil bir ustadsan, böyük sənətkar,[1558]
Böyüklə, kiçiklə ülfətinə bax!

---

[1551] Cəmil Əkbərin Dədə Şəmşirə xitabən yazdığı "Bax!" rədifli şeiri.
[1552] Ellərin içində hörmətinə bax!
[1553] Eşitdim səsini, anladım, qandım,
[1554] "Kərəmi" çalanda, alışıb yandım.
[1555] Saralıb xar olan, gülün dərdi var.
[1556] 1) Nəqədər məclislər etmisən şikar, 2) Şənlik məclisini eylədim şikar.
[1557] 1) Gəzibsən elləri diyarbadiyar, 2) Gəzmisən elləri diyarbadiyar.
3) Seyr etdin elləri diyarbadiyar.
[1558] 1) Qabil bir ustadsan, kamil sənətkar. 2) Bürüdü qəlbimi böyük iftixar.

Sazınla, sözünlə möhüblər düzdün,
Toy-büsat eylədin, ağır el gəzdin,
Sənət dəryasında qəvvastək üzdün,
Şahintək uçarkən sürətinə bax![1559]

Olubsan cahanda dillər əzbəri,
Sədəfli sazında tellər əzbəri,
Bülbülün dilində güllər əzbəri,
Sənət aləmində şöhrətinə bax!

***Cəmil Əkbər*** 27. 07 -1963

## 161. GƏTİRDİM

*Aşıq Şəmşirin 70 illiyi münasibətilə*

Bu əziz dostumun şən məclisinə,
Baharın müjdəsi güllər gətirdim.
Laçınlar yurduna, loğman elinə,
Qəlbimin bəndindən tellər gətirdim.

Gələn dostlarını yola salmağa,
Könüllər mülkünü ələ almağa,
Şirin söz-söhbəti yadda qalmağa,[1560]
Deyib-danışmağa dillər gətirdim.

Sazını məclisdə hey oynatmağa,[1561]
Təzənəni telə sərrast vurmağa,
Aşıq Qurban, Ələsgərə çatmağa,
Köməyə yetişən əllər gətirdim.

Şairin xəyalı dolansın deyə,
Eşqin atəşinə qalansın deyə,
Könüllər könülə calansın deyə,
Karvanlar keçməyən yollar gətirdim.

---

[1559] *II variant* Loğmantək nəqədər möhüblər düzdün,
Bülbül tək bağlarda, güllərdə gəzdin,
Çıxdın obalara, ellərdə gəzdin,
Qartaltək süzərkən sürətinə bax!

*III variant* Loğmantək nəqədər möhüblər düzdün,
Kəkliktək çöllərdə dağlarda gəzdin,
Bülbültək bağçada, bağlarda gəzdin,
Şahintək süzərkən sürətinə bax!

[1560] Şirin söhbətləri yadda qalmağa.

[1561] Sədəfli sazını hey oynatmağa.

Yayınmır gözlərim hey sənə baxır,
Həsrətdən doluxur, şimşəktək çaxır,
Sinəmdə məhəbbət qaynayıb axır,
Dağlara şəlalə, sellər gətirdim.

İlham alıb xəyallara dalmağa,
"Taxtadüz"də "Gözəlləmə" çalmağa,
Məhəbbətdən aşıb-daşıb dolmağa,
Deyib gülən şad könüllər gətirdim.

Az deyildir xalqımızda əməyin,[1562]
Göstərdiyin qayğıların, köməyin,
Nədir məndən, el-obadan diləyin?[1563]
Xoş arzular, xoş əməllər gətirdim.

Ağsaqqal dostumun ziyarətinə,
Düşüb məhəbbətin hərarətinə,
Onun şərəfinə, sədaqətinə,
Dağ, aran, yal-yamac, göllər gətirdim.

Cəmiləm baxaraq göy asimana,
Bu kamil ustada, gözəl insana,[1564]
Hökm edib ilqara, əhdə-peymana,
Ömrü uzatmağa illər gətirdim.

***Cəmil Əkbər*** 1964

## 162. XOŞ GƏLİB[1565]

Elimin, obamın söz ustaları,
Zəhmət çəkib bu diyara xoş gəlib.
Fəhmin-fərasətin öz ustaları,
Bu səfərə, bu güzara xoş gəlib.

Sinəsi üstündə telli saz ilə,
Şirin söhbətləri, xoş avaz ilə,
Qəlbində dostlara ərki-naz ilə,
Bu dağlara, çəmənzara xoş gəlib.

---

[1562] Azha deyil xalqımızda əməyin,
[1563] Nədir ustad, el-obadan diləyin?
[1564] Bu mahir, bu qabil, gözəl insana.
[1565] "Xoş gəlib" rədifli qoşmasını Cəmil Əkbər Dədə Şəmşirin 70 illik yubileyi münasibəti ilə yazıb.

Dostunun qədrini hey bilə-bilə,
Meyl edib çəməndə çiçəyə, gülə,
Oxşadıb özünü şeyda bülbülə,
Təravətli bu bahara xoş gəlib.

Seyredib dağlara, zirvəyə baxıb,
Ülkərtək parlayıb, günəştək çıxıb,
İlham çeşməsində çağlayıb, axıb,
Əzəmətə, füsünkara xoş gəlib.

Yaxından, uzaqdan gələn dostlarım,
Tovuzdan, Qazaxdan gələn dostlarım,
Çıxıb çox sınaqdan gələn dostlarım,
Bu qürura, iftixara xoş gəlib.

Bilirəm, Cəmiltək eşidən kimi,
Kökləndi sinəndə qəlbinin simi,
Verməyib fürsəti, məqamı, çəmi,
Etibara, düz ilqara xoş gəlib.

***Cəmil Əkbər***1963

## 163. BƏYƏNDİ[1566]

Aşıq Şəmşir məktubunu alanda,
Şair Vəli söhbətini bəyəndi.
Xəyal aləminə o qapılanda,
Yenilməyən qüdrətini bəyəndi.

Eşitdi sazının həzin səsini,
Uzaqda olsa da duydu nəfsini,
Şeirdə salıbdı bəhsəbəhsini,
Sənətdəki sürətini bəyəndi.

Dinlədi sözünün hər kəlməsini,
Axtardı nöqtənin hər zərrəsini,
Eləbil dolandı yer kürrəsini,
Əhsən deyib sənətini bəyəndi.

---

[1566] Cəmil Əkbərin "Bəyəndi" rədifli qoşması Dədə Şəmşirə ünvanlanıb. Dədə Şəmşirin Miskinli Vəliyə ünvanladığı şeiri oxuyan zaman məmnun qalar. Cəmil Əkbər bu şeirlə Dədə Şəmşirə Miskinli Vəlinin münasibətini poetik dillə ifadə etmişdir.

Böyük ustalıqla dediyin sözü,
"Taxta yaylağı"nı, o geniş düzü,
Xəyala gətirib düşündü özü,
Vətəninə dəvətini bəyəndi.

Oxudum sözünü anladı, qandı,
Kərəm kimi eşq oduna qalandı,
Dərya təlatümlü o çalxalandı,
Sözlərindən mərfətini bəyəndi.

İnsanın kamalı sözdə bilinər,
Varsa məhəbbəti gözdə bilinər,
Abırı-həyası üzdə bilinər,
El içində ülfətini bəyəndi.

Xəyalı dolandı aranı, dağı,
Kəlbəcərdə qarış-qarış torpağı,
"Tərtər" boyu çıxan hərbir bulağı,
"İstisu"yun sərvətini bəyəndi.

O istəyir dostlarına inansın,
Bərkdə-boşda imtahanda sınansın,
Nadan olsa el içində qınansın,
Mərd insanın şöhrətini bəyəndi.

Hərkəs əl atarsa onun sərinə,
Girəndi söhbətdə sözdə dərinə,
Heç kim yetməyibdir onun sirrinə,
Ustadların hörmətini bəyəndi.

Çox sevir tərlanı, alıcı quşu,
Cəmilin sərində kamalı huşu,
Coşanda ilhamı, alanda guşi,
Sənətkarın adətini bəyəndi.

***Cəmil Əkbər*** 25. 08 -1963

### 164. UNUTMAZ

Könül quşum vəfalıdır binadan,
Doğru sözü, düz ilqarı unutmaz.
Halaldı mayası ata-anadan,
Namusu, qeyrəti, arı unutmaz.

Ustada kəc baxan, bəy ola bilməz!
Sellənib axsa da, çay ola bilməz!
Nəqədər dartılsa, yay ola bilməz!
Arif olan sənətkarı unutmaz.

Yüz min məna seçən ağdan, qaradan,
Söz ustası çıxmamışdır aradan,
Eldən ilham alıb, yazıb-yaradan,
Şəmşir kimi nəğməkarı unutmaz.

Gəzdik Qaraxaçı, Taxtayaylağı,
Dillərin əzbəri, Ceyranbulağı,
Vurğunun gəzdiyi hərbir oylağı,
Gül-çiçəkli o dağları unutmaz.

Dumanlı dağlardan adlayıb keçən,
Sərin bulaqlardan su alıb içən,
Hər sözü axtarıb mənalar seçən,
Söz ustası, xiridarı unutmaz.

Cəmil Kəlbəcərdə bir xeyli gəzdi,
Ətir saçan hər qönçədən gül üzdü,
Məhəbbəti pakdı, ürəyi düzdü,[1567]
"İstisu"yu o diyarı unutmaz.

***Cəmil Əkbər*** 1963 Kəlbəcər

[1567] 1) İlqar-etibarı, ürəyi düzdü, 2) Qohumun, qardaşın möhübün düzdü.

## 165. GÖRDÜM[1568]

Aşıq Şəmşir gəlib çatdım vətənə,
Dünyadan baş açıb qananı gördüm.
Hər meydanda sinə gərən çətinə,
Ellərin dərdinə yananı gördüm.

Tarixə nəqş edən ölməz adını,
Gədəbəy elinin söz ustadını,
İnsan sərrafının qohum-yadını,[1569]
Özünə mehriban sananı gördüm.[1570]

Baş əyməyən namərdlərə, iblisə,
Nifrət edən bədniyyətə, xəbisə,
Uymayan şeytana, şərə, nəfisə,
Kamal dəryasında sonanı gördüm.

Çapdırır meydanda öz Qıratını,
Pozmayır halını, nə baratını,
Saxlayıb əlində söz xarratını,
Əyrini-üyrünü yonanı gördüm.

Cəm olub sərində, çoxdu kamalı,[1571]
İşlədir sözünü çox müəmmalı,
Mən də oldum o kamaldan ummalı,
Məhəbbət bağına qonanı gördüm.

Dost bağına həzin əsir yel kimi,[1572]
Açır qəlbi, məhəbbəti gül kimi,
Gəlir təlatümə, axır sel kimi,
Qabarıb, kükrəyən ümmanı gördüm.

---

[1568] Cəmil Əkbərin Dədə Şəmşirə məktub vasitəsilə yazdığı "Gördüm"rədifli şeirini, Miskinli elinin ustad şair – aşığı Vəli Bayramova həsr edilmişdir.

[1569] Bəşər, cəmiyyətin qohum yadını.

[1570] Özünə dost-doğma sananı gördüm.

[1571] Görmüşəm sərində çoxdu kamalı.

[1572] Həzin əsir dost bağına yel kimi.

Fikiri, xəyalı dağdı, arandı,
Məqsədi, məramı tikib, qurandı,[1573]
Bəzən yağır, əsir, sanki borandı,
Qışın buzu kimi donanı gördüm.

Gözəldi arzusu, safdı niyyəti,
Hər sözü zər kimi, könül zinəti,[1574]
Nəsihət verməkdir onun tinyəti,
Xəstələr təbibi, loğmanı gördüm.

Sənin sözlərini oxuyan zaman,
Dostluq tellərini toxuyan zaman,
Şeirinin ətirini qoxuyan zaman,
Könlünün düşdüyü gümanı gördüm.

Cəmiləm, deyirəm hamı canlıdır,
Ürəyim insaflı, təmiz qanlıdır,
Şairin fikiri həyəcanlıdır,
Əmirə müntəzir fərmanı gördüm.

***Cəmil Əkbər*** 1963 Gədəbəy

## 166. SƏN![1575]

Şair Vəli bahar olub elimi,
Yaşıl dona, gül-çiçəyə bəzə sən!
Bağçamızda ətir saçan gülümü,
Bir dost kimi öz əlinlə üzəsən.[1576]

Şad olasan tanışlarla, dostlarla,[1577]
Arzum budur əyilməyən vüqarla,
Sədaqət, səxavət, min etibarla,
Qarış-qarış hər elləri gəzəsən.

---

[1573] Məqsədi, niyyəti tikən, qurandı.
[1574] Hər sözü zər kimi, dillər zinəti.
[1575] Cəmil Əkbərin "Sən"rədifli qoşması Gədəbəy elinin ustad şair-aşığı Miskinli Vəli Bayramova xitabən yazılmışdır.
[1576] Bir dost kimi gəlib onu üzəsən.
[1577]Şad olasan möhübbətli dostlarla.

Xain gözlər qoy işığa baxmasın,
Çeşməsi qurusun, çaya axmasın,
Qəm hicranı heç sinəni yaxmasın,
Yorulmayıb bu dünyada dözəsən.

Uçsun hər diyara könlünün quşu,
Tufansız, boransız ötüşsün qışın,
Cəm olsun başında kamalın, huşun,
Könüllər mülkünü duyub sezəsən.

Yayılsın hər elə şanın-şöhrətin,
İncitək düzülən sözün-söhbətin,
Ürəkdə cürətin, qolda qüvvətin,[1578]
Nadanı, nakəsi vurub əzəsən.

Qoymaynan kimsəni yoldan azmağa,[1579]
Yalan-palan cızma-qara yazmağa,
Mərdin ayağından namərd qazmağa,[1580]
Salasan onları dərin, üzə sən.

***Cəmil Əkbər***

## 167. OLARDI

Görsəydim a dostlar şair Vəlini,
Havalar açılıb, a yaz olardı.
Axıtsa həyatda söz gövhərini,
Məclis qızışardı, kef saz olardı.

Açardı qəlbimin çiçəyi, gülü,
Ötər qönçəsində şeyda bülbülü,
Görüb, eşitsəydim o əhli-dili,
Nə gözəl səadət, muraz olardı.

---

[1578] Artsın yaratdığın şeir sərvətin.
[1579] Cəmil deyir qoyma kimsə azmağa.
[1580]Verdiyi əhdini, andı pozmağa.

Yeni söz deyərdik, məzələnərdik,
Saz çalıb, oxuyub təzələnərdik,
Sərraf süzgəcindən biz ələnərdik,
Qəlblərə iz salan avaz olardı.

Görsəydim ustadı, o sənətkarı,
Baş alıb qalxardım göylərə sarı,
Ötərdim səmada uçan quşları,
Dərya da qarşımda dayaz olardı.

Gördükcə şairin məharətini,
Qəlbində məhəbbət hərarətini,
Dedikcə sözlərin həqiqətini,
Cəmilin ilhamı pərvaz olardı.

***Cəmil Əkbər*** 25.08 -1965

## 168. DEYİRLƏR

*Miskinli şair Vəli Bayramovun vəfatı münasibətilə*

Elimin-obamın söz sənətkarı,
Bu fani dünyadan köçdü deyirlər.
Miskin ocağının düz sənətkarı,
Əcəl şərbətini içdi deyirlər.

Bir də ana doğmaz şair Vəlini,
Sözün xiridarı, inciləlini,
Qoydu qəlbimizdə, öz heykəlini,
Emirli balası uçdu deyirlər.

Düşüncə, təfəkkür, kamal sahibi,
Əqidə sahibi, amal sahibi,
Mənəvi gözəllik, camal sahibi,
İdrakdan nurunu saçdı deyirlər.

Qüdrət qələmindən pay aldı getdi,
Şəmşir, Ələsgərə tay oldu getdi,
Əyildi qaməti yay oldu getdi,
Başını götürüb qaçdı deyirlər.

O, söz dünyasında aciz qalmadı,
Nə “Hicranı”, nə “Dilqəmi” çalmadı,
Onun gözü onda-bunda olmadı,
Nəqədər qıfılbənd açdı deyirlər?

Cəmil Əkbər, gəl qərq olma qəhərə,
Ömür-günü hədər etmə kədərə,
Miskin Vəli getməmişdir hədərə,
Yaxşını-yamandan seçdi deyirlər.

***Cəmil Əkbər*** 6. 01 – 1996

## 169. TAPMIŞAM[1581]

Nə müddətdir gəlib-keçib aradan,[1582]
Axır gəlib süxəndanı tapmışam.
Dərs almamış əlif-beydən, qaradan,
Vəli kimi gövhər-kanı tapmışam.

Görünür olmuşam tifili-nadan,
Düz qoyulan təməlinə binadan,
Oxumamış alim olan anadan,
İşıq verən çıraqbanı tapmışam.

Yaxından görmüşəm, uzaq durmuşam,[1583]
Ötəri əl verib, hal da sormuşam,
Heyif ötən günlər bada vermişəm, [1584]
Bol məhsullu bu bağbanı tapmışam.

Gəldimki yanına sənət öyrənəm,
Deyəm ki, taleyi xoş olan mənəm,
Dodaqlarda gəzib, dildə söylənəm,
Düz göstərən yol-ərkanı tapmışam.

Cəmiləm yaxşını-yamandan seçdim,[1585]
Cığırlar adlayıb yollardan keçdim,[1586]
Şeir çeşməsindən ləzzətlə içdim,
Pürkamalı, dürr dəhanı tapmışam.

***Cəmil Əkbər*** 20.08 – 1963 / Gədəbəy

---

[1581] "Tapmışam" rədifli şeirini Cəmil Əkbər Miskinli şair Vəli ilə yaxından tanış olduğu zaman aldığı ilk təəssürat əsasında yazmışdır.
[1582] Neçə illər gəlib-keçib aradan.
[1583] Görmüşəm yaxından, uzaq durmuşam.
[1584] Heyif keçən günü bada vermişəm.
[1585] Cəmiləm yaxşını yamanı seçdim.
[1586] Çaylardan adlayıb, sellərdən keçdim.

## *II BÖLÜM: CƏMİL ƏKBƏRƏ ÜNVANLANMIŞ ŞEİRLƏR*

### 170. (1) ÜRƏYİN[1587]

Axtarıb gəzmişəm öz evim kimi,
Görmüşəm təmizdi, sağdı ürəyin.
Hələ kin-kədərdən çox uzaqdadı,
Bir ləkə düşməyib ağdı ürəyin.

Sidqinən edirəm əhdi-vəfanı,[1588]
Görəsən dövranda zövqü-səfanı,
Dost yolunda ha çəkirsən cəfanı,
Sıxılmayan böyük dağdı ürəyin.

Şəmşirin söhbəti, sözü səndədi,
Qəlbi, məhəbbəti, özü səndədi,
Əllisi məndəsə, yüzü səndədi,
Çiçəklənən solmaz bağdı ürəyin.[1589]

***Dədə Şəmşir*** 7. 01 – 1966

### 171. (2) AYRILIQ (1) [1590]

Yazan belə yazıb getməsəm olmaz,
Canım dost yanında qalır, ayrılıq.
Nəqədər istəklə etsəm ərki-naz?
Yenə də aqibət olur, ayrılıq.

Qəmlər dəryasında qərq olub gəmi,
Dayaza çəkməyə bilmirəm çəmi,
Qaralır yağışlı buludlar kimi,
Sulanır gözlərim dolur, ayrılıq.

---

[1587] “Ürəyin” rədifli şeirini Dədə Şəmşir Cəmil Əkbərə həsr etmişdir.

[1588] Haqqınan edirəm əhdi-vəfanı,

[1589] Dədə Şəmşirin səmimi etiraf məktubu. *“Mən bu barədə yaltaqlıq etsəm yadlar üçün edərdim. Ancaq düz söz danışanın ağzı əyilməz. Elə mən də ona görə düz danışdım. Sizin. Q. Ş. (Qocayev Şəmşir). Gəncə Şəhəri. 7. 01 – 1966”*

[1590] Dədə Şəmşir “Ayrılıq” rədifli şeirini, bir müddət Cəmil Əkbərin müsafiri olub Gəncədən ayrılıb Kəlbəcərə gedərkən əziz dostuna xitabən yazmışdır. Ümumiyyətlə Dədə Şəmşir Cəmil Əkbərə iki fərqli “Ayrılıq” şeiri yazmışdır. Təqdim etdiyimiz 1-ci “Ayrılıq” qoşmasıdır.

Qonaq getməlidir, çalınır zəngim,
Halallıq almaqdır varsada ləngim,
Fəsli-xəzantəki, irzi-irəngim,
De necə saralır, solur ayrılıq?

Görüşə gəlmişdi Niyaz müəllim,
Gədəbəy mahalı mənim öz elim,
Bu firqətə çətin olur dözəlim,
Əlimdən ixtiyar alır, ayrılıq.

Şəmşiri xəstəlik salıbdı dildən,
Olmuşam ulusdan, obadan, eldən,
Çox zülümlə uzaşıram Cəmildən,
Bir ürəyi iki bölür, ayrılıq.

***Dədə Şəmşir*** 1981

### 172. (3) AYRILIQ (2) [1591]

Ayrılıq çətindir vəfalı dostdan,
Alışır canımda atəş, ayrılıq.
Könlümün bağında saralır bostan,
Tökməzmi gözlərim qan-yaş, ayrılıq?

Əsla yad olmayaq, tez yada düşək,
Biz gələk haraya, dada yetişək,
Haqq qismət eyləsin, bir də görüşək,
Olmasın əzizim birbaş, ayrılıq.

Qoy sənə söyləyim, sən dərdimi bil,
Ayrılıq Şəmşiri eyləyib məlul,
Ay istəkli Midhət[1592], möhtərəm Cəmil,
Eyləyir ürəyim təlaş, ayrılıq.

Gedərəm Daşkəsəndən,
Qorxuram yol kəsəndən,
Halallıq ver ay Cəmil,
Ayrıldım bəlkə səndən.

***Dədə Şəmşir***

---

[1591] Dədə Şəmşirin Cəmil Əkbərə yazdığı 2-ci "Ayrılıq" şeiri.

[1592] Qazax elinin II Şıxlı kəndində dünyaya göz açan, Fəlsəfə elmləri namizədi, dosent Midhət Qurbanəliyev nəzərdə tutulur.

## 173. (4) NƏ ONDA YAXŞIDIR, NƏDƏKİ İNDİ[1593]

Şeir dünyasına qərq olan insan,
De, sən danışırsan hansı dünyadan?
Artıq dəyişmişdir gördüyün zaman,
Nə onda yaxşıdır, nədəki indi.

Duyulmur heçkəsdə insanlıq səsi,
Nə sözü düz gəlir, nə də kəlməsi,
Düşübdür ortaya varlanmaq bəhsi,
Nə onda yaxşıdır, nədəki indi.

İndi ağıl, elm, mərifət itir,
Gül-çiçək yerində tikanlar bitir,
Çörək yoxa çıxır, tükənir fətir,
Nə onda yaxşıdır, nədəki indi.

Cəhalət dünyası yaranır indi,
Ədavət dünyası söylə kimindi?
Zəlalət dünyası mənim, sənindi,
Nə onda yaxşıdır, nədəki indi.

Mötəbər adamlar yox olub gedir,
Bu bir oyuncaqmı, yoxsakı nədir?
Nə qiymət bilinir, nədəki qədir,
Nə onda yaxşıdır, nədəki indi.

Bu işdə müqəssir nə sənsən, nə mən,
Oynamaq olarmı, söylə fələknən?
Yaşayaq bir müddət arzu-diləknən,
Nə onda yaxşıdır, nədəki indi.

İndi lotu-potu dünyasıdır bil,
Məsumluq nə lazım qardaşım Cəmil?
İnsaf yoxa çıxır, yox olur adil,
Nə onda yaxşıdır, nədəki indi.

***Şair İsfəndiyar*** 6. 12 – 1994

[1593]İsfəndiyar adlı şairin Cəmil Əkbərə ünvanladığı “İndi” rədifli qoşması.

## 174. (5) CƏMİL[1594]

Deyirəm a dostlar, siz də eşidin,
Nitqimdə, dilimdə sözümdür Cəmil.
Mənə kainatın nurun bəxş edən,
Bir cüt bəbəyimdir, gözümdür Cəmil.

Onun varlığına borcluyam müdam,
Kəsilmiş çörəyi itirməz adam,
Bəlkə də qardaşım, bəlkədə atam,
Bükülməz qolumdur, dizimdir Cəmil.

Kərəm bəxtin yatıb, niyə ayılmır?
Nuru qalxıb kainata yayılmır?
Təkcə Gədəbəyin oğlu sayılmır,
Həm də Şirvanlıdır, bizimdir Cəmil.

***Şair Kərəm Kürqıraqlı*** 1976

## 175. (6) BU DÖVRANDA [1595]

*Atam qədər sevdiyim Cəmil müəllimə*

Ürək qəmli könül dərdli, qəlb ağrıyır bu dövranda,
Bulud qalxır, duman gəlir, şimşək çaxır bu dövranda.

Bir ürəyi sevinc ilə, güldürürsə əgər zaman,
Min ürəkdən kədər keçir, qanlar axır bu dövranda.

Hikmətə bax, nadan olan hakim olub kainata,
Aqil insan həsrət ilə gendən baxır bu dövranda.

Ürək yanır atəş ilə seçilməyir mis ilə zər,
Hərkimsənin öz qiyməti yoxa çıxır bu dövranda.

İnsanlardan gözləyirəm, törətsələr hərbir əzab,
Axı fələk öz əliylə evlər yıxır bu dövranda.

---

[1594] Şair Kərəm Kürqıraqlının Cəmil Əkbərə ünvanladığı ilk şeir “Cəmil” adlanır.
[1595] Şair Kərəm Kürqıraqlının Cəmil Əkbərə ünvanladığı 2-ci şeir “Bu dövranda” adlanır.

Dünən xalqa hökm verən, möhtac olur səadətə,
Gəda isə şah yerinə taxtda çıxır bu dövranda.

Bu dərdləri çəkdikcə mən, qan-yaş dolur gözlərimə,
Deyirlərki yazıq Kərəm can saxlayır bu dövranda.

***Şair Kərəm Kürqıraqlı*** 26. 11 - 1973

## 176. (7) KASIBLIQDAN GİLEYİM[1596]

Necəki kasıblıq basıbdır məni?
O gündən kişilik gedibdir əldən.
Dünən idarədə "müdirim deyir",
"Heç kişi çıxıbmı sizin nəsildən?"

Hərdən evimizdə anam soruşur,
Hanı müsafirin, dostun sirdaşın?
Ay bala bilmirəm səbəbi nədir?
Sənə məhəl qoymur kiçik qardaşın.

Gündə sağlığıma tost deyən dostlar,
Çəkilib kölgəyə, görünmür daha.
Yoxsulluq sinəmə dağlar çəksə də,
Onları tanıdın şükür Allaha.

Kasıblıq hərkəsin yumsa gözünü,
Qəflət yuxusundan yatır, ayılmır.
İndiki zamanda Cəmil müəllim,
Kimin pulu yoxsa kişi sayılmır.

Kişilik insanın şərəfi-şanı,
Kişilik insanın şöhrət tacıdır.
Hərkəs kişilikdən uzaşsa dostlar,
İnanın həyatda qəm möhtacıdır.

---

[1596] "Kasıblıqdan gileyim" adlı qoşma şair Kərəm Kürqıraqlının müəllimi Cəmil Əkbərə ünvanladığı 3-cü şeiridir.

Kərəməm yoxsulluq tutalı məni,
Yaxşını-yamanı seçib bilmişəm.
Arvad da nəzərdən salmasın deyə,
Kişi olmaq üçün pul gətirmişəm.

*Otmanoba kəndi*

***Şair Kərəm Kürqıraqlı (Zərdablı)*** 1.10 - 1975

## 177. (8) GÜLMƏSİN[1597]

Sənə şeir yazdım titrədi qələm,
Kədərli günlərin geri dönməsin.
Səni mətin görüm uca dağ kimi,
Qəm-kədər qarşında qoy sevinməsin.

Yüz-min kişi girsə səninlə cəhdə,
Səntək bütöv olmaz verdiyi əhdə,
Üstündən əsməsin acı bir meh də,
Vüqarın göylərdən yerə enməsin.

Yayılır sinəmə sözün yağ kimi,
Solmasın saf eşqin bağça-bağ kimi,
Ağarsada başın uca dağ kimi,
Odlu ürəyinin odu sönməsin.

Bu qəmli gününə dözməyir ürək,
Cəmil, cəza versin cəllada fələk,
Deyirəm dərdini gəl yarı bölək,
Bunu dostlar bilsin, yadlar görməsin.

Məhər dərd əlindən bil divanədir,
Cismi odda yanan bir pərvanədir,
Dünya başdan-başa bir qəmxanədir,
Çalışaq nadanlar bizə gülməsin.

***Şair Məhər Mehdiyev*** 14.07-1992

[1597] Şair Məhər Mehdiyevin Şəhla İlqarqızının vəfatı ilə əlaqədar Cəmil Əkbərə ünvanlandığı “Gülməsin” adlı qoşması

## 178. (9) CƏMİL (1)[1598]

Xeyirxah əməlin, zəkalı başın,
Qəlbimi bağlamış sənə, ay Cəmil.
Görürəm binanda möhkəmdir daşın,
Düzlüyü hər yanda sən də yay, Cəmil.

Bu küsgün ruhumu ovlayıb hərdən,
Dərdləmiş könlümü ələ alırsan,
Sədalar qoparıb sarı simlərdən,
Boyaqsız qəlbimə nalə salırsan.

Qələmin güclüdür, sözün kəsərli,
Müqəddəs dostların iftixarısan,
Boyaqlı kağızda dolğun əsərli,
Xərabə bağların müşgü barısan.

Düşüncən sağlamdır, ürəyin təmiz,
Dostluğa sadiqsən vəfalı Cəmil.
Nadanlar dərk etməz gövhəri, hərgiz,
Həyatı keçsədə səfalı Cəmil.

Xəyala qapılıb naümid gəzmə!
Qarınca kirpini məhv edə bilir,
Özündən acizi heç zaman əzmə,
Güc-qüvvə  tükənib tez gedə bilir.

Bəşərdə vicdanı duyğu yaradır,
Duyğusuz nadanda mərdlik olarmı?
Çatlamış saxsılar suyu daradır,
Qırılmış kuzəyə maye dolarmı?

***Qocayev Mikayıl***

---

[1598] El şairi Mikayıl Qocayevin  Cəmil Əkbərə 3 rədifdə şeir ünvanlamışdır. “Cəmil” rədifli qoşma bunlardan biridir.

## 179. (10) CƏMİL (2)[1599]

Dərdimi bilməyə məcbur edirsən,
Kədərim ürəkdə qalsın, qoy Cəmil.
Bilirəm könüldə mənlə gedirsən,
Gənclərə etməyə dərdsiz toy Cəmil.

Qorxuram dərdimi mən desəm sana,
Hissinə toxuna, ağlada sazım.
Deməki fəqana başladı yenə,
Mən şadlıq görmədim, bəs nədən yazım?

Fəlsəfi cümləndən mən ilham alıb,
Sözləri uydurub hərdən yazıram,
Gərdişi-dövranı yadıma salıb,
Uğursuz yollarda tez-tez azıram.

Ədalət aşiqi, xəyal düşgünü,
Zəlalət keçirmiş bir səfiləm mən.
Şən bahar həsrəti, könül küsgünü,
Keçirib qışlayan bir fəsiləm mən.

Dalğalı dənizdə hey üzə-üzə,
Torçudan gizlənmiş yaralı ovam.
Uçurumlu yola daş düzə-düzə,
Səhhəti pozmuşam, çatmır avazım.

Təməlsiz qurumuş əzəldən binam,
Cıdırlar açılmış köhlən sinəmdə.
Kimsədə görmürəm etiqat, inam,
Kahindən qalmayam bu eldə mən də.

Sehirli dərdim var, açılmaz yaram,
İşgəncə əhlinə onu deyərəm.
Çox isti yaylarda əriməz qaram,
Günəşli baharda duman geyirəm.

---

[1599] El şairi Mikayıl Qocayevin Cəmil Əkbərə ünvanladığı 2-ci şeirinin ismi yenə "Cəmil" adlanır.

Beynim də çürüyüb, boş qalıb başım,
Şüursuz sərsəmə kim bel bağlayar?
Sən mənim dostumsan, həm də sirdaşım,
Yaşayan ölünü sirdaş ağlayır.

İstədim qəlblərə qoyam güzgünü,
Xəyalda seçilə, boyaqlı ürək,
Çalışdım insanın olam düzgünü,
Əksinə, olmadı heçkəsə gərək.

Yardıma getmişəm qohuma, yada,
İtmişdir əməyim, mən kimə deyim?
Həyatda mərd yaşa Cəmil, sənsada,
Zəhəri tullayıb, mən də bal yeyim.

***Şair Mikayıl Qocayev*** 2. 03 - 1964

## 180. (11) GƏLMİŞƏM[1600]

Yoxsullar atası, elimin fəxri,
Soraq edib pənahına gəlmişəm.
Bir köməyim yoxdur, çəkirəm qəhri,
Kömək səndən, pənahına gəlmişəm.

Kimsəsiz nə lazım dövlətdə, varda?
Yoxdur bir köməyim, qalmışam darda.
Mərdə canım qurban olsada harda?
Mərd adına, pənahına gəlmişəm.

Altı qız külfətim, birdi köməyim,
Əl atmasan zaya gedər əməyim,
Kömək sizdən, nə lazımdır deməyim?
Əsirgəmə, pənahına gəlmişəm.

Adınız ucaldır Miskin elini,
Əsirgəmə məndən kömək əlini,
Uzun eylə dost yanında dilimi,
Mərd adına pənahına gəlmişəm.

[1600] El şairi Mikayıl Qocayevin Cəmil Əkbərə ünvanladığı 3-cü şeiri “Gəlmişəm” adlanır.

Dostun oldum 69[1601] yayına,
Borclu qalaq Cəmil haqq-sayına,
Qoy dönsün günümüz bayram ayına,
Mərd adına pənahına gəlmişəm.

Miskin Mikayılam qurbanam mərdə,
Müşgül könülləri o qoymaz darda,
Kömək durar varsa eloğlu harda?
Mərd adına pənahına gəlmişəm.

Bülbülün öldüyü gül şöhrətidi,
Dosta kömək yüksək dil şöhrətidi,
Oxumaq hazırda el şöhrətidi,
Bu ad üçün pənahına gəlmişəm.

***Şair Miskin Mikayıl Qocayev***

## 181. (12) DAĞLARI[1602]

Kəlbəcərdə qışın oğlan çağıdır,
Qar bürüyüb Haçagədik dağları.
Səf-səf durub boran, çovğun ordusu,
Sanki tutub həmişəlik dağları.

Salbuz bağlayıbdı baxsan hər yana,
Çalxanmır sularda yaşılbaş sona,
Tərgidib getməyib payız arana,
Qırqovul meşəni, kəklik dağları.

Hənirtimi gəldi geridə, kolda?
O nə qaraltıdı, görünür yalda?
Bir gözü qabaqda, bir gözü dalda?
Səksəkəli gəzir əlik dağları.

---

[1601] "69 yayına" – bu kəlmənin anlamı Cəmil Əkbərlə şair Mikayıl Qocayevin dostluğunun başlamasının ili qeyd olunur. Yəni 1969-cu ilin yay mövsümü nəzərdə tutulur.

[1602] Kəlbəcərli şair İdris müəllimin *(Pansi Kürdüstan)* Cəmil Əkbərə göndərdiyi şeir məktub "Dağları" adlanır.

Sanki bağlar belə qalacaq donsuz,
Açılmaz bənövşə, göyərməz yarpız.
Oynaşa gülüşə dəstə gəlir, qız,
Bir də gəzməz bölük-bölük dağları.

Qışda da zinətin saya bilmirəm,
Nə deyim bulağa, çaya bilmirəm?
İdrisəm, hüsnündən doya bilmirəm,
Ha gəzirəm ləlik-ləlik dağları.[1603]

***Şair İdris*** 21. 02 – 1982

## 182. (13) BƏŞİRƏM [1604]

Yarandım dünyaya nə yaxşı, nə pis,
Hər şeyin dərdini çəkən Bəşirəm.
Bərkdə-boşda az da olsa sınandıq,
Həmişə gözyaşı tökən Bəşirəm.

Həsəd çəkdim tirmə-şala, qumaşa,
Ömrü saldım həyacana, təlaşa,
Gərəksiz ömürə, gərəksiz yaşa,
Mənasız ömürə gülən Bəşirəm.

Gərəkdirmi yaşa dolub qarıyım?
Həyatımdan, taleyimdən yarıyım?
Başarmıram dost-qohumu sarıyam,
Hərcayı sözləri bilən Bəşirəm.

Dünya yaranıbdır ağlı-qaralı,
Meylimi salmışam eldən aralı,
Məndən heç olarmı dağlar qartalı?
Uçmamış səmadan enən Bəşirəm.

---

[1603] Şair İdris müəllimin Cəmil Əkbərə ünvanladığı məktub: "*Hörmətli Cəmil müəllim Pansi Kürdüstan salamları. Əvvəllər gəldim Sizinlə görüşə bilmədim. Fikrim Sizi bir neçə saatsa da olsa dinləmək idi. Bakıdakı kimi... Sağlıq olsun. Ailənizə və məni tanıyanlara qardaşlıq salamı yetirin. Çox-çox hörmətlə həmişə sizi yad edən İdris müəllim. 21. 02– 1982 Kəlbəcər.*"

[1604] Gədəbəyli Bəşir müəllimin Cəmil Əkbərə ünvanladığı "Bəşirəm" rədifli şeir.

Günəş kimi heç parlamaz əməlim,
Möhkəm deyil bünövrədən təməlim,
Bax belədir, sızıldasam əməlim,
Cəmili ürəkdən sevən Bəşirəm.

***Bəşir müəllim*** Zəhmət kəndi / Gədəbəy.

### 183. (14) GÖRÜRƏM[1605]

Sizin şəxsinizdə Cəmil müəllim,
Dünyada ən kamil insan görürəm.
Ağlına, elminə, mərifətinə,
Olmuşam hərzaman heyran görürəm.[1606]

Bilirsiz böyüyün, kiçiyin yerin,
Öyüd-nəsihətdir şirin sözlərin,
Qeydinə qalmağa obanın, elin,
Sizitək yetirmiş zaman görürəm.

Zəkan işıqladır hər an zülməti,
Şirin sözlərinin yoxdur qiyməti,
Koroğlu qaməti, Vaqif sənəti,
Cismində tapmışdır məkan görürəm.

İgid gərək hünər ilə öyünə,
Köksündə həqiqi ürək döyünə,
Vətənin düşəndə dara, düyünə,
Olur göz yaşların leysan görürəm.

Yaxşını yamandan tezcə seçirsən,
Dost yolunda şirin candan keçirsən,
Hərdən bir həddindən artıq içirsən,
Yalnız bunu sizdə nöqsan görürəm.

Sizə ilham verir Vətənin özü,
Qarlı zirvələri, bəhərli düzü,
Sərindən süzülüb gələn hər sözü,
Təyyarın qəlbinə həyan görürəm.

***Şair Təyyar müəllim*** 20. 08 – 1979

---

[1605] "Görürəm" rədifli qoşmasını Təyyar müəllim Cəmil Əkbərə həsr etmişdir.
[1606] Olmuşam əzizim heyran görürəm.

## 184. (15) SƏNİN[1607]

Cəmil müəllim, görsənmirsən xeyli var,
Bilirsən vurğunam sözünə sənin.
Mənidə qəlbincə elə düşündür,
Necə etibarın özünə sənin.

Sadə xasiyyətin mənə dad verir,
Gizli mövzulara bəzən ad verir,
İnan ilhamıma qol-qanad verir,
Kəlməni verərəm yüzünə sənin.

Təbim təsir etdi adını andım,
İnsanlıq elmini mən səndə qandım,
Yanıb kül olmamda demərəm yandım,
Beyqafıl alışsam közünə sənin.

Bəzi nankorlarda ləyaqət olsa,
Ürəkdən yaranan məhəbbət olsa,
Hərkəsin qəlbində ləyaqət olsa,
Kim düşə bilərki izinə sənin?

Qiyas Cilovdarlı yazıbdır düzün,
Ürəyin təmizdir, haqq görür gözün,
Hikmətli fikirin tutarlı sözün,
Eləbil güllədir bəzinə sənin.

***Qiyas Cilovdarlı*** 9.07-1982 / Gəncə

## 185. (16) SƏNİN[1608]

Mən səsini dinlədikcə efirdən,
Eləbil görürdüm özünü sənin.
Vuruldum mən sənə a dağlar oğlu,
Şəhdi-şəkər bildim sözünü sənin.

[1607]Şair Qiyas Cilovdarlının Cəmil Əkbərə həsr etdiyi "Sənin" rədifli qoşması.

[1608] Şair Miskin Cavanşirin Cəmil Əkbər həsr etdiyi 5 bəndlik "Sənin" rədifli qoşmasına Cəmil Əkbərin eyni rədifdə cavab verdiyi 3 bəndlik cavab şeiri. Miskin Cavanşirin "Sənin" rədifli bu şeiri Cəmil Əkbərin Azərbaycan Radiosunun "Bulaq" verilişində "Dədə Şəmşirlə Miskinli şair-aşıq Vəli"nin görüşü barədə verdiyi məlumatları, radio dinləyicilərinə anlatdığı zaman bu verilişin təsirindən yaranmışdır.

Sevdin Allah kimi sazı-sözü sən,
Şəninə söylədim min dəfə əhsən,
Gah Şəmşirdən dedin, gah da Validən,
Duydum qəlb odunun közünü sənin.

Nə gözəl təbii ilhamın varmış,
Dərin zəkan, ağlın, kamalın varmış,
Hikmətli sözlərin kəlamın varmış,
Nəola görəydim özünü sənin.

Eləbilki səndə Miskin təbi var,
Miskin ürəyi var, Abdal qəlbin var,
Hər misranın yeri, öz mətləbi var,
Bənzətdim sərrafa gözünü sənin.

Həm alimsən, həm şairsən xilqətdə,
Bir natiqsən, dilavərsən söhbətdə,
Miskin Cavanşirəm hər vaxt sənətdə,
Görəcək nəsillər izini sənin.

***Miskin Cavanşir*** 20. 02 - 1994

## 186. (17) SƏNİN[1609]

Çox sağ ol Cavanşir, əziz eloğlu,
Oxudum, dinlədim sözünü sənin.
Təbiət açıbdır, təmiz eloğlu,
Şeir bulağının gözünü sənin.

Düzünü deyirsən saza vurğunam,
Şeirə, sənətə, sözə vurğunam,
Ruhumu oxşayan gözə vurğunam,
Tale xoş gətirsin yazını sənin.

Sərində dolanan kamala əhsən!
Əqidə, vicdana, amala əhsən!
Mənəvi gözəllik, camala əhsən!
Çəkəydim ərkini, nazını sənin.

***Cəmıl Əkbər*** 8. 03 - 1994

---

[1609]Cəmil Əkbərin şair Miskin Cavanşirin “Sənin” rədifli şeirinə cavab.

## 187. (18) MƏN[1610]

Cəmil qardaş, mehribansan əzəldən,
Bir əzəmət, vüqar gördüm sizdə mən.
Qız balanın toy günüdür, ay ellər,
Bir belə də gün keçirim bizdə mən.

Sanki məclis deyil, bir cənnət idi,
İnan yuxu kimi həqiqət idi,
Saz idi, söz idi, bir hikmət idi,
Fərəh, sevinc hiss edirdim gözdə mən.

Səfxanın[1611] xoş idi səsi, avazı,
Ancaq ağladırdı İlqarın[1612] sazı,
Təzənəsiz çaldı Dəmirin[1613] özü,
Valeh idim, duydurmurdum üzdə mən.

Şəmistan[1614] süfrəni bəzədi bir də,
Onu görüm hər vaxt olsun xeyirdə,
Canbaxçalı tüğyan etdi şeirdə,
Kömək oldum hərdən ona sözdə mən.

Hacı[1615] müəllim gəldi, güldü gözümüz,
Şirin oldu söhbətimiz, sözümüz,
Neçə alim məst eylədik düzü biz,
Bir iz qoydum hər cığırda, izdə mən.

Nəşə də bol idi, sevinc də boldu,
Nemət də, çiçək də yığıldı, doldu,
Oxundu, çalındı, bir büsat oldu,
Söz olmasın: lənət! – dedim Yezidə mən.

---

[1610] Şair Kamal Əlizadə, qızı Aludənin toyu münasibətilə Cəmil Əkbərə həsr etdiyi "Mən" rədifli qoşması.

[1611] Gədəbəyin Qaradağlı kəndində anadan olmuş, Kimya elmləri namizədi, dosent Səfxan Hüseynov nəzərdə tutulur. Səfxan Hüseynov saz, balaban alətində kamil çalmaqla yanaşı həm də bədahətən şeirlər də qoşurdu ifa məqamında.

[1612] İlqar Cəmiloğlu nəzərdə tutulur.

[1613] Məşhur saz ifaçısı Dəmir Həsənov nəzərdə tutulur.

[1614] Cəmil Əkbərin qohumu Şəmistan Qurbanov nəzərdə tutulur.

[1615]Coğrafiya elmləri namizədi, dosent Hacı Həsənov nəzərdə tutulur. Kənd Təsərrüfatı İnstitutunda "Qızıl Hacı" ləqəbi ilə tanınırdı.Cəmil Əkbərin qızı Aludə Əkbərovanın qaynatası. Cəmil Əkbərin kürəkəni Azər Həsənovun atası.

Fərmanın da az olmadı zəhməti,
İtirən deyildir qədir-qiyməti.
Mərd adamdan götürərəm minnəti,
İsinmərəm hər ocaqda, közdə mən.

Kamal, bu ibrətdir inan qanana,
Əlbət səsi düşər onun hər yana,
Burda qonaq gəlsin Azərbaycana,
Soraqlaşım hər gecə-gündüzdə mən.

***Şair Kamal Əlizadə*** 6.09-1982 /Gəncə

### 188. (19) YAŞADAR SƏNİ

*Şair-alim Cəmil Əkbərə xitabən*

Bismillahla başlayıram mən sözü,
Məhəmməd hümməti yaşadar səni.
Elin şair oğlu, alimi, gözü,
Xalqın məhəbbəti yaşadar səni.

Şan-şöhrətin sorağında olmadın,
Nadanlarla süfrə yerə salmadın.
Mərd kişilər məclisindən qalmadın,
Dostların qiyməti yaşadar səni.

Haqq yolunda ağartmısan sən başı,
Zəhmət ilə yaratmısan hər işi,
İncitmədin dostu, yadı, yoldaşı,
Aqillər mürvəti yaşadar səni.

Xəyalların qartal kimi dağlarda,
Könül quşun cövlan edər göylərdə,
Nəvələrlə oynadığın çağlarda,
Balalar külfəti yaşadar səni.

“Sevilən qocalmaz, sevən qocalmaz”,
Xainlər, xəbislər heç vaxt ucalmaz,
Ədalət aşiqi şair qocalmaz,
Əqlinin zəhməti yaşadar səni.

Həyatın dəyişib qarışan zaman,
Düşmənlər qətlinə çalışan zaman,
Vücudun od tutub, alışan zaman,
Cahanda hörmətin yaşadar səni.

Mirabbas oğluyam safdır niyyətim,
Təbib Füzuliyəm, bimar həyatım,
Cəmil Əkbərimə budur söhbətim,
Şairlik fitrətin yaşadar səni.

*Dərin hörmət və ehtiramla mayor **Füzuli Nəsirzadə*** Gəncə 1999

## *III BÖLÜM: ÇƏMİL ƏKBƏRİN RUS DİLİNDƏ YAZDIĞI ŞEİRLƏR*

### 189. (1) АЗЕРБАЙДЖАН – УКРАИНА

Дружбою мы рождены
Дружбою мы сильны!
Дружбой наполнены наши сердца,
Дружбой отличается наша страна!
Низкий поклон тебе Украина
Шлет тебе мой край родной,
Тебя мы любим город Жемчужина
Клянусь тебе вечной Гошгар- горой!
Герои ваши Украина
Народов общие сыны,
Герои наши Азербайджана
Твои Украина сыны!
На твоих добрых улыбках
Видим всегда деликатности след,
Ты даже при убытках,
Не переживаешь Украина бед!
Радует, восхищает, нас твой оптимизм,
Твои Украина труженицы!
Ушел в прошлое анимизм,
Трудятся в Азербайджане твои близнецы.
Нам хочется слушать Тараса Шевченко,
Великого брата Низами Гянджеви,
Дружбу народов беречь зорко,
Борись, побеждай, утверждайся, живи!

***Джамиль Акпер***

## 190. (2) ТЕБЯ РАНЬШЕ Я ЛЮБИЛ

Тебя раньше я любил,
Потревожил , разбудил!
Я же тебя ласковал
Без тебя я тосковал.
Везде всюду я искал,
Зачем теперь перестал?
Ты же дала согласия
Зачем разногласия?
Я же первый любовник
Кто был тому виновник
Кто же тебе помешал?
Что от тебя я отошел,
Кто же тебя так нашел
Осел, медведь иль шакал?
Зачем меня обижать?
Раз навсегда покидать,
Разочаровать, унывать,
Налив бензин поджигать.
Тебя не могу забыть!
Не смог любовь заменить.
Так родила мать меня,
А как родила тебя?
Любовь моя все глубже
Век от веков и дальше.
Слову своему предан.
Мечте, любви я предан,
Я преданный красоте,
Я преданный доброте
Искренности, чистоте.
Зачем меня забывать?
Достоинство унижать,
Ты же улыбнулась мне
Любовь хлынуло во мне
Не совершай глупостей.
Мою любовь не сотрешь
Далеко от него не уйдешь.
Моя любовь священна

Она не черства не сгущена.
Тебе стихи посвятил.
Чувства свои охватил.

***Джамиль Акпер*** / Киев / 1981 октябрь, ноябрь, декабрь

## 191. (3) ТЕБЯ!

Где ты осталась, эх дорогая моя!
Глаза слезами, везде ищут тебя,
Горит без тебя, моя душа страдая,
Я пламя, огонь от меня ищет тебя!

Бродят вокруг тебя все мысли , все думы
Туда возвращаются мои мечты, мой взгляд
Прочитай и узнай что ты не чужая мне,
Не устают мои ноги везде ищут тебя!

Несмотря на то, что я далеко от тебя,
Твой огонь превратил в песок, пепел меня
Без тебя не погасим, знай мое пламя
Дым поднял в небеса, увидеть в небесах тебя!

Я же пишу стихи, пусть доходит до народа!
Меня сопровождает коса седой борода.
Без тебя скука и горе давят на меня , всегда
Стуки сердца неустанно, ищут- ищут они тебя!

***Джамиль Акпер*** 6. 03 -1987

## 192. (4) ГДЕ СОВЕСТЬ?

Где советь , где честь немного стесняйся мужик!
Где гнев, где ненависть вытесняй урок мужик!
Куда ушла ты скажи преданности и доверия
Потеряла веру ты, изменила убеждения
Куда ушел скажи, ай милая муж твой ,
Оказался нелепым , оказался чуж твой!
Чего нашла ты в нем, чего ты не признаешь?
Играешь ты с огнем, чего ты не знаешь?
Тебя первым он любил, он сделал мат тебя
Он испортил, он сгубил, десять сделал пат тебя.
Тебя первым он любил он сделал бабуля
Улыбнулся на тебя он сделал кабыля.

***Джамиль Акпер*** 1.04 - 1987

## 193. (5) Я ЧЕЛОВЕК

Я человек верующий, где вера буду там,
Если птица голодный, где зерно буду там.
Я человек «грубый», где нежность буду там
Если грубый и жесток, где милость буду там.
Я человек наивный, где верность буду там
Я человек любящий, где влюбленный буду там.
Я человек весенний, где зелень буду там,
Я человек надежный, где доверие буду там.
Я человек педагог, где слушатели буду там
Я вежливый, гуманный, где достоинство буду там!
Я человек соловей, где роза буду там,
Мне нравиться трудиться, где дело буду там.
Я человек дорогой, где доброта буду там
Где насыщена любовь и бодрота буду там!
Я человек гуманный, где милость буду там,
Где совесть, где честь, всегда буду там,
Я человек мотылёк , где огонь буду там.
Я человек «без ума» , где умные буду там.
Где моя любимая , где же моя алая?
Ты не будешь временной, будешь будешь вечною!

***Джамиль Акпер***

## 194. (6) ГОРОД ГЕРОЙ

Киев –Отец Украинских городов
Центр торжеств, почета и славы!
И воплощение дел делов!
Создатель храмов величавых!

Ты город мужества и доблестных отцов,
Любящих матерей, сестер и братьев.
Тут братские могилы тысячи бойцов
Погибших в дни твои ненастий!

Ты город дисциплины и порядка,
Светлого разума и добрых сердец!
Где на устах у всех Мир!
Тебе чужды невежество и хамство.

Ты родина наук и мыслителей,
Творцов искусства и культуры
Смелых дерзновенных строителей,
Обладателей мужественной натуры.

Шагая по парку, по широким аллеям
Вдыхая цветущих каштанов аромат,
Воздаю я хвалу твоим сказочным скверам
Горжусь твоим Днепром беспредельно в сто крат!

Я свидетель триумфа твоих смелых
Успехов мастерства, мечты и порядка
Понятно мне мысль твоя взгляды и мнения,
Ясны и гуманные твои намерения.

Ты город убеленный сединой
И дружбы всенародной ты согретый,
Пройдя победоносною тропой
Встречай свое -1500 летие!

Будь всегда цветущим и гордым!
Да не повториться грусть, печаль твоя,
За хлеб и за соль остаюсь я благодарным!
Будьте здоровы всегда мои друзья!

***Джамиль Акпер*** 1981 сентябрь - декабрь

## 195. (7) ТЯНЕТ МЕНЯ

Я простой человек, вера тянет меня,
Я голодная птица, зерно тянет меня.
Я порода Сокола, гора тянет меня,
Замерзаю от холода, жара тянет меня!
Меня к себе тянет простота и доброта,
Даром служащих удел, жемчужина, золото.
Достойные люди и приятная красота!
Меня к себе тянет добродушный человек,
Пусть он живет годами, сотни тысячи и век.
Меня к себе тянет и сыновья, и дочка
Как зеница ока шесть прекрасных внучка!
Я трезвый человек, только ум тянет меня,

Мечты, дума тянет меня, мысли тянут меня.
Я человек дедушка, внуки тянут меня,
Их веселые лики и улыбки тянут меня!
Меня к себе тянет мыслящий человек,
Создающий человек и творящий человек,
Меня к себе не тянет равнодушие, пустота,
Беспокоят холода, пусть уходит темнота.
Меня к себе не тянет знающий эгоист
Не дословный человек, не заслуживший карьерист.
Меня к себе не тянет лживый человек
Всякие негодяи, не слушавший проповедь!
Меня к себе тянет глубокие знания!
Почетные заслуги, почетные знания!
Меня тянет к себе дорогая родина!
Как солнце и луна, и небеса, и звезда!

***Джамиль Акпер***

## 196. (8) ОТВЕЧАЙ

Хочешь на меня сердись, хочешь еще разозлись!
Иль поссорься со мной, или милая мирись,
Хочешь оживи меня , хочешь сильно бей убей,
Хочешь обрадуй душу, хочешь меня огорчи.
Хочешь меня ты сожги, хочешь меня погаси!
Хочешь ветки с дерева , согни меня, оторви.
Но от любви меня ты спаси!
Сомнения мое наконец –то ты развей
Хочешь меня назови попугаем, муравьем!
Мое сердце словно воск, хочет таять оно с тобой!
Хочет биться с тобой, потревожиться с тобой.
Будь всегда для меня пчелой слаще меда
Даже в пасмурные дни, даже в ясную погоду!
Хочешь стань моей навеки , хочешь ты уйди к другим
Хочешь забери меня, хочешь меня выгоняй
Хочешь ходи медленно, хочешь иди догоняй!
Зла на тебя не держу, ты же моя милая .
Глаз у тебя голубой, щеки совсем алые!

***Джамиль Акпер*** 3.02 - 1987 / Минск

## *IV BÖLÜM: CƏMİL ƏKBƏRƏ ÜNVANLANMIŞ MƏKTUBLAR*

### 197. (1) İlqar Cəmiloğlunun məktubu.

Salam! Nəslimizin mayağı, dayağı, canı, özü, sərrast görən gözü, haqq-ədalətlə döyünən qəlbi. Vicdan, məslək, əqidə naminə çırpınan ürək sahibi.

Salam! Saz-söz eşqiylə yanan-yandıran, alovlu, sönməz, ilamlı müqəddəs ocaq.

Salam! Ey insanlıq aləmində sözü düz, özü düz, pürkamal, nur camal ustad. Salam ey müqəddəs insan, ülvilik, paklıq mücəssəməsi.

Salam! Ey anadan böyüklük üçün yaranmış şəxsiyyət. İnsanlığın əlası, alisi.

Salam! Ey insanlıq şamının gecə-gündüz, hər saat, hər an başına dolanan pərvanəsi. İnsanlığın müqəddəs adını dünyada hərşeydən uca tutan, alınmaz vicdan, bütövlük qalası, mərdlik, sərtlik qayası.

Salam! Ey halallıqdan, müdriklikdən yoğrulmuş, ruhu, əqidəsi böyük, munislik mayası. Fədakarlıq, cəfakarlıq, əzimlilik, dözümlülük timsalı.

Salam! Ey ulu babalarımızın qanını, canını, ruhunu, nəfəsini, canında, ruhunda, qəlbində, işində, əməlində əqidəsində məhəbbətlə xalq üçün döyünən ürəyində yaşadan ulu pürani babaların yadigar nəvəsi.

Salam! Ey İlqarın fəxr etdiyi, güvəndiyi, güc-qüvvə aldığı, qürrələndiyi başı qarlı, kövrək qəlbli zirvəli aşırımla zəngin möhtəşəm görünümlü, əsrarəngiz minarəli, şahanə abidəli Dağlarım.

Salam ey Ata! Salam! Salam! Salam! Biz tərəfin əhvalı ilə tanış olmaq istəsən hələlik sağlıq-salamatlıqdır. Şəkərlə birgə ailə boyunduruğunu birgə çəkməyə çalışırıq. Çalışacağıq ki, bu yükü birgə, əbədi çəkə bilək. Ailə tamamilə yeni bir mərhələdir insan həyatında. Burada iki nəfər bir nəfər üçün çalışmalıdır. Həm özü, həm də yarı üçün. Ona görə də insan həyatında yeni mərhələdir. Çalışacağam ki, aldığım öyüdləri, nəsihətləri tətbiq edəm. Heç bir ata bəlkə də sənin qədər öz övladının xoşbəxt olmağı üçün çalışmayıb. Mənim müqəddəsim, böyüklüyün ondadır ki, heç vaxt özünü düşünməmisən. Nə imkanın olub yalnız ailən, övladın üçün, qohum-əqrəba bir də qabiliyyəti olanlara təmənnasız köməyini əsirgəməmisən. Bunları ürəyi, qəlbi geniş, ruhu böyük olanlar edə bilərlər. Sən həmişə qananlar qəlbində heykəl qurub heykəlləşmisən. Sən duyanlar qəlbinin əbədi mehmanısan. Bu könül adlı sarayın həm memarı, həm də mehmandarısan. Məlum edirəm ki, Şəkərin və mənim dərs işlərimiz öz qaydasındadır. Müdafiə etmək üçün də hələlik mütaliə edirəm, qeydlər aparıram. Saza uyğun gələn nə fikirlər varsa hamısını saza, havaya uyğunlaşdırıram.

***İlqar Cəmiloğlu*** 1987 aprel / Bakı

**198. (2) Prof.Dr. Şəhrəddin Məmmədovun məktubu.**

Sizinlə ünsiyyətə girəndən sonra belə qənaətə gələ bildim ki, adamların bir-birini öyrənməsi üçün bir pud duz yemələrinə ehtiyac yoxmuş. Bir ay, hətta bir neçə gündə də müəyyən müsbət və ya mənfi rəyə gəlmək olar. Siz əsasən tez tədqiq olunan adamlardansınız. *(Adam da var ki, onu hətta 1 il yoldaşlıq şəraitində də özün üçün kəşf edib öyrənə bilməzsən).* Mən sizi sizin özünüz vasitəsi ilə öyrəndim, tədqiq etdim və çox yaxın ehtimal ki, səhv etməmişəm. Hərşeydən əvvəl yəqin etdim ki, sizin rübabınız məhz sizin özünüzə məxsusdur. Onun materialını özünüz axtarıb tapmısınız, özünüz düzəltmisiniz və özünüz də çalırsınız *(bu baxımdan siz əsil xoşbəxtsiniz).* Özgəni təkrardan düzü zəhləm gedir. Qoy çaldığın alət hələlik püxtələşməmiş olsun, havaların sayı az olsun, mizrabı bəzən lap kobud vursan da olar. Amma özün vur. Qoy orda qanının hərarəti, öz barmaqlarının ağrısı duyulsun. *(Bu baxımdan da Siz orijinalsınız).* Mən Cəmili Cəmil kimi gördüyümə çox şadam. *(Sizə məlumdur ki, özü kimi görünən, daxili də zahiri kimi olan adam tapmaq problemini bütün zamanlarda olduğu kimi, bu gün də problem olaraq qalır).* Amma mən görəndə ki, Siz sinənizdəki yumruq boyda ət parçasına bütün dünyanın kədərini yerləşdirmək və öz qanınızla bütün dünyanı isindirmək istəyirsiniz, onda fikirlərimiz haçalanır. Mən Sizinlə razılaşmıram. Bu əsla mümkün deyil. Sizin və mənim təbliğ etdiyimiz təlim öyrədir ki, insan öz qarşısına ancaq həll edə biləcəyi problemləri qoymalıdır. Cəmil yaradıcılığı dünya ədəbi yaradıcılığı okeanında kiçik bir damla deyilmi? Mətləb həmin faydalı zərrəciyi inkişaf etdirməkdən ibarət olmalıdır. İdmançının hünəri yarış meydanında qalib gələndən sonra bilinər. Yuvasında mürgüləyən qartalın hansı ənginliklərə yüksələ biləcəyini qabaqcadan demək çətindir. O qıy vurub bütün qumrulardan yüksəyə qalxanda deyərsən ki, bax bu qartaldır. Nəqədərki, pələngin qulaq batıran nəriltisi eşidilməyib onun olduğu yeri bilən kimdiki? Yerin altında gizlənən sərvət də aşkara çıxandan sonra qiymətə minər. Qızıl tapıldımı, o həm mənsub olduğu yerin, torpağın hörmətini qaldırır, həm də adamlara zinət və fayda verər. Təəssüflənirəm ki, mənim Cəmilim hələlik bütün trubinləri işə düşməmiş, tam gücü ilə enerji verə bilməyən işıq mənbəyi kimidir.

Siz yaxşı adamsınız, üzünüzün xoş təsir bağışlayan fizioloji quruluşunda nüfuzedici gözlərinizdə, bütün hərəkətlərinizdə zərrə qədər də hiylə və məkr əlaməti yoxdur. “Düzlük” və “xeyirxahlıq” sözləri eləbil alnınıza həkk olunub. Görünür ata və ananız Sizi dünyaya gətirərkən əsl insani niyyətdə olublar. Bir müdrik insan deyir ki,

Hindlilər eləbilirlər ki, insan yaranmamışdan əvvəl ilanlar varmış, dağlarda yaşayanlar eləbilir ki, insan yaranmamışdan əvvəl qartal havada imiş. Məncə ilanlardan da, qartallardan da əvvəl insan yaranıb. Lakin onların bir qismi pis niyyətdə, adamların həyatını zəhərləmək niyyətində olduqlarından dönüb ilan olublar. Bir qisimi öz xoş niyyətləri, öz gözəl, təmiz havalı dərinliklərini özlərinə məskən ediblər. Mənim mikroaləmimdə Siz məhz yaxşı, saf əsil insansınız.

Mühitin təsiri haqqında sizin fikirlərinizə tamamilə şərikəm. Cəmildə bir qədər tələsmək, hövsələsizlik varsa, orda şübhəsiz müəyyən psixoloji amilin, şəraitin təsiri var. Şəhrəddinin  səbirli və dözümlü olmasında da müəyyən faktorların rolu olmamış deyil. Amma biz unutmamalıyıq ki, ən böyük, həlli ehtimal olunmayan məsələlər də səbirlə, ustalıqla həll olunar.

Əlində yumşalsa dəmir, bunu bil,
Tədbirlə yumşalar, hiddətlə deyil.

Böyük iş görmək üçün təkcə elm azlıq edər. Bunun üçün helm, ustalıq da tələb olunur. *(Çilinzardakı qarı nənə elə bir tip idi ki, onu ancaq helm ilə, ustalıqla ram etmək olardı. İnan həqiqi sözümdür. Mən onu görən kimi xatalı adam olduğunu yəqin etmişdim. Ona görə də dərhal ona yanaşmaq üsulu seçdim. Gördüyün kimi nəticə də pis olmadı.)*

Mən istəyirəm mənim Cəmilim daim məşəl kimi yanar olsun. Onun odlu qəlbi, Maksim Qorkinin romantik qəhrəmanı Dankonun qəlbi kimi işıq saçsın, adamlara xeyirxah niyyətilə irəliləmək üçün yol göstərsin. Mən istəyirəm o həmişə əməksevər, xoşniyyət adamlarla ünsiyyətdə olsun. Vaxtı boş keçirib sonradan təssüflənən adamlardan kənar olsun.

Mən istəyirəm Sizin öz cığırınız, öz ləpiriniz olsun. “Şamın yaşamağı yanmağındadır. Əgər o yanmırsa yaşamır demək.”

Sizin şam kimi yanmağınıza mənim zərrə qədər şübhəm yoxdur. Amma istəyirəm şüalarınızın əhatə dairəsi daha böyük olsun. Sizdə qələm də, mühakimə də, hünər də var. Onu elin malı etmək lazımdır. Bax bu cəhətdən Sizin üzərinizə böyük vəzifə düşür. Yaşa, yarat əzizim. Qoy beyninin bütün məhsulu elin malına çevrilib fayda versin.

Mən çox şadam ki, elimin gözəl oğlu qardaş eldə Özbəkistanda bizi yaxşı cəhətdən tanıda bildi. İsminiz bir xatirə qoydu.

Cəmil Əkbərovla birlikdə təhsildə olmaq olar, yolda getmək olar, nəğmə də oxumaq olar, şeir də söyləmək olar.

Bütün ailəyə dərin hörmətim olduğunu bildir. Gözəl ağıllı, musiqiçi bala İlqarı bağrıma basıram. Müzadilin gələcəyinə tamamilə inanıram.

Qatar pəncərəsindən Türkmənistan səhralarında otlayan dəvələrə baxa-baxa şeir söyləmək, gəmi göyərtəsində qağayıları yemləmək nə gözlədir əzizim. Gəncə torpağında Nizaminin ayağı dəyən yeri öpürəm.

Sağ ol.

***Prof.Dr. Şəhrəddın Məmmdov*** 23.01-1977

**199. (3) Qaşdar Əliyevin I məktubu.**

Hörmətli Cəmil müəllim.

Əvvəlcə Sizə və sizin müəllimlik sənətinizə salam və ehtiram! Yəqin ki, yazda sizinlə görüşdükdən sonra mənim işə qəbul olub olmamağımı maraqlanırsınız. Bu çətin və məsuliyyətli işə artıq başlamışam. Çünki bizim təsərrüfat ictimai cəhətcə geriyə çəkən elə qiyabiçiliyin özüdür. Çünki qiyabi qazanılan elm həqiqi elmdən də qiyabi qədər aralıdır. Ona görə də, hər çətinliyə dözüb hər gün, hər saat işimin üstündə olmağımı qət etdim. Əyani oxuyuram 68 manat ayırdılar. *(iş stajımın çatmamasına görə).* Abşeronda oluram. Burada 2 № - li tərəvəzçilik sovxozunun yataqxanasında qalıram. Üzr istəyərək bildirirəm ki, evliyəm. Bu yaxınlarda ata da olmuşam. Ailəm kənddədir. Tibb bacısı işləyir. Güzəranımız pis deyil. Mən yenə də üzr istəyirəm. Lakin müəllimim kimi, Sizin əməyinizin məndə olan haqqı kimi bunu deməyi özümə borc bildim ki, məni ailəlikcə də tanıyasınız.

Mövzum pamidor bitgisi üzərindədir. Doğrudur, ata-babadan pamidoru yaxşı becərib dadlı meyvə almışlar. Biz onlar qədər zəhmət çəksək və ya buna nail olsaq bu özü bir yenilikdir. Lakin mikroelementlərin bu bitgiyə təsiri az öyrənilib. Əgər bu 3 ildə çəkəcəyim zəhmətdən az da olsa fayda olarsa mən də yüngülləşərəm. Bilirəm ki, mənim bir insan kimi yetişib, formalaşmağımda çəkilən zəhmətin, qayğının heç olmasa bir hissəsi ödənilər.

Hörmətli müəllim kimi, yaxşı adam, gözəl insan kimi Sizə minnətdaram. Arzu edirəm ki, təbiətin Sizə bəxş etdiyi ömür daha mənalı olsun. Sizin möhkəm can sağlığınız neçə-neçə həyatı təzə dərk edənlərə böyük əqidə məktəbidir. Mən Sizin tələbəniz olduğumla fəxr edirəm. Həyatım bahasına olsa da, yolumda yıxılsam da, ehtiyac güc gəlsə də, tutduğum bu yolu tövsiyə etdiyiniz kimi gedəcəyəm. Səadət də, xoşbəxtlik də əməkdədir. Sağ olun mənim müəllimim!

***Hörmətlə Əliyev Qaşdar.*** 23. 10 – 1969

## 200. (4) Qaşdar Əliyevin II məktubu.

Hörmətli Cəmil müəllim.

Uzaq yerlərdən Sizə salamlar yetiririk.

Cəmil müəllim insanlar iki ünsürə görə yada salınır: Xeyirxah və nəsihətinə, amansız və zərərli olmasına görə.

Siz həmişə qəlb rahatlığı ilə əmin ola bilərsiniz ki, birinci ilə yad edilirsiniz. Sizin "Bulaq"dakı *(Elxan Məmmədlinin apardığı "Bulaq" radio proqramı nəzərdə tutulur İ.İ.)* ustadnamələrinizi dinlədikdən sonra aşağıdakı məzmundan ibarət teleqramanı baş-başa vurdum ki, Sizə çatdırsınlar:

Hörmətli Cəmil müəllim Sizi düşünərkən radioda ürək döyüntülərinizi eşitdim. Təmiz əllərə, təmiz ürəyə, təmiz vicdana eşq olsun.

Cəmil müəllim çalışın mayın axırı, iyunun əvvəllərində bizlərə qonaq olun. Bu vaxtlar dağlar ayrı donda olur.

Təzə iliniz mübarək olsun! Arzu edirəm ki, həmişə ailəlikcə sayılan, layiqli adınız neçə ki, təbiət ömür verib həmişə yüksək olsun. Qismət olar öz yolum da düşər. Səmimi salamlarımızı yaxşı dostlara çatdırın.

***Hörmətlə tələbəniz Əliyev Qaşdar***. 7. 01 - 1981

## 201. (5) Qaşdar Əliyevin III məktubu.

Hörmətli Cəmil müəllim!

Salam, a dağ misallı, saat kimi meyli haqqa dolanan, yaxşı ilə yamanın səddində saç-saqqal ağardan, dünyanın məhvərinə Nizami zəkası ilə baxan, Mirzə Sadıqov inqilablı müəllim, ağsaqqalımız! Nə var?, Nə yox?, Necəsiniz?

Əziz müəllimim, dünya xali deyil. Dediyin hər kəlmə şəxsən mənim ömür yoluma qoşa qanaddı. Doğrudur mən halal işimi müdafiə edə bilmədim. Lakin Sizdən aldığım dözüm, sədaqət, vəfa, mərhəmətli olmaq, namərdlərdən gen-gen gəzmək kimi sadə həyat idealı harda yıxıldımsa qolumdan tutdu. İlqar televiziyada çalanda simlərdən qopan can yanğısının əsl soyunu öz övladlarıma təqdim edərkən bir nəsildə olan xeyirxahlıq, mərifət və müdriklik kimi əzəmətin əsl ünvanını dərin köklü bir palıdda, Sizdə axtarırıq və bununla fəxr edirik! Mən bu yay Gəncədə idim. Öyrəndim ki, kursa getmisiniz. Komissiya ilə, üzr istəyirəm Salmanın imtahanlarına nail olduq. O, bunu qış imtahanları ilə təsdiq etməyincə mənim bundan əvvəl Sizə yazdığım məktubu 5 ay Sizə verməkdən saxlayıb evə gətirdi. Əvvəl çox pərt oldum ki, sentyabrda yazdığım məktubu nə üçün aparıb Cəmil müəllimə verməmişsiniz?

İndi uşaq bildirir ki, ata bu dəfə əlaçı çıxmış tələbə kimi müəlliminizə yaxın arzularınızı çatdıraram.

Cəmil müəllim. Respublikamız üçün çox vacib bir iş uğrunda 3 ildir çalışıram. Özü də kəskin ürək-damar xəstəliyi ilə. Dədə Ələsgərin, Dədə Şəmşirin, ölməz Səməd Vurğunun misilsiz ustalıqla vəsf etdiyi Azərbaycan dağlarında bitən şəfa bitgilərinin 94 növdə eksponatlarını Moskva sərgisində nümayiş etdirməyə və bununla dərman cövhərləri zavodunu bir başa Şahbuz rayonunda açmağa məsələlər qaldırmışıq. İmkan varsa Sizə kitabxanalardan "VDNX SSR" jurnalının 1 yanvar 1988-ci nömrəsini versinlər. 31-ci səhifə bizim haqqımızdadır. Bu qələbəni mən sizinlə bölüşdürürəm. Siyasi büroya çıxan jurnaldır. Yəqin ki, Azərbaycan televiziyası ilə 7-10 yanvarda bizi gördünüz. Bakıda da sərgi təşkil etmişdik. "Kommunist" qəzetinin yaxın nömrələrində də yazı gedəcək. "Azərbaycan Gəncləri"ndə də.

Mən indi ASK işciləri Həmkarlar İttifaqı Rayon Komitəsində 4 ildir ki, katib işləyirdim. Bu işlərdən sonra zorla sədr seçdilər. Dedilər: "gündə 4-5 saat işləsən də qəbulumuzdur. Təmiz iş adamı kimi təklifi qəbul et!"

Salman nəsə çox utancaqdır. Bu zəif haldır. Utanmaq yox, hörmət lazımdır. Görünür bu onun uşaq təbiətindən irəli gəlmişdir.

Cəmil müəllim mənim dərman bitgiləri eksponatlarına misilsiz zəhmətim *(Azərbaycan, Rus, Latın və İngilis dillərində reklam etməklə ən səmərəli rəssamın yazılarıtək yazmaqla)* ailə büdcəsinə böyük zərər vurmuş, yüksək amallar uğrunda məni maddi cəhətcə zəiflətmişdir. Həm də yaxından bələd olduğum, xüsusən "astma"nın müalicəsində dərman bitgiləri ehtiyatımı tükətmişdir.

Arzu edirəm buz baltasıtək sağlam olasınız. Cavab yazarkən öz şagirdinizi loğman hesab edə bilərsiniz. Nə lazımsa 1988-ci ilin yaz-yayında tədarük edə bilərəm. Duyğularım yorğun düşəndə xəyalən mühazirələrinizə qayıdıb dincəlirəm. Bu pedaqoji ustalıq Cəmil müəllim kimi öz halal çörəyini baltək yeyən, vüqarlı, heçkəsə əyilməz, sədaqəti səcdəyə layiq kamil bir insana xasdır. Bu tək mənim fikrim deyildir. Yüzlərin, minlərin fikridir. Könlünün ziyası ilə nur saçan insanlara eşq olsun! Mən Sizi belə tanıyıram, belə fəxr edirəm. Ağarmış saçlarınızdan, qocalmış əllərinizdən öpüb ayrılıram!

Dərin hörmətlə ailə üzvlərinizə salam göndərən

***Qaşdar Əliyev.*** 20.02 - 1988 Şahbuz rayonu.

## 202. (6) Qaşdar Əliyevin IV məktubu.

Salam təbiidir. Sizlərə can sağlığı arzulayan Qaşdardır. Salman çox razılıqla Sizdən ayrılıb gəldi. Onu ordu sıralarına yola saldıq. Çitada qulluq edir. İmtahanları əla verib. Lakin Qənbər müəllim ona Partiya Tarixindən 4 verməklə gələcəkdə onu Lenin təqaüdünə namizədlikdən salıb. Xeyirxahlıq hər oğula aid deyildir. Bu keyfiyyətə mənim sevimli müəllimim, el ağsaqqalı olan Cəmil müəllim kimi insanlar malik olurlar. Sizi sevindirməyə borcluyam. Bizim ailəvi olan sərgi işimiz "SSRİ XTN" Sərgisinin gümüş medalı və II dərəcəli diplomuna təqdim ediblər. Sənədləri Rayon Partiya Komitəsində təsdiq edib göndərdilər. Üzr istəyirəm ikinci nökəriniz bu ilki aşkarlıq işığında Tibb İnstitutuna qəbul olundu. O rektor çox qeyrətli bir iş gördü. Bütün yolları tamam bağladı. Uşaq 4-3-4 alaraq əczaçılığa qəbul olundu. Adı Telmandır. Elə olub ki, Cəmil müəllim evdə qənd pulu olmayıb. Lakin çətinliyə dəyanəti Sizdən öyrəndiyimizə görə heç bunu duyan olmayıb:

Bir üzü gecədir, bir üzü gündüz,
Duyubdur öz-özüylə üz-üzə dünya...

Bəli heçkəs dünyanı şələyib özü ilə aparmır. Çox gözəl demişsiniz ki, "Qaşdar insan özünü istədiyi kimi apara bilər". Bunun təmiz və xeyirxah tərəfi nəzərdə tutulmalıdır. Xoş sədanız bizə vardı, dövlətdi, mülkdü, əmlakdı.

Qismət olsun bir gün Sizlərə qonaq gələcəyəm. Mənə cavab yazsanız əgər, şəxsən əldə göndərin. Poçtla yazmışsınızsa cavab almamışam. Çünki istəməyənlər çoxdur. Bəzən məktublardan özümə çatmır. Bu qədər.

Ailəlikcə Sizin ailəyə salam göndəririrk. Arzu edirik ki, Əkbərovların "Bisutun" dayağı olan ağsaqqalımızın ömrə 100 deyib 101-ə adlayan gününü görək!

Hörmətlə tələbəniz və dostunuz

**Qaşdar Əlıyev** 24.08 – 1988 Şahbuz rayonu

## 203. (7) El şairi Əli Qurbanın məktubu və şeiri.

Əzizim, qardaşım Cəmil.

Salamlar bütün dostlara, tanışlara!

Bir neçə dəfə Sizin salamınızı almışam, minnətdarlığımı ürəymdə eləmişəm, ürəyimdə saxlayıb şifahi salamla əvəz eləmişəm.

Dünən axşam yenə söhbətimiz Sizdən düşdü, gözlərimin qabağına tələbəlik gəldi, ürəyim əsdi. Yenə o günləri istədim:

Deyirəm, tələbə olaydım yenə,
Elmə culaşdığım günlər olaydı.
O ömrün bir anı gələydi mənə,
Qaynayıb daşdığım günlər olaydı.

Köhnə tufliləri parıldatdığım,
Qaz kimi yeriyib cırıldatdığım,
"Fəlsəfə"dən biraz qırıldatdığım,
"Məntiq"dən çaşdığım günlər olaydı.

Yenə bağlanaydım kitaba candan,
Xəbərsiz olaydım feili-zamandan,
"Beş" alıb çıxanda hər imtahandan,
Mayallaq aşdığım günlər olaydı!

Puşkinin qəsdinə yumruq sıxdığım,
Fəhləyə qoşulub Çarı yıxdığım,
Sabirə, Möcüzə, "qahmar" çıxdığım,
Bəylə dalaşdığım günlər olaydı!

Fitnədən, riyadan uzaq olduğum,
Haqqa, ədalətə çıraq olduğum,
Marks dünyasına qonaq olduğum,
"Mən"dən uzaşdığım günlər olaydı!

Eşitdilkərimdən görmək, bir neçə şeirinizlə bəhrələnmək, qəlbimi sarımaq istərdim:

Qaranlıqdır könlüm evi,
Yandır çırax, ağrın alım!
Cəmil, təşnə bağçasına,
Leysan ol, yağ, ağrın alım!

Mənə Araz kənarısan,
O tay – bu tay fənarısan,
Azərbaycan çinarısan,
Min bir budaq, ağrın alım!

Sözlərini lələ döndər,
Əlinin başından əndər,
Heç olmasa dərman göndər,
Bircə varaq, ağrın alım!

Bu da köhnə qoşma:

Dərdsiz insan gəlməyibdir cahana,
Hərə bir azarı çəkib gedibdi!
Kimi yüzdən keçib, doydum deməyib,
Kimi ömrü yarı çəkib gedibdi!

Kimi var toplayıb, yeyə bilməyib,
Kimi qumaş alıb, geyə bilməyib,
Kimi heç dərdini deyə bilməyib,
Elə intizarı çəkib gedibdi!

Kimi qızıl yığıb, olmayıb ağlı,
Kimi aqil olub, yolları bağlı,
Kimi bala deyin sinəsi dağlı,
Kimi bala narı çəkib gedibdi!

Kimi Məcnun olub, səhra dolanıb,
Kimi Kərəm kimi alışıb, yanıb,
Kimi mənsəb üçün əhdini danıb,
Kimi namus-arı çəkib gedibdi!

Don tikdik, bir zaman geyəllər əlbət,
Bağ saldıq, barından yeyəllər əlbət,
Bir gün insaflılar deyəllər əlbət,
Əli çox qübarı çəkib gedibdi!

Hörmət ehtiram! Yenə salamlar!

***El şairi Əli Qurbanov*** 14. 4. 1977
Kəlbəcər, Vaqif 14.

**204. (8) El şairi Əli Qurbanın, İlqar Cəmiloğlunun toy şənliyi münasibəti ilə atası Cəmil Əkbərə ünvanladığı "*Cəmil Əkbər, bu murazın mübarək!*" rədifli təbrik şeiri**

Oğul toyu murazların başıdı,
Cəmil Əkbər, bu murazın mübarək!
Ömrün yenə çiçək açıb, bar verir,
Şən baharın, güllü yazın mübarək!
Cəmil Əkbər, bu murazın mübarək!

Sən İlqarı gəzir deyib tapıbsan,
Həsrət məni əzir deyib tapıbsan,
Niyaz verib, nəzir deyib tapıbsan,
O nəzirin, o niyazın mübarək!
Cəmil Əkbər, bu murazın mübarək!

Ələsgərlə Ədaləti bağlayan,
Gah güldürən, gah ağladıb dağlayan,
İlqarının sinəsində çağlayan,
O müqəddəs telli sazın mübarək,
Cəmil Əkbər, bu murazın mübarək!

Gözəl duyub bu həyatı İlqarın,
Fəth eyləyib kainatı İlqarın,
Tarla alıb mükafatı İlqarın,
Tardan gələn ehtizazın münarək!
Cəmil Əkbər, bu murazın mübarək!

Çinarımız çinarlanır o saznan,
Şirin yatır, şux oyanır o saznan,
Qorqudumu duyur, qanır o saznan,
Payın çoxdu, çoxda azın mübarək!
Cəmil Əkbər, bu murazın mübarək!

Tale səni xoş yaradıb, özün xoş,
Atəşin xoş, alovun xoş, közün xoş,
Avazın xoş, söhbətin xoş, sözün xoş,
Şirin sözün, xoş avazın mübarək!
Cəmil Əkbər, bu murazın mübarək!

Gəlnin olsun qədəmləri sayalı,
Məhəbbətli, məlahətli, həyalı,
Qeyrətiylə atlandırsın xəyalı,
Pərvaz eylə, o pərvazın mübarək,
Cəmil Əkbər, bu murazın mübarək!

***El şairi Əli Qurbanov*** 31. 01 – 1987/ Gəncə.

## 205. (9) El şairi Kərəm Kürqıraqlının I məktubu

Əziz müəllimim salam!

Vəziyyətiniz necədir? Şükür Allaha ki, mən də sağ-salamat varam. Allah Sizin kimi qayğıkeş bir atanı da bizim, biz gənclərin üzərindən əksik etməsin. Cəmil müəllim hər dəfə Sizə məktub yazmazdan qabaq çox düşünürəm ki, Sizin kimi nəcib bir insana mən hansı qiymətli sözləri töhfə göndərim. Axı mərcə dünyada iki varlığın:- bir Sizin kimi nəcib, qayğıkeş, daha doğrusu şah insanların, bir də yüksək mənalı sözlərin qiyməti milyonlar belə olabilməz. Əfsuslar ki, belə sözlər mənim hünərim xaricindədir. İnanın əgər ailəmizdə məndən başqa övlad olsaydı, mən Sizim yaşadığınız yerdə, mühitdə yaşardım. Mən elə zənn edirəm ki, ömrüm zindanlarda belə keçsə lakin gündə bir dəfə olsa Sizi görüb söhbət etsəm mənim üçün heçbir çətinlik törətməz. Çünki Sizin kəlmələriniz, mən bilirəm ən qayğısız insanları da həyata bağlayar. Axı Sizin qəlbiniz yazda kükrəyən dağ çayları kimi daima coşur, çağlayır və yenə də nəyi isə axtarır. Eləbilki bütün məzlum xalqların, məzlum millətlərin, bütün dərdli insanların dərdi Sizin qəlbinizdə məskən salıb. Lakin bütün dərdli insanlardan fərqli olaraq bu qəmlər, kədərlər sadəcə ürək ağrılarına çevrilmir, əksinə olaraq bunlar Sizin qəlbinizdə alovlanaraq yüksək mənalı şeir bəndlərinə çevrilərək dərdlərin, kədərlərin üzərinə su səpir. Bu zaman Sizi şəxsən tanımasalar da kimsə, hardasa şair təbiətli, şair qəlbli, bir bir insan bizim dərdimizə şərikdir, o, da bizim dərdimizə öz sözləri ilə yanır, odlanır.

Bu Sizsiniz Cəmil müəllim, bəli! Siz!
Salamlar! Sizə, oxuyub qulaq asanlara.

***Hörmətlə Kərəminiz*** 21.11 - 1973

## 206. (10) El şairi Kərəm Kürqıraqlının II məktubu

Hörmətli və heçbirkəslə əvəz edə bilməyəcəyim müəllimim Salam!

Vəziyyətinizlə tanış olmaq istəyirəm. Mənim də vəziyyətim yaxşıdır. Allah Sizi də həmişə sağ və salamat eyləsin. Əziz müəllimim hər dəqiqə Sizi anıram, Sizi düşünürəm. Çünki həyatım boyu elə bir insana rast gəlmişəm ki, Sizin qədər səmimi, qayğıkeş olsun. Mən deyərdim ki, hamı Sizin kimi olsaydı, onda dünyada yetim olmazdı. Müəllimim Siz mənə şair İlyas Tapdığın ünvanını vermişdiniz. Mən hələ vaxt tapıb onun yanına gedə bilməmişəm. Siz mən barədə düşünməyin. Görün öz şeirinizi çapa verdirə bilirsinizmi? Mən Sizə baxanda nə şeir yazıramki? Əgər Sizin şeirləri mətbuatda oxusam heç dərdim olmaz. Sizi düşünərkən yazmış olduğum “Bilirəm” rədifli şeirimi Sizə göndərirəm. Səhvim olarsa xahiş edirəm əfv edin.

Əziz müəllimim bu nə dövrandır?
Yaxşını-yamandan seçə bilmirəm.
Anasız bir quşam, yoxdur birkimsəm,
Qırılmış qanadım, uça bilmirəm.

Yaltaqlıq eyləmək olmuşdur peşə,
Əyriyə düz desək çəkərlər şişə,
Gülüb sözlərimə düşmə təşvişə,
Sirrimi heçkəsə aça bilmirəm.

Tülkülər şir olmuş, aslanlar quzu,
Buludla örtülmüş günəşin üzü,
Hərdən itirirəm getdiyim izi,
Çaşıram, düz yoldan keçə bilmirəm.

Qəpiyə yenmişdir sözün qiyməti,
İnsanlar gözləmir arı, isməti,
Hər an yüksəldirəm şeiri, sənəti,
Yanıram, bir işıq saça bilmirəm.

Kərəm bu şeirini sənə göndərdi,
Görüşsə canını qurban edərdi,
Bir Vətən dərdidir, bir ana dərdi,
Baş götürüb burdan qaça bilmirəm.

Salamlar: Ailənizə, bütün dost-tanışlarınıza, məktuba qulaq asanlara və bizim hörmətimizi yüksək tutanlara.

*Hörmətlə* ***Kərəm Müslümov***

## 207. (11) El şairi Kərəm Kürqıraqlının III məktubu

Əziz müəllimim Salam!

Ailəniz və özünüz necəsiniz? Bizim də vəziyyətimiz yaxşıdır. Allah Sizi də ailənizlə birlikdə xoşbəxt eyləsin.

Məlumunuz olsun ki, Sizin yazmış olduğunuz bir ədəd gülüzlü məktubunuzu aldım, ailəliklə oxuyub şad olduq. Sizə də kədər nəsib olmasın. Əziz müəllimim, Sizin hər sözünüz həkimin verdiyi dərman qədər vacibdir. Sizə hər gün məktub yaza bilərəm. Lakin doğrusu Sizi ağsaçlı vaxtınızda zəhmətə salmaq məni incidir. Siz təkcə öz övladlarınız üçün ata olduğunuz üçün xoşbəxtsiniz. Sizin dümağ saçlarınızda, baxışınızda alnınızın, üzünüzün qırışlarında elin, obanın dərdi var. Məhz bu fərq Sizi bütün insanlardan fərqləndirir. Sizi biz gənclərin gözündə ucaldır və bizim istəklimiz edir. Qeyri-qanunu olsada bu günlərdə yazmış olduğum şeirlərin birini Sizə yazıram. *(Yenə üzrlərlə səhvlərimi əfv edin.)*

Çoxlarının mənliyini
Öz əlindən alan puldur,
Evlər yıxıb, qanlar tökən,
Hər zülümü qılan puldur.

Həm ağladan, həm güldürən,
Həm dirildib, həm öldürən,
Şah edib taxtda mindirən,
Həm də taxtdan salan puldur.

Qiymətsizi baha satan,
Zatı-paka divan tutan,
Həqiqətə böhtan atan,
Hiylə, fitnə, yalan puldur.

Gəl aldanma Kərəm pula,
Salar səni bir gün dilə.
Kimə qalmış, kimə qala?
Hey boşalıb-dolan puldur.

Şeiri ona görə yazıram ki, səhflərimi deyəsiniz və həm də bizi birləşdirən şeir olmuşdur.

Salamlar: Bütün ailəliklə Sizə və Sizin kimi atalara.

*Hörmətlə tələbəniz* ***Kərəm Müslümov***

## 208. (12) El şairi Kərəm Kürqıraqlının IV məktubu

Əziz Cəmil müəllim Salam!

Vəziyyətinizi soruşuram. Necəsiniz ey ustad! Müddətdir ki, bir-birinizi unutmuşuq. Mənim məktub yazmamağımın səbəbi bir qədər xəstə olmağım olmuşdur. İndi çox şükür Allaha ki, yaxşıyam. Məktub yazsam-yazmasam da qəbrimin daşları da Sizi unutmaz. Bu kiçik kəndçi şərəfimlə Sizin yeni ilinizi təbrik edirəm. Sizə ailə və övladlarınızla, habelə istəkli dost-tanışlar, qohum-əqrəbalarınızla birlikdə uzun ömür, can sağlığı arzulayıram. Arzulayıram ki, bir ata kimi, övladlarınızın, ailənizin və bir müəllim kimi gəncliyimizin üstündən əskik olmayasınız.

Əziz bacım Aludə. Sənin bizi bir müddət qabaq təbrik etmiş olduğun məktubu da almışıq. Sənə də kiçik bacım kimi öz salamımı yetirirəm. Səni və İlqarı yeni il bayramı münasibəti ilə təbrik edirəm. Mənim yəni öz oğlanlarımın ağzı ilə Atanın və Firuzə xalanın üzündən öpərsiniz.

***Dərin hörmətlə, qardaşınız Kərəm.***

Bir satirik şeirimi Sizə göndərirəm.

Vəzifəli qonşumun,
Qızı ərə gedəndə.
Toyunda, nişanında,
Başda oturdum mən də.

Çox qiymətli əşyalar,
Çox qiymətli cehizlik,
Ata verdi qızına,
Bir maşın da üstəlik.

Düzü çaşbaş qalmışıq,
Hərə bir söhbət etdi.
Qızmı getdi oğlana?
Maşınmı ərə getdi?

Allah bizim gəncliyimizi bu xəstəlikdən uzaq etsin.

***Şair Kərəm Kürqıraqlı***

## 209. (13) El şairi Kərəm Kürqıraqlının V məktubu

Unudulmaz məktub.

Sizlərə salam və ehtiramlar! Necəsiniz? Uşaqlar necədir? Məlumunuz olsun ki, məktubunuzu aldım, oxudum çox-çox şad oldum. Allaha çox şükür olsun ki, hələki biz də yaxşıyıq. Aludənin də yeni il təbrikini aldım. Mənim salamlarımı bacıma yetirin. Keçək şeirə. Sizi şəxsən görüb uzun-uzadı danışmasam ürəyim soyumaz. Şeirlərim içərisində "Cəmil müəllimi düşünərkən" silsiləsindən bir qrup şeir var onun birini sizə göndərirəm.

Ey böyük sənətkar, ey böyük insan,
Görüşməkçün qucağına gəlmişəm.
Sən ulu bir şair, mən dilsiz uşaq,
İsinməkçün ocağına gəlmişəm.

Mən dağlar görmüşəm zirvəsi qarlı,
Bağçalar gəzmişəm çiçəkli, barlı,
Özüm yoxsul oldum, kamalım varlı,
Əl açmayıb ona-buna gəlmişəm.

Sənsiz ötüşməmiş bircə anım da,
Çün Cəmil qanı var damarlarımda.
Üzüm qara deyil dostlar yanında,
Çək məhəngə, imtahana gəlmişəm.

Şair! Qüdrətinə baş əyir aləm.
Şəninə nə yazım, acizdir qələm?
Əfv et günahımı şair deyiləm,
Öz səhvimi qana-qana gəlmişəm.

Kərəməm yaşadım, hər dərdi duydum,
Namuslu dostlara canımı qıydım,
Mən başqa qurluşda doğulmamışdım,
Tamaşayçün bu zamana gəlmişəm.

Cəmil müəllim yazırsınız ki, istəyirəm o tərəflərə gedəm. İnanın Sizi səbirsizliklə gözləyirəm. Ömürə etibar yoxdur. Gəlin bu torpaqlarda da şeir deyək, gəzək. Məni çox düşündürən şeirlərimdir. Şeirlərim çoxalıb. Bu yaxınlarda Kərəm Kürlü yaxud Müslümov imzası ilə,

"Qadın", "Gənclər", "Göyərçin", "Ulduz" jurnallarında şeirlərim veriləsi idi. Bu günlərdə "Ulduz"un əməkdaşı Siyavuş Sərxanlıdan bir məktub almışam. Olduğu kimi yazıram.

*"Hörmətli Kərəm Müslümov yoldaşa! Şerilləriniz səmimi, ürəklə yazılıb. Yaxşı poetik misralar da az deyil. Ancaq təəssüf ki, onlar tam halda çapa hazır deyil."*

Cəmil müəllim xahiş edirəm bizə gələndə ən azı 3-4 günün vaxtına gəlin. Həmi doyunca gəzək və həmi də məsləhət bilsəniz biraz pay götürüb şeirlərdən ötrü Bakıya gedək. Xahiş edirəm tez və ətraflı cavab yazın.

Gəlməyinizə biraz qalmış məktubla mənə xəbər verin.

Salamlar ailənizə və özünüzə.

*Dərin hörmətlə* ***Kərəm Müslümov***

## 210. (14) El şairi Kərəm Kürqıraqlının VI məktubu

Cəmil müəllim Salam! Necəsiniz? Vəziyyətinizlə tanış olmaq istəyirəm. Məktubunuzu müddətdir ki, almamışam. Cavabını özüm gec yazdım ki, Sizi tez-tez əziyyətə salmayım. Hər gün ömrümdə elə bir an olmur ki, yadımda olmayasınız. Bu gün də hara getmişəmsə Siz sanki mənimlə olmuşsunuz. O qədər özümü unutmuşam ki, bir də görürəm Sizə deyirəm ki: Eşq olsun əsl insanlara! Eşq olsun əsl zəka sahiblərinə! Onlar olmasaydı həyat nə qədər yeknəsək olardı. Siz də xoşbəxtsiniz, ona görə ki, bu sözlərdə Sizin də böyük miqdarda payınız var. Bir də başa düşürəm ki, tənha oturmuşam. Nə edək ki, zaman bizi vədəsiz bir-birimizdən uzaq saldı. Heç olmasa tez-tez dərdimizi bölüşdürürdük. Eybi yoxdur rəhmətlik Vurğun demikgən:

Gözüm-gözünüzdən uzaq olsada
Könüldən-könülə yollar görünür.

Cəmil müəllim Sizi vəsf etmək üçün böyük qabiliyyət tələb olunur. Bu da məndə yoxdur. Bunun üçün məni üzürlərlə bağışlayın.

Bəxtiyar demişkən:

Mənim də qismətim beləymiş demə,
Naşükürü deyiləm öz qismətimin.

Qəlbim dolu, sözlərim çox, yollar uzaq. İcazənizlə uzaqdan-uzağa öpüşüb ayrılaq. Məndən salamlar. Ailənizə, özünüzə, tanıyan dost-tanışlarınıza.

Dərin hörmət və ehtiramla.

***Müslümov Kərəm.*** 26.05 – 1975

## 211. (15) El şairi Kərəm Kürqıraqlının VII məktubu

Unudulmaz məktub!

Əziz Cəmil müəllim Salam! Qəlbinin öz səmimi salamını Sizin kimi bir ustada, bir dahiyə bir müəllim-şairə yetirən ulu Şirvan torpağından oğlunuz, tələbəniz Kərəmdir. Əzizim, qəlbimin dayağı Cəmil müəllim həyatla vidalaşmaq yaşa baxmır. Bəlkə əcəl məni susdurub. Onda atanın oğlundan xəbəri olmazmı? Nə isə Cəmil müəllim çox qəhərlənmişəm. Bu həyat Kirovabaddakı həyat deyil. Aqronom köməkcisi işləyirəm. Burada qabiliyyət, savad, təmiz vicdan alicənablıq, təvazökarlıq qəbahət sayılır. Katibin məni görməyə gözü yoxdur. Çünki hərşeydən qabaq mənim küllü pulum yoxdur. Sənətimlə vidalaşmaq istəyirəm. Çünki burada əməyə qiymət verilmir. Artıq əsəblərim korlanıb, qanım 40 % -ə enib, səbəbi də zəhərlə çox işləməyim olub. Nə fayda şeirlərim də çoxalıb, bir qədər mətinləşmişəm. Lakin nə faydası bu sahədə də köməyim olmadı bir iş görəm. Nə isə Siz də vəziyyətiniz barədə yazın. Hər gün bəlkə də yüz dəfə yadıma düşürsünüz. Deyirəm necə olub ki, indiyə kimi bu qədər dərdi çəkə bilmisiniz. Şeir sahəsində nə kimi işlər görürsünüz?

Şeirlərimin arasında "Cəmil müəllimi düşünərkən" başlıqlı 30-a qədər şeirlərim var.

### YARAŞSIN

A dostlar nə yazım, acizəm düzü? [1616]
Cəmil kimi bir insana yaraşsın.
O, ümmandır, mənsə kiçik bir damla,
Damla necə bir ümmana yaraşsın?

Cəmil bir həyatdır, bilinməz sonu,
O dağdır, boran-qar qorxutmaz onu.[1617]
Elə gücüm hanı, ilhamım hanı?[1618]
Bu dahiyə, bu loğmana yaraşsın.

[1616] Bilmirəm nə yazım düzü ay ellər?
[1617] Şimşəkdir, boran-qar qorxutmaz onu.
[1618] Naşıyam ay ellər, ilhamım hanı?

O, aydır, günəşdir mənim qəlbimə,
Atadır, üz tutub gəlsə hərkimə,
Nə deyim məzluma, dilsiz yetimə?
Dayaq olan pasibana yaraşsın.

Gün gəlsin tanınsın əyrilər, düzlər,[1619]
Günəş nur saçmasa olmaz gündüzlər,
Kərəməm arzumdur yazdığım sözlər,
Cəmil kimi hər insana yaraşsın.

***Yaxud:***

İstərdim adına dastan bağlayım
Çatmadı qüdrətim: - düzü Cəmilin.
Məndə nə ilham var?, ancaq gərəkdir,
Özündən yazmağa özü Cəmilin.

Salamlar: Bütün müəllim kollektivinizə, şəxsən Midhət, Mirzə və Nizami müəllimlərə, ailənizə, İlqara və Aludəyə.

*Dərin ehtiramla:* ***Kərəm Kürqıraqlı***

## 212. (16) El şairi Kərəm Kürqıraqlının VIII məktubu

Cəmil müəllim Salam!

Vəziyyətiniz necədir? Şükür ki, hələlik mən də yaxşıyam. Cəmil müəllim uzun vaxt gözlədim Sizdən məktub ala bilmədim. Mənim də Sizə məktub yazmamağımın səbəbi vəziyyətim ağır idi. Bir müddət işsiz qaldım. Rayonumuzda 14 ali təhsilli aqronom lazımdır. Lakin 9 ali təhsilli aqronom var. Yenə də məni işə götürmürlər. Nə isə çox çətinlikdən sonra dəfələrlə nazirliyə müraciət edəndən sonra işlə təmin olundum. İndi də Sizə məktub yazıram. Bəlkədə demişsiniz ki, yəqin Kərəm bir dəfəlik getdi. Ancaq inanın ki, bütün ömrüm boyu mənim Sizdən əziz heç kimim olmayacaq. Buna tərəddüd etmədən inanın. İnanın ki, təkcə mənim yox, Siz bütün tanıyanların qəlbinin özəyi, dilinin şah kəlməsisiniz. Bəli Cəmil müəllim Siz! Mən deyərdim ki, bütün bəşəriyyət Sizdən dərs almalıdır. Əgər bu mümkün olsaydı onda bütün bəşəriyyətin yeganə hökmdarı həqiqət, vicdan, böyük amal, doğruluq, düzlük olardı. Bu mümkün olsaydı, oğruluq, əyrilik, ikiüzlülük, yaltaqlığın nəinki özü, hətta bu terminlər insanlığa yad olardı. Kaş bir

[1619] Gün gəlsin seçilsin əyrilər, düzlər.

dəfə də olsaydı yenə Sizinlə üz-üzə oturub şeirləşəydik, söhbət edəydik. Nə isə yenə qəhər boğdu:

Ey böyük ustadım, yek pasibanım,
Məndən ol diyara bir salam deyin.
Çox gəzmişik Nizaminin yurdunda,
O, ötən çağlara bir salam deyin.

Tükənməz bu yerin sərvəti, varı,
Yoldaşa hörməti, dosta ilqarı,
Göy-göldən qalxanda Kəpəzə sarı,
Dumanlı dağlara bir salam deyin.

Sizsiz qəlbim olub qəmlərin xası,
Ağlaram, silinməz könlümün pası,
Allazov Mamedlə o, kürd balası,
Dostunuz Şikara bir salam deyin.

Hələlik yaxşıyam olmasın qəmin,
Sinəmdə gül açmış, böyük əməlin,
Xahişlə zəhmətin çəkib Kərəmin,
Balaca İlqara bir salam deyin.

İcazənizlə öpüşüb ayrılaq. Ancaq xahiş edirəm yeni şeirlərinizdən mənə yazın.

Salamlar ailənizə, dost və tanışlara.

*Dərin ehtiramla oğlunuz* ***Kərəm.*** 1. 05 – 1975

## 213.(17) El şairi Kərəm Kürqıraqlının IX məktubu

Hörmətli məktub.

Əziz və unudulmaz bacım Aludə, Salam!

Məlumunuz olsun ki, təbrikinizi aldım, oxudum, çox şad oldum. Bunun üçün Sizə təşəkkürümü bildirirəm. Bir qardaşın kimi məni unutmadığın üçün çox sağ ol. Ana, sən əsl kişi qızısan ki, atanın dostunu unutmursan. Səməd Vurğun Sizin kimilərə deməmişmi ki, "Aslanın erkəyi, dişisi olmaz". Halal olsun sənə Şəmşir əminin "Yaxşımı?" qoşması.

Aludə ana o vaxt Kirovabada gedəndə toydan gecə saat 12:00-da çıxdıq və o saat da qayıtdıq. Səbəbi də o idi ki, yoldaşlar hamısı Bakıdan idilər.

Ona görə də sizinlə görüşə bilmədim. Buna görə məni bağışlayın. Ana, ulu Cəmil müəllimə mənim dəryalarca salamımı yetirin. Ona de ki, nəfəs aldığım havanın da hər zərrəsində Cəmil sözü, adı yaşayır. Cəmil müəllim dövrümüzün Nizamisidir. Əfsus ki, ...

Ana səndən bir xahiş edim. Atan ilə məsləhətləş, çünki atanda adət deyil ki, başqasına şeir versin. Əgər məsləhət bilsə onun “Sevgilim”, yəni “Tükənmişsə ürəyində məhəbbət, Biryolluq hökmünü ver a sevgilim”. Sonra “İnsandır” *(əsas bunu),* sonra “Zağasında yatan ayı, Həndəvarda malı görməz” və sairə şeirlərini mənə göndər. Xahiş edirəm ona görə ki, məclislərdə Cəmil müəllimdən söz salanda onun şeirlərindən tapa bilmirəm ki, söyləyim.

Daha nə yazım? Salamlar: Bütünlüklə ailənizə və xüsusən Cəmil müəllimə. Ona de ki, dünyaya etibar yoxdur. Heç olmasa bir dəfə də olsa gəlib bizi yad etmədi.

***Kərəm Kürqıraqlı*** 1.02 -1979

### 214. (18) El şairi Elmirli Salmanın məktub və şeiri

Hörmətli Cəmil müəllim Salam!

Sizin həmişə xoşbəxt həyat keçirməyinizi istəyirəm.

Siz həyatı ətraflı dərk edənlərdənsiniz. İndiki adamların çoxunun başqasına olan münasibəti tez-tez dəyişir, iradəsizlik belə insanların ruhuna hakimdir. Bunun nə üçün belə olduğunu, hansı səbəbdən baş verdiyini özünüz çox yaxşı bilirsiniz. Ancaq tarix öz bildiyini tutacaqdır. Mənim Sizə olan münasibətim dəyişməzdir. Elmirli Salmanın sədaqətinə əmin ola bilərsiniz.

Cəmil müəllim Qərənfilə muğayət olun.

Az təcrübə görmüş bəlalı başım,
İçib mey şərbəti, məst ola bilməz.
Xuda köməyində duran insana,
Min hiylə qurulsa qəsd ola bilməz.

Mərd igiddən düşmən olarsa sənə,
Pozma dövranını, qəm etmə yenə,
Haqqın ətəyindən sığın köhlənə,
Namərdin dəstində, dəst ola bilməz.

Səbəb olar mərd insandan, adamdan,
Kömək istəyirəm bir yaradandan,
Bimərfətdən, qorxaqlardan, nadandan,
Elmirli salmana dost ola bilməz.

Məndən ailənizə və etibarlı dostlarınıza salam söyləyin. Xudahafiz:

***El şairi Elmirli Salman***. 9. 11 – 197

## 215.(19) Əhmədağa Əbilovun məktubu

Hörmətli və əziz Cəmil müəllim. Siz mənə 6 ay dərs demisiniz. Bu az vaxtda çox şey öyrənmişəm. Amma Sizdən daha çox şeylər öyrənmək olardı. İstərdim ki, Siz mənim əbədi müəllimim başqa sözlə deyiləsi, əgər mümkün olsa siyasi biliklərimizin atası olasınız. Mən belə bir ataya möhtacam. Arzu edərdim ki, Siz məni bu xoşbəxtlikdən çəkindirməyəsiniz. İstərdim ki, az da olsa həyatımı Sizin həyatınıza oxşadam. Bilirəm Sizin qəlbiniz böyükdür. Mənim də o qəlbdə yaşamaq üçün imkan yaratmanızı arzu edirəm. Mən Sizin bütün həyatınızı öyrənmək istərdim. Məğrurluq dolu həyatınızı. Hamısını yox. Bütün gənclər, bütün tələbələrə aid ola biləcək ümumi hissələrini. Çünki, mən Sizin həyatınıza açıqcana həsəd aparıram.

Yaşım azdır. Bəlkə də mənim belə şeylər yazmağım tamam uşaqlıq əlamətidir. Elə isə onda əminəm ki, məni bağışlarsınız. Çünki insan büdrəmədən özünə aydın yol tapa bilməz. Hər halda mən qəlbimdən gələn sözləri yazmışam.

Hörmətlə: Sizi həyatı boyu unutmayacaq tələbəniz

***Əhmədağa Əbilov***

Ünvan: Yardımlı qəsəbəsi. H. Aslanov küçəsi ev № 12
Əbilovlar.

## 216.(20) Adil Leriklinin məktubu

Əziz və unudulmaz müəllim! Sizi narahat edən tələbəniz Adildir.

Əlbətdə bu işə məni vadar edən, Sizə qarşı mənim qəlbimdə olan sönməz müəllimlik məhəbətidir. Doğrudur Siz kimi insanların əməyini doğrulda bilməsəm də, Sizin mənə öyrətdiyiniz əsl insanlıq, daxili mənəviyyatın kamilliyi məni həmişə ucaldacaq. Sizi ümüd edə bilərəm ki, göstərdiyiniz yoldan başqa bir yol seçməyəcəyəm. Mənə təhsildən də qabaq insanlıq və kamillik lazımdır.

***Hörmətlə Adil Lerikli*** 12 iyul 1971

## 217. (21) Osman İsa oğlu Əliyevin I məktubu və şeiri

Hörmətli Cəmil müəllim!Əvvəla salamlar:

Mən Kirovabad (Gəncə İ.İ.) şəhərindən Füzuliyə gələrkən ilk dəfə fikirləşdiyim bu oldu ki, Kirovabad şəhərində işıqlı təfəkkürə, peyğəmbərcəsinə uzaqgörən, fikri, düşüncəsi ziyalı olan bir şəxs – Cəmil müəllim qaldı... Bu gündən sonra hardasa ürəyimə, beynimə, əqidəmə yaxın bir şəxs düşünəndə ilk yadıma düşənlərdən biri kimi Sizi xatırlayacağam. İş elə gətirirdi ki, mən Sizinlə institut auditoriyasında *(təəssüf ki, biz bundan başqa heç yana çıxa bilmədik. Bu işdə də mən özümü günahlandırıram)* görüşəndə Siz ya dahilərin, müdriklərin əsəsrlərini vərəqləyirdiniz, ya əlinizdə olan fəlsəfi mövzunuzla məşğul idiniz. Mən Sizi bu vəziyyətdə görəndə, Sizi gül çiçəklərdən bal şərbəti tutan arıya bənzədirdim... Bu fikirdən sonra Sizə məlum olan, heçkəsə ithaf edilməyən "Surətləndirmə" şeirimi məmnuniyyətlə Sizə həsr etmək qərarına gəldim.

Arı gül-çiçəkdən tutar şərbətin,
Ağıl da hikmətdən tutar mayasın.
Deyirəm elmində gücü-qüdrəti,
Gərəkdir həyatla ülfət bağlasın.

Elm darısqallıq sevməz, bu haqdır,
İdrakın işığı tutur dünyanı,
Ancaq təəssüfün yoxdur ki, sonu,
Atom hədələyir qoca dünyanı.

Olmazmı atomu at kimi minib,
Kəhkəşan seyrinə çıxaq a qardaş,
Bəlkə də ərzağa çevirib onu,
Bəşər süfrəsinə əndərək bir baş.

Cəmil müəllim Siz söz sərrafı hikmət sahibisiniz. Belə olduqda Sizin şəxsiyyətiniz haqda söz deməyə də çətinlik çəkirəm. Sizə arzum budur ki, ilk növbədə özünüzün fiziki möhkəmliyinizə, sağlamlığınıza fikir verin, *(qarşıya qoyduğunuz məqsədlərə nail olmaqda başlıca şərt),* sonra isə dünyada ən çətin iş olan isterziyalar çoxluğu olan yerdə nikbin əhval-ruhiyyəni saxlaya bilmək bacarığı arzulayıram...

***Hörətlə Osman Əliyev*** 26 may 1988

Füzuli rayonu Gecəgözlü kəndi

## 218. (22) Osman İsa oğlu Əliyevin II məktubu və şeiri

Hörmətli Cəmil müəllim!

Əvvəla salamlar! Sonra məktubunu, şeirini alıb oxudum, şad oldum. Sizə hədsiz minnətdarlığımı bildirirəm.

Həyatda tək-tək insanlar var ki, onlar maddi təminatca təmin olunmasalar yaşaya bilərlər, ancaq mənəvi təminatı olmazsa çox çətinliklər çəkər. Başqa sözlə maddi toxluğu mənəvi toxluqdan üstün tutmurlar.

Vaxtilə yunan filosofu, natiqi Siteronun başına yığışıb deyirmişlər: “Gəl o işıqlı ideyalarından feyziyab olaq!”. Sonralar evlər, klublar onlar üçün darısqallıq edəndə küçə və meydanlarda toplaşıb istedadların işığından feyziyab olurmuşlar. Amma Cəmil müəllimin işıqlı ideyaları institut auditoriyalarından uzağa getmir, Respublika, Ümumittifaq mətbuatına çatmır. Nəyə görə? Təəssüf doğurur. Sizin yadınıza gəlirsə Anarla, Aydın Məmmədovun söz eşidilməzliyi dialoqu vardı. Adam təəssüflənir ki, nəyə görə bu aşkarlıq dövründə Cəmil müəllim mətbuat səhifələrinə yol tapa bilməsin. Bəlkə bu ondandır ki, Respublikada İttifaqda istedadlı jurnalistlər, publisistlər çoxluğu var. Bəs onda nəyə görə vaxtı ilə heç orta təhsili belə olmayan Maksım Qorki istedadın, zəhmətkeşliyin gücü ilə dünya şöhrəti qazandı.

Cəmil müəllim, nəyə görə belə yana-yana, belə pafosla danışıram... Ona görə ki, insan kiçik bir şüvün gövdədən qoparılmasını, qanadları bərkiməmiş bir quşun təsadüfən yuvadan düşüb təhlükəyə məruz qalmasını böyük təəssüf hissiləri ilə qarşılayır. Amma istedadlı, adamlar, ziyalılar arasında soğulub ömrünü başa vurur. Ziyalı etinasızlıq içərisində əziyyət çəkir, müəyyən mənada tənhalıq, kimsəsizlik nisgili ilə yaşamalı olur. Mənə elə gəlir ki, “Yenidənqurma”, “Aşkarlıq” get-gedə billurlaşıb bu nisgilləri sevincə çevirə biləcək. Belə fikirlər söyəməyə ehtiyatlanıram, axı Siz iqtisadi filosofsunuz, birdən fikirimdə, ifadəmdə qəbahətlər aşkar edə bilərsiniz.

Sağ olun, əhval-ruhiyyə nikbinliyi, sağlıq arzulayıram.

İndi isə kiçik bir şeir.

**Pulun üzləri**

Pulun milyon üzü, milyard üzü var,
Bir üzdən ikiyə keçə bilmirəm.
Pulun bu rəngləri, çalarlarında,
Həyatın rənglərin seçə bilmirəm.

Pulun qara rəngi qaradan-qara,
Ağ rəngi al-qana bulaşıb ey dost,
Pul ilə “ağıla”, “yaşa” çatanın,
Ayağı pulsuza dolaşıb ey dost.

Pulun məşəl kimi yanan gözləri,
Görənməz ehtiyac əsrlərini,
Vətən də elə bir oğul istəyir,
Düzəldə bu pulun kəsirlərini.

Şəxsi tədavüldən çıxara pulu,
Görək hara gedir mənəm-mənəmlik?
Onda görərdirki fərqi yox imiş,
Pullar yüzlük imiş, yadaki təklik!

***Hörətlə Osman Əliyev*** 25. 06 1988

**219.(23) Şəmkirli şair Nəbi Məmmədovun “Eylə” rədifli şeiri**

Başına döndüyüm möhtərəm Cəmil,
Gəl bizim elləri bir də yad eylə.
Sizdən gözləyirik dəyərli dəlil,
Sınıq könülləri gəl abad eylə.

Sizin sözləriniz tamam nəsihət,
Hərbir kəlamınız canlı bir həyat.
Gəl bizim ellərdə qəmə bir daş at,
Çıxılmaz yollara bir imdad eylə.

Bir dəfə elimi yad eylədiniz,
Tarixdə silinməz ad eylədiniz.
Dərdlinin qəlbini şad eylədiniz,
Gəl mənim qəlbimi bir də şad eylə.

**220.(24) Şəmsəddin Səlimovun yeni il təbrik məktubu.**

Hörmətli Cəmil müəllim Salam. Salamdan sonra qarşıdan gələn yeni il bayramı münasibəti ilə mənə dərs vermiş bütün müəllim kollektivinə dünyada ən əziz nemət olan can sağlığı, uzun ömür işlərinizdə yüksək yüksək nailiyyətləri arzu edirəm.

Hörmətlə Sizin məzununuz, ***Səlimov Şəmsəddin.*** 12.12 -1985

Qusar rayonu, Qədəzeyxur kəndi.

## 221. (25) Cəmil Əkbərin 1997-ci ildə nəşr olunmuş "Yaşadar səni" adlı kıtabına şair Bəhmən Vətənoğlunun yazdığı "Şair kimi alim, alim kimi şair" adlı giriş məqaləsi.[1620]

Yaman möhtac qalmışam, söhbətinə, sözünə,
Bülbülləri mat qoyan, avazına, sazına.
Ədəb-ərkan gözləyən, ustad kimi sözünə,
Uyuduğun bəs eylər, oyan ay Dədə Şəmşir!

Sən yazdığın kəlamlar, tonqallara qalandı,
Yanıb külə dönərək, torpaqlara calandı,
Beylə zülüm görüncə bağrım, başı talandı
Uyuduğun bəs eylər, oyan ay Dədə Şəmşir!

Dədə Şəmşir elə bir insan idi ki, bilavasitə yaxından tanıdığı, bildiyi ləyaqətinə hörmət bəslədiyi, insanlığına qiymət verdiyi dəyərli şəxsiyyətləri hərzaman biri-biri ilə tanış etməyə çalışardı. Və bu ünsiyyət tellərinin qurulmasındakı savab işdən zövq alardı. Bunlardan biri də Dədə Şəmşirin tövsiyəsi ilə el şairləri Bəhmən Vətənoğlu ilə Cəmil Əkbərin tanışlıq, dostluq münasibətlərinin tarixcəsidir. Bəhmən Vətənoğlu 1997-ci ildə Cəmil Əkbərin "Yaşadar səni" adlı kitabına yazdığı "Şair kimi alim, alim kimi şair" adlı giriş məqaləsinin üçüncü səhifəsində bu haqda belə yazır: "Heç yadımdan çıxmaz. Bir dəfə Aşıq Şəmşirlə söhbət edirdim. Söz-sözü gətirdi, Dədə Şəmşir dedi:

- Allah qoysa, nə vaxt ikimizin yolu Gəncəyə düşsə, onda səni bir yoldaşla tanış edərəm. O, gözəl insan, alim, həm də yaxşı şeirlər müəllifidir.

Mənim o adamın kim olması ilə maraqlandığımı duyub, sözünə davam etdi:

- O dediyim adam Əkbərov Cəmildir. Kənd Təsərrüfatı İnstitutunda müəllimdir. Əsli bizim Gədəbəydəndir. Yaxşı nəsihətamiz, tərbiyəvi şeirləri var. Özü də şeirləri Cəmil Əkbər imzası ilə yazır.

Dədə Şəmşirlə aramızda olan bu söhbətdən təxminən on beş, on altı il keçəndən sonra Gəncədə Cəmil müəllimlə tanış oldum. Allahın işinə baxki, bizim tanışlığımız Kəlbəcər faciəsi günlərinə düşdü.

[1620] Bəhmən Vətənoğlu. Önsöz, "Şair kimi alim, alim kimi şair". Cəmil Əkbər "Yaşadar səni", Gəncə Şəhər İcrarə Nəşriyyat, Poliqrafiya birliyi, 1997, Səh: 3- 10

Bu tanışlıqdan sonra biz bir neçə dəfə rastlaşdıq, hal-əhval tutduq. Hər görüşdə də düşmən əlinə keçmiş Vətən torpağının dərdi-səri bizi göynədirdi... Budur, bu günlərdə Gəncə nəşriyyatında Cəmil Əkbərin kitabına redaktorluq etmək mənə məsləhət edilib. Ona görə də Cəmil müəllimin gənclikdən bəri qırx ildən artıq bir müddətdə yazdıqlarını tökmüşük qarşımıza, hələ lazım bilmişik ki, müəllif oxusun, redaktor dinləsin... hələlik. *(yəqin ki, redaktor özü oxuyacaq, onda da müəllif dinləyəcək).*

Maraq məni bürüyüb niyə Cəmil Əkbər indiyə qədər bu bədii yazılarının taleyinə, onun çap olunmasıyla maraqlanmayıb. Söhbət zamanı mənə məsələnin ikinci tərəfi aydın oldu *(Axı atalar deyib ki, başına gələn başmaqçı olar).* Mənə birinci aydın oldu ki, Cəmil müəllim, ifadəmə görə üzr istəyirəm, sırtıq yazarlardan deyildir, çap üçün nəşriyyatların qapısını tez-tez döyməyib, bu onun təbiətinə yad olmuşdur. Əslinə isə o abır-həyanı gözləyən adamdır. Abır-həya gözləmək yaxşı haldır. Əslində isə beləliklə gözəl Azərbaycanımızın nəqədər istedadlı, qabiliyyətli, talantlı şəxsləri üzə çıxmamış qalıb. Allah sənə rəhmət eləsin ey Xəlil Rza Ulutürk, necə də gözəl demisən:

“Azəri torpağı nə qəribəsən?
Sənin göylərində min ülkər yatır.
Nəqədər dahilər yetirmisən sən?
Hələ gör nəqədər dahilər yatır?”

Min rəhmət sənə, qəbrin nurla dolsun ay ustad. Şərt o deyildir ki, batanlar hamısı dahi olsunlar. Nə isə, neçə-neçə istedadlar, yazmaq, yaratmaq qabiliyyətinə malik olanlar bu və ya digər maneələr üzündən batmırmı? Onların yazdıqları əsərlər çap olunmamış qalmırmı? Cəmil Əkbər və Cəmil Əkbər kimilərinin çoxlarının çap olunmamasına bir də ən başlıca maneəçilik sovet senzurası olmuşdur, bəli sovet senzurası.

Sözün, xüsusilə bədii deyimlərin hamısı çap olunmalıdır, xalq özünün düşüncə sahiblərinin, bədii söz demək qabiliyyətinə malik olanların yazılarını oxumalıdır. Senzura isə xalq özü olmalıdır. Xalqa lazım olası sözlərə özü qiymət verir və verməkdədir. İndən sonra da qiymət verəcəklər, onun dolu nəfəsi ilə isinəcəklər. Bu sözlərdən mənəvi qida kimi istifadə etmişdir və indən sonra da istifadə edəcəklər. Yaşamağa layiq olmayan sözlər isə zamanın sınaqlarından çıxa bilməyəcəkdir.

Ürəklərə gəlib deyilən sözlər isə S.Vurğun demişkən “yadigardır”. Bəli, bayaqdan bəri dediyimin yekunu budur ki, Cəmil Əkbəri bu günə çap olunmaqdan saxlayan onun özünü təqdim etməkdən çəkinməsi, utancaqlığı, habelə sosializm cəmiyyətinin ideologiyasının qadağanları,

onu mədh etməməsi olmuşdur. Adətən Cəmil Əkbərin şeirlərində mədhiyyə ruhu yoxdur. Cəmil Əkbərin əsərlərinin çap olunmamasının bir səbəbi də odur ki, cəmiyyətdə biganəlik hökm sürür, bir qayda olaraq adamlar bir-birilə az maraqlanır, bu sahədə birbirinə yardım əlini uzatmaqda xəsislik edirlər. Yaradıcılıqla məşğul olanlara qarşı çox təəssüf ki, bu kimi laqeydliklər tarixən də, indi də olmuşdur. Çox təəssüflər ki, əsərləri çap etdirmək imkanına malik olanlar bu sahədə soyuqqanlılıq edirlər, bu xoşa gəlməyən hal olsa da vardır. Bu kimi biganəliklər yazıb-yaradanların qarşısında ən böyük əngəllərdən biridir. Yaradıcılıq qabiliyyətinə malik olanlara kömək edilməlidir. Bu yolla xalqımızın mənəviyyatı zənginləşə bilər, deyilən sözlər irəli sürülən fikirlər xalqımıza vaxtında çatdırıla bilər.

Müasir dövrdə vəziyyət bir qədər dəyişmişdir, indi istedada kömək durmaq, ona sponsorluq etməyə çalışanlar vardır. Bu iş xeyirxahlıq kimi dəyərləndirilməlidir.

Budur, Cəmil Əkbərin şeirləri xronoloji ardıcıllıqla qarşımızdadır. Ömrünün kamil çağında lirik məhəbbət mövzusuna qayıdan Cəmil Əkbər yazırkı, “Sevilən qocalmır, sevən qocalmır”. Əla qənaətə gəlməkdir. Mən bir misrasını yazdım, şeiri bütöv oxuyanda ürəyindən keçir ki, doğrudan da belədir. Cəmil Əkbərin şeirlərini oxuyanda hiss edirsən ki, o, bir alim pedaqoq, ata kimi, kamil el ağsaqqalı kimi öz didaktik fikirlərini deyir, qarşısındakı şəxslərə çatdırır. Axı bunu deməyə onun əlli ilə yaxın ali məktəbdə dərs deməsi, zəngin təcrübəsi imkan verir. Cəmil Əkbər öz fikirlərini şeir dililə çox sadə və anlaşıqlı dildə oxuyuculara çatdırır. O, öz şeirləri vasitəsilə öz tərbiyəçilik, müəllimlik vəzifələrinə sadiq qalır, hiss olunur ki, o, şair təbli müəllimdir.

Cəmil Əkbər öz nəsihətlərinin dəyərlərinə əmin olduğunu bildirərək deyir:

Dolanıb gələcək nəqədər fəsil,
Nəsillər dalınca gələcək nəsil,
Oxuyub öyrənən deyəcək Cəmil,
Öyüd-nəsihətin yaşadar səni.

Cəmil Əkbər həyat həqiqətlərini nəzmə çəkməyi bacararaq deyir:

Günəş yanmağından qorxma dünyada,
Çınqı yanğısından özünü gözlə.
Əjdaha, begemot, nə fildən qorxma,
Mikrob danəsindən özünü gözlə.

Qorxma davalarda topun səsindən,
Bombadan, mərmidən, ya gülləsindən,
Şahın qəzəbindən, məhkəməsindən,
Elin şilləsindən özünü gözlə.

Tükün ürpəşməsin şir savaşından,
Meydana girəndə nər savaşından,
Pəsinmə, çəkinmə ər savaşından,
Tülkü hiyləsindən özünü gözlə.

Bu misralarda elmi nəzəriyyə ilə həyati təcrübə kamil bir pedaqoq, dünyagörmüş bir atanın təfəkküründə möhkəm vəhdətdə birləşmişdir. Sözlərinin çoxunda Cəmil Əkbər sanki həyatın qaranlıqlarına düşərək ömür yoluna davam edən insanlar qarşısında əli fənarlı çıxmışdır, işıq tutmağa gəlmişdir. Cəmil Əkbər sanki bu misralarla yaşayır. O, şeirlərinin birində yazır:

Xalqının əlidə fənar ol Cəmil!
Həmişə alovlan, yanar ol Cəmil!

Beləliklə, Cəmil Əkbər çalışır ki, şeirləri vasitəsilə həyatın qaranlıq yerlərinə öz poetik ziyasını salsın.

O, bildirmək istəyir ki, çaşma insan oğlu ömrün sonu yaxınlaşanda peşiman olmaq istəmirsənsə bunlara əməl et, yolunla düz yeri, düz get.

Tamahını boğanmasan dünyada,
Tamah səni boğacaqdır, agah ol!
Günahını yuyanmasan dünyada,
Günah səni boğacaqdır, agah ol!

Kamalınla günəş kimi doğmasan,
Bulud kimi gurlamasan, yağmasan,
Öz əlinlə zülmətləri boğmasan,
Zülmət səni boğacaqdır, agah ol!

Cücəyə-qartal, qarışqaya-fil, təpəyə-dağ, gölməçəyə-dərya demək Cəmil Əkbərin təbiətinə yaddır. Belə ədalətsiz bənzətmələrin şişirtmələrin əleyhinə söz deməkdən çəkinmir.

Vicdandan, məsləkdən olaraq kasad,
Hər dördayaqlını nər hesab etmə!

-deyir. Müəllim, müəllif bununla kifayətlənmir. Qoruyun ey insanlar... nələri-nələrdən, kimləri-kimlərdən...

Pis-yaxşını, yaxşı-pisi bəyənmir,
Hikmətlini-hikmətsizdən qoruyun.
Mərd-namərdi, namərd-mərdi bəyənmir,
Qeyrətlini-qeyrətsizdən qoruyun.

Cəmil Əkbərin poeziyası hikmətli sözlərlə doludur. O, həyatda sadəliyi, təbiiliyi, doğru-düzgün olmağı, ədalətli olmağı təbliğ edir, xalqı düzgün düşünməyə, dərk etməyə, xalq üçün, vətən üçün layiqli işlər görməyə səsləyir. O, ictimai həyatda, ünsiyyətdə sözdə, münasibətlərdə saxta olmağı, süni olmağı xoşlamır. O, "Yaxşıdır" rədifli şeirində yazır:

Saxta oturmağı, saxta durmağı
Çıxarıb aradan qovsaq yaxşıdır.
Saxta yoldaşlığı, saxta dostluğu,
Aparıb məzara qoysaq yaxşıdır.

Saxta danışığı, saxta sözləri,
Saxta astarları, saxta üzləri,
Saxta baxışları, saxta gözləri,
Çıxarıb yerindən oysaq yaxşıdır.

Cəmil Əkbər şeirinin mayası təbiiliklə, saflıqla yoğrulmuşdur. Cəmiyyət elə varlıqdır ki, onun hərbir zamanında özünəməxsus nöqsanları, çirkinliyi, haqsızlığı, çatışmamazlığı olmuşdur, olur və olacaqdır. Bu kəm-kəsirlər həmişə bir qayda olaraq zəmanənin ziyalıları, düşünmə, dərketmə qabiliyyətinə malik olan müdrik, qabaqcıl adamlar tərəfindən vaxtlı-vaxtında qələmə alınmışdır, tənqid atəşinə tutulmuşdur. Bu əsrdə yaşamış Divarqanlı Abbasın "Bəyənmir" rədifli şeirinə bənzətmədə Cəmil Əkbər məhz bu məsələyə toxunur:

Sən deyən zəmanə yenə gəlibdir,
"Alaqarğa şux tərlanı bəyənmir."
Səs-küyə düşübdür, ünə gəlibdir,
Göstəbəklər kərgədanı bəyənmir.

Abırsızlar, həyasızlar ağ edir,
Yeyib, içib kef-damağın çağ edir,
Qanmaz gəlib qananlara lağ edir,
Namərd oğul mərd atanı bəyənmir.

Əhsən! Lap Ələsgəranə deyilmiş kəlamdır. Yaşa dolmuş, kamilləşmiş, müdrikləşmiş alim-şair gənc nəsili saflığa, təmizliyə, müqəddəsliyə,... bunun üçün də kimləri və nələri oxumağa çağırır. Bu da təbii haldır. "Olarsan" adlı şeirində yazır və görün nələri təklif edir:

Oxu Məhəmmədin ol Quranını,
Sədi Şirazinin "Gülüstanı"nı,
Haqqın kitabının hər varağını,
Sağalmaz dərdlərə dərman olarsan.

Oxu, Nizaminin "Xəmsə"sinə bax,
Hər beytə, misraya, kəlməsinə bax,
Anlayıb, dərk eylə, cümləsinə bax,
Aşarsan, daşarsan, ümman olarsan.

Bu, alimin ali məktəb tələbələrinə oxuduğu mühazirədən sonra verdiyi ədəbiyyat siyahısı deyildir. Yaşından asılı olmayan bütün müsəlman əhlinə xatırladılan, müqəddəs klassik ədəbiyyatdır.

Maraqlı cəhətlərdən biri də budurki, Cəmil Əkbər qələmə aldığı mövzuların çoxusu ötəri, mövsümi məsələlərə həsr edilməmişdir. Onların çoxusu bəşəri xarakterə malikdir. Bu da onun yüksək həyati təcrübəsindən, elmi dünyagörüşündən, alim təfəkküründən irəli gəlir:

Odur ilk müəllim, odur ilk ata,
Mənadır, məzmundur, hikmətdir zəhmət.
Çox deyilib, yetişibdir isbata,
Dövlətdir, sərvətdir, nemətdir zəhmət.

Kimki bu mənanı başa düşməyir,
Bu yolla böyüyüb, yaşa düşməyir,
Bir tövbə eyləyib, haşa düşməyir,
Ən böyük cəzadır, töhmətdir zəhmət.

İnsanları insaflı, mürvətli olmağa çağırış həmişəyaşar mövzudur. Lakin bu çağırış Cəmil Əkbər ifasında həm elmi, pedaqoji, həm də bədii ifadəsini tapır:

Hayana getdimsə, harda oldumsa,
İnsafım, mürvətim bələdçim oldu.
Çətinə düşsəm də, darda olsam da,
Hörmətim, izzətim bələdçim oldu.

Eyhamla dolanıb, həyalı gəzdim,
Vicdanlı, məsləkli, qayəli gəzdim,
Qədəmi uğurlu, sayəli gəzdim,
Abırım, ismətim bələdçim oldu.

Nəqədər səmimi, nəqədər pak deyilmişdir. Oxu qardaş, oxu, oxu, oxu, gör ömür-gün həyat deyilən yolun bələdcisi, zəvvarı kim olmalıdır.

Bələdci bu kişinin, bu alim-şair müəllimin, nurani atanın dedikləri deyilsə azacaqsan, qardaş enişdə, yoxuşda çətinə düşəcəksən, büdrəyəcəksən, yıxılacaqsan, müsibətlər, fəlakətlər içindən çıxa bilməyəcəksən, mənzilə çatmağın çətin olacaq, çatsanda bunlarsız şərəflə çatmayacaqsan. Özün bil...Dahi Nizami demişkən: “Bizdən söyləməkdir, səndən eşitmək”.

Cəmil Əkbər “Dünyanın” rədifli şeirində yazır:

Zəhməti çəkənlər arı olsada,
Gör kimə qismətdir, balı dünyanın.

- deyərək həmişə zəhmət adamlarının yoxsulluq içində gördüyünü təəssüflə yad edir:

Tər tökəni, zəhmət qədri biləni,
Qayğı çəkib, xidmət qədri biləni,
İnsaf qədri, mürvət qədri biləni,
Hayıf ki, yoxsulluq, zəlalət boğur.

Təbiilik, kənd həyatı, ellər, obalar Cəmil Əkbər yaradıcılığının əsas qayələrindən biridir. Uzun illərdən bəri o, şəhərdə yaşasa da yəni əlli ildən artıq bir müddətdə o dədə, baba yuvasını, ata ocağını unuda bilmir. O, deyir indidə kənd yerləri gecələr yuxuma gəlir, yuxuda o yerlər gözümün qabağına gəlir, uşaqlıqda gördüyüm, bildiklərim kino lenti kimi yaddaşımdan silinmir.

O yazır:

İçəsən çayını gülün, çəmənin,
“Kəkotu”nun, “Quşburnu”nun, “Cökə”nin,
Dolanıb başına ana Vətənin,
Kənddə yaşayasan, yaşayanda da.

Nə nazir tanıyıb, hambal görəsən,
Nə dəllal tanıyıb, baqqal görəsən,
Hərzəkar danışan, naqqal görəsən,
Kənddə yaşayasan, yaşayanda da.

Bir dəfə həmyerlisi Şair Musa Ələkbərli “İstəyirəm daşa basam bu kəndi” adlı şeir yazır. Cəmil Əkbər zarafatı da çox sevdiyindən həmin şeirə cavab olaraq yazır:

Bu yerlərdə babaların təri var,
Əşrəfi var, incisi var, ləli var,
Cavanı var, qocası var, piri var,
Şair qardaş, daşa basma bu kəndi!

Sözlərindən anaların inciyər,
Gözəl-göyçək sonaların inciyər,
Doğulduğun binaların inciyər,
Şair qardaş, daşa basma bu kəndi!

Kəndi qoyub gedənləri daşa bas,
Naxələflik edənləri daşa bas,
Öz cibini güdənləri daşa bas,
Şair qardaş, daşa basma bu kəndi!

Beləliklə Cəmil Əkbər bir daha doğulduğu kəndə məhəbbətini bildirir. Cəmil Əkbər yaxşı görürkü, kəndin əhalisinin müqəddəs zəhmətilə qazanılan nemətlər hesabına həm kənd əhalisi, habelə şəhər əhalisi yaşayır, ona görədə kəndi təhqir etmək, məzəmmət etmək olmaz.

Bir dəfə söhbət edə-edə Kənd təsərrüfatı Akademiyasının *(hal-hazırda Gəncə Aqrar Universiteti İ.İ.)* yanından keçib Cəmil müəllim gilə getməli olduq. Mən ilk dəfə idiki oraya gedirdim. Darvazadan içəri girəndə eləbildim qəflətən kəndə düşdüm. Balaca sadə bir həyət, bir mərtəbəli adi bir kəndli evi. Aydındır... özüm də bilmədən haradansa bu misralar bir göyərçin misalda başıma qonub tez-tez ürəyimlə beynim arasında var-gəl edir:

"Aldada bilməmiş dünyanın varı,
Bir məslək eşqiylə yaşayanları."

Misraların müəllifinə ürəyimin dərinliklərində rəhmət, min rəhmət deyə, deyə evə keçib salam verirəm...
Cəmil Əkbərlə söhbət edərkən, onun şeirlərini oxuyarkən tam aydın oldu ki, o, nəqədər sadə bir insandır, o, nəqədər təvazökar bir şəxsdir. Özü sadə olduğu kimi, sadə adamları da xoşlayır, onlara yüksək qiymət verir, lovğalıq, özünü üstün tutmaq, qürrələnmək onun təbiətinə yaddır. Onunla söhbət edərkən, şeirlərini oxuyarkən məlum olur ki, ictimai həyatda mövcud olan nöqsanlar onu daha da narahat edir. O, öz şeirləri ilə xalqı mövcud olan nöqsanlardan xilas etməyə daha çox meyl göstərir.

Cəmil Əkbər şeirinin əsas məziyyətlərindən biri də budurku, o, razılaşmadığı meyllərə, fikirlərə qarşı zarafatla da olsa dürüst və tutarlı cavab verə bilir. O, bir ağsaqqal kimi bu fikirləri söyləməyi zəruri hesab edir. Heç birimizin bu aqil cavabdan inciməyə haqqımız yoxdur.
Şair Zəlimxan Yaqubun "Telə bax, Allah, telə bax" şeirinə Cəmil Əkbərin cavabı yenə Musa Ələkbərlinin şeirinə olan cavab kimi çox maraqlıdır:

Oğulsan başa sal başıboşları,
Vicdanı kəmləri, qəlbi daşları,
Xəyalı dolaşıq, fikri çaşları,
Dərdlərdən bükülən belə bax, belə.

Hindistandan unumuzu alırıq,
Pakistandan düyümüzü alırıq,
Gitarada saz havası çalırıq,
Qəribə səslənən telə bax, telə.

Açılan-açılır, solanlar-solur,
Verənlər-verirlər, alanlar-alır,
Gözləri əllərdə qalanlar-qalır,
Daşqaşa, altuna, lələ bax, lələ.

Bəli ömür dağlarında zirvədə duran bir alim, şair, bir ata dayanaraq, əllərini gözünün üstünə qoyaraq həyatının keçmiş anlarının yoluna nəzər salaraq kövrəlir və deyir:

Bir zaman mənə də nəvə dedilər,
İndiki gülüzlü nəvələr kimi,
Uşaq, tifil, körpə, bəbə dedilər,
İndiki körpələr, bəbələr kimi.

Əziz oxucu, mən əslində kitaba ön söz yazmaq istəmirəm, bunu sevmirəm. Həmişə deyirəm, yenə də deyirəm ön söz nə lazımdır. Ən yaxşısı budur ki, qoy ön söz də, son söz də oxucunun olsun. Öz kitablarımda bu sözləri demişəm. Amma Cəmil Əkbərin kitabına ön sözü kitabın redaktoru kimi yox, kitabın bir oxuyucusu kimi yazıram. Kitabda olan bəzi fikirlər haqqında mən oxucu sözümü dedim, qalanlarını da vaxtınız olduqca özünüz oxuyun, mənim deyə bilmədiklərimi də siz deyin. Tanrı sizə yar olsun! Sözlərimi Cəmil Əkbərin misraları ilə başladığım kimi eləcədə onun misraları ilə qurtarıram. Bir zaman Dədə Şəmşirin atası Aşıq Qurban şeir qədri bilməzlərə işarə vuraraq yazmışdır.

Mətahım dürr mətah, yoxdur bazarım,
Çətindir qurtaram, çoxdur azarım.

İndi də Cəmil Əkbər görün necə deyir?

Bu dərd qocaldıbdı Cəmil Əkbəri,
Əlində qələmi, kitab-dəftəri,
Tapmadı sözünə layiq müştəri,
İtdi-batdı yarımçıqlar içində.

Əziz oxucular, Sizə dərin hörmətlə, məhəbbətlə. Vətəndə vətənsiz qalan

***Bəhmən Vətənoğlu.*** 4. 01 - 1997-ci il.

## *V BÖLÜM:CƏMİL ƏKBƏRİN FƏRQLİ QƏZETLƏRDƏ YAYINLANMIŞ ŞEİRLƏRİ*

**222.** ***(1)***Cəmil Əkbər. “Heçnədi”, “Qoruyun”, “Qocaldım”,“Verərdim”, “Kadr uğrunda” qəzeti, № 3, (1005) 21.03 1994 –cü il. səh.4

Сәһ. 4. КАДР УГРУНДА

## МУДРИК ГӘЛӘМ САҺИБИ

Чәмил Әкбәров игтисад елмләри намизәди, досентдир. 1950-чи илдән АКТА-нын игтисади нәзәријјә кафедрасында чалышыр. Игтисади нәзәријјә фәннини тәдрис едир. Кәнчләри севир, онлара гаршы диггәтлидир. Тәләбәләрә ата кими гајғы кестәрир, ағсаггал кими нәсиһәт верир. Кәләчәјимиз олан Вәтән өвладларынын мәнәвијјатча тәмиз, саф әгидәли, биликли, кениш дүнјакөрүшлү олмалары үчүн әлиндән кәләни әсиркәмир. Бу кејфијјәтләринә керә һамынын рәғбәтини газанмышдыр.

Чәмил Әкбәров тәчрүбәли мүәллим, көзәл инсан, тәдбирли ағсаггал олмагла јанашы, һәм дә ше'р-сәнәт вургунудур. 50 илдир ки, һәјат-һәгигәтдән, әдаләтдән, тәбиәт көзәллијиндән бәһс едән ше'рләр јазыр. Һагсызлыға дөзүмсүз олса да мүбаризәдир. Дөври мәтбуатларда чыхыш едир. Мүдрик ағсаггал Ч. Әкбәровун бир нечә нәсиһәтамиз ше'рини охучулара тәгдим едирик.

### ҺЕЧ НӘДИР?

Јер үзүндә кор нә гәдәр адам вар.
Адсыз, сансыз әзабдары һеч нәдир.
Јол, изини тәрсә-мәсгәб салан вар,
Әдаләтсиз, һәгигәтсиз һеч нәдир.

Һәчы билир һәр синәдә үрәк вар,
Арзулар вар, истәкләр вар, диләк вар,
Доғрулуг вар, әјрилик вар, кәләк вар,
Сәдагәтсиз, сәхавәтсиз һеч нәдир.

Бу дүнјада кор нә гәдәр кәлән вар,
Ағлајан вар, сызлајан вар, күлән вар,
Јарадан вар, јашајан вар, өлән вар.
Бачарыгсыз, мәһарәтсиз һеч нәдир.

Бир нә гәдәр икидләр вар, оғул вар,
Нәғмәләр вар, дастанлар вар, нағыл вар.
Көрпәләр вар, чаванлар вар, аһыл вар.
Әдәб-әркан, нәзакәтсиз һеч нәдир.

Инсан кәрәк гуллуг едә камала,
Вичдан, мәсләк, әгидәјә, амала.
Гијмәт гоја ел-обаја, маһала,
Гејрәтсиз, дәјанәтсиз һеч нәдир.

Чәмил Әкбәр јалгыз кәзиб, доланма,
Чаһил олуб, надалыға чаланма,
Бәд әмәлин очағында галанма,
Инсан өзү чәмијјәтсиз һеч нәдир.

### ГОРУЈУН

Нәс јахшыны, јахшы нәси бәјәнмир,
Һикмәтлини һикмәтсиздән, горујун.
Мәрд намәрди, намәрд мәрди бәјәнмир.
Гејрәтлини гејрәтсиздән, горујун.

Гојмајын наданлар чәкилсин баша,
Чәкилсә зүлм едәр гардаш-гардаша.
Халгымын тале'и тохунар даша,
Хидмәтлини хидмәтсиздән, горујун.

Гојмајын һәјалы, һәјасыз олсун,
Абырлы-исмәтсиз, гајғысыз олсун.
Архалы, кимсәсиз, сајғысыз олсун,
Немәтлини немәтсиздән, горујун.

Гојмајын залымлар кәрсүн әл гаты,
Үзүб, олдан салсын бир саглам чаны.
Кәсәсин һәр заман инсан-инсаны.
Мүрвәтлини мүрвәтсиздән, горујун.

### ГОЧАЛДЫМ

Бахдыгча заманын бу кәрдишинә
Наданлар әлиндә галдым, гочалдым
Һијләкар инсанын бич вәрдишинә
Үјмајыб зәрбәләр алдым, гочалдым.

Сејр едиб елләри кәздим һәр јаны,
Ширваны, Шәкини, Мили, Муғаны
Дәрк едиб дујдугча гоча дүнјаны,
Дәрин хәјаллара далдым, гочалдым.

Кәрдүкчә адамда гәсти, гәрәзи
Оғурлуг, әјрилик басыб һәр јери,
Һәр јанда позулур милләт тәрәзи,
Мин дәфә бошалыб-долдум, гочалдым.

Һагсызлыг әлиндән сынды будағым,
Тутулуб чатылды гашым-габағым,
Доланды башыма касыб отағым,
Көнүл рубабыны чалдым, гочалдым.

Һәр сөзүм-сөһбәтим елә чатмады,
Бүлбүлә чатмады, күлә чатмады,
Үрәјим нарлады, һәләм чатмады,
Әһвалы наринкан олдум, гочалдым.

Дујдугча ганандан, ганмајан чохдур,
Дәрдими анлајан, анмајан чохдур.
Елләрин һалына јанмајан чохдур,
Ахыр агибәти билдим, гочалдым.

### ВЕРӘРДИМ

Олсајды әкәр күчүм гүдрәтим,
Јорулан голлара гүввәт верәрдим.
Мәни ешитсәјди бәшәријјәтим,
Ачиз инсанлара чүр'әт верәрдим.

Гојмаздым әзәни инсан-инсаны,
Төкүлсүн торпага шәһидләрин ганы.
Адамлар һәвајы сатсын вичданы,
Инсафсыз кәсләрә мүрвәт верәрдим.

Гојмаздым бир көнүл ачмајыб күсә,
Халгымын башындан гара јел әсә,
Күфүрәт әлиндән алыб нә исә
Јохсула, үрјана сәрвәт верәрдим.

Бечәриб топлардым нары, алмалы,
Дәрәрдим һејваны, нары, алмалы,
Зәр-зибаја тутуб јары алмалы,
Ганымы јолунда шәрбәт едәрдим.

ЧӘМИЛ ӘКБӘР

**223.** ***(2)*** Cəmil Əkbər “Yaşayanda da”,“Kadr uğrunda”, № 20, (9321), 31.10 - 1988-ci il, səh.4

СӘҺ. 4. КАДР УҒРУНДА

Әдәбијјат

# ЈАШАЈАНДА ДА

(Низами Кәнчәвинин анадан олмасынын 850 иллијини гаршысында).

Дүнјаја сығмајан шөһрәтин ола,
Белә јашајасан јашајанда да.
Ел, оба јанында һөрмәтин ола,
Белә јашајасан јашајанда да.

X X X

Идракындан нур сачыла елләрә,
Шеһ төкүлә, әтир дүшә күлләрә,
Хәбәр чата, муждә кәлә јерләрә,
Белә јашајасан јашајанда да.

X X X

Кәламындан дүрр төкүлә кағыза,
Инчи дүшүб, зәр төкүлә кағыза,
Мин бир мә'на, сирр төкүлә кағыза,
Белә јашајасан јашајанда да.

X X X

Оласан адынын өз сәркәрдәси,
Доғру сәркәрдәси, дүз сәркәрдәси,
Сәнәт сәркәрдәси, сөз сәркәрдәси,
Белә јашајасан јашајанда да.

Әсрдән—әсрә сәфәрин ола,
Јенилмәк билмәјән һүнәрин ола,
Сәадәт бәхш едән зәфәрин ола,
Белә јашајасан јашајанда да.

X X X

Заман өтүшдүкчә дүшәсән јада,
Чатасан һараја, јетәсән дада,
Чәкдијин зәһмәтин кетмәјә бада,
Белә јашајасан јашајанда да.

X X X

Нә күләк, нә туфан гопара билә,
Ганырыб көкүндән чыхара билә,
Салыб габағына апара билә,
Белә јашајасан јашајанда да.

X X X

Өмрүнү исмәтлә вурасан баша,
Јатасан көнүлә, кәләсән хоша,
Ај илә, улдузла, дурасан гоша,
Белә јашајасан јашајанда да.

Чәмил ӘКБӘРОВ,
досент.

**224.** ***(3)*** Cəmil Əkbər. “Vicdan məslək susanda”, “Toxucu” qəzeti, 28.02 - 1990, səh 3



# ВИЧДАН, МӘСЛӘК СУСАНДА

Һәр нә сусур гој суссун, вичдан, мәсләк сусмасын,
Һәр кәс күсүр гој күссүн, вичдан, мәсләк күсмәсин.
Вичдан, мәсләк сусанда, даша дөнүр үрәкләр,
Мүшкүл ишә чеврилир, хош арзулар, диләкләр.
Гараја ағ дејилир, аға гара дејилир,
Кәсирә там дејилир, тама пара дејилир,
Илгар-иман азалыр, үнсијјәтләр позулур,
Һагг-наһагга гарышыр, дүз-әјријә јозулур,
Таб кәтириб дөзмәјир, шәхсијјәт дә позулур.
Јер үзүндә нә варса, чәмијјәт дә позулур,
Килеј-күзар, гал-говға, күсү-уман чохалыр.
Әдавәтләр артараг, заман-заман чохалыр.
Һәдди ашыр дөнүклүк, хәјанәтләр чохалыр.
Наданлыглар чохалыр, чәһаләтләр чохалыр.
Нәки варса гој суссун, тәкчә вичдан сусмасын,
Кимки күсүр гој күссүн, тәкчә вичдан күсмәсин.
Вичдан, мәсләк сусанда, биз кәрәксиз олуруг,
Биз архасыз, кимсәсиз, биз көмәксиз олуруг,
Биз һүнәрсиз, тәпәрсиз, лап үрәксиз олуруг,
Хош арзусуз, истәксиз, пак диләксиз олуруг.
Үрәкләрдә ешг-һәвәс, мәһәббәт дә галмајыр,
Әдәб-әркан, мә'рифәт, нәзакәт дә галмајыр.
Солур ешгин чичәји, тәравәт дә галмајыр,
Үнсијјәтә нур сачан, ләјагәт дә галмајыр,
Һәјат зүлмәтә дөнүр, кен дүнјамыз дар олур,
Шахта вуруб солдурур, тәр гөнчәләр хар олур.
Думан чөкүр, чән кәлир, көрән көзләр кор олур,
Һа бағырыб десән дә, гулаглар да кар олур.
Вичдан, мәсләк сусанда, пис күнләрә дүшүрүк,
Һагг јолундан узашыб, нәс күнләрә дүшүрүк.
Нәки варса гој суссун, тәки вичдан сусмаја,
Кимки күсүр гој күссүн, тәки вичдан күсмәјә!
Вичдан, мәсләк сусанда биз тәлаша дүшүрүк,
Гал-говғаја, даваја, далаша да дүшүрүк
Инсан азғына дөнүр, инсан вәһшијә дөнүр,
Ганан ганмаз көрүнүр, санки нашыја дөнүр.
Һа чан гојуб чалышсан, јолдаш да јолдаш олмур,
Дост-доғмача чан-чијәр, гардаш да гардаш олмур.
Һәмкар һәмкардан күсүр, сирдаш сирдашдан күсүр,
Тајтуш тајтушдан күсүр, чағдаш чағдашдан күсүр.
Әр арвады танымыр, арвад әри танымыр.
Зәркәр налбәндлик едир, налбәнд зәри танымыр.
Вичдан, мәсләк сусанда, гејрәт орда азалды,
Абыр орда түкәнди, исмәт орда азалды,
Хәтир орда азалды, һөрмәт орда азалды.

Мәзмун орда түкәнди, һикмәт орда азалды.
Дөвләт орда гыт олду, сәрвәт орда пуч олду.
Шәрәф бурда һеч олду, шөһрәт орда һеч олду.
Һәр нә сусур гој суссун, тәки вичдан сусмасын,
Һәр ким күсүр гој күссүн, тәки вичдан күсмәсин.
Вичдан, мәсләк сусанда дөвран јаман бәд олур,
Һәр шеј көздән дүшәрәк, заман-заман бәд олур.
Вичдан бизлә оланда, әдаләтли олуруг,
Һатәмсајаг олуруг, сәхавәтли олуруг,
Әдәб-эркан көзләјиб, нәзакәтли олуруг,
Биз јенилмзз олуруг, мәһарәтли олуруг,
Биз дөзүмлү-дурумлу, дәјанәтли олуруг,
Вичдана сөјкәнәрәк, учалмышыг онунла,
Зәфәр чалыб һәр ишдә, бач алмышыг онунла,
Икид кими танныб, ада-сана чатмышыг,
Дүшүнүб, дәрк еjләјиб, гана-гана чатмышыг.
Әл узадыб чохунун һарајына јетмишик,
Фәсилинә, илинә, һәр ајына јетмишик.
Һарда вичдан олубса, орда тутду голумдан,
О гојмады чашмаға, нә дә чыхым јолумдан.
Әзәл күндән, бинадан мәни мән едән одур,
Һәр хәтадан-бәладан мәни кен едән одур,
Ондан ајры нәчијәм, ондан ајры мән кимәм,
Тәкчә тәнһа инләјән, көкдән дүшән бир симәм.
Инсан оғлу амандыр, кәл вичданы атмајаг,
Ону учуз тутараг, ајаг алтда атмајаг.
Һарда олсаг, јашасаг, бу не'мәти итирмә,
Көнүл адлы дијарда, гаратикан битирмә.
Һамы билсин гој буну, вичдан, мәсләк сусанда,
Нәчиб-нәчиб истәкләр, арзу, диләк сусанда,
Инсанлыға гәсд олур, ләјагәтләр тапданыр.
Хәтир-һөрмәт тапданыр, фәзиләтләр тапданыр,
Вичдан, мәсләк дүшмәсин гој һеч кимдән аралы,
Вичдан һаггын сәсидир, әдаләтин сәсидир,
Доғрулуғун, дүзлүјүн, һәгигәтин сәсидир.
Сәдагәтин сәсидир, сәхавәтин сәсидир.
Үлви арзу, истәјин, мәһәббәтин сәсидир.
Әдәб-эркан сәсидир, нәзакәтин сәсидир.
Инсанлыға јол ачан ләјагәтин сәсидир.
Һәр нә сусур гој суссун, тәки вичдан сусмасын,
Һәр кәс күсүр гој күссүн, тәкчә вичдан күсмәсин.

**Чәмил ӘКБӘРОВ**
**«Бута» әдәби бирлијинин үзвү.**

## **225.** ***(4)*** “Bizim babalar”

# Бизим бабалар

Елләр әһсән дејиб нәр кишиләрә,
Белә јашајыбдыр бизим бабалар.
Иҝид кишиләрә, әр кишиләрә,
Белә јашајыбдыр, бизим бабалар.

Сәадәт күнүнү зәһмәтдә көрүб,
Вәтәнә, халгына хидмәтдә көрүб,
Елләрдән алдығы гијмәтдә көрүб,
Белә јашајыбдыр, бизим бабалар.

Јарадыб-јашатмаг пешәси олуб,
Һәјат мәһвәринин ришәси олуб,
Өзәји, нүвәси, гишасы олуб,
Белә јашајыбдыр, бизим бабалар.

Сағлам әгидәли, үрәкли олуб,
Һалал сүфрә ачыб, чөрәкли олуб,
Елләрә, обаја кәрәкли олуб,
Белә јашајыбдыр, бизим бабалар.

Камалы башында јеткин олубдур,
Фикири, хәјалы биткин олубдур,
Сөзләри һәр јанда өткүн олубдур,
Белә јашајыбдыр, бизим бабалар.

Үзүндән, көзүндән нур әләнибдир,
Абыр сәпәләниб, ар әләнибдир,
Зәһм төкүлүбдүр, зәр әләнибдир,
Белә јашајыбдыр, бизим бабалар.

Халис хәлитәдир, әсилдир заты,
Алмаздан, поладдан мөһкәмдир гаты,
Чох чыхыб сынагдан, олуб исбаты,
Белә јашајыбдыр, бизим бабалар.

Алилик, үлвилик хисләти олуб,
Арзусу, истәји, нијјәти олуб,
Севинчи, һәвәси, риггәти олуб,
Белә јашајыбдыр, бизим бабалар.

Сајылыб, сечилиб, дилләрә дүшүб,
Обалар, ојмаглар, елләрә дүшүб,
Әсрләр аддајыб, илләрә дүшүб,
Белә јашајыбдыр, бизим бабалар.

Һүнәр мејданында нәр сајылыблар,
Сәрраф нәзәриндә зәр сајылыблар,
Нурани, ағсаггал, пир сајылыблар,
Белә јашајыбдыр, бизим бабалар.

Ел көзүндә нәһәнк олуб кишиләр,
Ме'јар олуб, мәһәк олуб кишиләр,
Заманәјә аһәнк олуб кишиләр,
Белә јашајыбдыр, бизим бабалар.

Јыхылан кәсләрә дајаг олублар,
Сәрвахт јашајыблар, ојаг олублар,
Дөврү-заманәјә чыраг олублар,
Белә јашајыбдыр, бизим бабалар.

Елләрин варына һәрис олмајыб,
Јоғуруб јапмамыш варис олмајыб,
Нанәчиб, нахәләф, хәбис олмајыб,
Белә јашајыбдыр, бизим бабалар.

Фитнәјә, фәсада алданмајыблар,
Бәд сөзә, әмәлә јолланмајыблар,
Кимсәјә сығыныб далданмајыблар,
Белә јашајыбдыр, бизим бабалар.

Вүгарла доланыб әјилмәјибләр,
Вичдан әзабында дојулмәјибләр,
Нифрәтлә јад олуб сөјүлмәјибләр,
Белә јашајыбдыр, бизим бабалар.

Кимсәјә гәрәзлә саташмајыблар,
Гапы-бачасына даш атмајыблар,
Гәлбиндә чамырлыг јашатмајыблар,
Белә јашајыбдыр, бизим бабалар.

Билмәјиб кимсәјә јалтаглыг нәдир,
Һәјасызлыг нәдир, сыртыглыг нәдир,
Тәлхәклик, јүнкүллүк, шылтаглыг нәдир,
Белә јашајыбдыр, бизим бабалар.

Һүнәр мејданында бач алыб онлар,
Зәфәрләр чалараг тач алыб онлар,
Сәксәндә, дохсанда гочалыб онлар,
Белә јашајыбдыр, бизим бабалар.

Јүз јашда да әјилмәјиб вүгары,
Азалмајыб е'тибары, илгары,
Садиг олуб Һәчәрләри, Никары,
Белә јашајыбдыр, бизим бабалар.

Кәлин бабалардан ибрәт көтүрәк,
Естафети әлдән-әлә өтүрәк,
Кәнч нәсилә бу хәбәри јетирәк,
Белә јашајыбдыр, бизим бабалар.

Чәмил ӘКБӘРОВ.

РЕДАКТОР: С. Н. ИСАЈЕВ.

**226.** ***(5)*** Cəmil Əkbərov. "Çəkiləndədir", "Toxucu" qəzeti, 1.08 - 1986-cı il, səh. 4.

ТОХУЧУ 1 АВГУСТ 1986-чы ИЛ

# Чәкиләндәдир

Санма ки, һамыдан камаллы
сәнсән.
Камал ел көзүндә
чәкиләндәдир.
Мәсләкли, вичданлы, әмаллы
сәнсән,
Әмал ел көзүндә
чәкиләндәдир.

* * *

Һамыдан һөрмәтли, иззәтли
сәнсән,
Кәрамәт әһлисән, мүрвәтли
сәнсән.
Абырлы, һәјалы, исмәтли
сәнсән,
Һөрмәт ел көзүндә
чәкиләндәдир.

* * *

Демә ки, һамыдан шөһрәтли
мәнәм,
Намуслу, вичданлы, гејрәтли
мәнәм,
Мәзмунлу, мә'налы, һикмәтли
мәнәм,
Шөһрәт ел көзүндә
чәкиләндәдир.

* * *

Һамыдан дөвләтли, варлыјам
демә,
Чәтиндә, дар күндә карлыјам
демә,
Әјилсә будағын барлыјам
демә,
Дөвләт ел көзүндә
чәкиләндәдир.

* * *

Санма ки, һамыдан
сәхавәтлисән,
Икидсән, гочагсан,
фәрасәтлисән,
Одлу, аловлусан, һәрарәтлисән,
Гүввәт ел көзүндә
чәкиләндәдир.

* * *

Демә ки, һамыдан хидмәтин
чохдур,
Ән көзәл вәрдишим, адәтим
чохдур,
Дәјәр, кәмијјәтим, гијмәтим
чохдур,
Гијмәт ел көзүндә
чәкиләндәдир.

* * *

Санма ки, һәр шејин
биләндәрисән,
Алими, логманы, гәләндәрисән,
Сәррафы, харраты,
чилингәрисән,
Гүдрәт ел көзүндә
чәкиләндәдир.

* * *

Демә ки, һамыдан дүз кедән
мәнәм,
Сүр'әти артырыб тез кедән
мәнәм,
Гәт едиб саатда јүз кедән
мәнәм,
Сүр'әт ел көзүндә
чәкиләндәдир.

* * *

Демә ки, дүнјада шир,
асланам мән,
Барлы, бәрәкәтли бир
бостанам мән,
Дилләрдә чар олан бир
дастанам мән,
Дастан ел көзүндә
чәкиләндәдир.

* * *

Еј Чәмил, һәмишә елә
архалан,
Һикмәтли сөзләрә, дилә
архалан,
Зәһмәтә архалан, елә архалан,
Һикмәт ел көзүндә
чәкиләндәдир.

Чәмил ӘКБӘРОВ.

**227.***(6)* Cəmil Əkbərov. “Ay fəhlə qardaşım, kəndli qardaşım”, “Başqadır”, “Əməkçi” qəzeti, 16. 09 - 1986, səh.4

# Ај фәһлә гардашым, кәндли гардашым

Бәшәр өвладынын хејирхаһысан,
Ај фәһлә гардашым, кәндли гардашым.
Сән бүтүн халгларын үмидкаһысан,
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Мүгәддәс арзулар, диләк сәниндир.
О мәғрур дөјүнән үрәк сәниндир.
Сүфрәмдә јејилән чөрәк сәниндир,
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Көзәл дүнјамызда һүнәр сәниндир.
Нурлу кәләчәјә сәфәр сәниндир.
Гәләбә сәниндир, зәфәр сәниндир.
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Әкән дә, сәпән дә, битирән дә сән.
Бәсләјиб, бечәриб, јетирән дә сән.
Һәр елә, обаја кәтирән дә сән,
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Һамыдан гүдрәтли санырам сәни.
Дәрк едир, дујурам, ганырам сәни.
Һәр сүфрә башында анырам сәни,
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Гојмајын јолуну азанлар олсун.
Һаггы-әдаләти позанлар олсун.
Доғруну әјријә јозанлар олсун.
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Ар олсун һаггыны итирәнләрә.
Јолунда кол-кослар битирәнләрә.
Күнаһы бојнуна көтүрәнләрә,
Ај фәһлә гардашым, кәндли гардашым.

x x x

Чәһаләт бәндини гыран сән олдун,
Залымын бојнуну буран сән олдун.
Көзәл дүнјамызы гуран сән олдун.
Ај фәһлә гардашым, кәндли гардашым.

## БАШГАДЫР

Һәр синә алтында бир үрәк вурур,
Севдасы башгадыр, ешги башгадыр.
Һәрәси бир чүрә јарадыб-гурур,
Тәпәри башгадыр, мәшги башгадыр.

x x x

Һәр јерин инчиси, өз лә'ли вардыр,
Һәр чајын дашгыны, өз сели вардыр.
Һәр бағын-бағчанын өз күлү вардыр,
Әтири башгадыр, мүшкү башгадыр.

x x x

Еј Чәмил, һәр гәлбин өз аһәнки вар.
Әјри аһәнки вар, дүз аһәнки вар,
Дәрин аһәнки вар, үз аһәнки вар,
Сарајы башгадыр, көшкү башгадыр.

Чәмил ӘКБӘРОВ.

**228.** ***(7)*** Cəmil Əkbərov. "Səməd Vurğuna", "Kirovabad Kommunisti", 18.05-1986-cı il, № 97, (8170), səh.3

## СӘМӘД ВУРҒУНА

Еј бөјүк сәнәткар, өлмәз нәғмәкар,
Бу елдә нә гәдәр һаггысајын вар.
Сән нәдән јаздынса, биринчи олдун,
Сәнәт дүнјасында сән инчи олдун.
Һәр нәдән јаздынса, дүшдү дилләрә,
Кәзди сөз сәһбәтин елдән-елләрә.
Ше'риндир мин шә'лә сачан һәр јанда,
Из салыб көнүлдә, галыб чаһанда.
Нә гәдәр кәздинсә бүтүн дүнјаны,
Севдин ана јурдун Азәрбајчаны.
Сән өз илһамыны Лениндән алдын,
Азадлыг, сәадәт күнүндән алдын.
Кетмәјир дағлардан ајаг изләрин,
Чыхмыр үрәкләрдән ширин сөзләрин.
Доғма оғул олдун Азәрбајчана,
Шан-шөһрәт јарандын бизим чаһана.
Нечә әсәр јаздын заманәмизә,
Нәгш олду тарихә, салнамәмизә.

Ше'рдән мөһтәшәм бир сарај гурдун,
Өмрүнү шәрәфлә сән баша вурдун.
Һәр заман мәрдликлә дедин сөзүнү,
Ујмадын бөһтана јаздын дүзүнү.
Дедин ки, учалыр дүзлүклә һәр кәс,
Әмәкдир һәр шејдән бизә мүгәддәс.
Һәр халгын јанында һөрмәт газандын,
Өлмәјән әбәди шөһрәт газандын.
Сән нәдән јаздынса, кәлди үрәкдән,
Од алдын үрәкдән, јандын үрәкдән.
Techнки үрәксиз дејилән сөзләр,
Көнүлләр мүлкүндә салмајыр изләр.
Ше'рин баһадыры олдун шаир, сән,
Нәсилләр дәрс алыр бу күн дә сәндән.
Сән дамла олмадын, сән үмман олдун,
Шаирләр ичиндә командан олдун.

Чәмил ӘКБӘРОВ.

**229.** ***(8)*** Cəmil Əkbərov. "Özbək dostlara" 12.06 - 1979, səh.3.

## ӨЗБӘК ДОСТЛАРА

Зәһмәтилә нахыш вурур чаһана,
һүнәр, зәфәр чәләнклидир өзбәкләр.
Торпағында һөрмәт вар һәр инсана,
саф гәлбли, хош диләклидир өзбәкләр.

Нә ширидир ләһчәләри, дилләри,
нә кенишдир тарлалары, чөлләри.
Әлван кејир маһаллары, елләри,
гызыл күллү, чичәклидир өзбәкләр.

Мән Дашкәнди, Бухараны кәзмишәм,
Кашгараны, Әндичаны кәзмишәм,
Сәмәргәнди, Наманганы кәзмишәм,
памбыглыдыр, ипәклидир өзбәкләр.

Дүрр јетирир торпағы да, дашы да,
көнүл охшар баһары да, гышы да.
Әтирлидир түнд чајы да, ашы да,
сүфрәси бол чөрәклидир өзбәкләр.

Чан дејиб чан ешитмәкдир пешәси,
ләкәсиздир саф гәлбинин шүшәси.
Чәннәт олуб һәр бучағы, кушәси,
зинәтлидир, бәзәклидир өзбәкләр.

Доста вәфа, саф мәһәббәт вар онда,
үзү ағдыр гардаш елләр јанында.
Зәһмәт ешги гајнар чошгун ганында,
әјилмәјән биләклидир өзбәкләр.

Чәмил ӘКБӘРОВ,
АКТИ-нин досенти.

**230.** ***(9)*** Cəmil Əkbərov. “Aralanmayın” , “Kadr uğrunda”, № 7, 13. 04 -1984, səh. 3.

КАДР УҒРУНДА

Әдәбијјат сәһифәси

## АРАЛАНМАЈЫН

Охујан мүғәнни, чалан сазандар
Сәдәфли сазымыздан араланмајын
Мәчлисә топлашан ариф инсанлар.
Милли һавамыздан араланмајын.

X X X

Еј тарзән, чалмағы Гурбандан өјрән
Әһсәндән, Әһмәддән, Бәһрамдан өјрән,
Охујан, Бүлбүлдән, Чаббардан өјрән,
Сәнәт дүнјамыздан араланмајын.

X X X

Чағырын мәчлисә кәлсин Әләскәр,
Зәкасы хәзинә, синәси дәфтәр,
Әмраһла Камандар, Шәмширлә Әкбәр,
Бүлбүл авазымдан араланмајын.

X X X

Милли мусигимдә ахтарын кефи,
Ахтарын газанчы, көтүрүн нәфи,
Короғлу чәнкиндә кәтирин дәфи,
Гара зурнамыздан араланмајын.

X X X

Демәјин хош кәлир тәзә модалар,
Көһнәлиб кедибдир кечмиш һавалар,
Ондан һәзз алыбдыр дәдә-бабалар,
Көнүл ајнамыздан араланмајын.

X X X

Демәјин севмирәм өзкә һаваны,
Кәтирмә көнлүнә белә күманы,
Салмајын араја наһаг даваны,
Милли еһзазымдан араланмајын.

X X X

Чәмил илһамыны саздан алыбдыр,
Ше'рдән алыбдыр, сөздән алыбдыр,
Вүсалдан алыбдыр, көздән алыбдыр,
Ана лајламыздан араланмајын.

Ч. ӘКБӘРОВ.

**231.** ***(10)*** Cəmil Əkbərov. “Ana məhəbbəti, ata qayğısı”, “Kadr uğrunda” 30.08 - 1978, səh.3.

ЈЕНИ ШЕ‘РЛӘР

30/VIII 78
Кадр уғр.

### АНА МӘҺӘББӘТИ, АТА ГАЈҒЫСЫ

Дүнјада һәр шејдән әзиздир, әзиз
Ана мәһәббәти, ата гајғысы.
Чешмәләр сују тәк тәмиздир, тәмиз
Ана мәһәббәти, ата гајғысы.

★

Руһуму охшајан ана бахшыдыр,
О, көнүл мүлкүнүн јарашығыдыр.
Ајырмаг онлары һансы јахшыдыр
Ана мәһәббәти, ата гајғысы?

★

Ким ајырса аталары анадан
Дүз данышмыр сөзләрини бинадан.
Өвлады бәхш етди көнүлханадан
Ана мәһәббәти, ата гајғысы.

Чәмил ӘКБӘРОВ.
досент

**232.** ***(11)*** Cəmil Əkbərov. "Oğluma nəsihət" səh.3

## ОҒЛУМА НӘСИҺӘТ

Арзум будур көрпә балам сәнин дә,
Елләр арасында һөрмәтин олсун.
Мәһәббәт [illegible]каны мәғрур синәндә,
Дөјүнән үрәкдә мүрвәтин олсун.

x x x

Бүлбүл усанармы чичәкдән, күлдән,
Ашыг әлми чәкәр обадан, елдән.
Вәтәнин шәрәфини вермәјнән әлдән,
Ону горумаға гүдрәтин олсун.

x x x

Инсафы, вичданы атан инсана,
Наһагдан араны гатан инсана,
Мәрди намәрдликлә сатан инсана,
Гәлбиндә силинмәз нифрәтин олсун.

x x x

Оху китаблары арашдыр дәрин,
Елмлә камала јетишсин әлин,
Истәсән дүнјадан олсун хәбәрин,
Алимлә, лоғманла үлфәтин олсун.

x x x

Һәр инсан оғлу илә дуруб отурма,
Намәрддән, накәсдән һал-әһвал сорма,
Фәгирә тохунуб, дүшкүнү вурма,
Кишилик нишани чүр'әтин олсун.

Ч. ӘКБӘРОВ.

**233.** ***(12)*** Cəmil Əkbərov. "Həyat imtahandır", "Yüksəliş" qəzeti, 5.09 - 1977, səh.1.

Јүксәлиш 5/IX 77

**ҺƏЈАТ ИМТАҺАНДЫР**

Һәјат имтаһандыр, һәјат сынагдыр.
Көрәк ким верәчәк, ким чыхачагдыр?
Бурада билинир күч дә, гүввәт дә.
Гәләбә, зәфәр дә, мәғлубијјәт дә.
Бириси үч алыр, бири беш алыр,
Бири кәдәрләнир, бири хош олур,
Бири имтаһаны зәфәрлә верир,
Чәсарәт көстәрир, һүнәрлә верир.
Мәканы дүз көрүр, јолу дүз кедир,
Нә јана чәкилмир, нә дә үз кедир.
Шан-шөһрәт кәтирир ел-обасына,
Өз доғма јурдуна, өз јувасына.
Башы уча олур, үзүағ кәзир,
Әмәли сағ кәзир, сөзү сағ кәзир.
Дүшмәјир дилләрдән сөзү, сөһбәти,
Сығмајыр елләрә шаны-шөһрәти
Алданмыр дүнјанын чаһ-чалалына,
Сәрсәм фикиринә, кәч хәјалына.
Сәһәр тез ојаныр, кечә кеч јатыр.
Јухуја шәкәр јох, ачыны гатыр.
Имтаһан дәрјадыр-сәр мејданыдыр,
Киши мејданыдыр, әр мејданыдыр.
Бизим заманәдә, шөһрәт вахтыдыр,
Ар, намус вахтыдыр, гејрәт вахтыдыр.
Һәр кәс ки, дәрсини алмады камил,
Дәрин дүшүнчәјә далмады камил,
Бүдрәди, јыхылды далларда галды,
Чатмады мәнзилә, јолларда галды.
Һәр кәс бел бағласын өз гүдрәтинә,
Өзүнүн ад-саны, өз шөһрәтинә.
Өзкәдән өзүнә шөһрәт көзләмә,
Чәсарәт, дәјанәт, гејрәт көзләмә.

Анласан һәјатын нә олдуғуну.
Биләрсән зәһмәтдән доғулдуғуну.
Зәһмәтсиз нә зәфәр, нә гәләбә вар,
Нә даһи, нә алим, нә тәләбә вар.
Зәһмәтдир инсана јарашыг верән,
Көзләрә нур сачан. һәм ишыг верән.
Зәһмәтдир јарадан назү-немәти,
Газаныб топлајан вары-сәрвәти.
Зәһмәтсиз инсанын нә гијмәти вар,
Нә ады, нә саны, нә һөрмәти вар.
Зәһмәтә бағлыдыр, хош арзу, нијјәт,
Ән көзәл дујғулар, ән саф мәһәббәт.
Зәһмәтдир инсанын ешги, һәвәси,
Зәһмәтдир һәјатда зәфәр нәғмәси.
Зәһмәтдир һәр елмин әсас бинасы,
Зәһмәтдир һәјатын әзәл мајасы.
Зәһмәтә бағлыдыр дағ да, аран да,
Јарадан, јашадан, тикән, гуран да.
Зәһмәтә бағлыдыр дүшүнчә, камал,
Үлвијјәт, гүдсијјәт, көзәллик, чамал.
Зәһмәтә бағлыдыр, үнсијјәтимиз
Ирадә, дәјанәт, гәтијјәтимиз.
Зәһмәтә бағлыдыр, дүшүнчәмиз дә,
Мәсләк дә, вичдан да, әгидәмиз дә,
Зәһмәтә бағлыдыр, намус да ар да,
Севкили чанан да, истәкли јар да.
Зәһмәтдән ајрылыб аралананлар,
Силиниб һәјатдан гараланырлар.
Чалыш ки, зәфәрдә өз пајын олсун!
Вәтән гүдрәтинә архајын олсун!

Чәмил ӘКБӘРОВ.

**234.** ***(13)*** Cəmil Əkbər. "Deyim", "Nizami yurdu" qəzeti, № 16, (79) avqust 1992, səh 2.

**ДЕЈИМ**

Дүнја, сәнин е'тибарын
Вармы дејим, јохму дејим.
Әһдин, вәфан, дүз илгарын
Вармы дејим, јохму дејим.

* * *

Ачыланын, соланларын,
Өләнләрин, галанларын,
Сур түтәјин чаланларын,
Вармы дејим, јохму дејим.

* * *

Дүнја, сәнин бәһ-базарын,
Хош сәфәрин, хош
күзарын,
Севинч долу ифтихарын,
Вармы дејим, јохму дејим.

* * *

Дүнја, сәндә хәтир-һөрмәт,
Вичдан, мәсләк, инсаф,
мүрвәт,
Ја сәдагәт, ја сәхавәт,
Вармы дејим, јохму дејим.

Чәмил ӘКБӘР

**235.** ***(14)*** Cəmil Əkbərov. “Göndərim”, ”Kadr uğrunda”, 13.05 - 1964 səh.

13/V 64.

КАДР УҒРУНДА 3

ат сәһифәси

КӨНДӘРИМ

Бу әзиз достумун шән мәчлисинә,
Баһарын мүждәси күлму, көндәрим?
Лачынлар јурдуна, лоғман елинә,
Гәлбимин бәндиндән телми көндәрим?
х х х
Сәдәфли сазыны һеј ојнатмаға
Мизрабы бармагда сәрраст тутмаға,
Ашыг Гурбан, Әләскәрә чатмаға,
Көмәјә јетишән әлми көндәрим?
х х х
Шаирин хәјалы долансын дејә,
Мәһәббәт одуна галансын дејә,
Көнүлләр-көнүлә чалансын дејә,
Карванлар кечмәјән јолму көндәрим?
х х х
Көзләрим јол чәкир, бахыр һеј бахыр,
Ешги үрәјимдә шимшәк тәк чахыр,
Синәмдә мәһәббәт гајнајыб ахыр,
Дағлара шәлалә, селми көндәрим?
х х х
Бахым јер үзүндән көј асимана,
Бу камил үстада, көзәл инсана,
Һөкм едим гәлбимә, әһдә-пејмана,
Өмрү узатмаға илми көндәрим?

Чәмил ӘКБӘРОВ.

**236.** ***(15)*** Cəmil Əkbərov. “Xatirə”, 31.12 - 1986-cı il, № 24, səh. 3.

ХАТИРӘ

31/XII 86 №24.

(СӘМӘД ВУРҒУНУ ДҮШҮНӘРКӘН)

Шаир сөзүн сәррафы, ме'марыдыр, чаныдыр,
Фикирләрин инчиси, көвһәридир, каныдыр.
Кәлмәсиндә әдаләт, чүмләсиндә һәгигәт,
Һәр бејитдә мә'на вар, һәр мисрада ләјагәт,
Доғру өлчүр, дүз чәкир, вичданында тәрәзи,
Јохдур онун кимсәдән, тәманнасы, гәрәзи.
Дәрјалардан дәриндир, зирвәләрдән учадыр,
Нәвәләрдән чавандыр, бабалардан гочадыр.
Шаир елин үрәји, ити көрән көзүдүр,
Өз халгына чатасы, дејиләси сөзүдүр.
Һамы көчүб кетсә дә, шаир өлән дејилдир,
Һәр күл, чичәк солса да, бу күл солан дејилдир.
О торпаға һәкк олуб, о сәмаја һәкк олуб,
О күнәшә, улдуза, һәм дә аја һәкк олуб.
Һәр арзуја, истәјә, һәр диләјә бағланыб,
Һәр голлара күч вериб, һәр биләјә бағланыб.
О бир евдә олса да, мин бир евин оғлудур,
О бир елдә олса да, мин бир елин оғлудур.
Тәк ананын оғлу јох, аналарын оғлудур,
Тәк бир халгын дејилдир, мин бир халгын оғлудур.
Вәсф етмәклә гуртармаз, түкәнмәз хәзинәдир,
Нәсилләрдән-нәслә әбәди хатирәдир.

Чәмил ӘКБӘРОВ.

**237.** ***(16)*** Cəmil Əkbərov. “Müəllimlərim” səh.3.

# МҮӘЛЛИМЛӘРИМ

**(Гочаман мүәллимләримә итһаф едирәм)**

Әзиз мүәллимим, еј начиб инсан,
Сән мәнә нә доғма, нә меһрибансан.
Мән сизи дујдугча чошду илһамым,
Артды е'тигадым, артды инамым.
Мүәллим, көзләрин нуру олмусан!
Мәсләки, вичданы дуру олмусан!
Мүгәддәс варлыгсан, бир үлвијјәтсән,
Көзәллик, нәчиблик, бир гүдсијјәтсән.
Сиз кәрәк олдунуз әбәдијјәтә,
Бүтүн бу бәшәрә, бу чәмијјәтә.
Јенича дил ачан көрпәләрә дә,
Алимә, логмана, даһиләрә дә.
Јапышдын голлардан тутдун биләкдән,
Ојатдын бәшәри мүркүләмәкдән.
Сиздән дәрс алараг јетдик камала,
Чатдыг әгидәјә, мәсләк-амала.
Елләрдә-обада танына билдик,
Һүнәр мејданында сынана билдик.
Сәнсиз нә шакирд вар, нә тәләбә вар,
Нә һүнәр, нә зәфәр, нә гәләбә вар.
Биз сәндән алмышыг ләјагәти дә,
Фәһми, фәрасәти, мәһарәти дә,
Сиздән күч алмышыг, гүввәт алмышыг,
Шәрәф газанмышыг, шөһрәт алмышыг.
Биз сиздән алмышыг вүгарымызы,
Әһди, вәфамызы, илгарымызы.
Сәнин зәһмәтинлә ачылды көзләр,
Аләмә ишыг тәк сачылды сөзләр.
Сиз инсаф вердиниз инсафсызлара,
Сиз вичдан вердиниз вичдансызлара.
Чанындан чансыза чан да вердиниз,
Ганындан гансыза ган да вердиниз.
Сиз үрәк олдунуз үрәксизләрә,
Сиз чөрәк олдунуз чөрәксизләрә.
Борчлујуг һәр заман сәнә мүәллим.
Дөнә-дөнә, јенә-јенә мүәллим.

**Чәмил ӘКБӘРОВ,**

**С. Ағамалыоғлу адына АКТИ-нин досенти, институтумузун мә'зуну.**

**238.** ***(17)*** Cəmil Əkbərov. “Xoş gəlib”

# ларын тәбрики

## *Хош кәлиб*

Елимин-обамын сөз усталары
Бу дөврана, бу дијара хош кәлиб
Фәһмин-фәрасәтин өз усталары,
Бу сәфәрә, бу дијара хош кәлиб.
Синәси үстүндә телли сазы илә
Ширин сөһбәтләри, хош авазы илә
Гәлбиндә достлара әрки-назы илә
Бу дағлара, чәмәнзара хош кәлиб
Билирәм. Чәмил тәк ешидән кими
Көкләнди синәндә гәлбинин сими.
Вермәјиб фүрсәти, мәгамы, чәми
Е'тибара, дүз илгара хош кәлиб.

**Чәмил ӘКБӘРОВ,**

**С. Агамалы оглу адына Азәрбајчан Кәнд Тәсәррүфаты Институтунун мүәллими.**

**239.*(18)*** Cəmil Əkbərov. "Yola get", "Ana məhəbbəti, ata qayğısı", "Tərəqqi" qəzeti, № 9, (5919) 1.03 1991, səh.7

Тәзә шеирләр

## Јола кет

Әсәбләр корлама, гаралтма ганы,
Инсан оғлу, инсанларла јола кет.
Чох асыб кәсәнләр өзүн де, һаны?
Инсан оғлу, инсанларла јола кет.

x x x

Көрмүрсәнми өлдүрәни, өләни,
Ағладаны, сызладаны, күләни.
Милјон-милјон кедәнләри, кәләни,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Демә ки, бәдәним поладдан сафдыр,
Једијим, ичдијим бал илә јағдыр.
Өләндә газанчым кәфәнлик ағдыр.
Инсан оғлу, инсанларла јола кет.

x x x

Демә ки, һәр шејин билəндәријәм,
Алимин, логманын гәләндәријәм.
Сәррафы, харраты, чилинкәријәм.
Инсан оғлу, инсанларла јола кет.

Зирвәдән ашағы енмәмиш бир күн,
Јанан чыраг кими сөнмәмиш бир күн.
Һаким диванында динмәмиш бир күн,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Демә ки, сөзүнүн әсәри јохдур,
Түкәниб фајдасы, сәмәри јохдур.
Пасланыб гылынчы, кәсәри јохдур,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Демә ки, сөзләрин батмыр бејинә,
Кәлмир өлчүмүзә, олмур әјинә.
Һеч кимсә алмајыр ону ејнинә,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Нәсиһәт аланлар фајдаланырлар,
Өлчүјә кәлирләр, гајдаланырлар.
Хәтадан, бәладан далдаланырлар,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Ешитсән сөзүмүн будур гысасы,
Һәм мәзмуну, һәм мәтләби, әсасы.
Долмамышдан сәбрләрин касасы,
Инсан оғлу, инсанларла јола кет.

x x x

Дејирәм сөзүмү, будур тәвәгги,
Унутма хәтири, һөрмәти, һагғы.
Гојма һаким ола һагга наһагы.
Инсан оғлу, инсанларла јола кет.

## Ана мәһәббәти, ата гајғысы

Өвлады бәшәрин сәадәтидир,
Ана мәһәббәти, ата гајғысы.
Олмаса башынын гијамәтидир,
Ана мәһәббәти, ата гајғысы.

x x x

Руһуму охшајан ана бахшыдыр,
Көнүлләр мүлкүнүн јарашығыдыр.
Ајырмаг олармы, һансы јахшыдыр,
Ана мәһәббәти, ата гајғысы?

x x x

Әзәлдән севдијим сөздү, гәзәлди,
Ону фикирләшиб кимсә дүзәлдир.
Ким дејир,—бу писдир, о да көзәлдир,
Ана мәһәббәти, ата гајғысы.

x x x

Ким ајырса аталары анадан,
Дүз данышмыр сөзләрини бинадан,
Өвлады бәхш етди көнүл ханадан,
Ана мәһәббәти, ата гајғысы.

x x x

Онлардан өјрәндик әдәб-һөрмәти,
Шәрәфи, зәһмәти, шаны, шөһрәти.
Чәмилә вердиләр гolу, гүввәти,
Ана мәһәббәти, ата гајғысы.

Чәмил ӘКБӘРОВ.

**240.*(19)*** Cəmil Əkbərov. “Baş əyirəm”, “Kadr uğrunda”, № 21(481), Çərşənbə axşamı, 7.11- 1967 səh.1

# Баш әјирәм

Јаша долдум мән бу јердә
Әдаләтә баш әјирәм.
Сон гојулуб гәмә, дәрдә,
Һәгигәтә баш әјирәм.

Бу заманы, бу дөвраны,
Инсан оғлу јахшы таны.
Өмрүмүзүн шаһ, султаны,
Сәадәтә баш әјирәм.

Ишиндә зәфәр чалана,
Әмәјилә учалана,
Гајғы вардыр гочалана,
Бу хидмәтә баш әјирәм.

Жүвәнирик өзүмүзә,
Ишыг кәлиб көзүмүзә
Һәјат күлүб үзүмүзә,
Бу гисмәтә баш әјирәм.

Үрәк долу, нәфәс илыг,
Ганымдадыр меһрибанлыг.
Амалымдыр хејирхаһлыг,
Бу нијјәтә баш әјирәм.

Фәһлә, кәндли, зәһмәткешә,
Мәһәббәтим вар һәмишә.
Дәрс демәји етдим пешә,
Бу сәнәтә баш әјирәм.

Јол ачылыб ләјагәтә,
Бачарыға, мәһарәтә.
Сон гојулуб чәһаләтә,
Бу гүдрәтә баш әјирәм.

Ел бахырды саға, сола,
Кәлиб чыхды доғру јола.
Гүввәт кәлди дизә, гола,
Бу гүввәтә баш әјирәм.

Гардаш олуб бүтүн милләт,
Јох едилиб һәр бир зилләт.
Артыб истәк, артыб һөрмәт,
Бу һөрмәтә баш әјирәм.

Инсан оғлу кәлир саја,
Јол ачмышыг, Марса, Аја!
Миннәтдарам партијаја,
Бу дөвләтә баш әјирәм.

Чәмил ӘКБӘРОВ,

**241.** ***(20)*** Cəmil Əkbərov. "Oyandı Nizami babam", *(Nizami Gəncəvinin 850 illiyi münasibətilə)*, "Kadr uğrunda", № 11, (987), 31.10 - 1991, səh 2.



# ОЈАНДЫ НИЗАМИ БАБАМ

Ојанды јухудан Низами бабам,
Үзүндә тәбәссүм, гәлбиндә илһам,
Хәјала дalараг күлдү көзүндән,
Аловлар пүскүрдү санки сөзүндән.
Сәнәт өјрәнәндә «мағыл бил» деди,
«Вахтында дүз өјрән, аj оғул»,деди:
«Бир елми өјрәнмәк истәдикдә сән,
Чалыш ки, һәр шеји камил биләсән.
Камил бир паланчы олса да инсан,
Јахшыдыр јарымчыг папагчылыгдан.
Мәндән сөјләмәкдир, сәндән ешитмәк,
Бир инсан әлибош кәзмәсин кәрәк.
Һәјатын чөвһәри әмәкдир, әмәк,
Инсан өмрү боју чалышсын кәрәк.
Дүнјада кечмәсин бош чаван чағын,
Чүнки гүввәтлидир онда ајағын».
Бабамыз бәшәрә дәрин сөз деди,
Нә деди јербәјер, тамам дүз деди.
Деди ки, ај оғул, сөзүм вар сизә,
Тохунуб дәјмәсин гој гәлбинизә.
Мән ки сөјләмишәм ашикар буну,
Һәјатын зәһмәтдән доғулдуғуну.
Сөјләди:—Гәфләтдән ајылын, бала,
Сечилин елләрдә, сајылын, бала.
Чаванкән зирвәни ашмаг вахтыдыр,
Гајнајыб, гајнајыб, дашмаг вахтыдыр.
Чалышын, јашајын, јарадын, гурун,
Кечәләр кеч јатын, сәһәр тез дурун.
Фәрһад тәк гајалар чапмағы өјрән,
Галалар, сарајлар јапмағы өјрән.
Унудуб чыхарма әсла јадындан,
Јапышын зәһмәтин тунч ганадындан.
Анлајын һәјатын нә олдуғуну,
Зәфәрин зәһмәтдән доғулдуғуну,
Һәјатын һәр аны, һәр дәгигәси,
Һәр фәсли, һәр или, һәр гәринәси,
Һәр заман јохлајыр, сынајыр бизи,
Ја тә'риф ејләјир, гынајыр бизи.
Күндәлик сынагдан чыхасан кәрәк,
Зәфәрләр әлини сыхасан кәрәк.
Һәр кәс бел бағласын өз гүдрәтинә,
Өз шаны, шәрәфи, өз шөһрәтинә.
Мәһарәт һәр кәсин өзүндә кәрәк,
Гүввәт голларында, дизиндә кәрәк.
Ар-намус көзләмә, гејрәт көзләмә.
Өзкәдән өзүнә шөһрәт көзләмә,
Зәһмәтсиз нә һүнәр, нә гәләбә вар,
Нә алим, нә даһи, нә тәләбә вар.
Зәһмәтсиз инсанын, нә һөрмәти вар,
Нә ады, нә саны, нә һөрмәти вар.
Зәһмәтдир һәр елмин һими, бинасы,
Одур бу һәјатын әсас мајасы.
Зәһмәтдән гачанлар зәлил олурлар,
Бәдән сағ олса да, әлил олурлар.
Вахтыны һавајы итирән кәсин,
Ешидән олмајыб зәфәр нәгмәсин.
Сөјләди:—Демишәм бу нәсиһәти,
Зәһмәтсиз ахтарма күллү чәннәти.
Зәһмәтдән гачандан сорушун буну,
Тәсдиг етмәдими дүз олдуғуну?
Дејәсән инди дә ишләмәјән вар,
Ишини, күчүнү хошламајан вар.
Бу сөз дејиләндән нечә ил кечиб,
Нәсилләр далынча нәсилләр кечиб.
Јенәми јарымчыг папагчылар вар?
Јарымчыг пинәчи, јамагчылар вар?
Јенәми налбәндләр зәркәрлик едир?
Устајам, дејәрәк, дүлкәрлик едир?
Јенә палан тикән папаг тикирсә,
Төвлә сәнәткары отаг тикирсә,
Ләл, көвһәр бәхш етмәз сәнәт дүнјасы,
Ачылмаз сәнәткар әлинин пасы.
Мәним хәләфләрим ојанса дејәр,
Биз јерин алтында чәкирик гәһәр.
Адам дәрс алмазмы өз бабасындан,
Ше'р дүһасындан, сөз дүһасындан.
Чалышын һәр ишдә көстәрин һүнәр,
Зәфәр саһибләри олур бәхтәвәр,
Синәндә дөјүнсүн гүрурла үрәк,
Дәрјадан дүрр чыхарт, торпагдан чөрәк
Дүшүнүн, дәрк един, анлајын, ганын,
Инсанлар, инсанын гејдинә галын.
Судуң ичилмәјир, этин јејилмир,
Јунуң даранмајыр, көнүн кејилмир,
Сәнин дә не'мәтин зәһмәтиндәдир,
Чалыш бу һәјатда галмајнан дала,
Вәтәнә, хәлгына хидмәтиндәдир.
Ешит сөзләрими јада сал, бала.
Чалыш ки, зәһмәтдә гој пајын олсун,
Вәтән гүдрәтинә архајын олсун,
Һүнәрлә, зәфәрлә чых имтаһандан,
Аларсан гијмәти дөври-замандан.

Чәмил ӘКБӘРОВ.

**242.** ***(21)*** Cəmil Əkbərov. "Şərəf də, şöhrət də zəhmətdədir", "Kadr uğrunda", 16.08 - 1986

16/VIII.86

# ШӘРӘФ ДӘ, ШӨҺРӘТ ДӘ ЗӘҺМӘТДӘДИР

Бурада билинир күч дә, гүввәт дә,
Гәләбә, зәфәр дә мәғлубијјәт дә,
Сығмајыр елләрә шан да, шөһрәт дә,
Дүшмәјир диллләрдән сөз дә, сөһбәт дә,

Унудуб чыхарма әсла јадындан,
Јапышын зәһмәтин тунч ганадындан.
Анлајын һәјатын нә олдуғуну,
Бәшәрин зәһмәтдән доғулдуғуну.

Һәјатын һәр аны, һәр дәгигәси,
Һәр фәсли, һәр или, һәр гәринәси,
Һәр заман јохлајыр, сынајыр бизи,
Ја мәзәммәт едир, гынајыр бизи.

Күндәлик сынагдан чыхасан кәрәк,
Зәфәрләр әлини сыхасан кәрәк.
Бизим зәманәмиз шөһрәт вахтыдыр
Ар, намус вахтыдыр, гејрәт вахтыдыр.

Һәр кәс өз дәрсини алмаса камил
Дәрин дүшүнчәјә долмаса камил
Һәр заман, һәр јердә әриннән көрдүм
Архадан-архаја сүрүнән көрдүм.

Будрәди јыхылды, далларда галды
Чатмады мәнзилә јолларда галды

Һәр кәс бел бағласын өз зәһмәтинә
Өз ад—санына, өз шөһрәтинә,
Сәррафлыг ијидин көзүндә көрәк,
Гүввәт голларында, дизиндә кәрәк.

Өзкәдән өзүнә шөһрәт козләмә,
Чәсарәт, дәјанәт, гејрәт козләмә.
Арифләр анлајыр, сәррафлар билир,
Зәһмәтлә, һүнәрлә үз-үзә кәлир,

Зәһмәтсиз нә зәфәр, нә гәләбә вар,
Нә даһи, нә алим, нә тәләбә вар.

Зәһмәтдир инсана јарашыг верән
Көзләрә нур сачан, һәм ишыг верән,
Зәһмәтсиз инсанын нә гијмәти вар
Нә ады, нә саны, нә һөрмәти вар.

Зәһмәтә бағлыдыр, хош арзу нијјәт
Ән көзәл дујғулар, ән саф мәһәббәт,
Зәһмәтдир инсанын ешги, һәвәси,
Һәјатда чалдығы зәфәр нәғмәси,

Зәһмәтә бағлыды дағ да, аран да
Јашадан, јарадан, тикән, гуран да,
Зәһмәтә бағлыды дүшүнчә, камал,
Үлвијјәт, үнсијјәт, көзәллик чамал.

Һәр кәсин талеји өз әлиндәдир,
Сөзүндә, ишиндә, әмәлиндәдир.

Вахтыны һавајы итирән кәсин,
Ешидән олмајыб зәфәр нәғмәсин,

Нә ады чәкилди, нә саны олду,
Нә балы бал олду, нә шаны олду.
Зәһмәтсиз икидин чәкилмир ады,
Танымыр гоһуму, танымыр јады.
Зәһмәтсиз инсанын јохдур нишаны,
Танынмыр мәнлији, нә дә үнваны.

Зәһмәтсиз јашама бир ан дүнјада,
Зәһмәтсиз јашајан чатмыр мурада.
Зәһмәтлә, һүнәрлә учалыр инсан,
Јердән дә, көјдән дә бағ алыр инсан

Зәһмәтә бағлыдыр һәрәкәтимиз,
Варымыз, һалымыз, бәрәкәтимиз.
Чалыш ки, зәһмәтдә гој пајын олсун,
Вәтән, гүдрәтинә архајын олсун,
Һүнәрлә, зәфәрлә чых имтаһандан,
Аларсан гијмәти дөвр-- замандан.

Чәмил ӘЛӘКБӘРОВ
досент.

**243.** ***(22)*** Cəmil Əkbərov. "Olurmuş", "Kadr uğrunda", № 2, (938), 31.01-1989, səh.3

## ОЛУРМУШ

Дүнјаја көз ачан ади бир ушаг,
Бөјүјүб, јетишиб, лоғман олурмуш.
Гәтрәдән сүзүлән ади бир ирмаг,
Топлашыб бир јерә үмман олурмуш.

X X X

Јүзләрлә-минләрлә ахан чешмәни,
Бир дәниз өзүндә бәндә салырмыш.
Бир инсан оғлунун ихтирасыны,
Бу бәшәр өзүнә ганун санырмыш.

X X X

Ади бир бешијә јерләшән көрпә,
Нә јерә, нә көјә сығa биләрмиш.
Садә бир анадан доғулан кимсә,
Милјон аналара өвлад олурмуш.

X X X

Дарысгал дахмада бөјүјән бир кәс,
Бөјүк бир өлкәнин јијәси олур.
Милјон инсанларын үрәк сөзүнү,
Бир нәфәр дүшүнүб дејәси олур.

X X X

Бәшәрин гәлбини иситмәк үчүн.
Бир инсан үрәји јанмаг истәјир.
Онларын јеринә, әвәзиндә дә,
Бир инсан дүшүнүб ганмаг истәјир.

X X X

Бир инсан әлилә јазылан әсәр,
Евлади бәшәрә кәрәк олурмуш,
Јарадан әлилә верилән сәмәр,
Милјон инсанлара көмәк олурмуш.

X X X

Чоху сејр етсә дә, көрмәдијини,
Бир инсан көзләри көрә биләрмиш.
Јарадыб, газаныб, вермәдијини,
Бир инсан әлләри верә биләрмиш.

X X X

Бир үрәк вәтәндә илһам алараг,
Јахына-узаға баха биләрмиш.
Хәјала гәрг олуб, һуша далараг,
Зирвәдән-зирвәјә чыха биләрмиш,
Зәфәрләр әлини сыха биләрмиш.

Чәмил ӘКБӘРОВ,
досент.

**244.*(23)*** Cəmil Əkbər. "Əbədiyyət yolu", "Nizami yurdu" qəzeti № 14, (77), iyul 1992, səh 3 *(Şeirin yazılma tarixi 4.08 - 1988 )*

**ЙJУЛ 1992-чи ИЛ**

# ӘБӘДИЈЈӘТ ЈОЛУ

**(ПОЕМА)**

(Репрессија гурбанларына)

Һагг кечилмәз, басылмаз, алынмајан галадыр,
Јаддашлардан силиниб, данылмајан галадыр.
Чохлары чәһд ејләди, ону данмаг истәди,
Очағына су төкүб, өзү «јанмаг» истәди!
Шәр гүввәләр бирләшиб, мәтләбинә чатдылар,
Вәл-вәләни салараг, аралығы гатдылар.
Сөзү-сөзә чалајыб, дили-дилә вердиләр,
Биләкләри-биләјә, әли-әлә вердиләр.
Фитнәләри-фитнәјә, фе'ли-фе'лә вердиләр,
Әдавәтлә-гәрәзлә, билә-билә вердиләр!
Көр нә гәдәр инсаны ганлы селә вердиләр,
Гасырғаја, туфана, гара јелә вердиләр!
Көр нә гәдәр гапылар һәдәр јерә бағланды,
Мәғрур олан синәләр дүјүнләнди, дағланды!
Көр нә гәдәр икидләр зинданлара салынды,
Јалан-јанлыч нечәси бөһтанлара салынды!
Гәсд ејләди нә гәдәр ганмаз оғлу, ганана,
Нечә-нечә икидә, көрпә ушаг, зәнәнә!
Көр нә гәдәр үрәкләр севинмәкдән галдылар,
Ифтихарла јашајыб, өјүнмәкдән галдылар.
Көр нә гәдәр арзулар, өз јеринә јетмәди,
Өз јериндә чүчәриб, дүз јериндә битмәди!
Көр нә гәдәр әсәбләр корланылды, ај аман,
Наһаг јерә әсәбләр зорланылды, ај аман!
Көр нә гәдәр дүнјада һаггын көзү ојулду,
Јазыг ана-бачылар, ағлар көзлү гојулду!
Сабиримиз чәрләди, Нәсимимиз сојулду,
Чавид илә Мүшвигим, көр нә күнә гојулду?!
Һагсызлығын учундан, гурбан кетди нә гәдәр
Дәрк ејләјән, гананлар, лоғман кетди нә гәдәр?
Көр нә гәдәр гәм једи, дәрдләдиләр, өлдүләр,
Һагсызлығын әлиндә чәрләдиләр, өлдүләр!
Көр нә гәдәр инсанлар, өз јолунда сарсылды,
Наһаг-һагга гәсд етди, дүз, јолундан сарсылды?
Дүшдү һәјәчанлара, тәшвишләрә, сәксәнди.
Сәксәкәли оланлар сәһв ишләрдән диксинди!
Јалан-јанлыч әкилди, чүчәрдиләр бир заман,
Бәсләдиләр бир заман, бечәрдиләр бир заман!
Әл-гол ачды чәлладлар, һагга диван тутдулар.
Әлә кечән нә варса, көрпә-чаван тутдулар!
Нә едәсән замана, белә көрдүк биз ону,

Белə нəгил олунду, белə билдик биз ону!
О сəбəбдəн гаш-габаг дүјүнлəнди, чатылды,
Синəсинə дөјəнлəр, дүжүн-дүжүн атылды!
Итди-батды арада, һаггы-сајлар данылды,
Јохлары чаш-баш дүшүб, билдијини јанылды?!
Һагсызлығын учундан, чоху дүшдү бөһтана,
Тə'зим етди иблисə, бојун əјди шејтана.
Голларыны чирмəди, јоғунбојун зырпылар,
Ишə дүшдү дəјəнəк, балта, дəһрə, «төрпүлəр
Синə кəриб һагг сусду, данышмады бир заман,
Хејир-шəрə кетмəди-гарышмады, бир заман.
Хејир азды јолуну, шəр дə азды јолуну,
Икид азды јолуну, нəр дə азды јолуну.
Һагг үзүнə бир заман, гара пəрдə чəкилди,
Тарлалар лəғв олунду, гаратикан əкилди.
Чох ананын-бачынын ағлар галды көзлəри,
Һəсрəтиндəн инлəди, јолда галды көзлəри.
Нијə көрəн бу һəјат, əзəл күндəн белəдир,
Һагсызлығын əлиндə, һагг-əдалəт кө'лəдир.
Нијə көрəн наһаглар, һагг јолуна кəлмəјир,
Бəд əмəлдəн утаныб-гызармајыр, өлмəјир!
Нијə көрəн бу бəшəр мəгамында, вахтында,
Јалан-јанлыч отуруб, һөкм едəндə тахтында,
Əли-əлə верəрəк, бəшəр ону боғмајыр.
Сүрүклəјиб мəзара, ону кора говмајыр.
Демирлəр ки, һəјасыз, рəдд ол бурдан, əкил,
кет,
Башымызы ағрытма, көзүмүздəн чəкил кет!
Дејəн јохду ајыбдыр, əмəлиндəн бир утан,
Өз кокүнə нəзəр сал, тəмəлиндəн бир утан.
Көр бир атан нəчидир, көр бир анан нəчидир,
Көр бир кенин нə чəкир, көр бир ганын нə
чəкир.
Та гəдимдəн-əзəлдəн, улу бабан нəчидир.
Көр бир елин-ојмағын, көр бир обан нəчидир?!
Бир јурдуна нəзəр сал, бир јувана нəзəр сал.
Дəдə-баба дахмана, бир собана нəзəр сал!
Əтрафына нəзəр сал, əмин кимди, дајын ким,
Де һəмкарын, достларын, јолдашын ким,
тајын ким?
Де сəн һансы тарланы бечəрмисəн, əкмисəн.
Һансы хидмəт ејлəјиб, нə зəһмəти чəкмисəн?
Де, сəн һансы не'мəти газанмысан, а залым,
Бəс нə үчүн бу гəдəр, узанмысан, а залым,

# НИЗАМИ ЈУРДУ

Һансы јыхыланларын һарајына чатмысан,
Дахмасыны учалдыб, сарајына чатмысан!
Һансы ағлајанлары күлдүрмүсән, а залым,
Хидмәтини көстәриб, билдирмисән, а залым.
Де кимләри галдырыб, бәс кимләри јыхмысан,
Кимләрә арха дуруб, бәс кимләри сыхмысан?
Арха дуруб кимләрә, кимләри кимсиз етдин,
Кимә вердин зурнаны, кимләри сисиз етдин?!
Кимләрә гүссә вериб, кимләри гәмләндириб.
Кимә нәшә, кеф-дамаг, кимләри дәмләндириб?
Һагга наһаг дејәнләр утандымы, өлдүмү,
Әмәлинин сонуну дәрк етдими, билдими?
Нә хәјала дүшүбдү, кич өвлады-кичбәсәр,
Олубду онун үчүн сә'ј оғлу сә'ј дәнкәсәр.
Һагсызлыға јөн алыб, әдаләти дандылар,
Доғрулугдан әл чәкиб, һәгигәти дандылар.
Нә хәјала дүшдүләр, инсафыны атанлар.
Аға-гара дејәнләр, јахшыја пис гатанлар?
Чамырлыға үз тутан, батаглыға батанлар,
Мин-бир һијлә, мәкрлә мәгсәдинә чатанлар,
Нә дүшүндү көрәсән, камалындан кәм олан,
Әгидәдән, мәсләкдән, амалындан кәм олан?
Нә хәјалды дүшүбләр ал ганлары төкәнләр,
Инсанлары бездирән, гаш-габағын төкәнләр.
Бу бәшәрин талеји нијә јада дүшмәјиб,
Даша дөнән үрәкләр, нијә ода дүшмәјиб.
Һәгигәтин үзүнә, нијә пәрдә чәкибләр,
Инсанлары азара, нијә дәрдә чәкибләр?
Сәбәб нәдир көрәсән, һагсызлығын бораны,
Гасырғасы бүрүдү дағы-дашы, араны!
Наһаг, алаг отудур-кәрәк дејил һеч кимә,
Һәјан, арха да дејил, көмәји јох һеч кимә.
О ајаға долашан колду, косду, тиканды,
Һара кәлди батанды, дағыданды, сөкәнди.
Онун, јохду көтүрән бәһрәсини, барыны,
Дәрән јохду дејирләр һејвасыны, нарыны.
Ондан мүдам бу бәшәр, пис күнләри көрүбдүр,
Бәд күнләри көтүрүб; нәс күнләри көрүбдүр.
Һагсызлығын сәдасы бездирибди бәшәри,
Мүсибәтә, мәншәрә дөздүрүбдү бәшәри.
Јоруб, һалдан салыбды, үздүрүбдү бәшәри,
Дујуг салыб һамыны, сездирибди бәшәри!
Ахыр кәлиб мәгамы, заман өзү јетишди,
Фикир,-хәјал чәм олуб, әһдү-пејман јетишди,
Һагг галдырды башыны, аста-аста ојанды,
Наһаг илә көз-көзә, лап үз-üзә дајанды!
Наһаг суслу кириди, дилләнмәди нәдәнсә,
Әввәлки тәк габарыб, селләнмәди нәдәнсә?
Инди көрду өзүнүн ачылыбды пахыры,

Дилләнәрсә бәд кәләр бу ишләрин ахыры!
Наһаг кетди фикирә, ағры олду хәјала,
Наһаг дүшдү азара, дүчар олду мәлала!
Фикирләшди дәриндән, көзү јола зилләнди,
Көзләриндән төкүлән, јашлар јерә килләнди.
Инди јаман дајаныб, һагг наһаггын үзүнә,
Сөјәрәк үнванына, түпүрүрләр изинә.
Инди, өзү гој десин, һагсыз кедән ким олуб,
Һавајыдан һөкм едән, вахтсыз кедән ким
олуб?
Инди, гој чаваб версин, нәдир һаггын күнаһы,
Нәјмиш онун уммасы, нәјмиш онун тамаһы?
Нәјмиш онун нөгсаны, нәјмиш онун хәтасы,
Кимә нәјмиш дүшәси, кимә нәјмиш чатасы:
Инди, өзүн чаваб вер, вичдан кимин оласы,
Бу сәадәт де кимин, зиндан кимин оласы?
Зүлмәт кимин оласы, дөвран кимин оласы,
Килавары де кимин, боран кимин оласы?
Гәрары ким јазмалы, фәрманы ким вермәли,
Хәстәни ким сағалдыб, дәрманы ким вермәли?
Һаггын сәси нә үчүн, боғуланда чыхмајыр,
Наһаг зүһур едәндә, доғуланда чыхмајыр?
Нијә көрән һәр кәдә, өз јерини билмәјир,
Вәзифәјә кечәндә, дүз јерини билмәјир?
Көрән нијә бәзиси, бу бәшәрдән утанмыр,
Нә хејирдән пәсинмир, нә дә шәрдән утанмыр?
Чәкинмәјир бу халгдан, чамаатдан утанмыр,
Јашадығы мүһитдән, чәмијјәтдән утанмыр?
Наһаг, һеј чалышды ки, һаггын сәси боғулсун,
Бу мәгамда, заманда, бәлкә өзү доғулсун!
Бу минвалла, мәрамла, чохларына гәсд олду,
Ач-јалавач бир јана, тохларына гәсд олду!
Белә фикир-хәјаллар зәһәрләди чохуну,
Чәкиб мәншәр ајаға, гәһәрләди чохуну.
Һагты данмаг әзәлдән, хәјанәтди милләтә,
Мүсибәтди, зилләтди јер үзүндә хилгәтә!
Ким көрүб ки, дүнјада гызыл кәлиб мис ола,
Һагг-әдаләт саһиби, ахыр кәлиб пис ола?
Сәрраф олан билир ки, зәр дәјәрин итирмир,
Она гара јахмагла, о ләкәләр көтүрмүр!
Һагг-әдаләт назиләр, һеч үзүлән дејилдир,
Һа тапдасан, һа вурсан, о әзилән дејилдир!
Нә јахшы ки, әбәди-һаггын сәси кәсилмир,
Зинданлара дүшсә дә, сон нәфәси кәсилмир.

Гәринәләр кечсә дә, һагг јолуна дүзәлир,
Бахыб һәндәвәринә, сағ-солуна дүзәлир.
Чох өләнләр дирилир, өлдүрәнләр өлүрләр,
Чох күләнләр ағлајыр, ағлајанлар күлүрләр.
Узун олмур дејирләр, јаман күнүн өмүрү,
Ишләмәјир һөкүмү, чәсарәтли әмири!
Нә јахшы ки, һагг сәси киримәди, јашады,
Зинданларын алтында чүрүмәди, јашады!
Һаггын кәраматилә, дүнја бәргәрар олуб,
Һөрмәт-иззәт онунла, даим бир гәрар олуб.
Онун сајәсиндә дә хәтир-һөрмәт тапылыб,
Үнсијјәтдә көзәллик, абыр-исмәт тапылыб.
Халга хидмәт едилиб, һаггы-сајлар гојулуб,
Хаин үрәк сыхылыб, хәбис көзләр ојулуб.
Һаггын кәраматилә ләјагәтләр өлмәјиб,
Сәдагәтләр јашајыб, сәхавәтләр өлмәјиб.
Һагг јашасын о гәдәр, нә гәдәр ки, инсан вар,
Нә гәдәр ки, дүшүнән, анлајан вар, ганан вар!
Һагг јашасын о гәдәр, нә гәдәр ки, чаһан вар.
Нә гәдәр ки, јарадан, о гадири-сүбһан вар!
Һагг јашасын о гәдәр, нә гәдәр хилгәтим вар,
Вәтәнимә, елимә-халга мәһәббәтим вар.
Һагг јашасын о гәдәр, нә гәдәр хош диләк вар,
Бизи мәғрур јашадан синәмиздә үрәк вар!
Һагг дајансын сәбрлә, о јашасын дөзүмлә,
Сәадәтә үз тутуб, аддымласын бизимлә,
Туфан ону әјмәсин, гој дајансын дағ кими,
Позулмасын нөврағы, кеф-дамағы чағ кими.
Күләк ону гопарыб, тәрпәтмәсин јериндән,
Һеч бир горху, һәјәчан үрпәтмәсин јериндән.
Һаггын сәси мөһтәшәм, онун сөзү көзәлдир,
Онун јолу мө'тәбәр, онун изи көзәлдир.
Гој утансын, өлсүнләр, һагга гара јаханлар,
Она гәсд ејләјәнләр, она гәним чыханлар!
Чәһд ејләјиб силмәклә, һагг позулан дејилдир,
Әлә салыб јозмагла, о јозулан дејилдир!
О саралан дејилдир, о созалан дејилдир,
Бирчә мисгал, бир килә о азалан дејилдир!
Һаггы данмаг, унутмаг кәдаларын ишидир,
Гәлбигара хаинин, зәдәләрин ишидир.
Һәјат буну көстәрир, һәјат буну билдирир,
Залымы ағлар гојур, мәзлумлары күлдүрүр.
Ким ки, һаггы данырса, өзү чыхыр сырадан,
Ахырына чыхылыр, көтүрүлүр арадан.
Заман верир һөкмүнү, өзү бир күн силинир,
Кәч мәрамы-мәгсәди ашкар олур, билинир!
Ким нә эксә кеч-тези өзү бичир дејирләр.
Өз салдығы көрпүдән, өзү кечир дејирләр!
Һәр кәс кәрәк өзүнү, өзкәләри танысын,

Өз әксини көстәрән күзкүләри танысын.
Тәгсир күзкүдә дејил, ону наһаг гырмасын,
Һеј өзүнү горујуб, өзкәләри вурмасын!
Һагг, дејирләр әзәлдән ләјагәтдән күч алыб.
Сәдагәтдән күч алыб, кәрамәтдән күч алыб.
О сәбәбдән дејирләр, зәфәр чалыб, бач алыб,
Һагсызлығы көрдүкчә заман-заман гочалыб!
Онун көкү дејирләр, үрәкләрә бағлыдыр,
Сағлам арзу-истәјә, диләкләрә бағлыдыр.
Онун сәси боғулмаз, о, боғулмаз, дејирләр,
Онун сују азалмаз, о соғулмаз, дејирләр!
О сусса да бир анлыг, әбәдилик киримир.
Әбәдилик пас тутуб, әбәдилик чүрүмүр!
О кәһкәшан улдузлар сөнән дејил чаһанда.
О сатылмыр, алынмыр һәр базарда, дуканда!
Онун әлван күлләри әтирлидир һәр заман,
Гәдир билән јанында, хәтирлидир һәр заман!
Һеч кәс кәлиб онунла гал-говғаја дүшмәсин,
Һај-һәширә дүшәрәк бу севдаја дүшмәсин!
Наһагг һаггы јенәнмәз, гарышмасын ишинә.
Күвәнмәсин голуна, күвәнмәсин дишинә!
Наһаг һагла бачармаз, чәнкә кирмәсин даһа,
Нә өзүнә, өзкәјә әзаб вермәсин даһа!
Һәр кәс кәрәк танысын, бирдәфәлик јерини,
Һавајыдан төкмәсин, ахытмасын тәрини!
Гој, утансын-гызарсын һагга гәним чыханлар,
Ону көрүб-дарылан, үрәјини сыханлар!
Гој, утансын-гызарсын ләјагәти көрмәјән.
Она һөрмәт етмәјән, она гијмәт вермәјән!
Гој утансын-гызарсын үнсијјәти корлајан,
Көнүлләри сындыран, һиссиләри зорлајан!
Гаралара ағ дејән аға-гара дејәнләр,
Паралара там дејән, тама пара дејәнләр.
Гој, утансын-гызарсын көрә-көрә кор олан.
Ешитсә дә мин дәфә, гулаглары кар олан.
Әмиләри јапалаг, дајылары сар олан,
Хаинләрә, хәбисә јолдаш олан, јар олан!
Тапдалајыб дөјмәсин һагдан олан тәмәли,
Белә сағлам фикири, белә мөһкәм әмәли!
Онун көзәл үнваны, улулардан улудур.
Онун кешмә-кешләри әбәдијјәт јолудур!

**Чәмил ӘКБӘР.**

**4 август 1988-чи ил.**

**245.***(24)* Cəmil Əkbər. “Vicdan, məslək susanda”, “Toxucu”, № 8, (472), 28.02-1990, səh.3

# ВИЧДАН, МӘСЛӘК СУСАНДА

Һәр нә сусур гој суссун, вичдан, мәсләк сусмасын,
Һәр кәс күсүр гој күссүн, вичдан, мәсләк күсмәсин.
Вичдан, мәсләк сусанда, даша дөнүр үрәкләр,
Мүшкүл ишә чеврилир, хош арзулар, диләкләр.
Гараја ағ дејилир, аға гара дејилир,
Кәсирә там дејилир, тама пара дејилир,
Илгар-иман азалыр, үнсијјәтләр позулур,
Һагг-наһагга гарышыр, дүз-әјријә јозулур,
Таб кәтириб дөзмәјир, шәхсијјәт дә позулур.
Јер үзүндә нә варса, чәмијјәт дә позулур,
Килеј-күзар, гал-говға, күсү-уман чохалыр.
Әдавәтләр артараг, заман-заман чохалыр.
Һәдди ашыр дөнүклүк, хәјанәтләр чохалыр.
Наданлыглар чохалыр, чәһаләтләр чохалыр.
Нәки варса гој суссун, тәкчә вичдан сусмасын,
Кимки күсүр гој күссүн, тәкчә вичдан күсмәсин.
Вичдан, мәсләк сусанда, биз кәрәксиз олуруг,
Биз архасыз, кимсәсиз, биз көмәксиз олуруг,
Биз һүнәрсиз, тәпәрсиз, лап үрәксиз олуруг,
Хош арзусуз, истәксиз, пак диләксиз олуруг.
Үрәкләрдә ешг-һәвәс, мәһәббәт дә галмајыр,
Әдәб-әркан, мә'рифәт, нәзакәт дә галмајыр.
Солур ешгин чичәји, тәравәт дә галмајыр,
Үнсијјәтә нур сачан, ләјагәт дә галмајыр,
Һәјат зүлмәтә дөнүр, кен дүнјамыз дар олур,
Шахта вуруб солдурур, тәр гөнчәләр хар олур.
Думан чөкүр, чән кәлир, көрән көзләр кор олур,
Һа бағырыб десән дә, гулаглар да кар олур.
Вичдан, мәсләк сусанда, пис күнләрә дүшүрүк,
Һагг јолундан узашыб, нәс күнләрә дүшүрүк.
Нәки варса гој суссун, тәки вичдан сусмаја,
Кимки күсүр гој күссүн, тәки вичдан күсмәјә!
Вичдан, мәсләк сусанда биз тәлаша дүшүрүк,
Гал-говғаја, даваја, далаша да дүшүрүк
Инсан азғына дөнүр, инсан вәһшијә дөнүр,
Ганан ганмаз көрүнүр, санки нашыја дөнүр.
Һа чан гојуб чалышсан, јолдаш да јолдаш олмур,
Дост-доғмача чан-чијәр, гардаш да гардаш олмур.
Һәмкар һәмкардан күсүр, сирдаш сирдашдан күсүр,
Тајтуш тајтушдан күсүр, чағдаш чағдашдан күсүр.
Әр арвады танымыр, арвад әри танымыр.

Зəркəр налбəндлик едир, налбəнд зəри танымыр.
Вичдан, мəслəк сусанда, гејрəт орда азалды,
Абыр орда түкəнди, исмəт орда азалды,
Хəтир орда азалды, һөрмəт орда азалды.
Мəзмун орда түкəнди, һикмəт орда азалды.
Дөвлəт орда гыт олду, сəрвəт орда пуч олду.
Шəрəф бурда һеч олду, шөһрəт орда һеч олду.
Һəр нə сусур гој суссун, тəки вичдан сусмасын,
Һəр ким күсүр гој күссүн, тəки вичдан күсмəсин.
Вичдан, мəслəк сусанда дөвран јаман бəд олур,
Һəр шеј көздəн дүшəрəк, заман-заман бəд олур.
Вичдан бизлə оланда, əдалəтли олуруг,
Һатəмсајаг олуруг, сəхавəтли олуруг,
Әдəб-əркан көзлəјиб, нəзакəтли олуруг,
Биз јенилмзз олуруг, мəһарəтли олуруг,
Биз дөзүмлү-дурумлу, дəјанəтли олуруг.
Вичдана сөјкəнəрəк, учалмышыг онунла,
Зəфəр чалыб һəр ишдə, бач алмышыг онунла,
Икид кими таныныб, ада-сана чатмышыг,
Дүшүнүб, дəрк ејлəјиб, гана-гана чатмышыг.
Әл узадыб чохунун һарајына јетмишик,
Фəсилинə, илинə, һəр ајына јетмишик.
Һарда вичдан олубса, орда тутду голумдан,
О гојмады чашмаға, нə дə чыхым јолумдан.
Әзəл күндəн, бинадан мəни мəн едəн одур,
Һəр хəтадан-бəладан мəни кен едəн одур,
Ондан ајры нəчијəм, ондан ајры мəн кимəм,
Тəкчə тəнһа инлəјəн, көкдəн дүшəн бир симəм.
Инсан оғлу амандыр, кəл вичданы атмајаг,
Ону учуз тутараг, ајаг алтда атмајаг.
Һарда олсаг, јашасаг, бу не'мəти итирмə,
Көнүл адлы дијарда, гаратикан битирмə.
Һамы билсин гој буну, вичдан, мəслəк сусанда,
Нəчиб-нəчиб истəклəр, арзу, дилəк сусанда,
Инсанлыға гəсд олур, лəјагəтлəр тапданыр.
Хəтир-һөрмəт тапданыр, фəзилəтлəр тапданыр,
Вичдан, мəслəк дүшмəсин гој һеч кимдəн аралы,
Вичдан һаггын сəсидир, əдалəтин сəсидир,
Доғрулуғун, дүзлүјүн, һəгигəтин сəсидир.
Сəдагəтин сəсидир, сəхавəтин сəсидир.
Үлви арзу, истəјин, мəһəббəтин сəсидир.
Әдəб-əркан сəсидир, нəзакəтин сəсидир.
Инсанлыға јол ачан лəјагəтин сəсидир.
Һəр нə сусур гој суссун, тəки вичдан сусмасын,
Һəр кəс күсүр гој күссүн, тəкчə вичдан күсмəсин.

**Чəмил ӘКБӘРОВ,**
**«Бута» əдəби бирлијинин үзвү.**

**246.** ***(25)*** Cəmil Əkbər. "Kimə inanım?","Nizami yurdi"qəzeti, № 10 (73) iyun1992-ci il, səh 3.

ИЈУН 1992-чи ИЛ    НИЗАМИ ЈУРДУ

## ҚИМӘ ИНАНЫМ?

Дүнјада о гәдәр сөз ешитмишәм,
Қимә инанмајым, кимә инаным.
Әјри ешитмишәм, дүз ешитмишәм,
Қимә инанмајым, кимә инаным?

* * *

О гәдәр сахталыг, јалан ешитдим,
Зүј тутан, нағара чалан ешитдим,
Боғаздан јухары калан ешитдим,
Қимә инанмајым, кимә инаным?

* * *

Дүнән дүз сајылан, бу күн сәһв олур,
Дүнән доғуланлар, бу күн мәһв олур,
Бөһтан баш галдырыр, тә'риф һәчв олур,
Қимә инанмајым, кимә инаным?

* * *

Нә гәдәр сөһбәт вар, нә гәдәр сөз вар,
Нә гәдәр сифәт вар, нә гәдәр үз вар,
Үрәји јандыран алов вар, көз вар,
Қимә инанмајым, кимә инаным?

* * *

Фикирләр, хәјаллар чох долашыбдыр,
Сөзләр дүјүн дүшүб, чох чулашыбдыр,
Ағы гарасына чох булашыбдыр,
Қимә инанмајым, кимә инаным?

* * *

Јахшы көрүнәнә писдир дејирләр,
Хаиндир, хәбисдир, нәсдир дејирләр,
Һөчәтдир, инаддыр, тәрсдир дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Әһли-һал инсана өчдүр дејирләр,
Ипә-сапа јатмаз, ләчдир дејирләр,
Илгара-имана кәчдир дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Азадлыг истәјән зүлмәтә дүшдү,
Мүсибәт, ишкәнчә, зилләтә дүшдү,
Мин-бир дәрдә дүшдү, һилләтә дүшдү,
Қимә инанмајым, кимә инаным?

* * *

Дүнјада чохалыр чинајәт бу күн,
Килејләр, күзарлар, шикајәт бу күн,
Хәталар, бәлалар, гәбаһәт бу күн,
Қимә инанмајым, кимә инаным?

* * *

Нә гәдәр карлыны карсыз едирләр,
Алмасыз, һејвасыз, нарсыз едирләр,
Гырыб будағыны, барсыз едирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Чохунун астары, үзү билинмир,
Әјриси көрүнмүр, дүзү билинмир,
Думанлы јолларда изи билинмир,
Қимә инанмајым, кимә инаным?

* * *

Нә гәдәр дүзләрә әјри дејирләр,
Јохдур өз халгына хејри дејирләр,
Өзкәдир, өкејдир, гејри дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Дүшмән сајылана јолдаш дејирләр,
Меһрибан, сәмими гардаш дејирләр,
Һәмфикир дејирләр, сирдаш дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Қиши сајылана, кәдә дејирләр,
Сағлам бир бәдәндә зәдә дејирләр,
Һәр јетән чочуға дәдә дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Ганан кимсәләрә ганмаз дејирләр,
Хәтири, һөрмәти анмаз дејирләр,
Одлара дүшсә дә, јанмаз, дејирләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Зәһмәт чәкиб учалана сөјүрләр,
Зәфәр чалыб, бач алана сөјүрләр,
Шан-шөһрәтдән тач алана сөјүрләр,
Қимә инанмајым, кимә инаным?

* * *

Бој атаны, дирчәләни јыхырлар,
Мәнкәнәдә хидмәтини сыхырлар,
Тез-тәләсик ахырына чыхырлар,
Қимә инанмајым, кимә инаным?

* * *

Бир дә көрдүн, бирисини вурдулар,
Һалдан салыб, дилдән салыб, јордулар,
Гәрәзиндә, гисасында дурдулар,
Қимә инанмајым, кимә инаным?

* * *

Кимә инанмајым, кимә инаным?

* * *

Давалар, далашлар, өлүмләр артыр,
Əзаблар чохалыр, зүлүмләр артыр,
Торпағы, дашлары бөләнләр артыр,
Кимә инанмајым, кимә инаным?

* * *

Бә'зән һөрмәтлиләр һөрмәтсиз олур,
Наданлар јанында гејрәтсиз олур,
Кәрәмсиз көрүнүр, мүрвәтсиз олур,
Кимә инанмајым, кимә инаным?

* * *

Бири елә дејир, бириси белә
Бири бәмә чәкир, бириси зилә,
Үлфәт-үнсијјәтә салыр вәлвәлә,
Кимә инанмајым, кимә инаным?

* * *

Дүнәнки доғрулар, бу күн јаландыр,
Дүнәнки сохулчан, бу күн иландыр,
Дүнәнки күл-чичәк бу күн соландыр,
Кимә инанмајым, кимә инаным?

* * *

Көзәл көрүнәнә чиркин дејирләр,
Ловға, јекәхана, худбин дејирләр,
Бәдкүман олана никбин дејирләр,
Кимә инанмајым, кимә инаным?

* * *

Нә гәдәр доғруја, оғру дејирләр,
Верибдир бу халга ағры, дејирләр,
Апарыр зүлмәтә доғру дејирләр,
Кимә инанмајым, кимә инаным?

* * *

Тәпә билинәнә дагды дејирләр,
Коллара-кослара бағды дејирләр,
Бир хәстә бәдәнә сағды дејирләр,
Кимә инанмајым, кимә инаным?

* * *

Тәпик дәјир, ләкә дүшүр јахшыја,
Јол верилир набәләдә, нашыја,
Оғул кәрәк, бу дәрдләри дашыја,
Кимә инанмајым, кимә инаным?

* * *

Чохларынын билинмәди гијмәти,
Саф арзусу, пак истәји, нијјәти,
Итди-батды аралыгда зәһмәти,
Кимә инанмајым, кимә инаным?

* * *

Бә'зән, мәнликсизә бәјди дејирләр,
Устада, алимә кејди дејирләр,
Логман-мүнәччимә сәјди дејирләр,
Кимә инанмајым, кимә инаным?

* * *

Шәр данышыб, ара гатан о гәдәр,
Чалыб-чапан, вара чатан о гәдәр,
Гоһум-гардаш, кара чатан о гәдәр,
Кимә инанмајым, кимә инаным?

* * *

Гәфләтләрдә кедиб јатан о гәдәр,
Чамурлугда итиб-батан о гәдәр,
Вичданыны алыб-сатан о гәдәр,
Кимә инанмајым, кимә инаным?

* * *

Ахыр күманымыз «Гур'ана» галыб,
Әгидә јолунда дурана галыб,
Өзүнү бу јолда јорана галыб,
Кимә инанмајым, кимә инаным?

* * *

Суалым сәнәдир, ај Чәмил Əкбәр,
Нәзәр сал тарихә, дүзкүн вер хәбәр,
Чохлары олмушду дилләрдә әзбәр,
Кимә инанмајым, кимә инаным?

**Чәмил ƏКБƏР.**

**247.** ***(26 )*** Cəmil Əkbər. “Gələn deyildim”,“Xocalının səsi” qəzeti Səh. 3

«ХОЧАЛЫНЫН СЭСИ» Cəh.3

### *КӘЛӘН ДЕЈИЛДИМ*

Билсәјдим бу гәдәр надан олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.
Тә'лимдән јарымчыг дадан олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим әдаләт сөздә галачаг,
Дағларда, дашларда, дүздә галачаг,
Арзулар, истәкләр көздә галачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим кәдәләр бәјлик едәчәк,
Елә саһиб олуб, ејлик едәчәк,
Һәр аддым башында зајлыг едәчәк,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим үрәкләр даша дөнәчәк,
Сырсыра баглајыб, гыша дөнәчәк,
Мәһәббәтин зијалары сөнәчәк,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим инсанлар дөнүк чыхачаг,
Вичданы-мәсләки сөнүк чыхачаг,
Бири-бирисинә әник чыхачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим јолдашын вәфасы будур,
Вәтәнә, халгына чәфасы будур,
Дөврү заманәнин сәфасы будур,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим бу гәдәр хәбис олачаг,
Тамаһкар олачаг, һәрис олачаг,
Нахәләф өвладдан варис олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим бу гәдәр бичләр олачаг,
Илгара-имана кәчләр олачаг,
Сәрсәри, кәм ағыл, кичләр олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим бу гәдәр нашы олачаг,
Инсан гијафәдә вәһши олачаг,
Оғру-әјри гулдурбашы олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим бу гәдәр позғун олачаг,
Абырсыз, һәјасыз, азғын олачаг,
Лешләри кәмирән гузғун олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим тәрлана сар дејәчәкләр,
Күллү күлүстана хар дејәчәкләр,
Дүнјаны башлара дар едәчәкләр,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим ләјагәт јаддан чыхачаг,
Дамагдан дүшәчәк, даддан чыхачаг,
Позулуб нөврағы моддан дүшәчәк,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим бу гәдәр корлар олачаг,
Гулағы тутулан, карлар олачаг,
Чаниләр, авамлар, марлар олачаг,
Мән белә дүнјаја кәлән дејилдим.

* * *

Билсәјдим ај Чәмил һөрмәтин будур,
Шәрафәтин будур, шөһрәтин будур,
Чәкдијин зәһмәтә гијмәтин будур,
Мән белә дүнјаја кәлән дејилдим.

*Чәмил ӘКБӘР.*

**248.** ***(27)*** Cəmil Əkbər. “Nədir məqsədiniz, nədir ağalar?!”, “Kadr uğrunda”, 19 oktyabr 1983

## НӘДИР МӘГСӘДИНИЗ, НӘДИР АҒАЛАР?!.

АБШ-ын (мүһарибә гызышдырычыларына)
Бу дүнја нә гәдәр давалар көрүб,
Барытлы, түстүлү һавалар көрүб.
Дағылыб, таланыб јурдлар, јувалар,
Матәмләр көрүбдүр елләр, обалар.
Виранә галыбдыр шәһәрләр, кәндләр,
Јерләрә, көјләрә сығмајыб дәрдләр.
Нә гәдәр ағрылар, ачылар олуб.
Гәм чәкән гардашлар, бачылар олуб.
Нә гәдәр зүлм олуб мүдрик бәшәрә,
Салыныб әзаба, дүшүб мәһшәрә.
Де кимә лазымдыр бу тоггушмалар,
Бу ганлы дөјүшләр, бу вурушмалар?!
Кимә нә верибдир мүдһиш чәбһәләр,
Амансыз һүчумлар, ағыр зәрбәләр?!
Нәдир бу чинајәт, нәдир бу хәта?!
Фәлакәт кәтирир өмрә, һәјата.
Евләр јыханларын јыхылыб еви,
Чеврилиб дөвраны, позулуб дәби.
Ағалар, кечмиши јада салын сиз,
Ағсачлы тарихдән ибрәт алын сиз!
Ибрәт алмајанлар хәчаләт чәкир,
Дүшүр мәшәггәтә, зәлаләт чәкир.
Сон гојун даваја, далаша кәлин,
Көзүнүздән чәни, думаны силин!
Биз ки, истәмирик атылсын күллә,
Дәјсин кимә исә ади бир шиллә.
Бизим истәјимиз гардашлыгдыр, бил!
Достлуг, әмәкдашлыг, јолдашлыгдыр, бил!
Бизә лазым дејил гумбара сәси,
Бомба курултусу, топун нә'рәси.
Көрмәк истәмирик мәшәггәтләри,
Инсаны мәһв едән сәфаләтләри.
Бизим андымыз вар, сүлһә, зәһмәтә.
Бәшәри јашадан әбәдијјәтә,
Биз шүар етмишик бејнәлмиләли,
Нәдир мәчһул галан, нәдир шүбһәли?!
Гојмарыг позулсун саф үнсијјәтләр,
Сағлам дүшүнчәләр, тәмиз нијјәтләр.
Гојмарыг һеч заман һагг наһаг олсун,
Гојмарыг арзулар саралыб-солсун!

Чәмил ӘКБӘРОВ,
сијаси игтисад кафедрасынын досенти.

Кадр уғрунда 19/X-83

**249.*(28)*** Cəmil Əkbər. “Ustad” *(Nizami Gəncəviyə xitabən)*“Kadr uğrunda”.

## УСТАД
### (Н. Кәнчәвијә хитабән)

Јашым јетишсә дә сән чатан јаша,
Чушум јетишмәди, чушуна устад.
Истәдим мән чыхам, сән чыхан дөшә,
Јаздығым кәлмәди хошума, устад.
* * *
Нә гәдәр ишләди сөздән котаным,
Шумлады дајаздан, үздән котаным,
Енишдән, јохушдан, дүздән котаным,
Хышым да чатмады, хышына устад.
* * *
Нә гәдәр јаздымса, шеир дедимсә,
Ешгә, мәһәббәтә даир дедимсә,
Халгыма вермәјә хејир, дедимсә—
Ишим дә чатмады, ишинә устад.
* * *
Чәһд етдим сәнин тәк камаллы олум,
Мәсләкли, вичданлы, амаллы олум,
Мә'нәви сәрвәтдә самбаллы олум,
Кушум да чатмады, кушуна устад.
* * *
Истәдим ки, чыхам мән дә өнчәјә,
Дурам сәнин илә «пәнчә-пәнчәјә»,
Көзәл варис олам гәдим Кәнчәјә,
Һушум да чатмады, һушуна устад.
* * *
Нә гәдәр јашадым, учалдымса да,
Јаш-саја доларағ гочалдымса да,
Һүнәр мејданында бач алдымса да,
Зирвәнин чатмадым гашына, устад.
* * *
Нә гәдәр чалышдым, нә гәдәр јаздым,
Хәјал көмисиндә үздүкчә-үздүм,
Силиб-гараладым, поздум һа, поздум,
Бешим дә чатмады, «бешинә» устад.
* * *
Баһар ајым, баһарындан күт олду,
Јај ајым да, јај ајындан лүт олду,
Пајыз ајым, пајызындан гыт олду,
Гышым да чатмады, гышына устад.
* * *
Сән даһи Низами, мән Чәмил Әкбәр,
Сән бөјүк сәркәрдә, мән ади әскәр,
Мәни танытан јох, сән, дилдә әзбәр,
Пешәм дә чатмады, пешәнә устад.

Чәмил ӘКБӘР.

**250.** ***(29)*** Cəmil Əkbər. "İnqilab nəfəsli şair", "Kadr uğrunda", 10 aprel 1979.



ИНГИЛАБ НӘФӘСЛИ ШАИР

С. Рустәмә

Сәнә ки, доғмадыр бу Вәтән, бу ел,
Бу тарла, бу чәмән, бу јамач, бу чөл,
Јасәмән, гәрәнфил, һәр чичәк, һәр күл,
Елә бил ананын гучағындасан.

◆

Амалын һәгигәт, әдаләт олмуш,
Халгына е'тибар, сәдагәт олмуш,
Дүшмәнлә чәкдијин әдавәт олмуш,
Мизан тәрәзинин јарағындасан.

◆

Бәллидир ше'рдә күчүн, гүдрәтин,
Тутубдур һәр јаны шанын-шөһрәтин,
Јохдур кимсәләрдән һеч бир миннәтин,
Заманын һөкмүндә, нәврағындасан.

Доғулдун тутарлы, самбаллы шаир,
Нүфузлу, идраклы, камаллы шаир,
Мәсләкли, вичданлы, амаллы шаир,
Ганун китабымын варағындасан.

◆

70-и һаглады, 100-дәдир мејлин,
Лаләтәк јанаглы үздәдир мејлин,
Елә бил салмысан дүздәдир Лејлин,
Дүшмүсән сорağa фәрағындасан.

◆

Чарчысы олмусан сән сәадәтин,
Сағлам дүшүнчәнин, сағлам нијјәтин,
Садиг шаирисән бизим дөвләтин,
Јербин чәкичиндә, орағындасан.

Чәмил ӘКБӘРОВ,
досент.

Редактор Ә. Х. ҺӘСӘНОВА.

**251.** ***(30)*** Cəmil Əkbər. “Bu qanunda”, “Kadr uğrunda”, 17.10 – 1977


БУ ГАНУНДА

Миљјонларын һагг сәси вар
Бу ганунда, бу ганунда.
Сәадәтин мүждәси вар
Бу ганунда, бу ганунда.

☆

Ингилабын нәфәси вар,
«Аврора»нын кур сәси вар,
«Бејнәлмилəл» нәғмәси вар
Бу ганунда, бу ганунда.

☆

Даһиләрин зәкасы вар,
Һимнимизин сәдасы вар,
Гәлбимизин севдасы вар
Бу ганунда, бу ганунда.

☆

Зәһмәткешә сәфа да вар,
Е'тибар вар, вәфа да вар.
Мин бир дәрдә шәфа да вар
Бу ганунда, бу ганунда.

☆

Әдаләтин кәлир сәси,
Фикирләрин мүгәддәси,
Сечилибдир дүрданәси
Бу ганунда, бу ганунда.

☆

Һәкк олунуб һүгугумуз,
Диләјимиз, умудумуз,
Дәлилимиз, сүбутумуз
Бу ганунда, бу ганунда.

☆

Бәшәр көрүр һәгигәти,
Пак арзуну, саф ниј јәти,
Инсанлыға сәдагәти
Бу ганунда, бу ганунда.

☆

Дәврүмүзүн мә'насы вар,
Гардашлығын дүнјасы вар,
Коммунизмин сәсы вар
Бу ганунда, бу ганунда.

Чәмил ӘКБӘРОВ,
досент.

17/X.77

**252.*(31)*** Ərzurumda yayınlanan cizgi jurnalı (2002)

“Kimi”



çizgi

**Cemil Ekberof İMAMVERDİOĞLU**

15 Eylül 1928 yılında, Azerbaycan'ın Gedebey ili, Sebatgeçmez köyünde doğdu. İlk ve orta öğrenimini Gedebey de tamamlayıp, 1945 yılında Gence deki Pedagoji Enstitüsü Tarih Bölümüne kayıt oldu. Bu bölümü 1949 yılında bitirdikten sonra, 1950 yılında Gence Ziraat Enstitüsü Siyasi İktisat Bölümüne asistan olarak kabul edildi. Aynı branştaki görevine, 1952 yılında Moskova Lomonosof Üniversitesinde de devam etti. 1952-1966 yılları arasında Azerbaycan Ziraat Enstitüsü Siyasi İktisat Bölüm Başkanlığı görevini yürüten Cemil Ekberov, 1964 yılında "Zirai Üretimin Artırılması" konusuyla doktora ünvanını aldı. Siyasi İktisat Fakültesinde 1966-1976 yılları arasında yardımcı doçent, 1976'dan sonra da doçent olarak görevini sürdürdü. Akademik kariyeri ve mesleki bilgisini artırmak amacıyla, 1968-1969 ve 1976-1977 yılları arasında Taşkent'te, 1981 de Kiev'de, 1987'de Minsk'teki ihtisas artırma kurslarını da başarıyla tamamladı. Elli yıllık çalışma hayatına, ilmi mahiyette yüzden fazla makale sığdıran Cemil Ekborov' un, ebediyete intikalinden önce tamamlamış olduğu son makalesi de "Atatürk ve Hukuk" ismini taşımaktadır. Bütün bu ilmi çalışmalarının yanında, çocukluğundan beri şiire büyük bir sevgi duyan Cemil Ekberov İmamverdioğlu'nun, 1997 de Gence de neşrolunan "Yaşadır Seni" adlı bir de şiir kitabı bulunmaktadır. Azerbaycan'ın ilmi ve edebi yaşamında, müstesna bir yeri olan yazar, 12 Mart 2000 yılında aramızdan ayrılmıştır.

(Bu özgeçmiş, halen Erzurum'da yaşamakta olan, oğlu Yrd.Doç.Dr. Ilgar İmamverdioğlu'ndan alınmıştır.)

**KİMİ**

*Gönül kuşum köy başına do*
*Gayıdıp[1] yanıma gelene kim*
*Derman eyle yaralarım sağa*
*Bağrımın başını delene kimi*

*İnsafı, mürüvveti atandan*
*Mertleri namerde satandan*
*Yağını[2] yamana[3] katandan*
*Göç edip dünyadan ölene kin*

*Eyip vügarımı[4] bükmek ne*
*Gönlümün mülkünü sökmek*
*Gözümün yaşını dökmek ne*
*Sonradan vur ha vur silene k*

*Dağlardan gül, çiçek der yine*
*Derip deste tutup ser yine me*
*O ilk mehebbeti ver yine mene*
*Onu yüz yerinden bölene kimi*

*Her yetene iğit deme ner[5] dem*
*Sarrıf deme zerger deme zer[6]*
*Ona buna böhtan[7] deme şer de*
*Öğrenip halını bilene kimi*

*Yanımda durmayıp gitsen yah*
*Özge bir diyarda ötsen yahşıdı*
*Cemilin gözünden itser[8] yah*
*Yalandan yüzüme gülene kimi*

1. Gayıdıp: Geri gelmek
2. Yahşı: İyi, güzel
3. Yaman: Kötü
4. Vügar: Boy, gamet
5 Ner: Erkek
6. Zer: Kıymetli taş
7. Böhtan: İftira
8. İtsen: Kaybolsan

ŞUBAT 2002

Yedi

## 253.*CƏMİL ƏKBƏRİN REKTOR BALA AĞAYEV HAQDA XATİRƏSİ*



***Bala Məmməd oğlu Ağayev***
*(1910-1989)*

Cəmil Əkbərin əlyazmalarını araşdırarkən kiçik bir vərəqədə əlyazma halında olan unudulmaz xatirəsi ilə qarşılaşdım. Bu xatirə 1944-1953-cü illər arasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna rəhbərlik etmiş Professor Bala Məmməd oğlu Ağayev (1910–1989) haqda idi. Cəmil Əkbərin pedaqoji fəaliyyətində önəmli rol oynamış Bala Məmməd oğlu Ağayev barədə olan səmimi düşüncələrini, faktlara dayanan obyektiv həqiqəti əks etdirən bu ülvi xatirəni kitabın müəlliflərindən biri kimi qədirbilən oxucularımızla paylaşmaq ehtiyacı hiss etdim.

"Mən, kənd təsərrüfatı elmləri doktoru, professor Bala Məmməd oğlu Ağayevi 1945-ci ildə bu instituta qəbul olunmaq üçün sənədlərimi təqdim etdiyim zaman tanıyırdım. 1944-cü ildən, yəni bir il öncə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna rektor vəzifəsinə təyin olunmuşdu.

Bala Məmmədoviç ən böyük şəxsiyyət idi. Onu anası sanki xalqa, elə-obaya rəhbərlik etmək, qayğı göstərmək, gənc nəsilləri yetirmək üçün doğmuşdur. O rəhbərlik etdiyi institutun təsibini çəkirdi. O, kadrların seçilib yerləşdirilməsinə, tərbiyə edilməsinə xüsusi qayğı göstəririd i. Rektorum Bala Ağayev 1950-ci ildə bu instituta assistent qəbul edərkən məni Mərkəzi Komitənin sərəncamına göndərdi. Butalı Səmədov və Dadaşov rektorumun referans məktubu əsasında qəbul etdikdən sonra mənim Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda assistent vəzifəsində işləməyimə razılıq verdilər.

1951-ci ildə məsləkdaşlarım rektorum Bala Məmmədoviçin məni məqamına dəvət etdiyini xəbər verdilər. Otağına daxil olduğum zaman mənə dedi: *"Səni Moskva Dövlət Universitetinə İctimai Fənn üzrə müəllimləri hazırlayan kursa göndərirəm"*. Mən rus dilində zəif bildiyimi rektoruma etiraf etdim. Bu zaman, cavabında dedi: *"Daha yaxşı, get mükəmməl oxuyub öyrən!"*. Bu minvalla mən rektorum Bala Məmmədoviçin tövsiyəsi ilə təhsilimi Moskvada artırmaq üçün bir illik kursa ezam olundum.

Təhsil dönəmində Lenin adına kitabxanada həm dərslərimi hazırlayır həm də rus dilini mükəmməl öyrənməyə çalışırdım. Təxminən 4-5 aydan sonra, günlərin birində axşam 19-20 radələrində kitabxanada dərslərimi mütaliə etdiyim zaman təsadüfən rektorum Bala Məmmədoviçlə qaşılaşdım. *(Daha doğrusu başımın üstünü kəsdirən bir şəxsin olduğunu fərq etdim.)* Bu təsadüfi görüş sırasında məni müvəqqəti məskunlaşdığı qonaq evinə (otel İ.İ.) dəvət edərək, bəzi məsləhətlərini də verdi.

Bir illik təkmilləşdirmə kursunu tamamladıqdan sonra təhsil aldığım qurumdan diplom verdilər. Bu diplomun dəyərinə görə bütün SSRİ məkanında Ali təhsil məktəblərində dərs demək hüququna malik idim. Təhsilimi tamamlayıb Kirovabada *(Gəncə şəhəri İ.İ.)* döndüyüm zaman rektorum Bala Məmmədoviçin məni Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda çalışmağıma razılıq verdi.

Mənim həyatımda əmək fəaliyyətimdə mühüm rol oynamış Bala Məmmədoviç siyasi cəhətdən çox hazırlıqlı, yetkin mütəxəssis və peşəkar bir şəxs idi."

## *VI BÖLÜM: CƏMİL ƏKBƏRİN BƏZİ ELMİ MƏQALƏLƏRİ*

### 254. (1) MƏNI YAMAN İNCİDİR.

Məni yaman incidən bir şey varsa o da insanam deyəndə mövcud olan mənfiliklərdir, çatışmamazlıqlardır. Bu çatışmamazlıqlar müxtəlif tərzdə özünü göstərərək bəşəri tərəqqiyə, sosial-iqtisadi inkişafa mane olur. Bəşəriyyətin səadətə, firəvan həyata qovuşmasına mane olur. İnsanlarda mövcud olan çatışmamazlıqlar, tək məni incidib, narahat etmir. O bütün cəmiyyət üzvlərini həyat yollarında enişə-yoxuşa salır, ictimai münasibətlər prosesində çətinliklər əmələ gətirir, ülfət-ünsiyyəti korlayır, sağlam abı-havanı zəhərləyir, əsəbin korlanmasına, qanının qaralmasına bais olur. Cəmiyyətdə mövcud olan mənfiliklər, insan övladına qənim kəsilmişdir. Cəmiyyətdə mövcud olan çəkişmələrin dava-dalaşların, qal-qovğanın, həyəcan-təlaşların, qorxu və səksəkələrin də əsas səbəbi də bu çatışmamazlıqlardır. İnsan övladı bu çatışmamazlıqları ortadan qaldırmaq üçün tarixi keçmişlərdən bəri saysız-hesabsız təlim-tərbiyə işləri aparmış, mübarizələr etmiş, təşəbbüslər göstərmiş, həyata keçirmişdir. Lakin təəssüflər olsun ki, bu mənfiliklərdən bəşəriyyət yaxa qurtara bilmir. Bu mənfi keyfiyyətlər insanları yerli-yersiz dava-dalaşlara, ölümlərə, qırğınlara, fəlakətlərə sürükləmişdir. Nəticə etibarı ilə onların ehtiyac, yoxsulluq içərisində boğulmasına səbəb olmuşdur.

İnsanlarda mövcud olan çatışmamazlıqlar, hər cür yersiz söz-söhbətlərə, giley-güzarlara, dedi-qodulara, şikayətlərə, ədavətə, qəsdə-qərəzə, paxıllığa, xəyanətə, namərdliyə qəddarlığa səbəb olmuşdur. İnsanlarda mövcud olan bu mənfi keyfiyyətlər, onların yaxşı yaşamasına, mənalı həyat keçirməsinə, uzun ömür sürməsinə, xoşbəxtliyə qovuşmasına maneçilik törətmişdir. Onların yaradıcılıq, quruculuq işlərinə əngəl olmuşdur. Əhval ruhiyələri sarsıtmışdır.

Bu mənfi cəhətlər insanların gözəlliyini, mərdanəliyini, alicənablığını, xeyirxahlığını, birbirinə xeyir verməsini əlindən almışdır. İnsanı bədbəxtliyə düçar edən bir şey varsa o da onların özlərində olan çatışmamazlıqlardır. Həyatda mövcud olan ölüm və zülüm hallarının baisi məhz bu çatışmamazlıqlardır. Bu çatışmamazlıqlar tarix boyu bəşəriyyəti daima ölüm-dirim mübarizəsinə salmışdır.

İnsanda mövcud olan mənfiliklər aşağıdakılardır.

**1.**Hərkəsin sözü ilə işinin düz gəlməməsidir, iki üzlülüyüdür, iki sözlülüyüdür, iki izliliyidir, gözü ola-ola kor, qulağı ola-ola kar, dili ola-ola lal olmasıdır. Bəzən deyiləsi sözləri vaxtında deməməsi, bəzən də əksinə lazım olmayan sözləri yerli-yersiz işlətməsidir.

**2.** İnsanda mövcud olan mənfiliklərdən biri də ağa-qara, qaraya-ağ, pisə-yaxşı, yaxşıya-pis deməsidir, gördüyünü götürməməsidir. Həyatda mövcud olan nöqsanlardan yaxasını qurtara bilməməsidir. Tənbəllikdir, əli ola-ola, ayağı ola-ola topal olması, şil olmasıdır, acizlik və kütlükdür. Öz gözlərində tiri görməyərək, başqalarının gözlərində tük axtarmaqdır.

**3.** Bu mənfiliklərin ən dəhşətlisi insafsızlıq-mürvətsizlikdir, xətirsizlik-hörmətsizlikdir, abırsızlıq-ismətsizlikdir, həyasızlıqdır, əqidəsizlik-qayəsizlikdir, haqq-sayı unutmaqdır, yalan sözlər, şər-böhtan danışmaqdır, insan ləyaqqətini alçaltmaqdır, böyüyün-kiçiyin yolunu gözləməkdir.

**4.** İnsanda mövcud olan nöqsanlardan biri də, insanların olduğu kimi görünməməsidir, maskalanmasıdır, saxtalığa, riyakarlığa yollanmasıdır. Lovğalıq, ədəbazlıq etməsidir, süni bəzək-düzəyə, hərəkətlərə yol verməsidir, tüfeyli həyat tərzidir, oğruluq-əyrilikdir, başqasının var-dövlətinə göz dikməsidir, ucuz alıb-baha satmaqdır, möhtəkirlikdir, rüşvətxorluqdur. Xeyri qoyub şərə doğru addımlamasıdır.

**5.** Əqidəsizlik, vicdansızlıq insanın ən böyük qəbahətlərindəndir. Bu qəbahətləri törədənlər ey süddən mayəsizlərdir, təlim-tərbiyədən dayəsizlərdir, abırsız-həyasızlardır, öz bədəməllərinə görə xalqdan utanmayan yaramazlardır.

**6.** İnsanın çatışmayan cəhətlərindən biri, düz yolu qoyub, əyri yolla getməkdir, haqqı-ədaləti, insanlığı-ləyaqəti, ədəb-ərkanı, nəzakəti görməməsidir. Xəyanətdir, kin-küdurətdir, xainlikdir, xəbislikdir, tamahkarlıq, acgözlük, hərislikdir, hiyləgərlik, dələduzluq, qəlbibuzluqdur, biclikdir, giclikdir, ilqara-imana kəclikdir.

**7.** İnsanda mövcud olan çatışmamazlıq yaxşıya-yamana göz yummasıdır, laqeydlikdir, biganəlikdir, cəhalətdən, avamlıqdan, nadanlıqdan əl götürməkdir, qəflətdə yatmaqdır, çamırlığa batmaqdır, yaltaqlıqdır, sırtıqlıqdır, öz şəxsi mənafeyini ictimai mənafedən üstün tutmaqdır, öz qarnı, cibi naminə dəridən-dırnaqdan çıxmaqdır, onun-bunun üzünə saxta irişməkdir, sabınlanıb girişməkdir.

**8.** İnsanın ən böyük qəbahətlərindən biri, sözünün-söhbətinin yerini-yurdunu bilməməsi, ağzınagələni danışmasıdır. Kişi olduğu halda qadına oxşamasıdır, özünü, ailəsini yersiz əzizləyənlər, onları ərköyün tərbiyə edənlərdir. Təlim-tərbiyədə, ünsiyyətdə özbaşınalığa, məsuliyyətsizliyə yuvarlananlardır.

**9.** İnsanın ən böyük qəbahətlərindən biri də, xeyir, savab işləri buraxıb şər işlərlə məşğul olmaqdır, bədəməllər tutmağı özünə peşə

etməkdir, söyüd-ulğun ağacıtək barsızlardır. İnsanlarda olan bu mənfiliklər öz başlanğıcını hərkəsin öz insanlıq, vəzifə və vətəndaşlıq borclarını düzgün başa düşməməkdən, onu yüksək səviyyədə, ləyaqətlə yerinə-yetirməməkdən, düzgün təlim-tərbiyə almamaqdan alır.

**10.** İnsanda mövcud olan nöqsanlardan ən dəhşətlilərindən biri, gözü-könlü darlıqdır, ləyaqətə, gözəlliyə göz yummaqdır, ona darılmaqdır, qoluna-qılçına sarılmaqdır, ona-buna ağız büzüb gülməkdir, diri ikən ölməkdir, müqəvvalıqdır, el-obaya yük olmaqdır, öz insanlıq borcunu ləyaqətlə, sədaqətlə yerinə yetirməkdir, hər addımbaşı yanlış addım atmaqdır, səhv fikirlər düşünməkdir.

**11.** İnsanda mövcud olan çatışmamazlıqlardan biri yaxşıları qorumamaq, pislərə qarşı mübarizə apara bilməməkdir, yaxşı estafeti nəsillərdən-nəsillərə keçirə bilməməkdir. Mövcud olan nöqsanlara bir miras kimi yol verməkdir.

**12.** Mövcud olan nöqsanlardan biri də həyatda olan gözəllikləri görə bilməmək, ondan ilham almağı, onları qoruyub saxlamağı bacarmamaqdır. İctimai həyatda yaxşı nə varsa, onun qədir-qiymətini bilməməkdir, öz hərəkəti və işi ilə xalqın etimadına cavab verə bilməməkdir, başdan sovdu iş görməkdir, zay məhsul buraxmaqdır, vaxtı, vəsaiti israf etməkdir, öz əməli fəaliyyətinə görə xalq qarşısında hesabat verməməkdir, insanlığa şərəf-şöhrət gətirməməkdir.

**13.** Mövcud olan nöqsanlardan ən dəhşətlisi, xeyirxaha-bədxah, bədxaha isə xeyirxah deməkdir, vicdansızlıq, qansızlıqdır, qəm-qüssə törətməkdir, insan sevincinə qənim kəsilməkdir, sosial-iqtisadi tərəqqiyə mane olmaqdır, xalqın sərvəti naminə tər tökməkdir, qaməti bükməkdir, onun-bunun kölgəsində yatmaqdır, xalqın zəhmətilə düzəldilən bağa, bostana, tarlaya sırışmaqdır, peysəri, qarını yoğnutmaqdır, xalqı saymamaqdır, onu narahat edən çətinliklərə qarşı mübarizə aparmamaqdır.

**14.** Ən böyük nöqsanlardan biri də, insan hüququnun, ləyaqətinin tapdanılmasıdır, əllərdə-ayaqda əzilənlərin olmasıdır, gül yanaqların solmasıdır, yazıqların, məzlumların mövcudluğudur, ah-nalələrin kəsilməməsidir.

Bəşər övladının səadətə, ictimai-iqtisadi tərəqqiyə qovuşması naminə bu kimi çatışmamazlıqlara qarşı hamı mübarizə aparmalıdır, var qüvvəsini səfərbərliyə almalıdır.

***Məni yaman incidir***, qaraya-ağ, təpəyə dağ, xəstəyə-sağ, kol-kosa bağ deyənlər, görə-görə kor, eşidə-eşidə kar olanlar. Düzə-əyri, əyriyə-düz, dayaza-dərin, dərinə-üz deyənlər.

***Məni yaman incidir***, ürəyi daşlar, fikri çaşlar, filə hürən alabaşlar, öz dədə-babsına ağız büzənlər, onlarda olan yaxşı keyfiyyətləri qoruyub saxlamayan onu yaşatmayan karsız-barsız, arsız varislərdir.

***Məni yaman incidir,*** ləyaqətə darılan, içindən qırılan, qollara-qılçlara sarılan, xainlər-xəbislər, nanəcib-naqislər, özgənin varına göz dikən acgözlər, hərislər, haqqa-ədalətə qənim kəsilən abırsızlar, ismətsizlər, həyasızlar məsləksizlər, qayəsizlər, tərbiyədən kəm-kəsir olan dayəsizlər, kətəyəntəki sayəsizlər.

***Məni yaman incidir,*** biganələr, divanələr, laqeydlər, keylər, səylər, gicbəsərlər, dəngəsərlər, kütbeyinlər, ətbeyinlər, nanıkorlar, xətir-hörməti tapdalayanlar, haqq-sayı unudanlar, hiyləgərlər, biclər, ilqara-imana kəclər, ədəbə-ərkana öclər, qəddarlar, zalımlar, insafsız mürvətsizlər, şərəfsiz-şöhrətsizlər, qeyrətsizlər, nəzərsizlər, diqqətsizlər, təpərsizlər, riqqətsizlər.

***Məni yaman incidir,*** öz insanlıq borcunu yerinə-yetirməyənlər, cıra peyvənd vurub bitirməyənlər, gördüyünü götürməyənlər, yaxşı estafeti nəsillərdən-nəsillərə ötürməyənlər.

***Məni yaman incidir,*** qəlbi kinlə-küdurətlə döyünənlər, ev yıxmaqla, insanlığa qənim çıxmaqla, ürək sıxmaqla sevinənlər, bədəməlləri ilə öyünən nanəcib-naqislər.

***Məni yaman incidir,*** eli-obanı soyub-sovub öz evini-eşiyini, məhləsini dolduranlar, bəşəriyyətə xeyir verməyən karsızlar, arsızlar, söyüd, ulğun ağacı kimi barsızlar, bəşəriyyətə ziyan verən həşəratsayağı tüfeylilər, qohuma-qardaşa, dosta-tanışa yaramayan, xətir-hörməti aramayan yaramazlar.

***Məni yaman incidir,*** öz insanlıq, vəzifə vətəndaşlıq borcunu başa düşməyən nadanlar, addımını tərsə adanlar, haqq-sayı udanlar, təlimdən-tərbiyədən yarımçıq dadanlar, ləyaqətə kor olan qəlbi qaralar, vicdanı-məsləki karlar, paxıllar, ona-buna həsəd çəkə-çəkə, darıla-darıla, qoluna-qılçına sarıla-sarıla ölənlər.

***Məni yaman incidir,*** ləyaqətə ağız büzüb gülənlər, diri ikən ölənlər, xeyirxahlığa, yaxşılığa biganələr, sərsərilər, divanələr, el-obaya yük olanlar, öz insanlıq borcunu ləyaqətlə, nəzakətlə, məhəbbətlə, sədaqət və səxavətlə yerinə-yetirməyənlər.

***Məni yaman incidir,*** öz bədəməllərinə görə xalqdan utanmayan həyasızlar, qayəsizlər, kətəyən kimi sayəsizlər, təlimdən dayəsizlər, ey süddən mayəsizlər, hiyləgərlər, dələduz biclər, giclər, xainlər, kəclər, haqqa-həqiqətə öclər.

## 255. (2) AXTAR TAYINI TAP

(Ailə xoşbəxtliyi üçün hansı amillər lazımdır?)

*Cəmil Əkbərov "Axtar tayını tap", "Kirovabad kommunisti" qəzəti 1959 səh. 3*

"Məlumdur ki, hərbir adam yaşamaq üçün istehsalatda çalışıb fəaliyyət göstərməlidir. Fəaliyyət zamanı insan yorulur: O, hər gün istehsalatda çalışmaq üçün əsasən evində istirahət edir, öz üzərində çalışır, əqli və fiziki qüvvə toplayaraq istehsal fəaliyyətini davam etdirir. İnsanın bu cür istirahətinin təmin olunması və yəni fəaliyyət qüvvəsi toplaması üçün ailə **səmimiliyinin** xüsusi rolu vardır. Ailə **mehribanlığı** adamların gümrah, sağlam olmasına, təbiət gözəlliyini, insanları Vətəni, sənəti və s. sevməsinə səbəb olur, insanın məhsuldar fəaliyyət göstərməsinə kömək edir.

Buna görə də səmimi, mehriban ailəsi olanlar xoşbəxtdirlər. Belə səmimi ailəni hərkəs qura bilərmi? Əlbəttə qura bilər. Bunun üçün bizdə geniş imkanlar vardır. Gənclərimiz bu imkanlardan şürulu istifadə edərlərsə mehriban ailə qura bilərlər. Lakin onlar belə bir məsuliyyətli işə başlamazdan əvvəl "Axtar tayını tap" adlı məşhur el misalını unutmamalıdırlar.

Oğlan və qız öz tayını axtarıb tapmaq istərkən məncə aşağıdakı cəhətlərə fikir verməlidir: hər iki tərəfin dünyagörüşündə heç olmazsa nisbi uyğunluq, əməyə münasibət, xarici görünüş, maddi vəziyyət uyğunluğu, hər iki tərəfə verilən tərbiyə uyğunluğu və xasiyyət uyğunluğu.

Bəzi yoldaşlar ailə haqqında fikir söylərkən bu cəhətləri nəzərə almadan hər iki tərəfin bir-birini sevməsinin zəruriliyindən danışırlar. Məncə, sevgi anlayışı nisbidir. Əgər tərəflər arasında həmin cəhətlər yoxdursa, onların ailəsi ilk günlər nəqədər mehriban olsalar da, zaman keçdikcə arasındakı münasibətlər get-gedə pozula bilər.

Buna görə də hərkəs üçün "öz tayını tapmaq lazımdır"

***Cəmıl Əkbərov***
Azərbaycan Kənd Təsərrüfatı
İnstitutunun müəllimi.

## 256.(3) KOLXOZLARDA HƏR BAŞ MAL-QARANI DAHA GƏLİRLİ ETMƏLİ

*"Kirovabad Kommunisti", № 116, 26.09 - 1959, səh 3.*

Sov.İKP sosialist kənd təsərrüfatını daha da inkişaf etdirmək və əhalinin hər cür kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək üçün əməli tədbirlər görür. Məlum olduğu kimi, hərbir kolxoz mövcud imkanlardan layiqincə istifadə edərsə öz öhdəsində olan karlı torpaq sahəsinə görə daha çox kənd təsərrüfatı məhsulları və pul gəliri götürülməsini təmin edə bilər. Kolxozçuların maddi həyat şəraitinin daha da yaxşılaşdırılmasını, hərşeydən əvvəl kolxozun istifadəsində olan torpaq sahəsindən daha çox gəlir götürülməsindən asılıdır. Bu cəhətdən kolxozlarda olan hər baş mal-qaranın məhsuldarlığının artırılmasının xüsusi əhəmiyyəti vardır. Heyvançılıq, kolxozların ən gəlirli sahələrindən biri olmaqla əhalinin ət, süd, yağ və başqa heyvandarlıq məhsullarına olan tələbatını ödəyir. Heyvandarlığın daha da inkişaf etdirilməsinin və onun məhsuldarlığının artırılmasını ümumxalq mənafeyi tələb edir. Heyvanların məhsuldarlığını artırmaq üçün, onların son inkişaf həddinə çatana qədər böyüdülməsi və kökəldilməsinə nail olmaq lazımdır. Hərbir baş mal-qaranın məhsuldarlığının yüksəldilməsi, heyvandarlıqda əmək məhsuldarlığının artırılması üçün mühüm şərtdir. Hər baş mal-qaradan mümkün qədər çoxlu məhsul əldə etmək üçün onlara zoobaytar elminin göstərişləri əsasında xidmət edilməlidir.

Şəhərimizin Stalin adına və Kirov adına kolxozları hər il dövlətə on tonlarla mal və qoyun əti satırlar. Bu cəhətdən hər iki kolxoz birbirindən fərqlənir. Belə ki, 1958-ci ildə Stalin adına kolxozun dövlətə satdığı mal-qaranın hərbiri Kirov adına kolxozun satdığı mal-qaraya nisbətən daha çox gəlir vermişdir. Bu onunla izah edilir ki, Stalin adına kolxozun dövlətə satdığı mal-qaranın həm diri çəkisi, həm də köklük dərəcəsi Kirov adına kolxozdakından yüksək olmuşdur. 1958-ci ildə Stalin adına kolxozun satdığı mal ətinin 51,4 faizə qədəri yuxarı köklükdə, 46 faizə qədəri orta köklükdə, 2,6 faizə qədəri isə aşağı köklükdə olmuşsa, Kirov adına kolxozun satdığı mal ətinin 9,8 faizi yuxarı köklükdə, 41,8 faizi isə aşağı köklükdə qəbul edilmişdir.

Dövlətə satılan ətin köklük dərəcəsi Stalin adına kolxozda yüksək olduğuna görə, onun satdığı hər baş mal-qara, Kirov adına kolxozun satdığı mal-qaraya nisbətən kolxoza 450 manatdan çox gəlir vermişdir.

1959-cu ildə Kirov adına kolxoz ətin keyfiyyətinə fikir verərək, dövlətə mümkün qədər ağır çəkili və kökəldilmiş mal-qara satmışdır. Bunun nəticəsində kolxozun satdığı mal-qaranın orta hesabla diri çəkisi 1958-ci ilə nisbətən 53 kiloqram olmuşdur.

Bu il Kirov adına kolxozun satdığı mal-qaranın köklük dərəcəsi və diri çəkisi Stalin adına kolxoz mal-qarasından fərqlənmişdir. Belə ki, Kirov adına kolxozun satdığı mal-qaranın 51 faizi orta və ortadan yuxarı, 49 faizi isə aşağı köklükdə olmuşsa, Stalin adına kolxozun satdığı ətin 44,2 faizi orta və ortadan yuxarı, 55,8 faizi isə aşağı köklükdə olmuşdur.

1959-cu ildə Kirov adına kolxozun satdığı hərbir mal-qaranın diri çəkisi və köklük dərəcəsi yüksək olduğuna görə, onun hər baş mal-qarası Stalin adına kolxozun mal-qarasına nisbətən 273 manata qədər artıq gəlir vermişdir. Hər iki kolxozda dövlətə satılan ətin köklük dərəcəsini qənaətbəxş hesab etmək olmaz.

Kolxozların dövlətə satdığı ətin 50-55 faizi aşağı köklükdə olur ki, bu da kolxozun ət satışından pul gəlirinə mənfi təsir edir. Kolxozlar dövlətə verdiyi ətin keyfiyyətini yüksəltmək hesabına mal-qara satışından pul gəlirini əlavə olaraq on min manatlarla yüksəldə bilər. Dövlətə satılan mal-qaranın diri çəkisinin artırılmasına nail olmaqla mal-qaranın say hesabı ilə azalmasının qarşısını almaq olar. 1959-cu ildə Stalin adına kolxozun dövlətə satdığı mal-qaranın hərbir başının diri çəkisi orta hesabla Kirov adına kolxozun mal-qarasına nisbətən 53 kiloqram əksik olmuşdur.

Kirov adına kolxozda dövlətə 13.280 kiloqram ət satmaq üçün 49 baş mal-qara tələb olunmuşsa, Stalin adına kolxoz bu qədər ət üçün 57 başa qədər mal-qara satmalı olmuşdur.

Stalin adına və Kirov adına kolxozlarda dövlətə satılan qoyunların pul gəliri də birbirindən fərqlənir. Qoyun satışında Kirov adına kolxoz həm 1958-ci ildə həm də 1959-cu ildə Stalin adına kolxozdan fərqlənir.

1958-ci ildə Kirov adına kolxozun dövlətə satdığı qoyunun hər başı Stalin adına kolxoza nisbətən 22 manat, 1959-cu ildə isə 35 manatdan çox gəlir vermişdir. Stalin adına kolxoz 1958-1959-cu illərdə dövlətə satdığı qoyunun diri çəkisi və köklük dərəcəsini Kirov adına kolxozun qoyunları səviyyəsinə çatdıra bilsə idi, satılan qoyunların miqdarını artırmadan belə kolxozun pul gəlirini yalnız qoyun satışı hesabına 45-50 min manata qədər artıra bilərdi.

1959-cu ildə Kirov adına kolxozun satdığı hərbir baş qoyunun diri çəkisi Stalin adına kolxoza nisbətən 6 kiloqrama qədər çox olmuşdur. Kirov adına kolxozun satdığı qoyunların hamısı orta və ortadan yuxarı köklükdə olmuşdursa, Stalin adına kolxozun satdığı qoyunların 19,5 faizi aşağı köklükdə olmuşdur.

Kolxoz rəhbərləri və heyvandarlıq mütəxəssisləri unutmamaldır ki, mal-qaranın atıq, yüngül çəkidə satılması kolxozun iqtisadiyyatı üçün əlverişli deyildir və bunun qarşısı tezliklə alınmalıdır.

Kolxozlarda hər baş mal-qaranı daha çox köklük dərəcəsində və ağır çəkidə vermək mümkündür. Kolxozların rəhbər işciləri və mütəxəssisləri mal-qaranın, qoyunların kökəldilməsi üçün ciddi qayğı göstərməlidirlər.

Bunun üçün təcrübəli maldarların qabaqcıl iş üsullarını geniş yaymaq, mal-qaranın bəslədilməsi və kökəldilməsində fərqlənən heyvandarlıq işcilərinin mükafatlandırmaqla onlarda maddi maraq oyatmaq lazımdır.

***Cəmil Əkbərov***

Ağamalıoğlu adına Azərbaycan
Kənd Təsərrüfatı İnstitutunun,
Siyasi İqtisad kafedrasının müəllimi

## 257. (4) İNSAN İNSANIN DOSTU, YOLDAŞI VƏ QARDAŞIDIR

*"Kadr uğrunda" 29 noyabr 1963-cü il № 25*

(əvvəli qəzetimizin 24-cü nömrəsində)

Sosializmdə insan bir-birini istismar etmir, əzmir, incitmir, şəxsiyyətinə toxunmur, hüququnu tapdalamır. Hərbir şəxs qabiliyyət və bacarığından asılı olaraq ictimai faydalı işin müəyyən bir sahəsində işləyir və özünə mövqe qazanır. Sosializm cəmiyyətində hərbir zəhmətkeş istehsal etdiyi gəlirin bir hissəsinin hesabına, ictimai fondlar yaradır və həmin fondlar hesabına həyata keçirilən tədbirlər sovet xalqının dostluğunu, yoldaşlığını bir daha möhkəmləndirir. İctimai fondlar hesabına Sov.İKP və Sovet dövləti tərəfindən zəhmətkeşlərə ictimai xidmətlər göstərirlər.

Dövlətin bu işə çəkdiyi xərclər arası kəsilmədən artır. Əhaliyə ictimai fondlar hesabına verilmiş olan tədiyyələr və imtiyazlar 1940-cı ildə 4,2 milyard manat olduğu halda, 1960-cı ildə 24,5 milyard manat olmuşdur. 1965-ci ildə isə 40 milyard manata çatdırılması nəzərdə tutulmuşdur. Bu fondlar hesabına 20 milyondan artıq pensiyaçı saxlanır, ali məktəblərinin, orta ixtisas məktəblərinin və peşə məktəblərinin təqribən dörd milyon şagirdi dövlət təqaüdü və ümumi yataqxana ilə təmin edilir. İnternat məktəblərinin 600 mindən çox şagirdi əsasən dövlət hesabına saxlanır. Yeddi milyondan artıq fəhlə, kolxozcu, qulluqçu və onların uşaqları ictimai sığorta vəsaiti və kolxozların vəsaiti hesabına hər il sanatoriyalarda, istirahət evlərində, pioner düşərgələrində dincəlir və müalicə olunur.

Yeddi milyona qədər analarımız dövlətdən maddi yardım alır. Sosializm cəmiyyətində yaradılan ictimai fondlar, "hərkəs hamı üçün, hamı isə hərkəs üçün" prinsipi ilə işləməsinin parlaq nümunəsidir.

İnsanın insana qarşı dostluğu, yoldaşlığı sovet adamlarına verilən hüquq bərabərliyində də özünü göstərir. Sosializm cəmiyyətində insanların hamısı irqindən, cinsindən, təhsilindən, ictimai istehsalatda tutduğu mövqedən asılı olmayaraq bərabər hüquqa malikdirlər.

Sovet hakimiyyəti, qadını çarizm zamanı yaşadığı yarım kölə vəziyyətindən xilas edərək, onların ictimai faydalı əmək porsesində fəal iştirak etməsinə əlverişli şərait yaratmışdır. Sovet qadınları dövlət həyatının, təsərrüfat və siyasi həyatın bütün sahələrində fəal qüvvədirlər.

Dünya miqyasında insanların dostluq və yoldaşlıq münasibətlərini möhkəmləndirmək üçün 90 ölkədə Kommunist və fəhlə partiyaları fəaliyyət göstərir.

Kommunist və fəhlə partiyalarının rəhbərliyi altında dünya sosializm cəbhəsində qoşulan və milli istiqlaliyyət uğrunda mübarizə aparan xalqlar birbirinə qayğı göstərir, iqtisadi, mədəni əlaqələrə girirlər.

SSRİ-nin qardaş ölkələrə neft və neft məhsuları satışı durmadan artmaqdadır. Avropa xalq demokratiyası ölkələrində çoxlu miqdar neft daşınması problemini birlikdə çəkilən “dostluq” magistral neft kəməri ilə SSRİ-dən Macarıstana və Çexoslavakiyaya, ADR-ə və Polşaya neft gedəcəkdir. Neft kəmərinin uzunluğu 4500 km olacaqdır. SSRİ həmçinin sosialist ölkələrinə, hətda təbii qaz da verir. 1959-cu ildə Rumınya-Macarıstan qaz kəməri çəkilmişdir. Sovet İttifaqı və Avropa sosialist ölkələrinin energetika sistemləri plan əsasında birləşdirilir.

Hazırda Çexoslovakiya, ADR, Polşa və Macarıstan energetika sistemləri arasında elektrik nəqli xətləri işləməkdədir. Sovet İttifaqından Macarıstana hərbir milyard kilovat saata qədər elektrik enerjisi verilməsi nəzərdə tutulur.

İnsanların dostluq, yoldaşlıq və qardaşlıq münasibətlərini təşkil etməsi Sov.İKP və Sovet hökumətinin əməli fəaliyyətində xüsusi yer tutur. Dostluq, yoldaşlıq, azadlıq, bərabərlik, sülh sözləri Sov.İKP-nın Proqramında iri hərflərlə yazılmışdır.

Kommunizm qurucularının əxlaq kodeksi insanlarla dostluq, yoldaşlıq, qardaşlıq və əməkdaşlıq etməyə çağırır.

Sovet adamlarının dostluğu sosialist təsərrüfat sisteminin üstünlüklərindən səmərəli istifadə etməyə kömək edir.

Sovet xalqının ümumi mənafeyi və səyi Sovet Vətəninə, Sovet hökumətinə məhəbbət hissi ilə birləşir. İqtisadi və siyasi mənafe birliyi xalqlar dostluğunun təməl daşıdır. İnsan insana sədaqətli dost, səmimi yoldaş, mehriban qardaşdır.

***Cəmil Əkbərov***
Ağamalıoğlu adına Azərbaycan
Kənd Təsərrüfatı İnstitutunun müəllimi



Инсан инсанын досту, јолдашы вә гардашыдыр*

## 258. (5) «K.MARKS ZƏHMƏTKEŞLƏRİN BÖYÜK MÜƏLLİMİDİR»,

“Kadr uğrunda”, 8.05 - 1961, səh. 2.

2

# К. Маркс зәһмәткешләрин бөјүк мүәллимидир

**(Анадан олмасынын 143-чү илдә нүмү мүнасибәтилә)**

Бәшәријјәтин ән бөјүк даһиси, елми коммунизмин баниси К. Марксын анадан олдуғу күндән 143 ил кечир. К. Марксын елми нәзәријјәси зәһмәткешләрин мәнафеини ифадә едиб, онларын гәлбиндә өзүнә дәрин јер тутан бүтөв бир дүнјакөрүшдүр. Маркс өјрәдирди ки, инсанлары бир-биринә гаршы гојан, онлары синифләрә бөлән јеканә мадди әсас истеһсал васитәләри үзәриндәки хүсуси мүлкијјәтдир. К. Маркс хүсуси мүлкијјәтин ләғв едилмәсинин лабүдлүјүнү вә онун ичтимаи мүлкијјәтлә әвәз едилмәсинин ганунаујғунлугларыны елми әсасларла сүбут етмишдир.

К. Маркс бәшәр тарихиндә илк дәфә сүбут етмишдир ки, мадди не'мәтләрин әсл јарадычылары олан зәһмәткеш күтләләр јаратдыглары сәрвәтләрә саһиб олмајынча, синифләр арасындакы антогонист мүбаризәләр давам едәчәкдир. Мәһз буна көрә дә К. Маркс бүтүн өлкәләрин һаким синифләрә гаршы мүбаризәдә бирләшмәси шүарыны ирәли сүрмүшдүр.

Марксын елми нәзәријјәси елә бир мәш'әлдир ки, о, синифли чәмијјәтләрдән синифсиз чәмијјәтә кечән јолу ишыгландырыр. К. Маркс јалныз алим вә мүтәфәккир олараг галмыр. О, һәмчинин чәмијјәти көкүндән јени гајдада дәјишдирмәк уғрунда кәркин, мәтн, мүбаризә апаран бир ингилабчы иди. К. Маркс дүнја зәһмәткешләринин азадлыг вә сәадәт јолуну онларын бирлијиндә, мүтәшәккиллијиндә вә апардыглары мүбаризәдә көрүрдү.

К. Маркс өзүнүн бүтөв дүнјакөрүшү илә бәшәр зәкасынын елә бир јүксәк зирвәсинә галха билмишдир ки, ондан сонра кәлән бүтүн мүтәрәгги бәшәријјәт өз әмәли фәалијјәтиндә ондан истифадә едир.

Марксын нәзәријјәси ичтимаи фикрин игтисади, фәлсәфи, саһәләрини әһатә едир Марксын игтисади нәзәријјәси, инсанлар арасындакы мүнасибәтләр формасыны ачды. Онун фәлсәфәси дүнјаны диалектик материалистчәсинә шәрһ етмәјә әсасланыр. Бу фәлсәфә һәјат һадисәләрини дәрк етмәјин јеканә васитәсидир.

Марксын елми нәзәријјәси ади бир нәзәријјә олараг галмыр. О, дүнјанын тәрәггипәрвәр адамларынын әмәли ишинә чеврилмишдир. Дүнјанын бир милјарда гәдәр әһалиси марксизм бајрағы алтында, өз өлкәсиндә сосиализм вә коммунизм уғрунда мүбаризә апарыр.

Сосиализм гуручулуғу уғрунда, сүлһ вә милли истиглалијјәт уғрунда мүбаризәдә дүнја зәһмәткешләринин кетдикчә даһа чох һиссәси бирләшир. К. Марксын елми нәзәријјәси бүтүн өлкәләрин зәһмәткешләринин гәлбинә гырмызы хәтлә јол ачан, јашамаға гадир олан, даим галиб кәлән бир нәзәријјәдир. Бу нәзәријјәни әлдә рәһбәр тутан коммунист вә фәһлә партијалары мүасир дөврдә азадлыг, сәадәт, сүлһ вә коммунизмин тәнтәнәси идејаларыны халг күтләләри арасында јајырлар.

**Чәмил ӘКБӘРОВ,**
**сијаси игтисад кафедрасынын баш мүәллими.**

## 259. (6) QADINLAR KİŞİLƏRİNİZİ, ÖVLADLAR ATALARINIZI QORUYUN!

***(Əlyazma)***

Yazdığım bu məqalə məni çox düşündürür. Oxuculara gülünç, bəzi qadınların və övladların isə açığına gəlsə də bu məsələdən söhbət açmaq istəyirəm.

Məlum olduğu üzrə quş iki qanadla uçduğu kimi ailə və cəmiyyət də iki qanada malikdir. Onun bir qanadı kişilər, ikinci qanadı isə qadınlardır. Hər kəs bilir ki, quş havada iki qanadla uçur, bu qanadlardan ikisi də eyni vəzifə görür, havanı yarmaqda ikisi də eyni dərəcədə quşun uça bilməsinə köməklik edir. Onun hər ikisinə ağırlıq və güc bərabər düşür. Yaxud insan iki ayağı üstündə dayana bilir, yeriyib gəzir. İnsan hayatında bu ayaqların ikisi də eyni dərəcədə bədənin müvazinətini saxlayır, vicudun sabitliyini qoruyur. Ağırlıq hər iki ayaq üstünə eyni dərəcədə düşür. Habelə insanın iki gözü vardır, ikisi də eyni dərəcədə görmək üçün insana lazımdır. Gözləri normal görən heç kəs deyə bilməz ki, mənim gözümün biri çox görür o biri isə az. Biri mənim üçün daha çox lazımdır, o biri isə gərəksidir.

Ailə və cəmiyyət də belədir. İnsanlar yaşamaq üçün ailə qurur. Ailədə yeni insan nəsli yaranır. İnsanlar yaşamaq, səadət və xoşbəxtliyə nail olmaq üçün qarşılıqlı yardım şəklində istehsal münasibətlərinə girir. Həyat üçün lazım olan maddi və mənəvi nemətlər istehsal edirlər. Ailədə ata-analar həm özləri yaşayır, həmçinin gənc nəslin yaşayışı üçün çalışırlar. Bəzən elə insanlara rast gəlirsən ki, ailənin qayğısını çəkməkdə, yaşayış üçün lazım olan maddi və mənəvi nemətləri qazanmaqda ailə üzvləri xüsusilə də ata-analar, iş qabiliyyətinə çatmış gənclər, öz üzərlərinə düşən vəzifələri lazımınca görməyərək, ağırlığı əsasən ataların üzərinə salırlar.

Bəzi övladlar vardır ki, gənclik dövrünün vəzifəsini başa düşmür, həyatın qarşıya qoyduğu adi tələblərə cavab vermir. Təhsil almaq üçün məktəbə vaxtlı-vaxtında getmir. Məktəbdə müəllimlərin verdiyi tapşırıqları lazımi dərəcədə yerinə yetirmir. Övladların intizamsız olduğunu, zəif oxuduğunu gördükdə isə pərt olur və bu vəziyyət atalara

çox ağır təsir. Buna görə də uşağını oxutmaq üçün daha çox zəhmət çəkməli olur. Beləliklə atalar öz atalıq vəzifəsindən başqa, uşaqlıq vəzifəsini də görməli ölür.

Bəzi analar ərlərindən ailəni dolandırmaqdan başqa evdə məişət işlərində də kişidən istifadə edirlər. Axı bu kimi hərəkələr hər şeyə qayğı çəkən ata üçün ağırdır. Atalardan ərlərdən necə gəldi elə də istifadə etmək olmaz. Ata övlad üçün, ər də arvad üçün əvəzedilməz şəxsiyyətdir. Təbiətin bəxş etdiyi bu gözəl şəxsiyyətin qədrini bilmək hər ananın və övladın mənəvi borcudur. Ata qayğısını əvəz edə biləcək ikinci şəxs yoxdur və ola da bilməz! Odur ki, hər bir qadın, hər bir övlad çalışmalıdır ki, öz zəhmətləri ilə, xarakterləri, xasiyyətləri, xoş olmayan yersiz söz-söhbətləriilə öz ailə başçılarını bezikdirməsinlər. Vaxtından əvvəl onun qocalmasına, xəstələnməsinə, fiziki olaraq sıradan çıxmasına yol verməsinlər.

Ailə üzvlərinin çoxsahəli tələbinin ödənilməsində kəm-kəsirlər olanda ailənin üzvlərinə "hücuma" keçirlər: *"Sən necə kişisən? Sən necə atasan? Bizim filan-filan şeylərə ehtiyacımız var. Başqa atalar qadınını, oğlunu, qızını yaxşı yedirib-içirib geydirdiyi, ona avtomobil aldığı halda biz korluq çəkirik."* və s. Bu kimi sözlər ataların, ərlərin ürəyini od-alov kimi yandırır. Atalar, ərlər də ailənin bu kimi tənəli sözlərini eşitməsin deyə özlərini necə deyərlər "oda-közə" vurur. Həddindən artıq işləməyə çalışmağa başlayır. Ailəni yaxşı dolandıra bilmək üçün gücü çatmadıqda isə bəzən çarəsiz qalaraq hər cür cinayətlərə belə əl atmalı olur. Abır həyasını itirərək ailəni yaxşı dolandırmağa çalışır. Nəticə etibarilə atalar, ərlər həyatın ağır mübarizələrində həddən artıq əsəbləşir, gərgin işləyir və vaxtından əvvəl öz gücünü-qüvvəsini itirir. Bunula da müxtəlif xəstəliklərə: "qan təzyiqi", "infarkt", "vərəm" və s. məruz qalır.

Bir çox tanıdığımız adamlara, ailələrə nəzər salarkən bu hadisənin aşkar nəticələrinin, fəsadlarının şahidi oluruq. Adətən çox ailələrdə kişilər qadınlarla müqayisədə erkən haqqın rəhmətinə qovuşurlar. Deyə bilərlər ki, kişilər evlənərkən adətən bir neçə yaş böyük olur. Bu doğrudur. Axı SSRİ məkanında qadınlar kişilərə nisbətən orta hesabla 5-6 yaş çox yaşayırlar. Bunun başlıca səbəbi kişilərin qadınlara nisbətən əmək fəaliyyətində daha gərgin çalışmasıdır. Nəticə etibari ilə kişilər

sosyal-ictimai həyatda çox çalışır, ailəsinin keçimini saxlamaq üçün hər yönə, ora-bura əl atır. Əsəbləşir, ürək ağrıları, vicdan əzabları ailənin başçısını; qadınların həyatının yoldaşını, körpənin əziz atalarını qəfil ölüm onların əlindən vaxtsız alır.

Mən bu məqaləmlə ailələrə, xüsusilə zərif cinsin nümayəndələri olan xanımlarımıza, analarımıza, bacılarımıza və iş qabiliyyətinə çatmış övladlarımıza müraciət etmək istəyirəm ki, təbiətin bəxş etdiyi əvəzsiz bu şəxsi: qadın üçün əri, övlad üçün atanı qoruyun, onun qədrini bilin. Atanızı həddən ziyadə ağırlıqlara salmayın. Onun qarşısında gücü yetmədiyi ağır tələblər qoymayın. Sağ olduğu dönəmdə hörmətini saxlayıb ehtiramınızı göstərin. Yüksək tələblərinizin ödənilməsində ifrata varmayın. Atanızın qədrini, dəyərini bilin. Məsum atanızın çarəsiz qalıb cinayətlər törətməyə vadar etməyin. Onun qəlbini sıxmayın, ruhunu söndürməyin, yersiz tələblərinizlə qanını qarlatmayın.

Ailə başçısı olan kişilərin nəzərinə çatdırmaq istəyirəm ki, həddindən artıq özlərini çox gərginliyə salıb vaxtından öncə ailəsini başsız qoymasınlar. Axı ailə öz başçısını itirəndən sonra ailə üzvləri daha çox iztirablar keçirir. Sonrakı peşimançılıqlar isə təəssüflər olsun ki, daha heç bir fayda vermir. Atasız qalan ailələrin taleləri isə daha acınacaqlı olur. Atasını, ərini itirən ailə üzvləri bundan sonra nəinki maddi nemətlərlə, habelə mənəvi nemətlərlə təmin olunmaqda daima hər cür ehtiyaclara məruz qalırlar. Odur ki, sizlərə son kəz müraciət edirəm! “Qadınlar kişilərinizi, övladlar atalarınızı qoruyun!”.

***Cəmil Əkbərov***

Ağamalıoğlu adına Azərbaycan
Kənd Təsərrüfatı İnstitutunun müəllimi

# VII BÖLÜM: CƏMİL ƏKBƏRİN DÖVLƏT NİŞANLARI, FƏXRİ FƏRMANLARI VƏ RƏSMİ SƏNƏDLƏRİ



ДОБЛЕСТНЫЙ ТРУД. В ОЗНАМЕНОВАНИЕ 100-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА»

1870–1970

УДОСТОВЕРЕНИЕ

Алекперов

Дамиль

Имамверди оглы

ОТ ИМЕНИ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

НАГРАЖДЕН ЮБИЛЕЙНОЙ МЕДАЛЬЮ

«ЗА ДОБЛЕСТНЫЙ ТРУД. В ОЗНАМЕНОВАНИЕ 100-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА»

Секретарь исполкома

Кировабадского

городского

Совета депутатов трудящихся

М.П.

20. июня 1970 г.






Общество „Знание"
Азербайджанской ССР

АКПЕРОВУ
Джалилу Имамверди оглы

За активное участие в пропаганде знаний среди трудящихся.

Председатель Правления общества ХАЛИЛОВ Г.В.

ЗНАНИЯ В МАССЫ

Баку „18" мая 1978г.


ОБЩЕСТВО «ЗНАНИЕ»

АЗЕРБАЙДЖАНСКОЙ ССР

БЛАГОДАРСТВЕННАЯ ГРАМОТА

АКБЕРОВУ

Джамилю Имамверди оглы

За активную пропаганду научных знаний среди трудящихся города Кировабада

ПЕРВЫЙ ЗАМЕСТИТЕЛЬ ПРЕДСЕДАТЕЛЯ ПРАВЛЕНИЯ ОБЩЕСТВА «ЗНАНИЕ» АЗЕРБАЙДЖАНСКОЙ ССР

ХАЛИЛОВ Г.З.

г. Баку 17- II 1985 № 29


ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!

ПОЧЕТНАЯ ГРАМОТА

СИЈАСИ ИГТИСАД КАФЕДРАСЫНЫН ДОСЕНТИ

ӘКБӘРОВ ЧӘМИЛ ИМАМВЕРДИ оглу

- СИЈАСИ ТӘҺСИЛ СИСТЕМИНДӘ ФӘАЛ ИШТИРАКЫНА КӨРӘ ТӘЛТИФ ЕДИЛИР

АКТИ-нин РЕКТОРУ, профессор — З.Н.ЕМИНБӘЈЛИ

ПАРТИЈА КОМИТӘСИНИН КАТИБИ, досент — Н.М.[illegible]

ҺӘМКАРЛАР ИТТИФАГЫ КОМИТӘСИНИН СӘДРИ — Т.Б.БАЈРАМОВ

31 мај 1990-чы ил

СССР


ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!
ПОЧЕТНАЯ ГРАМОТА


Министерство
сельского хозяйства
СССР
НАГРАЖДАЕТ
ПОЧЕТНОЙ ГРАМОТОЙ


ГРАМОТА


ГРАМОТА
Азәрб.ЛКЖИ Мирбәшир рајон
комитәсинин катиби: Ә.Әлијев.
25.X.79
ВЛКСМ



Бүтүн өлкәләрин пролетарлары, бирләшин!
Пролетарии всех стран, соединяйтесь!

ФӘХРИ ФӘРМАН
ПОЧЕТНАЯ ГРАМОТА

Тов. Акперов Джамиль Исфендияр оглы – доцент кафедры политэкономии АзСХИ, руководитель постоянно действующего семинара, награждается за активное участие в пропагандистской работе в 1977/78 учебном году.

Кировабадского ГК

21 сентября 1978г.



БЛАГОДАРСТВЕННАЯ
ГРАМОТА
ОБЩЕСТВА
«ЗНАНИЕ»
АЗЕРБАЙДЖАНСКОЙ ССР

АКБЕРОВУ

Джамалу Иманверди оглы

За активное участие в пропаганде знаний среди трудящихся республики

Первый заместитель Председателя
Правления общества «Знание»
Азербайджанской ССР ХАЛИЛОВ Г.Н.

Баку 20 марта [illegible]3 года. № 323

ЗНАНИЯ – НАРОДУ


Пролетарии всех стран, соединяйтесь!
ПОЧЕТНАЯ ГРАМОТА
НАГРАЖДАЕТСЯ
За плодотворную работу по пропаганде марксизма-ленинизма и политики КПСС
СЕКРЕТАРЬ
РК КП АЗЕРБАЙДЖАНА
Ф. ГАСАНОВ.
«26» сентября 1987 года.



ПОЧЕТНАЯ ГРАМОТА

Тов. Акперов Дж.

Награждается за активное участие в повышении идейно-теоретического уровня слушателей, подготовки пропагандистских кадров в университете марксизма-ленинизма в 1978/1979 учебном году.

Директор [illegible]ского [illegible] университета марксизма-[illegible] ЦК КП [illegible]

[illegible].С.Степин


*Пролетарии всех стран, соединяйтесь!*

ПОЧЕТНАЯ
ГРАМОТА

Награждается Акперов Джамиль Магеррам оглы – пропагандист семинара "Актуальные проблемы нравственного воспитания и формирования активной жизненной позиции" Азербайджанского Ордена "Знак Почета" сельскохозяйственного института им. С.Агамалиоглы за активное участие в пропагандистской работе в 1979/80 учебном году.

Секретарь Кировабадского
ГК КП Азербайджана Н.Сулейманов



ПОД ЗНАМЕНЕМ МАРКСИЗМА-ЛЕНИНИЗМА, ПОД РУКОВОДСТВОМ КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ-ВПЕРЕД, К ПОБЕДЕ КОММУНИЗМА!

ПОЧЕТНАЯ ГРАМОТА

Постановлением Президиума Азербайджанского Республиканского Совета профессиональных союзов от 10 июня 1966 года за активную работу по воспитании, подготовке специалистов сельского хозяйства, и участие в профсоюзной работе, оказание практической помощи колхозам и совхозам по организации агрозоотехнических курсов на общественных началах, награждается Почетной грамотой АСПС старший преподаватель кафедры политэкономии, председатель товарищеского суда Аз.СХИ АКБЕРОВ Джамиль Имамверди оглы.

Председатель Азербайджанского Совпрофа /Дадашев К.К./

" " июня 1966г.

г.Баку.



Пролетарии всех стран, соединяйтесь!

ВСЕСОЮЗНЫЙ ЛЕНИНСКИЙ КОММУНИСТИЧЕСКИЙ СОЮЗ МОЛОДЕЖИ

КОМСОМОЛЬСКИЙ БИЛЕТ

№26532134

Фамилия Акперов

Имя и отчество Джамиль Имамверди

Год рождения 1928

Время вступления в ВЛКСМ V-1945 года

Наименование организации, выдавшей билет Кедабекский РК ЛКСМ Аз

Место для фотокарточки

личная подпись

Секретарь Райкома

Бүтүн өлкәләрин пролетарлары, бирләшин!

ҮМУМИТТИФАГ ЛЕНИН КОММУНИСТ КӘНҸЛӘР ИТТИФАГЫ

КОМСОМОЛ БИЛЕТИ

№26532134

Фамилиясы Әкпәров

Ады вә атасынын ады

Доғулдуғу ил 1928

ҮЛКГИ-йә дахил олдуғу вахт V-1945

Билети вермиш тәшкилатын ады Аз ЛКГ

Кәдәбәј рајон комитәси

Шәхси имзасы

М. Е. Рајкомун катиби

„27" ијун 194



УДОСТОВЕРЕНИЕ № 2196.

Выдано тов. Акперову Д.И.
в том, что он с 1 сентября 1976 г.
по 1 февраля 1977 г. находил ся в институте повышения квалификации преподавателей общественных наук при Ташкентском Государственном университете имени В. И. Ленина в качестве слушателя и выполнил (а) установленный для не го план учебной и научной работы.

Директор института

25 января 1977 г.

ТПК—Ш-2094—2000—76



УДОСТОВЕРЕНИЕ

Выдано т. Акперову
(фамилия,
Джамилю Иматверди оглы
имя, отчество)

в том, что он(а) с 1 февр. 1987 г.
по 30 июня 1987 г. прошел(а) переподготовку в Институте повышения квалификации преподавателей общественных наук при Белорусском государственном университете имени В. И. Ленина и выполнил(а) установленный учебный план работы.

Директор Института — проректор
Белгосуниверситета им. В. И. Ленина

26 июня 1987 г.
Регистрационный № 4882

Зак. 8301 Тир. 5000 30-8-84 г.

# VIII BÖLÜM: CƏMİL ƏKBƏRƏ AİD XATİRƏ ŞƏKİLLƏRİ




Şəkil № 1. Cəmil Əkbər,atası İmamverdi




Şəkil № 2. (*sağdan sola 1,2, 3)* Cəmil Əkbər, atası İmamverdi, anası Həcər.



Şəkil № 3.*(ilk sırada sağdan 2)* Cəmil Əkbər



Şəkil № 4. İmamverdı, nəvəsi Müzadil Cəmiloğlu



Şəkil № 5. *(soldan sağa 1, 2, 3, )* Cəmil Əkbər oğlu İlqar, qohumu Rəhim Həsənov





Şəkil № 6. (a, b) *(sağdan 1,2.)* Cəmil Əkbər, qızı Aludə Əkbərova



Şəkil № 7. Aşıq Şəmşir Cəmil Əkbər və Aludə Cəmilqızı



Şəkil № 8.Miskinli Aşıq Vəli Bayramov, Aşıq Şəmşir və Cəmil Əkbər
*(Arxa sırada sodan sağa)* Qafar Həsənov, Midhət Qurbanəliyev, Nağı Əliyev



Şəkil № 9. *(Soldan sağa)* Şair Cəmil Əkbər, Abdulla Şərifov, Aşıq Şəmşir, Prokuror Pənah Xəlilov *(Cəmil Əkbərin atası İmamverdinin dayısı oğlu)*, Hüseyn Dəmirov *(Cəmil Əkbərin xalası oğlu.)* İstisu -1963.



Şəkil № 10.*(Soldan sağa otuanlar)* Əməkdar İncəsənət Xadimi Aşıq Şəmşir Qocayev, Cəmil Əkbər. *(ayaq üstə)* İlqar Cəmiloğlu İmamverdiyev. Foto 1970-ci ildə Zakir İmamverdiyev tərəfindən Cəmil Əkbərin evində çəkilmişdir.



Şəkil № 11.*(soldan sağa)* Şair Cəmil Əkbər, Aşıq Şəmşir Qocayev,
Cəmil Əkbərin yeganə qızı Aludə Əkbərova. Foto, Dədə Şəmşirin 1973-ci ildə
Cəmil Əkbəri ziyarət etdiyi zaman Zakir Cəmiloğlu tərəfindən çəkilmişdir.



Şəkil № 12. *(soldan sağa)* Şair Cəmil Əkbər və Əməkdar İncəsənət Xadimi Şəmşir
Qurbanoğlu Qocayev. Foto 1965-ci ildə Cəmil Əkbərin evində müsafir olduğu vaxt,
böyük oğlu Zakir İmamverdiyev tərəfindən çəkilmişdir.



Şəkil № 13. Dədə Şəmşir Cəmil Əkbərin evində bir neçə aşıq havasını çalıb maqnitofon lentinə səsini yazdırıb dinlədiyi məqam. *(Soldan sağa)* Dədə Şəmşir, Cəmil Əkbər və qızı Aludə Əkbərova-Həsənova



Şəkil № 14.*(sağdan sola)* Şair Cəmil Əkbər, Dədə Şəmşir və Azərbaycanın müxtəlif bölgələrindən İstisuya istirahətə gəlmiş şəxslər. 1963-cü il



Şəkil № 15. (a, b) Şair Cəmil Əkbər – 95



Şəkil № 16. (a, b, c) Cəmil Əkbər



Şəkil № 17. (a, b, c) Cəmil Əkbər





Şəkil № 18. (a, b, c) Cəmil Əkbər



Şəkil № 19. *(soldan 1, 2)* Cəmil Əkbər, Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki (1958). SSRİ dövlət mükafatı laureatı, Mirzə Hüseyn oğlu Sadıqov (1896-1970)



Şəkil № 20. Hacı Həsənov və Cəmil Əkbər



Şəkil № 21. *(soldan 1, 2)* Cəmil Əkbər, Ağdamlı tələbəsi və dostu Əvəz



Şəkil № 22. *(ön cərgədə sağdan ikinci və üçüncü)*SSRİ Xalq Artistləri:
Leyla Bədirbəyli, İsmayıl Dağıstanlı
*(arxa cərgədə sağdan beşinci)* Cəmil Əkbər



Şəkil № 23. *(soldan 3,4,8)*Cəmil Əkbər, Söhrab Tahir, Cabir Novruz



Şəkil № 24. Cəmil Əkbər iclasda*(3-cü sırada sağdan 1)*



Şəkil № 25. Cəmil Əkbər iclasda *(sağdan 1)*



Şəkil № 26. Cəmil Əkbər iclasda *(2-ci sırada sağdan 1)*



Şəkil № 27.Cəmil Əkbər iclasda *(sağdan 1)*



Şəkil № 28.Cəmil Əkbər iclasda *(2-ci sırada soldan 2)*





Şəkil № 29.(a, b) Cəmil Əkbər kitabxanada və evdə mütaliə edərkən



Şəkil № 30. Cəmil Əkbər kitabxanada mütaliə edərkən



Şəkil № 31. *(soldan 2, 5)* Cəmil Əkbər, rektor Bəhman Xəlilov




Şəkil № 32. Cəmil Əkbər *(sağdan 1)*



Şəkil № 33. Cəmil Əkbər *(soldan 3)*



Şəkil № 34. Cəmil Əkbər *(sağdan 1)*



Şəkil № 35. Cəmil Əkbər *(soldan 3)*



Şəkil № 36. *(sağdan 1)* Cəmil Əkbər



Şəkil № 37. *(sağdan 1)*Cəmil Əkbər



Şəkil № 38. *(sağdan 3)* Cəmil Əkbər




Şəkil № 39. *(sağdan 2)* Cəmil Əkbər



Şəkil № 40. *(sağdan 5)* Cəmil Əkbər



Şəkil № 41. (a, b) Cəmil Əkbər *(sağdan 1, 4)*





Şəkil № 42. *(sağdan 1, 1 a, 3 )* Mirzə müəllim, Cəmil Əkbər





Şəkil № 43.(a, b)  Cəmil Əkbər dərs anladarkən



Şəkil № 44. *(sağdan 1)* Cəmil Əkbər dərs anladarkən



Şəkil № 45. Cəmil Əkbər məruzə edərkən *(sağdan 3)*



Şəkil № 46. Cəmil Əkbər məruzə edərkən *(sağdan 3)*



Şəkil № 47. Cəmil Əkbər məclisi idarə edərkən *(sağdan 3)*



Şəkil № 48. Cəmil Əkbər *(soldan 3)*



Şəkil № 49. *(sağdan 5)* Cəmil Əkbər münsiflər heyyətinin sədri



Şəkil № 50. *(sağdan 3)* Cəmil Əkbər münsiflər heyyətinin sədri



Şəkil № 51. Cəmil Əkbər məruzə edərkən *(sağdan 1)*



Şəkil № 52. Cəmil Əkbər *(soldan 1)*



Şəkil № 53. Cəmil Əkbər *(soldan 1)*



Şəkil № 54. *(arxa sırada soldan 8)* Cəmil Əkbər *Göygöl 16.05 – 1965*



Şəkil № 55.(a, b) *( soldan 3, 4 və 1,2.)* Mahmud müəllim, Cəmil Əkbər *Göygöl*



Şəkil № 56. *(ilk sırada sağdan 5)* Cəmil Əkbər *Butulkalı ev Gəncə*



Şəkil № 57. *( soldan 1,2)* Cəmil Əkbər, Mahmud müəllim.*Şah Abbas məscidinin qarşısı Gəncə*



Şəkil № 58. Cəmil Əkbər *Kiyev 1981*



Şəkil № 59. Cəmil Əkbər*Kiyev 1981*



Şəkil № 60. Cəmil Əkbər *Kiyev 1981*



Şəkil № 61. *(3-cü cərgə sıra 3)*Cəmil Əkbər *Taras Şevçenkonun heykəli Kiyev 1981*




Şəkil № 62. *(soldan 3)* Cəmil Əkbər *Jeleznovodsk 13.05 – 1956*




Şəkil № 63. *(arxa sırada soldan 1)* Cəmil Əkbər *Pyatiqorsk 19.05 – 1956*



Şəkil № 64. *(sağdan 2)* Cəmil Əkbər *Lermontovun heykəli Pyatiqorsk 17.05 – 1956*



Şəkil № 65. *(soldan 1)* Cəmil Əkbər *19.05 - 1956*



Şəkil № 66. *(ayaq üstə sağdan 1)* Cəmil Əkbər *Pyatiqorsk 19.05 – 1956*




Şəkil № 67. *(soldan 3)* Cəmil Əkbər *Jeleznovodsk 13.05 – 1956*





Şəkil № 68. (a, b) *( soldan 1)* Cəmil Əkbər *Krasnavodsk 19.05 – 1956*





Şəkil № 69.(a, b) *(sağdan 2)* Cəmil Əkbər *Krasnavodsk 19 - 23.05 – 1956*



Şəkil № 70 *(soldan 1,3)* Cəmil Əkbər, Yusifov İsmayıl *Yesentuki 1972*



Şəkil № 71. Cəmil Əkbər toy şənliyində



Şəkil № 72. *(soldan 1)* Cəmil Əkbər dostları ilə



Şəkil № 73. Cəmil Əkbər bir məclisdə *(sağdan 2. )*



Şəkil № 74. *(soldan 1)* Cəmil Əkbər müəllim dostları ilə



Şəkil № 75. *(sağdan 1 )* Cəmil Əkbər və Midhət Qurbanəliyev



Şəkil № 76. *(soldan 1)* Cəmil Əkbər məclisdə



Şəkil № 77. *(sağdan 1)* Cəmil Əkbər



Şəkil № 78. *(sağdan 1)* Cəmil Əkbər toy məclisində xeyir-dua verərkən




Şəkil № 79.(a, b)  Cəmil Əkbər müxtəlif tədbirlərdə çıxış edərkən




Şəkil № 80. (a, b) Cəmil Əkbər müxtəlif tədbirlərdə çıxış edərkən



Şəkil № 81. *(sağdan 1)* Cəmil Əkbər bir tədbirdə çıxış edərkən



Şəkil № 82. *(soldan 1,2,3)* Cəmil Əkbər,böyük oğlu Zakir İmamverdiyev, kürəkəni Azər Həsənov



Şəkil № 83. *(sağdan 1,2, 3)* Cəmil Əkbər, ortancıl oğlu həkim Müzadil İmamverdiyev. kürəkəni Azər Həsənov *(ayaq üstə)*



Şəkil № 84.*(sağdan 1,2)* Cəmil Əkbər, həkim oğlu Müzadil İmamverdiyev



Şəkil № 85. *(sağdan 1,2,3 )* Cəmil Əkbər, qohumları Şəmistan Qurbanov, Valeh Abbasov



Şəkil № 86. *(soldan 1)* Cəmil Əkbərbir məclisdə



Şəkil № 87. *(soldan 1)* Cəmil Əkbər toy məclisində



Şəkil № 88. *(soldan 1, 2)*Professor Ələddin məllim, Cəmil Əkbər toy şənliyində



Şəkil № 89. *(soldan 1, 3)*Hüseyn Dəmirov və Cəmil Əkbər toy şənliyində



Şəkil № 90. *(sağdan 1, 3)* Cəmil Əkbər və Cəmşid Poladoğlu



Şəkil № 91. *(soldan 1)* Cəmil Əkbər müəllim yoldaşlarına şeir söylərkən



Şəkil № 92. *(soldan 1, 3, 4)* Cəmil Əkbər, Gədəbəyli İsmayıl kişi, Gəncəli Qəmbər kişi



Şəkil № 93. *(soldan 2)* Cəmil Əkbər  bir məclisdə



Şəkil № 94. *(soldan 1 )* Cəmil Əkbər istirahət parkında



Şəkil № 95.*(sağdan 1)* Cəmil Əkbər ata ocağında *Səbətkeçməz / Gədəbəy*





Şəkil № 96. (a, b) Cəmil Əkbər



Şəkil № 97. *(soldan sağa)* Cəmil Əkbərin oğul övladları Müzadil, Zakir, İlqar



Şəkil № 98. *(sağdan 1,2,3,4)* Cəmil Əkbər oğul nəvəsi Fariz, qız nəvəsi Vəfa, kiçik oğlu İlqar İmamverdiyev, böyük oğlu Zakir Cəmiloğlu *(arxa sırada)*




Şəkil № 99. *(sağdan 1,2,3,4)*İlqar İmamverdiyev, Cəmil Əkbər qucağında qız nəvəsi Şəhla, gəlini Şəkər Qələndərqızı



Şəkil № 100. (a, b) *(soldan 1,2)* Cəmil Əkbər böyük qardaşı İbrahim İmamverdioğlu Əkbərov




Şəkil № 101. (a, b) *(soldan 1,2.)* Cəmil Əkbər və kiçik oğlu İlqar İmamverdiyev



Şəkil № 102. *(soldan 1,2.)* Cəmil Əkbər və kiçik oğlu İlqar İmamverdiyev



Şəkil № 103. *(soldan 1, 2, 3)*Cəmil Əkbər,qızı Aludə Əkbərova, ömür-gün yoldaşı Firuzə xanım



Şəkil № 104. Cəmil Əkbər ömür-gün yoldaşı Firuzə xanıma gül təqdim edərkən



Şəkil № 105. Cəmil Əkbər ömür-gün yoldaşı Firuzə Paşaqızı



Şəkil № 106. Cəmil Əkbər, ömür-gün yoldaşı Firuzə xanım



Şəkil № 107. Cəmil Əkbər, ömür-gün yoldaşı Firuzə xanım



Şəkil № 108.*(soldan 1,2,3,4, ?)* Fizuli Qurbanov, Cəmil Əkbər, Firuzə xanım, İlqar Cəmiloğlu




Şəkil № 109. (a, b) *(sağdan 1,2.)*Qəzənfər Bağırov, Cəmil Əkbər və ortancıl oğlu həkim Müzadil İmamverdiyev *Maralgöl*



Şəkil № 110. *(soldan 1,2.3)* Aludə Cəmilqızı, Cəmil Əkbər, İlqar Cəmiloğlu *Maralgöl*



Şəkil № 111. *(soldan 1,2.3)* Mahmud, Cəmil Əkbər, Mirzə müəllim.



Şəkil № 112. *(soldan1,2.3,5)* Əhməd, Cəmil Əkbər, Midhət, Mahmud.



Şəkil № 113. *(sağdan 2,3)* Mahmud müəllim,Cəmil Əkbər



Şəkil № 114. *(sağdan 1 )* Cəmil Əkbər



Şəkil № 115. (*sağdan 1.)* Cəmil Əkbər



Şəkil № 116. (*sağdan 2.)* Cəmil Əkbər



Şəkil № 117. (*soldan 2.)* Cəmil Əkbər



Şəkil № 118. (*soldan 1, 2)* Mikayıl Nəbiyev, Cəmil Əkbər




Şəkil № 119. (a, b) (*sağdan 1, 2, 3)* Cəmil Əkbər, Professor Rasim müəllim




Şəkil № 120. (a, b) (*soldan 2, 3, 4)* Cəmil Əkbər, Midhət Qurbanəliyev *Gəncə Xan bağı*



Şəkil № 121. (*soldan 1,2.)* Midhət Qurbanəliyev, Cəmil Əkbər
*Gəncə Xan bağı*



Şəkil № 122. (*soldan 1,2.)* Cəmil Əkbər və Midhət Qurbanəliyev



Şəkil № 123. (*soldan 1.)* Cəmil Əkbər *Gəncə Xan bağı*



Şəkil № 124. *(sağdan 1.)* Cəmil Əkbər *bayram nümayişi Gəncə*



Şəkil № 125. *(sağdan 1.)* Cəmil Əkbər *bayram nümayişi Gəncə*



Şəkil № 126. *(soldan 3.)* Cəmil Əkbər *bayram nümayişi Gəncə*





Şəkil № 127. (a, b) *(sağdan 1.2)* Cəmil Əkbər, Mahmud *bayram nümayişi Gəncə*



Şəkil № 128. (*soldan 7.)* Cəmil Əkbər *bayram nümayişi Gəncə*



Şəkil № 129. (*soldan 1.)* Cəmil Əkbər *bayram nümayişi Gəncə*



Şəkil № 130.(a, b) (*soldan 2,3,4)* Cəmil Əkbər, Mahmud, Əhməd *bayram nümayişi Gəncə*



Şəkil № 131. (*soldan 1, 2,3,4)* Cəmil Əkbər*(qızı Aludə),* Saleh müəllim, Midhət Qurbanəliyev, Şəmistan Qurbanov *bayram nümayişi Gəncə*



Şəkil № 132. (*soldan 6)* Cəmil Əkbər



Şəkil № 133. (*soldan 3)* Cəmil Əkbər *İsa bulağı 30.07- 1961*



Şəkil № 134. *(arxa cərgədə sağdan 4)* Cəmil Əkbər *30. 07- 1961 Cıdırdüzü*



Şəkil № 135. *(sağdan 1, 3.)* Cəmil Əkbər və Qafar Həsənov



Şəkil № 136. *(soldan 1, 2, 4)* Zakir Cəmiloğlu, Cəmil Əkbər və Cəbrayıl müəllim
*Daşkənd 1968*



Şəkil № 137. (a, b) *(soldan 1,2, 5)* Mahmud müəllim, Cəmil Əkbər



Şəkil № 138. (a, b) *(soldan 2,3 )* Cəmil Əkbər



Şəkil № 139. *(soldan 3, 4)* Cəmil Əkbər, Midhət Qurbanəliyev *Xan bağı Gəncə*



Şəkil № 140. *(sağdan 3.)* Cəmil Əkbər




Şəkil № 141. *(sağdan 3.)* Cəmil Əkbər




Şəkil № 142. *(ilk cərgədə soldan 3.)* Cəmil Əkbər



Şəkil № 143. *(ilk cərgədə soldan 7)* Cəmil Əkbər



Şəkil № 144. (a, b) *(sağdan 1, 3, 2 və arxa cərgə sağdan 2)* Cəmil Əkbər, Qafar Həsənov



Şəkil № 145. *(sağdan 1. 2.)* Cəmil Əkbər, Qafar Həsənov



Şəkil № 146 *(soldan 1. 2.)* Cəmil Əkbər, Qafar Həsənov



Şəkil № 147. *(soldan 1.2, 3.)* Cəmil Əkbər, Mirzə, Midhət Qurbanəliyev



Şəkil № 148.(a, b) *(soldan 1.4, 2.3)* Cəmil Əkbər, Əhməd, Mirzə *Hacıkənd 1954*



Şəkil № 149. *(soldan 1, 2, 3,4. ?)* Yaqub həkim, Cəmil Əkbər, Qulu, Hüseyn Dəmirov
*Ceyrançölü*



Şəkil № 150. *(sağdan 1.)* Cəmil Əkbər pambıq tarlasında



Şəkil № 151. *(sağdan 1)* Cəmil Əkbər *Göygöl 1954*



Şəkil № 152. *(sağdan 1,2,3)* Cəmil Əkbər, oğlu Müzadil və Zakir 1954




Şəkil № 153. *(İkinci sırada soldan 1)* Cəmil Əkbər *Göygöl 1954*




Şəkil № 154. Cəmil Əkbər *Göygöl 1954*




Şəkil № 155. *(soldan 2-ci ayaqüstə)* Cəmil Əkbər *Göygöl 1954*



Şəkil № 156. *(sağdan 4)* Cəmil Əkbər *Hacıkənd 1954*



Şəkil № 157. *(ayaqüstə)* Cəmil Əkbər *Göygöl 1954*





Şəkil № 158 *(soldan 1)* Cəmil Əkbər



Şəkil № 159. *(soldan 1, 2,arxada 3, 4)* Cəmil Əkbər nəvələri Fariz, Dürdanə, Gülçöhrə və Vəfa





Şəkil № 160. Cəmil Əkbər,qız nəvəsi Elnur Azəroğlu



Şəkil № 161. *(soldan 1, 2,3)* Cəmil Əkbər, olu Zakir və İlqar.



## HÜQUQŞÜNAS ƏLİ İLQAR OĞLU İMAMVERDİ

Əli İlqaroğlu İmamverdi 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2000 ilində Bakı şəhər ibtidai məktəbdə, daha sonra Ərzurum ilk okulda təhsilini davam etdirdi. 2008-2012 illər arası "Çağdaş" bilgi okulunda litseyi tamamlayıb 2012 ilində "Qaziantep Universiteti"nin Hüquq Fakultəsində təhsilini davam etdirib 2021 ilində məzun oldu. 2021-2022-ci ildə Qaziantep şəhərində ixtisası üzrə hüquq sahəsində təcrübə keçməklə, Gaziantep və Kilis "7 Aralık Universiteti"ndə magistr təhsilini almaqdadır.

Sənətşünaslıq doktoru İlqar Cəmiloğlu ilə ortaq yazdıqları "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020)(türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020)(türkcə),*"Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020)(türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020)(türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020)(türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021)(türkcə),* "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər)(2021)(türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),*"Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),*"Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022)(türkcə),*"Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022)(türkcə),* "Rast dəramədləri və Rəngləri" *(2022)(türkcə),*"Muğam dəramədləri və rəngləri"*(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Gacar, Gatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı)(2022)(türkcə),* "Bayatı - Şiraz dəramədləri və rəngləri" *(2022)(türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022),* "Cahargah dəramədləri və rəngləri" *(2022)(türkcə)*"Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022)(türkcə),*I cild "Cəmil Əkbər –şeirlər" *(2022),*II cild "Cəmil Əkbər –şeirlər" *(2022),*III cild "Cəmil Əkbər –şeirlər" *(2022),*IV cild "Cəmil Əkbər –şeirlər"*(2022),* V cild "Cəmil Əkbər –şeirlər"*(2023),* VI cild "Cəmil Əkbər –şeirlər"*(2023),* VII cild "Cəmil Əkbər –şeirlər" *(2023)* isimli 26 kitabı Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmuşdur. Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə ***VIII cild "Cəmil Əkbər şeirlər"*** adlı kitabı, Hüquqşünas Əli İmamverdinin Azərbaycan ədəbi-filoloji elm sahəsində xalqımıza ərmağan etdiyi **27-ci** əsəridir.



## PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

İlqar Cəmiloğlu İMAMVERDİYEV 23 sentyabr 1956-cı ildə Azərbaycanın Gənçə şəhrində anadan oldu. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbini *(1967-1972),* Qənbər Hüseynli adına Orta İxtisas Müziqi Litseyini *(1972-1976)* və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası)*(1976 - 1981 ilində tar ixtisası üzrə)* fərqlənmə diplomaları ilə bitirdi. 1985 ilində Moskvada təşkil olunmuş Tələbə və Gənclərin XII Ümumdünya Festivalının diplomunu, 1986 ilində Orta Asiya və Zaqafqaziya dövlətləri arasında Şərq Alətləri üzrə Bakıda keçirilən Üzeyir Hacıbəyli adına I Beynəlxalq müsabiqəsinin laureatı adına layiq görüldü. Zaqafqaziya, Orta Asiya və Türkiyədə düzənlənən xalq musiqisi və folkloru sahəsində bir çox uluslararası kongreslərdə aktual mövzularla çıxış edərək, 200-dən artıq elmi məqalələri Azərbaycan və Türkiyə mətbuatında yayınlanmıştır. 1994 ilində Azərbaycan Respublikası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən “sənətşünaslıq namizədi” diplomunu *(EN № 0308, 2 Noyabr 1994 il tarixli Protokol № 54),* 2009 ilində sənətşünaslıq doktoru diplomunu *(ED № 01109, 8 May 2009 il tarixli Protokol № 8 –R),* - elmi ünvanlarını aldı. 1981 ilindən 2000 ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Xalq Çalgı Alətləri Kafedrası”nda, 2000–2006-ci illərdə Ərzurum Atatürk Üniversitetndə dosent vəzifəsində çalışdı. 2007-ci ilindən etibarən Gaziantep Üniversiteti Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2011-ci ildən etibarən həmin Ali Təhsil Qurumunun İdarə Heyətinin qərarı *(05.07-2011, № 14)* ilə professor vəzifəsində çalışmaqdadır. 2015 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı əsasında 2-ci Professorluq Diplomunu *(PR № 01432, 17 Aprel 2015 tarixli Protokol №* 07 *R)* almağa layiq görülən İlqar Cəmiloğlu İmamverdiyev bir çox mükafatlara layiq görüldü.

1. İstanbul Büyükşəhər Bələdiyəsi ilə Motif Vakfı işbirliyində təşkil olunmuş 21.Motif Xalq Bilim Ödülləri dəyərləndirmələri Ödül Təsbit Komissiyası tərəfindən düzənlənən “Halk Müziği Hizmet Ödülü”. 12 Aralık 2015
2. “Avrupa Nəşr Mətbuat Evi”nin “En Yaxşı Vətənsevər Tədqiqatçı Elm Adamı” Qızıl Medalı və Diplomu *(AZ - № 8032200126 )* Bakı – 2016.
3. İksad Yayınevinin “Onur ödülü” 2018, 2020.

Ötən illər ərzində İlqar Cəmil oğlu İmamverdiyev "Ansambl üçün pyeslər məcmuəsi" *(1997),* "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri” *(2004),* "Azərbaycanın 20 saz havası" adlı I, II *(2005)*və III cild *(2006),* "Azərbaycanın 40 saz havası" *(2006 ),*"Fortepiano müşayiətli saz əsərləri" *(2006),* "Fortepiano müşayiətli tar əsərləri" I, II cild *(2006),* "İran Türklərində aşıq toy mərasimləri" *(2006),* iki cilddən ibarət "Azərbaycan rəqs havaları"

*(2007),* üç cilddən ibarət "Azərbaycan muğam rəngləri və dəramədləri"*(2007, 2009),*"Azərbaycan və İran Türklərinin aşıq - ifaçılıq sənətinin qarşılıqlı əlaqələri" 1-ci nəşr *(2007),*2-ci nəşr *(2008),*"Aşıq Mikayıl Azaflının saz havaları" *(2008),* altı cilddən ibarət "Azərbaycan xalq mahnıları" *(2007, 2008, 2009),*"Azərbaycan muğam inciləri" *(2010),*"Məzəli əhvalatlar və gülməcələr" *(2010),* "Miskin Abdal ocağının el sənətkarları" 1-ci nəşr *(2011),*"Şirvan aşıqlarının saz havaları" *(2011),* "İran-Azərbaycan aşıqlarının 40 saz havası" *(2012),*"Koroğlu havaları" *(2012),* "Saz havaları antologiyası" *(2013),* "Azərbaycan instrumental xalq musiqi örnəkləri" *(2014),* "Vahid Əlioğlunun şeirlərinə bəstələnmiş musiqilər" *(2015),* "Miskin Abdal elinin saz - söz ustadları" 2-ci nəşr *(2017),* "Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları" *(2017),* "Azərbaycan musqisində Bahar mövzusu və Novruz motivlərinin izləri" *(2018),* "Bir millət, iki dövlət, Azərbaycan–Türkiyə" *(2018),*"Azərbaycan musiqi mədəniyyətində bayatılar – manilər" *(2019)(türkcə),* "Yaşayırsan ürəyimdə" *(2020),* eyni zamanda Əli İmamverdi ilə ortaq "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020)(türkcə),*"Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020)(türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),*"Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm)*(2020)(türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020)(türkcə),*"Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),*"Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021)(türkcə),*"Ürəyimin nəğmələri" *(2021),*"Aşıq Ələsgər - 200, Aşıq Ələsgərin poetik və musiqi dünyası" *(2021),* "Fortepiano müşayiətli instrumental tar əsərləri" *(2021),* Firuzə İmamverdi ilə ortaq yazdığı "İran Türklərində aşıq düyün gələnəyi" *(2021)(türkcə),*Əli İmamverdi ilə ortaq yazdığı "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər)(2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı–Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri"*(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Qacar, Qatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022)(türkcə),* "Bayatı-Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə),*"Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası"*(2022) (türkcə),* I cild "Cəmil Əkbər –şeirlər" *(2022),* II cild "Cəmil Əkbər –şeirlər" *(2022),* III cild "Cəmil Əkbər–şeirlər" *(2022),* IV cild "Cəmil Əkbər –şeirlər" *(2022),* V cild "Cəmil Əkbər –şeirlər" *(2023),* VI cild "Cəmil Əkbər–şeirlər" *(2023),* VII cild "Cəmil Əkbər–şeirlər" *(2023)* isimli yetmişinci kitabı nəşr edilməklə yanaşı*"Klassik saz havaları" (54 hava) adlı **SD** albomu (2015)* Azərbaycan, Türk mədəni-ədəbi, musiqi ictimaiyətinin faydalana bilməsi üçün təqdim olunmuşdur.

Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev fərqli illərdə **Azərbaycanda** *(Bakı 1979, 1980, 1999, Qazax 2022),* **Gürcüstanda** *(Tiflis 1981),* **Özbəkistanda** *(Daşkənd 1988, 1989),* **Rusyada** *(Moskva 1982, 1985, Sankt-Peterburq 1980),* **Qazaxıstanda***(Alma – ata 1992),* **Moldovada** *(Komrat - Qagauziya 2017),* **KKTC** (*Lefkoşa 2019),* və **Türkiyədə**: (*Ankara 2002, 2007, 2012, Qocaeli 2007, Şanlıurfa 2015, Edirnə 2016, Niydə 2017, İstanbul 2012, 2017, Nevşəhər 2017, 2018, Iğdır 2017, Sivas 2017, 2023, Diyarbakır 2017, Antalya 2018, Afyon 2018, Ardahan 2019, Əskişəhər 2019, Qaziantep 2019, 2021, Muqla 2021, İzmir 2022, Ərzincan 2022*) düzənlənən bir çox tədbirlərdə, mərasimlərdə folklor və xalq müsiqisi sahəsində beynəlxalq konqreslərdə, simpoziumlarda aktual mövzulardakı məqalələri ilə yanaşı həm də tarda və sazda professional ifaları ilə iştirak etmişdir. Sənətşünaslıq elmləri doktoru, professor İlgar İmamverdiyev fərqli illərdə **Azərbaycan** *(Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi),* **Rusiya** *(Moskva, Sankt-Peterburq),* **Qazaxıstan** *(Alma-ata),* **Özbəkistan** *(Daşkənd, Səmərqənd),* **İtaliya** *(Roma, Napoli, Kapri),* **İran** *(Təbriz, Urmiya),* **İrak** *(Bağdat, Babil),* **Türkiyə** *(Ankara, Ərzurum, Ağrı, Iğdır, Qars, Bayburt, Amasya, Osmaniyə, Şanlıurfa, Akçaabad, İstanbul, Bursa, İzmir, Hayvalık, Əskişəhər, Kırşəhər, Nevşəhər, Qaziantep, Adıyaman, Kozan)* vs. bir çox ölkələrdə təşkil olunmuş konsertlərdə iştirak edərək 70 –dən artıq fəxri fərman və plaketlərlə təltif olunmuşdur. Ötən illər ərzində Azərbaycan və Türkiyə televiziyalarında: "AzTV1", "İctimai TV", "TRT İnt", "TRT Gap", "25. kanal"da tar və saz aləti ilə fərqli konsertlərdə çıxış etmişdir. "Qaçaq Nəbi", "Papaq", "Bəyin oğurlanması", "Doğma sahillər" filmlərinin və Dədə Qorqud motifləri əsasında çəkilmiş "Səkrəyin dastanı" adlı cizgi filminin musiqisinin lentə yazılması üçün tar, saz, bağlama və ud alətində ifa etmişdir.

Pedaqoji sahədə 50 il ali təhsil qurumunda xidmət etmiş, iqtisadcı alim, şair təbiətli Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirilmiş ***VIII cild "Cəmil Əkbər şeirlər"*** kitabı Hüquqşünas Əli İmamverdinin **27-ci**, Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlunun Azərbaycan ədəbi-mədəni, filoloji elm sahəsində xalqımıza ərmağan etdiyi **71-ci** əsəridir.

İKSAD
Publishing House

ISBN: 978-625-367-261-4